

# HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ

ƏBƏDİDİR

*otuz doqquzuncu kitab*

*iyun, 2002 - iyul, 2002*

AZƏRNƏŞR
BAKI-2012

# HEYDƏR ƏLİYEV

*çıxışlar • nitqlər*

*bəyanatlar • müsahibələr*

*məktublar • məruzələr*

*müraciətlər • fərmanlar*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

AZƏRNƏŞR
BAKI-2012

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2012, 486 səh.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin oxuculara təqdim olunan çoxcildlik əsərlərinin 39-cu cildində «Xəzərneftqaz – 2002» IX Beynəlxalq sərgi-konfransdakı nitqi, Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin açılışındakı çıxışı, Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə, ATƏT–in Minsk qrupunun həmsədrləri, Azərbaycan diasporunun nümayəndələri ilə danışıqları, Dağlıq Qarabağ, Xəzər dənizinin statusu məsələlərinə aid ölkəmizin prinsipial mövqeyindən bəhs edən sənədlər verilmişdir.

Kitabda Ümummilli lider Heydər Əliyevin Naxçıvana səfəri zamanı «N» hərbi hissənin şəxsi heyəti və şəhər sakinləri ilə görüşlərdəki, Olimpiya İdman Kompleksinin, Bəhruz Kəngərli muzeyinin açılış mərasimlərindəki, Naxçıvan MR-nın Ali Məclisdə nitqi və çıxışları da öz əksini tapmışdır.

Bu cilddə, eyni zamanda, İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 10 illiyi ilə əlaqədar bu təşkilatın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə, Türkiyə prezidenti Əhməd Necdət Sezərlə, İstanbul, Ankara və Qarsda nüfuzlu dairələrin nümayəndələri ilə görüşlərdəki nitqləri, rəmzi olaraq «Üç dənizin əfsanəsi» (Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi) adlandırılan konfransda çıxışı və ayrı-ayrı dövlət və hökumət başçılarına ünvanladığı məktublar toplanmışdır.

**Ə 56 $\frac{0801000000}{M - 651(07)2012\ 08}$** **BBK-32**

© Azərnəşr, 2012

## «XƏZƏR NEFT-QAZ, NEFTAYIRMA VƏ NEFTKİMYASI–2002» IX BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi – ənənəvi «Xəzər neft-qaz, neftayırma və neftkimyası» beynəlxalq sərgi və konfransının iştirakçılarını – Azərbaycanın paytaxtı Bakı şəhərində böyük məmnuniyyət hissi ilə salamlayıram.

Əmin olduğumu bildirmək istəyirəm ki, sayca 9-cu dəfə ardıcıl şəkildə keçirilən bu gözəl tədbir Xəzər hövzəsinin neft və qaz yataqlarının dünya üçün nə dərəcədə əhəmiyyətli olduğunu yenə də bariz şəkildə nümayiş etdirəcək və bu təbii ehtiyatların birgə istismarında mühüm amil olacaqdır.

Bu gün biz qürur hissi ilə deyə bilərik ki, ildən-ilə genişlənən «Xəzərneftqaz» sərgi və konfransı artıq beynəlxalq aləmdə böyük marağa səbəb olmuşdur. Bunu sübut edən dəlillərdən biri odur ki, 1994-cü ildən bəri keçirilən tədbirlərdə 54 ölkədən 2100-dən artıq yerli və xarici şirkət iştirak etmişdir.

Enerji daşıyıcılarının hasilatı və nəqli sahəsindəki əməkdaşlığımız qarşılıqlı iqtisadi münasibətlərimizdə xüsusi yer tutur. «Əsrin müqaviləsi» imzalandıqdan sonra Xəzər dənizinin mineral ehtiyatlarından istifadə olunması sahəsində ciddi uğurlar əldə edilmiş, «Azəri», «Çıraq», «Günəşli» yataqlarının tammiqyaslı işlənilməsinə başlanmışdır. Bakı–Supsa və Bakı–Novorossiysk boru kəmərlərinin istifadəyə verilməsi, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri və Bakı–Tbilisi–

Ərzurum qaz kəmərləri layihələrinin reallaşması bu gün Şərq–Qərb enerji dəhlizi ideyasının birgə səylərimizlə gerçəkliyə çevrildiyini göstərməkdədir.

Ümidvaram ki, bu əməkdaşlıq regionun simasını dəyişdirəcək, onun sabitliyinə və iqtisadi rifahına xidmət edəcəkdir.

Hörmətli sərgi və konfrans iştirakçıları! Bir daha hamınıza xoş gəldiniz deyirəm! Sizə səmərəli iş, ölkələrinizə sülh, əmin-amanlıq arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 iyun 2002-ci il*

# «XƏZƏR NEFT-QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI – 2002» IX BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ* NİTQ

*Bakı idman konsert kompleksi*

*4 iyun 2002-ci il*

Hörmətli xanımlar və cənablar!

Sizi Bakı neft-qaz, neftayırma və neft kimyası IX Beynəlxalq sərgi və konfransının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm. Sərgi və konfrans iştirakçılarının hamısını səmimi-qəlbdən salamlayıram və sizə işlərinizdə uğurlar arzulayıram.

Bakı neft-qaz sərgisi ənənəvi xarakter alıbdır. Doqquz ildir ki, ardıcıl surətdə təşkil olunur. İldən-ilə yeni şirkətlərin, yeni ölkələrin nümayəndələri sərgidə iştirak etmək üçün Azərbaycana gəlirlər. Bunların hamısı Bakı neft-qaz beynəlxalq sərgisinin dünya miqyaslı bir sərgiyə – konfransa çevrildiyini əyani surətdə nümayiş etdirir.

Şübhə etmirəm ki, əvvəlki illərdə olduğu kimi, indiki sərgidə, konfransda da dünyanın 31 ölkəsindən Azərbaycana gəlmiş iştirakçılar səmərəli fikir mübadiləsi aparacaq, neft və

* Mərasimdə dünyanın 31 ölkəsindən 300-dən çox şirkət, o cümlədən Azərbaycan, Avstriya, Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Gürcüstan, Danimarka, İran, İsrail, İtaliya. Qazaxıstan, Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə, Yaponiya, Fransa və digər ölkələrin şirkətləri iştirak etmişdir.

qaz sənayesinin inkişafı üçün elmi nailiyyətlər və təcrübələrini bir-biri ilə bölüşəcəklər. Bakı beynəlxalq neft-qaz sərgisi bir daha dünyanın neft və qaz sənayesi sahəsində öz xidmətlərini göstərəcəkdir.

Bakıda belə bir sərginin keçirilməsi heç də təsadüfi deyildir. Bakı, Azərbaycan qədim neft diyarıdır. 150 il bundan öncə dünyada ilk dəfə Azərbaycanda sənaye üsulu ilə neft hasil olunmuşdur. Sonrakı onilliklərdə Azərbaycanın neft yataqları dünyanın böyük şirkətlərinin nəzər-diqqətini cəlb etmiş və XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı dünyada ən böyük neft hasil edilən bölgəyə çevrilmişdi.

Bu bizim keçmişimizdir. Amma indi, son illər aparılan işlər və Bakı neft-qaz sərgisinin 9-cu dəfə keçirilməsi Azərbaycanı müasir dünyada böyük neft mərkəzlərindən birinə çevirmişdir. Bunun əsası 1994-cü ildə qoyulmuşdur. O vaxt müstəqil Azərbaycan dövlətinin neft strategiyası irəliyə sürülmüş və onun həyata keçirilməsinə başlanılmışdı. 1994-cü ildə dünyanın bir çox neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkətinin imzaladığı, dünyaya bəyan etdiyi «Əsrin müqaviləsi» bu işin başlanğıcını qoymuşdur.

«Əsrin müqaviləsi»nin imzalanması dünya və xüsusən neft və qaz hasilatı ilə məşğul olan ölkələr, ümumiyyətlə, enerji ehtiyatlarına maraq göstərən ölkələr üçün mühüm hadisəyə çevrilmişdir.

Bəlkə də bu, möcüzə kimi qəbul olunmuşdu. O vaxt biz ciddi bir addım atdıq. Hələ Azərbaycan öz dövlət müstəqilliyinin möhkəmləndirilməsi ilə məşğul idi. Gənc, müstəqil Azərbaycan dövləti qarşısında böyük və çətin vəzifələr dururdu. Amma o vaxt, məhz 1994-cü ildə biz bu addımı atdıq. Buna inanmayanlar, bunu fantaziya hesab edənlər vardı. Bizim bu işimizə mane olmağa çalışanlar vardı. Dərhal dünyanın

bir çox mərkəzlərindən səslər gəldi ki, Xəzərin hüquqi statusu müəyyən olunmayana qədər dənizdə belə genişmiqyaslı iş görmək olmaz. Bizim bu işimizə etiraz etdilər. Ancaq biz atdığımız addıma çox inanırdıq və bununla bərabər, çox əzmlə hərəkət edirdik.

İndi bizim əldə etdiyimiz nailiyyətlər göz qabağındadır. «Əsrin müqaviləsi» imzalanandan üç il sonra – 1997-ci ildə biz «Çıraq» neft yatağından ilkin neft aldıq. Təbiidir ki, neft almaqdan öncə biz bu neftin dünya bazarına ixracı haqqında tədbirlər görmüşdük. Bakı–Novorossiysk ixrac kəməri tikilmişdi. Ona görə də 1997-ci ilin noyabr ayında «Çıraq» neft yatağında ilkin neftin hasil edilməsini biz böyük təntənə ilə qeyd edərkən, artıq həmin yataqdan alınan neft Novorossiysk limanında, Qara dənizdə tankerlərə vurulurdu.

Sonra biz işimizi daha da sürətlə davam etdirdik. 1999-cu ildə Qərb istiqamətində Bakı–Supsa neft ixrac kəmərini başa çatdırdıq, aprel ayında onun açılışını təntənə ilə qeyd etdik. O vaxt da artıq Bakı–Supsa neft kəməri neftlə dolu idi. Biz açılışı qeyd edərkən neft Gürcüstanın Supsa limanında tankerlərə doldurulurdu. Beləliklə, biz bu layihənin birinci hissəsini uğurla, bəzi hallarda vaxtından əvvəl yerinə yetirdik.

İndi artıq «Çıraq» neft yatağından ildə 5 milyon tondan artıq neft hasil edilir və həmin neft Bakı–Supsa neft kəməri ilə ixrac olunur.

Azərbaycan Dövlət Neft Şirkəti Xəzərin Azərbaycan sektorunda olan zəngin neft və qaz yataqlarının müştərək işlənilməsi üçün dünyanın bir çox neft şirkətləri ilə müqavilələr imzalamışdır. O yataqlarda da işlər davam edir.

1996-cı ildə, növbəti Bakı neft-qaz beynəlxalq sərgisindən sonra, iyun ayında biz *bp* və bir çox başqa şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz» yatağının müştərək

işlənilməsi haqqında müqavilə imzaladıq. 2000-ci ildə isə artıq orada quyular qazıldı, *bp* və onunla tərəfdaş olan neft şirkətləri Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə «Şahdəniz» yatağında böyük qaz ehtiyatlarının kəşf edilməsi haqqında bəyanat verdilər və bildirdilər ki, oradan bir trilyon kubmetrdən çox qaz hasil etmək olar. Təbiidir ki, bu minimumdur. Biz «Şahdəniz» yatağından hasil olunacaq qazın nəqli haqqında da düşündük.

«Azəri», «Çıraq», «Günəşli» neft yataqları haqqında imzalanmış müqaviləni həyata keçirərək, onun gələcək nəticələrini nəzərə alaraq, biz hələ 1994-cü ildən bu neftin dünya bazarlarına ixracı haqqında tədbirlər görməyə başladıq. O vaxt da və son illər ərzində də Bakı– Tbilisi– Ceyhan böyük neft ixrac kəmərinin tikilməsi barədə bizim qərarımız qəti idi.

İndiyə qədər dünyanın müxtəlif ölkələrində neft və qaz problemləri ilə məşğul olan mərkəzlərdə – təbii ki, bəzilərində – bir tərəfdən, bu neft kəmərinin də mümkün olmaması, ikinci tərəfdən, iqtisadi cəhətdən səmərəli olmaması haqqında fikirlər irəli sürülür. Bir də təkrar edirəm, həmin fikirlər ondan ibarətdir ki, bu kəmər iqtisadi cəhətdən səmərəli deyil, bu mümkün deyil, bu kəmərin təhlükəsizliyini təmin etmək mümkün deyildir və sair. Ancaq bunların heç biri bizi tutduğumuz yoldan çəkindirmədi. Çünki biz inanırdıq ki, təkcə «Azəri», «Çıraq», «Günəşli» yataqlarından yox, Xəzərin Azərbaycan sektorunda olan digər yataqlardan və hətta Xəzərin başqa bölgələrindəki, yəni digər Xəzəryanı ölkələrə mənsub olan yataqlardan da neftin dünya bazarına ixrac edilməsinin ən əlverişli yolu Bakı– Tbilisi – Ceyhan böyük neft ixrac kəməridir. Biz öz qərarımızda qəti idik. Ona görə də 1998-ci ildə Ankarada Bakı – Tbilisi– Ceyhan neft kəmərinin inşa edilməsi haqqında saziş imzalandı. Sonra əməli işlər görüldü.

1999-cu ildə ATƏT-in İstanbul sammiti keçirilən zaman Bakı– Tbilisi– Ceyhan böyük neft ixrac kəmərinin tam həyata keçirilməsi ilə əlaqədar Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstanın dövlət başçıları böyük bir saziş imzaladılar. Bu saziş Amerika Birləşmiş Ştatlarının himayəsi altında imzalandı və ABŞ prezidenti Bill Klinton da buna öz imzasını atdı. Ondan sonra əməli iş davam edir. Biz artıq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşa edilməsi ərəfəsindəyik.

«Şahdəniz» yatağından hasil olunacaq qazın ixrac olunması üçün ötən ilin mart ayında Türkiyə Cümhuriyyəti ilə saziş imzalamışıq.

Təbiidir ki, həm Bakı–Tbilisi–Ceyhan neft kəməri, həm də Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri Gürcüstanın iştirakı ilə yaranıb və həyata keçiriləcəkdir.

Beləliklə, biz hasil olunacaq neft və qazın ixracının təmin edilməsi haqqında öncədən düşünmüşük, onları həyata keçiririk.

Biz bütün bu işlərimizlə Xəzər dənizinin böyük neft və qaz ehtiyatlarını dünyaya açmışıq.

Xəzər dənizinin Azərbaycan sektorunda zəngin neft-qaz yataqlarının olması haqqında məlumatlar yetərli qədərdir. Bildiyimiz kimi, Azərbaycan hələ 50 il bundan öncə əfsanəvi Neft Daşlarında, sahildən 100 kilometr uzaqda suyun dərinliklərindən neft və qaz hasil etməyə başlamışdır. Buna görə də bizim bu barədə istənilən qədər təcrübəmiz, böyük elmi potensialımız vardır. Azərbaycan müstəqil dövlət olandan sonra biz bu işləri həm özümüz üçün daha geniş miqyasda həyata keçirməyə başlamışıq, həm də Xəzər dənizinin böyük imkanlarını dünyaya açmışıq. Bu da Xəzər dənizinə dünyada, xüsusilə Qərbdə – Amerika Birləşmiş Ştatlarında, Avropada, habelə Asiya ölkələrində böyük maraq oyatmışdır.

Xəzər dənizi, Xəzər hövzəsi indi dünyanın ən zəngin neft və qaz yataqlarına malik olan bir bölgə kimi tanınmışdır. Buna görə də Xəzəryanı ölkələr son illər öz sahillərində, öz sektorlarında neft və qaz hasilatı ilə məşğul olmağa başlamışlar. Bu işin çox böyük gələcəyinə, perspektivlərinə inanırlar.

Suyun dərinliklərində neft quyuları qazmaq, neft hasil etmək asan iş deyildir. Vaxtilə biz Azərbaycanda suyun təxminən 120–150 metr dərinliyində quyular qaza bilirdik. Ancaq eyni zamanda bilirdik ki, Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının çox hissəsi dənizin dərin hissələrindədir. Ona görə də müasir texnika və texnologiyaya malik qazma qurğuları lazım idi. Biz bu işə 1970-ci illərin əvvəllərində başladıq. Bakıda belə qurğuların hazırlanması üçün Dərin Özüllər zavodu tikildi. O indi də öz xidmətini göstərir. Ancaq bu, müasir texnika və texnologiyaya cavab verə bilmir. Ötən illərdə neft strategiyamızın həyata keçirilməsi, «Azəri», «Çıraq», «Günəşli» yataqlarının işlənilməsi ilə əlaqədar işlərin görülməsi üçün Xəzər dənizində müasir texnika və texnologiyaya malik olan, suyun böyük dərinliklərində qazma işləri aparan qurğular yaradılmışdır – «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» qazma qurğuları… Mən başqa rəqəmlər gətirmək istəmirəm. Ancaq onu demək istəyirəm ki, bu üç qazma qurğusunun yaranmasına 450 milyon dollardan artıq vəsait sərf olunubdur. Bunlar indi Xəzər dənizində yeganə qurğulardır ki, suyun böyük dərinliklərində – 1000 metr dərinlikdə qazma işləri apara bilir və aparır. Başqa Xəzəryanı ölkələrin burada belə qurğuları yoxdur. İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni *bp*-nin başçılıq etdiyi konsorsium yeni bir böyük qazma qurğusu hazırlayır. O, 2003-cü ildə istismara veriləcəkdir.

«Əsrin müqaviləsi»nin həyata keçirilməsi bizə böyük uğurlar gətiribdir. Biz bu layihədə nəzərdə tutduğumuzdan da üstün göstəricilərin meydana çıxmasını görürük. İndi «Azəri», «Çıraq», «Günəşli» yataqlarının tammiqyaslı işlənilməsinin birinci fazasına başlanır. Sonra ikinci, üçüncü fazalar olacaqdır. Qarşıdakı 5-6 ildə təkcə bu yataqlardan 40 milyon, daha sonra 50 milyon ton neft hasil ediləcəkdir. Bu bilavasitə Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir. Azərbaycanın dövlət neft strategiyasının nə qədər böyük əhəmiyyətə malik olduğunu, elmi cəhətdən nə qədər əsaslı olduğunu göstərir. Azərbaycanın dövlət neft strategiyası bundan sonra da öz müsbət nəticələrini verəcəkdir.

Ölkəmizdə gördüyümüz bu işlər, dediyim kimi, dövlət müstəqilliyimiz sayəsində mümkün olmuşdur. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulmasının nəticəsidir. Azərbaycanda demokratik dəyərlərin, bazar iqtisadiyyatının bərqərar olunmasının nəticəsidir. Biz bunları, təbiidir ki, ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi üçün, xalqımızın rifah halının yaxşılaşdırılması, müsəqil Azərbaycan dövlətinin iqtisadi cəhətdən daha da qüdrətli olması üçün edirik. Biz bu yolumuzu bütün istiqamətlərdə davam etdirəcəyik.

Eyni zamanda, bizim bu fəaliyyətimiz beynəlxalq xarakter daşıyır.

Çünki bu işləri biz öz xalqımız, millətimiz, öz ölkəmiz üçün görməklə yanaşı, bu işlərə dünyanın böyük neft şirkətlərini qoşmuşuq. İndi təkcə birinci layihədə – «Əsrin müqaviləsi»ndə 400-dən artıq xarici şirkət fəaliyyət göstərir. Bu da dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri ilə Azərbaycanın əlaqələrini genişləndirir, möhkəmləndirir. Azərbaycana xarici sərmayənin güclü axınını təmin edir. Azərbaycanla Avropa

ölkələri, Amerika Birləşmiş Ştatları arasında əlaqələrin bütün sahələrdə inkişafını təmin edir.

Eyni zamanda, bizim bu layihələr – həm neft və qaz hasilatı ilə əlaqədar olan layihələr, həm Bakı–Tbilisi–Ceyhan böyük neft ixracı kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri bölgəmizdə təhlükəsizliyin təmin olunmasına yardım göstərir. Həm də bölgəmizdə iqtisadi əlaqələrin inkişafı üçün böyük imkanlar yaradır. Bax, bunlar Azərbaycan dövlətinin müstəqillik əldə edəndən sonra həyata keçirdiyi neft strategiyasının nəticəsidir. Bunlar Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir. Azərbaycanın dünyanın bir çox ölkələri ilə, çox böyük və çoxsaylı şirkətləri ilə iqtisadi əlaqələrini yaradan və təmin edən amillərdir.

Bütün bunlar 9-cu dəfə Azərbaycanda keçirilən Bakı beynəlxalq neft-qaz sərgisində də öz əksini tapır. Hesab edirəm ki, Azərbaycanda hər il belə sərginin keçirilməsi onun hər bir iştirakçısı üçün faydalıdır. Eyni zamanda bu bizim üçün, Azərbaycan üçün faydalıdır.

Burada nümayiş etdirilən eksponatlar, konfransda aparılan müzakirələr – bunların hamısı sərginin iştirakçıları üçün çox fayda gətirir və gətirəcəkdir.

Mən inanıram ki, Bakı beynəlxalq neft-qaz sərgisi bundan sonra da hər il keçiriləcəkdir. Gələn il biz sizinlə birlikdə bu sərginin onilliyini qeyd edəcəyik. Yenə də buraya toplaşacağıq. İnanıram ki, Xəzəryanı ölkələrin Xəzər hövzəsində neft və qaz hasilatı ilə əlaqədar bundan sonra görəcəyi işlər, Azərbaycanın dövlət neft strategiyasının daha da geniş miqyasda həyata keçirilməsi Bakı beynəlxalq neft-qaz sərgisini gələcəkdə daha da zənginləşdirəcəkdir.

Mən bu sərgini təşkil edənlərə – Spirhed Eksibişnz şirkətinə, Azərbaycan Ticarət və Sənaye Palatasına təşəkkürümü

bildirirəm. Sərgidə, konfransda iştirak edən, uzaq məsafələri qət edərək buraya gələn Azərbaycanın bütün qonaqlarını bir daha salamlayıram. Hamınızı bu sərginin işə başlaması münasibətilə təbirik edirəm. Hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev açılış mərasimindən sonra sərgiyə baxdı. Dövlətimizin başçısı əvvəlcə ARDNŞ-ın ekspozisiyası ilə tanış oldu. Şirkətin vitse-prezidenti Xoşbəxt Yusifzadə stendləri göstərərək dedi ki, 1996-cı ildən başlayaraq Azərbaycanda neft hasilatı sabitləşib və bu, müsbət amildir. Xarici şirkətlərlə birlikdə neft hasilatı isə ildən-ilə artır. Birgə işdən götürülən mənfəət artır və Azərbaycan bonuslar şəklində və xam neft satışından 1 milyard 200 milyon dollardan çox gəlir əldə etmişdir. ARDNŞ-ın vitse-prezidenti vurğuladı ki, neft müqavilələrinin həyata keçirilməyə başlandığı vaxtdan bəri hasilatın səmərəliliyi 16 dəfə yüksəlmişdir. Əgər 1986–90-cı illərdə hər quyunun orta məhsuldarlığı 60 faiz idisə, son illərdə 73 faizə çatmışdır və bu fakt kəşfiyyat işlərinin keyfiyyətinin yaxşılaşdığını göstərir.*

*Ölkə prezidentinə Xəzərin Azərbaycan sektorundakı yataqların və neft boru kəmərlərinin təsvir olunduğu maket nümayiş etdirildi. Dənizin ekologiyasını yaxşılaşdırmaq üçün görülən tədbirlər barədə məlumat verildi.*

*Sonra ABƏŞ-in başçısı, bp şirkətinin Bakı nümayəndəliyinin rəhbəri Devid Vudvord prezident Heydər Əliyevə «Azəri» yatağında görüləcək işlər, Səngəçal terminalının genişləndiriləcəyi barədə məlumat verdi. Devid Vudvord «Şahdəniz» layihəsinin gerçəkləşdirilməsindən danışaraq dedi ki, 2005-ci ildə yeni plat-*

*forma istifadəyə veriləcəkdir. Yaxın vaxtlarda şirkətin tərəfdaşları tikintinin başlanma vaxtını müəyyənləşdirmək haqqında qərar qəbul etməlidirlər. Dövlətimizin başçısına Faza-1 çərçivəsində Səngəçal terminalında tikinti işlərinin gedişi barədə məlumat verildi və bildirildi ki, bu işlərə Azərbaycanın 2 min nəfərdən çox vətəndaşı cəlb olunmuşdur.*

*«Şell», «Statoyl», «İtoçi» şirkətlərinin ekspozisiyalarına baxış zamanı Azərbaycan prezidentinə onların birgə layihələrdə iştirakı haqqında məlumat verildi. «LUKoyl»un nümayəndəsi isə bu şirkətin Azərbaycandakı fəaliyyəti barədə prezident Heydər Əliyevə məlumat verərək dedi ki, Xəzərin Azərbaycan sektorunda hasilat zamanı toplanmış təcrübə «LUKoyl»a dünyanın başqa hissələrində də bu cür işlərə başlamaqda kömək edəcəkdir.*

*«Türkiyə Petrolları Anonim Ortaqlığı»nın ekspozisiyasına baxış zamanı dövlətimizin başçısı bu ölkənin Enerji və Təbii Qaynaqlar naziri Zəki Çakan ilə görüşdü. Nazir Bakı– Tbilisi – Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru kəmərlərinin çəkilməsi üzrə podrat işlərində iştirak etmək istəyən «Botaş» şirkətinin fəaliyyəti barədə Azərbaycan prezidentinə məlumat verdi. Həmin marşrutların seçilməsini dəstəklədiyinə görə dövlətimizin başçısına təşəkkür edən Zəki Çakan əmin olduğunu bildirdi ki, neft və qaz kəmərlərinin tikintisi nəzərdə tutulan müddətdə başa çatdırılacaqdır.*

*Los-Anceles şəhərində çıxan «Azərbaycan İntenyşnl» jurnalının redaktoru xanım Betti Bleyr sərgiyə baxış zamanı Azərbaycan prezidentinə məlumat verdi ki, bu nəşr dünyanın 47 ölkəsində yayılır. O, jurnalın son nömrələrindən birini prezident Heydər Əliyevə təqdim etdi.*

*Sərgi ilə tanışlıq zamanı dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.*

## NORVEÇ KRALLIĞININ NEFT SƏNAYESİ VƏ ENERGETİKA ÜZRƏ DÖVLƏT KATİBİ XANIM BRİT SKELBRED VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2002-ci il*

*Qonaqları mehribanlıqla salamlayan Azərbaycan prezidenti Heydər Əliyev Norveçin Baş naziri, neft nazirləri ilə vaxtilə keçirdiyi görüşləri xatırladı, «Statoyl» şirkətinin Azərbaycanda on ildir fəaliyyət göstərdiyini bildirərək dedi ki, biz artıq bir-birimizlə yaxınlaşmışıq və hətta qohum olmuşuq. «Statoyl»un işindən razıyıq. Güman edirəm, «Statoyl» da bizdən razıdır. Deməli, müştərək işlərimiz yaxşı gedir.*

*Vaxt ayırıb onları qəbul etdiyinə görə respublikamızın rəhbərinə dərin minnətdarlığını bildirən xanım Brit Skelbred prezident Heydər Əliyevin sərginin açılışındakı çıxışından məmnun qaldığını söylədi, Azərbaycan ilə Norveç arasında çox möhkəm və yaxşı əlaqələr yarandığını, bu səfərin əlaqələrimizin daha da möhkəmlənməsinə yardım edəcəyini vurğuladı.*

*Ölkəmizə xüsusi hörmətlə yanaşdığını, xalqlarımız arasında oxşar cəhətlərin çox olduğunu deyən qonaq neft sahəsində Norveçin Azərbaycana nisbətən çox gənc ölkə olduğunu bildirdi, prezident Heydər Əliyev ilə görüşlərini xatırladı, «Statoyl»un Azərbaycanda təkcə neft sahəsində deyil, eyni zamanda*

*humanitar, mədəni və digər sahələrdə də işləmək arzusunu açıqladı.*

*Prezident Heydər Əliyev dedi ki, həqiqətən, «Statoyl» Azərbaycanda çox dəyərli fəaliyyət göstərir. Norveç neft hasilatı sahəsində Azərbaycana nisbətən gənc ölkə olsa da, əldə etdiyi nailiyyətlər çox böyükdür. Otuz il ərzində sizin ölkəniz, xüsusən «Statoyl» neft-qaz hasilatı sahəsində çox böyük uğurlar qazanıb, siz yüksək texnikadan və texnologiyadan çox səmərəli istifadə etmisiniz və edirsiniz. Ona görə sizin bu sahədəki təcrübəniz bizim üçün çox əhəmiyyətlidir. Sizinlə müştərək iş görərkən bu təcrübədən istifadə edirik.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda Norveçin bir çox başqa şirkətləri də uğurla fəaliyyət göstərir. «Statoyl»un planları bizə məlumdur və bunları alqışlayırıq. Çünki «Statoyl» burada daha çox iş görmək istəyir. Güman edirəm, bu şirkət öz tərəfdaşları ilə birlikdə bu məsələləri həll edəcək və istədiyinə nail olacaqdır. Onun Bakı–Tbilisi–Ceyhan layihəsində iştirakı da çox əhəmiyyətlidir. Beləliklə, bizim indiyə qədər əməkdaşlığımız çox uğurludur. Bizim hansısa bir narazılığımız yoxdur, əksinə, razıyıq və əməkdaşlığımızı davam etdirəcəyik.*

*Xanım Brit Skelbred məqsədlərin eyni olduğunu söyləyərək, Norveç şirkətlərinin Bakıda müxtəlif sahələrdəki xeyriyyəçilik işlərindən də danışdı və dedi ki, cənab Prezident, bizim qədim əlaqələrimiz vardır və bu, Tur Heyerdalın əsərlərində öz əksini tapmışdır.*

*Prezident Heydər Əliyev vurğuladı ki, Azərbaycanda, o cümlədən onda Norveç xalqına xüsusi məhəbbət vardır. Bu da həm dövlətlərarası, həm də iqtisadi əlaqələrimizdə çox böyük rol oynayır. Mərhum Tur Heyerdal bu barədə çox böyük işlər görmüşdür. O çox böyük səyyah idi, dünyanın çox yerlərini gəzmiş, öyrənmişdi, amma öz axtarışlarında, tədqiqatlarında Azərbaycana xüsusi*

*yer verirdi. Azərbaycana hələ 1970-ci illərdə gəlmişdi və burada çox böyük işlər görmüşdü. Biz onun fəaliyyətini çox yüksək qiymətləndiririk. Mən şəxsən onunla dost idim. Onun vəfatı məni çox kədərləndirdi. Ancaq o, böyük iz qoyub gedibdir. Onun dediyinə görə, biz qədim qohumuq və norveçlilər indiki öz məkanlarına buradan, Azərbaycandan gediblər. Hər halda, bunu təkzib edən yoxdur.*

*Prezident Heydər Əliyevin fikirlərini dəstəkləyən qonaq dedi ki, bu nəzəriyyə bizi bir-birimizə daha da yaxınlaşdırır. Biz bu qədim əlaqələrdən istifadə edərək, cəmiyyətimizi inkişaf etdirməliyik.*

*Sonra xanım Brit Skelbred və Norveçin Bakıdakı səfiri Steyinar Gil prezident Heydər Əliyevə xatirə hədiyyəsi və Tur Heyerdalın vaxtilə Şəkinin Kiş kəndində çəkdirdiyi şəkli təqdim etdilər.*

*Azərbaycan prezidenti hədiyyələrə görə təşəkkürünü bildirdi, Norveçin dövlət və hökumət rəhbərlərinə onun salamını çatdırmağı xahiş etdi.*

# İTALİYANIN ENERGETİKA, SƏNAYE VƏ İSTEHSAL NAZİRİNİN MÜAVİNİ MARİO VALDUÇÇİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2002-ci il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev Bakıda keçirilən beynəlxalq neft-qaz sərgisinə İtaliya hökumətinin münasibətinin diqqətəlayiq olduğunu vurğuladı, «Eni» şirkəti ilə yaxşı əməkdaşlığın davam etməsini və bu şirkətin Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşasına qoşulmasını yüksək qiymətləndirdi. Böyük gələcəyə malik bu layihədə iştirakın düzgün qərar olduğunu bildirən prezident Heydər Əliyev İtaliya ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələrindən də söhbət açaraq dedi ki, biz bu əlaqələrə xüsusi əhəmiyyət veririk və daha da genişlənməsini istəyirik.*

*Səmimi qəbula görə respublikamızın rəhbərinə təşəkkür edən cənab Mario Valduççi prezident Heydər Əliyevə İtaliyanın Baş naziri cənab Berluskoninin xoş arzularını və sərgi münasibətilə təbriklərini yetirərək bildirdi ki, İtaliya hökuməti Azərbaycanla həm iqtisadi, həm də siyasi sahədə əlaqələri möhkəmləndirmək, genişləndirmək fikrindədir.*

*Qonaq «Eni» şirkətinin ARDNŞ ilə yaxşı əlaqələr qurduğunu vurğuladı, bu şirkətin Bakı–Tbilisi–Ceyhan layihəsinə qoşulmasını təqdirəlayiq hal kimi dəyərləndirdi. Bakıda İqtisadi*

*İnkişaf naziri ilə keçirdiyi görüşü xatırladan qonaq dedi ki, İtaliyanın iqtisadi modelini, yəni kiçik və orta biznesin fəaliyyətinə əsaslanan modeli öyrənmək məqsədi ilə nazir Fərhad Əliyev İtaliyaya gələcək və orada sənəd imzalanacaqdır. Azərbaycan təbii-coğrafi şəraitinə görə digər qonşu ölkələrə bənzəmir. Ona görə burada iqtisadiyyatın daha da inkişafı üçün real imkanlar var və kənd təsərrüfatı sahəsində böyük təcrübəyə malik ölkə kimi, İtaliyanın şirkətləri bu işdə yardımçı ola bilərlər. İtaliya şirkətləri üçün yaxşı şərait yaradılarsa, onlar Uzaq Şərqə getməkdənsə, Azərbaycanı üstün tutub burada işləyərlər.*

*Prezident Heydər Əliyev qonağın fikri ilə razılaşaraq vurğuladı ki, kiçik və orta biznesin inkişaf etdirilməsi Azərbaycan üçün ən düzgün, doğru yoldur. Bu baxımdan İtaliyanın iqtisadi modeli bizim üçün çox uyğundur. Azərbaycanın kənd təsərrüfatı, iqtisadiyyatın başqa sahələri İtaliyadakına bənzərdir, yaxındır. Buna görə də İtaliya modelinin Azərbaycanda tətbiq olunması, hesab edirəm, çox zəruridir və siz bunu tamamilə düz buyurursunuz. Bizim İqtisadi İnkişaf nazirinin İtaliyaya səfəri olacaqsa, sizinlə əməkdaşlıq haqqında saziş imzalaya bilərik. Mən çox şad olardım ki, İtaliyanın kiçik və orta biznes nümayəndələri Azərbaycana gəlsinlər, fəaliyyət göstərsinlər və İtaliya modelinin tətbiqinə yardım etsinlər. Belə olanda onların Uzaq Şərqə getməsinə ehtiyac yoxdur.*

*Dövlətimizin başçısı dedi ki, ölkələrimizin iqlimi də, insanların bəzi xüsusiyyətləri də bir-birinə bənzərdir. Siz bu modeli bizə çox inamla təklif edirsiniz. Mən bu modeli qiymətləndirirəm. Əgər onun Azərbaycanda tətbiqi mümkündürsə, bu bizim üçün çox böyük hadisə olacaqdır. Neft-qaz sektorunda əməkdaşlığımız var və bunu genişləndirmək də mümkündür. Həm «Eni», həm də o qrupa daxil olan başqaları çox etibarlı şirkətlərdir.*

# BÖYÜK BRİTANİYANIN ENERGETİKA VƏ SƏNAYE NAZİRİ BRAYAN UİLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, ötən gün açılışında onların da iştirak etdikləri IX beynəlxalq neft-qaz sərgi və konfransının çox faydalı olduğunu vurğuladı.*

*Səmimi qəbul üçün prezident Heydər Əliyevə təşəkkürünü bildirən cənab Brayan Uilson dedi ki, ikinci dəfədir Azərbaycandayam və buradan çox xoşum gəlir. Bu dəfə ölkənizin sənayesinin yeni inkişaf mərhələsi dövründə buradayam. Birləşmiş Krallıq Azərbaycanın sənayesinin inkişafında yaxından iştirak edir və ikitərəfli əlaqələrimizin genişlənməsində maraqlıdır.*

*Prezident Heydər Əliyev qonağın fikrini təsdiq edərək bildirdi ki, Böyük Britaniyanın bp şirkəti Azərbaycanın neft-qaz sektorunda ən görkəmli yer tutur, üzərinə düşən vəzifələri uğurla həyata keçirir. Mən onun fəaliyyətindən razıyam. Ümidvaram ki, bu şirkəti bundan sonra da belə fəaliyyət göstərəcəkdir, çünki gələcəkdə görüləsi işlərimiz çoxdur.*

*İndi bp və onunla bərabər konsorsiuma daxil olan şirkətlər üçün yeni, çox böyük mərhələ başlanıbdır. «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının tammiqyaslı işlənilməsinin birinci*

*fazası həyata keçirilir. Bununla yanaşı, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikintisinə başlanır. Bu layihədə bp-nin 34 faiz payı var. O, «Şahdəniz» layihəsində də aparıcı şirkətdir.*

*Dövlətimizin başçısı xatırlatdı ki, Böyük Britaniyanın Azərbaycanda fəaliyyət göstərən 100-dən artıq şirkətinin əksəriyyəti neft-qaz sektorunda və başqa sektorlarda işləyir. Azərbaycan prezidenti ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında əməkdaşlığımız bundan sonra da genişlənəcək və yaxşı nəticələr verəcəkdir.*

*Brayan Uilson Britaniyanın qaz ixrac edən ölkədən qaz idxal edən ölkəyə çevriləcəyini söyləyərək dedi ki, ona görə də biz Avropaya qazın bu regiondan gətirilməsində maraqlıyıq.*

*Prezident Heydər Əliyev Bakıda keçirilən sərgi və konfransda iştirakına görə nazirə təşəkkürünü bildirdi, Böyük Britaniyanın Baş naziri Toni Bleyrə salamını yetirməyi xahiş etdi, Kraliçanın taxt-taca çıxmasının 50 illiyi münasibətilə qonaqları təbrik etdi.*

# TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ QAYNAQLAR NAZİRİ ZƏKİ ÇAKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2002-ci il*

*Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev Bakıda keçirilən növbəti neft-qaz sərgisini böyük hadisə kimi qiymətləndirərək vurğuladı ki, indi Azərbaycan dünyanın böyük neft mərkəzlərindən birinə çevrilib və biz buna dövlət müstəqilliyini əldə edəndən sonra qısa müddətdə nail ola bilmişik. Azərbaycan 1994-cü ildə əsası qoyulmuş yeni neft strategiyasını həyata keçirməyə başlayandan Türkiyə ölkəmizlə bu sahədə əməkdaşlıq edir. Çıxarılan neftin Türkiyə vasitəsilə dünya bazarlarına çatdırılması işi ilə o vaxtdan məşğuluq və indi layihə uğurla həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri artıq reallaşıbdır və bu yaxın günlərdə onun inşasına başlayacağıq.*

*Respublikamızın rəhbəri 1996-cı ildə «Şahdəniz» yatağı haqqında müqavilə imzalandığını xatırladaraq dedi ki, bu yataqda ən azı bir trilyon kubmetr qaz var. Oradan çıxarılacaq qazın nəqlinə dair Türkiyə ilə saziş imzalanıb və indi həyata keçirilir. Bunlar hamısı Türkiyə–Azərbaycan iqtisadi əməkdaşlığını, ümumiyyətlə, ölkələrimiz arasında bütün sahələrdə əlaqələri inkişaf etdirməkdən ötrüdür. Biz Türkiyə ilə dostluğumuz,*

*əməkdaşlığımız baxımından üzərimizə düşən öhdəlikləri yerinə yetiririk.*

*Səmimi qəbula görə təşəkkür edən nazir Zəki Çakan beynəlxalq neft-qaz sərgisində iştirakından və prezident Heydər Əliyevlə yenidən görüşməsindən böyük şərəf duyduğunu söyləyərək dedi ki, Sizin ölkələrimiz arasındakı əlaqələrin yaranmasında və inkişafındakı əməyinizi Türkiyə dövləti heç vaxt unutmayacaqdır. Sizin rəhbərliyinizlə Azərbaycan qısa bir müddətdə nüfuzlu ölkəyə çevrilmişdir. Azərbaycanda sabitliyin yaranmasında və ölkənin inkişafındakı rolunuz bütün dünya tərəfindən təqdir edilməkdədir.*

*Türkiyə iş adamlarının və şirkətlərinin ölkəmizdəki fəaliyyətindən, Azərbaycanın yeni neft və qaz strategiyasının əhəmiyyətindən söhbət açan nazir vurğuladı ki, Bakı–Tbilisi–Ceyhan layihəsi əsrin layihəsidir. Azərbaycan prezidentinin möhkəm iradəsinin nəticəsi olan bu layihənin gerçəkləşməsi yolunda heç bir problem yoxdur və olmayacaqdır.*

*Qəbulda iştirak edən Türkiyə Böyük Millət Məclisinin deputatı Şamil Ayrım prezident Heydər Əliyevə müraciətlə dedi ki, həm Azərbaycan üçün, həm də Türkiyə üçün son dərəcə vacib olan Bakı–Tbilisi–Ceyhan boru xətti layihəsinin həyata keçirilməsindən ötrü gördüyünüz nəhəng işlər bizi son dərəcə məmnun etmişdir. Sizə uzun ömür diləyirik. Sizin dəstəyinizlə Türkiyə–Azərbaycan əlaqələrinin daha da irəliyə gedəcəyinə inanırıq. Hər dəfə Azərbaycana gələrkən böyük dəyişikliklər, inkişaf görürük. İnşallah, Azərbaycanın rifahı daha da yüksələcəkdir.*

*Nazir Zəki Çakan bildirdi ki, Baş nazir Bülənd Eceviti Amerika Birləşmiş Ştatlarına səfərdə müşayiət edərkən vitse-prezident Dik Çeyniyə Bakı– Tbilisi – Ceyhan layihəsi ilə bağlı ətraflı məlumat vermişdir. Onlar layihənin son dərəcə əhəmiyyətli olduğunu və bunu gələcəkdə də dəstəkləyəcəklərini bildirirlər.*

# KOREYA RESPUBLİKASININ «SAMSUNQ ELEKTRONİKS» ŞİRKƏTİNİN MDB ÖLKƏLƏRİ VƏ BALTİKYANI ÖLKƏLƏR ÜZRƏ NÜMAYƏNDƏLİYİNİN PREZİDENTİ ÇJANQ ÇANQ DAK BAŞDA OLMAQLA BU ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq, dünyanın bu məşhur şirkətinin Azərbaycandakı fəaliyyətindən məmnun olduğunu bildirdi.*

*Cənab Dak şirkətin Azərbaycanda fəaliyyət göstərməsini özləri üçün böyük şərəf saydıqlarını vurğulayaraq dedi ki, biz «Samsunq elektroniks»in yeni məhsulunu – diaqonal üzrə ölçüsü 55 santimetr olan monitoru Azərbaycan prezidentinə təqdim etməkdən böyük sevinc duyuruq. Şirkət dünyada ən yaxşı sayılan bu məhsulu ölkəmizdə alıcılara yerli tərəfdaşı – «Azərbaycan elektronikası» ilə birlikdə təqdim edir. Cənab Dak bildirdi ki, eyni ilə bu cür monitor keçən il Rusiya prezidenti Vladimir Putinə də hədiyyə olunmuşdur.*

*Nümayəndəliyin başçısı nəzərə çatdırdı ki, Azərbaycan MDB ölkələri arasında özünün iqtisadi inkişaf perspektivləri ilə fərqlənir və «Samsunq elektroniks» respublikamızla əməkdaşlığı genişləndirmək istəyir. Bir neçə ildir ki, şirkət Azərbaycan-*

*da audio və videotexnika, informasiya sistemləri, mobil rabitə sahəsində səmərəli tərəfdaşlıq münasibətləri yaratmışdır.*

*Azərbaycan prezidenti «Samsunq elektroniks»in fəaliyyətindən danışaraq, yeni kompüter modellərinin və müasir texnologiyaların yaradılmasında şirkətin rolunu və bütün dünyada yüksək nüfuza malik olduğunu qeyd etdi. Prezident Heydər Əliyev dedi ki, şirkətin dünyanın bir çox ölkələrində böyük şöhrətə malik olan məhsulları tərəqqi işinə xidmət edir.*

*Şirkət Azərbaycanda öz fəaliyyətini genişləndirməlidir. Prezident şirkətə yeni uğurlar arzuladı və hədiyyə olunmuş monitora görə təşəkkürünü bildirdi.*

*«Azərbaycan elektronikası» şirkətinin prezidenti İqor Yakovenko dövlətimizin başçısına monitorun yeni modelinin imkanları barədə məlumat verdi, Azərbaycan prezidenti Heydər Əliyevin, habelə Milli Olimpiya Komitəsinin rəhbəri, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin fəaliyyətinə həsr olunmuş saytları nümayiş etdirdi.*

*Prezident Heydər Əliyev nümayəndə heyətinin üzvləri ilə xatirə şəkli çəkdirdi.*

# ABŞ PREZİDENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARININ İNKİŞAFI ÜZRƏ XÜSUSİ MÜŞAVİR SƏFİR STİVEN MƏNN BAŞDA OLMAQLA ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq onlarla yenidən görüşməyindən məmnun olduğunu, «Xəzər neft-qaz, neftayırma və neft kimyası» IX Beynəlxalq sərgi və konfransının gedişində çox faydalı işlər gördüklərini vurğuladı, Stiven Mənnin mətbuat nümayəndələrinə məlumatlar verməsini müsbət qiymətləndirdi.*

*Səmimi qəbul üçün təşəkkür edən səfir Stiven Mənn Bakıda keçirilən növbəti neft-qaz sərgisinin qeyri-adi tədbir olduğunu bildirərək dedi ki, bu bizim hamımızın uğuru idi. Üç həftə bundan əvvəl mən bu regiona gəlmişdim. Lakin Ağ ev məni yenidən buraya göndərdi ki, sərgidə iştirak edim. Cənab Prezident, səfir işlədiyim müddətdə mənə cəmi iki dəfə prezident Buşun məktubu verilmişdir ki, ünvanına çatdırım. Hər ikisi də prezident Buşun Siz zati-alilərinə ünvanlandığı məktublar olmuşdur. Bu məktublar vasitəsilə biz amerikalılar Sizə, ümumiyyətlə və eyni zamanda, Bakı–Ceyhan layihəsinin yerinə yetirilməsinə dəstəyinizə görə hörmətimizi bildiririk. Biz həm də minnətdarlı-*

*ğımızı bildiririk ki, Siz ölkələrimiz arasında münasibətlərin bu səviyyəyə çatmasına yardım etmisiniz.*

*Prezident Heydər Əliyev səfirə prezident cənab Buşun məktublarını gətirdiyinə görə təşəkkür edərək dedi ki, bu məktublar bizim ölkəmiz və dövlətimiz üçün çox əhəmiyyətlidir. IX Beynəlxalq sərgi və konfransın açılışında prezident Buşun məktubunu elan etməyiniz bir daha göstərdi ki, Amerika Birləşmiş Ştatları və onun prezidenti Xəzər hövzəsinə, burada neft-qaz yataqlarının işlənilməsinə, karbohidrogen ehtiyatlarının ixrac olunmasına nə qədər böyük əhəmiyyət verir.*

*Mən iyunun 4-də sərgi və konfransın açılışında Azərbaycanın dövlət neft strategiyasının başlanması və həyata keçirilməsi haqqında qısa məlumat verdim.*

*Deyə bilərəm ki, 1994-cü ildə biz neft strategiyasının həyata keçirilməsinə başlayarkən, «Əsrin müqaviləsi»ni imzalayarkən və ondan sonrakı bütün mərhələlərdə əvvəldən axıra qədər Amerika Birləşmiş Ştatları hökumətinin dəstəyini hiss etmişik.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac kəməri layihəsinin təsdiqlənməsi haqqında 1999-cu ildə İstanbulda bizim imzaladığımız sazişə Amerika Birləşmiş Ştatları prezidentinin də öz imzasını qoyması ABŞ hökumətinin bizim işlərimizə nə qədər böyük əhəmiyyət verdiyini göstərir. Prezident cənab Buşun iyun ayının 4-də sizin tərəfinizdən təqdim edilən məktubu çox məzmunlu, çox dəyərlidir, bizim sərginin və konfransın işinə çox gözəl təsir bağışlayıbdır. Ümumiyyətlə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac kəməri layihəsi ilə bağlı əməli işlərə başlayarkən ABŞ prezidentinin belə bir məktubu bizim üçün çox yaxşı dəstəkdir.*

*Dövlətimizin başçısı xatırlatdı ki, Moskvada prezidentlər Putin və Buşun görüşündə də Bakı–Tbilisi–Ceyhan ixrac kəmərinin müzakirə edilməsi, onların qəbul etdikləri sənəddə öz əksini tapması da göstərir ki, həqiqətən biz böyük dəstək almı-*

*şıq. Biz Xəzər dənizinin neft-qaz imkanlarından istifadə olunmasının yeni tarixini yaradırıq. Mən çox məmnunam ki, biz bu tarixi yaradanlardanıq. Bizim bu işlərin böyük gələcəyi var. Bu tarix bizdən sonra da yazılacaq, davam etdiriləcəkdir.*

*Cənab Stiven Mənn Azərbaycan prezidentinin fikirlərinə tamamilə şərik olduğunu bildirərək dedi ki, həqiqətən biz çox həyəcanlı bir tarix yaşayırıq, Bakı–Tbilisi–Ceyhan kəmərinin tikilməsi ərəfəsindəyik. Amerika Birləşmiş Ştatları həmişəki kimi, yenə bu fikirdədir ki, bu layihə qaz kəməri layihəsi ilə eyni vaxtda başa çatmalıdır. Azərbaycan hökumətinin həm layihələrə, həm də biz işçilərə dəstəyini həmişə hiss edirik.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ SANKT-PETERBURQA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*8 iyun 2002-ci il*

**Heydər Əliyev:** Salaməleyküm, sabahınız xeyir olsun. Mənim Sankt-Peterburqa səfərim sizə məlumdur, elan olunubdur. Mən yanvarda Moskvada səfərdə olduğum zaman Rusiya prezidenti Vladimir Putin təklif etdi ki, biz iyun ayının 9-da – gününü də o vaxt təyin etdi – görüşək, Nizami Gəncəvinin heykəlini birlikdə açaq. Mən bu təklifi qəbul etdim. İndi də prezident Putinin dəvəti ilə Sankt-Peterburqa yola düşürəm.

Məqsəd, birincisi, Nizami Gəncəvinin heykəlini təntənəli surətdə açmaqdır, ikincisi də, iki prezidentin – prezident Putinin və prezident Əliyevin görüşüdür, bizi maraqlandıran məsələlər haqqında fikir mübadiləsi, müzakirələr aparmaqdır.

Mən bu səfəri çox əhəmiyyətli hesab edirəm. Birincisi, ona görə ki, Azərbaycanın dahi şairi, filosofu, mütəfəkkiri Nizami Gəncəvinin Sankt-Peterburqda heykəlinin ucaldılması bizim xalqımız, millətimiz, ölkəmiz üçün çox böyük qiymətə layiq hadisədir.

Sankt-Peterburq adi şəhər deyil, onun yaşı az, 300 il olsa da, bütün mənalarda, o cümlədən memarlığına, monumental heykəltəraşlıq əsərlərinə görə, dünyada çox məşhur muzeylərinə, bu muzeylərdə dünyanın ən böyük sənət adamlarının əsərlərinin olmasına görə, bir də siyasi tarixinə görə çox zəngin ənənələri olan şəhərdir. Ona görə belə bir şəhərdə bizim şairimiz Nizami Gəncəvinin heykəlinin ucaldılması, təbiidir ki, qürur hissi doğurur.

İkincisi də ki, Rusiya prezidenti Putinlə görüşüb danışmaq həmişə faydalı olur. Hesab edirəm ki, bizim bu görüşümüz də faydalı olacaqdır. Hər görüşdə danışmaq, söhbət etmək, müzakirələr, fikir mübadiləsi aparmaq üçün çoxlu mövzular var. Ona görə ikimiz də bundan istifadə edəcəyik.

**S u a l: Cənab Prezident, Xəzərin statusu, koordinatların müəyyən edilməsi ilə bağlı sənəd nə üçün imzalanmayacaq, problemlərmi var?**

**C a v a b:** Heç bir problem yoxdur. Rusiya ilə bizim aramızda razılaşdırılmamış heç bir məsələ, problem yoxdur. Sadəcə 2-3 xırda məsələ vardı, amma vaxt itirildi. Onlarda xüsusi rejim var, məsələn, imzalanacaq sənəd müəyyən vaxta qədər hazırlanıb paraflanmayıbsa, həmin sənəd artıq konveyerdən çıxır. Ona görə də bu çıxdı. Güman edirəm ki, gələcəkdə münasib vaxtlarda bunu imzalayacağıq.

**S u a l: Cənab Prezident, Rusiya prezidenti ilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr aparılacaqmı? Rusiya mətbuatı bu barədə artıq məlumat yaymışdır.**

**C a v a b:** Təbiidir, aparılacaqdır. Bu bizim əsas mövzularımızdan biridir.

**S u a l: Hansı istiqamətlərdə aparılacaqdır?**

**C a v a b:** Bütün istiqamətlərdə.

**S u a l: Cənab Prezident, əgər mümkündürsə, Nardaran hadisələrinə münasibətinizi bildirərdiniz.**

**C a v a b:** Nardaran hadisələri ilə bizim hüquq-mühafizə orqanları məşğul olur. Bilirsiniz ki, indi Nardaranda da hər şey sakitdir. Onlar məşğul olub qurtaracaqlar, mənə məruzə edəcəklər. Ondan sonra mən münasibətimi bildirəcəyəm.

**S u a l: Cənab Prezident, Rusiyada yaşayan azərbaycanlıların xüsusi statusu ilə bağlı prezident Putinlə fikir mübadiləsi aparılacaqmı?**

**C a v a b:** Status haqqında bilmirəm, amma yəqin ki, mən Sankt-Peterburqda yaşayan azərbaycanlıların bir hissəsi ilə görüşəcəyəm.

**S u a l: Cənab Prezident, nardaranlıların ağsaqqalları çox xahiş etmişdilər ki, Sizinlə görüşsünlər. Siz onları qəbul edəcəksinizmi?**

**C a v a b:** Bilirsiniz, mən heç vaxt mənə edilən müraciətlərə laqeyd qalmıram.

**S u a l: Bu səfərinizdə Dağlıq Qarabağ probleminin həlli məsələsində Rusiyadan lazımi dəstək ala biləcəyikmi?**

**C a v a b:** Danışıqlar aparacağıq.

**S u a l: Cənab Prezident, Rusiyada Dövlət Duması Xəzəryanı ölkələrin parlamentlərinə müraciət edərək, Sahilyanı Dövlətlərin Parlament Assambleyasının yaradılması təşəbbüsünü irəli sürmüşdür…**

**C a v a b:** Ona bizim parlament baxacaqdır.

**S u a l: Cənab Prezident, Ermənistan prezidenti Robert Köçəryan bazar ertəsi «Ailə» kanalına müsahibəsində demişdir ki, yaxın vaxtlarda Sizinlə görüşəcək, xarici işlər nazirləri bu görüşün vaxtını dəqiqləşdirirlər. Onun dediyinə görə, hətta razılıq əldə olunubdur ki, danışıqların təfsilatı gizli saxlanılacaqdır. Bu ay ərzində danışıqları gözləmək olarmı? Hesab etmək olar-**

**mı ki, ictimaiyyətin bilmədiyi digər təkliflər müzakirə ediləcəkdir?**

**C a v a b:** Güman etmirəm ki, biz bu ay ərzində görüşək. Amma görüşəcəyik.

**S u a l: Cənab Prezident, Azərbaycanın işğal olunmuş ərazilərində antiterror əməliyyatları aparmaq lazımdırmı? Buna Sizin münasibətiniz necədir?**

**C a v a b:** Bilirsiniz, bu, əsassız fikirdir ki, beyninizə salmısınız. İşğal olunmuş torpaqlarda indi antiterror əməliyyatı aparmaq, müharibəni başlamaq deməkdir, axı bilmədiyiniz şeyləri niyə deyirsiniz?

**S u a l: Bəs Avropa Birliyinin dörd rayonla bağlı təklifi necə, müzakirə obyekti ola bilərmi?**

**C a v a b:** Onların belə təklifi yoxdur, belə bir söhbət var.

**S u a l: Cənab Prezident, danışıqlar zamanı Ayaz Mütəllibovun Azərbaycana ekstradisiyası məsələsinə toxunulacaqmı? Çünki Rusiyanın da qoşulduğu saziş var, Azərbaycan lazımi sənədləri göndərə bilsə, o, Azərbaycana qaytarılmalıdır. Rusiya həmin sazişə əməl etmək istəmir, yoxsa hansısa problem var?**

**C a v a b:** Sizə lazımdırmı ki, Ayaz Mütəllibov buraya ekstradisiya edilsin? Lazımdırsa, mən onda deyim ki, bizim ictimaiyyət və xüsusilə jurnalistlər çox istəyirlər ki, Mütəllibovun elə orada qollarını bağlasınlar, gətirsinlər buraya, bizim jurnalistlər onunla söhbət etsinlər. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev iyunun 8-də günortadan sonra Sankt-Peterburq şəhərinə gəldi.*

*Rusiyanın şimal paytaxtının Pulkovo hava limanı Azərbaycan Respublikasının və Rusiya Federasiyasının dövlət bayraqları ilə bəzədilmişdi.*

*Prezident Heydər Əliyevi Rusiya Federasiyasının Xarici İşlər naziri İqor İvanov və Sankt-Peterburq şəhərinin yüksək vəzifəli şəxsləri səmimiyyətlə və mehribanlıqla qarşıladılar. Şəhərdə yaşayan azərbaycanlıların uşaqları – milli geyimli qız və oğlan dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.*

*Sankt-Peterburqda yaşayan həmyerlilərimizin nümayəndələri də Azərbaycan rəhbərini qarşılamaq üçün hava limanına gəlmişdilər. Onların əllərində Azərbaycan bayraqları, «Hörmətli Prezident, azərbaycanlı gənclər Sizi salamlayırlar» sözləri yazılmış transparant var idi.*

*Prezident Heydər Əliyev soydaşlarımıza yaxınlaşaraq onları salamladı, hal-əhval tutdu. Həmvətənlərimiz dövlətimizin başçısını hərarətlə salamladılar, onun Sankt-Peterburqa səfərə gəlməsindən məmnun olduqlarını bildirdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha – «Astoriya» mehmanxanasına gəldi. Mehmanxananın qarşısına toplanmış xarici turistlər, Sankt-Peterburqda yaşayan soydaşlarımız və şəhər sakinləri Azərbaycan prezidentini mehribanlıqla salamladılar.*

*Prezident Heydər Əliyev burada maşından düşərək bir müddət şəhəri piyada gəzdi. Şəhər sakinləri hər yerdə dövlətimizin başçısını hərarətlə qarşılayırdılar. Peterburqun sakini prezident Heydər Əliyevə müraciətlə dedi: Cənab Prezident, Siz bizim günəşimizsiniz. Siz Peterburqa gəldiniz, günəş çıxdı. Bəli, Siz həqiqətən bizim günəşimizsiniz.*

*Respublikamızın rəhbəri Qoroxovo küçəsindəki 6 nömrəli binanın qarşısına gəldi. Vaxtilə həmin binada SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ali məktəbi yerləşirdi. Prezident Heydər Əliyev gənclik illərində həmin məktəbdə oxumuşdu. Dövlətimizin başçısı binanın birinci mərtəbəsinə daxil oldu, burada təhsil aldığı dövrü xatırladı, sonra isə xatirə şəkli çəkdirdi.*

*Peterburqlular təklif etdilər ki, Azərbaycan prezidenti Heydər Əliyevin vaxtilə burada ali təhsil alması barədə bu binaya xatirə lövhəsi vurulsun.*

*Prezident Heydər Əliyev şəhəri bir qədər də piyada gəzdikdən sonra «Astoriya» mehmanxanasına gəldi.*

*Axşam Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Neva çayı sahilindəki «Mednıy Vsadnik» limanına gəldi. Dövlətimizin başçısı və onu müşayiət edən şəxslər xüsusi katerlə Neva çayında gəzintiyə çıxdılar. Rusiyanın şimal paytaxtının əsrarəngiz gözəlliyini maraqla seyr etdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyevi katerlə gəzinti zamanı Rusiyanın Xarici İşlər naziri İqor İvanov, Mədəniyyət naziri Mixail Şvidkoy, Sankt-Peterburqun qubernatoru Vladimir Yakovlev və digər rəsmi şəxslər müşayiət edirdilər.*

# DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN* TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Sankt-Peterburq*

*9 iyun 2002-ci il*

*Sankt-Peterburqun Kamennostrovski prospektindəki bağa toplaşanlar – Sankt-Peterburq ictimaiyyətinin nümayəndələri, mədəniyyət xadimləri, Azərbaycan diasporunun üzvləri mərasimə gələn Rusiya dövlətinin başçısı Vladimir Putini və onu müşayiət edən şəxsləri alqışlarla qarşıladılar.*

*Mərasimdə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevi prezident Vladimir Putin səmimiyyətlə və mehribancasına qarşıladı. Prezident Heydər Əliyevi Rusiyanın Xarici İşlər naziri İqor İvanov, Mədəniyyət naziri Mixail Şvıdkoy, Sankt-Peterburqun qubernatoru Vladimir Yakovlev və digər rəsmi şəxslər də hərarətlə salamladılar. Azərbaycan prezidentini bu səfərdə müşayiət edən rəsmi şəxslər – Xarici İşlər naziri Vilayət Quliyev, Mədəniyyət naziri Polad Bülbüloğlu Rusiya Federasiyasının prezidenti Vladimir Putinə təqdim olundular.*

*Açılış mərasimində iştirak edən Rusiya ziyalılarının nümayəndələri, şəhərin sakinləri, soydaşlarımız hər iki prezidenti mehribancasına və alqışlarla qarşıladılar. Azərbaycan diaspo-*

---

* Abidənin müəllifi Azərbaycanın əməkdar rəssamı Görüş Babayev, memarı Feliks Romanovskidir.

*runun üzvləri əllərində Azərbaycanın dövlət bayraqlarını, «Azərbaycan və Rusiya – dostluq əbədidir», «Azərbaycan milli-mədəni muxtariyyəti» sözləri, habelə dahi Nizaminin «Qoy haqq-ədalət zəfər çalsın…» kəlamı yazılmış plakatları tutmuşdular.*

*Mərasimi Sankt-Peterburqun qubernatoru Vladimir Yakovlev açdı.*

**Rusiya Federasiyasının prezidenti Vladimir Putinin nitqi**

Hörmətli Heydər Əliyeviç!

Hörmətli Vladimir Anatolyeviç!

Əziz dostlar!

Bu gün bizim üçün çox fərəhli, təntənəli hadisə baş verir. Biz Şərqin görkəmli oğlunun, Azərbaycanın görkəmli oğlunun, şair və mütəfəkkir Nizaminin abidəsini açırıq. Nizami həm şair, həm də böyük humanist idi və bu mənada Nizaminin yaradıcılığı bizim hamımıza mənsubdur, bütün bəşəriyyətə mənsubdur. Nizami həyatı boyu çox işlər görmüş, çox yazmış və özündən sonra nəhəng, misilsiz irs qoymuşdur.

O, Şərqi əhatə edən xalqlar haqqında, Şərq xalqları haqqında çox yazmışdır. O, ruslar haqqında da çox yazmışdır. O, tarixin ən müxtəlif məqamlarını qələmə alarkən, dinc həyatı da, müharibə əməliyyatlarını da təsvir edərkən xalqları bir-birindən ayıra biləcək ideyalara heç zaman uymamışdır. O həmişə və hər şey haqqında məhz belə düşünüb danışmış və xalqları yaxınlaşdırıb doğmalaşdıran sözlər və vəziyyətlər seçmişdir. Əgər hardasa Xəzər bölgəsində gedən döyüş səhnələrindən birini onun necə təsvir etdiyini xatırlasam, zənnimcə, səhv etmərəm. Həmin savaşda rus döyüşçülərindən birinin

öhdəsindən gələ bilmədikdə, onun qarşısına gözəl bir qız çıxarırlar və Nizaminin yazdığı kimi, o, həmin qızı da götürüb savaş meydanından gedir.

Nizami sözün ən geniş mənasında humanist idi. Bu onun fikridir ki, dünya ehtiyac və təqiblər üçün xəlq olmayıb, dünya xoşbəxtlik və azadlıq üçün yaranmışdır. Məhz Nizami demişdir ki, ürəkdən gələn söz birbaşa ürəyə yol tapır.

Bu gün, bu təntənəli mərasimdə demək istəyirəm ki, biz indi nə ediriksə, hamısını ürəkdən edirik. Peterburq sakinləri, Rusiya vətəndaşları istəyirlər ki, bizim bugünkü tədbirimiz Azərbaycan xalqının da – həm burada yaşayanların, həm də Azərbaycanda yaşayanların ürəyinə yol tapsın. Biz bununla bildirmək istəyirik ki, azərbaycanlı qardaşlarımıza yaxın qohumlarımız kimi münasibət bəsləyirik. Bildirmək istəyirik ki, Azərbaycan mədəniyyətinə, Şərq mədəniyyətinə hörmət edirik və ümidvarıq ki, bu bizi həmişə birləşdirəcək təməl olacaqdır.

Sizi təbrik edirəm. Sağ olun.

*Sonra mərasimdə Azərbaycan prezidenti Heydər Əliyev nitq söylədi.*

## Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi

Rusiya Federasiyasının möhtərəm prezidenti cənab Vladimir Vladimiroviç Putin!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Məni Sankt-Peterburqa səfərə dəvətinizə, sizinlə yenidən görüşmək imkanına görə, dahi Azərbaycan şairi Nizami Gən-

cəviyə burada ucaldılmış heykələ görə, hörmətli Vladimir Vladimiroviç, Sizə ürəkdən təşəkkür edirəm.

Sankt-Peterburq şəhəri Rusiyanın şöhrətinin təcəssümüdür. O, rus ruhunun gücünü və qüdrətini özündə toplamış, rus xalqının yaradıcı potensialını artıraraq inkişaf etdirmiş, rus fikrinin və rus incəsənətinin təkraredilməz incilərini dünya mədəniyyətinin sərvəti etmişdir. Əsl rus ruhuna malik olan bu şəhərə zəka və qəlblərə hakim kəsilən bənzərsiz mənəvi mühit xasdır. O, bütün dünyaya məxsus olan bir şəhərdir.

Bu gün Sankt-Peterburqda dahi şair Nizaminin heykəlinin açılışını biz dünya mədəni irsinə böyük ehtiramın ifadəsi, Azərbaycan xalqına bəslənilən dostluq və qardaşlıq hisslərinin təzahürü kimi qiymətləndiririk. Keçən il oktyabrın 12-də Bakıda rus poeziyasının dühası Aleksandr Sergeyeviç Puşkinə heykəl qoyulmuşdur. Bu gün isə burada, Puşkinin Böyük Pyotrun əsəri adlandırdığı bu şəhərdə Nizamiyə heykəl ucaldılmışdır. Bu iki abidə həm xalqlarımızın mədəniyyətinə hədsiz ehtiramımızın, həm də ölkələrimiz arasında əlaqələrin yeni səviyyəsinin təcəssümüdür.

Sankt-Peterburqun 300 illik tarixinin hər bir səhifəsi onun Rusiya dövlətçiliyinin möhkəmləndirilməsində, Rusiyanın mənəvi dəyərlər sisteminin formalaşdırılmasındakı roluna, dünya elm və mədəniyyət xəzinəsinə verdiyi töhfəyə dəlalət edir. Bu şəhər bütün görkəmi ilə rus xalqının yaradıcı fəaliyyətinin sonsuz imkanlarını dünyaya nümayiş etdirir. Sankt-Peterburq rus ədəbiyyatının böyük dühalarının vətəni kimi tarixə həmişəlik daxil olmuşdur. Onun muzeylərində saxlanılan nadir sənət əsərləri, rus memarlığı və monumental heykəltəraşlığının şəhərin meydan və küçələrini bəzəyən abidələri yeni-yeni nəsilləri heyrətə gətirir.

Bu şəhər rus torpağının bir çox istedadlı övladının yaradıcılıq təxəyyülünə qol-qanad vermiş və onların amallarını gerçəkləşdirmişdir. Sankt-Peterburq onların Rusiyanın şöhrəti naminə gördükləri işləri həm öz simasında, həm də rusiyalıların ürəklərində əbədiləşdirmişdir. Bu şəhərin bənzərsiz yaradıcılıq ab-havası Rusiyanın taleyini əziz tutan bütün insanlara daim ilham vermişdir.

Bu şəhərin müdafiəçilərinin və sakinlərinin Hitler qoşunlarının hücumlarına qəhrəmancasına müqavimət göstərdikləri 900 gün ərzində dünya bir daha dərk etdi ki, qəhrəmanlıq hər şeydən öncə yüksək mənəviyyatın təzahürüdür. Bu qəhrəmanlığın mənbəyini ilk növbədə böyük rus mədəniyyətinin mənəvi qaynaqlarında axtarmaq lazımdır. Bu mədəniyyətin möhtəşəmliyi özünü həm də mühasirə günlərində, Ermitajın soyuq salonlarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyi təntənəli şəkildə qeyd edilərkən büruzə verdi.

Bu gün biz Piskaryov memorial qəbiristanlığını ziyarət etdik və yenilməz qəhrəmanlıqları qarşısında bəşəriyyətin baş əydiyi bütün insanların nurlu xatirəsini yad etdik. Onlar əbədiyyətə qovuşaraq, faşizmə müqavimətin rəmzi, rusiyalıların öz Vətəninə olan böyük məhəbbətinin rəmzi, Rusiyanın məğlubedilməzliyinin rəmzi kimi, həmişəlik qəlblərimizdə qalmışlar.

Rusiya tarixinin bütün taleyüklü məqamlarında Sankt-Peterburq rus mənəviyyatının dayağı olmuşdur. Bəşər elminin elə bir sahəsi, incəsənətin elə bir növü, insan təfəkkürünün nüfuz etdiyi elə bir sahə yoxdur ki, bu şəhər orada öz izini qoymamış olsun. Onun 300 illik tarixi rus mənəviyyatının qüdrətini, rus xalqının əzəmətini, Rusiyanın böyüklüyünü tərənnüm edən əbədi bir nəğmədir.

Məhz Sankt-Peterburqda Nizami yaradıcılığının öyrənilməsi sahəsində böyük işlər görülmüşdür. Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır. Nizami insanın cəmiyyətdəki rolunu özünün dünyagörüşü süzgəcindən keçirərək, yaradıcılığında antik yunan və Roma irsini, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik ənənələrini əks etdirə bilmişdir.

Nizaminin ürəkləri vəcdə gətirən təkrarolunmaz lirikası və qəhrəmanlıq eposunda onun həqiqi humanizm ideyalarını ehtiva edən fəlsəfi konsepsiyası öz əksini tapmışdır.

Məhəbbətin yenilməz qüdrəti, həyatın və ölümün mənası, ideal cəmiyyət, dünyanın və kainatın möhtəşəm sirləri haqqında yaratdığı poemalar əsrlər boyu Şərqdə əsl sənət nümunəsi olaraq qalmışdır. Onun poemalarının xüsusiyyətləri və yaratdığı poetik obrazların dərinliyi Qərbin dahi Höte kimi mütəfəkkirlərini heyran qoymuşdur. Zənnimcə, məhz Nizaminin bütün əsərlərində bəşər övladının misilsiz qüdrətinin tərənnüm edilməsi sayəsində Azərbaycan xalqının dahi oğluna bu gün Sankt-Peterburqun təkrarolunmaz görkəminin ayrılmaz hissəsinə çevrilmək şərəfi qismət olmuşdur.

Hörmətli Vladimir Vladimiroviç! Sizin Azərbaycana rəsmi səfəriniz ölkələrimiz öz dövlət müstəqilliklərinə qovuşandan sonra Rusiya dövləti başçısının Azərbaycan Respublikasına ilk səfəri olmuşdur. Bu, tarixi bir səfər idi və əməkdaşlığımızın inkişafındakı yeni dinamik mərhələ məhz onunla başlamışdır.

Həmin səfərin gedişində, eləcə də mənim Rusiyaya cavab səfərim zamanı biz sizinlə siyasi və iqtisadi əməkdaşlığımızla bağlı bir çox aktual problemləri müzakirə etdik, regional təhlükəsizlik məsələlərinə toxunduq, Bakı bəyannaməsini və uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə imzala-

dıq, Qarşılıqlı Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaratdıq, Xəzərin statusu məsələsində əhəmiyyətli irəliləyişə nail olduq.

Vladimir Vladimiroviç, Qərbin və Şərqin böyük sivilizasiyalarını ənənəvi olaraq təcəssüm etdirən bir ölkə kimi, Rusiya Sizin rəhbərliyiniz altında yeni əsrin və yeni minilliyin qlobal siyasətində çox böyük rol oynamağa başlayır. Rusiya bizim üçün sadəcə, qonşu deyil, həm də elə bir ölkədir ki, biz iki əsrdən artıq dövr ərzində eyni dövlətin tərkibində olmuşuq. Biz Qafqazdakı bir çox problemlərin həllini məhz bu ölkə ilə bağlayırıq.

Regionda sabitlik, təhlükəsizlik və tərəqqi, orada beynəlxalq layihələrin, o cümlədən tarixi İpək Yolunun bərpasının və Şimal–Cənub layihəsinin gercəkləşdirilməsi, şübhəsiz ki, burada mövcud olan münaqişələrin həlli ilə bağlıdır. Azərbaycana səfəriniz zamanı Siz Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı mühüm bir ifadə işlətmişdiniz: «Bizim məqsədimiz qaliblər və məğlublar olmadan sülh əldə edilməsinə kömək göstərməkdir». Rusiya xarici siyasətinin son dövrdə Sizin rəhbərliyiniz altında formalaşmış bu yeni siması ümid etməyə imkan verir ki, bölgəmizdə mövcud olan bütün münaqişələr məhz sizin təklif etdiyiniz prinsip əsasında öz həllini tapacaqdır.

11 sentyabr hadisələri bəşəriyyətin siyasi və mənəvi varlığına faciəli çalarlar gətirdi, beynəlxalq terrorizmin nə qədər qorxulu bir amilə çevrildiyini dünyaya göstərdi. Bu gün, terrorizm təhlükəsi qarşısında hamımızın əl-ələ verdiyimiz bu vaxtda xüsusi vurğulamaq istəyirəm ki, həm Azərbaycan, həm də Rusiya terrorizm təhlükəsi ilə digər dövlətlərdən çox-çox əvvəl üzləşmişdir. Terrorizmin nə vətəni, nə milli və ya dini mənsubiyyəti vardır. Biz dünyada onu da hamıdan yaxşı dərk edirik

ki, bu məsələni təkcə silah gücü ilə birdəfəlik həll etmək mümkün deyildir. Yalnız mədəniyyətlərin və sivilizasiyaların səmərəli dialoqu bu təhlükənin qarşısını almağa və onun kökünü birdəfəlik kəsməyə qadirdir.

Azərbaycan–Rusiya strateji əməkdaşlığının proqramı artıq faktiki olaraq formalaşmışdır və özünün öncül istiqamətlərini müəyyən etmişdir. O, bəyanatlar və sazişlərdən konkret əməli iş mərhələsinə keçməkdədir. Rusiya və Azərbaycan prezidentlərinin bugünkü görüşü və bu abidənin unudulmaz açılış mərasimi də bunun parlaq sübutudur. Hörmətli Vladimir Vladimiroviç, bizim görüşümüz Sizin vətəninizdə, doğulub boya-başa çatdığınız şəhərdə keçir. Sankt-Peterburq mənə də yaxın və əzizdir. Bu gün mən bu şəhərdə təhsil aldığım illəri, sonrakı həyatımda və siyasi fəaliyyətimdə böyük rol oynamış həmin dövrü dərin məmnunluq hissi ilə xatırlayıram. Gənclik illərimin şəhəri ilə olan bu görüş, təbii ki, mənim qəlbimdə bir çox işıqlı duyğular və xatirələr oyatdı. Bunlara görə Sizə minnətdaram.

Əziz dostlar! Sizin hamınızı, Sankt-Peterburqun bütün sakinlərini, bütün Azərbaycan xalqını Nizami Gəncəvinin abidəsinin açılışı münasibətilə təbrik edirəm. Dahi humanist və mütəfəkkirə ucaldılan bu gözəl abidə həmişə bizim nəzərlərimizi ümumbəşəri dəyərlərə, xeyirxahlıq, haqq-ədalət ideyalarına yönəldəcək, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığın bundan sonra da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

Sağ olun.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNLƏ TƏKBƏTƏK GÖRÜŞDƏ SÖHBƏT

*Sankt-Peterburq,*
*Rusiya prezidentinin iqamətgahı*

*9 iyun 2002-ci il*

**V l a d i m i r  P u t i n:** Hörmətli Heydər Əliyeviç, icazə verin Sizi Rusiyada, Peterburqda bir daha ürəkdən salamlayım və Nizaminin abidəsinin açılışı münasibətilə bir daha təbrik edim. Heydər Əliyeviç, bu, mühüm və müyyən dərəcədə əlamətdar hadisə olub, xalqlarımızın qarşılıqlı yaxınlığını, bir-birinin mədəniyyətinə olan hörmət və marağını göstərir. Həqiqətən, Peterburq hətta 1941-ci ildə blokadada olarkən Nizaminin 800 illiyini qeyd etmişdir. Bunun o vaxt şəhər üçün necə müşkül iş olduğunu hətta təsəvvür etmək çətindir.

İndiki tədbir çox mühümdür və Heydər Əliyeviç, bu mərasimdə iştirak etməyə imkan tapdığınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Şübhəsiz ki, Sizin bu səfərinizdən istifadə edərək, həm ikitərəfli qarşılıqlı münasibətlərimizə və həm də beynəlxalq təşkilatlarda səylərimizin əlaqələndirilməsinə dair məsələləri müzakirə edəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Səmimi sözlərə, göstərilən qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Vladimir Vladimiroviç, Rusiyaya, Sankt-Peterburqa gəlmək barədə dəvətinizə görə Sizə bir daha təşəkkür edirəm.

Burada keçirilən görüş mənim üçün və hesab edirəm ki, Sizin üçün də xüsusi xarakter kəsb edir. Biz Sizinlə Moskvada dəfələrlə görüşmüşük, bu gün isə Sankt-Peterburqda görüşürük. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin burada abidəsinin qoyulmasına görə Sizə təşəkkür edirəm. Bunun bizim xalqımız üçün, eyni zamanda ikitərəfli münasibətlərimiz, xalqlarımız, dövlətlərimiz arasında münasibətlər üçün çox böyük əhəmiyyəti var, Sizinlə axırıncı görüşümüzdə müəyyən etdiyimiz və ölkələrimizin əlaqələrinin inkişafına və möhkəmlənməsinə yönəldilmiş xəttin həyata keçirilməsi üçün də böyük əhəmiyyətə malikdir.

Bu, adi bir hadisə deyildir. Abidə həmişəlik qoyulur. Onu da əlavə etmək istəyirəm ki, Sankt-Peterburqda abidələr az deyildir. Sankt-Peterburq görkəmli memarlar tərəfindən tikilmiş şəhərdir, burada çoxlu memarlıq abidələri var, o cümlədən də müxtəlif şəxsiyyətlərə – dövlət xadimlərinə, ictimai xadimlərə, elm xadimlərinə və bir çox başqalarına həsr olunmuş monumental abidələr var. Onların hamısı Rusiyanın görkəmli adamlarıdır, özü də ola bilsin, təkcə Rusiyanın yox. Lakin belə abidələrlə yanaşı, Nizami Gəncəvinin, Azərbaycan şairinin də abidəsinin olması, şübhəsiz ki, bizim üçün böyük hadisədir. Azərbaycanda Nizaminin abidələri çoxdur. Bu şairin Gəncədə böyük məqbərəsi tikilmişdir, ancaq başqa şəhərlərdə də abidələri var. Çünki Nizami Gəncəvi bizə o qədər əzizdir və onun irsi o qədər qiymətlidir ki, insanlar bu abidələrin qoyulmasını özləri xahiş etmişlər. Ancaq Rusiya torpağında, özü də hansısa bir başqa yerdə yox, məhz Sankt-Peterburqda, Böyük Pyotrun belə əzəmətli abidəsinin ucaldığı şəhərdə Nizami Gəncəviyə abidə qoyulması bizim üçün xüsusilə əhəmiyyətlidir. Yeri gəlmişkən, mən burada oxuyanda bizim məktəbimiz Pyotrun heykəlinin yaxınlığında idi. Mən, demək

olar, günaşırı, iki gündən bir gedib o heykələ baxır və valeh olurdum.

**V l a d i m i r  P u t i n:** Mənə dedilər ki, dünən Siz orada olmusunuz.

**H e y d ə r  Ə l i y e v:** Bəli, oldum. Ona görə də bu şəhərdə Nizaminin abidəsinin qoyulmasının xüsusi əhəmiyyəti var. Vladimir Vladimiroviç, bu əlamətdar hadisəyə görə, məni dəvət etdiyinizə görə, abidənin açılışında şəxsən iştirak etdiyinizə görə Sizə çox-çox təşəkkür edirəm. Bu, xalqımız, ölkəmiz üçün qeyri-adi əhəmiyyətə malik hadisədir. Buna görə sağ olun. Eyni zamanda, bu görüş fikir mübadiləsi aparmaq üçün bir imkandır və buna həmişə ehtiyac var. Mən şadam ki, belə bir fürsət düşdü. Çox sağ olun.

* * *

*İki saatdan çox davam edən söhbət zamanı prezidentlər Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında bütün sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladılar, həm siyasi dialoqun davam etdirilməsi, həm də ticarət-iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi məsələləri barədə müzakirələr apardılar. Eyni zamanda, ticarət dövriyyəsinin həcminin mövcud potensialdan az olduğunu xatırladan dövlət başçıları bildirdilər ki, qarşılıqlı anlaşmanın hazırkı yüksək səviyyəsi, başlıcası isə, bir-birinə möhkəm etimad ölkələrimizə iri layihələrin həyata keçirilməsi üçün yaxşı zəmin yaradır.*

*President Vladimir Putin son vaxtlar keçirdiyi görüşlər, o cümlədən bir neçə gün bundan əvvəl Şanxay qrupunun üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü, Rusiya–NATO Şurasının yaradılması, Rusiya Federasiyasının ABŞ, Avropa Birliyi ilə qarşılıqlı münasibətləri, habelə digər beynəlxalq məsələlər barədə Azərbaycan prezidenti Heydər Əliyevə məlumat verdi.*

*Prezident Heydər Əliyev və prezident Vladimir Putin Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilmiş zirvə görüşü haqqında danışarkən mövqeləri tutuşdurmaq və qarşılıqlı məqbul qərarlar tapmaq üçün həmin tədbirin faydalı olduğunu söylədilər. Xəzərin hüquqi statusunun həlli məsələsinə dair fikir mübadiləsini davam etdirən prezidentlər bu sahədə ikitərəfli razılaşmaların əhəmiyyətini vurğuladılar və Rusiya ilə Azərbaycan arasında müvafiq sənədin tezliklə imzalanmasının bu istiqamətdə atılmış daha bir addım olacağını vurğuladılar.*

*Prezidentlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsinə də görüşdə xüsusi yer ayırdılar və bu münaqişənin tezliklə həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların davam etdirilməsinin vacib olduğunu bildirdilər. Prezident Vladimir Putin Ermənistan–Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həllinə Rusiya Federasiyasının maraqlı olduğunu bir daha vurğulayaraq dedi ki, Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiya bu sahədə öz səylərini artırmağa hazırdır.*

*Görüşdə prezidentlər regionda vəziyyət, Azərbaycan–Rusiya əməkdaşlığının daha da möhkəmləndirilməsi və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi apardılar.*

* * *

*İyunun 9-da Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1941-1942-ci illərdə blokada zamanı ölən leninqradlıların və Böyük Vətən müharibəsində şəhəri müdafiə edərkən həlak olmuş döyüşçülərin dəfn edildikləri Piskaryov memorial qəbiristanlığını ziyarət etmişdir. Dövlətimizin başçısı Heydər Əliyevi Sankt-Peterburq şəhərinin qubernatoru Vladimir Yakovlev müşayiət edirdi.*

*Respublikamızın rəhbəri əvvəlcə əbədi məşəlin önünə gül dəstəsi qoydu. Sonra Azərbaycan prezidenti Heydər Əliyev «Ana Vətən» abidəsinin önünə əklil qoydu, blokada qurbanlarının və faşist işğalçılarına qarşı döyüşlərdə canlarından keçmiş qəhrəmanların xatirəsinə dərin hörmət və ehtiramını bildirdi.*

*Hərbi orkestr Azərbaycan Respublikasının və Rusiya Federasiyasının dövlət himnlərini ifa etdi.*

*Dövlətimizin başçısına burada yaradılmış memarlıq-heykəltəraşlıq xatirə ansamblı haqqında ətraflı məlumat verildi. Respublikamızın rəhbəri şəhərin müdafiəsinə həsr olunmuş muzeyin ekspozisiyası ilə də tanış oldu, xatirə ansamblının fəxri qonaqlar kitabına öz ürək sözlərini yazdı:* «Piskaryov qəbiristanlığını ziyarət etmək bizi bir daha Böyük Vətən müharibəsinin getdiyi, Sovet ordusu əsgərlərinin, bütün xalqın faşist işğalçılarına qarşı şiddətli döyüşlər apardığı o günlərə, illərə qaytarır. Leninqrad sakinləri xüsusi mərdlik, qəhrəmanlıq, dəyanət göstərirdilər, onlar blokadada olan şəhəri doqquz yüz gün ərzində son dərəcə ağır şəraitdə müdafiə edərək, Vətənin müdafiəsi naminə saysız-hesabsız qurbanlar vermişlər.

Qəhrəmanlara, Leninqrad şəhərinin Vətən uğrunda həlak olmuş bütün sakinlərinə əbədi eşq olsun.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

09.06.2002»

*Ziyarətin sonunda Azərbaycan prezidenti Heydər Əliyevə xatirə medalı təqdim edildi.*

*İyunun 9-da Rusiya Federasiyasının prezidenti Vladimir Putinin adından Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin şərəfinə rəsmi nahar verildi.*

# «SİVİLİZASİYALARIN DİALOQU» BEYNƏLXALQ ANDREY PERVOZVANNI MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Sankt-Peterburq*

*9 iyun 2002-ci il*

*«Astoriya» mehmanxanasının böyük salonunda Azərbaycan prezidenti Heydər Əliyevə «Sivilizasiyaların dialoqu» beynəlxalq Andrey Pervozvannı mükafatının təqdim edilməsi mərasimi keçirilmişdir. Rusiyanın bu nüfuzlu ictimai mükafatı beynəlxalq həmrəylik əldə edilməsinə töhfəyə, zorakılıq və qisas siyasətindən imtinaya görə verilir. Müəllimlərin, həkimlərin, alimlərin, ruhanilərin, incəsənət xadimlərinin, dövlət qulluqçularının daxil olduqları «Rusiyanın Milli Şöhrəti Mərkəzi» İctimai Fondunun təsis etdiyi bu mükafat ilk dəfə idi ki, xarici dövlətin başçısına verilirdi.*

*Mərasimə toplaşanlar, o cümlədən Sankt-Peterburqun rəhbəri, şəhər ictimaiyyətinin, Azərbaycan diasporunun nümayəndələri dövlətimizin başçısı Heydər Əliyevi səmimiyyətlə salamladılar.*

*Mərasimi «Rusiyanın Milli Şöhrəti Mərkəzi»nin Qəyyumluq Şurasının sədri Vladimir Yakunin açdı.*

**Heydər Əliyev:** Hörmətli sədr!

Hörmətli xanımlar və cənablar!

Sankt-Peterburq şəhərinin hörmətli qubernatoru!

Dostlar!

Fondun göstərdiyi diqqət məni təsirləndirdi. Əsas nizamnaməsində «Sivilizasiyaların dialoqu» devizi olan həmin fondun mükafatını almaq böyük şərəfdir. Mən bunu Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında münasibətləri möhkəmlətmək və inkişaf etdirmək üçün daha bir imkan kimi qiymətləndirirəm.

Mən buraya, Sankt-Peterburqa Rusiya Federasiyasının prezidenti hörmətli Vladimir Vladimiroviç Putinin dəvəti ilə gəlmişəm. Bu gün biz onunla birlikdə Sankt-Peterburqda, bu gözəl şəhərin ən yaraşıqlı guşələrindən birində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsini açdıq.

Sankt-Peterburqun qubernatoru Vladimir Anatolyeviç Yakovlevin, Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin açılış mərasimindəki çıxışlarını mən çox mühüm hadisə hesab edir və Azərbaycan xalqına, onun tarixi irsinə, mədəniyyətinə və ədəbiyyatına böyük diqqət və hörmətin təzahürü kimi qiymətləndirirəm.

Mərasimdən sonra Rusiya prezidenti Putin ilə işgüzar görüş keçirdik. Görüşümüz kifayət qədər uzun çəkdi. Görüşü müşahidə edənlərin dediyinə görə, biz təkbətək iki saatdan artıq söhbət etmişik. Hər iki prezidentin,ələlxüsus da Rusiya Federasiyası prezidentinin iş cədvəlinin dəqiqəbədəqiqə bölündüyünü nəzərə alsaq, bu, qeyri-adi haldır. Lakin eyni zamanda, buna əsas da var, çünki biz Rusiya–Azərbaycan münasibətlərindən, bu münasibətlərin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsinə dair tədbirlərdən, müxtəlif problemlərdən danışdıq. Bir çox beynəlxalq məsələlər barəsində fikir mübadiləsi apardıq. Bu cəhətdən Vladimir Vladimiroviçdə çox zəngin məlumat vardır. Çünki o, prezident vəzifəsində dinamik fəaliyyət göstərərək, Rusiyanın ölkədaxili qu-

ruculuğuna, Rusiya dövlətçiliyinin inkişafına aid bir çox məsələləri həll etməklə yanaşı, beynəlxalq problemlərlə də çox fəal məşğul olur.

Mən ona dedim ki, prezident kimi o qədər fəaldır ki, nə vaxt bir ölkədən başqa ölkəyə getdiyini, çox vacib bir görüşdən sonra digər çox vacib görüş keçirdiyini izləməyə macal tapmırıq. Siz bunu bilirsiniz. Mən isə bunu ona görə deyirəm ki, prezident Putinin son illər fəal surətdə məşğul olduğu bir sıra beynəlxalq həyat problemləri barədə onunla söhbət etməyə böyük ehtiyacım vardı.

Lakin müzakirə etdiyimiz başlıca məsələlər, əlbəttə ki, Rusiya və Azərbaycana, regionumuza, Qafqaza aid məsələlər idi. Biz Qafqazdakı mövcud münaqişələrin, o cümlədən də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə fikir mübadiləsi apardıq. Mən bugünkü gündən çox məmnunam. Mədəni, ədəbi və mənəvi həyatımız siyasi fəaliyyətimizlə, siyasi məsələlərlə üzvi surətdə çuğlaşır. Ona görə də mənə əziz olan Sankt-Peterburq şəhərini bu gün birlikdə görə bildiyimiz işlər baxımından böyük minnətdarlıq hissi ilə tərk edirəm.

Bu gün, bu mühüm görüşlər başa çatdıqdan sonra siz Andrey Pervozvannı mükafatını mənə təqdim etmək üçün buraya toplaşmısınız. Bu məni çox təsirləndirir. Hər bir mükafatın öz əhəmiyyəti, öz mənası var. İndiki halda isə mənə təqdim etdiyiniz mükafatın xüsusi mənası var. Söhbət mənəviyyatdan gedir, söhbət insandan gedir, söhbət bəşəriyyətin taleyindən gedir, söhbət sivilizasiyaların dialoqu kimi mühüm məsələdən gedir. Sivilizasiyaların dialoqu bizim zəmanəmizdə ictimaiyyətin, bütün ölkələrin siyasi xadimlərinin şüurunda bəlkə də xüsusi yer tutur.

Fondumuzun mövcud olduğunu, məhz bu deviz altında fəaliyyət göstərdiyini eşidəndə mən çox sevindim. Sizi əmin edirəm ki, Azərbaycanda sivilizasiyaların dialoqu probleminə böyük əhəmiyyət verilir. Bilirsiniz ki, Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Azərbaycanın coğrafi mövqeyi onun Avropa ilə Asiya arasında körpü olmaq taleyini əzəldən müəyyənləşdirmişdir. Azərbaycan bu funksiyanı həmişə yerinə yetirmişdir. Çindən və Yaponiyadan başlayaraq məhz Xəzər dənizindən, Azərbaycandan, Qafqazdan keçərək Avropaya, Avropanın hətta ən şimal ölkələrinə gedib çıxan Böyük İpək Yolunun mövcud olduğu dövrlərdə belə, Azərbaycan bu tarixi İpək Yolu üstündə mühüm körpü idi.

İndi Azərbaycan Böyük İpək Yolunun bərpasının iştirakçısıdır. Biz böyük iş görürük. Ancaq Azərbaycanın Şərqlə Qərb arasında, Avropa ilə Asiya arasında yerləşmək funksiyası bununla bitmir. Bilirsiniz ki, Azərbaycan əsasən müsəlman ölkəsidir. Lakin müsəlman ölkəsi olmaqla yanaşı, o öz tarixi, milli, mənəvi dəyərlərinə, adət və ənənələrinə sadiqliyi saxlayır. Bununla bərabər, artıq bir çox yüzilliklərdən bəri Azərbaycan ümumbəşəri dəyərlərdən, Avropa dəyərlərindən, Avropa mədəniyyətindən, demək olar, ardıcıl surətdə bəhrələnir. Bununla da Azərbaycan sivilizasiyalı ölkə olmaq vəzifəsini yerinə yetirir.

Azərbaycanda 10 ildir müstəqil dövlət mövcuddur. Biz demokratik, hüquqi, sivil dövlət qururuq.

Keçmişdə Azərbaycanda mövcud olmuş və bu gün qorunub saxlanılan hər şeyin vəhdəti özünü məhz bu baxımdan büruzə verir – mən xalqın milli, dini və mənəvi dəyərlərini nəzərdə tuturam. Bu xalq, bu ölkə artıq çoxdandır ki, ümumbəşəri dəyərlərlə, Avropa dəyərləri ilə yaşayır. Ona görə də Azərbaycanın necə bir ölkə olması və sivilizasiyaların dialo-

qunda Azərbaycanın hansı rolu yerinə yetirməsi barədə nəticə çıxarmaq olar.

Mən bu fəxri mükafatı alarkən sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı sülhsevər xalqdır, ilk öncə, ali bəşəri dəyərləri qiymətləndirən, ilk öncə, ülvi mənəviyyatı, ən yüksək mədəniyyəti qiymətləndirən xalqdır. Hazırda öz müstəqil dövlətində yaşayan, demokratiya, bazar iqtisadiyyatı, demokratik dəyişikliklər yolu ilə inkişaf edən Azərbaycan xalqı bu prinsiplərə həmişə sadiq olacaqdır. Bu diqqətə görə sizə bir daha təşəkkür edirəm və fonda yeni-yeni uğurlar, sizin hamınıza cansağlığı, firavanlıq və əmin-amanlıq arzulayıram.

## AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Sankt-Peterburq,*
*«Astoriya» mehmanxanası*

*9 iyun 2002-ci il*

Əziz həmvətənlər!
Əziz bacılar, qardaşlar!

Mən sizi və sizin simanızda Sankt-Peterburqda yaşayan bütün azərbaycanlıları səmimi-qəlbdən salamlayıram. Sizinlə bugünkü görüşümə görə çox şadam, çox sevinirəm. Sizin hamınıza cansağlığı, bütün işlərinizdə uğurlar arzu edirəm.

Bilirsiniz ki, mən buraya qısamüddətli səfərə gəlmişəm. Səhər saat 10-dan biz ayaq üstəyik. Sizin də çoxunuz bizi müşayiət edirsiniz. Gün sona çatır, mən Bakıya qayıtmalıyam. Bu gərgin proqramda mən əvvəlcədən də xəbərdarlıq etmişdim ki, diasporun nümayəndələri ilə görüşüm mənim üçün çox vacibdir, çox zəruridir. Şadam ki, belə bir görüş indi keçir.

Mən sizi dinlədim. Sizin sözlərinizdən, ifadələrinizdən anladım ki, Sankt-Peterburqdakı Azərbaycan diasporu, ümumən, sağlam əhval-ruhiyyədədir, Azərbaycan millətinin, xalqının adını uca tutur və burada azərbaycanlılar bir-biriləri ilə, ümumən, yaxşı əlaqədədirlər və təbiidir ki, bu əlaqələr də bu-

radakı hər bir azərbaycanlının normal yaşaması, işləməsi, öz ailəsini təmin etməsi üçün imkanlar yaradır.

İndi ölkəmizdən kənarda yaşayan azərbaycanlılar az deyildir. Bilirsiniz ki, biz dünya azərbaycanlılarının I qurultayını keçirdik və çox böyük məlumatlar aldıq. Qurultay çox böyük iş gördü. İlk dəfə olaraq dünya azərbaycanlılarının nümayəndələri – dünyanın hər yerindən olmasa da, bir çox ölkələrdən – Azərbaycana, doğma torpağa toplaşdılar, bir-biriləri ilə görüşdülər, tanış oldular, əlaqələr qurdular və Vətənin bugünkü gününü gördülər. Hesab edirəm ki, mənəvi cəhətdən daha da zənginləşərək, öz yaşadıqları yerlərə döndülər. Bu bizim ilk addımımızdır.

Mən etiraf edirəm ki, biz bir çox işlərlə məşğul olduğumuza görə, vaxtilə bu məsələyə lazımi qədər fikir verə bilməmişik. Ancaq dünya azərbaycanlılarının həmrəyliyi, birliyi bizim millətimiz, xalqımız üçün çox vacibdir. Siz bilirsiniz ki, mən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü idim. SSRİ kimi böyük bir super dövlətin Nazirlər Soveti sədrinin birinci müavini idim və SSRİ miqyasında, təkcə SSRİ miqyasında yox, onun hüdudlarından kənarda da çox böyük işlər görürdüm. Ancaq 1987-ci ilin sonunda məni yüksək vəzifələrdən kənarlaşdırdılar. Mən bir müddət Moskvada çox qapalı həyat sürdüm. Sonra isə Vətən məni çəkib apardı. Gördüm ki, Moskvada mənzilim də, başqa şeylər də nə qədər yaxşı olsa da, ancaq Vətənin, Vətən torpağının əvəzini vermir.

Siz mənim tərcümeyi-halımı bılirsiniz. Bakıya gəldim, orada da nadanlar, vaxtilə – 1970–80-ci illərdə mənim böyütdüyüm, ərsəyə gətirdiyim, vəzifələrə qaldırdığım insanlar məndən üz döndərdilər. Nə üçün? Çünkı o vaxt mənimlə Qorba-

çov arasında böyük ziddiyyətlər vardı. Onlar da qorxurdular ki, əgər Heydər Əliyevlə danışsaq, Qorbaçov görəcək, sonra ya bizi işdən çıxaracaq, ya da ki, başqa bir şey olacaqdır. Ona görə mənə Bakıda yaşamağa imkan vermədilər və məcbur olub doğulduğum yerə – Naxçıvana getdim. Naxçıvan o vaxt blokadada idi, indi də blokadadadır. Orada çox ağır şəraitdə yaşadım. Bu barədə ona görə danışıram ki, 1991-ci ildə Sovet İttifaqı dağılandan, Azərbaycan müstəqilliyini əldə edəndən sonra Naxçıvanın parlamenti – ali orqanı yarandı və xalq məni yenidən işə dəvət etdi. Ali Məclisin sədri seçdilər. Ali Məclisin ilk iclaslarında mənim təşəbbüsümlə belə bir qərar qəbul olundu: 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü elan edilsin. Bunu biz Naxçıvanda qəbul etdik. Naxçıvan Ali Məclisinin qərarı ancaq Naxçıvan ərazisində tətbiq oluna bilər. Ancaq biz o vaxt Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdıq ki, onlar da bu qərarı qəbul etsinlər. Onlar da bu qərarı qəbul etdilər. Bunu ona görə xatırlayıram ki, dünya azərbaycanlıları məsələsi məni həmişə düşündürmüşdür. Mən Moskvada yüksək vəzifələrdə işləyəndə həmişə bütün azərbaycanlılar haqqında düşünürdüm. Təkcə Azərbaycanda yaşayanlar yox, Sovetlər İttifaqının hər yerində yaşayan azərbaycanlılar haqqında düşünürdüm. Onda mən Rusiyanın bir çox regionlarına gedirdim. Haraya gedirdimsə, vilayətlərin rəhbərləri, təbiidir ki, məni yüksək səviyyədə qarşılayırdılar. Başqa məsələlərlə məşğul olandan sonra deyirdim burada azərbaycanlılar var, ya yoxdur? Maraqlanırdım ki, nə qədər var, nə iş görürlər. Bu işə mənim şəxsi münasibətim belə olubdur. Amma indi bu bizim müstəqil Azərbaycan dövlətinin siyasətidir və bu siyasəti həyata keçiririk. Ona görə də biz Dünya Azərbaycanlılarının I qurultayını

çağırdıq, bu, böyük təkan oldu. İndi biz bir çox tədbirlər hazırlamışıq və bu işi bütün regionlarda gücləndirəcəyik. Sizin vasitənizlə gücləndirəcəyik. Hər regionda olan Azərbaycan diasporunun, Azərbaycan təşkilatlarının, cəmiyyətlərinin vasitəsilə gücləndirəcəyik.

Qubernator Yakovlev mənə danışdı ki, burada – Sankt-Peterburqda qeydiyyatda olan 100 min azərbaycanlı yaşayır. Amma qeydiyyatda olmayanlar nə qədər çoxdur, 380 mindir. İndi görürsünüzmü, burada doğru deyildi ki, bunların bir qismi Rusiya vətəndaşlarıdır, o qədər böyük problemləri yoxdur. Digər qismi isə Azərbaycan vətəndaşıdır, amma burada yaşayır, burada işləyir. Burada yaşamaq, işləmək onlar üçün bəlkə də daha əlverişlidir, nəinki Azərbaycanda.

Mən sizə bir şey deyim. Bilirsiniz də, Azərbaycan demokratik dövlətdir, fikir, söz azadlığı var, siyasi partiyalar var. Sizin canınız qurtarıbdır ki, burada siyasi partiya və sair yoxdur. İndi mən dostum Putinə deyirəm ki, sizdə elə bil, müxalifət də yoxdur. Bilirsiniz, ölkə, millət nə qədər kiçik olursa, onun içərisində belə şeylər bir o qədər çox olur. Amma ölkə böyük olanda, xalq, millət böyük olanda, belə xırda-xuruş işlərlə elə xırda-xuruş adamlar məşğul olur. Düzdür, bizdə də o müxalifət xırda-xuruş adamlardır. Ancaq, hər halda, var. Tənqid edirlər, qəzetlər yazırlar. Bilirsiniz, bizdə nə qədər qəzetlər var... Hər kimin pulu var, gedib sabah bir qəzet buraxır. Məsələn, indi mən eşitdim – adın İsmayıldır, hə, sən burada fabrik direktorusan?

**İsmayıl Rəhimov:** Bəli.

**Heydər Əliyev:** Özü də yəqin ki, pulun da var. Amma qəzet buraxmırsan. Onda xahiş edirəm, pulundan bizə, mənim hesabıma göndər... Zarafat edirəm. Yəni bunu nə

üçün deyirəm? Bizi tənqid edirlər ki, iki milyondan çox azərbaycanlı ölkəmizdən kənarda yaşayır, deməк, bu, dövlətin günahıdır. Dövləti buna görə tənqid edirlər. Mən də hərdən eşidirəm, fikir vermirəm. Çünki tamamilə əsassız bir şeydir. Əksinə, mənim fikrim belədir ki, Azərbaycanda, bizim torpağımızda coğrafi vəziyyətimizə, ərazimizə görə əhalimiz yetərlidir. Allaha şükür ki, bizim millətimizin artımı da yaxşıdır. Başqa yerlərdə bu yoxdur. Ona görə də bizim millətimizin bir hissəsi gəlib Sankt-Peterburqda yaşayır. Burada özünə yaxşı şərait yaradıbdır, güzəranı, vəziyyəti yaxşıdır. Bizim o xırda-xuruş adamların da üzünü görmürlər ki, qanları qaralsın. Yaxşı, mən bundan niyə narahat olum? İndi Ismayıl, Vaqif, konsul, yaxud da başqaları çıxış edəndə dedilər ki, vaxtilə, 1970–80-ci illərin əvvəllərində mən Azərbaycanda rəhbər olarkən – mən 14 il rəhbər oldum – gənclərimizi bir qədər zorla Azərbaycandan çıxardıb bütün SSRİ-yə səpələdim. Bilirsiniz, hər millətın öz xüsusiyyəti var. Bizim millətin bir xüsusiyyəti var ki, elə kəndini sevir, deyir ki, bundan ayrısı yoxdur. O birisi şəhəri sevir, deyir bundan yaxşısı yoxdur. Görməyib ki, dünyada nə var, nə yoxdur. Digəri də respublikasını sevir, deyir bundan yaxşı nə var ki. A kişi, get Moskvaya, gör dünyada nə var, nə yox. Get Urala, get, nə bilim, başqa yerə. Gör orada nə var, insanlar orada necə yaşayırlar. Bu birincisi.

İkincisi, mən istəyirdim ki, bizim insanlar daha da yüksək təhsil alsınlar. Təbiidir, bizim Azərbaycanda yaxşı universitetlər və sair var. Amma gəlin açıq danışaq. Bizdə Moskva Universitetinə, yaxud Leninqrad Universitetinə bərabər universitet yox idi axı. İndi də yoxdur. Amma təkcə Moskva, Leninqrad universitetləri deyil. Moskvada, Leninqradda, yaxud da ki, Rusiyanın başqa şəhərlərində, Kiyevdə, başqa yerlərdə

müxtəlif profilli ali məktəblər var idi ki, orada hazırlanan mütəxəssisləri biz Azərbaycanda hazırlaya bilməzdik. Ona görə də mən hər il azərbaycanlıları göndərirdim ki, gedib oxusunlar. Bu da asan deyildi. Çünki azərbaycanlıların bəziləri rus dilini yaxşı bilmirdi və gəlib Moskvada başqaları ilə bərabər müsabiqədən keçib universitetə daxil olmaq mümkün deyildi.

Onda mən nə etdim? Bunu bilin, unutmayın, uşaqlarınıza da deyin.

Mən o vaxt SSRİ-dən böyük çətinliklərlə ilbəil kvota alırdım. Birinci il 100 yer verdilər ki, onlar imtahansız qəbul ediləcəklər. Yəni imtahanı Azərbaycanda verəcəklər, gəlib Moskvada imtahan verməyəcəklər.

İkinci il 200, sonra 300, daha sonra bu rəqəm 800-ə qalxdı. Axır vaxtlar biz ildə 800 gənc göndərirdik. Əgər burada onlardan varsa, ola bilər, xatirlərindədir. Lenin sarayında, indi Respublika sarayı adlanır, hər il onlarla görüş keçirirdik. Sən də orada idin?

**Qasıməli Qasımov:** Bəli, cənab Prezident, 1970-ci illərdə Sizin Azərbaycandan kənara ali təhsil almağa göndərdiyiniz gənclərdən biri də mənəm. Siz mənə Azərbaycanın təhsil əlaçısı nişanı verdiniz, 100 manat yol pulumuzu verdiniz. Mən buna görə Sizə təşəkkürümü bildirirəm.

**Heydər Əliyev:** 17-18 yaşlı 2500 gənci avqust ayında biz Respublika sarayına yığırdıq, hamısına ağ köynəklər, qalstuk geyindirirdik, hərəsinə yol pulu, bir aylıq təqaüd verirdik. Mən də harada olsam da, avqust ayının ya 29-u, ya da 30-u gərək mütləq Bakıda olaydım. Çünki mən özüm onlarla görüşməli idim. İnanın, mən hər bir gəncə öz övladım kimi baxırdım. Mənim arxivimdə çox şeylər var. Bir çox şeyləri də mən Moskvaya köçəndə Bakıda qoyub getdim. Sonra biri

Azərbaycana gəlmiş, mənim arxivimin Bakıda qalan hissəsini yandırmışdı. Əvvəl kranı açıb otaqlara su tökmüşdü, arxivdəkilər xarab olandan sonra çıxarıb yandırmışdı. Amma o şeyləri ki, mən Moskvaya aparmışdım, indi də qalır.

Hər il 800 adam ki, SSRİ-nin bütün ali məktəblərinə müsabiqədənkənar qəbul olunurdu, onların siyahısı mənim arxivimdədir. Nə üçün? Çünki bilirsinizmi, bu mənim əsərimdir. Bunlar mənim övladlarımdır. İndi kim bunu qiymətləndirirsə, qoy qiymətləndirsin, kim unudursa, qoy unutsun. İnsanın doğma övladlarının da bəziləri, görürsən, sonra atasını unudur. Amma mən bunların hamısına övladlarım kimi baxmışam. Sözü nəyə gətirirəm? Biz hətta bu cür edirdik. Amma indi, əgər müəyyən miqrasiya gedirsə, azərbaycanlılar gəlib Rusiyada yerləşiblərsə, bunun nəyi pisdir? İndi Rusiyada bizim iki milyonluq diasporumuz var.

Biz həmişə ürək ağrısı ilə deyirik ki, ermənilərin hər yerdə diasporu var, bizim yoxumuzdur. Əlbəttə ki, biz o səviyyəyə çatmamışıq. Bizim diasporumuz hələ istənilən səviyyədə formalaşmayıbdır. Soydaşlarımız yaşadıqları ölkələrdə, vilayətlərdə yüksək vəzifələr tutmayıblar. Amma bu da olacaq. Çünki azərbaycanlılar istedadlı adamlardır. Aza xanımı görürsünüzmü, Sankt-Peterburqda qubernatorun müşaviridir. Bu, kiçik şey deyildir. Ona görə bizim diaspor lazımdır. Mən sizə nə demək istəyirəm? Sizə xeyir-dua verirəm ki, istəyinizi, arzunuzu həyata keçirirsiniz, Sankt-Peterburqda özünüzə məskən tapmısınız. Yaşayın, Rusiyanın vətəndaşı olun, işləyin, yaxşı işlər görün.

Qazanın, yaxşı iş adamı olun, layiqli vətəndaş olun. Bayaq dedim, bir də deyirəm: Azərbaycanın adını uca tutun. Bilirsiniz, sizin hər biriniz Azərbaycanı təmsil edirsiniz. Sizin hər

birinizi görən adamda, burada sizinlə danışan, söhbət edən hər kəsdə sonra təəssürat yaranır ki, bu azərbaycanlıdır. Deməli, həmin adamlarda Azərbaycan xalqı, milləti haqqında təəssürat yaranır. Siz çalışın ki, Azərbaycan xalqının yüksək mənəvi, insani keyfiyyətlərini həm özünüzdə formalaşdıra biləsiniz, həm də hər yerdə onları nümayiş etdirə biləsiniz ki, kiminlə görüşürsünüzsə görüşün, bilsinlər ki, Azərbaycan, azərbaycanlı nə deməkdir. Hiss edirəm ki, sizin çoxunuz buna nail olmusunuz və uğurlarınız da var.

Çox məmnun qaldım ki – burada dediniz – sizin diasporda birlik, həmrəylik var. Bilirsiniz, elə olur ki, bir ailədə də bəzi adamlar bir-biri ilə yola getmirlər. Bu olur. Ailədə necə yola gedirsiniz, bu sizin öz şəxsi işinizdir, arzu edirəm ki, yaxşı yola gedəsiniz. Amma calışın diasporda bir-birinizə yardım edəsiniz. Bir-birinizi öyrətməyə, doğru yol göstərməyə çalışın. Kimin səhvi varsa, calışın ki, onu dostcasına, qardaşcasına başa salın ki, belə etməsin. Deyin ki, düz yolda deyilsən, yolunu dəyiş. Bir-birinizə paxıllıq etməməlisiniz. Ümumiyyətlə, paxıllıq insana xas olan xüsusiyyətdir. Amma deyirlər ki, bizim millətdə paxıllıq çoxdur. Bilmirəm, başqalarında nə qədərdir, çoxdur, yoxsa azdır. Mən çox xahiş və arzu edirəm ki, bir-birinizə paxıllıq etməyəsiniz. Siz burada nə qədər yaxşı yerləşmiş olsanız da, yenə də qürbətdəsiniz. Ona görə də gərək bir-birinizə paxıllıq etməyəsiniz, bir-birinizin səhvini bağışlayasınız. Bir-birinizə qardaş, dost olasınız. Bax, bu birlik lazımdır. Biz Azərbaycanda bu birliyi yaratmağa çalışırıq, yaradırıq və yaratmışıq da.

Bu gün iyunun 9-dur. Doqquz il bundan öncə, iyunun əvvəlində Azərbaycanda böyük siyasi-iqtisadi böhran yaranmışdı. Azərbaycan dağılırdı. Azərbaycanda vətəndaş müha-

ribəsi başlamışdı. Hakimiyyətdə olan Xalq Cəbhəsi artıq xalqı idarə etmirdi. Xalq həmin hakimiyyətin əleyhinə çıxdı. Onlar bir il ərzində xalqın etimadını itirdilər və nə oldu? Azərbaycan elə bir vəziyyətə düşdü ki, böyük bir faciə qarşısında qaldı. O vaxt mən Naxçıvanda yaşayırdım. Əlbəttə, mənim ürəyim Azərbaycanla döyünürdü. Çunki Azərbaycan mənim həyatımdır. Mənim gəncliyim, təhsil illərim Bakıda, Azərbaycanda keçibdir. 14 il Azərbaycana rəhbərlik etmişəm. Beş ildən artıq Moskvada oturmuşam, həmişə Azərbaycana himayəçilik etmişəm. Sonra Naxçıvanda olarkən yenə də Azərbaycanla yaşamışam. Ancaq mən kənardaydım. Nə oldu? Xalq və o vaxtkı hakimiyyət də məni Bakıya dəvət etməyə məcbur oldu. İyunun 9-da mənim Naxçıvandan Bakıya gəlməyimin 9 ili tamam olur.

Bu illər mənim həyatımda müəyyən qədər dönüş illəri olubdur. Mən gəlib odun içinə düşdüm. Parçalanan Azərbaycana rəhbərlik etməli idim, hamı qaçıb dağılmışdı, ortada tək qalmışdım. Bu tarix sizə məlumdur. Əgər məlum deyilsə, bunu danışmaq üçün gərək bir neçə saat burada oturaq. O vaxt mən xalqı bir yerə yığa bildim. Xalq, millət mənim ətrafımda birləşdi. Ona görə də mən hamıya qalib gəldim, təmizlədim. Nəhayət, sizin tanıdığınız, yaxud da adını eşitdiyiniz Surət Hüseynov 1994-cü ildə mənim hakimiyyətimə qarşı silahlı çevriliş cəhdi etdi. Artıq Gəncədə hakimiyyəti ələ almışdılar və bunu Bakıda da etmək istəyirdilər. Ordu onların əlində idi. Mən hələ orduya o qədər rəhbərlik edə bilmirdim. Mən axşam saat 10-da televiziya ilə xalqa müraciət etdim. Bizim Prezident sarayı var, yəqin ki, tanıyırsınız, hündür ağ evdir, onu da vaxtilə mən ucaltmışam, iki saatdan sonra, gecə saat 12-də onun qarşısında yarım milyon adam toplaşdı.

Mən oraya çıxdım, ayaqyalın qoca qadınlar, südəmər uşaqla gələn qadınlar da vardı. Təsəvvür edin, axı orada təhlükə yarana bilərdi. Ancaq bu insanlarda dövlətimizə, millətimizə sevgi nə qədər idisə, unutmuşdular ki, 3-4 aylıq uşağı ilə orada həlak ola bilərdilər. Bakının harasındansa gələrək orada durmuşdular, dövləti, Heydər Əliyevi müdafiə edirdilər. Mən bu birliyi yaratdım. Ondan sonra da bizdə belə çevriliş cəhdləri oldu, qarşısını aldıq. Indi də bu birlik var.

Azərbaycanda müxalifətin olması təbii haldır. Siz bunu basqa cür qəbul etməyin. Hər demokratik ölkədə iqtidara qarşı müxalıfət təbii haldır. Ancaq dərd bundadır ki, bizim müxalifət normal müxalifət deyil. Bilirsiniz, hər şey normal olanda narahatcılıq üçün əsas olmur. Lap xoşuna gəlməyən bir şeyi də normal hesab etmək olar. Amma bizim müxalifət normal müxalifət deyil və Azərbaycan xalqının birliyi üçün, müstəqil Azərbaycanın dövlətçiliyi üçün heç bir təhlükə kəsb etmir. Bundan narahat olmayın. Azərbaycanda xalqın həmrəyliyi, birliyi var və Azərbaycan dövlətçiliyi, Azərbaycan prezidenti ətrafında xalqın sıx birliyi təmin olunubdur. Buna arxayın ola bilərsiniz.

Mən arzu edirəm ki, hər yerdə belə birlik olsun. Təbiidir ki, burada müxalifət lazım deyildir. Azərbaycanda bizə lazımdır, amma burada müxalifət lazım deyildir, istəyirik ki, hər yerdə birlik olsun. Yəni, azərbaycanlılar hər yerdə böyük diaspor kimi yaşayırlarsa, qoy bir olsunlar, həmrəy olsunlar, bir-biri lərinə kömək etsinlər.

Bu gün buradakı mühiti görərkən mən Sankt-Peterburqdakı azərbaycanlılar üçün arxayınam. Güman edirəm ki, sizin diasporun bugünkü vəziyyəti bir çox başqalarına nümunə ola bilər. Mən sizə tövsiyə edirəm ki, bu yolla uğurla gedəsiniz.

Bir daha deyirəm, çalışın burada, bu böyük şəhərdə Azərbaycanın adını ucalara qaldırın.

Gələn ilin mayında Sankt-Peterburqun 300 illik yubileyi olacaqdır. Ola bilər ki, mən də buraya gəlim, yenə də görüşək. Görüşsək də, görüşməsək də mən sizinləyəm, ürəyim sizinlədir. Hər bir azərbaycanlı ilədir.

Mən müstəqil Azərbaycanın prezidentiyəm. Doqquz ildir bu ağır vəzifəni daşıyıram. Keçmişdə Azərbaycan üçün nə etdiyim hamıya məlumdur. Ona görə hər bir azərbaycanlı mənim üçün əziz və qiymətlidir. Sizin hamınıza cansağlığı, işlərinizdə uğurlar arzu edirəm. Həmişə Azərbaycanla bir yerdə olun. Sağ olun.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ BU ÖLKƏDƏ İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*9 iyun 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Salam, axşamınız xeyir olsun!

Mən düşünürdüm ki, belə gecə vaxtı siz gəlməyəcəksiniz. Yəni siz istirahət edəcəksiniz, mən də buradan şəhərə gedəcəyəm. Ancaq dedilər ki, gəlmisiniz.

Mənim səfərim haqqında bizim televiziya yetərincə məlumat veribdir. Ona görə siz çox şeyi eşitmisiniz, görmüsünüz. Geniş məlumat verməyə ehtiyac yoxdur. Ancaq qısaca deyə bilərəm ki, dünən mən Sankt-Peterburqa getdim. Bizi orada qarşıladılar, görüşdük. Bir az şəhərlə tanış olduq. Mən gedib vaxtilə oxuduğum məktəbin binasını ziyarət etdim. Gələn kimi, heç otelə girməmiş – mən «Astoriya» otelində qalacaqdım, ora otelə çox yaxındır, təxminən 200–250 metrdir – gedib oralara baxdım, o tərəfləri bir az gəzdim. Sonra axşam Neva çayında bizi gəzintiyə apardılar. Çox gözəl bir şəhərdir. İndi orada bəyaz gecələrin vaxtıdır. Çox gözəldir. Mən gənc vaxtı orada oxuyanda həmin gecələrdə həmişə gəzirdik, bazar günləri hətta gecə istirahət edirdik. Bunları xatırladım.

Sankt-Pelerburqu görmək mənim üçün çox təsiredici idi. Çünki çoxdandır görməmişdim. Ancaq əsas işimiz bu gün idi. Səhər saat 10-da Piskaryov qəbiristanlığına getdik. Oranı tanıyırsınız, bu barədə danışmağa ehtiyac yoxdur.

Sankt-Peterburqun gözəl bir guşəsində, televiziyada görmüsünüz, yaşıllıqların içində, gözəl bir yerdə Nizami Gəncəvinin heykəlini ucaldıblar. Saat 12-də mən oraya gəldim, cənab Putin də gəlmişdi. Sankt-Peterburqun qubernatoru da gəlmişdi. Görüşdük, Nizami Gəncəvinin heykəlini açdıq. Ondan sonra prezident Putinin iqamətgahına getdik, orada söhbət etdik, danışıqlar apardıq.

Bizimkilər baxmışdılar, iki saatdan çox təkbətək söhbət elədik. Çox yaxşı, çox əhəmiyyətli söhbətimiz oldu. Bir çox məsələlər haqqında söhbət etdik, fikir mübadiləsi apardıq. Prezident Putin son vaxtlar bir çox ölkələrdə, eləcə də Moskvada çox böyük görüşlər keçiribdir. Elə biz gələn gündən öncə Moskvada Şanxay qrupuna üzv olan dövlətlərin başçıları görüşmüşdülər. Bütün bunlar haqqında mənə müəyyən məlumatlar verdi.

Bizim məsələləri də müzakirə etdik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, Xəzər dənizinin statusu məsələsini müzakirə etdik. İqtisadi əlaqələrimizin son vaxtlardakı gedişinə də baxdıq, mal dövriyyəsinin vəziyyətinə, başqa məsələlərə – çox şeylərə baxdıq. Hesab edirəm ki, bu, Azərbaycan üçün çox əhəmiyyətli görüş oldu, söhbət oldu.

Sonra prezident Putin nahar təşkil etdi. Bir müddət birlikdə futbola baxdıq. Düzdür, mən futbola baxanda yarımçıq çıxıb getdim. Çünki bizim diaspor ilə görüşəcəkdim. Rusiyanın uduzmaq məqamını mən görməmişdim. Bizim qaldığımız «Astoriya» otelində böyük bir salon var. Diasporumuzun nümayəndələri orada toplaşmışdılar.

Rusiyada böyük bir fond var, 2001-ci ildən fəaliyyət göstərir. Fondun beynəlxalq Andrey Pervozvannı mükafatı var, ancaq ictimai xadimlərə, din xadimlərinə, mədəniyyət xadimlərinə verirlər. Amma son illər dövlət xadimlərinə də veriblər. Prezident Putinə veriblər, Çinin sədri Tszyan Tszeminə və başqa iki-üç nəfər dövlət başçısına veriblər. Məni də bu mükafatla təltif etmişdilər və əvvəlcədən mənə xəbər vermişdilər. Həmin o fondun başçıları, nümayəndələri oraya gəlmişdilər, mükafatı mənə təqdim etdilər.

Ondan sonra bizim diasporun nümayəndələri ilə görüşdük. Sankt-Peterburqda bizim çox yaxşı diasporumuz var. Hər halda, oraya 200-ə qədər adam toplaşmışdı. Onların əhval-ruhiyyəsi, bir-birinə münasibətləri mənim çox xoşuma gəldi. Bir qismi dünya azərbaycanlılarının birinci qurultayında iştirak etmişdir, öz təəssüratları haqqında danışdılar. Mən əsasən onların oradakı yaşayışı, vəziyyəti ilə maraqlanırdım. Vəziyyətlərindən çox razı idilər. Dedilər, qubernator Yakovlev onlardan çox razıdır. Yaxşı tanışlıqları var – Yakovlevin özü də orada idi, mən diasporun nümayəndələri ilə görüşəndə də iştirak edirdi – ona görə çox sevindim.

Düzdür, Yakovlev deyir ki, orada 100 min qeydiyyata alınmış azərbaycanlı var. Ancaq qeydiyyata alınmamış nə qədərdir, bilmirlər. Amma diasporun nümayəndələri mənə dedilər ki, Sankt-Peterburqda 200 mindən çox azərbaycanlı var. Bu çox gözəl haldır. Mən bunu dəfələrlə demişəm, burada müxalifət qüvvələri bizi tənqid edirlər ki, ölkədən iki milyon azərbaycanlı xaricdə yaşayır. Mən isə onlara bir-iki dəfə cavab vermişəm və bu gün də deyirəm ki, çox yaxşı ki, xaricdə yaşayırlar. Bu mənim hələ otuz il əvvəlki siyasətimin bir xətti

olubdur ki, azərbaycanlılar yalnız ölkəmizin çərçivəsində qalmasınlar, dünyaya çıxsınlar, dünyanı görsünlər.

İndi bəzən biz şikayətlənirik ki, məsələn, ermənilərin böyük diasporu var, bizim yoxdur. Bu doğrudur. Ermənilərin diasporu yüz ildən çoxdur formalaşıbdır. Necə deyərlər, onlarla yarışa girmək olmaz. Bunu da bilmək lazımdır. Amma bəziləri deyirlər ki, yox, biz də bunu edə bilərik. Bu bir az qeyri-təbiidir. Biz çox şey edə bilərik, amma nəyi ki, edə bilmərik, onu da bilməliyik. Ancaq Azərbaycan diasporunu tədricən formalaşdırmaq indi mümkündür və bu proses gedir. Əgər indi Sankt-Peterburqda 200 min azərbaycanlı yaşayırsa, demək, bu orada azərbaycanlıların varlığını göstərir.

Mən gördüm ki, onların arasında böyük iş adamları var, müəssisə rəhbərləri var, elm sahəsində işləyən adamlar var. İşləyirlər, yaşayırlar, Rusiyanın vətəndaşlarıdırlar. Bunun nəyi pisdir, niyə buna pis deyək? Hamımız Bakıda yığışsaq, nə olar?! İndi kimin imkanı var, yaxud müxtəlif səbəblərdən gedib başqa şəhərlərdə məskunlaşırsa, bunun nəyi pisdir?! Bu çox yaxşıdır. Bir tərəfdən deyirlər, diaspor yoxdur, ikinci tərəfdən də, bizi günahlandırırlar ki, iki milyon azərbaycanlı xaricdədir. Mən onlarla vaxtaşırı məmnuniyyətlə görüşürəm.

Vaxtilə Kiyevə getmişdim. Onlarla orada görüşdüm. Məsələn, Ukraynada 500 min azərbaycanlı yaşayır. Özü də bizim orada çox mütəşəkkil diasporumuz var. Hər vilayətin özünün cəmiyyəti var, cəmiyyətin başçısı var. Onların da hamısı Kiyevdəki mərkəzi təşkilatla əlaqədədirlər. Məsələn, indi oradakı bizim diaspor Ukraynanın ictimai-siyasi həyatına təsir edir. Vaxtilə seçkilərdə onlara xəbər göndərdim ki, Leonid Kuçmaya səs versinlər. Hamısı da səs verdi. Kuçma da onlara minnətdarlıq məktubu göndərdi. Bunun nəyi pisdir?! Yaxşıdır.

Ona görə də diaspor ilə görüşümüz çox səmimi oldu, çox açıq oldu. Bir az zarafat etdik, bir az güldük və çox yaxşı hisslərlə vətənə döndüm.

**S u a l: Cənab Prezident, Sizi qarşılayanlar arasında «LUKoyl» şirkətinin prezidenti Vahid Ələkbərov da var idi. Siz Rusiya prezidenti ilə də görüşdünüz. Bu səfərinizdən sonra «LUKoyl»un Bakı–Tbilisi–Ceyhan layihəsinə qoşulmasını gözləmək olarmı?**

**C a v a b:** Bilirsiniz, biz çox məsələləri müzakirə etmişik. İndi mənim səfərimdən sonra nəyi gözləmək olar, nəyi gözləmək olmaz – bu, başqa məsələdir. «LUKoyl» şirkətinin prezidentinin orada olub-olmaması onun Bakı–Tbilisi–Ceyhana qoşulub-qoşulmaması ilə əlaqədar deyildir. Vahid Ələkbərov Bakıya tez-tez gəlir. Bizim neft şirkətinin rəhbərləri ilə görüşür. Bəzən gəlib mənimlə də görüşür. Ona görə belə bir problem yoxdur ki, guya biz onu görmürük, amma Sankt-Peterburqda onunla görüşdük və bu məsələni həll etməliydik. Bəli, o məni qarşılayanlar arasında var idi. Bu gün o, danışıqda yox idi. Biz prezident Putinlə danışığımızın axırına çatanda bir məsələ var idi. İkimiz də bu məsələyə toxunduq. Ona görə də Vahidi axtardılar, tapdılar, o da oraya gəldi və bizimlə yeməkdə də iştirak etdi.

**S u a l: Cənab Prezident, deyirlər ki, Xəzərin Rusiya sektorunda qaz ehtiyatları gözlənilir və Rusiya bunun Bakı–Ərzurum marşrutu ilə nəql edilməsi məsələsinə baxa bilər, amma onların paket təklifləri var. Bu doğrudurmu?**

**C a v a b:** Bilirsiniz, bunların hamısı fərziyyələrdir. Qaz ehtiyatı gözlənilir, qaz çıxacaq, ya çıxmayacaq, bu qazı haraya göndərəcəklər, bunlar elə məsələlərdilər ki, indi bu barədə söhbət aparmaq olmaz.

**S u a l: Cənab Prezident, Siz dediniz ki, diasporun nümayəndələri ilə görüşdünüz. Sizin səfəriniz ərəfəsində Sankt-Peterburqda üç azərbaycanlı öldürülmüş, Moskvada isə dörd azərbaycanlı qətlə yetirilmişdir və orada xüsusi əməliyyat gedir. Orada qeydiyyatsız yaşayan azərbaycanlıların böyük narahatlıqları var. Belə narahatlıq Sizə çatdırıldımı və hər hansı xahiş olundumu ki, Siz bu barədə Sankt-Peterburqun qubernatoru ilə danışasınız?**

**C a v a b:** Bilirsiniz, onlar bu barədə mənə heç bir narahatçılıq çatdırmadılar, heç bir problemləri haqqında demədilər. Mən sizə deyirəm, diaspor ilə görüşəndə qubernator da orada idi. Sonra qubernator məni hava limanında yola salmağa gəldi. Diasporun nümayəndələri, qubernator hamısı mənimlə bir yerdə idilər. Hətta hava limanında diasporun əsas nümayəndələri gəlib yığışdılar, dedilər ki, gəlin bir yerdə xatirə şəkli çəkdirək. Onlar qubernator ilə yan-yana durdular, şəkil çəkdirdik. Amma belə bir məsələ qaldırmadılar.

Ancaq sizə bir şey deyim. Bilirsiniz, haradasa, kimsə kimi öldürübdür. Bizdə belə söz var – qətlə yetiriblər, bu bir az ciddi sözdür. Bu o deməkdir ki, yəni adamı qəsdən öldürüblər. Siz də bunu dərhal televiziyanızda birinci nömrəli məsələ kimi verirsiniz. Axı bu həyatdır.

Bilirsiniz, indi Azərbaycanda ictimai-siyasi sabitlik yaranıbdır. Allaha şükürlər olsun ki, biz cinayətkarlığın qabağını ciddi şəkildə almışıq. Lakin ölüm hadisələri, yaxud kimsə kimisə vurub – belə hallar olur. Amma başqa yerlərdəki kimi deyildir. Yəqin ki, bizim televiziya ilə verəcəklər, orada bizim diasporun başçısı Vaqif var. O, çıxış edəndə dedi ki, mən kəndimizə getdim Borçalı mahalındandır, kəndlərinə gediblər, yığışıblar, imkanları olduğuna görə, oraya bir az kömək ediblər. O, kənddən gedəndən sonra gəlib atasını oğurlayıb-

lar. Yəqin ki, pul əldə etmək üçün. Sonra gedib atasını xilas edibdir. O deyir ki, bundan sonra atamın yanına qoruyucu qoydum. Amma sonra Azərbaycana gəldi, indi ona qoruyucu, heç bir şey lazım deyil, rahat yaşayır. Bax, bu gün Sankt-Peterburqda olan danışıqdır. Ona görə haradasa kim kimisə vurdu, öldürdü – həyatda belə şeylər var və həmişə olubdur. Deyirlər ki, Sankt-Peterburqda 200 min azərbaycanlı yaşayır. Kimsə bunlardan hansınısa vurub öldürübsə, bunu böyük hadisəyə çevirmək olmaz. Bu, adi cinayətdir və bunu da araşdırmaq lazımdır. Bunu şişirtmək lazım deyildir. Siz burada hay-küy salırsınız ki, qətlə yetirdilər, filan etdilər. Amma o kişilər orada mənə heç bir söz deməyiblər. Bax, bu elə onu göstərir ki, sizin bu hay-küyünüzə ehtiyac yoxdur. Onlar mənə qətiyyən heç bir söz demədilər. Dünən oraya gələndə də onlar məni qarşılayırdılar. Deyə bilərdilər ki, bəli, Siz qubernator ilə görüşəcəksiniz, prezident Putinlə görüşəcəksiniz. Bizim problemimiz var, onlara deyin. Onlar heç bir şey demədilər. Biz bu gün də bir yerdə idik.

**S u a l: Cənab Prezident, İranın ekspertlərdən ibarət nümayəndə heyəti iyunun 11-də Bakıya gələcəkdir. Bu səfər zamanı müzakirələrdə Xəzərin statusu ilə bağlı müsbət nəticə gözləmək olarmı?**

**C a v a b:** Bilirsiniz, biz müsbət nəticə istəyirik və bizim ekspertlər İranda çox işlədilər. Hiss olundu ki, bu işi davam etdirə bilərlər. Ona görə də biz orada belə qərara gəldik ki, iyunun 11-də onlar Bakıya gəlsinlər və burada ekspertlərlə işlərini davam etdirsinlər. Mən arzu edərdim ki, ekspertlər yaxşı bir nəticəyə gəlsinlər.

**S u a l: Cənab Prezident, Rusiya prezidenti ilə bu barədə müzakirələr aparıldımı?**

**C a v a b:** Ümumiyyətlə, Rusiya prezidenti ilə görüşümüzdə Xəzərin statusu barəsində söhbət oldu. Əlbəttə, mən İrana səfərim haqqında ona məlumatlar verdim. O da mənə çox məlumatlar verdi.

**S u a l: Cənab Prezident, İranın neft naziri belə bir bəyanatla çıxış edib ki, onlar yeni texnologiyalara 300 milyon dollar sərmayə qoyublar və Xəzərin dərin qatlarında işləyəcəklər. Azərbaycanlı ekspertlər isə bildiriblər ki, bu dərin qatlar İran sahillərində ola bilməz. Bu yataqlar Azərbaycanın sahillərindədir. Sizə bu barədə hansısa məlumat verilibmi?**

**C a v a b:** Bilirsiniz, mən belə şeylərə fikir vermirəm. Nə üçün? Xəzərin dərin qatında işləmək üçün gərək üç il kəşfiyyat aparasan, bunun üçün gərək dərin qatda işləyən, yəni quyu qaza bilən qurğu olsun. Biz burada «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» qurğularını yaratdıq. Bilməlisiniz ki, indi Xəzər dənizinin dərin qatlarında quyu qazmaq üçün, işləmək üçün bu üç qazma qurğusundan savayı, heç bir qurğu yoxdur. Bu, İranda da yoxdur. İndi nə cür ola bilər ki, bir gündə gəldi, Xəzərin dərin qatlarında işləməyə başladı?

**S u a l: Cənab Prezident, iyunun 15-də əfv haqqında yeni fərman gözlənilirmi?**

**C a v a b:** Əfv fərmanını bu yaxınlarda verdim. Elə hər gün əfv fərmanı gözləyəcəksiniz?!

**S u a l: Cənab Prezident, Rusiya–NATO əməkdaşlığı barədə prezident Putin Sizə məlumat verdimi? Bu, Cənubi Qafqaz regionunda təhlükəsizlik məsələlərinə hansı yeniliklər gətirə bilər?**

**C a v a b:** Bəli, biz bu barədə söhbət etmişik. Prezident Putin də mənə çox şeylər danışıbdır. Ancaq burada sizə deyiləsi bir şey yoxdur.

**S u a l: Cənab Prezident, Siz dediniz ki, Dağlıq Qarabağla bağlı müzakirələr aparılmışdır. Elə həmin vaxt Robert Köçəryan Belarus kütləvi informasiya vasitələrinə müsahibə verib və belə bir ifadə işlədib ki, biz bir il əvvəl problemin həllinə daha yaxın idik. Amma nədənsə, nəticə alınmadı. Sonra isə deyib ki, biz son qərar verməyə hazırlaşırıq. Sizcə, hansısa ciddi addımların atılacağını gözləmək olarmı, yoxsa bu, sadəcə adi ifadələrdir?**

**C a v a b:** Hər deyilən sözdən böyük bir nəticə çıxarmaq lazım deyildir. İndi bu sözləri deyir, yəqin ki, vaxt gələcək, biz onunla görüşəcəyik. Onda baxarıq, nəyə hazırdırlar, nəyə hazır deyillər.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ məsələsinin həllində Rusiyanın mövqeyində dəyişiklik varmı?**

**C a v a b:** Rusiya həmişə o mövqedədir ki, bu münaqişə tezliklə qurtarmalıdır.

**S u a l: Cənab Prezident, Putinlə danışıqlarınızın bir hissəsi prezidentlər Buş ilə Putin arasında keçirilmiş görüşə həsr olunubdur. Bildiyimizə görə onların görüşü zamanı Ermənistan–Azərbaycan münaqişəsi də müzakirə olunmuşdur. Onların görüşlərinin bu münaqişənin həllinə təsiri ola bilərmi?**

**C a v a b:** Bəli, Putin–Buş görüşlərində Dağlıq Qarabağ məsələsi müzakirə olunubdur. Ancaq onlarda elə bir qərar yoxdur. Bilirsiniz, onlar öz bəyanatlarında yazıblar ki, hər iki prezident Azərbaycan və Ermənistan prezidentlərini çevik hərəkət etməyə, məsələni həll etməyə çağırır. Belə olan halda Amerika Birləşmiş Ştatları və Rusiya öz yardımlarını göstərməyə hazırdır. Bundan artıq sizə bir şey deyə bilmərəm.

Artıq gecdir. Gedin yatın, sabah birinci gündür, istirahət edin ki, yaxşı işləyəsiniz. Sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramı – Rusiya Federasiyasının dövlət suverenliyi haqqında Bəyannamənin qəbul olunması günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Rusiyanı dərin dostluq, mehriban qonşuluq və qarşılıqlı yardım ənənələri birləşdirir.

Əminəm ki, ölkələrimizin çox böyük potensiala malik olan faydalı əməkdaşlığı bundan sonra da genişlənərək, qarşılıqlı əlaqələrimizin yeni-yeni sahələrini əhatə edəcəkdir.

Bizim aramızda olan etimad, qarşılıqlı anlaşma və konstruktiv dialoq mühiti Azərbaycan ilə Rusiya arasında münasibətlərin inkişafına xüsusi dinamizm verir.

Sizin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə və ədalətlə nizama salınmasına yönəldilmiş səylərinizə Azərbaycanda böyük ümidlər bəsləyirlər.

Hörmətli Vladimir Vladimiroviç, fürsətdən istifadə edərək, bu günlərdə Sankt-Peterburqa səfərim zamanı səmimiyyətlə qarşılandığıma görə, bizi maraqlandıran mühüm məsələlər barəsində söhbətə görə, mənə və nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, Rusiya xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 iyun 2002-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM QLORİYA MAKAPAQAL ARROYOYA**

Hörmətli xanım Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Filippin xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimizi bir-birinə yaxınlaşdıran dostluq əlaqələrindən xalqlarımızın rifahı üçün səmərəli istifadə edə biləcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 iyun 2002-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da inkişafı üçün göstərdiyimiz səylərlə xalqlarımızın rifahına böyük töhfələr verəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 iyun 2002-ci il*

**İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLAVUR RAQNAR QRİMSSONA**

Hörmətli cənab Prezident!

İslandiya Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və bütün İslandiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasında hərtərəfli əməkdaşlıq üçün zəmin yaradan dostluq əlaqələrimiz ildən-ilə genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İslandiya xalqına əmin-amanlıq və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 iyun 2002-ci il*

# RUSİYANIN MİLLİ BAYRAMI – RUSİYA FEDERASİYASININ DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA BƏYANNAMƏNİN QƏBUL EDİLMƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*Rusiyanın Azərbaycandakı səfirliyi*

*12 iyun 2002-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!
Mən Rusiya günü, Rusiya Federasiyasının dövlət suverenliyinin elan edilməsi günü münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm. Bu, böyük bayramdır, yeni Rusiyanın tarixində ən əsas bayramdır.

Məhz həmin gün, Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamənin qəbul edildiyi gün ilk öncə Rusiyanın özündə – çünki Rusiyanın özü o vaxtlar mövcud olan hər şeydən azad olmalı idi – və təbii ki, Rusiya ilə birlikdə Sovetlər İttifaqının tərkibində olmuş digər respublikalarda müstəqilliyə və azadlığa doğru hərəkat başlandı. Ona görə də biz bu günü təkcə rusiyalıların, Rusiya Federasiyasının bayramı kimi qiymətləndirmirik, biz bu günü Sovetlər İttifaqının tərkibinə daxil olmuş digər respublikaların, o cümlədən də Azərbaycanın azadlığının, müstəqilliyinin, suverinliyinin bünövrəsini qoymuş gün kimi də qiymətləndiririk.

Burada Nikolay Timofeyeviç Rusiyanın son vaxtlar qazandığı böyük uğurlardan və öz suverenliyini elan edərək müstəqil dövlət olduğu vaxtdan bəri Rusiyanın necə böyük və mürəkkəb yol keçməli olmasından çox yaxşı, aydın və inandırıcı şəkildə danışdı. Bəli, Rusiyada xüsusən son illərdə, həqiqətən böyük dəyişikliklər baş verir. Əlbəttə, bu dəyişikliklərin bünövrəsi əvvəllər, Rusiya demokratiya, azadlıq, bazar iqtisadiyyatı, aşkarlıq yolunu seçdiyi vaxtda qoyulmuşdur. Lakin bu yolda nə qədər çətinliklər, maneələr olduğu və rusiyalıların bunları necə çətinliklə və əziyyətlə dəf etdikləri xatirimdədir. Ancaq bunlar artıq arxada qalmışdır.

İndi Rusiya yüksəlişdədir və Rusiyanın iqtisadi inkişafı barədə Nikolay Timofeyeviçin gətirdiyi rəqəmlər, məlumatlar, şübhəsiz, dostcasına hörmət hissi doğurur. Mən buna sevinirəm. Biz Rusiyanın uğurlarına həmişə sevinmişik və uğursuzluqlarından kədərlənmişik. Lakin xoşbəxtlikdən, indi Rusiyada uğurlar daha çoxdur, uğursuzluqlar hələlik yoxdur və hesab edirəm ki, olmayacaqdır. Çünki indi Rusiya tamamilə düzgün istiqamətdə, özü də prezident Vladimir Vladimiroviç Putin başda olmaqla çox layiqli qüvvələr tərəfindən idarə edilir.

Rusiyanın xarici siyasətindəki böyük dinamizmi bizdə böyük maraq doğurur. Bu dinamizmin təkcə Rusiyaya deyil, Avropaya, Dünya Birliyinə də aidiyyatı var. Bu proses, əlbəttə, birtərəfli deyildir. Amerka Birləşmiş Ştatlarında, Avropa ölkələrində görülən işlər, bununla əlaqədar Rusiyanın gördüyü işlər – bütün bunlar bir yerdə dünyada tamamilə yeni mühit, yeni şərait yaradır. İndi bütün dünya 11 sentyabr hadisələrindən sonrakı dövrü yaşayır. Həmin gün bəşəriyyət terrorizmlə, özü də tarixdə görünməmiş bir terrorizmlə üzləşdi. Bizi belə bir fakt sevindirir ki, 11 sentyabrdan sonra ötən müddət ərzində dünyanın aparıcı ölkələri – Amerika Birləşmiş

Ştatları, Avropa ölkələri, Rusiya, NATO-nun üzvü olan bütün başqa ölkələr terrorizmə qarşı öz səylərini fəal surətdə birləşdirirlər.

ABŞ prezidenti Buşun və Rusiya prezidenti Putinin bu yaxınlarda Moskvada görüşü böyük hadisə oldu və çox mühüm nəticələrlə yadda qaldı. İndi Rusiya NATO ilə bir yerdədir. Bu, əlbəttə, belə fikirləşməyə əsas verir ki, hələ də bəzi məsələlərdə mövcud olan və təzahür edən qarşıdurma tədricən aradan qaldırılır. Bütün bunlar Avropanın, Amerika Birləşmiş Ştatlarının həyatında, ümumiyyətlə, bütün dünyada çox böyük hadisədir, lakin bunlar bilavasitə digər ölkələrə, o cümlədən Azərbaycana da aiddir.

Biz öz dostlarımızı – rusiyalıları xarici siyasətdəki uğurlarına görə təbrik edə və əmin olduğumuzu deyə bilərik ki, Qərb ölkələri ilə, Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq gələcəkdə də inkişaf edəcəkdir. Bu isə Avropada və bizim regionda sabitliyin, hər bir ölkənin öz problemlərini özü həll etməsinin, öz iqtisadiyyatını inkişaf etdirməsinin, beynəlxalq terrorizmin tamamilə dəf edilməsinin təminatı olacaqdır.

Rusiya ilə bizim münasibətlərimiz yaxşıdır. Nikolay Timofeyeviç bu əsrin, bu minilliyin əvvəlində Rusiya ilə Azərbaycan arasında baş vermiş çox mühüm hadisələrdən – prezident Putinin Azərbaycana səfərindən, Azərbaycan prezidentinin cavab səfərindən, bizim imzaladığımız çox mühüm sənədlərdən söhbət açdı.

Nəhayət, Vladimir Vladimiroviç Putinin dəvəti ilə Sankt-Peterburqda bu yaxınlardakı görüşümüz barədə. Görüş məhz indiki mərhələdə çox vacib idi. Biz dövlətlərarası münasibətlərimizin mühüm məsələləri, dünyada baş verən hadisələr barədə, regionumuzda vəziyyət, Qafqazdakı münaqişələrin, xüsusən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi-

nin aradan qaldırılması üçün səyləri gücləndirməyin zəruriliyi haqqında fikir mübadiləsi apardıq. Söhbətimiz dostluq, qarşılıqlı anlaşma, etimad və qarşılıqlı hörmət ruhunda keçdi. Mən bu görüşdən çox məmnunam. Məmnunam ki, biz Sankt-Peterburqda, bu çox gözəl şəhərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsini birlikdə açdıq. Bu, qeyri-adi bir hadisədir.

Sankt-Peterburq elə bir şəhərdir ki, orada Rusiyanın – həm də təkcə Rusiyanın deyil – bir çox görkəmli adamlarının abidələri var.

Onlarla yanaşı, Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsinin də ucaldılması rusiyalıların Azərbaycan xalqına olan dərin ehtiramının əlamətidir, xalqlarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə yönəldilmiş bir aktdır. Heykəlin Rusiya prezidenti Putin və Azərbaycan prezidenti tərəfindən açılması bu hadisəni əlamətdar etmişdir.

Bu gün biz bu bayramda özümüzü çox gözəl hiss edirik. Çünki, əvvəla, Rusiya səfirliyində qonağıq, ikincisi isə, Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri ilə, səfirlərlə, diplomatlarla birlikdəyik. Yaxşı görüşdür! Mən bu görüşə görə minnətdaram. Sizi bu bayram münasibətilə bir daha təbrik edirəm və Sizə, bütün rusiyalılara və Yer kürəsinin bütün insanlarına xoşbəxtlik və firavanlıq arzulayıram.

## BÖYÜK BRİTANİYANIN VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin zəngin tarixi var. Məmnunam ki, ölkələrimizi birləşdirən ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bu gün özünün geniş miqyasda inkişafı ilə xalqlarımızın mənafeyinə xidmət edir.

Sizə möhkəm cansağlığı, səadət, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyun 2002-ci il*

**AVROPA ŞURASININ BAŞ KATİBİ**
**CƏNAB VALTER ŞVİMMERƏ**

Hörmətli cənab Baş katib!

60 illik yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Demokratik, humanist cəmiyyət quruculuğu yolunu tutmuş Azərbaycan Avropa Şurası ilə qarşılıqlı fəaliyyətə böyük əhəmiyyət verir.

Ümidvaram ki, başçılıq etdiyiniz bu nüfuzlu beynəlxalq təşkilat ilə əlaqələrimizin genişlənməsinə və səmərəli əməkdaşlığımıza bundan sonra da dəstək verəcəksiniz.

Sizə möhkəm cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyun 2002-ci il*

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNƏ

Hörmətli müəllimlər!

Əziz tələbələr!

Respublikamızın mötəbər ali təhsil ocaqlarından biri – Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyi münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda ali təhsilin inkişafına sanballı töhfələr vermiş Dövlət İqtisad Universitetinin ölkə qarşısında, onun sosial-iqtisadi problemlərinin həlli sahəsində mühüm xidmətləri vardır. Universitetin professor-müəllim heyətinin elmi-pedaqoji fəaliyyəti Azərbaycanda iqtisadiyyatın inkişafına daim xidmət etmişdir. Dövlət İqtisad Universiteti mövcud olduğu bütün bu dövr ərzində şərəfli yol keçmiş, öz elmi-pedaqoji potensialını qoruyub saxlayaraq ölkəmizin ən nüfuzlu ali məktəblərindən birinə çevrilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra universitet dərin iqtisadi islahatlar həyata keçirərək iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirən ölkəmizin sənaye, kənd təsərrüfatı, idarəçilik, ticarət kimi mühüm sahələrinin yüksək ixtisaslı kadrlarla təmin olunmasına böyük əmək sərf etmişdir. Universitet ölkəmizin iqtisadi sisteminin yeni münasibətlər əsasında formalaşdırılması və onun hüquqi bazasının yaradılmasında yaxından iştirak edən tanınmış ali təhsil müəssisəsi, nüfuzlu elm mərkəzidir, iqtisadiyyatımızın dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində onun məzunlarının mühüm rolu vardır.

Azərbaycan Dövlət İqtisad Universiteti xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərinə yiyələnən gənclər tərbiyə etməklə yanaşı, son zamanlarda iqtisadi təhsil sahəsində apardığı islahatlar, ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında göstərdiyi fəallıq, yeni mütərəqqi tədris texnologiyalarının tətbiqi, beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində bir sıra dəyişikliklərlə nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da layiqli bir təhsil ocağı kimi tanınmışdır. Əmin olduğumu bildirirəm ki, universitet ölkəmizin iqtisadi inkişafına bundan sonra da öz töhfəsini verəcəkdir.

Əziz dostlar! Sizi universitetin 70 illik yubileyi münasibətilə bir daha təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik, işlərinizdə yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyun 2002-ci il*

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN 70 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*13 iyun 2002-ci il*

Hörmətli müəllimlər, professorlar, alimlər, tələbələr!

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi!

Mən sizi universitetin 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə, universitetin bütün müəllim və tələbələrinə, hamınıza cansağlığı, işlərinizdə uğurlar, həyatınızda səadət arzulayıram.

İqtisad Universitetinin 70 illiyi münasibətilə dünən sizə təbrik məktubu göndərmişəm. Məktub bu gün mətbuatda dərc edilibdir. Güman edirəm, siz onunla tanış olmusunuz. Ancaq buna baxmayaraq, mən sizin dəvətinizi qəbul edib, bu yubiley mərasimində sizinlə bir yerdə olmağımı vacib bildim və sizin yanınıza gəldim.

Universitetin rektoru Əli Abbasov universitetin tarixi haqqında, keçdiyi yol, əldə etdiyi nailiyyətlər haqqında və xüsusən dövlət müstəqilliyi dövründə və onun son illərində əldə etdiyiniz nailiyyətlər haqqında məlumatlar verdi. Bu məlumatlar sevindiricidir. Biz bu gün Azərbaycanda keçən əsrin 20-ci illərindən başlayaraq ali təhsilin yaranması və inkişaf etməsinin, böyük vüsət almasının daha bir nümunəsini nümayiş etdiririk.

Bizim xalqımız XX əsrin 20-ci illərindən başlayaraq kütləvi surətdə təhsillənməyə başladı. Qısa bir zamanda böyük orta məktəb şəbəkəsi yarandı. Ali təhsil ocaqları yarandı. 1919-cu ildə Xalq Cümhuriyyəti tərəfindən yaradılmış ilk Azərbaycan universiteti ölkəmizdə ali təhsil sisteminin əsasını qoydu. Ancaq sonrakı illərdə ali təhsil sistemi görünməmiş sürətlə inkişaf etdi.

Əgər xatırlasaq ki, o illər Azərbaycan əhalisinin əksər hissəsi savadsız idi, Azərbaycanda ali təhsilli mütəxəssislər çox az idi, bizim milli kadrlarımız yox idi, deyə bilərik ki, ötən dövrdə Azərbaycanda ali təhsil sisteminin yaranmasında nə qədər böyük işlər görülübdür və bizim bugünkü ali təhsilin nə qədər möhkəm təməli qoyulubdur.

Bu ali təhsil ocaqlarından biri də Azərbaycan İqtisad İnstitutu idi, indi İqtisad Universitetidir. Bizim bəzi ali məktəblərimiz yaranandan çox uğurla, ardıcıl surətdə öz sahəsini əhatə edərək inkişaf etmişdir. Ancaq bunlardan fərqli olaraq, 1930-cu ildə İqtisad İnstitutu, yaxud Kooperasiya İnstitutu kimi yaranmış bu təhsil ocağı sonrakı dövrdə ağır tarixi bir dövr keçmişdir. O gah fəaliyyət göstərmişdir, gah fasilə vermişdir, bəzən adı dəyişilmişdir, bəzən profili dəyişilmişdir. Hər halda, bizim başqa ali məktəblərdən fərqli olaraq, bu ali məktəbimiz əvvəldən özünə lazımi istiqamət götürə bilməmişdir.

Mən indi burada oturarkən  düşündüm ki, təbiidir, bunun həm obyektiv, həm də subyektiv səbəbləri var. Obyektiv səbəbləri ondan ibarətdir ki, başqa ali məktəblər keçən illərin, əsrlərin təcrübəsindən irəliyə gəlmiş və onların əsasında öz təhsil sistemini qurub inkişaf etdirmişdir.

Məsələn, əgər Bakı Dövlət Universitetini götürsək, bəli, universitet sistemi keçmişdə, çar Rusiyası vaxtında da mövcud ol-

muşdur. O universiteti yaradarkən yeni bir şey icad olunmamışdı. Sadəcə, Azərbaycanın o vaxtkı imkanları çərçivəsində müəyyən fakültələr yaranmış, həmin fakültələrin də istiqamətləri artıq əvvəlki dövrlərdən müəyyənləşmişdir. Yaxud Tibb Universitetini götürsək, heç bunu araşdırmağa ehtiyac yoxdur. Tibb qədim dövrdən tibdir, insanların müalicəsidir və tibb ali məktəbləri keçmişdə dünyanın müxtəlif ölkələrində, o cümlədən çar Rusiyasında mövcud olmuşdur. Demək, bu ənənə müəyyən qədər davam etdirilmişdir. Ancaq Azərbaycanda İqtisad İnstitutu yaradılır. Hansı İqtisad İnstitutu? Bəlkə bizim iqtisadçılar da, tarixçilər də məsələnin bu cəhətinə heç o qədər də diqqət yetirməyiblər.

Təsadüfi deyil ki, ilk dəfə Ticarət və Kooperasiya İnstitutu yaranıb, sonra İqtisad İnstitutu olubdur. Çünki sovet hakimiyyəti vaxtında keçmiş iqtisadiyyatdan, keçmiş iqtisadi sistemdən, quruluşdan imtina edilmişdi. Ona görə də təhsilin, elmin yaranması prosesi o vaxt, sovet hakimiyyəti vaxtında yaranan iqtisadi sistemi əks etdirməli idi. Bu iqtisadi sistemin özü hələ tam yaranmamışdı və onu yaratmaq da asan deyildi. Yaradırdılar. Bütün bunlara görə də hesab edirəm ki, bizim İqtisad İnstitutu bu baxımdan keçmişdə bir az başıbəlalı institut olubdur. Çünki onun kökü olmayıbdır.

Hansı iqtisad? Sonra, 1930-cu illərdə ona gəlib çıxdılar ki, bunun əsasını siyasi iqtisad təşkil edir. Sosialist iqtisadiyyatının, ya məlum olan siyasi iqtisadiyyatın əsas kökləri də artıq hamıya məlumdur. Hesab edirəm ki, bu, institutun belə ardıcıl surətdə lazımi səviyyədə inkişaf edə bilməməsinin obyektiv səbəblərindən biridir.

Subyektiv səbəbləri odur ki, təəssüflər olsun, bu institut tarixin müxtəlif mərhələlərində müxtəlif insanların o qədər də müsbət olmayan fəaliyyətləri nəticəsində inkişaf edə bilmə-

mişdir. Xatirimdədir, İkinci dünya müharibəsi qurtarandan sonra da bu institut elə də sanballı, ali məktəblər sırasında o qədər də böyük hörmətə malik olan bir institut deyildi.

Yadımdadır, o vaxtlar gənclər – düzdür, mənim instituta daxil olduğum dövr müharibədən qabaqkı illərə təsadüf edibdir – məsələn, 1945, 1946, 1947-ci illərdə məktəbi qurtaranlar daha çox dəqiq fənlərlə, neftlə əlaqədar olan sənaye institutuna, inşaatla əlaqədar olan fakültələrə gedirdilər. Yaxud o vaxt filologiya, tarix elmlərinə böyük meyl var idi. Amma iqtisad elmi o vaxt, həqiqətən hələ elm səviyyəsinə gəlib çatmamışdı. Qocaman iqtisadçılar məni bu sözlərimə görə bağışlasınlar. Amma bu həqiqətdir. Ona görə də bu instituta o qədər də maraq yox idi.

Mənim yadımdadır, Dövlət Universiteti, başqa institutlarla tanış olurdum. Bəzi yerlərə tələbələrin çox axını var idi. Amma İqtisad İnstitutuna gedib ərizə verən yox idi, yaxud az idi. Yaxud da deyirdilər ki, kim hara ərizə verə bilmirsə, daxil ola bilmirsə, gedin ora ərizə verin. Bu keçmişdir. Bizim dövrümüzdə də, yəni şəxsən mənim Azərbaycanda rəhbər olduğum dövrdə də biz çalışdıq ki, İqtisad İnstitutu başqa institutların səviyyəsinə gəlib çatsın. Mən etiraf etmək istəyirəm ki, biz buna nail ola bilmədik. Çünki burada bəlkə də öz ixtisasını bilməyən, müəllimlik vəzifəsindən öz şəxsi məqsədləri üçün istifadə etmək istəyən, yaxud başqa məqsədlər güdən ayrı-ayrı qüvvələr var idi, toqquşmalar, çəkişmələr, intriqalar var idi. Ancaq biz 1970-ci illərdən çalışdıq ki, bu institutu lazımi səviyyəyə qaldıraq və onu qaldıra da bildik. 1980-ci illərdə artıq bu institut yüksək səviyyəyə qalxmışdı. Ancaq sonra yenə həm institutun daxilində, həm də onun ətrafında bəzi mafiyoz qüvvələr öz şəxsi məqsədlərinə nail olmaq üçün intriqalar, çəkişmələr yaratdılar və Moskvaya dalbadal ərizələr, anonim məktublar, bir-birindən şi-

kayətlər yazmağa, bir-birini günahlandırmağa başladılar – dəhşətli bir vəziyyət idi.

Mən o illər Moskvada işləyirdim. Amma bu sədalar mənə gəlirdi. Bu işi öz şəxsi mənafeləri üçün edənlər anlamırdılar ki, artıq Azərbaycana qarşı Dağlıq Qarabağ probleminin meydana çıxarılması üçün cürbəcür hərəkətlər başlanan vaxt, Azərbaycana qarşı təzyiqlər göstərilən vaxt onlar bu əməlləri ilə öz ölkələrinə, respublikalarına, xalqına, millətinə zərər gətirir, onu ləkələyirdilər. Təbiidir ki, nöqsanlar var idi, yazılan ərizələrdə müəyyən həqiqətlər də var idi. Amma iftiralar, yalanlar da çox idi. Ancaq bizim xalqımız, millətimiz, alimlərimiz, elm adamlarımız bu məsələləri öz aralarında araşdırıb qərar qəbul edə bilməzdilərmi? Moskvaya kisələrlə anonim məktublar göndərirdilər. Əli Abbasov burada dedi. Ancaq o hadisə Azərbaycan üçün çox dəhşətli bir hadisə oldu. Bura hansısa komissiya gəlmişdi, yoxlamışdılar və iş o yerə çatmışdı ki, Azərbaycanın bu institutunun məsələsinə Moskvada ən yüksək səviyyədə baxılırdı.

O vaxt Kommunist Partiyası Mərkəzi Komitəsinin nəzdində Partiya Nəzarət Komitəsi var idi, bütün belə işlərə baxırdı. O ancaq çox böyük dövlət və partiya əhəmiyyəti olan işlərə baxırdı. Bu məsələ gedib oraya çıxmışdı. Mən orda işləyərkən bu şeylərin bəzilərindən xəbərim olmamışdı. Yəni onlar bunu məndən gizlətmişdilər. Baxmayaraq ki, mən Siyasi Büronun üzvü kimi, yaxud SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, SSRİ-nin bütün ali təhsil sisteminə, orta təhsil sisteminə və peşə təhsili sisteminə rəhbərlik edirdim. Amma bunu məndən gizlətmişdilər.

Günlərin birində bu məsələni Siyasi Büronun iclasına çıxardılar. Xırda bir məsələ, Siyasi Büroya yaraşmayan bir məsələ – Mərkəzi Komitənin təlimatçısı buna baxa bilərdi.

Bəli, təklif verildi ki, Azərbaycanda İqtisad İnstitutu bərbad vəziyyətdə olduğuna görə bağlansın. SSRİ-nin ali təhsil tarixində bu, ilk hadisə idi ki, belə bir qərar qəbul olunmuşdu. Başa düşdünüzmü, bu olubdur, 1987-ci ildə idi. Mən onda çox acıdım. Ancaq hər şey həll olunmuşdu. Bunu kim etdi? Bizim öz vətəndaşlarımız, azərbaycanlılar. Ermənilərin, başqalarının əlində oyuncaq olaraq bu işləri edənlər. Bu, Azərbaycanın ali təhsili üçün böyük ləkə oldu. Bu ləkəni də Azərbaycana yaxan burada həmin bu işlərlə məşğul olan insanlar oldular.

Mən bayram günü bəlkə də bunu deməməliydim. Ancaq mən həqiqəti sevən adamam. Mənim əlimdə başqa bir fürsət olmayacaq ki, sizinlə bir də görüşüm, bunu deyim. Mən bunu deyirəm və güman edirəm ki, Azərbaycan xalqına o cür xəyanət etmiş insanlar, heç olmasa indi xəcalət çəkməlidirlər. Onların bəziləri akademikdir, bəziləri professordur, bəziləri filandır, filandır. Qoy bilsinlər, heç olmasa özləri öz vicdanları ilə söhbət edib öz günahlarının bizim xalqımıza nə qədər zərər vurduğunu anlasınlar və hamı da bundan nəticə çıxarsın. Biz gərək millətimizi qoruyaq, xalqımızı qoruyaq. İndi bu sözlər daha da aktualdır. Çünki indi biz müstəqil ölkəyik, müstəqil dövlətik. Millətimiz inkişaf edir. Mən bu salona baxıram. Mən o illərdə də belə salonlar görmüşəm. Amma burada kimi görürəm, hamısı azərbaycanlı, hamısı bizim millət. Mən bununla fəxr edirəm. Bizim, o cümlədən mənim də fəxr etməyə çox əsasımız var. Ancaq bu gün mən sizinlə görüşərkən, bu salona baxarkən, sizə baxarkən fəxr edirəm. Fəxr edirəm ki, bizim milli ali təhsilimiz var. İndi bizim yetişən gənc milli kadrlarımız var. Azərbaycan elminə böyük töhfələr vermiş və xidmətlər göstərmiş qocaman professorlarımız var, alimlərimiz var. Mən bununla fəxr edirəm.

Bu, böyük nemətdir. Gəlin bundan sonra bu neməti əlimizdə möhkəm saxlayaq.

Dünya dəyişəndən sonra, yəni Sovet İttifaqı dağılandan sonra, sosialist sistemi dağılandan sonra çox şey dəyişir. Amma bəzi şeylər o qədər də dəyişmir.

Məsələn, riyaziyyat elmi dəyişmir, necə var, elə qalır. Fizika elmi dəyişmir. Ya sovet hakimiyyətində olsun, ya kapitalist hakimiyyətində olsun, ya keçmişdə olsun, ya da bizim müstəqil dövlətdə olsun – fizika elmi elə fizika elmidir. Amma ictimai elmlər çox dəyişir və dəyişməlidir, mütləq dəyişilməlidir. Bunlar hamısı indi bizim müstəqilliyimizin inkişafına xidmət etməlidir. Bizim milli müstəqilliyimizi əks etdirməlidir. Elmdə, təhsildə, kadrların hazırlanmasında bu dəyişikliklər gərək yeni Azərbaycanın yaranmasına xidmət etsin. O cümlədən də iqtisad elmi.

Bizim ölkədə keçmişdə olan iqtisad elmi özünü doğrultmadı. İndi sizin çoxlarınız yazdığınız əsərləri, təbiidir ki, kitab rəflərində saxlamalısınız. Onlar tarixi öyrənmək üçün qiymətlidir. Amma onların bu gün üçün əhəmiyyəti yoxdur. O əsərlər ki, siyasi iqtisad konsepsiyası əsasında yaranıb, onların heç birinin bu gün bizə xeyri yoxdur. Xeyri o ola bilər ki, sadəcə, indiki elmi konsepsiyaları onlarla müqayisə edəndə görək o vaxt nə var idi, indi nə var. Amma indi bizim iqtisadi konsepsiyamız, ümumiyyətlə, dövlətimizin siyasəti məlumdur.

Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlətdir. Azərbaycanda demokratik dəyərlər ardıcıl surətdə bərqərar olmaqdadır və inkişaf etməkdədir. Bu bizim ana yolumuzdur. Biz bu yol ilə daim gedəcəyik, başqa yol yoxdur. Biz demokratiya yolunu seçmişik. Demokratiyanın təmin edilməsi

üçün onun iqtisadi əsası bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatının özünün qanunları var.

Ümumiyyətlə, bazar iqtisadiyyatını siz mütəxəssislər yəqin ki, məndən yaxşı bilirsiniz. Ancaq bazar iqtisadiyyatı ilə məşğul olan bir adam kimi, mən də az bilmirəm. Bazar iqtisadiyyatı özü-özünü tənzimləyir. Mən indi vaxt alıb burada sizə siyasi iqtisad elmi ilə bazar iqtisadiyyatını müqayisə edib nəyin nə olduğunu bildirmək istəmirəm. Ancaq bir şey aydındır ki, bazar iqtisadiyyatı özü-özünü tənzimləyən bir iqtisadiyyatdır. Bunun da kökü bazardır. Bazar varsa, iqtisadiyyat var. İqtisadiyyat bazar üçündür. Bizim elmimiz, təhsilimiz də dövlətimizin həm xarici, həm də daxili siyasətinin həyata keçirilməsini təmin etməlidir. Bazar iqtisadiyyatına keçid uzun prosesdir. Bizdə bəzi adamlar belə hesab edirlər ki, yox, elə bu gün axşam yatdın, səhər durdun, axşam başqa idi, səhər bazar iqtisadiyyatı oldu. Yaxud axşam yatdın, səhər durdun, demokratiyadır. Doğru deyil. Bunların hamısını tam təmin etmək üçün, demokratiyanı, onun bütün prinsiplərini, bütün demokratik dəyərləri, insanların azadlığını, sərbəstliyini, söz azadlığını, mətbuat azadlığını tamamilə adamların beyninə yeritmək üçün və hər bir insanın şüurunda həkk etmək üçün ardıcıl iş aparılmalıdır, ağıllı iş aparılmalıdır və buna zaman lazımdır.

Eləcə də bazar iqtisadiyyatı. Xüsusən bizim kimi bir ölkədə. 70 il bizim xalqımızın şüurunda sosialist iqtisadiyyatının bütün prinsipləri əks olunubdur. Kimisində az, kimisində çox. Bunu bir gündə, bir ildə çıxarmaq mümkün deyildir. Amma eyni zamanda, bunu çıxarmaq, əvəzində bazar iqtisadiyyatı kimi çox qeyri-adi olan, yəni çox da sadə olmayan bir iqtisadi sistemi tətbiq etmək üçün çox işlər görmək lazımdır. Bilirsiniz ki, biz bunu görürük. Biz nə qədər qanunlar

qəbul etmişik, məcəllələr qəbul etmişik. Sisteminizi nə qədər dəyişdiririk. Əgər son beş ili götürsəniz, bizim iqtisadi sistemin əsasını təşkil edən sənədlər, fərmanlar, qanunlar həddindən artıq çoxdur. Bunları yaratmaq bizim vəzifəmiz idi. Biz bunu etmişik və demək olar ki, vaxtında etmişik. Amma bunları tətbiq etmək, bu və ya digər qanunun, fərmanın müddəalarının cəmiyyət üçün, insanın özü üçün, onun fərdi biznesi üçün faydasını anlatmaq, insanların bunu dərk etməsi böyük bir prosesdir. Bu proses bizdə gedir və gedəcəkdir. Bilin, biz qətiyyən dayanmayacağıq. Çünki biz inanırıq ki, yalnız bu prosesi ardıcıl surətdə həyata keçirərək Azərbaycanın iqtisadiyyatını daha da çox inkişaf etdirə və xalqımızın rifah halını daha da yaxşılaşdıra bilərik. Bu bizim əməli işimizdir. Eyni zamanda bu, nəzəriyyə ilə bağlıdır, dünya təcrübəsi ilə bağlıdır. Dünya təcrübəsini siz – bizim mütəxəssislər, alimlər, bu sahənin müvafiq işçiləri toplamalısınız. Nəzəriyyəni – yeni nəzəriyyə icad etməyə ehtiyac yoxdur – ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uyğunlaşdırmaq sizin vəzifənizdir.

Bilirsiniz ki, biz 1995-1996-cı illərdən ardıcıl surətdə iqtisadi islahatlar həyata keçiririk. Görürsünüz, onların nə qədər gözəl nəticələri var. Məsələn, Azərbaycanda 1995-1996-cı illərdən başlanmış torpaq islahatı qətiyyətlə, demək olar ki, MDB ölkələri məkanında ən yüksək nəticələr vermiş və ən uğurla həyata keçirilmiş islahatlardan biridir. Biz bunun nəticələrini görürük. Kənd təsərrüfatı 98 faiz özəlləşdirilibdir. Kənd təsərrüfatı məhsulları əvvəlki illərə nisbətən xeyli artıbdır. Bu da əhalinin həmin məhsullara olan ehtiyacını təmin edir.

Ümumiyyətlə, özəlləşdirmə nə qədər gözəl nəticələr verir. Özəlləşdirmə bizim iqtisadiyyatımızın bütün sahələrinə aiddir. Həm sənayeyə, həm kənd təsərrüfatına, həm nəqliyyata, həm

də inşaata. Bunların hamısının da nəticələrini görürük. O qədər faktlar var ki, onları siz bilirsiniz. Hesab edirəm, belə bir auditoriyada mən rəqəmlər, faktlar gətirib sizi inandırmağa çalışmamalıyam. Çünki siz bu işi başqalarına nisbətən daha da yaxşı bilməlisiniz, yaxud bilirsiniz və bizim bu işimizi təbliğ etməlisiniz. Çünki siz iqtisadçısınız. Bizim bu islahatların əhəmiyyətini cəmiyyət hiss edir, nəticəsini görür. Amma iqtisadçılar gərək apardığımız islahatların hər birinin həm həyata keçirilmə prosesini, həm də nəticələrini təhlil etsinlər. Ola bilər, bundan yaxşı əsərlər də yaza bilərsiniz. Bu da sizin elmi əsərləriniz olacaqdır.

Amma mənim üçün daha çox maraqlıdır ki, iqtisadi siyasətimizi, islahatlarımızı geniş kütləyə izah etməkdə bizim fəal yardımçımız olasınız. Siz bilirsiniz, keçən il bizim ümumi daxili məhsulumuz 10 faiz artmışdır. Bu, MDB ölkələri içərisində ən yüksək göstəricidir. Sənaye istehsalı təxminən 5,5 faiz artmışdır. Kənd təsərrüfatı istehsalı təxminən 9 faiz artmışdır. Mən təxmini deyirəm, bir az o yan-bu yan ola bilər. İnflyasiya yoxdur. Keçmişdə, sovet vaxtı sizdən kimsə inflyasiya nə olduğunu bilirdimi? İnflyasiyanın nə olduğunu heç kəs bilmirdi.

Biz Moskvada Nazirlər Sovetinin iclasında hər il büdcəni təsdiq edəndə inflyasiya sözü bir dəfə səslənirdi. Onda da o inflyasiyanı sovet sistemi ilə elə düzəldirdilər ki, inflyasiya var, lakin inflyasiya yoxdur. Amma indi hünərin var, bir az o tərəfə, bir az bu tərəfə ehtiyatsız tərpən. Gördünüz Türkiyədə nə oldu? Yaxud ondan 2-3 il əvvəl Rusiyada nə oldu? Ondan əvvəl Uzaq Şərqdə nə oldu? Haralarda olmadı və böhranlardan niyə çıxa bilmirlər?! Amma bizdə 1993–1994–1995-ci illərdə inflyasiya 1600 faizə çatdığı halda, üç-dörd ilin içərisində onun qarşısını aldıq, onu cilovladıq. İndi hər il

bizdə milli valyuta sabitdir və bunu maliyyəçilər yaxşı bilirlər, müəyyən maliyyə qanunlarına uyğun, 1-2 faiz inflyasiya var. Budur bizim göstəricilərimiz. Göstəricilərimiz çoxdur, nailiyyətlərimiz çoxdur. Ancaq bu bizim üçün hələ yetərli deyildir. Bizim çox böyük imkanlarımız var. O imkanlardan siz və biz bir yerdə istifadə etməliyik.

Mən bu gün sizin qarşınızda Azərbaycanın iqtisadiyyatının bugünkü vəziyyəti, əldə olunmuş nailiyyətlər, rəqəmlər haqqında söhbət açmaq fikrində deyiləm. Sadəcə, bu mövzulara toxunuram və bununla bağlı iqtisadçının vəzifəsi, iqtisad elminin vəzifəsi və İqtisad Universitetinin vəzifələri haqqında danışıram. Siz bunun detallarını yaxşı bilirsiniz. Bu mənim də işim deyildir. Onsuz da mənim dərdim çox, işim çox, problemim çoxdur. Ancaq əsas bu fikirlərimi sizə çatdıraraq bildirmək istəyirəm ki, siz hamınız – Azərbaycanın iqtisadçıları, yaşlıları da, gəncləri də yenidən doğulmusunuz. İqtisadi siyasəti həyata keçirənlər kimi, biz də yenidən doğulmuşuq. Amma birdən-birə, bir günün, iki günün içində doğulmamışıq. Biz ağır bir keçid prosesi yaşayırıq. Bax, bu keçid prosesini sizinlə ardıcıl, dayanmadan, uğurla keçməliyik və Azərbaycanın iqtisadiyyatını daha da inkişaf etdirməliyik.

Azərbaycan iqtisadiyyatının böyük imkanları var. Bizim neft və qaz sərvətlərimiz sizə məlumdur. Həyata keçirdiyimiz layihələr və əldə etdiyimiz nəticələr də sizə məlumdur. Bunun da üstündə dayanmaq istəmirəm. Azərbaycanın sovet vaxtında yaranmış böyük sənaye potensialı sizə məlumdur. Azərbaycanın çox gözəl münbit torpaqları və böyük kənd təsərrüfatı – bunlar hamısı sizə məlumdur.

Bunları bizim daxili imkanlarımız, xarici sərmayə ilə birləşdirərək və dünya iqtisadiyyatına inteqrasiya olunaraq iqtisa-

diyyatımızı çox sürətlə inkişaf etdirə bilərik. Belə imkanlar mövcuddur və bizim böyük perspektivlərimiz var.

Bilirsiniz ki, təxminən 1994-cü ildən indiyə qədər Azərbaycanın iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulubdur. Düşünün, kiçik bir ölkə üçün bu çox böyük rəqəmdir. 5 milyard 3 milyon dollar neft sektoruna qoyulubdur. Təsəvvür edin, neft sektoruna qoyulan bu sərmayə xarici şirkətlərindir. Qarşıdan gələn 3-4 ildə Azərbaycanın neft sektoruna bir neçə milyard dollar sərmayə qoyulacaqdır. Bunlar hamısı öz nəticəsini verəcəkdir.

İndi biz neft müqavilələrindən mənfəət götürürük. Artıq biz Neft Fondu yaratmışıq. Neft Fondunda indi təxminən 580 milyon dollara qədər vəsaitimiz var. Bizim bir milyard 200 milyon dollar valyuta ehtiyatımız var. Amma 1993-cü ildə, 9 il bundan qabaq, iyunun 12-də mən burada, Bakıda ağır vəziyyətdə Azərbaycanın məsuliyyətini öz üzərimə götürmək təklifini düşünürdüm və müzakirə edirdim. Onda bizim heç 1 dollar da valyuta ehtiyatımız yox idi. Bunlar hamısı bizim əldə etdiyimiz ilkin nəticələrdir. Qarşıdakı illərdə gəlirlərimiz artacaq və xalqın rifah halı yaxşılaşacaq, maaşlar artacaqdır. İndi bizim büdcə yerinə yetirilir, problem yoxdur. İlin ikinci yarısında müəyyən sahələrdə maaşları artıracağıq.

Mən Milli Elmlər Akademiyasının prezidentinə bir neçə gün bundan öncə demişdim. Bu gün bir də demək istəyirəm ki, akademiya işçilərinin maaşlarını bu yaxın vaxtlarda artıracağam və bu barədə Baş nazirə, Maliyyə nazirinə göstəriş vermişəm. Onlar mənə təkliflər hazırlayırlar, bu günlərdə baxacağam. Narahat olmayın, artıracağam. Özü də siz bunu hiss edəcəksiniz. Maaşları başqa sahələrdə də artıracağıq.

Mən iki gün bundan əvvəl fərman verdim. Azərbaycanın 150 nəfər görkəmli incəsənət, ədəbiyyat xadimlərinə, başqa

sahələrdə fəaliyyət göstərmiş insanların hərəsinə 1 milyon 500 min manat ömürlük təqaüd təyin etdim. Beş il bundan əvvəl belə bir imkanım yox idi. İstəyirdim, amma edə bilmirdim. Çünki imkanım, vəsait yox idi. İndi vəsait var, görürsünüz, birdən-birə nə qədər səxavətli oldum, 150 nəfərə o qədər təqaüd təyin etdim. Onların hər biri Azərbaycanın ədəbiyyatının, incəsənətinin, mədəniyyətinin və bütün başqa sahələrinin tarixidir. Hər biri!

Tarix nədən yaranır? Tarixi insanlar yaradır. İnsanların şəxsiyyəti tarixi yaradır – əgər onlar şəxsiyyətdirlərsə. Bir də ki, bu şəxsiyyətlərin yaratdıqları əsərlər, qoyub getdiyi irs bu tarixi yaradır. Onlar bizim tariximizi yaradanlardır. Anar dedi ki, həmin 150 nəfərin içərisində təxminən 23 şair, yazıçı var.

Amma bəlkə bunu çoxları bilmir – orada təxminən 25–30 nəfər vaxtilə Sosialist Əməyi Qəhrəmanı adı almış insanlardır. Onları unutmaq olmaz. Hər dövrün öz hökmü var. Xatirinizdədir, o illərdə bizim ölkəmizdən ildə bir dəfə, iki dəfə beş-altı nəfərə Sosialist Əməyi Qəhrəmanı adı veriləndə nə qədər sevinirdik. Bu biz deyilikmi? Biz bunu niyə unutmuşuq, niyə bunu qaralayırıq? Nə üçün? Bizim çox görkəmli yazıçılarımız, bəstəkarlarımız, şairlərimiz o illərdə Sosialist Əməyi Qəhrəmanı adı alıblar. Bunun hər biri böyük hadisə idi.

Mənim xatirimdədir, gərək ki, 1975-ci ildə idi, rəhmətlik Süleyman Rəhimovun 70 yaşı tamam olurdu. Mən xahiş etdim ki, ona Sosialist Əməyi Qəhrəmanı adı versinlər. Bu hər dəfə asan keçmirdi. Ancaq, hər halda, mənim bu barədə xalqıma sədaqətim, xalqımın yolunda fədakarlığım həmişə nəticəsini verirdi. Bizim yazıçıların içərisində Süleyman Rəhimov ilk dəfə Sosialist Əməyi Qəhrəmanı adını aldı. Böyük bir hadisə idi, hamımız sevinirdik. Çünki traktorçu, sağıcı alırdı, kolxoz sədri alırdı, aqronom alırdı, neftçi alırdı. Amma

intellekt adamları, hansının ki, əməyi minlərlə, on minlərlə başqa zəhmət adamının əməyindən üstündür, onlara bu adı vermirdilər. Biz bu ənənəni yaratdıq. Yəni biz yaratmadıq, artıq bu, Moskvada yaranmışdı. Amma Azərbaycanı bu səviyyəyə qaldıra bildik. Ondan sonrakı illər Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Rəşid Behbudov, memar Mikayıl Hüseynov, alim Mustafa Topçubaşov aldılar. Başqaları da ola bilər, unutmuşam.

Bilirsiniz, indi zaman keçib, bəzi şeyləri demək olar. Mən Rəşid Behbudovu Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə təqdim edəndə dedilər ki, SSRİ-də bu janrdan olan heç bir artist belə ad almayıbdır. Mən dedim, ola bilər, almayıb, amma Rəşid Behbudov onların hamısından üstündür. Demək, o, almalıdır. Dedilər ki, yox, siz niyə elə düşünürsünüz, Rusiyada da çox böyükləri var. Dedim, var, onlara verin, mən sizə mane olmuram. Ancaq Rəşid Behbudov almalıdır. İndi bunu da deyim ki, birinci dəfə keçmədi. Bir ildən sonra yenə də məsələni qaldırdım və buna nail oldum.

Gəlin açıq danışaq. Rəşid Behbudov dahi, təkrarolunmaz bir müğənni idi. Hamımız onu sevirdik. Mən də onu çox sevirdim. Ancaq mən Azərbaycanın başçısı idim, min dənə dərdim, min dənə işim vardı. Əgər bir dəfə alınmadısa, alınmadı, Rəşid Behbudovdan ötrü özümü gedib orada öldürməliydim?! Amma etdim, özümü öldürdüm – yəni məcazi mənada deyirəm – ancaq nail oldum.

Bu sözləri ona görə deyirəm ki, bu adlar çox qiymətli adlardır. Onlar bu gün də qiymətlidir. İndi bu adamların içərisində sənayedən, kənd təsərrüfatından olanlar var, ağır maddi vəziyyətdədirlər. Onları niyə unudaq?! Mən onlara da belə təqaüd təyin etdim.

Yəni inkişaf edirik və inkişaf etdikcə zənginləşirik. Dövlət zənginləşir, millət zənginləşir, xalq zənginləşir, maaşlar artır və bundan sonra da artacaqdır. Arxayın olun.

Əziz dostlar, mən bu gün sizinlə bir növ açıq, sərbəst və sadə söhbət aparıram. Siz görürsünüz ki, mənim bu nitqimdə hansısa bir xüsusi siyasi ifadələr yoxdur. Amma Azərbaycanın prezidenti kimi, mənim işim odur ki, apardığımız xarici-daxili siyasəti hər bir insana imkan dairəsində izah edək, gördüyümüz işlər haqqında müəyyən məlumat verək.

Bizim bütün sahələrdə işlərimiz uğurla gedir. Bizi narahat edən və hələ nail olmadığımız bir problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bununla əlaqədar ağır vəziyyətdə çadırlarda yaşayan soydaşlarımızdır. Bilin, təkcə siz yox, qoy bütün millət, xalq bilsin bu, mənim qarşımda, həyatımda bu gün də, sabah da ən əsas vəzifədir və işimin, yəni vaxtımın daha çox hissəsini alan bir işdir. Nə mümkündür etmişəm. Amma o şeyləri ki, biz etmişik, şəxsən mən etmişəm, onların çoxunu siz bilmirsiniz və bilməyə də ehtiyac yoxdur. Lakin nə mümkündür etmişəm və bundan sonra da edəcəyəm. Mən bu yoldan dönməyəcəm. Ümid edirəm ki, biz bu problemi də uğurla həll edəcəyik.

Nə qədər ki, münaqişə həll olmayıbdır, çalışıram çadırlarda yaşayan soydaşlarımızın vəziyyətini müəyyən qədər yaxşılaşdıraq. Doğrudur, onlar hamısı öz evlərinə qayıtmalıdır. İndi onların evləri dağıdılıbsa da, yerləri-yurdları var. Güman edirəm, Dünya Birliyi bizə yardım edəcəkdir. Bizə həm Avropa Birliyi, həm Amerika Birləşmiş Ştatları – hamısı söz veriblər ki, məsələ həll olunsa, o insanlar öz yerlərinə qayıtsalar, onların kəndlərini, qəsəbələrini, şəhərlərini yenidən qurmaq üçün lazım olan yardımları edəcəklər. O vaxta qədər bizim özümüzün də imkanlarımız çox olacaqdır. Bunları edəcəyik.

Ona görə də onlara haradasa ev tikmək, yerləşdirmək məqsədəuyğun deyildir.

Mən bir neçə dəfə Biləsuvardakı çadırlarda olmuşam. Ora şoran torpaqdır, başqa yerlərə nisbətən orada yaşamaq çox çətindir. Mən qərar qəbul etdim, onlara bir neçə müvəqqəti qəsəbə tikilməsi üçün Neft Fondundan – 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» ilə əlaqədar apardığımız işdən əldə etdiyimiz neftin gəliri Neft Fondunda toplanıbdır – ilk dəfə 40 milyon dollar ayırdım. Bu ilin sonuna qədər həmin qəsəbələr hazır olacaqdır. Mən Biləsuvarda olan 5 çadır şəhərciyini tamamilə ləğv edəcəyəm, onları bu qəsəbələrdə yerləşdirəcəyəm.

1988-ci ildə Ermənistan–Azərbaycan münaqişəsi başlayanda azərbaycanlıları Ermənistandan zorla çıxardılar. O illərdə, ondan sonrakı illərdə Ermənistandan gələn azərbaycanlılar müxtəlif yerlərdə məskunlaşdılar, özlərinə yerlər tapdılar. Amma bir qismi indi də dəmir yolu vaqonlarında, ağır, çətin şəraitdə yaşayır.

Onların da məsələsini tamamilə həll etmək üçün – müvəqqəti yox – Goranboy rayonunda, Gülüstan tərəfdəki gözəl kəndlərdə hər birinə fərdi ev tikdiririk. İndi 150 ev hazırdır. Onlar yerləşiblər. Qalanları da hazır olacaqdır. Söz vermişəm, evlər hamısı hazır olub onlar orada yerləşəndə mən gedib bu insanlarla görüşəcəyəm.

Mən bu məqsədlər üçün Neft Fondundan cəmi 75 milyon dollar ayırmışam. Bu da Neft Fondundan ilk ayırmadır. Söhbət aparırdılar ki, Neft Fondu necə olacaq, vəsaiti necə xərcləyəcəklər, Neft Fondunu dağıdacaqlar. Bilin, Neft Fondu nəzarət altındadır, şəffafdır və ilk ayırma – 75 milyon dollar ancaq qaçqınlar, köçkünlər üçündür. Sağlıq olsun, belə tədbirləri davam etdirəcəyəm.

Əziz dostlar!

İqtisadiyyat haqqında danışdıq. Sizin vəzifələriniz haqqında danışdıq. Siyasəti, iqtisadiyyatı beyninizdən çıxarın. Keçmişdə yazdığınız kitablarınızın hamısını kənara qoyun. Onlar lazım deyildir. Sonra, istirahət vaxtı hərdən açıb vərəqləyərsiniz ki, belə zəhmətlər çəkmisiniz. O vaxtlar bunlar lazım idi. İndi yeni-yeni əsərlər yazın və ən əsası, bizim gəncləri, gənc nəsli müasir bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, müasir dünya maliyyə sisteminin tələblərinə uyğun olaraq təhsilləndirin.

Rektor dedi ki, burada 14 min tələbə təhsil alır. Böyük rəqəmdir. Əgər keçmişdə tarix fakültəsi, filologiya fakültəsi, o biriləri daha hörmətli idilərsə, indi ən hörmətli ixtisas iqtisadçıdır. Çünki bünövrə iqtisadiyyatdır. İqtisadiyyatı irəliyə aparmaq üçün, dünyanın mürəkkəb maliyyə sisteminə, iqtisadi sisteminə qoşulmaq üçün bizə müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclər lazımdır. Bu isə sizin qarşınızda duran əsas vəzifədir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəni şərəflə yerinə yetirəcəksiniz.

Sizə cansağlığı, işlərinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**ӘFQANISTANIN KEÇİD HÖKUMӘTİNİN BAŞÇISI ZATİ-ALİLӘRİ CӘNAB HӘMİD KӘRZAİYӘ**

Hörmətli Həmid Kərzai!

Əfqanıstanın keçid hökumətinin başçısı vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Ümidvaram ki, Əfqanıstan torpağında sülhün, sabitliyin bərqərar olması naminə göstərdiyiniz davamlı səylər öz bəhrəsini verəcək, ölkənizin hərtərəfli inkişafı üçün əlverişli şərait yaranacaqdır.

Əminəm ki, Azərbaycan ilə Əfqanıstan arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDӘR ӘLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 iyun 2002-ci il*

## LONDON SİTİNİN LORD MERİ MAYKL OLİVER VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyun 2002-ci il*

*Dövlətimizin başçısı Heydər Əliyev Azərbaycana səfər etdiklərinə, ölkəmizlə tanış olduqlarına görə qonaqlara təşəkkürünü bildirərək dedi ki, sizin bu addımınızı Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin təzahürü, əlaqələrin inkişaf etdirilməsi üçün Böyük Britaniya hökuməti tərəfindən atılan addım kimi qiymətləndirirəm. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Böyük Britaniya ilə əlaqələri ardıcıl surətdə inkişaf etdirir. Həm iqtisadi, siyasi və mədəni əlaqələr genişlənir, həm də Böyük Britaniyanın həddindən çox şirkətləri, iş adamları Azərbaycanda uğurla fəaliyyət göstərirlər.*

*Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu, Böyük Britaniyaya rəsmi səfərlərini xatırladan prezident Heydər Əliyev bildirdi ki, mən o illərdə London Sitinin qonağı da olmuş, o vaxtkı meri Azərbaycana dəvət etmişdim, nədənsə gəlmədi. Amma bu dəvətdən siz istifadə etdiniz. O vaxt meriyanın işi ilə tanış oldum və bu məndə çox böyük təəssürat oyatdı. Güman edirəm, siz öz təcrübənizi burada bölüşürsünüz və bu da bizim üçün çox əhəmiyyətli olacaqdır.*

*Səmimi qəbula, xoş sözlərə və Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə təşəkkür edən cənab Maykl Oliver*

*Bakının meri və İqtisadi İnkişaf naziri ilə keçirdikləri görüşlərdən danışdı.*

*Bakıya səfərinin əsas məqsədini açıqlayan qonaq dedi ki, biz Böyük Britaniyanın Azərbaycana maliyyə baxımından nə cür yardım edə bilməsini və bu ölkəyə xarici sərmayələr qoyulması üçün daha nələri etməyi düşünürük. Biz Neft Fondunun rəhbəri Samir Şərifovla görüşdük, o, işinə çox ciddi, məsuliyyətlə yanaşan adamdır. Anlayırıq ki, əldə olunmuş vəsaitin təhlükəsizliyini indidən təmin etmək lazımdır. Biz bu sahədə öz yardımımızı əsirgəmirik və fondun rəhbər işçiləri Londonda təcrübə keçə bilərlər. Cənab Oliver Azərbaycan prezidentinin təşəbbüsü ilə yerli və xarici biznesmenlərlə görüşlərin keçirilməsini, dövlət başçısının onları narahat edən problemlərlə şəxsən məşğul olmasını məmnunluqla vurğulayaraq dedi ki, özəl sektor dövlət büdcəsinə daha çox vəsait gətirir və əhaliyə daha yaxşı xidmət göstərir.*

*Qonağın fikri ilə razılaşan prezident Heydər Əliyev bildirdi ki, bizim sənayenin 50 faizi özəl sektordadır. Şəhər nəqliyyatı, demək olar, bütünlüklə, kənd təsərrüfatının 98 faizi özəl sektordadır. Biz 1995-1996-cı illərdə torpaq islahatı keçirdik, torpağı kəndlilərə payladıq. İndi Azərbaycanda kənd təsərrüfatı məhsulları bolluğudur. Amma 5-6 il bundan öncə qıtlıq idi. 1993–94–95-ci illərdə mən dövlət büdcəsindən vəsait ayırırdım ki, taxıl, un alsınlar. Bizə Avropa Birliyi də yardım edirdi ki, camaata çörək verə bilək. İndi isə Azərbaycanda biri-birindən ləzzətli çörək bişirirlər.*

*Siz vaxt tapıb bizim bazarlara gedin. Mən vaxtilə Parisin bazarını görmüşdüm, çox gözəl mənzərə idi. Bizim bazara gedin, Parisin bazarından pis olmayacaq, çünki hər şey var.*

*Dövlətimizin başçısı dedi ki, o, vaxtilə London metrosunu görüb, Bakı metropoliteni ondan daha da yaxşıdır və gediş haqqı Moskva metropolitenindəkindən beş dəfə ucuzdur.*

*Prezident Heydər Əliyev merdən Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyrə salam söyləməyi xahiş etdi.*

*Cənab Maykl Oliver görüşdən xatirə olaraq prezident Heydər Əliyevə hədiyyə təqdim etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ, FRANSA XARİCİ İŞLƏR NAZİRLİYİNİN KONTINENTAL AVROPA DEPARTAMENTİNİN DİREKTORU ÜQ PERNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyun 2002-ci il*

*Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev cənab Perneni Minsk qrupunun həmsədri təyin olunması münasibətilə təbrik edərək dedi ki, ümidvaram sizinlə səmərəli əməkdaşlıq edəcəyik. Fürsətdən istifadə edib sizi mənim dostum Jak Şirakın prezident seçkilərində qələbə çalması münasibətilə bir daha təbrik edir, Fransa xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.*

*Fransanın Minsk qrupunda öz nümayəndəsini bir az tez-tez dəyişdiyini xatırladan prezıdent Heydər Əliyev vurğuladı ki, doğrudur, yeni təyin olunan diplomat-səfir işləri heç də əvvəlkindən pis aparmır. Ancaq bele tez-tez dəyişiklik işin davamlı surətdə aparılmasına müəyyən qədər mane olur. Xatirimdədir, Ki-Uest görüşlərində Fransanın Minsk qrupundakı nümayəndəsi iştirak edirdi. Ancaq o həmin vaxt bizimlə vidalaşdı və sonra səfir Sürmen təyin edildi. Bir ildən sonra yenə dəyişiklik oldu. Bunları pis mənada demirəm, ancaq, ümumiyyətlə, diplomatik*

*xidmətdə azı üç il bir yerdə işləmək lazımdır. Mən bunu belə başa düşürəm. Təbiidir ki, kadr dəyişikliyi Fransa hökumətinin öz işidir. Amma bizi də, məni də bizim işimiz daha çox maraqlandırır. Biz sizinlə köhnədən tanışıq. Şübhə etmirəm ki, səmərəli əməkdaşlıq edəcəyik. Güman edirəm, siz bu məsul işinizə daim daha məsuliyyətlə yanaşacaqsınız.*

*Prezident Heydər Əliyev səfirə xatırlatdı ki, sizin tutduğunuz bu vəzifə adi diplomatik vəzifə deyildir. Fransanın 100, bəlkə də 150 ölkədə səfiri var. Amma ATƏT-in Minsk qrupunda Fransanın bir səfiri var. Mən arzu etməzdim ki, bundan sonra tez-tez belə dəyişikliklər olsun. Fransa bizim dostumuzdur. Fransanın prezidenti cənab Jak Şirak mənim xüsusi, böyük dostumdur.*

*Güman edirəm ki, siz bizim bu işlərlə yaxşı tanışsınız. Bilirsiniz ki, bu çox mürəkkəb və çətin məsələdir. Məsələnin həll olunmasında ATƏT-ə, Minsk qrupuna, onun həmsədrlərinə – Rusiya, Amerika Birləşmiş Statları və Fransaya bizim böyük ehtiyacımız var.*

*Səmimi qəbul üçün dövlətimizin başçısına təşəkkürünü bildirən Üq Perne dedi ki, cənab Prezident, Sizin tərəfinizdən qəbul olunmağım mənim üçün böyük şərəfdir. Mən Parisə qayıdan kimi Sizin arzularınızı, təbriklərinizi prezidentimizə çatdıracağam. Mən Sizi birləşdirən münasibətlərin səviyyəsini çox yaxşı bilirəm. Ola bilsin, elə bunlara görə də 2001-ci ilin əvvəlində Siz iki dəfə Parisə səfər etmisiniz. Bu bizim üçün də çox böyük əhəmiyyət kəsb edən bir hadisə idi.*

*Yeni vəzifəsindən söhbət açan diplomat vurğuladı ki, ola bilsin, mən bu problemi mütəxəssislər qədər dərindən bilmirəm, amma öz işimin mahiyyətindən asılı olaraq, bununla müəyyən müddət tanış olmuşam. Elə bu səbəbdən də 2000-ci ilin dekabrında buraya gəlmişdim ki, Sizi Fransaya dəvət edim. Siz bu*

*məsələ ilə bağlı bizim mövqeyimizi və hansı prinsiplər əsasında işlədiyimizi bilirsiniz. Fransanın bu regionda strateji maraqları yoxdur. Elə buna görə də çalışırıq ki, hər iki tərəf üçün məqbul sayılan vicdanlı həmsədr kimi, münaqişənin həllində əlimizdən gələni edək. Biz bu məsələdə qərəzsiz olmağa çalışırıq.*

*Əsas istəyimiz ondan ibarətdir ki, bu münaqişə tezliklə və ədalətlə həll edilsın. Bu məsələdə Sizə tam sadiq olduğumuza əmin ola bilərsiniz.*

*Prezident Heydər Əliyev diplomatla bəzi məsələləri müzakirə edəcəyini bildirdi:*

**Heydər Əliyev:** Parisdə prezident Jak Şirakla bu məsələlərlə əlaqədar görüş keçirərkən, bilirsiniz ki, öncə prezident Jak Şirak Ermənistan prezidenti Köçəryanla görüşmüş, sonra məni Parisə dəvət etmişdi, ondan sonra isə hər ikimizi Parisə dəvət etmişdi, çox səmərəli danışıqlar apardıq. Təbiidir ki, mən o danışıqların məzmununu açmaq məqsədi daşımıram. Buna ehtiyac yoxdur və o vaxt biz hamımız bəyan etmişdik ki, bunların məzmunu açılmamalıdır. Amma son vaxtlar Ermənistan tərəfi – ya Xarici Işlər naziri, yaxud da Ermənistan prezidenti Paris görüşlərindən möhtəkirlik məqsədi ilə müəyyən qədər sui-istifadə edirlər. Sonralar da bir-iki dəfə bəyanat veriblər ki, guya biz yenidən Paris prinsipləri əsasında danışıqlar aparmağa hazırıq. Bu məni təəccübləndirir. Çünki Paris prinsiplərini ondan dərhal sonra Ki-Uestdə pozan Ermənistan tərəfi oldu.

Bu prinsiplərin bir necə aspekti vardı. Onlardan birı o idi ki, Ermənistan Mehri rayonundan Azərbaycan ilə Naxçıvan arasında dəhliz verir və bunun əvəzində Azərbaycan Laçın rayonundan Ermənistana Dağlıq Qarabağla əlaqə yaratmaq üçün dəhliz verir. Bu məsələ prezidentlər Şirak, Köçəryan,

Əliyev – üçümüz tərəfindən birlikdə çox geniş müzakirə olundu. Ümumi fikir belə oldu ki, Azərbaycan, Naxçıvan üçün Mehri rayonundan verilən dəhliz Azərbaycanın suveren torpağı olacaqdır, eyni suveren dəhlizi Azərbaycan Laçın rayonundan Ermənistana Dağlıq Qarabağ üçün verəcəkdir. Deyə bilərəm ki, prezident Jak Şirak çox, bir neçə dəfə bu məsələ üzərində dayandı ki, bu dəhlizlər eyni statusa malik olacaqdır. Mehridən keçən dəhliz necə olacaqdırsa, Laçından keçən dəhliz də o cür olacaqdır. Ancaq bunu, eyni statusa malik olan dəhlizlərin – Mehri rayonundan Azərbaycan üçün, Laçın rayonundan Ermənistan üçün dəhliz verilməsini Ermənistan tərəfi Ki-Uestdə pozdu. Bu da bütün sonrakı danışıqların pozulmasına gətirib çıxardı. Mən bunu birinci dəfədir açıqlayıram, burada mətbuat da var. Amma məcburam, çünki Ermənistan tərəfi bunu son vaxtlar dünya ictimaiyyətinə tamamilə yanlış şəkildə bildirir.

Prezident Şirakın katibi vardı, yazırdı. O yazılarda bunların hamısı var. Mən bununla bu mövzunu bağlamaq istəyirəm. Əgər Parisdə əldə edilmiş bu razılıq bərpa olunursa, biz Paris prinsipləri əsasında danışıqları davam etdirməyə hazırıq. Amma Ermənistan Mehridən suveren dəhliz vermək istəmir. Yəni əvvəlki sözündən geri çəkilir. Azərbaycandan isə suveren dəhliz istəyir. Biz buna razı ola bilmərik!

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ QISA MÜSAHİBƏ

*15 iyun 2002-ci il*

Bayramınız mübarək olsun! Sizi təbrik edirəm. Mən bu gün xarici səfərə getmirəm, öz ölkəmizin ərazisi olan Naxçıvana gedirəm. Güman etmirdim ki, burada mətbuatın nümayəndələri toplaşacaqlar. Ona görə də mən bəyanat verməyə ehtiyac duymuram. Çünki oraya gedirəm, orada Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbüsü ilə böyük olimpiya kompleksi yaranıbdır. Onun açılışında iştirak edəcəyəm. Sonra da ola bilər, Naxçıvanda bəzi işlərlə də məşğul olum. Ona görə də sual-cavaba ehtiyac yoxdur.

Hamınızı bir daha təbrik edirəm. Sizə cansağlığı, uzun ömür, bayramı yaxşı keçirməyi arzulayıram. Sağ olun.

* * *

*İyunun 15-də Azərbaycan prezidenti Heydər Əliyev Naxçıvana gəlmişdir. Vətənimizin bu qədim diyarında minlərlə insan hər bir azərbaycanlı üçün əziz olan əlamətdar bayram günündə – Milli Qurtuluş günü dövlətimizin başçısını qarşılamaq, xalqı-*

*mızın müdrik oğluna hörmət və ehtiramını bildirmək üçün küçə və meydanlara çıxmışdı.*

*Bayramsayağı bəzədilmiş Naxçıvan hava limanı xüsusilə izdihamlı idi. Azərbaycan prezidenti Heydər Əliyevi təyyarənin pilləkəni yanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyev qarşıladılar. Milli geyimli qızlar dövlətimizin başçısına gül dəstələri, şərbət təqdim etdilər.*

*Hava limanına toplaşan muxtar respublika ictimaiyyətinin nümayəndələri prezident Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar. Dövlətimizin başçısı onu qarşılayanları səmimiyyətlə salamladı. Azərbaycan prezidentinin gəlişi şərəfinə hava limanında, respublikamızın rəhbərini müşayiət edən maşın karvanının keçdiyi yolboyu qurbanlar kəsildi.*

## NAXÇIVAN OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*15 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev hava limanından birbaşa muxtar respublika paytaxtının Əziz Əliyev küçəsində tikintisi yenicə başa çatdırılmış Olimpiya İdman Kompleksinə gəldi. Kompleksin qarşısına toplaşmış minlərlə insan – şəhər ictimaiyyətinin nümayəndələri, idmançılar Azərbaycan prezidentini böyük mehribanlıqla, sürəkli alqışlarla qarşıladılar.*

*Burada Olimpiya İdman Kompleksinin acılışına həsr edilmis təntənəli mərasim keçirildi. Mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açdı.*

*Mərasimə toplaşanlar tərəfindən hərarətlə qarşılanan Azərbaycan prezidenti Heydər Əliyev Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılışı mərasimində geniş nitq söylədi.*

**Heydər Əliyev:** Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Əziz naxçıvanlılar!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycanın gözəl guşəsi olan Naxçıvan torpağında bu gün yenidən sizinlə görüşməyimdən özümü həddən ziyadə xoşbəxt hesab edirəm.

Burada deyildi ki, mənim Naxçıvana bugünkü gəlişim Qurtuluş gününə təsadüf edibdir. Ancaq mən bunu eşidərkən

düşündüm, bəlkə də təsadüf etməyibdir. Mən sadəcə, bu gün, bu əziz gündə sizinlə bir yerdə olmaq üçün buraya gəlmişəm. Bunun əsası var. Doqquz il bundan öncə Naxçıvan həyatının ağır günlərini yaşayırdı. Təkcə Naxçıvan yox, bütün Azərbaycan həyatının faciəli günlərini yaşayırdı.

Bilirsiniz ki, artıq Bakıda hakimiyyət böhranı, iqtisadi böhran, siyasi böhran bir-birinə qarışaraq, ölkəni fəlakətli bir vəziyyətə gətirdiyi vaxtda Azərbaycanın mötəbər insanlarının böyük bir qismi ardıcıl olaraq Bakıdan Naxçıvana üz tuturdular, buraya gəlirdilər, mənimlə görüşürdülər, məsləhətləşirdilər, Azərbaycanın bu ağır vəziyyətdən çıxması haqqında məndən məsləhətlər gözləyirdilər.

Xatırlayıram. Elə olurdu ki, bir gündə bir neçə təyyarə ilə insanlar dəstə-dəstə, qrup-qrup Naxçıvana gəlirdilər. Mən buradan, Naxçıvandan sizinlə birlikdə bütün Azərbaycanın o ağır, faciəli həyatını görürdüm. Çünki onun bir hissəsi də Naxçıvanı bürümüşdü və biz onu öz həyatımızda hiss edirdik. Azərbaycanı sevən adam kimi, Vətəninə, torpağına, millətinə hədsiz sədaqət hissi ilə yaşayan adam kimi və Azərbaycanın keçmiş illərdə inkişaf etməsində xidmətlər göstərmiş adam kimi, təbiidir ki, mən hamıdan çox düşünürdüm, hamıdan çox əzab-əziyyət çəkirdim. Ancaq biz sizinlə burada blokadadaydıq. Bir yandan ermənilər tərəfindən Naxçıvana qarşı tətbiq olunmuş blokada, digər tərəfdən isə, təəssüflər olsun ki, o vaxtkı hakimiyyət orqanları da Naxçıvanda sağlam fikirli insanların qarşısını almaq üçün bizə ikinci bir blokada yaratmışdılar. O günlər çox ağır günlər idi. Hətta indi, 9 il keçəndən sonra deyə bilərəm ki, bəlkə də mən bəzi hallarda çıxış yolunu görə bilmirdim. Ancaq mənə olan müraciətlərə də biganə qala bilməzdim. İyun ayının 6-dan başlayaraq,

Azərbaycanın o vaxtkı iqtidarı, Azərbaycan prezidenti mənimlə əlaqə saxladı, məni Bakıya dəvət etdi və dərhal Bakıya uçmağım üçün təyyarə göndərildi. Ancaq mən buna razılıq vermədim.

O vaxtlar burada mənimlə bərabər olanlar – indi onların hamısını burada görürəm – xatırlayırlar ki, səhərdən axşama qədər mənimlə danışıqlar gedirdi. Bakıdan ardıcıl surətdə telefon zəngləri, eyni zamanda həm xalqın nümayəndələrinin Naxçıvana axını və mənə müraciətləri, həm də o vaxtkı iqtidarın bilavasitə mənə müraciəti və təkidlə xahişi ki, mən Bakıya gedim. Qəribə günlər idi.

Xatirinizdədir, 1992-ci ilin oktyabr ayında, biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman – bəziləri bunu da bizə çox gördülər – Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi Daxili Işlər Nazirliyini zəbt etdi, televiziyanı zəbt etdilər. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağırışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki xalq bizimlə idi.

Mən o vaxt hər bir rabitədən məhrum olduğum üçün bir çox vətənpərvər insanlar avtomobillərlə dərhal şəhərin məhəllələrinə, ətraf kəndlərə, başqa kəndlərə gedərək, insanları Ali Məclisin qarşısına dəvət etdilər. Bir neçə saat içərisində Naxçıvanın 20 minə qədər qeyrətli, namuslu kişiləri, qadınları, gəncləri, ağsaqqalları toplaşdılar və sinələrini irəliyə verib Naxçıvanın o vaxtkı Ali Məclisini və Heydər Əliyevi müdafiə etdilər.

Biz o bəladan xilas olduq. Doğrudur, o vaxt polislərdən bəziləri yaralandı. Bizim vətəndaşlarımızın bəzisi xəsarət aldı. Amma Naxçıvanın dəyərli insanları öz mərdliyini göstərdilər.

Bir tərəfdə əli silahlı, quduzlaşmış Xalq Cəbhəsinin dəstəsi, o biri tərəfdə isə heç bir silahı olmayan, ancaq böyük iradəyə malik olan və böyük amallarla yaşayan Naxçıvan ağsaqqalları, Naxçıvan gəncləri, Naxçıvan qadınları – naxçıvanlıların hamısı. Bu fakt sizə məlumdur. Bəlkə bunu bir də yada salmağa ehtiyac yox idi. Ancaq mən 9 il bundan öncə iyun ayından – 1992-ci ilin oktyabrından 1993-cü ilin iyun ayı arasında 7-8 ay fərq var idi – bizə hücum edənlərin, bizi devirmək istəyənlərin nə qədər aciz vəziyyətdə olduqlarını gördüm. Onlar nə qədər aciz vəziyyətdə idilər ki, hətta özləri devirmək istədikləri adama – Heydər Əliyevə müraciət etməyə məcbur oldular.

Mən iyunun 9-da Bakıya getdim. Xatırlayıram, burada, Naxçıvanda insanlar çox məyus idilər, narahat idilər. Məni yola salanda gördüm ki, onların sifətlərində nə qədər qəmginlik var. Mən özüm də bilmirdim hansı vəziyyətə düşəcəyəm, nə olacaq. Ancaq düşündüm ki, əgər özümü qurban verəsi olsam da, gərək gedib Azərbaycan naminə, millətimizin, xalqımızın naminə öz yardımımı göstərim.

Xatirimdədir, Ali Məclisin binasının qarşısında bir dəstə qadın toplaşmışdı. Sadə insanlar idilər, ağlayırdılar. Mən hamısına deyirdim ki, darıxmayın, iki gündən sonra gələcəyəm. Həqiqətən, mən Bakıda qalmaq fikrində deyildim, Naxçıvanı tərk etmək, sizdən ayrılmaq fikrində deyildim. Mən bu sözləri səmimi dedim. Bəlkə iki gün olmasın, üç gün olsun, dörd gün olsun – oraya geriyə dönmək üçün getmişdim.

Ancaq tale tamamilə başqa cür sərəncam verdi. Mən orada qalası oldum. iyunun 15-də oradakı proseslər sizə məlumdur. Məni Azərbaycan Ali Sovetinin, Milli Məclisin sədri seçdilər. Bununla da mənim yeni fəaliyyətim, yeni həyatım başladı.

Mən burdan gedərkən, verdiyim sözü yerinə yetirmişəm. Demişdim ki, iki gündən sonra gələcəyəm. İki gündən sonra yox – iyunun doqquzu ilə on beşi arasında altı gün var – altı gündən sonra gəlmişəm.

Mən 1993-cü ilədək sizinlə bərabər Naxçıvanda yaşadığım günləri heç vaxt unutmuram və heç vaxt da unutmayacağam. Mənim həyatımın müxtəlif səhifələri, çox şanlı-şöhrətli, eyni zamanda çox əzab-əziyyətli səhifələri var. Bunların hər biri mənim üçün əzizdir. Ancaq 1990–1993-cü illərdə sizinlə bərabər blokada şəraitində, ağır vəziyyətdə, çətin vəziyyətdə yaşadığım günlər mənim üçün ən əziz günlərdir və onları heç vaxt unutmayacağam.

Bu gün, bayram günü mənim sizinlə bir yerdə olmağımın bir səbəbi də ondan ibarətdir ki, Naxçıvanda beynəlxalq standartlara uyğun olan, müasir tələblərə cavab verən böyük Olimpiya idman kompleksi tikilib və mən də onun açılışına gəlmişəm ki, bu şad günü sizinlə birlikdə qeyd edim.

Burada, Naxçıvanda Olimpiya idman kompleksinin inşa edilməsi və bu gün istifadəyə verilməsi adi bir hadisə deyildir. Mən o illər Naxçıvanda yaşayarkən heç düşünə bilməzdim ki, gün gələcək, işlərimiz yaxşılaşacaq, yaşayış düzələcək, əmin-amanlıq olacaq, iqtisadiyyatımız inkişaf edəcəkdir. Mən o vaxt heç bilmirdim ki, belə bir Olimpiya Komitəsi var və o, fəaliyyətə başlayacaq, bu cür komplekslər tikib Azərbaycan gənclərinin istifadəsinə verəcəklər. Bu çox əlamətdar bir hadisədir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Hesab edirəm ki, siz bu olimpiya kompleksinin Naxçıvan üçün nə qədər faydalı olduğunu bir neçə aydan, bir neçə müddətdən sonra daha yaxşı qiymətləndirə biləcəksiniz.

Bu sizin üçün, Naxçıvan üçün böyük hədiyyədir. Bu hədiyyəni də sizə edən Azərbaycanın Milli Olimpiya Komitəsidir. Bunda hökumətin, dövlətin heç bir işi yoxdur. Bizim bu işə qatışacağımız yoxdur, bir manat da xərcimiz çıxmayıbdır. Yəni dövlətin – mən dövləti təmsil edirəm. Bu ancaq Azərbaycan Milli Olimpiya Komitəsinin və onun prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaranıbdır.

İlham Əliyev beş ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İndiyə qədər görülən işlər haqqında burada deyildi. Ancaq bir məqama toxunmaq istəyirəm.

Günlərin birində mənə dedi ki, biz Bakıda böyük olimpiya kompleksi tikmişik, 10–15 günə onun açılışı olacaqdır. Xahiş edirəm ki, Siz onun açılışında iştirak edəsiniz. Mən təəccübləndim, dedim, nə cür, nə vaxt, hansı vəsaitlə, harada? Bir də axı nə təhər ola bilər ki, siz bunu etmisiniz, amma mənim xəbərim yoxdur? Bu da qeyri-adi bir haldır. O mənə söylədi ki, əgər açılışında iştirak etməyə razılıq versəniz, onda gəlib onu görər və qiymətləndirərsiniz. Bəli, Bakıda gözəl bir olimpiya kompleksini Milli Olimpiya Komitəsi, şəxsən Ilham Əliyev inşaat etdirdi və biz də onu bərabər açdıq. İndi orada böyük yarışlar keçirilir və Bakının gözəl bir idman mərkəzinə çevrilibdir.

Sonra bir dəfə adi söhbətdə mənə dedi ki, Azərbaycanın bir neçə bölgəsində də belə komplekslər yaratmağı planlaşdırıram. Mən dedim, bu çox gözəl olar. Ancaq bunlar axı bahadır – bu kompleksin qiymətini tikənlər bilirlər – bu mümkündürmü? Dedi bəli, bizim Milli Olimpiya Komitəsinin vəsaitlərini aramışıq, bunu edə bilərik. Amma harada edəcək, nə edəcək? Bir gün eşitdim ki, Bakının Maştağa qəsəbəsində belə

bir olimpiya kompleksi hazırdır. Mən orada açılışda iştirak etdim.

Sonra dedim ki, daha harada var? Dedi bundan sonra Naxçıvanda, Gəncədə, Şəkidə və Lənkəranda olacaqdır. Fikirləşdim ki, Şəki, Lənkəran, Gəncə – bunlar hamısı Bakıya yaxın yerlərdir. Amma Naxçıvan indi də blokadadadır. Buraya inşaat materialları daşımaq çətindir. Məsələn, Bakıya, Gəncəyə nisbətən burada başqa işlər görmək çətindir. Dedi yox, mütləq Naxçıvanda olmalıdır. Çünki Naxçıvan həm sənin vətənindir, həm də mənim vətənimdir. Ancaq o söylədi ki, mən bunu Gəncə ilə, Şəki ilə eyni vaxtda hazırlayacağam. Həqiqətən, eyni vaxtda hazırlanıbdır. Ancaq mən ondan xahiş etdim ki,  gəlin irəliyə Naxçıvanı salaq, digərləri yaxındır, onlara getmək asan olacaqdır.

Bax, beləliklə, indi Azərbaycanda idmanın, bədən tərbiyəsinin böyük maddi-texniki bazası yaranır. Biz bu bazanı yaratmaq istəyirik. Biz buna büdcədən vəsait ayırırıq. Ancaq bizim Milli Olimpiya Komitəsinə büdcədən vəsait ayırmağa imkanımız yoxdur. Onlar öz imkanlarından istifadə edirlər. İndi görün, bu işə nə qədər sədaqətlidirlər, bu işi nə qədər sevirlər. Hər şeyi kənara qoyub bunları edirlər.

Çünki İlham Əliyev burada dedi, bunun böyük mənası var. Bu, gənclər üçündür. Bizim millətin gələcəyi üçündür. Gənclərin fiziki hazırlığı üçündür. Gənclərin mənəviyyatı üçündür. Gənclərimiz idmanla, bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər güclü olacaqlar, o qədər qudrətli olacaqlar. Bizim ordumuzda sağlam əsgərlər olacaqdır. Ən nəhayət, gənclərimiz, təəssüflər olsun ki, indi müəyyən qədər yayılmış xoşagəlməz vərdişlərə uymayacaqlar. Ona görə də bu kompleksin çoxşaxəli əhəmiyyəti var.

İlham, mən təşəkkur edirəm ki, sən Naxçıvana belə bir hədiyyə vermisən. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Naxçıvan gəncləri bu kompleksdən səmərəli istifadə edəcəklər və bu kompleksi idarə edənlər də çalışacaqlar ki, o, həmişə yüksək səviyyədə olsun. Xeyirli olsun, uğurlu olsun!

Mən bir neçə kəlmə Naxçıvan haqqında danışmaq istəyirəm. Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, gözəl bir diyarıdır və Azərbaycan ərazisində ən qədim insan məskənlərindən biridir. Naxçıvanın tarixini tarixçilər müxtəlif cür deyirlər. Biri deyir onun üç min il tarixi var. Biri deyir onun bizim eradan çox-çox əvvələ aid böyük tarixi var. Bu fərziyyələrin hər birinin əsası var. Sadəcə, bizim tarixçilər, arxeoloqlar gərək bundan sonra Naxçıvanın tarixi haqqında daha da geniş axtarışlar aparsınlar və Naxçıvanın tarixini ətraflı yazıb hazırlasınlar.

Naxçıvanın gözəl təbiəti var. Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir. Təəssüf ki, bəzi gənclər, naxçıvanlılar Gəmiqayanın nə tarixini bilirlər, nə də onun varlığını bilirlər. Mən keçən il maraqlandım ki, Gəmiqayaya bizim elmi ekspedisiya gedib, yoxsa yox. Mənə dedilər hazırlaşırlar. Amma yay keçmişdi. Sonra dedilər pulları yoxdur. Dərhal pul verdik. Ancaq müəyyən qədər vaxt itirmişdilər. Mən burada Səfərəlini, başqalarını, tarixçiləri görürəm. Hamı bilir ki, Gəmiqayada ekspedisiyanın işləməsi üçün indi başlamaq lazımdır. Çünki sentyabr ayında artıq orada soyuq olacaqdır. Avqustun 20-də oranı qar tutur. Amma bu bizim böyük sərvətimizdir. Gəmiqayanın daşlarında Qobustan qayalarındakı kimi rəmzlər var. Orada insanların qoyduğu izlər var. Bu bizim, Azərbaycanın, onun ayrıl-

maz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır.

Naxçıvan Azərbaycanın tarixində çox böyük yer tutur. Atabəylər dövlətinin paytaxtı olubdur. Elə bunun özü Naxçıvanın nə qədər böyük tarixi əhəmiyyətə malik olduğunu göstərir. Rəhmətlik akademik Ziya Bünyadov Atabəylər dövləti haqqında yaxşı bir kitab yazdı. Ancaq onun davamçıları lazımdır. Amma təkcə bu deyildir. Mömünə xatın türbəsi 800 ildir ki, bütün dünya səyyahlarını heyran edir. Yusif ibn Küseyr, Qarabağlar türbəsi, Əlincə qalası və bir çox belə abidələr – bunlar hamısı Naxçıvanın qədim Azərbaycan torpağı və ən qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdıqlarını göstərir. Biz bu tariximizi nə qədər yaxşı təhlil edib dünyaya nümayiş etdirə bilsək, xalqımızın qədim mədəniyyətini bir o qədər də göstərəcəyik.

Azərbaycan xalqı dünya xalqları içərisində öz yüksək mədəniyyəti ilə, elmi, zəkası ilə seçilən bir xalqdır. Bizim – bugünkü nəsillərin, gələcək nəsillərin vəzifəsi bunu dünyaya göstərmək sonrakı nəsillərə çatdırmaqdan ibarətdir. Bu işlərlə məşğul olmaq lazımdır.

Təəssüflər olsun ki. Naxçıvan böyük ədalətsizliklərə düçar olubdur. Keçmiş dövrlərdə də olubdur. Ancaq məlumdur ki, XX əsrdə, sovet hakimiyyəti qurulan zaman bu bölgənin sərhədləri müəyyən edilərkən, Azərbaycanın torpaqlarının bir qismi Ermənistana qatılıbdır. O cümlədən Zəngəzur və indi Naxçıvanı Azərbaycanın böyük hissəsindən ayıran Mehri rayonu. Bu, tarixi ədalətsizlikdir. Biz bunu bu gün ürək ağrısı ilə xatırlayırıq. Ancaq eyni zamanda, biz bugünkü reallıq şəraitində yaşayırıq və yaşamalıyıq. Belə reallıq şəraitində

bizimlə müharibə vəziyyətində olan və Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş erməni qəsbkarları ilə böyük sərhədə malik olan Naxçıvan, təbiidir ki, daim ağır şəraitdə yaşayır. Ölkənin paytaxtı Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə nəqliyyat əlaqələri məhduddur, çətindir. Ancaq təyyarə və avtomobil yolu ilə mümkündür.

SSRİ vaxtı bir yerdə olarkən çəkilmiş dəmir yolu bağlanıbdır. Naxçıvan belə şəraitdə yaşayır. Belə bir şəraitdə Naxçıvana xüsusi qayğı göstərmək lazımdır, kömək etmək lazımdır. Bilin, biz Naxçıvana gedib-gələn sərnişinlərin biletləri üçün ildə dövlət büdcəsindən 45 milyard manat ayırırıq. Yəni biletləri öz qiymətinə deyil, ucuz satırıq. Bəzən bizim büdcə tərtib edənlər qımıldanırlar. Başqa söz işlətmək istəmədim. Nə tez başa düşürsünuz?! Ancaq belə ədalətsizliyə yol vermək olmaz. Bunları ona görə demirəm ki, mən naxçıvanlıyam. Naxçıvanlı olmasaydım da, ağdamlı, ya gəncəli olsaydım, yaxud şəkili olsaydım da Azərbaycanın prezidenti kimi, mən bu sözləri burada deyəcəkdim, çünki Azərbaycanın hər bir torpağı, hər bir qarışı millətini sevən, xalqını sevən həqiqi azərbaycanlı üçün eyni dərəcədə əziz olmalıdır.

Başqa yardımlar da edirik. Ancaq təəssüflər olsun ki, mən Naxçıvanda doğulmuş adam, uşaqlıq, gənclik dövrlərini Naxçıvanda keçirmiş adam kimi, bilirəm ki, bu, yeni əhval-ruhiyyə deyildir. Xatirimdədir, hələ 1930–40-cı illərdə Bakıdan bəzi dairələr – onu deyə bilmərəm –Naxçıvana ögey münasibət göstərirdilər. Bu bizi o vaxt incidirdi. Mən gənc idim. Ancaq bilirəm, məndən yaşlı adamları incidirdi və mən də anlayırdım. Məni də incidirdi. Təəssüflər olsun ki, bu xüsusiyyət müəyyən qədər sirayətedici olubdur. Mən bunların qarşısını alıram. Amma təkcə mən yox, Azərbaycanda hamı

bunu mənim kimi başa düşməlidır. Bir də deyirəm, ona görə yox ki, mən naxçıvanlıyam. Ona görə ki, mən azərbaycanlıyam, həqiqi Azərbaycan oğluyam.

Bir-iki ay bundan öncə Naxçıvanın maliyyə məsələsi meydana çıxmışdı. Mən Maliyyə naziri Əvəz Ələkbərova bir-iki dəfə göstəriş verdim. Hər dəfə məruzə etdi ki, mən bunu etdim. Amma buradan da mənə xəbər gəlir ki, yox, tamam yerinə yetirməyibdir. Düzü, mən buna çox hirsləndim və dedim Naxçıvana get, məsələləri həll et, geriyə dön, mənə məruzə et. Bir-iki gündən sonra məruzə etdi ki, səhər tezdən getdim Naxçıvana, axşama qədər Naxçıvanda hamı ilə birlikdə işlədik, məsələlərin hamısını həll etdik, çox sağ olun ki, Siz mənə bu göstərişləri vermişdiniz. Dedim bəs sən özün nə düşünürdün? Sən Azərbaycanın Maliyyə nazirisən. Biz səni Maliyyə naziri təyin etmişik ki, hər dəfə səni tərpədən olsun?

Soruşdum ki, Naxçıvanda axırıncı dəfə nə vaxt olmuşdun? Dedi 1965-ci ildə. Dedim daha mənim sənə sözüm yoxdur, sən özün-özünü göstərdin. Amma Əvəz Ələkbərov tək deyil, beləlǝri az deyildir. Ondan da böyük vəzifəli adamlar adlarını çəkə bilərəm ki, mən doqquz ildir Azərbaycan prezidentiyəm, bir dəfə də buraya gəlməyiblər. Baxmayaraq, mən hər dəfə onlara başa salıram ki, işlərinizə məsuliyyətlə yanaşın. İndi mən buradan bütün nazirlərə göstəriş verirəm. Hər bir nazir, hər bir idarə başçısı, hər bir məsuliyyətli şəxs, yüksək vəzifəlı şəxs iki ayda bir dəfə Naxçıvana gəlməlidir. Gəlib sizin işlərinizlə məşğul olmalıdır və şəxsən mənə məruzə etməlidir. Yoxsa biz Naxçıvanın inkişafını istədiyimiz kimi təmin edə bilməyəcəyik.

Naxçıvan blokada şəraitində olduğuna görə, mənim Naxçıvan haqqında siyasətimin bir hissəsi insanların Naxçıvanda

məskunlaşması, yaşaması məsələsidir. Nümunə göstərirəm Səfərəli Babayev. Mən onu tanıyıram. Əl çala bilərsiniz, doğrudan da o, layiqli adamdır. O da başqaları kimi burada yaşadı, böyüdü, alim oldu. Ondan sonra düşünərdi ki, mən niyə Naxçıvanda oturum, Bakıya gedim, orada özümə ev alım, uşaqlarımı da yığım oraya. Yaxşı, ərsəyə gələn hər bir naxçıvanlı Naxçıvanı tərk edib getsə, burada kim qalacaq, burada kim yaşayacaq? Amma belələri çox deyildir.

Çoxlari belədir, buradan istifadə edirlər – bəli, vətənləridir, istifadə etməlidirlər – təhsil alırlar, ali məktəbi qurtarırlar və çalışırlar ki, haradasa, Bakıda, ya başqa yerdə ilişib qalsınlar, Naxçıvana gəlməsinlər. Belələri var. Mən belələrini bəyənmirəm.

Mən son dəfə Naxçıvandan 1948-ci ildə çıxıb getmişdim, Allah elə elədi ki, mən 1948-ci ildə getdim, nə qədər yerlərdə yaşadım, işlədim, nə qədər yüksək mərtəbələrə çatdım. Ancaq 1990-cı ildə yenə Naxçıvana gəldim. Mənə yenə Naxçıvan həyan oldu. İnanın, əgər 9 il bundan öncə, iyunun 9-da məni dartıb Bakıya aparmasaydılar, mən Naxçıvandan heç bir yerə getməyəcəkdim, ömrümün axırına qədər burada yaşayacaqdım. Ona görə də gərək insanlar Naxçıvanda məskunlaşsınlar.

Naxçıvanlılar fədakardırlar. Naxçıvanlılar təvazökardırlar, zəhmətkeşdirlər. Mən bir-iki dəfə demişəm, naxçıvanlılar Naxçıvanı əhatə edən məğrur qayalar kimi məğrurdurlar. O məğrur qayalarda bir kişi gözəlliyi var. Bəli, bu gözəllik naxçıvanlılara məxsusdur. Amma naxçıvanlılar öz torpaqlarını tərk etməməlidirlər. Əgər istəyirsinizsə, mən işimi buraxım, gəlib yenə sizinlə burada yaşayım.

Sizə bir belə təriflər dedim, indi bir neçə də tənqid deyəcəyəm. Yəqin ki, bu, xoşunuza gəlməyəcəkdir. Doğrudur, şəraitiniz ağırdır, imkanlarınız məhduddur. Belə ağır şəraitdə

Naxçıvan inkişaf edir. Bu bizim hamımızı sevindirir. Ancaq birincisi, naxçıvanlılar özlərini gərək təvazökar aparsınlar. Heç vaxt burunlarını dik tutmasınlar. Yəni başı dik tutmaq olar. İnsanın başı dik olmalıdır, amma burnu yox. Onda o insanın keyfiyyəti mənfi olur. Mən indi nazirlərə bu qədər göstərişlər verirəm. Ondan sonra siz hər bir naziri gətirib qapınızda saxlayasınız, yaxud deyəsiniz ki, mənim bu gün vaxtım yoxdur, sabah gəlin. Yaxud da özünüzü təkəbbürlü aparasınız, təvazökar olmayasınız. Siz bununla mənim dediyim gözəl sözlərə böyük ləkə vurmuş olacaqsınız. Amma mən belə seyləri görürəm.

Biri gedir Bakıda avtomobil sürür. Polisə baxmır, filana baxmır. Saxlayırlar, bala, niyə edirsən? Mən naxçıvanlıyam. Nə olsun ki, naxçıvanlısan? Belələri sizə də, mənə də ləkə gətirirlər. Basa düşürsünüz? İnsan heç vaxt cızığından çıxmamalıdır. Ancaq mənim çoxillik təcrübəm nəyi göstərir? Vəzifə alan adamlar var, bir azdan sonra görürsən ki, vəzifə onları xarab edir. İndi qalmısan məəttəl, bunu çıxarasan, axı qoymusan ki, bu adam işləsin. Çıxarmayasan, buna necə dözəsən.

Mənə Bakıda danışırdılar. Bir nəfər alim, elmlər doktoru var, heç vaxt vəzifəsi olmayıbdır. Götürdük onu nazir qoyduq. Sonra elə bir rejim yaradıbdır ki, səhər işə gələndə onun iki nəfər – eyib olmasın – quyruq buluyanı gərək qapıda dursun. O, avtomobillə gələndə biri onun qapısını açacaqdır, biri də portfelini götürəcəkdir, gedəcəklər yuxarıya.

Ay balam, o elmi-tədqiqat institutunda heç sənin iş otağın da yox idi. Çox olsa, çox olsa ümumi otaqda bir masan var idi. Onun arxasında otururdun. İndi böyük iş otağın var, onun qabağında katibə otağı – bu da bir az gülməlidir, elədirmi – zəngi basır, mənə çay gətir. Heç evdə arvadı ona çay

da vermir. Məəttəl qalırsan. İnsan da bir ayın içərisində bu qədər dəyişilə bilərmi? Amma dəyişilirlər.

Sonra mənə bir yerdən xəbər verdilər ki, – hələ onların adını demirəm, amma təkrar eləsələr, sonra sizə deyəcəyəm – böyük nazirlikdir, səhər-səhər hamısı işlərində farağat durur. Nazir gəlib qapıdan girəndə səs ucaldandır, nədir, bilmirəm, xəbər verir – «nazir gəlir», gərək hamı işlədiyi yerdə ayağa dursun. Belə şey olmaz axı! İndi siz gülürsünüz, xoşunuza gəlir. Amma elə bilirsiniz, sizdə bu yoxdur? Sizdə də var. Mən bilirəm harada var. Amma hələ açmayacağam. Ona görə təvazökarlıq lazımdır. Bildinizmi? İnsanı hörmətə qaldıran onun zəhmətkeşliyidir, mənəvi təmizliyidir, millətə, dövlətə, xalqa sədaqətidir, onun xeyirxahlığıdır. Amma bunlarla bərabər, mütləq onun təvazökarlığıdır, gərək heç vaxt təvazökarlığı unutmayasınız.

Bu gün bu sözləri sizə deməyi özümə borc bilirəm. Çünki mən hər bir insanı pis yoldan çəkindirmək istəyirəm. İnsan pis yola gedəndə, o, uzaq gedibsə, onu geriyə döndərmək mümkündür, ancaq onun özünə zərərli olacaqdır. Mən istəyirəm ki, insanlar özlərinə bu zərəri vurmasınlar. Başa düşürsünüz?!

Nəhayət, mən doqquz ildir ki, sizin yanınızdan getmişəm. Sizə hesabat verirəm. Bu doqquz il müddətində Azərbaycanı ağır ictimai, siyasi, iqtisadi böhrandan çıxartdıq, sabitliyi təmin etdik hüquqi, demokratik dövlət qurduq, demokratik dəyərlərin bərqərar olmasını təmin etmişik və ardıcıl surətdə təmin edirik. İqtisadiyyatımızı inkişaf etdiririk və indiyə qədər gördüyümüz işlər bizim iqtisadiyyatımızın bundan sonra daha yüksəklərə qalxmasını təmin edəcəkdir.

Doğrudur, əhalimizin bir qismi kasıbçılıq içindədir, işsizlər var. Biz onlara qayğı göstərməyə çalışırıq. Siz də burada bunu

özünüz etməlisiniz. Amma bizim iqtisadiyyatımız inkişaf edir. Bu həqiqətdir, bunu dünya görür. Bunu beynəlxalq maliyyə qurumları görürlər – hamı görür. Rəqəmlər çoxdur. Bir şey deyə bilərəm ki, 1996-cı ildən 2001-ci ilə qədər işləyənlərin normal əməkhaqqı 4 dəfə artıbdır. Təqaüdlər 4 dəfə artıbdır. Aparılan islahatlar artıq indi mal bolluğu yaradıbdır.

Bilirəm ki, burada kənd təsərrüfatı məhsullarını o qədər istehsal edirsiniz ki, bilmirsiz nə edəsiniz. Amma mən 1990-cı ildə buraya gələndə orada yaşayırdım, birinci mərtəbədə mağaza var idi. Orada səhər saat altıdan ət üçün növbə idi. İnsanlar bir-birini qırırdılar. Amma indi çörək, ət, başqa şeylər boldur. Vaxtınızı alıb bu barədə danışmaq istəmirəm, bu rəqəmlər sizə məlumdur. Mən demək istəyirəm ki, sizin yanınıza doqquz ildən sonra alnıaçıq, üzüağ gəlmişəm.

Bizim apardığımız daxili və xarici siyasət Azərbaycana yeni uğurlar gətirəcəkdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ munaqişəsini sülh yolu ilə həll edəcəyik. Mütləq həll edəcəyik. Xalqımız ilbəil firavan yaşayacaqdır. İndi bizim büdcəmizin ümumi məbləği orta hesabla 1 milyard dollardır. Amma 1993-cü ildə bu, on dəfə az idi. Bu, üç-dörd il sonra 4-5 dəfə artacaqdır. Bunu bilin. İmkanlarımız artacaqdır.

Neft Fondu yaratmışıq. Bizim 1 milyard 200 milyon dollar valyuta ehtiyatımız var. Mən bəzi qaçqınları çadırlardan çıxarmaq üçün və Ermənistandan köçüb gəlmiş insanların şəraitini yaxşılaşdırmaq üçün 75 milyon dollar ayırdım.

Burada Kərki kəndindən qaçqınlar var. Mən vəsait ayırdım ki, onlara  həyətyanı evlər tikilsin. Mənə dedilər ki, onlar deyirlər yox, bizə Əliabadda beşmərtəbəli ev tikin. Evi tikirik, bunları da edirik – hamısını edirik və hamısını da edəcəyik. Arxayın olun, Azərbaycanın gələcəyi uğurludur

Mən sizə bir daha cansağlığı, səadət və xoşbəxtlik arzu edirəm. Sağ olun.

* * *

*Sonra Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılışı oldu. Azərbaycan prezidenti Heydər Əliyev kompleksin açılışını bildirən qırmızı lenti kəsdi.*

*Dövlətimizin başçısı bu idman qurğusu ilə yaxından tanış oldu, müasir beynəlxalq standartlara uyğun inşa edilmiş kompleksin idman salonlarını gəzdi. Azərbaycan prezidentinə məlumat verildi ki, qısa bir müddətə tikilmiş bu idman kompleksində idmanın bir sıra növləri üzrə respublika və beynəlxalq miqyaslı yarışlar keçirmək mümkündür. Milli Olimpiya Komitəsinin hədiyyəsi olan bu kompleksın istifadəyə verilməsi muxtar respublikada, ümumən, ölkəmizdə idmanın daha da inkişafına kömək edəcəkdir.*

*Sonra Naxçıvan Olimpiya İdman Kompleksinin açılışına həsr edilmiş bədii-idman proqramı nümayiş etdirildi. Kompleksin ən böyük salonunda prezident Heydər Əliyevin iri portreti, Azərbaycanın dövlət bayrağı, Beynəlxalq Olimpiya Komitəsinin və Azərbaycan MOK-un bayraqları, respublikamızın rəhbərini salamlayan transparantlar asılmışdı. Salona toplaşan çoxsaylı tamaşaçılar, meydançadakı idmançılar Azərbaycan prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.*

*Azərbaycan Respublikasının dövlət himni əzəmətlə səsləndi.*

*Muxtar respublikanın incəsənət ustaları, bədii özfəaliyyət kollektivləri, müxtəlif yaş qruplarından olan idmançıların çıxışları, o cümlədən prezident Heydər Əliyevə həsr olunmuş şeirlər və mahnılar böyük maraqla qarşılandı.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVAN SƏFƏRİ

*17 iyun 2002-ci il*

*Naxçıvan MR-də səfərdə olan Azərbaycan prezidenti Heydər Əliyev iyunun 17-də səhər Şəhidlər xiyabanına gəldi. Muxtar respublikanın rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri, elm, ədəbiyyat, incəsənət xadimləri, tələbələr, məktəblilər dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Prezident Heydər Əliyev Şəhidlər xiyabanındakı «Ana» abidəsinin önünə əklil qoydu. Şəhidlərin xatirəsini ehtiramla yad etdi. Azərbaycan Respublikasının dövlət himni səsləndi.*

*Prezident Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının tanınmış ziyalıları ilə görüşüb söhbət etdi. Xalq yazıçısı, Naxçıvan MR Yazıçılar Birliyinin sədri Hüseyn İbrahimov bu günlərdə respublikamızın bir sıra tanınmış mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri ilə yanaşı, özünün də prezidentin fərdi təqaüdünə layiq görüldüyünə görə dərin təşəkkürünü bildirdi.*

*Azərbaycan prezidenti Xalq rəssamı, muxtar respublikanın Rəssamlar Birliyinin sədri Hüseynqulu Əliyev, MR-in Səhiyyə naziri Əqil Mehdiyev, MR «Sevil» Qadınlar Məclisinin sədri Nüşabə Əliyeva, şairə Mətanət Hüseynxanqızı və başqaları ilə də görüşdü. Onlar muxtar respublikaya göstərdiyi atalıq qayğısına görə dövlətimizin rəhbərinə səmimi təşəkkürlərini və minnətdarlıqlarını bildirdilər.*

*Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi İsa Həbibbəyli isə rəhbərlik etdiyi ali məktəbə sərbəst idarəetmə statusu verilməsi ilə əlaqədar universitetin professor-müəllim heyəti və tələbələri adından prezident Heydər Əliyevə öz razılığını bildirdi.*

# NAXÇIVANDAKI «N» HƏRBİ HİSSƏSİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ NİTQ

*17 iyun 2002-ci il*

*Görüşdə prezident Heydər Əliyevə, Ali Baş Komandana hərbi hissənin sərəncamında olan müxtəlif döyüş texnikası və hərbi sursat barədə məlumat verildi. Ali Baş Komandan şəxsi heyətlə – zabit və əsgərlərlə səmimi söhbət etdi. Onların məişəti ilə maraqlandı, əsgər yeməkxanasında hazırlanan yeməklərin dadına baxdı, əsgər kazarmasında oldu, bədii özfəaliyyət kollektivinin çıxışını dinlədi.*

*Sonra Ali Baş Komandanın gəlişi münasibətilə mitinq keçirildi.*

*Mitinqi Naxçıvan qarnizonunun komandanı, general-leytenant Kərəm Mustafayev açdı.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan Heydər Əliyev geniş nitq söylədi.*

**H e y d ə r Ə l i y e v:** Əziz əsgərlər, zabitlər, generallar, Azərbaycan ordusunun qəhrəman övladları!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Sizə ən xoş arzularımı bildirirəm. Sizə, Azərbaycan əsgərinə, müstəqil Azərbaycanın ordusuna olan daimi sevgimi, məhəbbətimi bəyan edirəm. Sizinlə burada, qısa bir zamanda yaranmış hərbi şəhərcikdə, Azərbaycanın gözəl guşələrindən biri olan Naxçı-

vanda, boz, eyni zamanda əzəmətli qayaların, dağların ortasında yerləşən, indi üstündə durduğumuz müqəddəs torpaqda görüşərkən sizə bir daha, bir daha qəlbimdə olan ən yüksək hisslərimi bildirirəm.

Azərbaycan ordusu dövlət müstəqilliyimizin ən dəyərli töhfələrindən biridir. Biz keçən il Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünü qeyd etdik. İndi artıq 11-ci ili yaşayırıq. Bu illərdə Azərbaycan böyük tarixi yol keçib, böyük sınaqlardan çıxıbdır. Ancaq öz dövlət müstəqilliyini, azadlığını, suverenliyini göz bəbəyi kimi qoruyub saxlayıbdır. Bu bizim bütün millətimizin, Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biridir. Biz bu illərdə Azərbaycanda öz milli dövlətimizi – hüquqi, demokratik, dünyəvi dövlət yaratdıq. Dövlətimizin bütün təsisatlarını yaratdıq. Dövlətimizin fəaliyyət göstərməsi, ölkəmizin idarə edilməsi üçün lazım olan qanunlar, qərarlar qəbul etdik, fərmanlar verdik. İndi Azərbaycanın müstəqil dövlət olaraq, dünyanın bütün qabaqcıl dövlətləri kimi, özünün dövləti idarə etmək üçün lazım olan mexanizmi var, qanunları var.

Biz hüquqi dövlət yaratmışıq. Bu o deməkdir ki, dövlətimiz hüquq əsasında idarə olunur. Biz demokratik dövlət yaratmışıq. Bu o deməkdir ki, Azərbaycanın hər yerində demokratik prinsiplər bərqərar olubdur. Bu o deməkdir ki, insanlar tam sərbəstdir, azaddır. İnsanlara bütün azadlıqlar verilibdir. Söz azadlığı, vicdan azadlığı, fikir azadlığı – hamısı təmin olunubdur.

Azərbaycan dünyəvi dövlətdir. Demək, tarixi, milli dəyərləri ilə bərabər, mənəvi dəyərləri ilə bərabər, Azərbaycan ümumbəşəri dəyərlərdən də bəhrələnir və onlarla zənginləşə-

rək ölkəmizi dünyanın inkişaf etmiş dövlətlərinin səviyyəsinə qaldırmaq yolu ilə gedir.

Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycanın Silahlı Qüvvələridir. Azərbaycanın Silahlı Qüvvələrinə daxil olan bütün hərbi strukturlardır. Bunların içərisində birinci yerdə Azərbaycan ordusudur. Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri Azərbaycanın milli ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasıdır Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır. Biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü milli ordu yaranıbdır. Bu ordunun bir hissəsi də burada, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda yerləşir. Naxçıvandakı hərbi hissələrin biri də sizsiniz və bu gün biz sizinlə görüşürük.

Bilirəm ki, burada qısa müddətdə hərbi şəhərcik yaratmaq, böyük bir hərbi hissənin Azərbaycanın sərhədlərinin keşiyində durmasını təmin etmək asan məsələ deyildir. Bu, çətin, ağır işdir. Ancaq biz bunun öhdəsindən gəlmişik. Azərbaycanın Müdafiə Nazirliyi və Azərbaycan ordusunun Naxçıvanda yerləşən hərbi hissəsi, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi – hamısı birlikdə burada bu gözəl hərbi şəhərciyi yaradıblar.

Mən buraya gələrkən sizin sərəncamınızda olan hərbi texnikanın, silah-sursatın cüzi bir hissəsi ilə tanış oldum. Bu məni sevindirdi. Sevindirən odur ki, hərbi hissənin lazım olan qədər hərbi texnikası, silah-sursatı var. Bir də ona görə sevindim ki, bu texnikadan, bu silah-sursatdan istifadə etmək və

onların vasitəsilə düşmənə zərbələr vurmaq bacarığına malik olan zabitlərimiz, mütəxəssislərimiz, əsgərlərimiz var.

Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur. Mən bəzən ayrı-ayrı vəzifələrə təqdim olunan namizədlərin işinə baxarkən, onların əvvəl harada təhsil aldıqlarını, işlədiyini öyrənərkən birinci növbədə fikir verirəm ki, hərbi xidmətini keçib, yoxsa yox.

Bunu siz də bilin, bütün gənclərimiz də bilsinlər. Hərbi xidmətini keçən, öz vətəndaşlıq borcunu yerinə yetirən gənc bizim dövlətdə, mənim başçılıq etdiyim dövlətdə ən hörmətlidir. Kadr nöqteyi-nəzərindən mənə 2-3 nəfər təqdim edəndə, mən hansına daha çox meyl göstərirəm – baxıram kim hərbi xidmətini keçmiş, vətəndaşlıq borcunu yerinə yetirmişdir. Bu mənim üçün o birilərindən dəyərlidir. Bu mənim şəxsi xüsusiyyətimdir. Mən bunu sizə deyirəm. Amma bu, təkcə şəxsi xüsusiyyət deyil, bu, dövlətçilikdən irəliyə gələn bir xüsusiyyətdir.

Gənclər burada hərbi xidmət keçirlər. Burada günəş də var – çox hərarətli günəş – dağlar da var, bəzən günəşin şüaları onlardan geriyə qayıdıb daha da çox isti verir. Amma bu dağların başında qar da var, görürsünüz, o da buranı sərinləşdirir. Burda gözəl bir iqlim var. Bu gözəl yerdə xidmət etmək, təbiidir ki, heç bir insan üçün böyük çətinlik yarada bilməz.

Mən bu gün burada sizinlə görüşümdən istifadə edərək, bu fikirləri təkcə sizin üçün yox, bütün Azərbaycan gəncləri

üçün deyirəm. Azərbaycan əsgərləri üçün deyirəm, Azərbaycan ordusu üçün deyirəm. Mən tanış oldum, burada qısa müddətdə gözəl yeməkxana hazırlanıb, kazarmalar hazırlanıb, tibb məntəqəsi var. Demək, burada hərbi xidməti yerinə yetirmək üçün bütün şərait təmin olunubdur. Bir də deyirəm, bu şəhərciyi qısa müddətdə yaratdıqlarına görə, mən hamıya, xüsusən Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və Ali Məclisin sədri Vasif Talıbova minnətdarlığımı bildirirəm.

İki il müddətində yaradılmış bu şəhərciyin nümunəsində indi təsəvvür etmək olar ki, Azərbaycan ordusu qısa bir zamanda nə qədər inkişaf edib və hansı vəziyyətdədir. Azərbaycanda dövlətinə, millətinə, xalqına mənfi münasibət göstərən insanlar, yaxud bəzi qruplar var, hətta müxtəlif siyasi təşkilatlar da var – onlar iqtidarı tənqid edirlər. Tənqid etmək bizi narahat etmir. Çünki mən də tənqid edirəm. Hesab edirəm ki, bizi də tənqid etməlidirlər. Çünki hər şeyi nə biz tamam yerinə yetirə bilirik, nə də başqaları. Əgər sağlam tənqid olsa, bu bizə, bir-birimizə köməkdir. Ancaq bəziləri tənqid etmir, sadəcə, yalanlar, şayiələr, uydurmalar, bəzən böhtanlar yayırlar. Ayrı-ayrı adama böhtan atmaq olar. Baxmayaraq ki, bu da mənəviyyatsızlıqdır. Şər də demək olar, yalan da demək olar, bunlar hamısı mənəviyyatsızlıqdır. Amma sən bu ölkədə yaşayasan, bu dövlətin yaratdığı ictimai-siyasi sabitlik şəraitində rahat yaşayasan, nəinki yaşayasan, həyat tərzin də çox yüksək olsun, ancaq xəbərin olmadan durub deyəsən ki, Azərbaycan ordusu zəifdir, orduda bu yoxdur, o yoxdur, bizə güclü Azərbaycan ordusu lazımdır Mən o adamlardan bu gün bir də soruşuram. Onların Azərbaycan ordusundan, onun bugünkü vəziyyətindən, heç olmasa bir faiz də olsun, xəbərləri varmı? Yoxdur və xəbər də bilmək

istəmirlər, öyrənmək istəmirlər. Çünki onda onlar üçün bu yalanları demək, bəlkə də bir az çətin olar. Bəlkə də onda, əgər onların vicdanları varsa, o vicdan onları bu yalandan bir balaca kənara çəkər. Yox, onlar bilmək istəmirlər və bizim orduya böhtan atırlar. Yenə də deyirəm, kiməsə böhtan atmaq olar, amma müstəqil Azərbaycan dövlətinin müdafiə qüdrətini təmin edən, onun əsas sütunlarından biri olan orduya böhtan atmaq cinayətdir. Onlara cavab olaraq, mən bu gün deyirəm – Azərbaycanın müasir tələblərə uygun güclü, qüdrətli ordusu var.

Ancaq bu da son hədd deyildir. Biz ordumuzu daha da gücləndirməliyik. Onu müasir silahlarla daha çox silahlandırmalıyıq. Ordumuzun zabit korpusu öz peşəkarlığını daha da artırmalıdır. Başqa işlər də görməlidir. Mən bu vəzifələri daim Azərbaycanın Müdafiə Nazirliyi qarşısında qoyuram, Müdafiə naziri general-polkovnik Səfər Əbiyevin qarşısında qoyuram və ondan tələb edirəm. Bu gün də tələb edirəm ki, mənim qoyduğum bu vəzifələr ardıcıl surətdə yerinə yetirilsin. Ancaq bu gün mən bizim ordumuzu, onun səviyyəsini, onun döyüş qabiliyyətini yüksək qiymətləndirirəm və Azərbaycanın Müdafiə Nazirliyi rəhbərliyinin, şəxsən general-polkovnik Səfər Əbiyevin fəaliyyətini bəyənirəm.

Mənim dediyim bu sözlər Azərbaycan ordusunun bütün hissələrinə aiddir, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən böyük hərbi hissəyə və onun komandiri general Mustafayevə aiddir. Mən bu gün bu bəyanatları verərkən ordumuzu müdafiə edirəm, generallarımızı müdafiə edirəm, zabitlərimizi müdafiə edirəm. Amma eyni zamanda düşünürəm ki, onlar mənim bu sözlərimdən daha da çox ruhlanacaqlar, daha da inamla işləyəcəklər, işlərində olan qüsurları

aradan qaldıracaqlar və daim mənim verdiyim, prezidentin, Ali Baş Komandanın verdiyi bu qiymətlərə layiq olacaqlar.

Mən qeyd etdim, hər bir dövlətin öz dövlətçiliyini təmin etmək üçün güclü ordusu olmalıdır. Bu xüsusən bizim üçün lazımdır. Çünki bilirsiniz ki, Ermənistan silahlı qüvvələri vaxtilə Azərbaycanın torpaqlarının 20 faizini işğal ediblər və işğal etdikləri torpaqlardan bir milyondan artıq soydaşımız didərgin düşüb çadırlarda yaşayır.

Biz 1994-cü ilin may ayında atəşi dayandırdıq və məsələnin sülh yolu ilə həll olunması prosesinə qoşulduq. Biz o vaxtdan bu prosesdə fəal iştirak edirik. Yəni bu, birinci növbədə, bizim üçün lazımdır və bütün beynəlxalq təşkilatların, dünyanın böyük dövlətlərinin imkanlarından istifadə etməyə çalışırıq. ATƏT-in Minsk qrupu – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının, Fransanın başçılıq etdiyi Minsk qrupu ilə də sıx əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Ümidvaram ki, biz Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll edəcəyik. İşğal olunmuş torpaqlar azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz elinə-obasına qayıdacaqlar. Ancaq bu sülh danışıqlarını apararkən, biz daim öz hərbi potensialımızı, müdafiə potensialımızı gücləndirməliyik, ordumuzu gücləndirməliyik. Bizim ordumuz nə qədər güclü olsa, apardığımız danışıqlarda bir o qədər də uğurlar əldə edə bilərik. Mən inanıram ki, bizim ordumuz indiyə qədər gücləndiyi kimi, bundan sonra da günbəgün güclənəcəkdir.

Amma orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, vətəninə

qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən. Mən inanıram ki, Azərbaycan ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o, Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və zəfər qazanacaqdır.

Siz hamınız, lazım olarsa, Ali Baş Komandanın belə bir əmrinə hazır olmalısınız və bu əmri şərəflə yerinə yetirməlisiniz.

Naxçıvanda yerləşən hərbi hissələrin vəzifələri başqalarından fərqlidir. Əgər Qarabağ bölgəsində Azərbaycan ordusu atəşkəs elan olunandan sonra Ermənistan ordusu ilə üz-üzə durub torpaqlarımızı qoruyursa, erməni ordusu Azərbaycanın işğal olunmuş torpaqlarında yerləşirsə, burada, Naxçıvanda Azərbaycanın Ermənistanla 260 kilometr məsafədə sərhədi var. Bu sərhədi siz qoruyursunuz, Azərbaycan ordusunun buradakı hissələri qoruyur.

Azərbaycanda sərhəd dəstəsi xüsusi vəzifə daşıyır. Qonşu, dost İran və Türkiyə ilə sərhədləri qoruyur, onlar da qorunmalıdır. Təbiidir ki, bunlar ikisi də bizə dost ölkədir. Biz onlarla əməkdaşlıq edirik. Ancaq beynəlxalq terrorizm, narkotiklərin daşınması, silah alveri, qaçaqmalçılıq və bu kimi başqa hallar həm İranı, Türkiyəni narahat edir, həm də bizi narahat edir. Ona görə də bizim Naxçıvan sərhəd dəstəsi bu işlərlə ciddi məşğul olmalıdır.

İndi beynəlxalq terrorizm bütün dünya, bəşəriyyət üçün ən təhlükəli faktordur. Keçən il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında baş vermiş dəhşətli terror hadisəsi bizim hamımızı hiddətləndiribdir. Azərbaycan dövləti beynəlxalq terrorizmlə mübarizə işində Amerika Birləşmiş Ştatları ilə bir alyansda, bir koalisiyada olduğunu dərhal bəyan etdi. Biz o vaxtdan üzərimizə düşən vəzifələri yerinə

yetiririk. Əfqanıstanda olan proseslərin qarşısını almaq məqsədilə NATO qüvvələrinin o bölgəyə getməsi və başqa işlərdə biz öz xidmətlərimizi göstəririk və bundan sonra da göstərəcəyik.

Amma beynəlxalq terrorizmlə mübarizə qurtarmayıbdır. Mübarizə davam edir və Ermənistan ərazisində vaxtilə müxtəlif terrorist qruplar mövcud olubdur. Bəzi məlumatlara görə, onlar işğal olunmuş torpaqlarda da öz fəaliyyətlərini davam etdirirlər, hər halda, narkotik maddələr daşımaq və cürbəcür belə qanunsuz işlər görməklə məşğuldurlar. Bu barədə məlumatlar var. Ona görə burada Azərbaycan Silahlı Qüvvələrinin bir hissəsi 260 kilometr uzunluğunda olan sərhədi qorumalıdır və sərhədin hansı nöqtəsində olursa-olsun, bizim torpağımıza qəsd edənlərə hər an lazımi cavab verilməlidir.

İndi Minsk qrupu vasitəsilə Ermənistan ilə Azərbaycan arasında sülh əldə olunması üçün danışıqlar gedir. Prezidentlərin nümayəndələri bir ay bundan öncə Praqada görüşmüşlər. Ola bilər yaxın vaxtlarda Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri də olsun. Bunlar hamısı məsələnin sülh yolu ilə həll olunması üçündür. Bu gün bir daha bəyan edirəm: Azərbaycanın prezidenti kimi, mən məsələnin sülh yolu ilə həll olunması üçün bundan sonra da bütün imkanlardan istifadə edəcəyəm. Mənim məqsədim sülh yaratmaq və Azərbaycanı bu vəziyyətdən çıxarmaqdan ibarətdir. Buna görə də Azərbaycan ordusu günbəgün güclənməlidir, qüdrətlənməlidir.

Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələr öz üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirirlər. Burada məni sevindirən odur ki,

hərbi hissənin komandanlığı ilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyi arasında çox işgüzar əlaqələr yaranıbdır. Mənə dedilər ki, buradakı kazarmalar və bəzi başqa binalar yalnız Naxçıvan Muxtar Respublikasının daxili imkanları hesabına, yəni onun xərcləri ilə tikilibdir. Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasında olan bu işgüzar əlaqələr, hakimiyyət orqanları tərəfindən, dövlət orqanları tərəfindən orduya göstərilən qayğı bir nümunə kimi başqa bölgələrdə də istifadə edilməlidir.

Əldə etdiyiniz nailiyyətlərə görə sizi bir daha təbrik edirəm. Yeni yaranmış bu şəhərciyə uğurlar arzulayıram. Güman edirəm ki, bir müddətdən sonra mən Naxçıvana yenidən gələrkən buranı daha da geniş görəcəyəm. Bunlar hamısı burada xidmət edən əsgərlər üçündür, döyüşçülərimiz üçündür, bizim övladlarımız üçündür. Bizim övladlarımız orduda xidməti şərəfli vəzifə kimi yerinə yetirməlidirlər. Ancaq bu vəzifəni yerinə yetirmək üçün biz hamımız birlikdə onlara müasir ordu səviyyəsində şərait yaratmalıyıq. Allaha şükürlər olsun ki, burada bu şərait yaranıbdır.

Sizi bir daha təbrik edirəm. Sizinlə görüşümdən çox şadam. Azərbaycan əsgərinə, Azərbaycan ordusuna yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

# CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN NAXÇIVAN FİLİALINDA KURSANTLARLA GÖRÜŞDƏ* NİTQ

*17 iyun 2002-ci il*

*Cəmsid Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialında Azərbaycan prezidenti, Ali Baş Komandan Heydər Əliyevin müdavimlərlə görüşü oldu.*

*Görüşə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Filialın rəisi polkovnik-leytenant Rasim Əliyev Azərbaycan prezidenti, Ali Baş Komandan Hevdər Əliyevə raport verdi. Sonra o, filialın fəaliyyətindən danışdı. Müdavimlər, onların valideynləri, müəllim və zabitlər tərəfindən hərarətlə qarşılanan dövlətimizin başçısı, Ali Baş Komandan Heydər Əliyev nitq söylədi.*

**Heydər Əliyev:** Əziz kursantlar!

Əziz bacılar, qardaşlar!

Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialında hərbi təhsil alan gənclərin valideynləri!

---

* *Görüşdə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov, Müdafiə naziri general-polkovnik Səfər Əbiyev və Naxçıvan qarnizonunun komandanı general-leytenant Kərəm Mustafayev iştirak edirdilər.*

Sizin hamınızı ürəkdən salamlayıram. Sizi belə gözəl, göyçək, hərbi qaydada, nizam-intizamla düzlənmiş görmək məni çox sevindirir.

Biz bu il Cəmşid Naxçıvanski adına Hərbi liseyin yaradılmasının 30-cu ildönümünü qeyd edəcəyik. Mən belə qərar qəbul etmişəm ki, payızda bu yubileyi qeyd edək, çünki bu, Azərbaycan xalqının tarixində çox mühüm bir səhifədir. Gənclərimizi hərbi peşəyə cəlb etmək üçün, hərbi peşəyə alışdırmaq üçün hələ 30 il bundan öncə – Sovet İttifaqı mövcud olan zaman, Sovet İttifaqı üçün, bütün xalqlar üçün vahid ordu olduğu zaman, İkinci dünya müharibəsindən sonra Cəmşid Naxçıvanski liseyinə bənzər – Suvorov, Naximov məktəbləri mövcud olduğu bir vaxtda, – Azərbaycan öz övladları, öz balaları üçün hərbiləşdirilmiş xüsusi orta məktəb yaratmaq qərarını qəbul etmişdi. Bu, Moskvada etirazla qarşılandı və hətta dedilər ki, biz anlamırıq, axı Sovet İttifaqı var, sovet xalqı var, vahid sovet ordusu var. Hər bir gənc sovet ordusunun böyük SSRİ ərazisində olan müxtəlif hərbi məktəblərə daxil olub, hərbi təhsil ala bilər. Bunları mənə bildirərək onu da soruşdular ki, Siz bunu nə üçün edirsiniz? Sonra isə mən qəbul etdiyim qərarın üzərində dayandığıma görə, bu etirazların izahatını verərək, eyni zamanda, Azərbaycanda belə bir hərbiləşdirilmiş orta məktəbin zəruriliyini sübut etməyə çalışdım. Bunun nə olduğunu onlar, yəni Moskvada, SSRİ-nin rəhbərliyində bu işlə məşğul olan adamlar bilirdilər, amma anlamaq istəmirdilər. Mən isə öz qərarımda israrlı idim.

30 il bundan öncə yaratdığımız hərbiləşdirilmiş orta məktəb, indi Cəmşid Naxçıvanski adına Hərbi lisey Azərbaycanın milli ordusunun yaranmasında, zabit kadrlarının hazırlanmasında böyük iş görmüş və dəyərli xidmətlər göstərmiş-

dir. Biz bunları payızda, liseyin 30 illik yubileyini keçirərkən geniş təhlil edəcəyik. Güman edirəm, indi bizim tarixçilərimiz, o cümlədən hərb tarixi ilə məşğul olan mütəxəssislərimiz artıq bu barədə öz tədqiqatlarını aparmalıdırlar. Hər bir tədqiqatın məqsədi qəbul olunmuş qərarın, yaxud başlanmış işin son nəticəsini araşdırmaqdır.

Bizim alimlər bilirlər ki, çox vaxt hansısa bir nəzəriyyəni – bu, bütün dünyada belədir, təkcə bizdə deyil – irəliyə sürürlər. Ancaq o nəzəriyyənin nəticələri haqqında müxtəlif fikirlər meydana çıxır. Hərə öz fikrini sübut etmək istəyir. Bəzi hallarda bu nəzəriyyələrdən biri qalib gəlir, bəzi hallarda isə aparılan tədqiqat işi və ona sərf olunan vəsait puça çıxır. Çünki nəticə əldə olunmur. Amma biz bu işi başlayanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə baxış idi. Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanda milli zabit kadrlarının hazırlanması üçün ilk addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığını əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaqdır.

Hər bir dövlət üçün olduğu kimi, Azərbaycan dövləti üçün də ən vacib şərt dövləti qüdrətli etmək, yaşatmaq üçün onun ordusunun və ordusunu təşkil edən peşəkar zabit korpusunun olmasıdır. Bəli, biz 30 il bundan öncə bu fikirləri nəzərə alaraq bu işə başladıq. İndi onun gözəl nəticələri göz qabağındadır.

Mən dünən axşam Müdafiə naziri Səfər Əbiyevlə söhbət edirdim. Bunlar hamısı mənə məlumdur. Ancaq söhbət zamanı yenidən hər bir mövzunu müzakirə edirsən. Hazırda Azərbaycan ordusunun zabit korpusunun əksəriyyətini təşkil edən Cəmşid Naxçıvanski adına Hərbiləşdirilmiş orta məktə-

bin, indiki Hərbi liseyin buraxdığı gənclərdir ki, sonra müxtəlif ali hərbi məktəblərdə təhsil almışlar. indi də ordumuzda uğurla xidmət edirlər. Biz bu işləri gördük və nəticələri də göz qabağındadır.

Azərbaycan dövlət müstəqilliyini ilbəil möhkəmləndirərək, eyni zamanda, ordusunu möhkəmləndirir. Ordusunun zabit heyətini peşəkar kadrlarla təmin etməyə çalışır. Bu baxımdan vaxtilə Naxçıvanski adına Hərbi liseyin Naxçıvan Muxtar Respublikasında filialının yaradılması məsələsi meydana çıxdı. Bu təbiidir. Çünki birincisi, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsi olaraq Azərbaycanın tərkibində muxtar respublikadır. Onun özünün Konstitusiyası var, hökuməti var. Muxtar respublikanın Ali Məclisinin və onun rəhbərliyi altında fəaliyyət göstərən bütün dövlət strukturlarının özünəməxsus statusları var. Ona görə Naxçıvan Muxtar Respublikasının bu konstitusion vəziyyətini nəzərə aldıq.

İkincisi, təəssüflər olsun, mən bunu dünən nitqimdə də bəyan etdim ki, vaxtilə, XX əsrin 20-ci illərində, yəni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikaların sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Mehri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır.

Biz sovet hakimiyyəti illərində bu çətinlikləri görürdük. Bəlkə xalq bunu görmürdü. Amma bir dövlətdə olduğumuza görə qarşısını alırdıq. Amma indi hər birimiz müstəqil dövlətik. Onu da nəzərə alaq ki, Ermənistan hələ 1988-ci ildə Azər-

baycana qarşı torpaq iddiası ilə çıxış etdi, münaqişə yarandı, müharibə baş verdi, qanlar töküldü və müxtəlif səbəblərdən Azərbaycan torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu.

Əlbəttə, belə bir vəziyyətdə Azərbaycanın qədim torpağı olan Naxçıvan Muxtar Respublikasının indi Ermənistana mənsub torpaqla ərazi nöqteyi-nəzərindən Azərbaycandan aralı düşməsi çətinliklər yaradıbdır. Bu çətinliklər Naxçıvan Muxtar Respublikasında əhalinin yaşayışını, əmək fəaliyyətini təmin etmək üçün əlavə tədbirlər görməyimizi tələb edir. Bütün bunları, Naxçıvan Muxtar Respublikasını nəzərə alaraq, vaxtilə biz burada Cəmşid Naxçıvanski adına Hərbi liseyin filialını yaratdıq. İndi görürük ki, bizim bu addımımız da çox doğru, düzgün və çox vaxtında atılan addım olubdur.

Burada filial neçə ildir fəaliyyət göstərir. İndi onun həm dərslər keçmək, həm kursantların yaşaması üçün özünəməxsus şəraiti, maddi-texniki bazası var. İndi görürəm, yeni korpus tikilir. Deməк, burada yaxşı bir hərbi məktəb mövcuddur və öz gələcəyi haqqında düşünür. Daha doğrusu, bu məktəbin gələcəyi haqqında biz düşünürük və ona imkanlar yaradırıq.

Naxçıvanski adına Hərbi lisey 30 il ərzində Azərbaycana böyük xidmətlər göstəribdir. İnanıram ki, onun filialı, Naxçıvan filialı da qısa bir zamanda burada yeni bir hərbi liseyin yaranması üçün əsas qoyubdur. Bunları nəzərə alaraq, mən Naxçıvana gəlişimlə əlaqədar proqramımda mütləq sizinlə görüşməyi arzulamışdım. Şükürlər olsun ki, mənim bu arzum yerinə yetibdir. Mən sizin yanınıza gəlmişəm, sizinlə görüşürəm, gənc Azərbaycan övladlarına baxıram, çox sevinirəm. Çünki indi Azərbaycanın prezidenti olaraq, mən hələ 30 il

bundan öncə müstəqillik haqqında – bəlkə də bunu çox az adam düşünə bilərdi, yaxud ağlına gətirə bilərdi, düşünüb hərbi məktəb yaratmışdım. Artıq bir neçə ildir Naxçıvan filialı yaranıbdır. Güman edirəm, illər keçəcək, biz yenidən burada görüşəcəyik və Naxçıvan filialı haqqında qəbul etdiyimiz qərarın da nə qədər vacib, əhəmiyyətli olduğunu bir daha təsdiq edəcəyik.

Mənə məlumat verdilər ki, gənclər Naxçıvan filialına daxil olmağa böyük həvəs göstərirlər, müraciətlər edirlər, ərizələr verirlər. Düzdür, hələ ki, yer məhduddur. Çünki belə bir hərbi məktəbin işlərini təmin etmək üçün gərək onun lazımi maddi-texniki bazası və başqa imkanları olsun. Kursantların sayı bunlar nəzərə alınaraq müəyyən edilir. Ancaq müraciətlər çoxdur. Bu il nə qədər nəzərdə tutulub?

**R a s i m Ə l i y e v:** Cənab Prezident, 700-dən yuxarı sənəd verilib.

**H e y d ə r Ə l i y e v:** Sən nə qədər planlaşdırırsan?

**R a s i m Ə l i y e v:** 200 nəfər.

**H e y d ə r Ə l i y e v:** 700-dən çox verilib, hələ veriləcək də. İndi burada neçə kursant təhsil alır?

**V a s i f T a l ı b o v** (*Naxçıvan MR Ali Məclisinin sədri)*: 321 kursant təhsil alır.

**H e y d ə r Ə l i y e v:** 321 kursant. Bu il buraxılış neçə nəfər olacaq?

**V a s i f T a l ı b o v:** 71 kursant buraxılacaq.

**H e y d ə r Ə l i y e v:** 71 kursant buraxılacaq və inanıram ki, onlar Bakıda ali hərbi məktəbə qəbul olunacaqlar.

**S ə f ə r Ə b i y e v** *(Müdafiə naziri)*: Cənab Prezident, onlar buraxılan kimi qəbul edilirlər.

**H e y d ə r  Ə l i y e v:** Ona görə buraxılan kursantları indidən təbrik edirəm. Onların Bakıda ali hərbi məktəbdə təhsil alması üçün az vaxt qalıbdır. Siz buraxılan kimi, Azərbaycan Ali Hərbi Məktəbinin kursantı olacaqsınız. Sizi öncədən təbrik edirəm. Ümidvaram ki, siz Azərbaycan Ali Hərbi Məktəbində də təhsil alacaqsınız.

71 nəfər buraxılacaqdır, amma əvəzinə 200 nəfər qəbul olunacaqdır. Deməк, müraciət edənlər – bundan sonra kimlərsə hələ müraciət edəcəklər və onların valideynləri bilməlidir, Naxçıvan filialına daxil olmaq üçün yüksək göstəricilər nümayiş etdirmək lazımdır. İmtahanlardan keçmək lazımdır. Hazırlaşın, imtahanlardan keçin. Onların içərisindən qalib gələn 200 gənc bu il kursant qəbul olunacaqdır. Beləliklə, filial böyüyür, 71 kursant buraxır, 200 kursant qəbul edir. Demək, əlavə 130 kursantla filial böyüyür. Güman edirəm ki, filial yaxşı göstəricilər nümayiş etdirsə, kursantlar hərbi peşəyə daha yaxşı hazırlaşa bilsələr, burada filial daha da genişlənə bilər. Bunlar çox sevindiricidir.

Naxçıvanlılar hərbi peşəyə keçmiş zamanlardan çox böyük maraq göstəriblər. Əgər keçmiş tarixi götürsək, burada Naxçıvanskilər, Kəngərlilər sülalələri olubdur. Onlardan ən böyük zabitlər, Çar Rusiyasının generalları olubdur. Baxmayaraq ki, o illərdə bizim dini fərqimizə görə – yəni ölkədə əsas xiristian dini idi, azərbaycanlılar isə müsəlman dininə itaət edirlər – Çar Rusiyası dövründə azərbaycanlıların hərbi məktəblərə qəbul olunması çox fövqəladə bir hadisə idi. Ancaq buna baxmayaraq, bəzi azərbaycanlılar o qədər yüksək zəka nümayiş etdiriblər, hərbi peşəyə o qədər maraq nümayiş etdiriblər ki, özlərini göstəriblər və böyük rütbələrə nail olublar.

Bax, həmin bu nəslin yetirmələrindən biri də Cəmşid Naxçıvanski idi.

Təsadüfi deyil ki, 30 il bundan öncə həmin məktəbi yaradarkən mən təklif etdim ki, ona Cəmşid Naxçıvanskinin adını qoyaq. Onun həyatı sizə məlumdur. Ancaq faciəli 1938-ci ildə, Moskvada böyük hərbi vəzifədə olduğu zaman həbs olunub güllələnibdir. Ancaq onun gözəl xatirəsi Azərbaycan xalqının qəlbində yaşayıb və zaman gəlibdir ki, onun adına belə məktəb yaranıbdır.

Beləliklə, demək istəyirəm ki, Naxçıvanda keçmiş zamanlardan hərbi peşəyə böyük maraq olubdur. Sonralarda gənclərin icərisində çox böyük maraq vardı. Mənim gəncliyim Naxçıvanda keçibdir. Ona görə də mən o illəri, İkinci dünya müharibəsi illərini, sonrakı illəri xatırlayıram. Mən bunu kitablardan demirəm, öz şəxsi müşahidələrimə görə deyirəm. Bildirmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi peşəyə marağı böyükdür, get-gedə artır. Bizim də vəzifəmiz onların bu peşəyə sahib olması üçün təhsil almasını təşkil etmək, imkan yaratmaqdır. Biz bunu edirik və edəcəyik.

Beləliklə, mən bu gün böyük sevinc hissi ilə deyə bilərəm ki, Cəmşid Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı yüksək səviyyədədir, bundan sonra səviyyəsini daha da yüksəldəcək və Azərbaycanın milli ordusu üçün, gələcək üçün yeni-yeni kadrlar hazırlayacaqdır.

Burada çox şey zabit-müəllim heyətindən asılıdır. Gənclər oxumalıdır, təhsil almalıdır. Amma gərək bizim məktəblərimizdə, o cümlədən burada, hərbi məktəblərimizdə müəllim-zabit heyəti müasir tələblərə uyğun səviyyədə olsunlar. Onların özləri vətənpərvər olsunlar, Azərbaycanın müstəqilliyinə,

dövlətçiliyinə sədaqətli olsunlar. Bu, əsas şərtdir. Bütün qalan işlər bu şərtin üstündə qurulubdur. Çünki müəllim-zabit gənclərə təhsil verərkən gərək özü onlara nümunə göstərsin ki, o, Azərbaycanın milli ordusunun layiqli zabitidir. Dərs vermək hüququna da layiqdir. Həm də gərək onun yüksək hərbi biliyi olsun ki, yaxşı təhsil verə bilsin.

Ona görə mən bu gün təkcə filialın yox, Azərbaycanın bütün hərbi məktəblərinin müəllim-zabit heyətindən tələb edirəm ki, onlar öz biliklərini – həm peşələrinə aid olan, həm də onlara lazımlı başqa sahələrə aid – artırsınlar və bizim məktəblərdə kadrların hazırlanması üçün, yüksək təhsil sisteminin yaranması üçün xidmət göstərə bilsinlər.

Əziz balalar, əziz övladlar!

Mən hələ 30 il bundan öncə və ondan sonrakı illərdə hər il Naxçıvanski adına hərbi məktəbə gedərkən qarşımda 14, 15, 16 yaşlı gəncləri, onların hərbi marşla sıra ilə addımlamalarını görürdüm. Oradan qayıdarkən həmişə böyük təəssüratlar içində olurdum. Mən bu gün də sizi görərək, sizə baxaraq bu hissiyyatları keçirirəm. Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın gələcəyini gənclərə etibar edirik. Əziz övladlarımız, sizə etibar edirik. Siz isə bizim bu ümidlərimizi, arzularımızı doğrultmalısınız. İnanıram ki, doğruldacaqsınız.

Mən sizə cansağlığı arzu edirəm. Sizə yaxşı təhsil almağı, peşəkar hərbçi olmağı, vətəni qorumaq peşəsinə yaxşı yiyələnməyi, yüksək rütbəli zabit olmağı arzulayıram. Sağ olun.

* * *

*İyunun 17-də Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin komandirləri ilə müşavirə keçirdi.*

*Ali Baş Komandan hərbi hissələrin problemləri, qayğıları ilə maraqlandı, dövlət sərhədlərimizin daha da möhkəm qorunması sahəsində qarşıda duran vəzifələrdən danışdı, hərbçilərə əmr və tapşırıqlarını verdi.*

*Müşavirədə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycanın Müdafiə naziri general-polkovnik Səfər Əbiyev iştirak edirdilər.*

# NAXÇIVANDA GÖRKƏMLİ RƏSSAM BƏHRUZ KƏNGƏRLİNİN MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*18 iyun 2002-ci il*

*Naxçıvan şəhərində görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin xatirəsinə yaradılmış muzeyin təntənəli açılıs mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə iştirak etmisdir. Mərasimə toplaşan yüzlərlə şəhər sakini dövlətimizin başçısını səmimiyyətlə, hərarətli alqışlarla qarşıladılar.*

*Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov, rəssam Telman Abdinov mərasimdə çıxış etdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev muzeyin açılış mərasimində geniş nitq söylədi.*

**Heydər Əliyev:** Əziz dostlar!

Əziz bacılar, qardaşlar!

Hörmətli xanımlar və cənablar!

Mən iki-üç gündür ki, Naxçıvandayam. Doğrusu, təsəvvür edə bilməzdim ki, mənə belə bir imkan yaranacaqdır. Çünki Naxçıvana gəlmək məsələsi ortaya çıxanda, birinci növbədə, Olimpiya İdman Kompleksinin açılışı haqqında söhbət getdi. Ancaq başqa planlar hələ gündəlikdə deyildi. Sonra isə mən Naxçıvana gəlmək haqqında qərar qəbul edərkən, düşündüm

ki, bir çox başqa işlər də var, onlarda da iştirak etmək lazımdır, insanlarla daha çox görüşmək lazımdır. Naxçıvanın torpağı – daşı, havası, səması hamısı mənim üçün əzizdir. Mən bunlardan ötrü darıxıram. Amma bunlardan da çox naxçıvanlılar üçün darıxıram.

Dünyada insanlar müxtəlifdir. Dövlət xadimləri də, siyasi xadimlər də, alimlər də, yazıçılar da, cürbəcür sənət sahibləri də müxtəlifdir. Az olar ki, onlar bir-birinə bənzəsinlər. Bu da təbiidir, belə olmalıdır. Ona görə hər bir insanın özünəməxsus xüsusiyyətləri var. Əgər insan doğrudan da öz xüsusiyyətləri ilə xalqına, millətinə, Vətəninə daha çox fayda gətirə bilərsə, daha çox iş görə bilərsə, əlbəttə, onda bu xüsusiyyətləri qiymətləndirmək və qoruyub saxlamaq lazımdır.

Mənim həyatımın böyük tarixi var. Bunu bilirsiniz. Müxtəlif dövrlərdə mənim həyatım üçün yaranmış vəziyyətlər və mənim gördüyüm işlər var. Hamısı eyni deyil, hərəsinin öz yeri var. Ancaq mənim üçün hamısı qiymətlidir. Ola bilər, içimdən, kökümdən gələn, genetik quruluşumdan gələn bir şeydir ki, mən doğulduğum, yaşadığım torpağı həmişə, gənclik dövrümdən o qədər sevmişəm ki, hər dəfə bu torpağı, bu yeri, bu insanları xatırlayanda düşünürəm ki, bunlar mənim üçün hamısından əzizdir.

Naxçıvana gəlişim məndə çox müxtəlif hissiyyatlar yaradır. Bunların sevindirici cəhətləri də var, məyusedici cəhətləri də var. Ancaq əgər hamısını birlikdə götürsəm, görürəm ki, bu hissiyyatların çoxu mənim üçün, birincisi, əziz olubdur və mənim həyatımda öz rolunu oynayıbdır. İkincisi də, nə qədər uzaq dövrdən olsa da, mənimlə yaşayıb və yaşayır.

Ona görə də mən fikirləşdim ki, Naxçıvana gələrkən bir az sərbəst imkanım da olsun, insanlarla görüşüm, söhbət edim,

keçmiş günləri yadımıza salaq. Çox planlarım var idi. Onun hamısını yerinə yetirə bilmirəm. Deyirəm, bəlkə gedim çayxanada oturum – vaxtilə, 1990-cı illərdə mən burada müxtəlif adamlarla çayxanada oturmuşam – yaxud bazara gedim. Mənim bu xasiyyətim həmişə var, bazara gedirəm. Çünki bazar həmişə hər bir yerin müəyyən qədər aynasıdır. İndi görüm, əgər mümkün olsa, bunları edəcəyəm. Amma edə bilməsəm də, bunlar ürəyimdə qalacaq ki, gələn dəfə edim.

Biz dünən çox səmərəli iş gördük. Azərbaycan ordusunun Naxçıvandakı hissəsi ilə şəxsən məşğul oldum. Artıq televiziyadan, mətbuatdan bilirsiniz ki, Şahbuz rayonunda yeni bir hərbi hissə yaranıbdır, fəaliyyət göstərməsi üçün hərbi şəhərcik tikilibdir. Mənə Vasif Talıbov bu barədə məlumatlar verirdi. Mən də bunu dəstəkləyirdim. Ancaq dünən oraya getdim və gördüklərim məni çox sevindirdi. Bu məsələni indi geniş izah etmək istəmirəm. Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsi təkcə naxçıvanlıların işi deyil, təkcə Naxçıvanda yaşayanların, Naxçıvanda yerləşdirdiyimiz hərbi hissələrin işi deyildir. Bu bizim ümumi işimizdir. Millətimizin, Azərbaycan dövlətinin ən böyük işlərindən biridir.

Ümumiyyətlə, müstəqil ölkənin hərbi qüdrətini inkişaf etdirmək və hər bir hadisənin vaxtında qarşısını almaq üçün təminat yaratmaq dövlətin əsas vəzifələrindən biridir. Təəssüflər olsun ki, bizim müstəqil dövlətimiz yaranmamış Azərbaycanı yaraladılar, ermənilər torpaq iddiası ilə çıxış etdilər. Onların qarşısı alınmadı. Sonra bu, müharibəyə çevrildi və Azərbaycan xalqı böyük itkilər verdi. Torpaqlarımızın bir qismi işğal olundu. işğal olunmuş torpaqlardan zorla çıxarılmış bir milyon adam neçə illərdir ki, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Belə bir vəziyyətdə olan respublika Ermənistan–Azər-

baycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün bütün imkanlardan istifadə edərək, eyni zamanda, ölkənin ümumən müdafiəsini, müdafiə potensialını yüksəltməlidir. Dövlət başçısı kimi, mən daim bu işlə məşğul oluram və indi yaxşı nəticələrini görürəm.

Dünən Şahbuz rayonunda yeni hərbi şəhərcikdə hərbçilərlə görüşüm, onların nümayiş etdirdikləri bəzi silah növləri, əsgərlərin həqiqi Azərbaycan əsgəri kimi yeriməsi, durması, Azərbaycanın himnini öz səsləri ilə oxumaları – bunlar hamısı məndə o qədər böyük hissiyyatlar yaratdı ki, düşündüm – bəli, bizim gördüyümüz işlər nəticə verir.

Mən oradan dönəndən sonra Naxçıvan Muxtar Respublikasında olan bütün hərbi hissələrin komandirləri ilə üç saat müşavirə keçirdim. Müdafiə nazirini dinlədim, Naxçıvan qarnizonunun komandanı general-leytenant Mustafayevi dinlədim, digər zabitləri dinlədim. Yəni mənə lazım idi ki, buradakı vəziyyətin nə cür olduğunu özüm biləm. Mən müşavirədən, onun nəticələrindən çox razı qaldım. Hiss etdim ki, bəli, bizim buradakı hərbi hissələrimiz öz vəzifələrini bilirlər, Naxçıvan Muxtar Respublikasını hər an qorumağa qadirdirlər Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan ərazimizin parçalanması nəticəsində ağır vəziyyətdə olduğu halda, bizim buradakı ordu hissələrimiz yaxşı səviyyədədirlər. Ancaq mən onların qarşılarında vəzifələr də qoydum. O vəzifələri yerinə yetirmək üçün onlara yardım lazımdır. Mən bunu da edəcəyəm. O vəzifələri, o işləri ki, mən etməliyəm, edəcəyəm və edirəm.

Yadımdadır, 1996-cı ildə burada hərbi hissə yaradılması haqqında mən göstərişlər verəndə, Bakıda bəziləri etiraz edə bilmirdilər, amma öz fikirlərini deyirdilər ki, nəyə lazımdır,

nə üçün? Mənə dünən lazım idi görüm ki, buradakı əsgər nə vəziyyətdədir, zabit necədir, onların döyüş qabiliyyəti necədir və buradakı komanda heyəti nə səviyyədədir, nə edirlər və Naxçıvanı etibarlı qoruya bilərlərmi?

Mənim yadıma 1992-ci il düşür. Sədərək istiqamətindən Naxçıvana hücum etmişdilər. Silahımız, sursatımız yox, oradan-buradan nə isə tapırdıq, biz orada 40 gün döyüşdük. Onda bəzi insanlar həlak oldu. Ancaq bu, lokal bir şey idi. O vaxt bunun qarşısını mən döyüşlə yox, siyasi danışıqlarla aldım. Həm Ermənistan tərəfi ilə, həm də Türkiyənin rəhbərləri ilə daim danışıqlar aparırdım. Bunların nəticəsində mən bunun qarşısını aldım. Amma indi o vaxt deyil, Azərbaycan müstəqil dövlətdir. Onun indi gərək Naxçıvanda etibarlı qoşun hissəsi olsun və bu da var. Mən bilirdim ki, bu var. Amma dünənki günümü buna həsr etdim ki, özüm gözlərimlə bir daha görüm, qulağımla eşidim, özüm anlayım – bu həqiqətən varmı? İndi sizə deyə bilərəm ki, var. Arxayın olun.

Mən söhbətimi ondan başladım ki, buraya gələndə özüm-özümə o qədər planlar cızıram ki, bir də görürsən, gün keçir, vaxt keçir, onların müəyyən hissəsini yerinə yetirə bilmirsən. Vasif Talıbov mənə məlumat vermişdi ki, Bəhruz Kəngərlinin muzeyi hazırlanıbdır. Mən bu məsələ ilə də məşğul olmuşdum. Bizim Mədəniyyət Nazirliyi, yaxud Dövlət Incəsənət Muzeyi hətta Bəhruz Kəngərlinin bəzi fondlarda saxlanan əsərlərini Naxçıvan nümayəndələrinə göstərmək istəmirdilər ki, bunlar bizim fonddadır, biz bunu qoruyuruq, saxlayırıq. Qoruyursunuz, saxlayırsınız – bu yaxşıdır. Amma mən fikirləşdim ki, onlar daha da yaxşı qorunmalıdır. Yaxşı qoruyub saxlaya bilmirlər.

Sən onu zirzəmidə, yaxud ayrı yerdə qoruyub saxlayırsan. Bəs bizim vətəndaşlarımız, xalqımız Bəhruz Kəngərlinin yaradıcılığı ilə nə cür tanış olsun?! Hər halda, mən lazımi göstərişlər verdim. İndi çox şadam ki, burada muzey yaradılıb, sizinlə baxacağıq. Təbiidir ki, onun əsərləri çoxdur, hamısını buradakı muzeyə vermək olmaz. Mən bu fikirlə də razıyam. Çünki onlar Azərbaycan dövlətinin milli sərvətidir, bunlardan istifadə etmək lazımdır. Amma dövlət bunları qoruyub saxlamalıdır.

Bəhruz Kəngərli haqqında yazıblar, yəqin siz eşitmisiniz, bilirsiniz. Onun əsərlərinin çoxunu yəqin görməmisiniz. İndi burada nümayiş etdirilən əsərləri hələ çoxları görməyibdir. Bu onun əsərlərinin az bir hissəsidir. Nadir istedada malik olan bir insan idi. O, Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır, bunu açıq deməliyik. Bilirsiniz, Əzim Əzimzadəni böyük şəxsiyyət kimi həmişə təbliğ edirik və bundan sonra da təbliğ edəcəyik. Amma onun əsərləri, əsasən, qrafika əsərləridir və daha çox «Molla Nəsrəddin» jurnalı ilə əməkdaşlığı, orada yaratdığı karikaturaları və bir çox başqa əsərləri ilə tanınır. Amma Bəhruz Kəngərli, birincisi, Tbilisidə professional rəssamlıq təhsili alıbdır. İkincisi də, iş təhsil almaqda deyil, bu, Bəhruz Kəngərlinin özünün fitri istedadı idi. Orada o qədər adam təhsil alıb ki, onların heç də hamısı görkəmli rəssam olmayıbdır.

Yadımdadır, mən həmin bu binada orta məktəbdə oxuyarkən Bəhruz Kəngərli haqqında oradan-buradan eşidirdik. Amma Bəhruz Kəngərlini üzə çıxaran, təbliğ edən yox idi. İndi mən deyə bilmərəm nə üçün. Bəlkə o vaxt hesab edirdilər ki, o, devrilmiş sinfin, yəni bolşeviklər tərəfindən devrilmiş sinfin nümayəndəsidir. Ona görəmi, ya nəyə görəmi, mən bu-

na cavab verə bilmərəm. Ancaq onu bilirəm ki, Bəhruz Kəngərli haqqında gənc vaxtımda eşitmişdim. Çünki mən özüm də rəssamlıqla maraqlanırdım, məşğul olurdum və rəsm əsərləri çəkirdim. Ona görə də marağım daha çox idi. Ancaq onun haqqında heç bir məlumat yox idi.

Sonralar mən Azərbaycanda sizə məlum olan vəzifələrdə işləyəndə, Azərbaycana başçılıq edən zaman bir neçə dəfə göstərişlər vermişdim ki, araşdırın, Bəhruz Kəngərlinin əsərlərini gətirin. Amma nədənsə, hər dəfə – deyə bilmərəm ki, buna müqavimət göstərmişdilər, səhlənkarlıq etmişdilər, – belə qalırdı. İndi nəhayət, biz Bəhruz Kəngərlini üzə cıxardıq. Yəni üzə çıxardıq sözü dəqiq deyil, o onsuz da yaratdığı əsərlərə görə bizim mədəniyyətimizdə, incəsənətimizdə öz yerini tutmuşdur. Amma onun əsərlərini elə «dərin quyuya» salmışdılar ki, insanlar onu o qədər də yaxşı tanımırdılar.

Deyə bilmərəm nə qədərdir, amma indi təkcə Naxçıvanda yox, ümumən Azərbaycanda da Bəhruz Kəngərlini yaxşı tanıyanlar o qədər də çox deyildir. Amma onun əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə – mən insan obrazlarını deyirəm, xüsusən o ağır dövrün, 1918–1919–1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını, az da olsa, öz əsərlərində əks etdiribdir.

Hesab edirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə tədqiq etməli, əsərlər yazmalıdırlar. Həm Bəhruz Kəngərlini Azərbaycan xalqının görkəmli və yüksək mədəniyyətə malik olan nümayəndəsi kimi təbliğ etsinlər, həm də böyük rəssam kimi təbliğ etsinlər.

Mən bu muzeyin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası rəhbərliyinin təşəbbüsünü çox yüksək qiymətləndirirəm. Bu muzeyin yaranması təkcə Naxçıvandakı tədqiqatçılar üçün yox, bütün Azərbaycan tədqiqatçıları üçün böyük imkanlar yaradacaqdır. Mən onların hamısını dəvət edirəm ki, bu işlə məşğul olsunlar. Hesab edirəm ki, bu tövsiyələrim bir sənətşünas, tədqiqatçı kimi, bir alim kimi, onlar üçün çox faydalı olacaqdır. Onların gördükləri iş Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstərəcəkdir.

Bəli, bu gün demək olar ki, Bəhruz Kəngərlinin əsərləri Azərbaycanın rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur. Yeri gəlmişkən, bu bina haqqında da bir neçə kəlmə demək istəyirəm. Çünki mən bu binada oxumuşam, təhsil almışam. Mən burada orta təhsil alandan sonra Bakıya gedib Azərbaycan Sənaye Institutunun memarlıq fakültəsinə daxil olmuşam. Mən həmişə Naxçıvanda oxuduğum dövrü xatırlayıram, bu dövr mənim yadımdan heç vaxt çıxmayacaqdır. Birinci sinifdən sona qədər heç vaxt yadımdan çıxmayacaqdır.

Ona görə də müəllimlərin hamısı yadımdadır. Hansı binada, hansı sinifdə oturmuşam, o da yadımdadır. Hansı partanın arxasında oturmuşam, o da yadımdadır. İndi içəri keçsək sizə göstərərəm, biz hansı sinifdə dərs keçirdik – hamısı yadımdadır. Nə üçün? Çünki həyatımızın ağır dövründə – təkcə mənim həyatımda yox, bütün xalqımız ağır dövr yaşayırdı – çətin problemlər içərisində burada o qədər məhəbbətlə, o qədər sevgi ilə o qədər köklü təhsil aldım ki, sonra bütün başqa yüksək təhsil ocaqlarında oxumaq mənim üçün çətin

olmadı. Əksinə, buradakı kimi, mən sonra da həmişə tələbələrin içində seçilən olmuşam.

Ona görə bu divarlar mənim üçün əzizdir. Bu bina mənim üçün əzizdir. Bunun balkonu var idi, bilmirəm indi durur, yoxsa yox. O tərəfdə də bir bina var idi, o da buna bitişik idi. O indi var, yoxsa yox?

**V a s i f T a l ı b o v:** Cənab Prezident, bəli, musiqi məktəbidir. Ancaq bundan bir az aralıdır.

**H e y d ə r Ə l i y e v:** O, buna bitişirdi. Çünki siniflərin bəziləri orada idi. Bunun həyəti var idi, belə geniş deyildi, kiçik idi. İndi genişləndirmisiniz. Həyətdə idman etmək üçün bəzi imkanlar vardı. Burada gözəl müəllimlər var idi.

Mən birinci gün sevdiyim müəllim Lətif Hüseynzadə ilə görüşdüm. Elə bil ki, dünən idi. Mənim yadımdadır, o, Azərbaycan dili dərsi keçirdi, Azərbaycan ədəbiyyatı dərsi keçirdi. Məndən bəzən soruşurlar, axı Siz təhsilinizin əsas hissəsini rus dilində almısınız, işlərinizin hamısı, demək olar ki, o dövrün tələblərinə görə rus dilində gedibdir. Bəs nə cür olubdur ki, Azərbaycan dilini bəzi azərbaycanlılar kimi unutmamısınız? Onlar heç əvvəl də bilməyiblər ki, unutsunlar, o qədər bilməyiblər. Belələri, xüsusən Bakıda çoxdur. Burada belələri azdır. Burada hamısı Azərbaycan dilində yaxşı təhsil alır və Azərbaycan dilini yaxşı bilən adamlar çoxdur. Ona görə mən onlarla yarışa girmək istəmirəm. Bilirəm ki, onlar güclüdürlər. Amma o illər Lətif müəllimin, təkcə Lətif müəllimin deyil, başqa müəllimlərimizin də bizə verdiyi dərslər, şəxsən mənə verdiyi dərslər və tövsiyələr bu günə qədər yadımdadır və bütün həyatımda həmişə mənə kömək edibdir.

Mən o gün Lətif müəllimlə görüşəndə bilirdim ki, yaşı çox olsa da, səhhəti pis deyil. İndi təsəvvür edin, o günkü məra-

simdə əvvəldən axıra qədər iştirak edirdi. Deməк, sağlamlığı da yaxşıdır. Yenə deyirəm, müəllimlər, bir yerdə oxuduğumuz məktəb yoldaşlarım, bu binanın divarları, sinifləri mənim üçün həmişə əziz olubdur. Mən buraya gələndə elə bilirdim ki, böyük bir saraya gəlirəm.

Vasif Talıbov burada Məmməd Cəfər Cəfərovun bir ifadəsini yada saldı ki, Bəhruz Kəngərli Puşkin küçəsində kiçik bir otaqda özünə sərgi düzəltmişdi və insanları çağırırdı ki, gəlin, baxın. Bu həqiqətdir. Çünki Məmməd Cəfər çox ədalətli, bilikli alim idi. Onun dediyi sözlərin hamısı, güman edirəm ki, həqiqətə uyğundur. Amma o Puşkin küçəsi haradadır? Puşkin küçəsi budur. Bu küçə axıra qədər, Şahab məhəlləsinə qədər Puşkin küçəsidir. Özü də deyə bilərəm ki, Puşkin küçəsi yuxarıdan Əlixan məhəlləsindən gəlib keçir və Şahab məhəlləsinin axırında qurtarır. Mən sonralar bəzən deyirdim ki, bu küçəyə Puşkinin adı nə vaxt verilibdir?

Puşkinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvanın mütəfəkkir adamları – onların adları yadımdan çıxıb, ona görə təkrar etmək istəmirəm, gərək ki, o vaxt Sidqi, başqa bir iki nəfər də olmuşdu – şairə öz münasibətlərini bildirmək üçün bu böyük küçəni Puşkin küçəsi adlandırmışdılar. Mən də burada doğulmuşam. Puşkin küçəsi ilə gedəndə, balaca bir döngə vardı, elə idi ki, iki adam bir-birinin yanından keçəndə toqquşurdu. Belə bir dar küçə idi, elə adı da Dar küçə idi. Oraya heç fayton, araba da girmirdi. Orada atamın balaca bir həyəti var idi, mən orada doğulmuşam. Allaha şükürlər olsun ki, o yer qaldı. Düzdür, bir az dağılmışdı və mən 1990-cı ildə burada olanda atamın yurdunu abadlaşdırdım. Mən buraya gələndə elə orada yaşayıram. Mən bunu sevirəm. Çünki orada doğulmuşam. Bizim həyətdə quyu var

idi, o quyudan su içmişəm. Quyu suyu bir az duzlu idi, amma Puşkin küçəsindən yuxarıdan yaxşı su axırdı, anam, böyük bacım vedrə ilə oradan su gətirirdilər.

Sonra o vaxt Naxçıvanda suyu süzən daşlar var idi. İndi mən görürəm, çoxları bilmir bu nədir. O vaxtlar qəribə idi. Daşı yonurdular, yonurdular, ona vedrə ilə su tökürdülər. Altına isə yenə vedrə qoyurdular. Su damcı-damcı vedrəyə süzülürdü. Ondan ancaq çay üçün, yemək üçün istifadə olunurdu. Mən bunların hamısını yaşamışam. İndi görürəm ki, burada bunları beş-altı adam bilir. Başlarını tərpədib mənim dediyim sözləri təsdiq edirlər. Amma qalanları bilmirlər. Mən gələndə bunlardan soruşdum ki, daşdan su necə süzüldüyünü bilirsiniz? Onlar dedilər, biz belə şeylər bilmirik. Harada görüblər?

Bəli, həmin bu Puşkin küçəsi də mənim üçün əzizdir. Çünki bu küçədən gedirdik, gəlirdik, gəncliyim belə keçirdi. İndi buraya gəlmişəm, həm məktəbimi görürəm, həm yaşadığımız yeri, həm də Puşkin küçəsini görürəm. Bunlar tarixin nişanələridir. Amma mənim üçün ən əziz odur ki, sizi görürəm, öz xatirələrimi sizə söyləyirəm və sizinlə birlikdə bu gözəl günü bölüşdürürük.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Bəhruz Kəngərlinin muzeyinin açılması münasibətilə sizi təbrik edirəm. Bütün Azərbaycan xalqını təbrik edirəm. Çünki bu, təkcə sizin üçün, bizim üçün deyil, bütün Azərbaycan xalqı üçündür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz də, Azərbaycanın digər dəyərli insanları, elm xadimləri, mədəniyyət xadimləri, siyasət xadimləri, dövlət xadimləri də bizim tariximizi, tarixi irsimizi daim öyrənib yeni-yeni səhifələr meydana çıxaracaqlar. Bizim millətimizin zəngin tarixini nə qədər çox araşdırıb, aşağı laylardan çıxarıb təbliğ edə bilsək, Azərbay-

can xalqının nə qədər böyük tarixə malik olduğunu göstərə bilərik və inanıram ki, biz sizinlə birlikdə bunu edəcəyik. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev muzeyin açılışını bildirən qırmızı lenti kəsdi. Respublikamızın rəhbərinə gül dəstəsi təqdim edildi. Məktəbli qız Heydər babanı şeirlə salamladı:*

*Salmasın bu dövlətə heç*
*kəs göz ayrılığı,*
*Heydər Əliyev kimi gözəl*
*rəhbərimiz var.*
*Oğul ataya layiq*
*verir göz aydınlığı,*
*İndi Azərbaycanda*
*iki Heydərimiz var.*
*Heydərin davamçısı,*
*millətə layiq oğul,*
*Sabahın sükançısı,*
*Vətənə dayaq oğul,*
*Atasının yolunda*
*həmişə oyaq oğul.*
*Əhsən, belə oğula,*
*el yükünü daşıyır,*
*İndi Azərbaycanda*
*iki Heydər yaşayır.*
*Okeanlardan o taydan*
*gəlir İlhamın səsi,*
*Atası tək sevinir,*
*dilində sülh kəlməsi.*

*Zəfərləri mat qoyur,*
*eşidən, bilən kəsi,*
*Atası ilə bərabər el*
*yükünü daşıyır,*
*İndi Azərbaycanda*
*iki Heydər yaşayır.*
*Nəğməyə, şeirə verib*
*qüdrət duyğumuzu,*
*Dünyaya tanıtdırar*
*müstəqil yurdumuzu,*
*İki Heydər irəli aparır*
*ordumuzu.*
*Əhsən belə oğula, el*
*yükünü daşıyır,*
*İndi Azərbaycanda*
*iki Heydər yaşayır.*
*Salmasm bu dövlətə heç*
*kəs göz ayrılığı,*
*Heydər Əliyev kimi gözəl*
*rəhbərimiz var.*
*Oğul ataya layiq*
*verir göz aydınlığı,*
*İndi Azərbaycanda*
*iki Heydərimiz var.*

*Dövlətimizin başçısı mərasim başa çatdıqdan sonra muzeyin otaqlarını gəzdi, burada nümayiş etdirilən eksponatlarla tanış oldu.*

# NAXÇIVAN MR ALİ MƏCLİSİNDƏ MUXTAR RESPUBLİKANIN DÖVLƏT HAKİMİYYƏT ORQANLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ

*18 iyun 2002-ci il*

Mən sizinlə artıq bir neçə gündür görüşürəm və Naxçıvana gəlməyimin məqsədi, eyni zamanda gördüyüm işlər haqqında sizə məlumat verirəm. Hesab edirəm ki, bu günlər mənim üçün, Azərbaycan prezidenti üçün çox səmərəli, çox əhəmiyyətli olubdur. Düşünürəm ki, Naxçıvan Muxtar Respublikasının əhalisi üçün və hakimiyyət orqanları üçün də çox səmərəli, əhəmiyyətli olubdur. Demək istəyirəm ki, biz bir neçə dəfə görüşmüşük, danışmışıq. Siz mənim fikirlərimi bilirsiniz. Mən bu gün Bəhruz Kəngərlinin muzeyini açarkən Naxçıvanda yerləşən hərbi hissənin komanda heyəti ilə görüşüm haqqında dedim. Ancaq mən muxtar respublikanın dövlət hakimiyyəti orqanlarının nümayəndələri ilə bilavasitə görüşməsəydim, bu, anlaşılmaz olardı. Mənim Naxçıvan səfərimdə bu, planda var idi. Ancaq mən bunu bir az axıra saxladım ki, əvvəl başqa işləri görək, sonra sizinlə görüşək.

Mən bu məqsədlə xahiş etdim ki, Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanlarının nümayəndələri bu gün buraya dəvət olunsunlar. Görüşək, söhbət edək, danışaq – görək sizin işləriniz necədir və bundan sonra nə etmək lazımdır ki, daha da yaxşı olsun. Söhbətimizin konkret olma-

sı üçün istərdim, Naxçıvanın başçısı, Ali Məclisin sədri Vasif Talıbova söz verim. O, məlumat versin. Əgər bundan sonra başqa əlavə məlumat vermək istəyənlər varsa, mən onları da məmnuniyyətlə dinləməyə hazıram. Sonda isə mən bəzi fikirlərimi sizə çatdıracağam. Biz bundan ötrü buraya toplaşmışıq. İndi mən Vasif Talıbova söz verirəm.

## Naxçivan MR Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

Möhtərəm Prezident! Hörmətli toplantı iştirakçıları!

Xalqımızın əziz bayramı, olan Milli Qurtuluş günündə, 1993-cü ilin 15 iyunundan sonra Azərbaycan yenidən 1969-cu ildən başlanan quruculuq yoluna qədəm qoydu. Məhz bu tarixdən başlayaraq, ölkəmizin hər bir guşəsində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadi dirçəlişin, irimiqyaslı abadlaşma və quruculuq tədbirlərinin əsası qoyuldu. 12 ildən artıqdır iqtisadi blokada şəraitinin hökm sürməsinə, ölkənin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrinin olmaması ucbatından ortaya çıxan digər ağırlaşdırıcı səbəblərə baxmayaraq, muxtar respublikada Sizin diqqətinizdən, qayğınızdan və daxili mənbələrdən səmərəli istifadə edilmiş, iqtisadi inkişafın artımı təmin olunmuşdur. Möhtərəm prezidentin ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri, sosial iqtisadi inkişafla bağlı verdiyi dəyərli tövsiyələri və tapşırıqları muxtar respublika əhalisində tükənməz qürur və iftixar hissi doğurub, onları daha məhsuldar fəaliyyətə, qurub-yaratmağa sövq edibdir. Möhtərəm Prezident, vaxtınızı çox almamaq üçün, icazənizlə,

muxtar respublikaya ikinci tarixi səfərinizdən, 1999-cu ildən sonra görülən işlər barədə qısa məlumat vermək istəyirəm.

Ümumi göstərici bundan ibarətdir ki, əhalinin sosial problemlərinin həlli istiqamətində böyük tədbirlər həyata keçirilir. Əvvəlki illərdə olduğu kimi, son iki il yarımda da sosial infrastrukturun inkişafına, hərbi quruculuğa üstün yer verilmiş, vəsaitlər əsasən sərhəd və dağ kəndlərinin inkişafına, şəhər və rayon mərkəzlərinin abadlaşdırılmasına yönəlmişdir. İqtisadi və sosial inkişafı xarakterizə edən əsas göstəricilər 1999-cu illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu müddət ərzində sənaye məhsulu istehsalı 55 milyard 600 milyon manatdan 57 milyard manata çatmış və ya 103,3 faiz olmuşdur.

Tikintidə əsaslı kapital qoyuluşu 2,1 dəfə artaraq, 27 milyard 900 milyon manatdan 57 milyard 600 milyon manata çatmışdır. Bütün kateqoriyalar üzrə kənd təsərrüfatı məhsulu istehsalı 2000-ci ildə 207 milyard 600 milyon manat təşkil etmişdisə, ötən il bu göstərici 293 milyard manat və ya 141,1 faiz olmuşdur. Taxılçılıqda məhsuldarlıq 27 sentnerdən 37 sentnerə, şəkər çuğunduru istehsalında isə 192 sentnerdən 280 sentnerə çatdırılmışdır.

Muxtar respublikanın taxılçılıqda ən yüksək göstəricilərə malik olduğu 1987-ci ildə 27 min ton məhsul istehsal edilmişdisə, 2001-ci ildə 63 min ton taxıl yığılmış, başqa sözlə, məhsul istehsalı 2,2 dəfə artırılaraq Naxçıvanın tarixində ən yüksək nəticə əldə edilmişdir.

Taxıl əkinlərində hörmətli akademikimiz Cəlal Əliyevin yüksək məhsuldar buğda sortlarından geniş iştifadə olunmasının iqtisadi səmərəsi göz qabağındadır. Bu il isə daha çox məhsul gözlənilir. Aqrar bölmədə şəkər çuğunduru istehsalı

özünü ən perspektivli sahə kimi göstərir. Möhtərəm Heydər Əliyevin tapşırığı və tövsiyəsi ilə ilk dəfə 1992-ci ildə təcrübə-sınaq məqsədi ilə əkininə başlanılan şəkər çuğunduru istehsalı sonrakı illərdə xeyli artmışdır. 1995-ci ildə 7 min ton şəkər çuğunduru istehsal edilmişdisə, 2001-ci ildə bundan 5,9 dəfə artıq, yəni 41,3 min ton məhsul götürülmüşdür.

Qeyd edim ki, bunlar ötən quraqlıq illərin göstəriciləridir. Cari ildə havaların əlverişli keçməsi məhsul istehsalını daha da artırmağa, muxtar respublika əhalisinin gündəlik tələbatını öz qüvvəmizlə ödəməyə imkan verəcəkdir. Bu gün muxtar respublikada tələbatdan artıq meyvə və heyvandarlıq məhsulları istehsal olunur. Blokada ilə əlaqədar olaraq, onların kənara çıxarılmasında müəyyən problemlərimiz var. Amma vaxt vardı ki, bu məhsullar tələbatı ödəmirdi, çətinliklə tapılırdı. 2001-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin ötən aylarında muxtar respublikanın təsərrüfatlarında mal-qaranın sayı xeyli artmışdır. 2000-ci ildə təsərrüfatlarda 73 min qaramal olduğu halda, keçən il 80 min başdan yuxarı idi.

**Heydər Əliyev:** Sənə sual vermək istəyirəm. Deyirsən, 80 min başdan yuxarı. Bundan neçə faizi məhsuldardır?

**Vasif Talıbov:** Tam yarısı, yəni 50 faizi.

**Heydər Əliyev:** Azərbaycanda da 50 faizi məhsuldardır. Amma keçmişdə işləyən adamlar bilirlər – burada Abbasovu görürəm, keçmişdə bu işlə məşğul olan adamlardandır, yəqin başqaları da var – respublikada iribuynuzlu malqaranın tərkibində məhsuldar hissəni, yəni sağmal, bala verən hissəni 25-26 faizə çatdıra bilirdik. Sənin yadındadır?

**Məmməd Abbasov:** Bəli, 18 faiz də olurdu.

**Heydər Əliyev:** 18 faiz olurdu. Sən işləyəndə neçə faiz idi?

**M ə m m ə d A b b a s o v:** 18-19 faiz.

**H e y d ə r Ə l i y e v:** 18-19 faiz. Onda Kommunist Partiyasi da var idi, plan da var idi, inzibatçılıq da var idi, nə bilim, öhdəlik də var idi, filan var idi. Mən özüm Azərbaycanın rəhbəri idim, haradan tələb edirdim, deyirdilər ki, yoldaş Əliyev, bundan artıq ola bilməz. Biz onu 28-29 faizə çatdırmaq istəyirdik. 30 faizə qaldırmaq heç ağlımıza gəlmirdi. Amma indi nə raykom var, nə plan var, nə öhdəlik var. Sahibkar özü müəyyən edir. Azərbaycanda da 50 faizdir. Mən Talıbovu ona görə saxladım ki, bilim, görüm burada nə qədərdir. Deməк, burada da 50 faizdir, ümumi Azərbaycanla bərabərdir. Bu cox böyük göstəricidir. Amma keçmişdə nə idi? İribuynuzlu heyvanı saxlayırdıq, yem verirdik, zootexniki xidməti edirdik, bağışlayın, bala vermirdi, süd vermirdi. Sonra ətliyə verirdik, çəkisi 250 kiloqram olurdu. Bax, budur bizim islahatların nəticəsi. Bu islahatlar da Naxçıvanda başlayıbdır. Yadınızdadır, biz bu islahatları 1992-ci ildə başladıq. Bu islahatların nəticəsi budur. Buyur, davam et.

**V a s i f T a l ı b o v:** Xırdabuynuzlu heyvanların sayı isə 500 mindən yuxarıdır.

**H e y d ə r Ə l i y e v:** 500 min. Abbasov, o vaxt nə qədər idi?

**M ə m m ə d A b b a s o v:** 220 mindən çox olmurdu. İndi iki dəfədən artıqdır.

**H e y d ə r Ə l i y e v:** İki dəfə artıbdır.

**V a s i f T a l ı b o v:** Mal-qaranın artımı heyvandarlıq məhsulları istehsalının çoxalmasına zəmin yaratmışdır. Naxçıvanın təbii şəraiti sabit suvarma sisteminin yaradılmasını zəruri edir. Kəskin quraqlığın mövcud olduğu ötən illərdə muxtar respublika əhalisi möhtərəm Heydər Əliyevin qayğı-

sını həmişə hiss etmişdir. 2001-ci ildə prezidentin ayırdığı vəsait hesabına Babək rayonunun Qaraçuq–Nehrəm kanalı bərpa olunmuşdur. Son iki il yarım ərzində 18 yeni nasos stansiyası tikilmiş, 4-5 yeni artezian quyusu qazılmış, 78 nasos və artezian quyusu təmir edilmişdir. Hazırda bu işlər davam etdirilir.

Muxtar respublikanın inkişaf göstəricisi xeyli dərəcədə energetika kompleksində işlərin təşkilindən asılıdır. Sabit enerji mənbəyini təmin etmək üçün yeni transformator yarımstansiyaları tikilmiş, İrandan alınan enerjinin miqdarını artırmaq məqsədi ilə Araz SES ərazisində 150 meqavat gücündə yeni transformator yarımstansiyası quraşdırılmışdır. 2000-ci ilin qışında İrandan verilən enerjinin dayandırılması ucbatından yaranmış enerji böhranının aradan qaldırılması üçün möhtərəm prezidentimiz iki dəfə xüsusi sərəncam vermiş, Naxçıvanın enerji təchizatını yaxşılaşdırmaq məqsədi ilə İmişli–Parsabad elektrik xətti çəkilmişdir. Nəticədə, İrandan müqavilə yolu ilə alınan elektrik enerjisini əhəmiyyətli dərəcədə artırmaq mümkün olmuşdur.

Möhtərəm Heydər Əliyevin çətin anlarda muxtar respublikanın həyati vacib problemlərinin həllinə yüksək diqqət və qayğı göstərməsini dərin minnətdarlıq hissi ilə vurğulayır və Naxçıvan əhalisi adından bir daha minnətdarlığımızı bildirirəm.

İqtisadiyyatın inkişafında islahatların aparılması və özəlləşdirmə prosesi həlledici əhəmiyyətə malikdir. Bu proseslərin əsası möhtərəm Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə qəbul olunan qərarlarla qoyulmuşdur. Muxtar respublikada 536 min hektar torpaq sahəsində islahat aparılmışdır. 54 min hektar torpaq əhalinin xüsusi mülkiyyətinə

verilmiş, 309 min hektarı bələdiyyə, 171 min hektarı isə dövlət mülkiyyətində saxlanılmışdır. Bu müddətdə muxtar respublikada kiçık özəlləşdirmə tamamilə başa çatmış, ticarət, ictimai iaşə, bütün xidmət obyektləri iş adamlarının, sahibkarların əlində cəmləşmişdir.

Bu gün muxtar respublikada işləyən əhalinin 71,9 faizi özəl bölmədə çalışır. Ümumi məhsul istehsalının 84 faizi qeyri-dövlət sektorunun payına düşür. Bu bölmənin xüsusi çəkisi sənaye istehsalında 86 faiz, nəqliyyatda 70 faiz, kənd təsərrüfatında isə 100 faiz təşkil edir. Görülən işlərin fonunda əhalinin sosial müdafiəsi tədbirləri daim diqqət verilən sahə olmuşdur. Blokada ilə bağlı xammal gətirilməsində çətinliklərin olmasına baxmayaraq, iqtisadiyyatın bir çox sektorlarının və müəssisələrin, o cümlədən Naxçıvan trikotaj, tikiş və mebel fabriklərinin, elektrotexnika və üzlük pilətələr, mineral sular, dəmir-beton məmulatları zavodlarının işi bərpa edilmişdir. Əhalinin məşğulluğunu təmin etmək, iş yerlərinin sayını daha da artırmaq məqsədilə Ordubad və Şərur rayonlarında transformatorların təmiri və dolaq sexləri yaradılmış, Naxçıvan şəhərində dəyirman, çörək və makaron məmulatı istehsal edən kompleks müəssisənin tikintisinə başlanmışdır.

Ötən il əhalinin ümumi pul gəliri 228 milyard manat olmuş və ya əvvəlki ilə nisbətən 21 faiz artmışdır. Adambaşına pul gəlirləri 19,5 faiz artaraq 624 min manata çatmışdır. Sənaye, tikinti və nəqliyyatda çalışanların əməkhaqqı 11,2 faiz artmışdır. Əhalinin real pul gəlirlərinin artmasını belə bir göstərici də sübut edir ki, muxtar respublikada mobil telefonların sayı 60 mini ötüb keçmiş, şəxsi minik avtomobilləri 1995-ci ilə nisbətən 67 faiz artaraq, 18 minə çatmışdır. Ötən il və cari ilin dörd ayı ərzində əhalinin şəxsi vəsaiti hesabına 28 min kvad-

ratmetrə yaxın fərdi yaşayış evləri tikilib istifadəyə verilmişdir. Əməkhaqqı, pensiya və müavinətlər hər ay vaxtında və tam həcmdə ödənilir.

Əvvəllər olduğu kimi, ötən iki ildə də sosial təyinatlı obyektlərin tikintisinə xüsusi diqqət yetirilmişdir. Təkcə son iki ildə 4930 yerlik 15 yeni məktəb binası tikilmiş, 2542 yerlik 10 məktəb binası əsaslı təmir olunaraq şagirdlərin istifadəsinə verilmişdir. Şərur rayon mərkəzində 1400 yerlik və həmin rayonun Kürdçullu kəndində 300 yerlik, Şahbuz rayonunun Keçili, Culfa rayonunun Yaycı kəndlərində hərəsi 504 yerlik, Babək rayonunun Qaraxanbəyli kəndində 420 yerlik, həmin rayonun Şəkərabad kəndində 320 yerlik, Ordubad rayonunun Nürgüt kəndində 110 yerlik məktəb binalarında tikinti işləri davam etdirilir. Naxçıvan şəhərindəki 1100 yerlik orta məktəbin binasında əsaslı təmir və bərpa işləri aparılır.

Ötən iki il yarım ərzində Naxçıvan Dövlət Universitetinin pediatriya şöbəsi üçün 600 yerlik yeni tədris korpusu, 40 çarpayılıq xəstəxana binası tikilmiş, Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı və Naxçıvan Tibb Məktəbi əsaslı təmirdən sonra yeni binalara köçürülmüşdür. Bu dövrdə 8 səhiyyə obyekti, bir özəl tibb müəssisəsi tikilib istifadəyə verilmiş, 10 səhiyyə obyektində yenidənqurma işləri aparılmışdır. Şahbuzda əlillər üçün pansionat, Naxçıvan şəhərində əlillər və şəhid ailələri üçün 36 mənzillik yaşayış binası istifadəyə verilmişdir.

Respublika prezidentinin diqqət və qayğısı sayəsində Naxçıvan Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının tikintisi başa çatdırılmışdır. Naxçıvan şəhərində qaçqınlar üçün nəzərdə tutulmuş 48 mənzilli yaşayış binasında və Azərbaycan

Milli Bankının Naxçıvan İdarəsinin yeni inzibati binasında tikinti işləri aparılır.

Xalqımızın torpaq üzərində vətəndaşlıq pasportu olan tarixi abidələrin tədqiqi və bərpası da diqqət mərkəzində saxlanılır. Möhtərəm Heydər Əliyevin tapşırığı ilə Milli Elmlər Akademiyasının ekspedisiyası tərəfindən qədim tarixi abidə olan Gəmiqaya təsvirlərinin tədqiqi ilə bağlı görülən işləri xüsusi qeyd etmək istərdim. Ötən iki il yarım ərzində Mömünə Xatın türbəsinin yanında xatirə muzeyi və Kəngərli muzeyi yaradılmış, Əcəmi Naxçıvaninin yadigarı olan Yusif ibn Küseyir türbəsi, orta əsrlərə aid Duzxana abidəsinin və Naxçıvan Cümə məscidinin yanında aşkar edilmiş yeni yeraltı tarixi abidələrin bərpa işləri başa çatdırılmışdır. Hazırda Qarabağlar və Mömünə Xatın türbələrinin bərpası ilə əlaqədar müəyyən işlər görülür.

Bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirilmişdir, istifadəyə verilən yeni məktəb binalarının hamısında idman salonu var, məşqlər üçün şərait yaradılmışdır. Üç mühüm idman obyekti istifadəyə verilmişdir. Azərbaycan Milli Məclisinin deputatı hörmətli İlham Əliyevin təşəbbüsü və himayəsi ilə ucaldılan Olimpiya İdman Kompleksi muxtar respublikada idmanın inkişafına ən böyük töhfədir. Buna görə hörmətli İlham Əliyevə minnətdarlığımızı bildiririk.

Bu qısa çıxışımda muxtar respublikada görülən bütün işləri əhatə etmək mümkün deyildir. 33 il bundan əvvəl olduğu kimi, bu gün də Naxçıvanda gedən quruculuq işlərinin yeganə bir səbəbkarı və istinad nöqtəsi var. Bu, möhtərəm Heydər Əliyevdir.

Möhtərəm cənab Prezident, muxtar respublikanın sosial, iqtisadi, mədəni sahələrində əldə olunan uğurları sadalamaq-

la heç də belə fikir yaratmaq niyyətində deyilik ki, daha problemlər yoxdur. İnkişaf problemlər həll edilən yerdə mümkündür. Bu problemlərin həll olunacağına ona görə əminik ki, Sizin kimi sarsılmaz dayağımız, müdrik yol göstərənimiz vardır. Bu yol haqq-ədalətdən, quruculuqdan, Vətənə bağlılıqdan keçən Heydər Əliyev yoludur.

Diqqətinizə görə sağ olun!

**H e y d ə r  Ə l i y e v:** Mən, əvvəl dediyim kimi, sözü, ya da təklifi olan varsa, buyursun. Mən dinləməyə hazıram.

**Y e r d ə n  s ə s:** Mən Sizdən bir xahiş etmək istəyirəm. Xahiş edirəm ki, məni beş dəqiqəlik qəbul edəsiniz.

**H e y d ə r  Ə l i y e v:** Sən kimsən?

**Y e r d ə n  s ə s:** Qulamov Tariyel Allahverdi oğlu, Taran...

**H e y d ə r  Ə l i y e v:** Ay Taran, mən səni nə qədər qəbul etmişəm, hə, de görüm... Mən burada olanda da həmişə sənə kömək etmişəm, səni qəbul etmişəm. Bakıda işləyəndə də vətəndaşları qəbul etmək imkanım çox məhduddur, amma səninlə görüşmüşəm. Sən orada gəlib, Prezident sarayının qarşısında durub mənim maşınımın qabağını kəsirsən. Mən orada maşını saxladıb səninlə söhbət etmişəm. Mənim mühafizə idarəmin rəisi general Vaqif Axundov səninlə dəfələrlə görüşübdür. Yenə də deyirsən ki, səni beş dəqiqəliyə qəbul edim. Mən hamının yanında deyirəm, sən yaxşı adamsan, yaxşı vətəndaşsan. Biz burada – Naxçıvanda bir yerdə işləyəndə sən çox düzgün mövqedə idin. Naxçıvan Muxtar Respublikasının hakimiyyət orqanlarının əleyhinə aparılan müxtəlif təxribatlara qarşı həmişə mübarizə edirdin. Mən bunların hamısını qiymətləndirirəm. Bildiyimə görə, sonra sən Naxçı-

van Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmişdin, elədirmi, yoxsa yox. İndi deputatdırmı?

**Y e r d ə n s ə s:** Deputatdır.

**H e y d ə r Ə l i y e v:** İndi də deputatsan. Yaxşı, bundan böyük nə ola bilər? Naxçıvan Muxtar Respublikasının deputatı seçilmisən.

**T a r i y e l Q u l a m o v:** Mən Vasif müəllimin pisliyinə danışmıram.

**H e y d ə r Ə l i y e v:** Qulaq as. Onun pisliyinə yox... Sən məndən nə isə istəyirsən.

**T a r i y e l Q u l a m o v:** Ailəmi dolandıra bilmirəm, oğlumu oxuda bilmirəm. Vaxtında nə isə etmişəm. İndi mən dolana bilmirəm. Mən özümə qəsd edəcəyəm, özümü öldürəcəyəm.

**H e y d ə r Ə l i y e v:** A kişi, sənə nə olub ki, özünü öldürəsən? Sən hələ yaşayacaqsan, çoxlarına da lazımi cavab verəcəksən, darıxma. Yaxşı, hesab et ki, səni beş dəqiqə yox, on dəqiqə qəbul etdim. Özü də ki, buraya toplaşanların iştirakı ilə. Mən muxtar respublikanın başçısı Vasif Talıbova göstəriş verirəm ki, sənin problemlərinə baxsın və sənə mümkün qədər kömək etsin. Oldu?

Daha kimin nə sözü, təklifi var? Bilirsinizmi, şəxsi məsələləri ortaya atmaq çətin problem deyil, yəni şəxsi problem hər bir adamda var. Kimdə yoxdur? Mən birinci gün burada, Olimpiya İdman Kompleksinin açılışında çıxış edəndə öz təşəbbüsümlə dedim ki, Naxçıvan blokada şəraitində yaşayır. Burada insanların yaşayışı Azərbaycanın başqa bölgələrindən çətindir. Baxmayaraq ki, burada insanlar belə bir şəraitdə bəzi bölgələrə nisbətən daha fəal işləyirlər, qururlar, yaradırlar. Amma onlar bol meyvə məhsulu yetişdirirsə, ancaq ixrac edə bilmirlərsə, bunun özü nədir? Nə qədər zərər dəyir?

Mən bilirəm ki, buradan meyvəni aparıb Bakıda satmaq üçün təyyarəyə nə qədər pul verırlər. Aparıb orada satırlar, qazanırlar. Amma əgər Naxçıvan belə blokadada olmasaydı, öz məhsulunu rahat, sərbəst ixrac etmək imkanı olsaydı, əlbəttə, həm Naxçıvanın, həm də hər bir vətəndaşın gəliri çox olardı. Mən bunları bilirəm və ona görə də dedim ki, Azərbaycanın dövlət hakimiyyəti orqanları və nazirlərimiz, başqa müvafiq idarələrimiz gərək Naxçıvana diqqət yetirsinlər, gəlsinlər, görsünlər, kömək etsinlər.

Qarabağ bölgəsində bizim torpaqlarımız işğal altındadır.

O bizim üçün böyük bir ağrıdır və vətəndaşlarımız oradan çıxarılıb, çadırlarda yaşayırlar. Bu, böyük problemdir. Siz bilirsiniz, bu insanlar on ildir çadırlarda yaşayırlar. Çadırda uşaqlar doğulur. 8-9 yaşında uşaqlar var, onların doğulduğu yer çadırlardır. Bunlara beynəlxalq humanitar təşkilatlar yardımlar edirlər və indi onlar da deyirlər ki, biz sizə nə qədər yardım edə bilərik?!

Ölkəmizin vəsaiti o qədər deyildir ki, onları təmin etsin, onların ailəsi böyük, uşağı çoxdur, əksəriyyəti işləmir. Bəs onlar uşaqlarını ali məktəbdə oxutmalı deyillərmi?

Bu yaxınlarda yəqin ki, burada da yağış çox yağmışdır. Amma Azərbaycanın bir çox bölgələrində, o cümlədən çadırların çox olduğu Biləsuvar bölgəsində elə şiddətli yağışlar yağdı... Biz oraya adamlar göndərmişdik, televiziya da çəkibdir – çadırlara yarım metr su dolmuşdu və orada yaşayanların varı-yoxu hamısı suyun içərisində qalmışdı? Bəs bunlar insan deyillərmi?

Bizim problemlərimiz çoxdur. Bu çox problemlərin içərisində, mən yenə də deyirəm ki, blokadada olduğuna gö-

rə, Naxçıvana diqqət vermək lazımdır. Ancaq işğal olunmuş torpaqlardan zorla çıxarılan, çadırlarda yaşayan insanlar xüsusi diqqətə, qayğıya layiqdirlər. Amma bilin, onların içərisində müxtəlif adamlar var. Buna baxmayaraq, onların tam əksəriyyəti Azərbaycanın dövlətçiliyinə inanır və ümid edir. Azərbaycanın prezidentinə inanır və ümid edir. Onlar belə hisslərlə yaşayırlar. Baxmayaraq ki, onlar bir il, iki il, beş il deyil ki, bu şəraitdə yaşayırlar. Problemlər hər yerdə var. Siz burada problemlərinizi özünüz həll etməlisiniz.

Mən də birinci gün çıxışımda dedim ki, respublikanın müvafiq təşkilatları buraya daha da çox diqqət və qayğı göstərməli, yardım etməlidirlər. Bunu da edəcəyik. Ancaq indi sən gedib kiminsə qabağını kəsmisən, nə etmisən, kiməsə söz demisən, gərək sənin heykəlini qoyaq, deyək ki, bəli, Taran milli qəhrəmandır. Belə şey olmaz axı. Sənin xidmətlərin var, qiymətləndirirəm. Insan kimi sənin özünə mənim böyük hörmətim var. Sən bunu bilirsən. Sən yaxşı adamsan, yaxşı insansan. Ancaq iradəni itirmə. Mən indi Talıbova göstəriş verdim. Lazımi tədbirlər görərsiniz.

Yaxşı, daha kimin nə sözü var? Sözünüz yoxdur? Məni dinləmək istəyirsiniz? Neçə gündür məni burada dinləyirsiniz, yorulmamısınız? Mən ayın 15-də buraya gəlmişəm, elədirmi? Bu gün ayın 18-dir. Gün də başa çatır. Artıq iyunun 19-na keçirik. Mən bəzən xarici ölkələrdə bu qədər uzun müddət səfərdə olmuram. Naxçıvanda mən bu qədər oldum. Amma bu da ona görədir ki, mən burada sizinlə çox lazımi işlərlə məşğul oldum.

## YEKUN NİTQİ

Əziz dostlar!

Hörmətli həmkarlar!

Mən on iki il bundan öncə, 1990-cı ildə burada sizinlə birgə yasamağa başladım və ondan sonra fəaliyyətə başladım. Sizinlə birgə çox ağır, çətin bir dövr yaşadıq, çətin problemlərlə üzləşdik. Bəzən təhlükələr elə idi ki, düşünürdüm, ola bilər, məhv olaq, yaxud, ümumiyyətlə, Azərbaycan dağılsın, Naxçıvan da dağılsın. Belə ağır günlər yaşadıq. Bu salon, bu divarlar bizim o ağır günlərimizin şahididir. Biz burada sessiyalar keçirirdik, iclaslar keçirirdik, qərarlar qəbul edirdik. Ancaq eyni zamanda, o vaxt elələri də var idi ki, nə qanun tanıyırdılar, nə qayda tanıyırdılar, nə dövlətçilik nə olduğunu bilirdilər və bilmək də istəmirdilər. O dövrün qarmaqarışıqlığından istifadə edərək müəyyən mövqelər əldə etmişdilər və tələsirdilər ki, o mövqelərdən tez istifadə edib Azərbaycanın varını, yoxunu, əmlakını mənimsəsinlər, dağıtsınlar. Çünki bir tərəfdən, o qədər ağıla malik deyildilər dərk etsinlər ki, onlar Azərbaycanın dövləti, xalqı haqqında düşünməlidirlər. Digər tərəfdən, inanmırdılar ki, əllərinə düşən bu fürsət çox çəkəcəkdir. Ona görə də hər biri qarmalayırdı.

Mən gəldim. Məni Naxçıvanda deputat seçdiniz. Azərbaycanın deputatı seçdiniz. Ona görə də mən seçicilərimə və Naxçıvanın bütün əhalisinə təşəkkür edirəm. Ancaq sonra vəziyyət elə oldu ki, mənim Naxçıvan Muxtar Respublikasına rəhbərlik etməyim haqqında məsələ qaldırıldı. Bilirsiniz ki, mən buna razı olmurdum.

Ancaq o günlər bəzilərinin xatirindədir. Burada bir böhranlı vəziyyət yarandı. Sessiya çağırdılar, mən sessiyaya gəlmədim. Sessiyada böyük qarışıqlıq əmələ gəldi. Heç kəsi seçə bilmirdilər. Xalq Cəbhəsinin adamlarının öz namizədləri var idi. Burada əvvəldən işləyənlərin öz namizədləri var idi. Onlar bunlarla razı deyildi, bunlar onlarla razı deyildi. Mən yaşadığım evə iclas gedə-gedə dəfələrlə gəlirdilər. Məni dəvət edirdilər ki, iclasa gəlim. Mən iclasa gəlmək istəmirdim. Çünki o işin tştırakçısı olmaq istəmirdim. Nəhayət, gəldim – onda iclas burada keçmirdı, Naxçıvanın icra hakimiyyətinin binasında salon var, orada keçirdi, onda bura bağlanmışdı, möhürlənmişdi – dəfələrlə dedim ki, sizə kömək etməyə hazıram. Mən deputatam və əgər mənim məsləhətlərimə qulaq assanız, kömək edəcəyəm. Ancaq mən vəzifə tutmaq istəmirdim.

Orada meydanda 20 minə qədər adam toplaşmışdı. Onlar da təzyiq edirdilər ki, Heydər Əliyev seçilsin. Nəhayət, belə oldu, seçildim və işə başladım. Ancaq mən bu salonda nə qədər üzlərlə rastlaşdım. Çoxları o vaxtkı deputatlar idi, deputat olmayanlar idi. Burada elə cılız adamlar durub elə sözlər deyirdilər, özü də harada – Heydər Əliyev kimi bir insanın apardığı parlament sessiyasında. Ancaq dözməli idik. Bir tərəfdən, dözürdük, bir tərəfdən də, öz prinsipiallığımızı və iradəmizi göstərirdik. Nəhayət, prinsipiallığımız, iradəmiz bizi uğurlara gətirdi. Sonrakı hadisələr, proseslər sizə məlumdur.

Yadımdadır, burada, bu salonda bəzisi orada otururdu, bəzisi burada otururdu, yerdən qışqırırdılar, hay-küy salırdılar. İndi mən soruşuram, onlar haradadırlar? Demək olar ki, onların 95 faizi yoxdur. Amma burada at oynadırdılar. Naxçıvan belə bir dövr yaşadı. O dövrü Azərbaycan da ya-

şadı, amma Naxçıvan çox ağır dövr yaşadı. Biz məhz burada, bu binada, buradakı sağlam qüvvələrlə – onların əksəriyyəti bu gün də buradadır, o vaxtdan indiyə qədər işləyirlər və işləyəcəklər – birgə çalışırdıq. Mən belə bir vaxtda bu binada, bu salonda olmuşam. İndi buraya gələndə o günləri yadıma saldım. Ona görə də bir neçə kəlmə demək istədim.

Vasif Talıbovun məruzəsindən və bizdə olan məlumatlardan görünür ki, blokada şəraitində olmasına baxmayaraq, doğrudan da Naxçıvanın iqtisadiyyatı, sosial həyatı inkişaf edir. Vasif Talıbov danışanda mən bəzi suallar verirdim. Bu, təsadüfi deyildi. Çünki sovet dövrü də yaxşı yadımdadır, 1990–1993-cü illərdə burada işlədiyimiz dövr də yadımdadır, indiki də yadımdadır.

**Heydər Əliyev:** Məmməd, mən səndən soruşmadım. Çünki sən kənd təsərrüfatı ilə o vaxt da məşğul olurdun. İndi hər toyuq neçə yumurta verir?

**Məmməd Abbasov:** Cənab Prezident, indi südün, yumurtanın uçotu getmir. Amma ümumilikdə burada statistikaya görə yumurta istehsalı 15 milyon ədəddir.

**Heydər Əliyev:** Amma sən hər toyuqdan neçə yumurta alındığını bilmirsən?

**Məmməd Abbasov:** Sovet dövründə il ərzində 80 yumurta olurdu.

**Heydər Əliyev:** Amma sən o vaxt hər ay hesabat verirdin, 24 nömrəli hesabatın var idi ki, hər toyuqdan neçə yumurta, hər inəkdən nə qədər süd, hər qoyundan, keçidən nə qədər bala alınır. Elədir?

**Məmməd Abbasov:** Bəli.

**Heydər Əliyev:** Yadımdadır, bir çoban var idi. Bərdədən idi, onu sonra qəhrəman etmişdilər. Mən işləməmişdən

əvvəl olan bir adam idi. Adı Həsən, ya nə idi. Gərək, sənin yadında olsun.

**M ə m m ə d  A b b a s o v:** Çoban Həsən.

**H e y d ə r  Ə l i y e v:** Çoban Həsən, o, məlumat verirdi ki, guya hər yüz qoyundan 140–150 bala alır. Buna da inanırdılar. O birilərindən də tələb edirdilər. Amma onlar bunu edə bilmirdilər. Mən bunları sizə açıq deyirəm. Çünki biz bu dövrü də yaşamışıq. Yəni mən özüm bu dövrün kənardan müşahidəçisi deyiləm. Mən o dövrdə Azərbaycana rəhbərlik etmiş adamam. Partiyanın, SSRİ dövlətinin qərarlarını yerinə yetirməyə çalışmış bir adamam. Amma o sistem elə idi, nə etmək olardı? Biz o sistemdən çox şey udduq.

Əgər 1920-ci ildən 1991-ci ilə qədər olan dövrü götürsək, biz onu udduq ki, xalqımız təhsil aldı, hamı təhsilləndi. İndi baxın, qonşu ölkələr var, görün onların təhsil səviyyəsi necədir, bizimki necədir. Onu udduq ki, gözəl məktəblər yarandı, universitetlər yarandı, elm yarandı. Onu udduq ki, böyük zavodlar, fabriklər tikildi, yollar salındı, körpülər tikildi. Onu udduq ki, bütün nöqsanlara baxmayaraq, kənd təsərrüfatında üzümçülüyü inkişaf etdirərək, əhalimizə nə qədər gəlir gətirdik. Sonra o sahə dağıldı. Bəlkə də bu gün bizim şəraitimizə görə o qədər əlverişli sahə deyildir. Amma o vaxt üzümçülüyü inkişaf etdirmək proqramı var idi. Onun üçün hər il Moskvadan olduqca çox vəsait alırdıq. Yalnız üzüm bağları yaratmaq üçün, hələ üzüm təhvil vermədən. Onun hesabına bizim kəndlərdə nə qədər gözəl evlər tikildi. Elə Naxçıvanın özündə də. Nə qədər kənd adamları zənginləşdilər. Biz o dövrdən çox şey aldıq. Bunları unutmamalıyıq. Amma eyni zamanda, bu cür əcaib bir sistem insanların təşəbbüsünün, daxili potensialının inkişaf etməsinin qarşısını alırdı.

O vaxtlar böyük işlər görürdük, lakin inəklərin sayını 23-24 faizə çatdıra bilmirdik. İndi isə heç nədən xəbərimiz yoxdur, amma inəklərin sayı 50 faizdir. Kənd təsərrüfatı məhsulları istehsalı bütün sahələrdə artmışdır. Demək, bu sistemin dəyişilməsi, islahatların keçirilməsi nə qədər xeyirlidir, nə qədər əhəmiyyətlidir.

Mən məmnunam ki, Naxçıvanda kənd təsərrüfatı sahəsində islahatlara biz eksperiment kimi hələ o vaxt basladıq. Onda Şərurda bir başçı var idi, o, kolxoz sədrləri ilə danışırdı. Mal-qaranı kəsirdilər, yeyirdilər, sonra da deyirdilər ki, öldü, filan oldu. Xatirinizdədir, onda biz dedik ki, gəlin bunların hamısını əhaliyə sataq. O vaxt dedilər ki, necə sataq, kolxozundur. Dedik sataq, heç olmasa kolxozun xəzinəsinə pul gəlsin, onsuz da bir il də belə getsə, hamısını kəsib dağıdacaqlar. Elədik, bu da xeyir verdi. İndi nə qədər iribuynuzlu, xırdabuynuzlu mal var.

Əgər o qədər taxıl məhsulu götürülürsə, deməli, torpaqlardan yaxşı istifadə edirsiniz. Talıbov indi dedi ki, bu il keçən ilkindən də çox taxıl məhsulu alacaqsınız. Baxmayaraq, yağışlar olubdur. Bu özü böyük işdir. Taxıl əsas məhsuldur. Əgər Naxçıvan özünü taxıl ilə təmin edirsə, bu özü böyük işdir. Azərbaycanda keçən il rekord səviyyədə – 2 milyon ton taxıl yığıldı. Əvvəllər heç vaxt belə olmamışdı. Amma o vaxtlar Naxçıvanda başqa regionlara nisbətən az taxıl istehsal olunurdu. Müxtəlif səbəblər meydana atırdılar.

Bir sözlə, Azərbaycanda torpaq islahatının həyata keçirilməsi üçün qəbul etdiyimiz qanunlar, qərarlar, fərmanlar və islahatın aparılması, torpağın kəndlilərə verilməsi kənd təsərrüfatında böyük dəyişikliklər yaratdı. Bu, təkcə Naxçıvanda deyil, Azərbaycanın hər yerindədir və bizim böyük nailiy-

yətimizdir. Amma bu, son hədd deyildir, siz bunu davam etdirməlisiniz.

Mal-qaranın sayının artırılması haqqında bir az düşünmək lazımdır. İndi biz sevinirik ki, hamısı artır. Amma düşünmək lazımdır ki, bunlar üçün otlaqlar varmı? Biz Bakıda bəzi belə müşahidələr aparırıq. Ekologiya Nazirliyindən də mənə məlumatlar verilir. Azərbaycanda xırdabuynuzlu, iribuynuzlu mal-qara çoxalıbdır, otlaqlar isə azdır. Mal-qaranı meşələrə buraxırlar, meşələri otarırlar. Yaxud təkcə meşələr deyil. Azərbaycanın, o cümlədən Naxçıvanın təbiətinin təbii sərvətlərindən biri də onun həm torpaqlarıdır, həm də otlaqlarıdır.

Biz bunu Azərbaycanda edəcəyik. Amma mən burada sizin qarşınızda birinci dəfə deyirəm ki, gərək müəyyən edək, otlaqlara zərər vurmadan, meşələrə zərər vurmadan nə qədər mal-qara saxlamaq olarsa, o qədər saxlayaq. Əgər ondan artığı bizim təbiətə, otlaqlara, meşələrə zərər vurursa, onun qarşısı alınmalıdır. Görürsünüz, biz əvvəl istəyirdik artıraq. İndi mən sizə deyirəm ki, bu barədə fikirləşin. Çünki vətən bizimdir, torpaq bizimdir. Hər şeyi indi mal-qaraya verək, yesin, dağıtsın, otlaqlar dağılsın, 10 ildən, 15 ildən sonra bizim torpaqlar necə olacaq? Buna yol vermək olmaz.

Kənd təsərrüfatı sahəsində başqa problemlər də var. Mən indi buna vaxt sərf etmək istəmirəm. Siz bilirsiniz. Sənaye sahəsində sizin işləriniz pis deyil, özəlləşdirməni aparmısınız. Torpaq özəlləşməsi çox gözəl kecibdir. Amma sənaye, ticarət, nəqliyyat müəssisələrinin özəlləşdirilməsi və başqa sektorların özəlləşdirilməsi də çox vacib məsələdir.

Mən bu gün Naxçıvandakı vəziyyət haqqında söhbət edirdim. Bu, ümumən Azərbaycanda da var. Vaxtilə bizim böyük müəssısələrimiz olubdur. Ya onları özəlləşdirən yoxdur, gəlib

özəlləsdırmirlər, yaxud ilk dövrlərdə onları biz özəlləşdirmişik, satmışıq, amma indi sahibləri ağzına qıfıl vurub çıxıb gediblər. Yaxud getməyiblər, oradadırlar, amma yəqin işlədə bilmirlər. Bu vəziyyətlə razılaşmaq olmaz. Bizim iqtisadi inkişaf naziri Fərhad Əliyevə bu barədə demişəm. Lazımi tədbirlər görülməlidir. Əgər sahibkar hansısa müəssisəni işlədə bilmirsə, demək, ona kömək etmək lazımdır.

Bilirsiniz ki, mən Azərbaycanda sahibkarlarla iki böyük görüş keçirmişəm. Bunlar çox yaxşı nəticələr veribdir və indi bir çox fərmanlar, qərarlar hazırlanır. Mən Bakıya dönəndən sonra onlara baxacağam və Azərbaycanın hakimiyyət orqanlarının nümayəndələri ilə müşavirə keçirəcəyəm. Ola bilər, mən indi deyə bilmərəm, biz sahibkarlığı inkişaf etdirmək üçün, sahibkarlığa yardım etmək üçün bəzi güzəştlər edək. Əgər arxayın olsaq ki, sahibkar doğrudan da bu yardımdan istifadə edir, əlində olan müəssisəni işlədəcək, məhsul verəcək və vergisini verəcəkdır – onlar üçün biz bəlkə də müəyyən güzəştlər edə bilərik. Amma bu, asan məsələ deyil, düşünmək lazımdır ki, biz aldanmayaq. Burada fərdi iş görülməlidir. Siz də fərdi iş görməlisiniz.

Sizin bəzi müəssisələr dayanıbdır. İndi düşünün. Mən bilirəm ki, indi o müəssisələrin bəziləri əvvəlki məhsulu verə bilməz, buna ehtiyac yoxdur. İndi bazar iqtisadiyyatıdır, hər şeyi bazar diktə edir. Bir işə başlamazdan əvvəl gərək biləsən ki, sən bu işi görüb əldə etdiyin məhsulu sata biləcəksən, ya yox, bunun bazarı var, ya yoxdur. Bazar axtarmaq lazımdır. Əgər evində otursan, müəssisənin başında otursan ki, bazar yoxdur, bu da olmaz. Əsl sahibkarlar rahat oturmur, onlar arayır, axtarırlar – harada nə etmək olar, nə cür etmək olar, harada bazar tapmaq olar, bazar tapandan sonra vəsait qo-

yub onu nə cür çıxaracaqdır. İndi belə adamlar yetişdirmək lazımdır. Bunlar da gənclərdən ola bilər. Açıq deyirəm, uzun illər keçmiş sovet psixologiyası ilə yaşamış insanlarda bu dəyişikliyin olması çətindir. Mən bunu Azərbaycanda müşahidə edirəm.

Amma bacarıqlı, bilikli gənclər, müasir gənclər var və təbii ki, onların da vəsaiti olmalıdır. Burada fərdi yollar tapmaq olar.

Bir sözlə, mən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Nazirlər Kabinetinə və müvafiq orqanlarına deyirəm ki, siz özəlləşdirməni davam etdirməlisiniz – həm sənaye obyektlərini, həm də ictimai iaşə, ticarət obyektlərini.

Məsələn, bir neçə mağazalar özəlləşdirilib, maşınla keçəndə görürdüm, onların görkəmi yaxşıdır. Amma siz Bakıda küçələrdə gedirsiniz, görün o mağazaları necə gözəl düzəldiblər. Çünkı hamısı özəldir. Gözəl düzəldiblər, küçələr gözəlləşir, mağazalar gözəlləşir.

Magazanın sahibi ticarət aparır, xeyir götürür, vergi verir. İndi nə təhər ola bilər ki, Azərbaycanda ticarət 98 faiz özəlləşdirilibdir, siz hələ bu səviyyəyə çatmamısınız? Bunu etmək lazımdır. Bir sözlə, siz özəlləşdirmədə ciddi yeni addımlar atmalısınız. Aqrar sahə məlumdur, amma bütün qalan sahələrə bir də baxmalısınız, araşdırmalısınız və ciddi addımlar atmalısınız.

Mən daha başqa sahələrə toxunmaq istəmirəm. Bir də onu demək istəyirəm ki, Naxçıvanda işlər yaxşı gedir. Amma bundan da yaxşı getməlidir. Bakıda bundan sonra əlavə nə kimi işlər, tədbirlər görüləcəyini dedim. Siz də onlardan səmərəli istifadə etməlisiniz.

Mən o gün bizim nazirləri tənqid etdim. Çünki mənim qulağıma dəyirdi ki, bəzən Naxçıvandan ayrı-ayrı nazirlər Bakıya gəlırlər, öz nazirlərinin qəbuluna düşə bilmirlər, yaxud gözləyirlər. Mən tənqid etdim. Sonra hələ bu mövzunu davam etdirəcəyəm və konkret nümunə Əvəz Ələkbərovdur. Çünki mənə demişdilər ki, Naxcıvanın məsələlərinə yaxşı fikir vermir. Mən ona bir dəfə telefon etmişdim. Sonra dedi ki, həll etdim. Sonra mənə yenə xəbər gəldi ki, məsələlərin çoxunu həll etməyibdir. Bir də telefon etdim. Yenə də mənə dedi ki, həll eləmişəm. Amma üçüncü dəfə mən ona dedim ki, Naxçıvana get, bütün məsələləri yerində həll elə və mənə məlumat ver. Gəldi, həqiqətən burada çox şeyləri həll etdi. Bakıya gələndən sonra telefon edib mənə minnətdarlığını bildirdi ki, nəhayət, mən onu Naxçıvana getməyə məcbur etdim. Bizim belə adamlarımız var. Bir o deyil, mən onlarla ayrıca danışacağam.

Amma sizdə də bəzi adamlar belə fikirləşir ki, mən Naxçıvan Muxtar Respublikasının naziriyəm, yaxud Baş naziriyəm, Baş nazirin müaviniyəm, Bakıya gəldim, gərək hamı mənim qarşımda dursun, baş əysin. Çünki Naxçıvan Muxtar Respublikasından gəlibdir. Belə şey ola bilməz. Bizdə hər yerə onun xüsusiyyətinə görə münasibət var. Amma hamıya bir münasibət var, bir tələb var.

Naxçıvanın dövlət orqanları, onların nümayəndələri heç vaxt Azərbaycanın dövlət orqanları ilə əlaqələrdə xüsusi status iddiasında olmamalıdır. Bunu bilin. Mən bundan çox narahatam. Əsasən ona görə ki, – mən iki-üç gündür burada Naxçıvan haqqında gözəl sözlər deyirəm – əvvəl də bir az narahat idim ki, əgər o tərəfdən məsələlər həll olunmursa, Naxçıvan tərəfdən də qüsurlar var. İndi mən o tərəfi tənqid edirəm, Naxçıvan tərəf hesab etsin ki, bəli, prezident bizi

tamamilə dəstəklədi, bundan sonra daha da... Olmaz, heç cür ola bilməz. Hamı ilə işgüzar əlaqə olmalıdır. Azərbaycanda dövlət orqanlarında kimsə öz vəzifəsini layiqincə yerinə yetirmirsə, belə hallar edirsə, sadəcə, mənim bilməyim lazımdır. Mən onun ölçüsünü götürəcəyəm. Amma təəssüflər olsun ki, Naxçıvan nümayəndələrinin bu cür hərəkətlərini mənə demirlər. Çünki bəziləri qorxurlar. Bəziləri deyirlər ki, bəli, bu Naxçıvandı, Heydər Əliyevə desək, pis münasibət göstərər. Bunu hamı bilməlidir, elə şey yoxdur.

Mənim üçün həmişə işdə bir prinsip olubdur. Bu gün də Azərbaycanın prezidenti kimi deyirəm ki, hamı öz yerində, öz vəzifəsinə uyğun məsuliyyət daşıyır. Hamı təvazökar olmalıdır. Heç kəs vəzifəsindən sui-istifadə etməməlidir. Heç kəs xüsusi status iddiasında olmamalıdır.

Hər halda, mənim vaxtımda Azərbaycanda belə şey olmayacaqdır. Bilirsiniz ki, mənim vaxtım da hələ çox uzundur.

Bunları yadınızda saxlayın. Hərəniz özünüz üçün nəticə çıxardın. İcra başçıları, nazirlər, Nazirlər Kabineti, onun sədri, müavinləri, Ali Məclis, onun sədri, müavinləri və başqa işçiləri – hamınız bilin ki, bu sözlərdən nəticə çıxarmalısınız. Əgər siz bunları düzgün başa düşə bilərsinizsə, mənim tələblərimi düzgün başa düşə bilərsinizsə, onda Naxçıvanın işləri indikindən daha yaxşı olacaq və sizin nailiyyətləriniz daha çox olacaqdır. Bu nailiyyətləri qiymətləndirmək çətin bir şey deyil, o mənim işimdir. Onu edəcəyəm, bunda problem yoxdur.

Məni narahat edən problem odur ki, insanlar vəzifəsindən sui-istifadə etməsinlər. Hərə öz vəzifəsini özü üçün böyük şərəf hesab etsin. Kim istəmirsə, heç kəsin qolundan tutub saxlamırıq, çıxıb gedə bilər. Həqiqətən, kim bizimlə, Azərbaycan prezidentinin komandası ilə birlikdədirsə, bu tələbləri yerinə

yetirməlidir. Kim bunu edə bilmirsə, onda heç kəsi məcburi saxlamırıq, getsinlər, heç bir şey olmayacaqdır. O qədər gediblər ki. Sabah da gedən olacaq, biri gün də gedən olacaqdır. Amma Azərbaycanın dövlətçiliyi möhkəmdir və möhkəm əllərdədir. Buna arxayın ola bilərsiniz.

Təxminən bir ildən sonra, gələn ilin oktyabr ayında Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Bizim partiyamız, Yeni Azərbaycan Partiyası – mən onun sədriyəm – və Azərbaycan ictimaiyyətinin çox nümayəndələri mənim yenidən prezident seçkilərində iştirakımı və namizədliyimi verməyi xahiş edirlər. Mən bununla razıyam və bəyan edirəm ki, qarşıdan gələn prezident seçkilərində Heydər Əliyev yenidən prezident seçilmək üçün öz namizədliyini verəcəkdir. İnanıram ki, Azərbaycan xalqı, seçicilər mənə yenidən etimad göstərəcəklər və Azərbaycanın prezidenti seçəcəklər.

Bu seçki kampaniyasına ciddi hazırlaşmaq lazımdır. Gərək seçkilər tam demokratik şəraitdə, aşkarlıq şəraitində keçirilsin. Mənim – Heydər Əliyevin, bu qədər xidmətlər göstərmiş və bu qədər tanınmış bir siyasi xadimin seçilmək üçün hansısa saxta üsullardan istifadə etməyə ehtiyacı yoxdur. Ona görə bilin, hər rayonda gərək indidən seçkilərə hazırlıq getsin. Muxtar Respublikada hazırlıq işi təşkil olunmalıdır. Bunun mərhələsi var. Hər halda, bu barədə Bakıda müəyyən plan olacaq, deyiləcəkdir. Ancaq mənim deyiləsi sözüm odur ki, heç bir vəzifəli adam, heç bir icra hakimiyyətinin başçısı düşünməsin ki, Heydər Əliyevin seçilməsi üçün, bəli, əlavə hansısa bülleten lazımdır, filan lazımdır. Mənə bunlar lazım deyildir. Məni xalq seçibdir və xalq da seçəcəkdir. Mənə başqa bir şey lazım deyildir. Sadəcə, seçki komissiyaları, seçki dairələri elə təşkil olunmalıdır ki, seçkilərin açıq-aşkar, demokratik şəraitdə keçirilməsi üçün bütün imkanlar olsun.

Mənim arzum budur. Başqa heç bir arzum yoxdur. Çünki belə olan halda Heydər Əliyev yenidən demokratik prinsiplər əsasında seçiləcək və öz işini davam etdirəcəkdir.

Mən sizinlə bu gün bu tərkibdə görüşməyimdən çox şadam. Hər birinizə cansağlığı arzulayıram. Muxtar Respublikanın rəhbərliyinə qarşıda duran vəzifələri uğurla yerinə yetirməsini arzu edirəm. Ümidvaram ki, Naxçıvan Muxtar Respublikası yaşayacaq, günbəgün çiçəklənəcək, inkişaf edəcək və Azərbaycanın daim dayağı olacaqdır. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev Naxçıvana səfərinin sonuncu günü, iyunun 19-da şəhər qəbiristanlığına gəldi, atası Əliyev Əlirza Cəfər oğlunun, digər əzizlərinin xatirəsini yad etdi, onların məzarları üzərinə tər çiçək dəstələri qoydu.*

*Sonra dövlətimizin başçısı Heydər Əliyev Naxçıvanın yaraşıqlı guşələrindən birini–başdan-başa yenidən qurulmuş və abadlaşdırılmış Əcəmi seyrangahını gəzdi, buradakı «Qızlar bulağı»nın ətrafında geniş ərazidə yaradılmış süni gölə, əyləncə və istirahət zonasına baxdı. Bazarçayda son vaxtlar aparılmış tikinti işləri ilə tanış oldu. Prezidentə son vaxtlara qədər torpaq altında qalmış, indi isə yenidən bərpa olunaraq, çayxana kimi istifadə edilən qədim yeraltı abidə barədə məlumat verildi.*

*Prezident Heydər Əliyev daha sonra şəhərdəki Təzə bazara gəldi, piştaxtalardakı məhsullara baxdı, satıcılarla, müştərilərlə söhbət etdi, bir stəkan çay içdi. Burada rastlaşdığı gənclik və tələbəlik yoldaşı, təqaüdçü Dövlət Məmmədovla səmimi söhbət etdi.*

# NAXÇIVANA SƏFƏRİNİ BAŞA ÇATDIRARAQ BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*19 iyun 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Salam, axşamınız xeyir. Mənim sizə deyiləsi bir sözüm yoxdur. Çünki mən hansısa bir ölkəyə getməmişəm, Azərbaycanın bir bölgəsində, Naxçıvan Muxtar Respublikasında olmuşam. Mənim orada olduğum müddətdə bura məlumat verilibdir. Televiziya, radio və başqa mətbuat vasitələri ilə verilən məlumatların hamısını bilirsiniz. Buna görə də mən bundan ötrü vaxt itirmək istəmirəm. Orada böyük bir Olimpiya İdman Kompleksi açdıq. Çox gözəl, çox yaraşıqlı olan bu kompleks Naxçıvan üçün çox lazımlıdır. Sonra mən orada hərbi hissədə oldum, bir neçə başqa görüşlərim oldu. Bu səfərimdən çox məmnunam, razıyam, çox şadam.

Naxçıvanın çox problemləri var. Orada çətin vəziyyətdə yaşayırlar. Onlar təkcə təyyarə vasitəsilə əlaqə saxlaya bilirlər. Gediş-gəliş üçün başqa vasitələri yoxdur. Ona görə də ora xüsusi diqqət lazımdır. Mən bu barədə orada – Naxçıvanda çıxışımda da demişdim. İndi burada bizim Təhlükəsizlik Şurasının üzvlərinə, başqalarına da öz fikirlərimi dedim. Biz bu işləri aparacağıq.

İndi sizin mənə doğrudan da vacib bir sualınız varsa verin, yoxdursa, sual naminə sual verməklə nə öz vaxtınızı, nə də mənim vaxtımı alın.

**S u a l: Cənab Prezident, Siz orada ən çox əsgərlərlə görüşüb danışdınız və belə ifadə – «Ali Baş Komandanın əmrinə hazır olun», «zərbə endirib zəfər çalmağa qadir ordu» ifadələri işlətmisiniz. Bu, Ermənistan–Azərbaycan münaqişəsi baxımından yeni strategiya kimi qiymətləndirilə bilərmi?**

**C a v a b:** Bilirsiniz, bəs ordu nə üçündür? Mən orada tək bunu deməmişəm. Mən demişəm ki, hər bir dövlətin, hər bir ölkənin özünü etibarlı müdafiə etməyə qadir olan güclü ordusu olmalıdır. Bizdə də neçə ildir ki, ordu quruculuğu prosesi gedir. Deyə bilərəm ki, çətinliklərlə rastlaşsaq da, amma uğurla gedir. Bizim bəzi müxalifət dairələri var, onların dünyada heç nədən xəbərləri yoxdur, ancaq hay-küy salırlar: «ay, nə bilim, ordu zəifdir», «ordunun vəziyyəti pisdir» və sair. Mən bunları eşidirəm, heç fikir vermirəm, cavab vermirəm. Çünki prezident kimi, Ali Baş Komandan kimi, mən vaxtımın böyük hissəsini ordu quruculuğuna sərf edirəm. Amma mən bunu mətbuatda deməməliyəm, qəzetlərdə yazmamalıyam, televiziyada çıxış etməməliyəm. İndi oraya getdim. Orada bizim yaxşı, etibarlı hərbi hissələrimiz yaranıbdır. Gözəl zabitlərimiz, komandanlarımız, yaxşı əsgərlərimiz var. Siz yəqin onları televiziyada gördünüz. Bu elə Azərbaycanın özünün hərbi gücünü göstərir. İndi bu konteksdə, əlbəttə ki, ordu daim hazır olmalıdır. Lazım olan an ordu Ali Baş Komandanın göstərişini yerinə yetirməlidir.

**S u a l: Cənab Prezident, Siz Naxçıvanda olanda belə fikirlər səsləndi ki, Ermənistan prezidenti Robert Köçəryanla görüşünüz gözlənilir. Bu proses baş tutmalı idi, guya Robert Köçəryan görüşə gəlməyibdir. Belə bir görüş nəzərdə tutulmuşdumu?**

**C a v a b:** Mənim planımda belə bir şey yox idi. Robert Köçəryanla hələ bu yaxınlarda görüşmək fikrində deyiləm.

Mən demişəm ki, görüşəcəyəm, indi görək, hər iki tərəfin razılığı olsa, bunu iyul ayında etmək olar. Mən Naxçıvana yalnız muxtar respublikanın həm iqtisadi, həm sosial problemləri ilə daha yaxından tanış olmaq, lazımi tədbirlər görmək, həm də bizim oradakı hərbi hissə ilə tanış olmaq, bir də bilirsiniz, orada böyük Olimpiya İdman Kompleksi açmaq üçün getmişdim.

**S u a l: Cənab Prezident, Robert Köçəryan bildiribdir ki, Paris prinsiplərində Mehri dəhlizinin adı çəkilməyibdir. O, bu fikri təkzib edibdir…**

**C a v a b:** Qoy təkzib etsin.

**S u a l: Cənab Prezident, mənim sualım seçki ilə bağlıdır. Siz 2003-cü ilin seçkilərinə Naxçıvanda rəsmi start verdiniz. Birincisi, nə üçün bunu Naxçıvanda etdiniz? Bunun hansısa mənası varmı, yoxsa təsadüfdür? Siz seçkilərdə özünüzə layiq rəqib kimi görürsünüz?**

**C a v a b:** Bu mənim birinci dəfə dediyim fikir deyildir. Mən bunu bizim Yeni Azərbaycan Partiyasının qurultayında da demişəm. Siz hafizənizi bir qədər araşdırın.

**M ü x b i r:** O, rəsmi deyildi…

**H e y d ə r Ə l i y e v:** Orada bildirilən fikir rəsmi deyildi? O da rəsmi idi, mən onu Bakıda demişəm, Naxçıvanda yox. Yeni Azərbaycan Partiyasının qurultayında demişəm. Demişəm ki, bizim partiya da bunu istəyir və bilirəm ki, təkcə bizim partiyada yox, ümumiyyətlə, ictimaiyyətdə də belə fikir çox genişdir. Ona görə də mən bunu o vaxt demişdim, indi də seçkilər yaxınlaşır, elə buna görə bir də yada saldım ki, bəli, seçkilər olacaq, demokratik keçirilməlidir və Heydər Əliyev öz namizədliyini yenidən irəli sürəcəkdir.

**S u a l: Cənab Prezident, Siz prezidentliyə layiq kimi görürsünüz?**

**C a v a b:** Bilirsiniz, seçki başlananda prezidentliyə öz namizədliklərini verəcəklər. Mən baxacağam, görüm onların içərisində, ümumiyyətlə, kim var.

**S u a l: Cənab Prezident, sahibkarlarla görüşün nəticəsi olaraq müşavirə nə vaxt keçiriləcəkdir?**

**C a v a b:** Olacaq.

**S u a l: Cənab Prezident, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Sizin həmsədrlərlə və Ermənistanın Xarici işlər naziri Vardan Oskanyanla görüşəcəyiniz bildirildi. Bu nə dərəcədə doğrudur?**

**C a v a b:** Vardan Oskanyanla mən görüşməyəcəyəm. Köçəryan oraya gəlmir. Həmsədrlər məxsusi olaraq mənimlə görüşmək üçün oraya gələcəklər.

**S u a l: Cənab Prezident, Özbəkistanın GUÖAM-dan çıxmasına münasibətinizi bilmək istərdik.**

**C a v a b:** Bu, Özbəkistanın öz işidir. Hər bir ölkə müstəqildir. Özbəkistan GUAM-a daxil olanda kiməsə elan etmişdimi? Biz Vaşinqtonda olduğumuz zaman heç bunu gözləmirdik. Gəlib bəyan etdi ki, GUAM-a daxil olmaq istəyir, oldu. İndi də çıxır, bu onun öz işidir.

**S u a l: Cənab Prezident, bundan sonra belə fikirlər səslənir ki, Moldova da öz mövqeyinə yenidən baxa bilər. Ümumiyyətlə, bu, GUÖAM-ın tənəzzülü kimi qiymətləndirilə bilər. Sizcə, bu təşkilatın perspektivləri necədir?**

**C a v a b:** Tələsməyin.

**S u a l: Cənab Prezident, dünən bütün Azərbaycan Türkiyə ilə birlikdə bu ölkənin yığma futbol komandasının dünya birinciliyində uğurunu bayram etdi. Sizin fikirlərinizi bilmək olarmı?**

**C a v a b:** Mən də bayram etdim. Amma kim necə bayram edir, mən bilmirəm, mən orada yaxşı bayram etdim, yaxşı çay

içdim, Naxçıvan meyvələrindən yedim. Türkiyə futbolçularına gələcəkdə uğurlar arzuladım.

**S u a l: Cənab Prezident, Ermənistanın keçmiş prezidenti Ter-Petrosyan belə ifadə işlədibdir ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinə razılaşacaq və özü də bu, daha ağır şərtlərlə olacaqdır. Deyirsiniz ki, ATƏT-in həmsədrləri Sizinlə görüşəcəklər. Ümumiyyətlə, Robert Köçəryanla görüşünüzdə münaqişənin mərhələli həllinin bir variant kimi yenidən müzakirəyə çıxarılacağını gözləmək olarmı?**

**C a v a b:** Qızım, vallah elə suallar verirsiniz ki. Siz real olan məsələlərdən danışmırsınız, deyirsiniz ki, bu belə olsa nə olacaq, o belə olsa nə ola bilər? Siyasət belə getmir. Hansı məsələ meydana çıxacaqsa, o da müzakirə olunacaqdır. Ona görə də xahiş edirəm ki, mənə belə suallar verməyəsiniz. Sağ olun.

## LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

Əlahəzrət!

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı – Böyük Hersoqun təvvəllüd günü münasibətilə Sizi və bütün Lüksemburq xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında xoş dostluq münasibətlərini möhkəmləndirmək üçün bundan sonra da davamlı səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, səadət, dost Lüksemburq xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2002-ci il*

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSMAİL ÖMƏR CİLLİYƏ**

Hörmətli cənab Prezident!

Cibuti Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Cibuti xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında əlaqələri genişləndirməklə xalqlarımızın yaxınlaşması və əməkdaşlığı üçün imkanları artıracağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2002-ci il*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün Xorvatiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Avropa ailəsində birləşən xalqlarımız arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2002-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTI ZATİ-ALİLƏRİ CƏNAB MİLAN KUÇANA**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Sloveniyanın dövlətçiliyi günü münasibətilə Sizi və bütün Sloveniya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, müstəqillik qazanmış ölkələrimiz arasında əlaqələrin genişlənməsi yolunda göstərdiyimiz səylər xalqlarımız üçün faydalı olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2002-ci il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOAKİM ALBERTU ÇİSSANOYA**

Hörmətli cənab Prezident!

Mozambik Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Mozambik xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafı xalqlarımızı bir-birinə yaxınlaşdıracaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2002-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin şimal–qərbində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün İran xalqına dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 iyun 2002-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ONİLLİYİ İLƏ ƏLAQƏDAR BU TƏŞKİLATIN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏNİN İSTANBUL ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ QISA MÜSAHİBƏ

*24 iyun 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mənim səfərimin məqsədini bilirsiniz, elan edilibdir. İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə olacağıq. Ondan sonra Ankaraya gedəcəyəm, orada bir neçə görüş keçirəcəyəm. Son olaraq Qarsa gedəcəyəm, oradan da Vətənə dönəcəyəm. Sizə qısaca olaraq bunu deyə bilərəm.

**S u a l: Cənab Prezident, Ermənistan nümayəndəsi ilə görüşünüz gözlənilirmi?**

**C a v a b:** Gözlənilmir.

**S u a l: Cənab Prezident, səfər zamanı Azərbaycan –Türkiyə hərbi əməkdaşlığı barədə söhbətlər aparılacaqmı? Bu, Ermənistan tərəfini yaman narahat edir.**

**C a v a b:** Bilirsiniz ki, Türkiyə ilə bizim strateji əməkdaşlığımız var. Ona görə də ola bilər ki, biz əməkdaşlığın bütün sahələrini bu və ya başqa şəkildə müzakirə edək. Bundan heç kəsin narahat olmağa əsası yoxdur.

**S u a l: Baş nazirin səlahiyyətlərinin artırılması hansı zərurətdən doğur?**

**C a v a b:** O zərurətdən doğur ki, bizim Konstitusiya yeddi il bundan öncə yazılıb, çox demokratik Konstitusiyadır. Biz onu tam demokratik prinsiplər əsasında, ümumxalq səsverməsi əsasında qəbul etmişik. İndi zaman keçibdir. Biz Avropa Şurasına daxil olmuşuq, bununla əlaqədar müəyyən konvensiyalara qoşulmuşuq. Bunlarla bağlı bəzi dəyişikliklər olmalı idi, onları etdik. Məhkəmə sistemi ilə əlaqədar dəyişikliklər olmalı idi, onları da etdik. Başqa dəyişikliklər də etdik. Sən dediyin səlahiyyət məsələsi deyil, Konstitusiyada belə bir bənd var ki, əgər prezident öz vəzifələrini icra edə bilməsə, bu səlahiyyətlər Milli Məclisin sədrinə verilir. İndi isə Baş nazirə verilməsi nəzərdə tutulur. Burada heç bir şey yoxdur.

**S u a l: Cənab Prezident, Siz Türkiyə ilə Ermənistanın sərhədində yerləşən Qarsda da olacaqsınız. Oradakı görüşlərinizdə Türkiyənin Ermənistanla sərhədlərinin açılması məsələsinə...**

**C a v a b:** Sən mənimlə gedirsən, Qafqaz Universiteti mənə fəxri doktor adı veribdir, çoxdandır dəvət edirlər, ona görə də mən oraya gedirəm. Qarsda Qafqaz Universitetində olacağam.

**S u a l: Cənab Prezident, dəmir yolunun açılması məsələsinə toxunacaqsınızmı?**

**C a v a b:** Bu məsələlər mənim gündəliyimdə deyildir.

**S u a l: Cənab Prezident, Türkiyə Əfqanıstanda sülhməramlı qüvvələrə rəhbərlik edir, onların tərkibinə Azərbaycan qüvvələri daxil olacaqmı?**

**C a v a b:** Daxil olacaqdır.

**S u a l: Cənab Prezident, Türkiyə milli futbol komandasının qələbəsini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu elə sualdır ki... Görmədiniz ki, bizim camaat nə edirdi. Bakının küçələri, meydanları dağılırdı. Bunu necə qiymətləndirəcəyəm, bu, ən böyük sevincimizdir. Çünki Türkiyə və Azərbaycan eynidir. Bir dəfə də belə bir şey olmuşdu, türklər udmuşdu, biz nə qədər camaat meydanlara, küçələrə çıxmışdı. İndiki bu uduş ondan daha da yüksəkdir. Onlar nə qədər yüksək nailiyyət əldə etdilər. Əlbəttə, bu hər bir azərbaycanlını, türkü sevindirir və böyük qürur hissi doğurur.

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının bu qurumun 10 illiyinə həsr edilmiş zirvə görüşündə iştirak etmək üçün iyunun 24-də günorta İstanbula gəldi.*

*Dövlətimizin başçısını İstanbulun Atatürk Beynəlxalq hava limanında Türkiyə Respublikasının yüksək vəzifəli şəxsləri, Azərbaycanın Ankaradakı səfiri Məmməd Əliyev, İstanbuldakı Baş konsulu Xeyrəddin Qoca mehribanlıqla qarşıladılar. Azərbaycan prezidentinə gül dəstəsi təqdim olundu.*

*Prezident Heydər Əliyevin şərəfinə hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan dövlətinin başçısına raport verdi. Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Respublikamızın rəhbəri hava limanından onun üçün ayrılmış iqamətgaha – «Çırağan» hotelinə gəldi.*

# GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*İstanbul,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Çırağan» hoteli*

*24 iyun 2002-ci il*

*Prezident Heydər Əliyev və prezident Eduard Şevardnadze bir-birini səmimiyyətlə salamlayaraq, yenidən görüşmələrindən məmnun qaldıqlarını bildirdilər.*

*QDİƏT-in yubiley sammitinin işindən söhbət açan dövlət başçıları qeyd etdilər ki, ötən dövrdə bu təşkilat çərçivəsində əməkdaşlıq qonşu və dost ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə öz töhfəsini vermişdir.*

*Görüş zamanı prezidentlər iki ölkə arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnuniyyətlə söz açdılar. Xəzərin zəngin karbohidrogen ehtiyatlarının nəqli sahəsində Azərbaycanın və Gürcüstanın əməkdaşlığından, irimiqyaslı regional layihələrin gerçəkləşməsində ölkələrimizin yaxından iştirakından məmnun qaldıqlarını bildirən dövlət başçıları Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi ilə bağlı görülən işlərdən geniş söhbət açdılar, qarşıda duran bir sıra vəzifələri ətraflı müzakirə etdilər.*

*Regionda mövcud olan münaqişələrdən söhbət açan dövlət başçıları onların tez bir zamanda aradan qaldırılmasının vacibliyini qeyd edərək, dinc yolla nizamlama prosesində bütün səylərin səfərbər olunmasının zəruriliyini vurğuladılar.*

*Ənənəvi mehribanlıq və səmimiyyət şəraitində keçən görüş zamanı prezidentlər beynəlxalq aləmdə, regionda cərəyan edən proseslər, hər iki ölkəni maraqlandıran bir sıra başqa məsələlər ətrafında da fikir mübadiləsi apardılar.*

**Görüşdən sonra prezidentlərin jurnalistlərin suallarına verdikləri cavab:**

**S u a l: Siz Rusiya prezidenti Vladimir Putinin belə bir bəyanatını necə şərh edərdiniz ki, Pankisidə vəziyyəti ABŞ yox, ancaq Rusiya nizama sala bilər?**

**E d u a r d Ş e v a r d n a d z e:** Sizin yerinizdə olsaydım, soruşardım ki, danışıqlar necə keçdi.

**J u r n a l i s t:** Biz əminik ki, əla keçdi.

**E d u a r d Ş e v a r d n a d z e:** Azərbaycan prezidenti Heydər Əliyev ilə danışıqlar ənənəvi olaraq yaxşı, gözəl, tam qarşılıqlı anlaşma ruhunda keçir. Sualınıza qayıdaraq demək istəyirəm ki, mən Vladimir Putinin bu bəyanatı verdiyi mətbuat konfransının materialları ilə hələ tam tanış olmamışam. Amma hələlik görürəm ki, orada müsbət məqamlar var. Prezident Putin hesab edir ki, Gürcüstan ilə Rusiya arasında münasibətlərin pisləşməsində Gürcüstanla yanaşı, onun ölkəsinin də təqsiri var. Bu, artıq pis deyildir. Başqa məsələlərdən danışmalı olsaq, Rusiya tərəfinin müəyyən incikliyi var. Yəqin başlıca inciklik bundan ibarətdir ki, vaxtilə Gürcüstan

Rusiya qoşunlarının öz ərazisindən keçməsinə icazə verməmişdir. Axı bu, böyük müharibəyə, çoxlu qan tökülməsinə gətirib çıxarardı.

**S u a l: Cənab Əliyev, danışıqlar zamanı hansı məsələlər müzakirə edildi?**

**H e y d ə r  Ə l i y e v:** Biz ikitərəfli münasibətlərlə bağlı məsələləri, regionumuzda – Cənubi Qafqazda vəziyyəti müzakirə etdik.

Gürcüstanda, Azərbaycanda işlərin necə getdiyi barədə fikir mübadiləsi apardıq. Görüşümüz həmişəki kimi, dostluq, qardaşlıq şəraitində keçdi. Biz həmişə bir-birimizi hər cəhətdən dəstəkləmişik və bu gün də dəstəkləyirik. Ona görə də bizim problemlərimiz yoxdur, görüşməyə ehtiyacımız var. Mən bu görüşdən məmnunam. Doğrudur, biz  görüşü davam etdirmək istəyirdik, lakin Eduard Şevardnadze başqa bir görüşə tələsir.

**S u a l: Cənab Şevardnadze, Özbəkistan GUÖAM-dan çıxmışdır, Siz bu vəziyyəti və bu təşkilatın perspektivini necə qiymətləndirirsiniz?**

**E d u a r d  Ş e v a r d n a d z e:** Mən Azərbaycan və Ukrayna prezidentlərinin bu məsələ barəsində fikirlərini bilirəm və hesab edirəm ki, Özbəkistanın bəyanatına baxmayaraq, GUÖAM-ın inkişafı perspektivsiz deyildir. Biz görüşməli, bu məsələləri müzakirə etməliyik.

**S u a l: Cənab Əliyev, nəqliyyat dəhlizində avtomobil daşınmaları ilə bağlı müəyyən problemlər vardır. Bu məsələ Gürcüstan prezidenti ilə müzakirə edildimi?**

**H e y d ə r  Ə l i y e v:** Mən bunu bilmirəm, yaxşı ki, sən məlumat verdin. Mən bunu öyrənməliyəm.

**S u a l: Cənab Əliyev, Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə bağlı işlər nə yerdədir?**

**H e y d ə r  Ə l i y e v:** Bu məsələ barəsində heç bir problem yoxdur. Hər şey yaxşıdır.

**S u a l: Cənab Əliyev, sabahkı görüşdə hansı iqtisadi məsələlər müzakirə olunacaqdır?**

**H e y d ə r  Ə l i y e v:** Bu, yubiley görüşüdür, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının yaranmasının onuncu ildönümünə həsr olunmuşdur, bu illərə yekun vuracağıq və bu istiqamətdə gələcəkdə necə əməkdaşlıq etmək barədə danışacağıq.

**S u a l: Azərbaycan hansısa bir şəkildə Rusiya–Gürcüstan münasibətlərinə təsir edə bilərmi?**

**H e y d ə r  Ə l i y e v:** Mən bu fikirdəyəm ki, Rusiya da, Gürcüstan da bu məsələləri özləri həll etmək iqtidarındadırlar. Heç bir müdaxilə yoxdur, buna heç ehtiyac da yoxdur. Məsələni dramatikləşdirmək lazım deyildir. Dövlətlər arasında münasibətlərdə müxtəlif dövrlər olur. Məsələn, mən belə hesab edirəm ki, burada dramatik heç nə olmamışdır. Hər şey qaydasındadır və Gürcüstan ilə Rusiya arasında münasibətlər yaxşı olacaqdır.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*İstanbul,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Çırağan» hoteli*

*24 iyun 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev İstanbulda, onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun həmsədrləri Nikolay Qribkovu (Rusiya), Rudolf Perinanı (ABŞ) və Üq Perneni(Fransa)qəbul etmişdir.*

*Azərbaycan prezidentini səmimiyyətlə salamlayan həmsədrlər ölkəmizin başçısı ilə hər bir görüşün çox əhəmiyyətli və səmərəli olduğunu vurğuladılar.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması prosesi barədə geniş fikir mübadiləsi aparıldı.*

*Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlanmış bu münaqişə nəticəsində ərazimizin 20 faizinin hələ də işğal altında qaldığını, bir milyondan çox vətəndaşımızın doğma ev-eşiyindən didərgin düşərək illərdən bəri çadırlarda, çox ağır və dözülməz şəraitdə yaşadığını bir daha nəzərə çatdıran prezident Heydər Əliyev münaqişənin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində səylərin daha da artırılmasının vacibliyini bildirdi.*

*Görüş zamanı Minsk qrupu həmsədrlərinin apardıqları danışıqların, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin davam etdirilməsi lüzumu bir daha vurğulanaraq qeyd olundu ki, tezliklə sülh əldə edilməsi üçün bütün səylər səfərbər edilməlidir.*

# TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CƏM İLƏ GÖRÜŞ

*İstanbul,*
*Azərbaycan prezidentinin iqamətgahı,*
*«Çırağan» hoteli*

*24 iyun 2002-ci il*

*Cənab İsmayıl Cəm onu qəbul etdiyinə görə dərin təşəkkürünü bildirərək, ölkəmizin başçısı ilə hər bir görüşünü özü üçün şərəf saydığını söylədi.*

*Dost, qardaş ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə daim inkişaf etməsindən razılıqla söhbət açan İsmayıl Cəm ikitərəfli münasibətlərimizin strateji xarakter daşıdığını və dönməzliyini vurğuladı.*

*Söhbət zamanı Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının işlənilməsində Türkiyənin iştirakı, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələrinin gerçəkləşdirilməsinin ölkələrimizin iqtisadi yüksəlişi regionda sabitlik əldə edilməsi üçün mühüm amil olduğu bildirildi.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazimizin 20 faizinin işğal olunmasından, bir milyondan çox soydaşımızın doğma yurd-yuvasından qovularaq qaçqın vəziyyətinə düşməsindən bəhs edən prezident Heydər Əliyev münaqişənin həlli sahəsində*

*ATƏT-in Minsk qrupunun fəaliyyətindən, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa danışıqlarından söhbət açdı.*

*İsmayıl Cəm münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün Azərbaycanın səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini bir daha nəzərə çatdırdı.*

*Görüş zamanı hər iki ölkə üçün qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyənin Xarici Işlər naziri İsmayıl Cəmin jurnalistlərin suallarına verdikləri cavab:

**S u a l: Cənab Prezident, keçirdiyiniz görüş barədə nə deyə bilərsiniz?**

**H e y d ə r Ə l i y e v:** Əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi və inkişaf etdirilməsi ilə əlaqədar danışıqlar aparıldı. Bizim danışıqlarımız, həmişə olduğu kimi, dostluq-qardaşlıq danışıqlarıdır, fikrimiz eynidir.

Yenə bunu təsdiq etdik ki, Türkiyə–Azərbaycan dostluğu-qardaşlığı əbədi, sarsılmazdır və biz strateji əməkdaşlığımızı davam etdiririk və bundan sonra da davam etdirəcəyik.

Bizim üçün ən vacib məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Bu barədə biz Türkiyə ilə daim məsləhətləşmələr aparırıq, Türkiyə də bizə yardım edir.

İndi yenə də məsləhətləşmə oldu, söhbət etdik, danışdıq. Ümidvaram, hörmətli nazir İsmayıl Cəm də belə bir fikirdə olmalıdır ki, biz bu məsələləri sülh yolu ilə çözəcəyik, buna nail olacağıq.

**S u a l: Cənab Prezident, üç dövlətin – Türkiyə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü necə qiymətləndirirsiniz?**

**H e y d ə r Ə l i y e v:** Bunu hörmətli İsmayıl Cəmdən soruşun.

**İ s m a y ı l C ə m:** Əvvəlcə, hörmətli cümhur başqanıma təşəkkür edirəm.

Türkiyə–Azərbaycan əlaqələrində, Azərbaycan–Türkiyə qardaşlığında hörmətli cümhur başqanım ən böyük rola sahibdir və bu dostluğun təməlində, bu dostluğun gələcəyində hörmətli cümhur başqanı hamımıza örnək olmuşdur və örnək olmağa da davam etməkdədir.

Hörmətli Heydər Əliyev ilə görüşümüz mənim üçün yolgöstəricidir. Əlbəttə, hörmətli cümhur başqanımızın dediyi kimi, biz hamımız gerçəkdən sülh istəyirik. Qafqazda sülhün təmin olunmasının Azərbaycana, Ermənistana, Türkiyəyə və bütün bölgə üçün çox böyük əhəmiyyəti vardır. Azərbaycan və onun hörmətli cümhur başqanı bu sülhün əldə olunmasına öncüllük edir. Hər zaman belə addımlar atılmışdır. Biz Türkiyə olaraq sülh yolunda bu öncüllüyün ən böyük dəstəkçisiyik və belə də davam edəcəyik.

Sizin suala gəlincə, deyə bilərəm ki, üç ölkənin xarici işlər nazirlərinin görüşü, sadəcə, bir məsələ ilə bağlıdır. Bunu qarışdırmamaq lazımdır. Başqa məsələlər müzakirə edilir, edilmir kimi yanlışlıq olmamalıdır. Bu da Cənubi Qafqazda münaqişələrin həllinin asanlaşdırılmasına kömək etmək olarmı, ya olmazmı məsələsidir. Bu görüşün əsas məqsədi budur, bununla bağlıdır. Bu, Türkiyənin təşəbbüsüdür. Buna Azərbaycan ilk gündən dəstəyini vermişdir. Ermənistan tərəddüddən

sonra – hər kəsin öz dəyərləndirməsi də ayrı mövzudur – bunun faydasını, nəhayət, anlamışdır.

Belə bir görüş keçirildi, danışıqlar fikir mübadiləsi çərçivəsində keçdi. Hər halda, bu görüş bundan sonra da – yəni, görüş ikitərəfli də ola bilər, birlikdə də ola bilər – davam edəcəkdir. Biz Türkiyə olaraq münaqişələrin həllində bir asanlaşdırıcı rol oynaya bilsək, onu da edəcəyik.

**S u a l: Siz Ermənistanın Xarici Işlər naziri ilə görüşdünüz, danışıqlar apardınız. Ermənistanın mövqelərində bir yumşalma hiss etdinizmi?**

**İ s m a y ı l  C ə m:** Mən bu barədə bir söz deyə bilmərəm. Amma mənim keçirdiyim görüş, sadəcə, mövcud olan bu münaqişənin həllinin asanlaşdırılmasına yardım məqsədi daşıyırdı. Yəni Azərbaycan da məsələyə eyni şəkildə baxmaqdadır, bu işə Türkiyə ilə eyni münasibətdə yanaşır.

Ermənistanla belə bir şey yoxdur. Üçtərəfli görüşün, məsələlərə baxışların məqsədi münaqişənin həllinin asanlaşdırılmasına kömək etməkdən ibarət olmuşdur. Hamısı bundan ibarətdir.

**S u a l: Sentyabrın 11-də baş vermiş hadisələrdən sonra Amerika Birləşmiş Ştatları Qarabağ və Qafqazdakı gerçəkliyi dərk etməyə başladı. Bu sahədə Türkiyə də Qafqazda, xüsusilə Qarabağda ədalətin bərpasını arzu edir. Bundan sonra Türkiyənin Qarabağ olayına münasibəti necə olacaqdır?**

**İ s m a y ı l  C ə m:** Doğrusu, biz Amerikadan dəstək alıb nəsə etmirik. Türkiyə bölgə ölkəsidir. Bu məsələnin çözülməsində, sadəcə, iki dövlətin deyil, Türkiyənin də, bütün bölgənin də ciddi marağı var. Bizim asanlaşdırıcı köməyimiz alınarsa, bunu etməyə hazır olduğumuzu ortaya qoyduq. Bizim görüşümüz üçlü çərçivədədir.

Mən Vilayət bəylə görüşəndə bu məsələ ilə bağlı, üçtərəfli görüşlə bağlı bir razılığa gəldikdə, bu, üçtərəfli görüş olacaqdır. Yaxud mən Ermənistanın Xarici Işlər naziri ilə görüşsəm, bu, Türkiyə ilə Ermənistan arasında ola bilməz, üçtərəfli olacaqdır. Bu, Qarabağ məsələsidir, Cənubi Qafqazın təhlükəsizlik məsələsidir, bunlar müzakirə ediləcək. Yəni çərçivə, məqsəd məlumdur, görüşlər də razılıqla olur.

* * *

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) üzvü olan ölkələrin dövlət və hökumət başçıları iyunun 24-də axşam gəmi ilə QDİƏT-in Baş katibliyinə gəldilər. Burada Baş katib səfir Valeri Çeçelaşvilinin adından rəsmi qəbul təşkil olundu. Azərbaycan prezidenti Heydər Əliyev rəsmi qəbulda iştirak edirdi.*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ* NİTQ

*İstanbul,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Çırağan» hotelinin Bal salonu*

*25 iyun 2002-ci il*

Hörmətli cənab sədr!
Zati-aliləri, dövlət və hökumət başçıları!
Hörmətli sammit iştirakçıları!
Xanımlar və cənablar!

Sizi səmimi-qəlbdən salamlayıram. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının onilliyi münasibətilə təbrik edirəm.

Təşkilatımız 10 il bundan əvvəl Türkiyədə, İstanbulda təsis olunubdur. Bu gün biz fəaliyyətimizin ilk on ilinə yekun vurmaq və qarşıdakı vəzifələri müəyyənləşdirmək üçün yenidən İstanbula toplaşmışıq.

Fürsətdən istifadə edərək sammitin yüksək səviyyədə təşkilinə, bizə göstərilən qonaqpərvərliyə görə Türkiyə dövlətinə və hökumətinə, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum Əhməd Necdət Sezərə minnətdarlığımı bildirirəm.

---

* Zirvə görüşünü Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər açdı.

Bizim ölkələrimiz müxtəlif beynəlxalq təşkilatların və qurumların üzvüdür. Onların sırasında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının öz yeri var. Çünki əvvəla, bu təşkilat ümumi bir regiona daxil olan dövlətləri birləşdirir. İkincisi və ən əsası isə, onun iqtisadi əməkdaşlıq təşkilatı olması, region xalqları arasında sosial və iqtisadi tərəqqiyə, qarşılıqlı işbirliyinə nail olmağı özünün əsas məqsədlərindən birinə çevirməsidir.

Təşkilatın yaşı ilə onun sıralarında birləşən bir çox dövlətlərin yaşı arasında yaxınlıq var. Bu da onu göstərir ki, biz müstəqillik qazandıqdan sonra problemlərimizi birlikdə həll etmək, iqtisadi əməkdaşlığımızı dərinləşdirmək qərarına gəlmiş və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatını qurmuşuq.

Əlamətdar haldır ki, aradan keçən illər ərzində bu qurum Qara dəniz bölgəsində əməkdaşlıq təşəbbüsü səviyyəsindən Avropa miqyaslı təşkilata çevrilmiş, onun geniş və əhatəli strukturları yaranmışdır. Son üç il ərzində bu proses daha böyük vüsət almışdır.

Müxtəlif dəyərlərə və iqtisadi inkişaf səviyyələrinə, təbii sərvətlərə və məhsuldar qüvvələrə malik olan ölkələrin bu işbirliyi regionda qarşılıqlı dialoqun dərinləşməsinə, iqtisadi əməkdaşlıq sahəsində birgə yollar axtarışına zəmin yaratmaqdadır.

Eyni zamanda qurumun üzvü olan ölkələr mənsub olduqları dəyərləri qoruyub saxlamaq və bir-biriləri ilə mübadilə etməklə yanaşı, ümumi bir istiqamət – Avropaya daha dərindən inteqrasiya istiqaməti seçmişlər və bu yolla irəli gedirlər.

Bu gün tam əsasla deyə bilərik ki, artıq təşkilatımızın prioritet istiqamətləri müəyyənləşmişdir. Bu istiqamətlər ilk növbədə enerji və nəqliyyat sahələridir. Azərbaycan bu sahə-

lərin ikisinə də – həm üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, həm də bütünlüklə Avropaya ciddi töhfələr verir. İnanırıq ki, yaxın illərdə həmin proses daha da genişlənəcəkdir.

Biz 1993-cü ildən başlayaraq ardıcıl şəkildə Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarını Qərb bazarlarına çıxarmaq siyasətini yürüdürük. Regionun təkcə iqtisadi deyil, siyasi, humanitar və demokratik inkişafına da öz təsirini göstərən bu siyasət artıq real nəticələr verməkdədir.

1994-cü ildə imzalanan «Əsrin müqaviləsi» ardıcıl şəkildə həyata keçirilir. Bu gün biz dünyanın aparıcı şirkət və konsorsiumları ilə Xəzərin Azərbaycan sektorunda xam neft hasilatı, emalı və ixracı sahəsində müqavilələr imzalamışıq.

Xəzər dənizində hasil edilən neft Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərləri vasitəsilə ixrac olunur. 1999-cu ildə burada, İstanbul şəhərində imzalanan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri layihəsi artıq reallaşmasının sonuncu mərhələsinə daxil olubdur. Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsi də çox tezliklə ideyadan həqiqətə çevriləcək və bu layihələrin gerçəkləşməsi, heç şübhəsiz, regionun iqtisadi mənzərəsini əsaslı şəkildə dəyişəcəkdir.

Azərbaycan, Gürcüstan və Türkiyənin, habelə dünyanın bir sıra aparıcı neft şirkətlərinin iştirakı ilə həyata keçirilən bu mühüm layihələr Xəzər hövzəsi ilə Qara dəniz hövzəsi arasında iqtisadi əməkdaşlığı daha da dərinləşdirəcəkdir.

Təbii ki, gələcəkdə biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan digər ölkələrin də böyük iqtisadi layihələrdə iştirakını istisna etmirik.

Azərbaycanın coğrafi-srtateji mövqeyi, bir sıra mühüm nəqliyyat dəhlizlərinin buradan keçməsi onu Avropa ilə Asi-

ya arasında etibarlı tranzit ölkəyə çevirmişdir. Bizim təşəbbüsümüzlə 1998-ci ildə Bakıda dünyanın 30-dan çox dövlətinin və beynəlxalq qurumların iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir.

Azərbaycandan və təşkilatın üzvü olan bir sıra digər dövlətlərin ərazilərindən keçən tarixi İpək Yolunun bərpası xalqlarımız arasında siyasi, iqtisadi, mədəni əlaqələrin möhkəmləndirilməsi üçün mühüm amildir. Məmnunluq hissi ilə qeyd etməliyəm ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan bir çox ölkələrin dövlət və hökumət başçıları bu əlaqələri bərpa etməyi öz qarşısına məqsəd qoyan həmin beynəlxalq konfransda iştirak etmişdirlər.

Avropa Birliyinin maliyyələşdirdiyi Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi – TRASEKA proqramının həyata keçirilməsi, böyük nəqliyyat infrastrukturunun yaradılması gələcək iqtisadi inkişafımız və qarşılıqlı əlaqələrimizin genişlənməsi üçün mühüm şərtlərdən biridir.

Heç şübhəsiz, potensialımız çox böyükdür. Lakin bu potensialdan tam şəkildə istifadə üçün regionda sülhün və sabitliyin bərqərar olması, münaqişələrin aradan qaldırılması, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi, region dövlətlərinin təhlükəsizliyinin təmin olunması mühüm şərtdir.

Əks təqdirdə, iqtisadi əməkdaşlıq, birgə iqtisadi layihələrin həyata keçirilməsi mümkünsüzdür. Bu, Azərbaycanın prinsipial mövqeyidir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapmayana qədər biz bu prinsipdən geri çəkilməyəcəyik.

Bu gün biz təşkilatımızın ilk on ildə gördüyü işlərə qismən yekun vururuq. Eyni zamanda onun gələcək fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdiririk. Hesab edirəm ki, bu on ildə uğurlarımız olubdur.

Lakin hər bir beynəlxalq təşkilatın mövcudluğu və uğurlu fəaliyyəti onun qarşısına qoyulan tələbləri ardıcıl şəkildə yerinə yetirməsi, daim yeni prioritetlər müəyyənləşdirməsi və onlara nail olması ilə sıx bağlıdır. Bu mənada qarşıda bizi böyük vəzifələr gözləyir.

Qara dəniz regionu Avrasiyanın mərkəzində yerləşir. Haqlı olaraq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının doğuluş yeri və paytaxtı sayılan İstanbul isə Asiya ilə Avropanın birləşdiyi yerdədir. Mən bunu çox simvolik hesab edirəm və düşünürəm ki, təşkilatımızın gələcək fəaliyyətində də qitələri, dövlətləri, xalqları və insanları birləşdirmək, iqtisadi tərəqqiyə və sosial inkişafa nail olmaq əsas yer tutmalıdır.

Bir daha sizi təbrik edirəm, hamınıza ən xoş arzularımı çatdırıram. Hamınıza təşəkkür edirəm, sağ olun.

# RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*İstanbul,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Çırağan» hoteli*

*25 iyun 2002-ci il*

*Bir-birini səmimiyyətlə qarşılayan prezidentlər QDİƏT-in zirvə görüşü gedişində görüşməklərindən məmnun qaldıqlarını bildirdilər.*

*Region ölkələrinin iqtisadi əməkdaşlığının genişlənməsində QDİƏT-in rolunu müsbət dəyərləndirən dövlət başçıları ölkələrimiz arasında birbaşa qarşılıqlı əlaqələrin inkişafı sahəsində görülən işlərdən razılıqla söhbət açdılar.*

*Müstəqillik yoluna qədəm qoymuş Azərbaycanda həyata keçirilən dəyişikliklərdən, islahatlardan bəhs edən Heydər Əliyev bunların müsbət nəticələr verdiyini vurğuladı.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söhbət açan prezident Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları nəticəsində başlanmış bu münaqişənin uzun müddət davam etdiyini, respublikamızın ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox soydaşımızın yerindən-yurdundan didərgin düşərək indiyədək çadır şəhərciklərində ağır və dözülməz şəraitdə yaşadığını bildirdi.*

*Münaqişənin aradan qaldırılması üçün danışıqlar prosesindən bəhs edən Heydər Əliyev Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa görüşlərindən, ATƏT-in Minsk qrupu çərçivəsində göstərilən səylərdən söhbət açdı və Azərbaycanın münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəqli üçün həyata keçirilməkdə olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi–Ərzurum qaz kəməri layihələri barədə ölkələrimizi maraqlandıran bir sıra məsələlər müzakirə edildi, iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi oldu.*

*Azərbaycan prezidenti Heydər Əliyev Rumıniya prezidenti İon İliyeskunu ölkəmizə rəsmi səfərə dəvət etdiyini bir daha təsdiqlədi. Prezident İon İliyesku bu ilin oktyabr ayında Azərbaycana səfərə gələcəyini bildirdi.*

*Dostluq və səmimilik şəraitində keçən görüş zamanı hər iki ölkə üçün maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

*Azərbaycan prezidenti Heydər Əliyev görüşdən sonra səfərdə onu müşayiət edən Azərbaycan jurnalistləri ilə səmimi söhbət etdi, onları maraqlandıran suallara cavab verdi.*

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*İstanbul,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Çırağan» hoteli*

*25 iyun 2002-ci il*

*Yenidən görüşmələrindən məmnunluq bildirən prezidentlər Azərbaycan–Ukrayna əlaqələrinin inkişafından razılıqla söhbət açdılar.*

*Ölkələrimiz arasında mövcud olan dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə xüsusi əhəmiyyət verdiklərini vurğulayan dövlət başçıları qeyd etdilər ki, bu münasibətlər beynəlxalq, regional təşkilatlarda ölkələrimizin qarşılıqlı fəaliyyət və dəstəyində özünü bilavasitə büruzə verir.*

*Azərbaycan və Ukraynanın qarşısında duran problemlərdən, vəzifələrdən söhbət açan prezidentlər ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına yönəldilmiş nizamlama prosesi barədə fikir mübadiləsi apardılar.*

*Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının nəqlində ölkələrimizin əməkdaşlığının strateji əhəmiyyət kəsb etdiyini vurğulayan dövlət başçıları bu layihələrin həyata*

*keçirilməsində Azərbaycan və Ukraynanın qarşılıqlı fəaliyyəti ilə bağlı məsələləri nəzərdən keçirdilər.*

*Ənənəvi mehribanlıq və səmimiyyət şəraitində keçən söhbət zamanı ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər də müzakirə edildi.*

# «ÜÇ DƏNİZİN ƏFSANƏSİ» KONFRANSININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*İstanbul,*
*«Konrad» hoteli*

*25 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev iyunun 25-də günortadan sonra «Konrad» hotelinə gəldi. Burada enerji məsələlərinə həsr edilmiş və rəmzi olaraq «Üç dənizin əfsanəsi» adlandırılan konfransın təntənəli açılışı oldu.*

*İlk dəfə beş il əvvəl keçirilən, Xəzər dənizi və Qara dəniz nəzərdə tutulmaqla «İki dənizin əfsanəsi» rəmzi adı verilmiş bu konfrans Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin təklifi ilə Aralıq dənizi hövzəsinə də şamil edilmiş və növbəti ildən etibarən «Üç dənizin əfsanəsi» adı almışdır.*

*Beşinci dəfə keçirilən bu tədbiri giriş sözü ilə Türkiyənin «Tekfen» şirkətinin prezidenti, konfransın həmsədri Nihad Göyyigit açaraq dövlət başçılarını salamladı, toplantıda iştirak etdiklərinə görə təşəkkürünü bildirdi, müzakirə olunacaq məsələlər barədə məlumat verdi. Sonra o, Tekfen Qara dəniz orkestrini və onun dirijoru professor Saim Akçili konfrans iştirakçılarına təqdim etdi. Əsasən Mərkəzi Asiya, Qafqaz ölkələrini, Qara dəniz və Aralıq dənizi ölkələrini təmsil edən ifaçılardan ibarət olan orkestr ali qonaqlar qarşısında çıxış etdi.*

*Sonra konfransın digər həmsədri «Cambridqe Enerqu Resources Association» şirkətinin prezidenti Cozef Stanislav çıxış etdi.*

*Türkiyə prezidenti Əhməd Necdət Sezər, Ukrayna prezidenti Leonid Kuçma, Rumıniya prezidenti İon İliyesku, Gürcüstan prezidenti Eduard Şevardnadze və Azərbaycan prezidenti Heydər Əliyev konfransda çıxış etdilər.*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab sədr!

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayıram, konfransın işinə uğurlar arzulayıram.

Bu gün müzakirə olunan məsələ böyük tarixə malikdir. «Üç dənizin əfsanəsi» – Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi – konfransı beş ildir keçirilir. Ancaq nə üçün əvvəllər keçirilməyibdir? Çünki əvvəl bu işlərimizin bir-biri ilə bu qədər sıx bağlı olacağı haqqında məlumatlar çox az idi və buna inanlar da çox az idi. Ancaq – mən bunu Azərbaycanı tərifləmək üçün demək istəmirəm – ilk dəfə Azərbaycanda Xəzər dənizinin çox zəngin qaz və neft ehtiyatlarının olması və onların istifadə edilməsi haqqında məsələlər qalxandan sonra, 1994-cü ildə «Əsrin müqaviləsi» adlanan müqavilə imzalanandan sonra bütün dünyada Xəzər dənizi haqqında böyük müzakirələr keçdi. Çünki Xəzər dənizinin bu qədər zəngin neft və qaz yataqlarına malik olması dünyada çoxlarına məlum deyildi.

Ancaq Azərbaycanda biz bunu bilirdik. Çünki Azərbaycan alimləri, Azərbaycan geoloqları hələ 50–60 il bundan öncə Xəzərin dərin sularında neft və qaz hasil etməyə başlamışlar. Ümumiyyətlə, dünyada ilk dəfə, 150 il bundan öncə məhz

Azərbaycanda sənaye üsulu ilə neft hasil olunubdur. Dünyada ilk dəfə məhz Azərbaycanda 50 il bundan öncə suyun dərinliklərindən neft hasil edilibdir. Biz bunları Azərbaycanda bilirdik və bununla məşğul olurduq.

Ancaq Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, özü öz sərvətlərinin sahibi olandan sonra bu sərvətlərdən daha geniş və səmərəli istifadə edilməsi üçün böyük addımlar atmağa başladı. Bu addımlardan birincisi, bunun əsasını qoyan 1994-cü ilin sentyabr ayında Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri», «Çıraq», «Günəşli» yataqlarının istifadə edilməsi barədə «Əsrin müqaviləsi» adlanan müqavilənin imzalanması oldu.

Yenə də deyirəm, biz o vaxt bu müqaviləni imzalayanda Xəzər dənizi haqqında dünyada kifayət qədər məlumat yox idi. Bu gün isə artıq aydındır ki, Xəzər dənizi öz karbohidrogen sərvətlərinin həcminə görə, ən azı Şimal dənizi ilə müqayisə edilə bilər.

Əgər Şimal dənizinin hasil edilə bilən qalıq ehtiyatları 2,2 milyard tona bərabərdirsə, Xəzər dənizinin yalnız «Azəri», «Çıraq», «Günəşli» yataqlarının təsdiq olunmuş, hasil edilə bilən neft ehtiyatları təqribən 730 milyon tondur. Bu ancaq həmin yataqlardadır. Azərbaycanda isə dünyanın müxtəlif şirkətləri ilə 20-dək müqavilə imzalanıbdır. Təbiidir, onların hamısı eynimiqyaslı deyil, fərqlidir. Amma əgər bunları cəmləsəniz, görəcəksiniz ki, Xəzər dənizinin təkcə Azərbaycan sektorunda nə qədər böyük imkanlar var.

Ancaq indi məlumdur ki, Xəzər dənizinin Qazaxıstan sektorunda da çox böyük neft və qaz yataqları var. Rusiya sektorunda böyük neft-qaz yataqları var, digər sektorlarda da

var. Beləliklə, biz 1994-cü ildən başlayaraq Xəzər dənizini dünyada təbliğ etdik, Xəzər dənizini tanıtdıq. Əgər yerin altından neft, qaz çıxarmaq və özü də böyük həcmdə çıxarmaq mümkündürsə, deməli, onu ixrac etmək, onu satmaq lazımdır. Bunun üçün də yollar araşdırılır. O zaman ilk dəfə Xəzər dənizindən müxtəlif neft kəmərlərinin çəkilməsi haqqında məsələlər meydana çıxdı.

Bu gün artıq məlumdur ki, biz 1997-ci ildə Xəzər dənizindən Qara dənizə Bakı–Novorossiysk neft kəməri çəkdik. Demək, Xəzər dənizini Qara dənizlə birləşdirdik. Ondan iki il sonra, 1999-cu ildə Xəzər dənizinin «Çıraq» yatağından çıxan neftin ixracını biz Novorossiysk kəməri ilə apara bilməzdik. Ona görə də biz ikinci bir kəmər, bu gün çox səmərəli işləyən neft kəməri, Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına kəmər çəkdik. Deyə bilərəm ki, 1999-cu ildən indiyə qədər bu neft kəməri ilə 20 milyon tondan artıq neft ixrac olunubdur və bu kəmər hələ gələcəkdə də böyük əhəmiyyətə malik olacaqdır.

Ancaq bunlar da bizi qane etmirdi. Biz Bakı–Tbilisi–Ceyhan neft kəməri haqqında hələ 1994-cü ildən düşünürdük. Amma o vaxtlar buna inanan çox az idi. Mane olanlar da çox idi və bu günə qədər də bəziləri hesab edirdilər ki, bu xəyaldır. Yaxud da deyirlər ki, Bakı–Tbilisi–Ceyhan boru xətti, neft kəməri ilə ixrac edilməsi üçün Xəzər dənizində yetərli qədər neft yoxdur. Onlara cavab verərək mən bu gün demək istəyirəm ki, 2010-cu ildə «Azəri», «Çıraq», «Günəşli» yataqlarından 50 milyon ton neft hasil olunacaqdır və bu da Bakı–Tbilisi–Ceyhan boru kəmərinin işləməsi üçün tamamilə bəsdir. Amma bir bu deyil, başqa yataqlar da var.

Burada məndən öncə çıxış edən dostlarım, cümhur başqanları söylədilər. Qazaxıstan, digər Xəzəryanı ölkələr də Bakı–Tbilisi–Ceyhan xəttindən istifadə edəcəklər. Artıq biz Bakı–Tbilisi–Ceyhan boru xəttinin inşasına başlamışıq. Güman edirəm ki, bu çox uğurla gedəcəkdir. Mən bildirirəm ki, 2005-ci ildə Bakı–Tbilisi–Ceyhan böyük ixrac neft kəmərinin inşası başa çatacaq və biz hamımız – bu gün buradakı konfransda iştirak edənlər, mənim dostlarım, cümhur başqanları birlikdə Türkiyənin Aralıq dənizində olan Ceyhan limanına gedib orada Xəzər dənizindən gələn neftin tankerlərə yüklənməsini görəcəyik.

Bütün bu işlər bu üç dənizin əfsanəsini yaratdı. Ona görə mən demək istəyirəm ki, beşinci dəfə keçirilən bu konfransın – üç dənizin əfsanəsinin bir anası var. Onun anası Xəzər dənizidir. Onun anasının da yanında duran Azərbaycandır.

Mən baxıram, vaxtilə təsəvvür etmək mümkün olmazdı ki, Xəzər dənizindən Qara dənizə gələcəyik və oradan da Aralıq dənizinə qədər gedəcəyik. İki min kilometr uzunluğunda böyük bir neft kəməri çəkilir. Bu, həqiqətən, əfsanədir.

Mən bu konfransın iştirakçılarına və onun təşkilatçılarına bildirmək istəyirəm ki, bu əfsanə hələ davam edəcək, inkişaf edəcəkdir. Hesab edirəm ki, Xəzər dənizinin yataqlarından hasil ediləcək neft və qaz – ya Azərbaycan sektoru olsun, ya Qazaxıstan sektoru olsun, yaxud başqa sektor olsun – hamısı ixrac olunacaqlar. Yeni boru kəmərləri tikiləcəkdir.

Məsələn, indi Azərbaycanın «Şahdəniz» yatağı ilə bağlı – hörmətli cümhur başqanı, əziz dostum Əhməd Necdət Sezər bu barədə çox gözəl dedi – biz artıq hər şeyi imzalamışıq, hazırlamışıq. Boru kəməri tikilir, oradan çıxan qaz birbaşa Türkiyəyə, Ərzuruma gələcəkdir. Amma bu, birinici nöqtədir. Biz belə hesab edirik ki, Xəzər dənizindən çıxan qaz bundan

sonra daha da uzağa, daha da irəliyə – Avropaya gedə bilər və gedə biləcəkdir. Çünki bizim imkanlarımız çoxdur.

Beləliklə, üç dənizin əfsanəsi həqiqətən böyük bir əfsanədir. Biz bu əfsanənin yaradılmasının iştirakçılarıyıq və bu əfsanəni reallığa çevirmişik. Artıq bu, əfsanə deyil, reallıqdır. Reallıq odur ki, Xəzər dənizindən neft və qaz hasil olur. Reallıq odur ki, Bakı–Novorossiysk, Bakı–Supsa neft kəmərləri işləyir. Reallıq odur ki, Bakı–Tbilisi –Ceyhan əsas neft ixrac kəmərinin inşası başlayıbdır. Reallıq odur ki, Bakı–Tbilisi – Ərzurum qaz kəmərinin inşası başlayıbdır. Bunlar gerçəklikdir. Bunlar reallıqdır.

Mən indi istəyirəm hörmətli dostlarıma təklif edəm ki, onlar yeni bir əfsanə üzərində düşünsünlər. Çünki artıq bunlar əfsanə deyil, bu günün reallıqlarıdır. Mən bu gün konfransda iştirak etməyimdən çox məmnunam. Hörmətli sədrlər, məni buraya dəvət etdiyinizə görə sizə təşəkkür edirəm. Burada mənim dostlarım – Türkiyə Cümhuriyyətinin başqanı hörmətli Əhməd Necdət Sezərə, Gürcüstanın başqanı hörmətli Eduard Şevardnadzeyə, Rumıniyanın cümhur başqanı hörmətli İon İliyeskuya, Ukraynanın başqanı hörmətli, çox gözəl bir insan Leonid Kuçmaya öz ehtiramımı bildirirəm. Çox məmnunam ki, biz bu gün səhərdən indiyə qədər heyətlərimizlə bərabər çox səmərəli işlər görmüşük.

Sağ olun, təşəkkür edirəm.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev iyunun 25-də axşam Atatürk hava limanına gəldi. Vətənə yola düşən Gürcüstan prezidenti Eduard Şevardnadze burada dövlətimizin başçısı ilə səmimiyyətlə sağollaşdı. Prezident Heydər Əliyev və həmin*

*vaxt yola düşməyə hazırlaşan Rumıniya prezidenti İon İliyesku respublikamızın rəhbəri haqqında çəkilmiş və o dəqiqələrdə Bakıdan yayımlanan «Bir həsrətin tarixi» filminə baxdılar.*

*Daha sonra prezident Heydər Əliyev və onu müşayiət edən şəxslər Ankaraya yola düşdülər.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev iyunun 25-də gecə Ankaraya gəldi. Dövlətimizin başçısını Esenboğa hava limanında Türkiyə hökumətinin yüksək vəzifəli şəxsləri, Ankara valisi Yəhya Gur, millət vəkilləri, dünya şöhrətli alim, Azərbaycan–Türkiyə Dostluq və Əməkdaşlıq Fondunun sədri, professor İhsan Doğramacı böyük səmimiyyətlə qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİNİN ŞƏXSİ HEYƏTİNƏ

Əziz əsgərlər, generallar, zabitlər, çavuşlar, matroslar və miçmanlar!

Silahlı qüvvələrin veteranları!

Sizi xalqımızın və dövlətimizin həyatında, hər bir azərbaycanlının taleyində əlamətdar bayram olan Azərbaycan Respublikası Silahlı Qüvvələri günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət, dövlətimizin suverenliyi və ərazi bütövlüyünün təmin edilməsi kimi müqəddəs vəzifənin yerinə yetirilməsində böyük uğurlar arzulayıram.

26 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası ilk milli ordu hissəsi olan Əlahiddə Azərbaycan Korpusunun yaradılması haqqında qərar qəbul etmişdi. Bu qərar müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaranması üçün hüquqi əsas oldu. O zaman qısa müddət ərzində formalaşdırılan Azərbaycan ordusu özünün yüksək hərbi hazırlığı, intizamı, şəxsi heyətin vətənpərvərliyi, generalların və zabitlərin peşəkarlığı ilə fərqlənmiş, gənc Azərbaycan dövlətinin müdafiəsi üçün mühüm işlər görmüşdür.

XX əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələri məhz Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun layiqli varisidir. Azərbaycan rəhbərliyinin iradəsi, xalqımızın vətənpərvərliyi və

dönməzliyi sayəsində 1993-cü ilin noyabrından başlayaraq yenidən qurulmuş və mətinləşmiş Silahlı Qüvvələrimiz tariximizin şərəfli səhifələrinə, xalqımızın ona göstərdiyi ümid və etimada layiq olduğunu sübut etmişdir.

Azərbaycan ordusu bu gün müasir hərbi texnika ilə təmin edilmiş, etibarlı bir surətdə idarə olunan, müasir hərb elminin tələblərinə və ordu quruculuğu prinsiplərinə uyğun formalaşmış Silahlı Qüvvələrə çevrilmişdir. Bu gün Azərbaycan ordusu dövlətimizə və xalqımıza qəsd edən istənilən düşmənə sarsıdıcı zərbə vurmaq gücünə malikdir.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə, kompromislər əsasında həll etməyə çalışırıq. Lakin bu sülh danışıqlarını apararkən, eyni zamanda daim öz hərbi potensialımızı, müdafiə qabiliyyətimizi gücləndirməliyik. Silahlı Qüvvələrimiz nə qədər güclü olsa, sülh danışıqlarında bizim mövqeyimiz bir o qədər möhkəm olar, ədalətli sülh əldə etmək imkanı bir o qədər artar.

Bu bayram günündə bir daha bəyan edirəm ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük bir iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır. Azərbaycan ordusu Azərbaycan xalqının, bütün dövlət orqanlarının, vətəndaşlarının diqqəti və qayğısı ilə əhatə olunmalıdır.

Azərbaycan torpaqlarının müdafiəsi yolunda şəhid olmuş vətəndaşlarımızın xatirəsini bu bayram günündə hörmət və minnətdarlıq hissi ilə yad edir, onlara Allahdan rəhmət diləyirəm.

Sizin hamınızı bir daha təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür və qələbə sevincləri arzulayıram.

Yaşasın qəhrəman və vətənpərvər Azərbaycan əsgəri!

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**

*25 iyun 2002-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ ANKARADAKI SƏFİRLİYİ ÜÇÜN TİKİLMİŞ BİNANIN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*26 iyun 2002-ci il*

*İyunun 26-da Azərbaycan Respublikasının Ankaradakı səfirliyi üçün tikilmiş binanın təntənəli açılış mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev və Türkiyə prezidenti Əhməd Necdət Sezər ölkəmizin Ankaradakı səfirliyinin tikintisi yenicə başa çatmış binasına gəldilər. Binanın qarşısındakı meydanda dövlət başçılarının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Hərbi orkestr Türkiyə Cümhuriyyətinin dövlət himnini ifa etdi. Azərbaycanın dövlət himninin sədaları altında ölkəmizin üçrəngli bayrağı qaldırıldı.*

*Dövlət başçıları səfirliyin yeni binasının açılışını bildirən qırmızı lenti kəsdilər. Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər müasir tipli binanın foyesində Azərbaycanın qardaş ölkədə ilk səfiri olmuş İbrahim Əbilovun portreti önündə ayaq saxladılar, onun böyük elçi təyin edilməsi haqqında etimadnamə ilə maraqla tanış oldular.*

*Sonra səfirliyin böyük salonunda təntənəli mərasim keçirildi. Salona toplaşanlar prezident Heydər Əliyevi və prezident Əhməd Necdət Sezəri sürəkli alqışlarla qarşıladılar.*

*Türkiyə prezidenti Əhməd Necdət Sezər və Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə çıxış etdilər.*

## Türkiyə prezidenti Əhməd Necdət Sezərin çıxışı

Hörmətli Cumhur başqanı!

Dəyərli qonaqlar!

Dostumuz, çox hörmətli cənab Heydər Əliyev ilə birlikdə Azərbaycan böyük elçiliyinin yeni binasının açılışında iştirak etməkdən böyük məmnuniyyət hissi duyuram.

Azərbaycan ilə Türkiyə günü tarixi dil və mədəni bağlarından alan qardaş və dost ölkələrdir. Azərbaycan müstəqillik qazandıqdan sonra hər sahədə əlaqələrimiz inkişaf etmişdir. Qarşıdakı illərdə də Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin hər sahədə daha da inkişaf edib güclənəcəyinə heç bir şübhəm yoxdur.

Əlbəttə, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin daha da güclənib möhkəmlənməsində hər iki ölkənin paytaxtında yerləşən böyük elçiliklərin rolu mühüm olmuşdur. İnanıram ki, bu yeni binadan sonra Azərbaycan böyük elçiliyinin Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf edib möhkəmləndirilməsi sahəsindəki fəaliyyəti artacaqdır.

Bu fürsətdən istifadə edərək bildirirəm ki, yeni binanın Ankarada təmsil olunan digər ölkələrin səfirlikləri ilə bərabər diplomatik hissədə yerləşməsindən böyük sevinc hissi duyuram. Bu binanın xeyirli, uğurlu olmasını diləyir, hamınıza hörmət və ehtiramımı bildirirəm.

## Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı

Türkiyə Cümhuriyyətinin prezidenti əziz dostum, hörmətli Əhməd Necdət Sezər!

Hörmətli dostlar, qardaşlar, xanımlar və cənablar!

Sizin hamınızı Azərbaycan Respublikasının Türkiyədə, Ankarada səfirlik binasının açılması münasibətilə təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu gözəl bina Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin daha sürətlə inkişaf etməsində və Ankarada Azərbaycanın xarici siyasətinin təbliğ olunmasında, başqa diplomatik missiyalar ilə əlaqələr qurmasında böyük uğurlar gətirəcəkdir.

Bilməlisiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən anda onun müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. Türkiyə Cümhuriyyəti o andan Azərbaycanla həmişə bir olmuş, gənc müstəqil bir dövlət kimi, Azərbaycana addım atmaq, yerimək, yaşamaq, inkişaf etmək sahəsində lazım olan bütün işlərdə öz yardımını göstərmişdir və göstərir. İndi bizim dünyanın bir çox ölkələrində səfirliklərimiz var. Ancaq sizə açıq deyim, biz gənc dövlətik, o qədər də vəsaitimiz yoxdur. Ona görə də bir çox ölkələrdə biz hələ də daimi səfirliyimizi aça bilməmişik. Bu səbəbdən də biz öz diplomatik fəaliyyətimizi həyata keçirmək üçün bəzi dövlətlərin, o cümlədən Türkiyənin ayrı-ayrı ölkələrdəki səfirliklərindən istifadə edirik.

Bu, xaricdə birinci səfirlik binasıdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tikib, inşa edib və bu gün biz açılışa toplaşmışıq. Ona görə bu bizim üçün böyük hadisədir. Ümid edirəm ki, gələcək illərdə Azərbaycan səfirlikləri olan bütün ölkələrdə öz binalarını tikəcəkdir. Ancaq Azərbaycanın Türkiyədəki, Ankaradakı səfirliyinin binası yenə də birincidir. Necə ki, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkədir, eləcə də Azərbaycanın xarici ölkələrdəki səfirliyinin birincisi Ankaradadır.

Mən bizim qardaş, dost Türkiyə Cümhuriyyətinin hökumətinə, dövlətinə və bizə bu işdə yardım edənlərin hamısına

təşəkkür edirəm. Eyni zamanda, bu gün buraya toplaşmış bizim dostlarımıza da çox təşəkkür edirəm. Mən çox məmnunam ki, bu hadisə münasibətilə Türkiyə Cümhuriyyətinin prezidenti başda olmaqla, Baş nazirin müavini hörmətli Dövlət Baxçalı, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, başqa nazirlər, millət vəkilləri və çox tanınmış digər şəxslər də buradadırlar. Biz bunun əhəmiyyətini anlayırıq. Bu, sadəcə, gəlib bu binanı görmək, ya da bu mərasimdə iştirak etmək deyildir. Bu, Türkiyənin bütün dövlət orqanlarının hamısının Azərbaycana olan dostluq, qardaşlıq münasibətinin təzahürüdür. Mən bunlara görə də sizə təşəkkür edirəm.

Biz buraya, bu binaya daxil olanda divarda Azərbaycanın Türkiyədə ilk səfiri, elçisi işləmiş İbrahim Əbilovun portretini gördük və burada, Türkiyədə səfir təyin olunması ilə əlaqədar ona verilmiş etimadnaməni gördük. Burada bir cəhətə fikir vermək istəyirəm.

Azərbaycan ilk dəfə 1918-ci ildə öz müstəqilliyini elan etdi, Azərbaycanda Xalq Cümhuriyyəti yarandı. Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərdi və bu, Şərq aləmində, müsəlman aləmində ilk demokratik respublika idi. Ancaq o vaxt Sovet Rusiyasının ordusu Qafqaza gəldi və Azərbaycanın ilk müstəqil dövlətini dağıtdı. Ondan sonra Azərbaycanda sovet hakimiyyəti yarandı. Amma sovet hakimiyyəti yaranan zaman ilk iki ildə sosialist-kommunist ideologiyası ilə yaşayan insanlar, bəlkə də o ideologiya ilə yaşamayan, amma buna məcbur olanlar Azərbaycanı müstəqil saxlamaq istəyirdilər. Artıq 1921-ci ildə Azərbaycanda sovet hakimiyyəti var idi. Sovet hakimiyyəti vaxtı yeganə səfir İbrahim Əbilov Azərbaycan Respublikasından Türkiyəyə göndərilibdir.

Tarixçilər bunu yaxşı bilir. Bu barədə çox böyük kitablar yazılıbdır ki, İbrahim Əbilov Mustafa Kamal Atatürkün

yaxın dostu olubdur, onunla çox yaxşı əməkdaşlıq edibdir və hələ o vaxt Azərbaycanın Türkiyə ilə əlaqələrini yaratmağa çalışıblar. Təbii ki, sonrakı dövrdə bunlar pozulubdur. Ancaq illər keçdi, on illər keçdi 1991-ci ildə Sovetlər İttifaqı dağıldı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi və indi 11-ci ildir ki, Azərbaycan xalqı öz müstəqil dövlətində yaşayır, öz taleyinin sahibidir, öz torpaqlarının sahibidir.

İndi gənc dövlət kimi, bizim problemlərimiz var, onları həll edirik. Ancaq uğurlarımız da var. Mənim əziz dostum, hörmətli cumhur başqanı Əhməd Necdət Sezərin təşəbbüsü və onun başçılığı ilə dünən İstanbulda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşü çox yüksək nəticələr verdi. Beş ildir ki, «Üç dənizin əfsanəsi» konfransı, Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi haqqında konfrans keçirilir və biz yenə də hörmətli dostum Əhməd Necdət Sezərin başçılığı ilə o konfransda iştirak etdik, istədiyimiz sözləri dedik.

Bildirdik ki, əgər beş il, yaxud on il bundan öncə Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi – siz ona Ağ dəniz deyirsiniz – ölkələrinin əlaqələri əfsanə idisə, indi bu, əfsanə deyildir. Azərbaycanın, Türkiyənin və Gürcüstanın apardığı böyük işlər nəticəsində Azərbaycanda hasil olan neft, özü də böyük miqdarda hasil olan neft iki boru ilə ixrac edilir. Bakı– Novorossiysk Qara dənizə çıxır, tankerlər yenə də Bosfor boğazından keçir. Bakı–Supsa Gürcüstan limanına gedir. Oradan tankerlər yenə də Qara dənizdən, Bosfor boğazından keçir. Ancaq ən böyük layihə Bakı–Tbilisi–Ceyhan layihəsidir.

Biz 1994-cü ildən bu layihənin həyata keçirilməsi üçün çalışırdıq və bu gün də çalışırıq. Ancaq indi bu reallıqdır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac kəmərinin inşasına başlanır. İnşaat işləri 2005-ci ildə qurtaracaq. İki min kilometrdən artıq boru xətti Xəzər dənizindən Aralıq dənizinə, Ceyhana uza-

nacaq, Xəzər nefti, Azərbaycan nefti Aralıq dənizinə, Ağ dənizə axacaq və biz o günü də görəcəyik. Mən dünən bunu dedim, bu gün də əziz dostum Əhməd Necdət Sezərin hüzurunda deyirəm ki, biz o vaxt sizinlə birlikdə və digər cumhur başqanları ilə oraya, Ceyhana gedəcəyik və bu işin bitməsini bayram edəcəyik.

Mən bununla onu demək istədim ki, bizim problemlərimiz çoxdur. Biz bəzən çox çətin problemlərlə məşğuluq. Məsələn, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə. Ermənilər torpaqlarımızın 20 faizini işğal ediblər. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı zorla çıxarılıb, on ildir çadırlarda yaşayırlar. Təsəvvür edin, 8-9 il bundan öncə çadırda doğulmuş uşağın doğum yeri çadırdır, səhradır. Bizim belə bir ağır problemimiz var.

Ermənistan ilə sülh danışıqları aparırıq. Amma onlar vaxtilə müəyyən səbəblərdən Azərbaycan torpaqlarını işğal etdiklərinə görə, üstünlüklər əldə etdiklərinə görə və bəzi dünya dairələrində erməni lobbiləri tərəfindən dəstək aldıqlarına görə konstruktiv mövqe tutmurlar və biz məsələnin sülh yolu ilə həllinə nail ola bilmirik. Bu bizim ən böyük problemimizdir. Amma bunu da həll edəcəyik, digər problemləri də həll edəcəyik.

Mən bunları deyərkən həmişə düşünürəm ki, Türkiyə Cümhuriyyəti ilə əbədi, sarsılmaz dostluğumuz, qardaşlığımız bütün bu problemlərin həll olunmasında bizim üçün böyük bir dayaqdır. Bunlara görə mən bir daha təşəkkür edirəm. Sizin hamınıza cansağlığı arzu edirəm. Qardaş türk xalqına, Türkiyə Cümhuriyyətinə yeni-yeni uğurlar arzulayıram.

Futbol haqqında demişəm, bu gün Türkiyə futbolçuları qazanacaq, ondan sonra Almaniya ilə finalda oynayacaq və finalda qazanacaqdır. Mən bunu istəyirəm.

Səfirliyə xatirə olaraq bir rəsm əsəri verirəm. Götürün, burada yerləşdirin. Sağ olun, təşəkkür edirəm.

* * *

*Sonra həmyerlimiz Sərvər Qəniyevin dirijorluğu ilə Bilkənd Universiteti kamera orkestrinin konserti oldu.*

*Mərasimdə Türkiyə Baş nazirinin müavini, dövlət naziri Dövlət Baxçalı, Müdafiə naziri Sabahəddin Çaxmaqoğlu, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlu, millət vəkilləri, xarici ölkələrin Ankarada akkreditə olunmuş səfirləri və digər rəsmi şəxslər iştirak edirdilər.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*26 iyun 2002-ci il*

## Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev həmin gün Türkiyə paytaxtının Oran diplomatik şəhərciyində Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısı mərkəzin açılışını bildirən lenti kəsdi, burada çalışanlara işlərində uğurlar dilədi. Mərkəzin sədri, tanınmış türk alimi, professor Yüksəl Bozər çıxış edərək, respublikamızın rəhbərinin mərasimdə iştirakından böyük şərəf duyduğunu bildirdi, görüləcək işlər barədə ətraflı məlumat verdi.*

*Sonra Azərbaycan prezidenti Heydər Əliyevə xatirə hədiyyəsi təqdim olundu.*

*Mərasimdə Türkiyə Baş nazirinin müavini, dövlət naziri Dövlət Baxçalı və digər rəsmi şəxslər iştirak edirdilər.*

## Bakı küçəsinin açılışı

*İyunun 26-da Ankarada Bakı küçəsinin açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə iştirak edirdi. Dövlətimizin başçısının buraya gəlişi hərarətli alqışlarla qarşılandı. Ankara Böyük Şəhər Bələdiyyəsinin başçısı Məlik Qökçək Azər-*

*baycan paytaxtının adını daşıyan küçənin yaxın gələcəkdə Oran diplomatik şəhərciyinin ən gözəl guşələrindən birinə çevriləcəyini bildirdi və respublikamızın rəhbərinə müraciətlə dedi:*

Hörmətli cümhur başqanı Heydər Əliyev!

Qardaş Azərbaycanın paytaxtı Bakı şəhərini Ankarada yaşatmaq üçün Ankara Böyük Şəhər Bələdiyyəsi Məclisinin 2001-ci il noyabrın 30-dakı qərarı ilə bu küçəyə Bakının adını verdik. İnşallah, bir azdan hörmətli cümhur başqanımızın açacağı küçəmizin Azərbaycan–Türkiyə dostluğunun rəmzi kimi qalacağına inanıram.

*Azərbaycan prezidenti Heydər Əliyev və Ankara Böyük Şəhər Bələdiyyəsinin başçısı Məlik Qökçək yeni küçənin açılışını bildirən qırmızı lenti kəsdilər, «Bakı küçəsi» sözləri yazılmış lövhənin üzərindən örtüyü götürdülər.*

**Heydər Əliyev:** Mən çox məmnunam ki, burada, Ankaranın bu gözəl güşəsində Azərbaycanın paytaxtı olan Bakı şəhərinin adını daşıyan yeni bir küçə açılır. Mən buna görə Türkiyə Cümhuriyyətinə, onun Ankaradakı bələdiyyəsinə və bütün bu işdə öz qeyrətlərini göstərmiş insanlara təşəkkür edirəm. Ümidvaram ki, küçənin bu adı Türkiyə–Azərbaycan dostluğunun daha da inkişaf etməsinə yardım edəcəkdir. Təbrik edirəm.

* * *

*Mərasimdə Türkiyə Baş nazirinin müavini, dövlət naziri Dövlət Baxçalı, Müdafiə naziri Sabahəddin Çaxmaqoğlu, millət vəkilləri, professor İhsan Doğramacı və digər rəsmi şəxslər iştirak edirdilər.*

# BİLKƏND UNİVERSİTETİNDƏ İHSAN DOĞRAMACININ ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*26 iyun 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev xalqımızın yaxın dostu, Türkiyə–Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun sədri, dünya şöhrətli alim İhsan Doğramacının heykəlinin açılışı mərasimində iştirak etmək üçün iyunun 26-da Bilkənd Universitetinə gəldi. Burada dövlətimizin başçısını universitetin yaradıcısı professor İhsan Doğramacı, Türkiyənin dövlət nazirləri Rəcəb Ünal, Şüayib Üşənməz, Bilkənd Universitetinin rektoru Əli Doğramacı və digər rəsmi şəxslər səmimiyyətlə, mehribanlıqla qarşıladılar. Ali təhsil ocağının qarşısındakı meydana toplaşmış millət vəkilləri, Türkiyə ictimaiyyətinin nümayəndələri, universitetin professor-müəllim heyəti, tələbələr Azərbaycan prezidenti Heydər Əliyevi hərarətlə, sürəkli alqışlarla salamladılar.*

*Hər iki ölkənin dövlət himnləri səsləndi.*

*Mərasimi ölkəmizin Türkiyədəki səfiri Məmməd Əliyev açdı, sonra Bilkənd Universitetinin rektoru Əli Doğramacıya söz verildi.*

*Daha sonra dünya şöhrətli alim, professor İhsan Doğramacı onun heykəlinin hazırlanması və yaradıcısı olduğu universitetin qarşısındakı meydanda ucaldılması üçün göstərdiyi köməyə, diqqət və qayğıya görə Azərbaycan prezidenti, görkəmli dövlət xa-*

*dimi, türk dünyasının böyük oğlu, əziz dostu Heydər Əliyevə dərin minnətdarlığını, təşəkkürünü bildirdi.*

*Türkiyənin dövlət nazirləri Rəcəb Ünal və Şüayib Üşənməz öz çıxışlarında böyük alim İhsan Doğramacının Türkiyədə elmin, təhsilin inkişafındakı əvəzsiz xidmətlərindən danışdılar, prezident Heydər Əliyevin təşəbbüsünün bütün türk dünyasında rəğbətlə qarşılandığını vurğuladılar.*

*Azərbaycan prezidenti Heydər Əliyev heykəlin açılışını bildirən qırmızı lenti kəsdi, görkəmli heykəltəraş, Xalq rəssamı, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovun bu əsərini yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Heydər Əliyev mərasimdə geniş nitq söylədi.*

**Heydər Əliyev:** Əziz dostum, qardaşım İhsan Doğramacı!

Hörmətli nazirlər, millət vəkilləri, rektorlar, professorlar, tələbələr!

Xanımlar və cənablar!

Mən sizi Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından səmimi-qəlbdən salamlayıram və sizə, sizin simanızda qardaş türk xalqına Azərbaycan xalqının ən dərin sevgisini və məhəbbətini çatdırıram.

Mən üçüncü gündür ki, Türkiyədəyəm və həm beynəlxalq xarakterli, həm də dövlətlərimizə aid olan bir çox məsələlərlə məşğul oluram. Biz dünən Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərlə və digər ölkələrin prezidentləri ilə Qara Dəniz İşbirliyi Təşkilatının onuncu ildönümünü qeyd etdik və təşkilatımızın qarşısında duran gələcək vəzifələr haqqında danışdıq. Sonra 5 il davamlı olaraq İstanbulda keçirilən «Üç dənizin əfsanəsi» – Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi –

konfransında iştirak etdik. Bir neçə ikitərəfli görüşlər keçirdik və axşam Ankaraya gəldim. Bu gün də Ankara proqramının birinci günü, birinci saatıdır. Bu saat da mənim üçün, Azərbaycan xalqı üçün və əmin ola bilərəm ki, bütün türk xalqı üçün, Türkiyə üçün çox əhəmiyyətli olan bir hadisəyə həsr edilmişdir. Bu hadisə də dünyada artıq məşhur olan bizim Bilkənd Universitetindəki bu gözəl görüşdür, gözəl mərasimdir.

Mən Bilkənd Universitetində keçmiş illərdə də olmuşam. Hər dəfə Bilkənd Universitetinə gələrkən, burada görüşlər keçirərkən bu universitetin böyük sürətlə inkişaf etdiyini, genişləndiyini görmüşəm. Bu gün yenə də buraları tanımıram. Tanıyıram, yəni inana bilmirəm ki, belə qısa bir zamanda burada bu qədər böyük işlər görülübdür və Bilkənd Universiteti böyük elm mərkəzi, böyük təhsil mərkəzi olaraq inkişaf edir. Mən görürəm ki, Bilkənd Universitetinin professorları, müəllimləri, tələbələri Türkiyənin çox dəyərli insanları ilə bərabər bu mərasimə toplaşıblar. Ona görə də mən Bilkənd Universitetinə, onun tələbələrinə, müəllimlərinə, burada çalışan bütün insanlara öz hörmət və ehtiramımı bildirirəm. İnanıram ki, Bilkənd Universiteti bundan sonra daha da sürətlə inkişaf edəcəkdir və İhsan Doğramacının burada, bu torpaqda saldığı toxumlar əsrlər boyu böyük çinarlar kimi yüksəlib səmaya qalxacaqlar.

Əziz dostum İhsan Doğramacı haqqında burada gözəl sözlər deyildi. Mən də onun haqqında az sözlər deməmişəm. Ancaq fərq ondadır ki, burada nitq söyləyənlərin hamısı İhsan Doğramacını on illərlə tanıyırlar, onunla bir yerdə çalışıblar, yaxud da ki, təhsil alıblar. Ancaq mən isə İhsan Doğramacı ilə ilk dəfə cəmi on il bundan öncə tanış olmuşam.

Azərbaycan hələ müstəqillik almamışdı. O dövrdə mən Moskvada bütün yüksək vəzifələrdən kənarlaşdırılandan son-

ra və çox böyük təzyiqlər altında olduğuma görə doğulduğum torpağa – vətənim Naxçıvana getdim. Orada yaşayırdım və oradan ilk dəfə mən Naxçıvan Özəl Cümhuriyyətinin, yəni Muxtar Cümhuriyyətinin rəhbəri kimi, Ankaraya gəldim və ilk dəfə İhsan Doğramacının universitetində – Bilkənddə də oldum, ilk dəfə onu gördüm. Ancaq o məni elə qarşıladı – Azərbaycanın tarixi haqqında, xalqı haqqında, Naxçıvan haqqında, Azərbaycanın başqa bölgələri haqqında mənimlə elə söhbətlər etdi, elə dərin bilgilər nümayiş etdirdi ki, mən heyran oldum. Bilirsiniz ki, mən də çocuq deyiləm. Bizim yaşımızla İhsan Doğramacının yaşı arasında o qədər böyük fərq yoxdur. Mənim yaşım onunkundan bir qədər  azdır. Ancaq ola bilər ki, həyatım onunkundan daha da gərgin olub, daha da qarışıqlı olubdur. Ona görə mən də dünyanı bilirəm, insanları tanıyıram, hər şeyi bilirəm. Azərbaycanda olan insanları tanıyıram. Digər yerlərdə Azərbaycanı tanıyan insanlarla da çox görüşlərim, söhbətlərim olmuşdur. Ancaq İhsan Doğramacının Azərbaycan haqqında bilgiləri məni heyran etdi. Əlbəttə, alimdə bilgi olur, buna görə də alimdir, onun vəzifəsi odur ki, öyrənsin, oxusun, kitablar yazsın. Ancaq məni heyran edən təkcə bu bilgi deyildi, onun qəlbində olan duyğulardı, qəlbində olan sevgi, məhəbbət idi. Özü də təkcə bir Azərbaycana yox, təkcə Azərbaycan xalqına yox, bütün türk dünyasına, bütün türkdilli xalqlara olan sevgi, məhəbbət idi. Mən gördüm ki, hər şeyi nə qədər gözəl bilir və keçmişdə burada nə qədər xidmətlər göstərib və indi də, artıq bizim ölkələrimiz müstəqillik əldə edəndən sonra da göstərmək istəyir.

Mən sizin vaxtınızı bəlkə bir az alıram, amma sizin üçün nə fərqi var, gözəl bir yerdə oturmusunuz. Gedib orada, kafedrada işləməkdənsə, burada oturub söhbət etmək yaxşıdır. Ondan sonra İhsan Doğramacı ilə mənim aramda belə qeyri-

adi dostluq yarandı. Güman edirəm, heç onun da iradəsindən, mənim də iradəmdən asılı olmayan, ancaq içimizdən gələn hissiyyatlar göstərdi ki, biz sanki, yüz ildir dostuq, bir-birimizi tanıyırıq.

İhsan Doğramacının çox böyük xüsusiyyətləri var. Məsələn, Azərbaycanda ləhcələr var – Bakı ləhcəsi, Naxçıvan ləhcəsi, Gəncə ləhcəsi, Qarabağ ləhcəsi, başqa yerin ləhcəsi…

Bu ləhcələrin hamısını bilir. Bizim adamların çoxu bunu bilmir. Mən sizə deyim, mən dilçi deyiləm, linqvist deyiləm. Ancaq mən də, hər halda, bilgili adamam. Amma bunları mən də onun qədər bilmirəm.

Bizim dilimiz birdir axı, türk dili, Azərbaycan dili eyni dildir. Yəqin ki, siz məni tam anlayırsınız. Elədirmi? Azərbaycanda biz keçmişdə türk dilini çox sevdiyimizə görə, amma türklərlə bir təmasımız, yəni danışığımız olmadığına görə, insanlar hansısa bir türklə görüşəndə onunla bir neçə kəlmə türk dilində danışmaq istəyirlər. Məsələn, biz «gəlirəm» deyirik, türklər isə «gəliyorum», «gediyorum» deyirlər.

Biz Türkiyə ilə yenidən tanış olanda mən də bir-iki belə kəlmə işlətdim ki, hiss etsinlər, mən türk dilini də bilirəm. O mənə dedi ki, belə deyil, bunu Naxçıvanda bu cür deyirlər, Bakıda belə deyirlər, Gəncədə belə deyirlər. Anadolu Türkiyəsində belə deyirlər, Türkiyənin doğusunda belə deyirlər, batıda – İstanbulda belə deyirlər. Dedim bəli, doğudakı dil çox aydındır, amma İstanbuldakı ləhcəni siz bir az korlamısınız, o qədər yaxşı deyil.

Mən bir dəfə söhbət edirdim. Dedim ki, məsələn, biz, mənim kimi yaşlı adamlar İhsan Doğramacı ilə, başqa yaşlı adamlarla danışanda bir-birimizi yüz faiz başa düşürük. Türk dilində, Azərbaycan dilində bu sözlər dəyişilməyibdir. Amma türk dilində bir-iki islahatlar keçirilibdir, ona görə də bəzi

sözlər dəyişilibdir, daha çox Avropa sözləri götürülübdür. Məsələn, «siyasət» sözü var, onu «politika» etmisiniz. «Siyasət» yaxşı bir sözdür. Nə fərqi var, «siyasət» ərəb sözüdür, «politika» Avropa sözüdür. Bu öz işinizdir. Amma bir dəfə zarafat edəndə dedim ki, bilirsənmi nə üçün belə olubdur? Dedi ki, nə üçün? Dedim, çünki sizdə dil islahatı keçiriləndə islahatınızın qurum genel başqanı erməni olmuşdur – Akop Dilaçar. Onu tanıyırsınızmı? Görürəm tanımırsınız. Amma o tanıyır. Erməni Akop özünü türk kimi qələmə vermək üçün də deyibdir ki, Akop Dilaçar. O, islahat keçiribdir. Bu tarixdən çox danışmaq olar.

İhsan Doğramacını mən çox sevdim. Təkcə mən yox, Azərbaycana dəvət etdim, gəldi, bizim xalqımız, millətimiz onu sevdi. Təsadüfi deyildir ki, İhsan Doğramacının 80 illik yubileyini biz Azərbaycanın böyük bir teatrında – Opera və Balet Teatrı, 1911-ci ildə Bakıda Avropa üslubunda tikilmiş teatrdır – birlikdə, təntənəli şəkildə keçirdik. Mən onu «Şöhrət» ordeni ilə təltif etdim. Sonra, gələcək nədir? Bildirdim ki, 85 illik yubileyinizi Azərbaycanda qeyd edəcəyik, ondan sonra 90 illik yubileyinizi, daha sonra 100 illik yubileyinizi edəcəyik. Özü də yubileyi mən edəcəyəm. 85 illik yubileyini etdik. İndi 87 illiyində də heykəl açırıq, doxsana bir şey qalmayıb ki… Papağını fırladacaqsan, bir də görəcəksən ki, üç il keçdi, İhsan Doğramacının 90-cı ili də gəldi. Mən buna əminəm. Çünki deyə bilərəm ki, mən on il bundan əvvəl gördüyüm İhsan Doğramacı ilə indikinin heç bir fərqi yoxdur. Onun çox gözəl səhhəti var, özünü gözəl saxlayır.

Mən bir neçə kəlmə onun şəxsiyyəti haqqında demək istəyirəm. İhsan Doğramacı, hesab edirəm ki, türk dünyasının ən nadir şəxsiyyətlərindən biridir. Bəlkə də İhsan Doğramacı o qədər də siyasət adamı deyildir. Ancaq elm adamı kimi,

insanlara təhsil vermək, məktəblər açmaq, universitet açmaq və xalqı inkişaf etdirmək – bu hər bir siyasətin əsas məqsədidir. Biz, siyasət adamlarının proqramı nədir?

İqtisadiyyatı inkişaf etdirmək ki, insanlar yaxşı yaşasın, bilik, təhsil alsınlar.

Türkiyə Cümhuriyyətinin tarixi bizə çox məlumdur. Bu gün biz Türkiyə Cümhuriyyətinin qurucusu, böyük öndər Mustafa Kamal Atatürkü mütləq dərin minnətdarlıq hissi ilə yad etməliyik. Çünki məlumdur ki, Osmanlı imperatorluğu dağıldığı zaman, ayrı-ayrı ölkələr Türkiyəni hər tərəfdən dağıtmağa çalışan zaman Mustafa Kamal Atatürk kimi bir şəxs meydana çıxdı və türk xalqını fəlakətlərdən xilas etdi. Bu, böyük fəaliyyət idi, böyük xidmət idi. Ancaq təkcə bu olsaydı, bəlkə də az olardı. Ondan sonra cümhuriyyətin qurulmasını, onun inkişaf etməsini təmin etdi. Osmanlı qanun-qaydasından sonra Türkiyədə dünyəvi, demokratik, Avropa tipli dövlət qurmaq – həddən ziyadə çətin bir iş idi. Amma böyük Mustafa Atatürk və onun silahdaşları, ona sadiq olan insanlar, sonra isə onun işinin davamçıları bunun öhdəsindən gəldilər. O vaxt Türkiyədə insanların tam əksəriyyəti savadsız idi. Məktəb, təhsil, bilik lazım idi. Düşünürəm ki, əgər səhv etmirəmsə, İstanbul Universitetindən savayı, Türkiyədə başqa universitet yox idi. Bilmirəm, doğru deyirəm, yoxsa yox? Təkcə İstanbul Universiteti idi, başqa universitet yox idi. Ancaq sonrakı dövr nəyə gətirib çıxardı? İndi Türkiyədə universitetlərin sayı nə qədərdir, bilmirəm. Amma iş onun sayında deyil, ondadır ki, hər bir universitetdə Türkiyə gəncləri, türk millətinin gələcəyi təhsil, bilik alır və ölkənin dünya ölkələri ilə ayaqlaşmasına, yəni, onlarla bərabər inkişaf etməsinə şərait yaratmaq üçün əsas yaranır. Buna görə də İhsan Doğramacının fəaliyyətini qiymətləndirəndə biz onun elm,

təhsil, bilik, səhiyyə sahələrində xüsusi xidmətlərini qeyd etməliyik. Onun ictimai fəaliyyətini xüsusi qiymətləndirməliyik.

İhsan Doğramacı Türkiyədə hər yerdə tanınan, hər yerdə sevilən bir insandır. Bunun üçün gərək sənin gözəlliyin, yaxud da ki, başqa bir keyfiyyətin yox, gərək çox keyfiyyətlərin olsun ki, onlara görə xalq səni qəbul etsin. Ola bilər ki, dövlət qəbul etsin, ancaq xalq qəbul etməsin. İhsan Doğramacını xalq türk millətinin, türk dünyasının dəyərli bir insanı, nadir şəxsiyyəti kimi tanıyır, hörmət edir və bundan sonra da ona hörmət edəcəkdir.

Mən Bilkənd Universiteti ilə tanış olanda bir də nəyi gördüm? Universitet yeni yaranmışdı, amma gördüm ki, Azərbaycandan burada nə qədər professorlar, alimlər, sənətçilər var. Mən məəttəl qaldım. Təkcə Azərbaycandan deyil, digər xarici ölkələrdən də gələnlər vardı. Güman edirəm, etiraf edərsiniz ki, Azərbaycanda elm, təhsil çox inkişaf etmişdir. Bizim ali təhsilimiz çox yüksək olmuşdur, çox dəyərli professorlarımız, alimlərimiz var. Onların bir qismini İhsan Doğramacı buraya gətirdi. Onlar burada o qədər gözəl şərait, münasibət gördülər ki, artıq heç Azərbaycana dönmək istəmirdilər. Deyirdilər ki, biz sona qədər elə İhsan Doğramacı ilə bir yerdə olacağıq. Yəni, o bilirdi, haradan nə götürmək, nə etmək lazımdır ki, Bilkənd Universiteti təkcə Türkiyənin içərisindən yox, beynəlxalq aləmdən, hər ölkədən faydalansın.

Gedirsən bağa, orada gözəl bir meyvə görürsən, dərib götürürsən, keçirsən o biri bağa, orada da çox meyvə var, amma ən gözəlini dərib götürürsən, o birisini dərib götürürsən, sonra görürsən ki, torban doludur, hamısı da gözəl meyvələrdir. İndi İhsan Doğramacının Bilkənd Universiteti də təxminən buna bənzəyir.

Məni bir şey təəccübləndirir. Vaxtilə biz Azərbaycanda böyük şairimiz – o, bütün türk millətinin şairidir – Məhəmməd Füzulinin 500 illik yubileyini keçirməyə hazırlaşırdıq. İhsan Doğramacı dedi ki, bunu Türkiyədə də etmək lazımdır. Dedim edək. Çünki bu bizim müştərək şairimizdir, özü də çox dəyərli şairimizdir. Azərbaycanda biz bunu etdik, ondan sonra İhsan Doğramacı bizi buraya dəvət etdi. Buraya gəldik. 9 ayın içərisində gözəl bir konsert salonu yaratdı. Mən ona baxdım, heyran oldum. Bilirsiniz ki, mən Sovetlər İttifaqında Siyasi Büronun üzvü, o vaxtkı Nazirlər Sovetində – siz buna baş bakanlıq deyirsiniz – sədrin birinci müavini olmuşam, yəni sizin dediyiniz kimi, SSRİ-nin yönəldicilərindən, rəhbərlərindən, 3-4 kişidən biri mən olmuşam. Mən Sovetlər Birliyi kimi ölkədə böyük inşaat işləri görmüşəm. Məsələn, sürətlə bir fabrik, başqa bir bina tikmək lazım olurdu. Ancaq İhsan Doğramacının belə imkanları ilə 9 ayın içərisində, Füzulinin yubileyini keçirmək üçün belə gözəl konsert salonu tikməsi bizi heyran etdi. Biz gəldik buraya, bizim sənətçilər gəldilər. Biz, Türkiyənin dəyərli insanları – 9-cu cümhur başqanı Süleyman Dəmirəl, bakanlar, başqaları … Burada böyük yubiley keçirdik. Çox belə misallar demək olar.

Bir də deyirəm, bir insanda bir çox keyfiyyətlər toplaşıbsa, o, adi insan deyildir. İhsan Doğramacı bir insan kimi, çox gözəl qəlbə malik, çox xeyirxah, adamlara yardım etmək istəyən, xalqını inkişaf etdirmək istəyən bir insandır. Bir alim kimi, böyük alimdir. İctimai xadim kimi, böyük ictimai xadimdir. Dünya miqyasında tanınır, beynəlxalq təşkilatlarda, uluslararası konfranslarda ən gözəl yerlərdə dayanır və ona hamı hörmət edir. Ona görə də mən deyə bilərəm ki, İhsan Doğramacı ilə biz – buraya Türkiyə də daxildir Azərbaycan da daxildir, güman

edirəm ki, türkdilli başqa dövlətlər də daxildir – hamımız daim qürur hissi keçirə bilərik.

İnsanların sağlığında, adətən, onların heykəlləri yaranmır. Düzdür, indi bəzi ölkələrdə cümhur başqanları var, hər küçədə özünə bir heykəl yaradır, bu o qədər də normal hal deyildir. Mən İhsan Doğramacıya dedim ki, Ömər Eldarov çox böyük sənətçidir, heykəltəraşdır. Siz inciməzsiniz, mən sizə deyim ki, Türkiyədə heykəltəraşlıq sənəti çox zəif olubdur. Sizdə çox az heykəllər var. Bakıya gələrsiniz, hər küçədə bir heykəl var. Amma heykəllər bizim böyük adamlaradır – şairlərə, bəstəkarlara, sənətçilərə. Siyasi xadimlərə, siyasət adamlarına heykəl qoymurlar.

Amma görürsən ki, bir şair 5-6 kitab yazıbdır, onun heykəli var. Bu belədir, nə etmək olar?

İhsan Doğramacı istəmirdi ki, onun sağlığında belə bir heykəl olsun. Mən isə belə düşündüm ki, hər bir qanunda, qaydada istisna da var. İstisna o halda olur ki, o qərarı qəbul etmək üçün əsas olsun. Hesab edirəm ki, burada bu istisna halı var və belə bir qərarın qəbul edilməsi üçün əsas var. Mən şəxsən təcrübəli bir adam kimi və insanların sağlığında onlara heykəl qoyulmasının əleyhinə olan adam kimi, bu halda İhsan Doğramacının özünün yaratdığı Bilkənddə onun sağlığında heykəlinin qoyulmasını tamamilə əsaslı hesab etmişəm. Buna görə də mən bu qərara səs vermişəm və bu gün Ankarada mənim proqramımda birinci tədbir bu heykəlin açılışıdır. Ona görə də mən buraya gəlmişəm və sizin qarşınızda ürəyimdə olan sözləri deyirəm.

Əziz dostum İhsan Doğramacı! Bu gözəl heykəl yaşayacaq, əsrlər boyu yaşayacaq. Güman edirəm ki, sən də hələ çox yaşayacaqsan. Mən də səninlə bir yerdə çox yaşayacağam. Biz bir-birimizə söz vermişik, gərək sözümüzə sadiq olaq. Ancaq

gözəl heykəltəraş Ömər Eldarovun çox gözəl sənəti olan bu heykəl daim türk xalqlarının insanlıq, elm, mədəniyyət rəmzinə çevriləcəkdir. Əsrlər keçəcək, yeni nəsillər gələcək, Bilkənd Universiteti yaşayacaq, burada yeni-yeni insanlar həm çalışacaq, həm də təhsil alacaqlar. Amma hər kəs bu heykəlin yanından keçəndə baş əyəcək və İhsan Doğramacıya minnətdarlığını bildirəcək. Bu sözləri deyəndə mən əlavə edirəm ki, üç ildən sonra Bakıda – Azərbaycanda İhsan Doğramacının 90 illik yubileyini biz təntənə ilə bayram edəcəyik, ondan sonra 100 ilə qədər bir proqram yapacağıq. Mən bu hadisə münasibətilə bütün türk xalqını təbrik edirəm. Bilkənd Universitetinin bütün professor, müəllim və tələbələrini təbrik edirəm. Türkiyənin elm, bilik, təhsil adamlarını təbrik edirəm. Sizi təbrik edirəm və hamınıza cansağlığı, xoşbətxlik arzulayıram. Bir də onu demək istəyirəm ki, bizim bugünkü görüşümüz, bu hadisə və burada dayanan bu heykəl Türkiyə və Azərbaycanın, bir millət, iki dövlətin əbədi, sarsılmaz dostluğunun yeni bir abidəsidir. Onun yeni bir rəmzidir. Sağ olun.

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Ankara,*
*Çankaya köşkü*

*26 iyun 2002-ci il*

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının onilliyi münasibtilə QDİƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitində iştirak etmiş Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin iyunun 26-da Ankarada Türkiyə prezidenti Əhməd Necdət Sezər ilə onun iqamətgahında təkbətək görüşü olmuşdur.*

*Ölkəmizin başçısını mehribanlıq və səmimiyyətlə salamlayan Türkiyə prezidenti Əhməd Necdət Sezər prezident Heydər Əliyev ilə yenidən görüşməyindən məmnunluq duyduğunu bildirdi.*

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının onilliyi ilə əlaqədar yubiley sammitində Azərbaycan prezidentinin iştirakından razılıqla söhbət açan cənab Sezər region ölkələri arasında çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsin bu təşkilatın töhfəsini yüksək dəyərləndirdi.*

*Qardaş Türkiyə torpağında göstərilən böyük hörmət-izzətə, yüksək qonaqpərvərliyə görə prezident Əhməd Necdət Sezərə minnətdarlığını bildirən dövlətimizin başçısı Heydər Əliyev QDİƏT-in zirvə görüşündə iştirakından, Türkiyədə keçirdiyi çoxsaylı görüşlərdən məmnun olduğunu bildirdi.*

*Dost və qardaş ölkələrimizin əməkdaşlığının bütün sahələrdə genişlənməkdə və dərinləşməkdə olmasından razılıq hissi ilə söhbət açan prezidentlər qarşılıqlı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinin yüksəldiyini məmnuniyyətlə qeyd etdilər.*

*Ölkələrimiz arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətlərinin gündən-günə genişlənməsindən bəhs edən prezidentlər həyata keçirilən irimiqyaslı regional layihələrdə Azərbaycanın və Türkiyənin birgə fəal iştirakından razılıq hissi ilə danışdılar.*

*Görüşdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsi və karbohidrogen ehtiyatlarının Avropa bazarlarına nəqli sahəsində Azərbaycan–Türkiyə əməkdaşlığı barədə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələrinin reallaşması yolunda qarşıda duran vəzifələr haqqında ətraflı fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı prezident Heydər Əliyev ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərindən bəhs etdi. Türkiyə prezidenti Əhməd Necdət Sezər nizamlama prosesində öz ölkəsinin Azərbaycanı bundan sonra da həmişə dəstəkləyəcəyini bildirdi.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

* * *

*Elə həmin gün axşam Çankaya köşkündə prezident Əhməd Necdət Sezərin adından Azərbaycan prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu.*

## TÜRKİYƏNİN NÜFUZLU İCTİMAİ TƏŞKİLATLARI VƏ VƏQFLƏRİ TƏRƏFİNDƏN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ YÜKSƏK MÜKAFATLARIN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Ankara,*
*«Ankara palats» hoteli*

*27 iyun 2002-ci il*

*Türkiyə paytaxtının tarixi yerlərindən olan «Ankara palats» hotelində Türkiyənin nüfuzlu ictimai təşkilatları və vəqfləri tərəfindən Azərbaycan prezidenti Heydər Əliyevə yüksək mükafatların təqdim edilməsinə həsr olunmuş mərasim keçirildi. Hotelin konfrans salonuna toplaşan yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, millət vəkilləri, görkəmli elm, mədəniyyət və incəsənət xadimləri Azərbaycan prezidentini hərarətlə qarşıladılar.*

**Azərbaycan – Türkiyə Dostluq və Əməkdaşlıq Fondunun sədri, professor İhsan Doğramacının çıxışı**

Əziz Prezidentim!

Sizin ölkənizdə nail olduğunuz iqtisadi və ictimai inkişaf hər kəsə bəllidir. Mənə icazə verin ki, bir az da dünya sülhünə etdiyiniz xidmətlərdən söz açım.

1990-cı illərin əvvəlində dünyanın bir çox bölgəsində ilk savaşlar başladı. Ancaq bu savaşların dayandırılması üçün Birləşmiş Millətlər və Təşkilatı NATO qüvvələri araya girdi və

müvəffəq oldular. Azərbaycanda Yuxarı Qarabağda 1980-ci illərin axırında ermənilər tərəfindən başlanan münaqişə isə uzun müddət davam etdi və 30–40 min nəfərin ölümünə səbəb oldu. Nəhayət, Sizin səylərinizlə 1994-cü ilin may ayında atəşkəs elan edildi. 1993-cü ildə vətəndaş müharibəsi başlandı. Sizin sayənizdə bu dayandırıldı. Bütün bu xidmətləriniz dünyada çox lazım olan sülhə böyük xidmət sayılır. Onun üçün bizim fondumuz dünyada ikinci dəfə Sizə Beynəlxalq Sülh Mükafatı olaraq qızıl medal təqdim edilməsinə qərar verdi.

Burada bu sözlər yazılıb: «Beynəlxalq sülhün böyük ustadı, Azərbaycan prezidenti hörmətli Heydər Əliyevə İhsan Doğramacı Fondunun Beynəlxalq Qızıl Sülh medalı».

* * *

*Professor İhsan Doğramacı fondun qızıl medalını Azərbaycan prezidentinə təqdim etdi.*

## Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı

Hörmətli professor, əziz dostum İhsan Doğramacı!

İhsan Doğramacı Fondunun mənə təqdim etdiyiniz bu qızıl medalına, mükafatına görə sizə təşəkkür edirəm. Siz bunu mənim sülh yaratmaq sahəsində fəaliyyətimə yüksək qiymət olaraq verdiniz. Həqiqətən, mən sülh adamıyam. Mən istəyirəm ki, insanlar arasında sülh olsun, xalqlar, millətlər arasında sülh olsun, dövlətlər arasında daim sülh olsun, barış olsun. Siz barış deyirsiniz. Böyük öndər Mustafa Kamal Atatürkün çox müdrik sözləri – «Yurdda sülh, cahanda sülh» sözləri bizim hamımız üçün bir örnəkdir. Amma onu da deyim ki, böyük Mustafa Kamal Atatürk «sülh» demişdir, «barış» deməmişdir. Əgər siz, həqiqətən Türkiyə Cümhuriyyətinin banisi, bütün türk dün-

yasının öndəri unudulmaz Mustafa Kamal Atatürkün dili ilə danışmaq istəyirsinizsə, onda çalışın sülh sözündən istifadə edin.

Sülh hamıya lazımdır. Ancaq Azərbaycan xalqına xüsusilə lazımdır. Çünki Azərbaycanın Dağlıq Qarabağ hissəsinə iddia edən qonşu Ermənistan 1988-ci ildən Azərbaycana hücum, təcavüz edibdir. Öncə bu, Azərbaycan ilə Ermənistan arasında müəyyən bir münaqişənin yaranması kimi meydana çıxıbdır. O vaxtlar hələ Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin daxilində idi, müstəqil, bağımsız deyildilər. Amma sonra Sovetlər Birliyi dağıldı, Azərbaycan da, Ermənistan da öz dövlət müstəqilliyini əldə etdi. Ancaq münaqişə dayanmadı. Çünki ermənilər müxtəlif ölkələrin yardımından istifadə edərək – siz də, biz də, hamımız ermənilərin kim olduğunu, nə olduğunu və dünyanın hansı qüvvələrindən faydalandıqlarını yaxşı bilirik – Azərbaycan torpaqlarının bir qismini işğal etdilər. Böyük müharibə getdi, qan töküldü, şəhidlər verdik.

Bilirsiniz ki, 1993-cü ildə Azərbaycanda gərgin bir daxili vəziyyət yarandı, sabitlik tamam pozuldu və vətəndaş müharibəsi başlandı. Azərbaycan dağılmaq təhlükəsi qarşısında idi. O vaxt xalq məni Azərbaycana prezident seçdi. Ondan sonra mən də Ermənistanla müharibəni davam etdirdim. Ancaq müharibəni davam etdirərək, mən eyni zamanda düşünürdüm ki, müharibənin sonu belə olacaqdır – biz torpaqlarımızı geri almağa çalışıb irəliləyəcəyik, ermənilər başqa yerlərdən qüvvə toplayıb, yenidən gəlib bizi sıxışdıracaqlar. Ona görə də sülhün yaranması o vaxtlar ən zəruri bir qərar kimi meydana çıxdı.

1994-cü ilin may ayında hər iki tərəf Ermənistanla Azərbaycan arasında sülh yox – bizim aramızda sülh yoxdur – sadəcə, atəşi dayandırmaq, atəşkəs elan etmək haqqında qərar qəbul etdik. Atəşkəsi elan etdik. O vaxtdan indiyə qədər, 8 ildir ki,

biz atəşkəs rejimində yaşayırıq. Burada müsbət hal ondan ibarətdir ki, Ermənistan qoşunları ilə Azərbaycan qoşunları arasına hansısa bir ölkənin sülhü mühafizə qoşunlarını gətirməkdik. Biz ermənilərlə ilk dəfə eyni fikirdə olduq ki, özümüz burada atəşkəs rejimini təmin edək. 8 ildir bu atəşkəs rejimini təmin edirik. Müharibə yoxdur, qan tökülmür, şəhidlər vermirik. Məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Biz sülh istəyirik, ancaq işğal olunmuş torpaqlarımızın azad edilməsi şərti ilə. Ərazi bütövlüyümüzün, sərhədlərimizin bərpa olunması şərti ilə. Ermənilər tərəfindən işğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxardılıb və 9-10 ildir ki, çadırlarda yaşayırlar. Onların öz yerlərinə-yurdlarına qaytarılması şərti ilə. Bu şərtlərlə biz Ermənistanla sülh sazişi bağlamağa hazırıq və danışıqlar aparırıq.

Danışıqlar çətin keçir. Bunda bizə ATƏT, onun yaratdığı Minsk qrupu yardım edir. Minsk qrupunun həmsədrləri var – Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa. Türkiyə də Minsk qrupunun tərkibindədir. Biz Türkiyənin yardımını, təbiidir ki, daim hiss edirik və bu məsələnin həll olunmasında Türkiyə ilə məsləhətləşirik. Dünən də mən Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti, əziz dostum Əhməd Necdət Sezər ilə görüşdüm və iki saat danışdım. Onda da məhz məsələnin sülh yolu ilə həlli barədə məsləhətləşmələr apardıq.

Ona görə mən mükafatı bu mənada qəbul edirəm ki, atəşkəs yaratdıq, atəşi dayandırdıq, top atılmır, tüfəng atılmır, bomba partlamır, insanlar şəhid olmur. Ancaq məqsədimizə də nail olmamışıq. Mən bu gözəl mükafatı qəbul edərək, arzumu-istəyimi bildirirəm və sizi əmin edirəm ki, əsas məqsədimiz, mənim əsas məqsədim Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək və bölgədə Ermənistanla Azərbaycan arasında sülh yaratmaqdır.

## Türkiyə sənayeçiləri və iş adamları vəqfinin sədri Vəli Sarıtoprağın çıxışı

Xocalar xocası, professor Doğramacıdan sonra, hörmətli prezidentdən sonra danışmaq bir az çətin olacaq. İkisi də çox gözəl natiqdir. Hər ikisindən öyrənəcəyimiz çox şeylər var.

Hörmətli Prezidentim, Siz bir xidmət adamısınız. Çox önəmli vəzifələr tutmusunuz. Sovetlər Birliyinin taleyində çox önəmli rol oynamış, Siyasi Büroya qədər yüksəlmiş yeganə türksünüz. Həyatınız daim mübarizə içində keçmişdir və çox çətinliklər görmüsünüz. Sizin haqqınızda yazanlardan biri belə demişdir: «Heydər Əliyev həyatda ağır yollardan keçdi, həyatı çətinliklərlə doludur, ölümlə çox üz-üzə gəldi. O çox müdrik, çox iradəli bir insandır».

Siz müttəfiqlərinizin və hətta rəqiblərinizin rəğbətini qazanmış bir dövlət adamısınız. İsmayıl Qasparlının «Dildə, fikirdə, işdə birlik» şüarını həyata keçirmək, türk dünyasında işbirliyini və gücbirliyini gərçəkləşdirmək üçün böyük səylər göstərdiniz və göstərirsiniz.

1992-ci ildə İstanbuldakı bir çıxışınız bizim iş adamlarının çox rəğbətini qazanmışdır. Siz demişdiniz ki, bir birləşmə prosesi gedir. Bizim də millət qarşısında, türk millətləri qarşısında borcumuz bu birləşmə prosesini sürətləndirmək, mətbuat və ticarət vasitəsilə, hər vasitə ilə sürətləndirməkdir. Mən bu yolun yolçusuyam. Özü də çox uzun yollar keçmişəm. İnsan təzə, yəni yeni yola çıxar. Ancaq mən 50 ildir bu yoldayam, lakin bu yolun sonu yoxdur. Çünki türk millətlərini birləşdirmək, inkişaf etdirmək üçün bizdən sonra gələn nəsillər də çox böyük iş görməlidir.

Amma biz üzərimizə düşən məsuliyyəti dərk etməliyik, bu məsuliyyət qarşısında cavabdeh olmalıyıq. Bütün həyatımı buna sərf etdim və bundan sonra da edəcəyəm.

Türkiyə və Azərbaycan bir ağacın iki budağıdır, köklərimiz eynidir. «Biz iki dövlət, bir millətik» deyərək, Türkiyə–Azərbaycan əlaqələrini inkişaf etdirib yüksəklərə qaldırdınız. İki ölkənin qovuşmasında Sizin böyük əməyiniz və dəstəyiniz var. Türk iş dünyası olaraq Sizə minnətdarıq.

Türk iş adamlarına Azərbaycanda böyük imkanlar və şərait yaratdınız. Sizə Allahdan uzun ömür diləyirəm, uğurlarınız daimi, yolunuz açıq olsun. «Üstün xidmət və başarı mükafatı»nı Sizə təqdim edirəm. Lütfən qəbul edin.

## Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı

Türk iş adamlarının, türk iş dünyasının təqdim etdiyi bu hədiyyə mənim üçün çox qiymətlidir. Ən öncə, bunu təqdim edərkən mənim dostum Vəli Sarıtoprağın çox gözəl nitqi məni olduqca ruhlandırdı. Həqiqətən, o mənim həyatımın bəzi anlarını burada düzgün, doğru xatırlatdı. İnsan yaşayır, bizim kimi insanlar, mənim kimi də insan yaşayır. Amma dünənki günüm budur. Sonra ya özü, yaxud da onun dostları keçmişdən bəzi anları xatırladanda, insan öz-özünə düşünür ki, əcaba, mən bu imişəm?

Bəli, bu sözlərin hamısını deyəndə mənim qəlbimdəki sarı simlərə toxundunuz. Siz bilirsiniz sarı sim nədir? Azərbaycanda tar aləti var. Tarın bir neçə simi var. O simlərdən biri sarı simdir. Tar çalan simin birində çalır, o birisində çalır, sarı simə keçəndə insana daha da çox təsir edir. Ancaq bu sözləri deməklə, eyni zamanda, onu da bildirmək istəyirəm ki, mən nə qədər çox yol keçmişəmsə, nə qədər çox işlər görmüşəmsə, nə

qədər böyük xidmətlər göstərmişəmsə, xalqımın, millətimin, türk millətimin qarşısında bütün vəzifələrimi hələ yerinə yetirməmişəm. Ona görə də ömrümün sonuna qədər borclu qalacağam. Qoy mənim borclu qalmağımı – indidən deyirəm – xalqımız bağışlasın. Çünki nə mümkündürsə, onu etmişəm və edirəm.

Bizim indiki həyatımızda özəl sektorun inkişaf etməsi, iqtisadiyyatın inkişaf etməsi iş adamlarının fəaliyyətindən asılıdır. Bizim kimi keçmiş sovet rejimində yaşayan insanlar üçün bu indi daha da aydın görünür. Çünki keçmişdə bizdə bu sistem yox idi. Artıq bir neçə ildir ki, bizim ölkə də, xalqımız da özəl sektorun, iş adamlarının xalq, millət üçün, dövlət üçün nə qədər əhəmiyyətli olduğunu anlayır və hiss edirlər. İndi sizin vəqf, təşkilat mənim gördüyüm işləri bu qədər qiymətləndirdiyinə görə təşəkkür edirəm və sizi əmin edirəm ki, daim sizinlə işbirliyində olacağam.

## Ankara İşgüzar Qadınlar Cəmiyyətinin sədri Sərpil Tınaz Akçarın çıxışı

Zati-aliləri Heydər Əliyev!

Siz türk dünyasının ən böyük liderlərindən birisiniz. Həm Azərbaycan, həm də Türkiyə üçün böyük işlər görmüsünüz. Siz Atatürk kimi, böyük bir inqilab etdiniz, latın əlifbasına keçdiniz. Ankara İşgüzar Qadınlar Cəmiyyəti olaraq biz bu inqilab münasibətilə Sizi təbrik edir və «İlin dövlət adamı» seçirik.

Qadınlar, adətən, çox danışırlar, lakin mən qısa danışmağa çalışacağam. Sizin vasitənizlə Türkiyə qadınlarının salamlarını Azərbaycan qadınlarına çatdırmaq istəyirəm. İcazənizlə, mükafatımızı Sizə təqdim edim. Sağ olun, təşəkkür edirəm.

Xanım Sərpil Tınaz Akçar ANİKOD-un «İlin dövlət adamı» mükafatını dövlətimizin başçısına təqdim etdi.

**Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı**

Həyatda belə bir qayda var ki, kişilər qadınlara hədiyyə verərlər. Gərək evdə xanıma hədiyyə verəsən, qonşu qadına da, çalışdığın yerdə də qadınlara hədiyyə verəsən, əgər ayrı bir sevdiyin qadın varsa, ona da hədiyyə verəsən. Görürəm xoşunuza gəlir, gülürsünüz. Deməli, buradakı kişilərin hədiyyə verdiyi çoxlu qadın var. Məndə isə tərsinədir, qadınlar mənə hədiyyə verirlər. Mən belə hesab edirəm ki, bu çox qiymətli hədiyyədir. Qadınlar Cəmiyyətinin mənə «İlin dövlət adamı» mükafatı verməsi mənim üçün çox əzizdir. Çünki qadınlar çox tələbkar olurlar. Bilirsiniz ki, bəzən qadınlar çox incəliklərə varırlar. Qadınların nəvazişi var. Bilmirəm siz necə deyirsiniz, biz nəvaziş deyirik. Gərək qadına həmişə hörmət edəsən, qoymayasan nədənsə incisin. Ruslarda bir söz var. Mən çalışacam ki, onu türk dilinə tərcümə edəm. Onlar deyirlər ki, qadınlar kaprizli olurlar. Sizdə də kapriz deyirlər? Mən də bayaqdan çalışıram ki, bunu tərcümə edəm. Qadınlar şıltaq olurlar. Kişilərin əlacı yoxdur, onlar qadınların şıltaqlığına dözməlidirlər. Dözməsələr, işləri yaxşı getməyəcək. Güman edirəm, mənim qadınlar haqqında olan hissiyyatlarım hər bir kişidə var. Ancaq bir dövlət başçısı kimi, siyasət adamı kimi, mən həmişə həyatımda, keçdiyim yolda dövlət işində, hökumət işində, elm işində, mədəniyyət işində qadınlara hörmət etmişəm. Qadınların rolunu yüksəltmək, onlara öz istedadlarını daha da açmaq üçün imkanlar vermək mənim həmişə vəzifəm olmuşdur. – Azərbaycandakı qadınlar, mən dəfələrlə demi-

şəm, bunu bilirəm – məndən çox razıdırlar. Hətta hesab edirəm ki, onlar məni sevirlər.

Əziz Tınaz xanım! Xahiş edirəm, sizin xanımların hamısına mənim təşəkkürlərimi çatdırın və deyin ki, Azərbaycan cümhur başqanı kimi, mən həmişə qadınların dayağı olmuşam, bundan sonra da olacağam.

## Türk dünyası yazıçılar və sənətçilər vəqfinin sədri Yəhya Akənginin çıxışı

Sayın Cümhur başqanım!

Əziz dostlar və mərasim iştirakçıları!

Mən «sayın cümhur başqanım» deyə xitab etməkdən bəxtiyarlıq duyuram. Sizin hər zaman ifadə etdiyiniz kimi, «biz iki dövlət, bir millətik». Türk dünyasının digər liderləri də bu ifadəni daim təkrar edirlər. Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfi türk dünyasının mədəniyyət və sənət sahəsindəki çalışmalarına dəstək vermək, töhfə vermək məqsədi ilə yaradılmışdır. Biz dərindən inanırıq ki, bütün münasibətlərin, əlaqələrin təməlində mədəniyyət, dil dayanır.

Türk dünyasının böyük öndəri Atatürk əlifba dəyişikliyini həyata keçirərkən demişdir: Bunun çox böyük tarixi və strateji səbəbləri vardır. Bu səbəblərdən biri də həmin dövrdə latın əlifbasından istifadə edən digər türk xalqları ilə eyni əlifbaya qovuşmaq idi. O baxımdan uzun illər sonra türk ölkələrində yenidən latın əlifbasına qayıtmaq, Atatürkün idealına qayıdış olmuşdur.

Zati-aliniz 2001-ci ildə qərarlı-iradəli bir tövrlə, bir fərmanla güzəştsiz bir şəkildə latın əlifbasını Azərbaycanda bərqərar etmişdir. Ona görə də vəqfimizin idarə heyəti türk mədəniyyətinə xidmət sahəsində mükafatı Sizə verməyi qərara almışdır.

Burada bir məsələni xüsusi vurğulamaq istəyirəm. Türkiyənin milli komandası dünya futbol çempionatında böyük uğurlar qazandı. Sayın cümhur başqanı Heydər Əliyev dərhal Azərbaycan dövlət televiziyası ilə çıxış edərək, bu uğurun bütün türk dünyasının uğuru olduğunu söyləməklə, bizi milli komandamızın uğuru qədər xoşbəxt etdi.

Bir şeyi də mötərizə içində qeyd etmək istəyirəm. Dost, qardaş Türkmənistanda isə milli komandamızın uğurlarının bayram edilməsi qadağan olundu. Bu bizi dərindən yaraladı. İki gündür dəqiq məlumat almağa çalışırdım. Təsəllimiz yalnız onadır ki, «Ruhnamə» kimi bir əsər yazan dövlət adamlarının yəqin bundan xəbəri yoxdur. Əks təqdirdə bu, «Ruhnamə»nin ruhu ilə ziddiyyət təşkil edərdi. Eşitdiyimizə görə, kollektiv halda futbola baxan adamların əllərindən türk bayraqlarını almışlar. Bunu nə üçün deyirəm? Əgər biz bir-birimizdən incidiyimizi, küsdüyümüzü dərhal söyləməsək, bunlar yığılar, dağ olar. Ona görə də incikliyimizi dostcasına ifadə etməliyik. Eşitdiyimizə görə, bu hərəkətləri bəzi polis rəisləri etmişlər. Yenə də ümid edirik ki, sayın Türkmənbaşının bundan xəbəri yoxdur. Belə bir mahnı vardır: «Salam söylə yarıma, belə dostluq olurmu?»

Türk dünyası bir bütövdür. Tarixi kökləri birdir. Yüz il sonra bu gün yer üzündə yaşayanların heç biri həyatda olmayacaq, ancaq türk dünyası birliyi olacaqdır. Bununla bərabər, çox populyar olan Avropa Birliyinin olacağına dair təminatımız yoxdur.

Sayın Cümhur başqanım, Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin «Türk dünyasının 2001-ci il xüsusi mükafatı»nı Sizə təqdim etməkdən bəxtiyarlıq duyuram. Bu bizim Sizə minnətdarlığımızın ifadəsidir.

## Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı

Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin indi təqdim etdiyi bu hədiyyə mənim üçün çox qiymətlidir. Çünki bizim hamımızın birliyimizi yaradan, təmin edən bir məsələyə həsr olunmuşdur. Azərbaycanda yazarlara çox yüksək qiymət verilir. Azərbaycanda həm keçmişdə olan yazarlara, həm də indi bizimlə yaşayan, yaxud da ki, XX əsrdə yaşamış yazarlara həmişə böyük hörmət olmuşdur.

Yazarlar Azərbaycanda bizim xalqımızın, cəmiyyətimizin ən hörmətli insanlarıdır.

Siz bilirsiniz ki, əgər son vaxtları götürsək, «Kitabi-Dədə Qorqud»un böyük bir yubileyini keçirdik. Bütün türk dünyasını Bakıya topladıq. Türkdilli ölkələrin cumhur başqanları ilə, o cümlədən Türkiyənin 9-cu cumhur başqanı Süleyman Dəmirəllə bunu etdik və bizim bir kökdən, bir dildən olduğumuzu bütün dünyaya göstərdik.

Məhəmməd Füzulinin 500-illik yubileyini keçirdik. Azərbaycanda da, Türkiyədə də – hər yerdə keçirdik. O bizim türk dünyasının böyük, müştərək şairidir. Böyük izlər qoymuşdur. Beləlləri çoxdur.

Yunis İmrə bizim üçün Füzuli qədər, Nizami qədər qiymətli bir şairdir. Onun yaratdığı əsərlər bütün türk xalqları üçün qiymətlidir, əzizdir. Türk xalqlarının bu yolları keçməsində Yunus İmrə kimi böyük bir şairin yaradıcılığının, təbiidir ki, təsiri çox olmuşdur.

Yazarlar yazırlar. Dövlət adamlarının borcu bu yazarlara imkan yaratmaqdır ki, onlar daha da çox yazsınlar. Vaxtilə, gənc ikən mən Türkiyə yazarları ilə çox maraqlanırdım. Orta

məktəb illərində Rəşad Nuri Güntəkinin «Çalı quşu» əsərini mən bir neçə dəfə oxumuşam. Bilmirəm siz onu xatırlayırsınız, yoxsa yox. Onu bir neçə dəfə oxumuşam. Tofiq Fikrətin, Əbdül Haq Hamidin şeirləri Azərbaycanda bizim dilimizdə əzbər idi. Sonra, İkinci dünya savaşı zamanı onların əsərlərinin hamısını yasaq etdilər.

Bu gün də bizim yazarlarımız bir-biri ilə əlaqədədirlər, birlikdə çalışırlar.

Millət üçün bir çox şey lazımdır. Ancaq millətin, xalqın yaşaması üçün ən önəmlisi onun dilidir. Bizim hər birimizin, Anadolu türkcəsində danışan, Orta Asiyada olan, Azərbaycanda olan türklərin hamısının ən böyük nailiyyəti odur ki, dilimizi qoruduq, saxladıq, yaşatdıq.

Dili danışırsan, amma gərək insanlar bilgi alsınlar, əlifba olsun. Azərbaycanın başına bu barədə çox bəlalar gəlib. Türkiyədə olduğu kimi, keçmişdə bizdə ərəb əlifbası olub. Ancaq 1925-1926-cı illərdə, baxmayaraq ki, sovet hakimiyyəti olubdur, Azərbaycan latın əlifbasına keçibdir. Bəli, Mustafa Kamal Atatürk dedi ki, hamı latın əlifbasına keçsin – həmin sözlər o vaxt deyilmişdir.

1926-cı ildə Azərbaycanda ilk türkoloji qurultay keçirilmişdir. Bütün türk millətlərinin alimləri, dilçiləri, filoloqları Bakıya toplaşmışdılar. O cümlədən Türkiyənin böyük alimi Fuad Köprülüzadə bu qurultayın fəal iştirakçılarından biri olubdur. Bilirsiniz, sonradan o sizdə Xarici İşlər naziri olmuşdur. 1926-cı ildə Bakıda türkoloji qurultayda qərar qəbul olundu ki, bütün türkdilli xalqlar latın əlifbasına keçsin. Amma 1939-cu ildə latın əlifbasını bizim əlimizdən aldılar, kiril əlifbasına keçirdilər. Bilirsiniz, bir əlifbadan o birinə keçmək çox çətindir. Bizim 1939-cu ildən bəri yazılan kitablarımız hamısı kiril əlifbası ilədir. İndi yeni yazılan kitablar isə latın əlif-

bası ilədir. Alimlər, yazarlar deyirlər ki, 2-3 ildən sonra bizim kitablarımızı heç kim oxumayacaq, onların hamısını yandırmaq lazımdır. Yeni nəsil onları oxuya bilməyəcəkdir.

İndi bizdə təkcə birinci sinifə gedənlər deyil, onuncu sinifdəkilər də latın əlifbası ilə oxuyurlar.

Bizim başımıza çox bəlalar gəlib. Dövlət başçısı kimi, mən bunların hamısını bilirəm. Keçmişdən də bilirəm, şəxsən bu işlərin şahidi olmuşam. Mən bunları bilərək, qəti qərar qəbul etmişdim. Hələ 2001-ci ildə yox, ondan əvvəlki vaxtlarda məcbur edirdim ki, latın əlifbasına keçək. Çünki bunu birdən etmək olmaz ki, bu gün bir əlifba, sabah o biri əlifba olsun. Böyük hazırlıq işləri gördük, mən fərman verdim. İndi Azərbaycanda hər yerdə latın əlifbasıdır. Əmin ola bilərsiniz, bunun təməlini biz elə qoymuşuq ki, bundan sonra heç bir qüvvə bizim əlifbamızı dəyişə bilməyəcəkdir. Yüz illərlə bizim latın əlifbamız yaşayacaq və millətlərimiz bir-birinin yazılarını asanlıqla oxuyacaqlar.

Bütün dövlət işləri Azərbaycan dilində aparılır. On ildir biz müstəqilik. Amma inanırsınız, keçmişdə 70 il bizim idarələrimizdə bütün işlərimiz rus dilində aparılıb. Ona görə insanların çoxu buna öyrəşmişdi. Amma mən bu haqda fərman vermişəm. Bütün dövlət orqanlarında yazışmalar hamısı yalnız latın əlifbası ilə, Azərbaycan dilində olmalıdır.

Dilimizi qoruyub saxlamaq, mədəniyyətimizi qoruyub saxlamaq, ulu babalarımızdan qalan milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq bizim vəzifəmizdir. Biz – Türkiyə də, Azərbaycan da dünyəvi dövlətik, hüquqi, demokratik dövlətik. Dünyəvi dövlətlər kimi, həm milli-mənəvi dəyərlərimizi – hansılar ki, bizim köklərimizdən gəlir – yaşatmalıyıq. Onlar yaşamasa, bizim köklərimiz quruyacaqdır. Eyni zamanda, biz ümumi bəşəri dəyərləri qəbul edirik. Ümumi bəşəri dəyərlərlə

milli-mənəvi dəyərlərimizin sintezi ilə indi Türkiyənin özündə də, Azərbaycanda da yeni bir mədəniyyət yaranır. Ona görə mən belə hesab edirəm ki, biz Avropa ilə birləşirik. Biz Avropadayıq, buradan heç bir yerə gedə bilmərik. Türk dünyası yaşayır, yaşayacaq, siz, əziz türk qardaşım, düz dediniz ki, yüz il də yaşayacaq, min illər yaşayacaq. Ancaq türk dünyasının xalqları ümumi bəşəri dəyərləri, Avropa dəyərlərini öz milli-mənəvi dəyərləri ilə birləşdirəndə daha da zəngin olacaqlar.

Biz demokratiya yolunu tutmuşuq, hüquqi dövlət yolunu tutmuşuq, dünyəvi dövlət yolunu tutmuşuq. Bu yolla da gedəcəyik.

* * *

*Mərasim başa çatdıqdan sonra Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, millət vəkilləri, görkəmli elm, mədəniyyət və incəsənət xadimləri Azərbaycan prezidenti Heydər Əliyevə yaxınlaşaraq, mükafatların təqdim olunması münasibətilə bir daha təbrik etdilər, respublikamızın rəhbərinə möhkəm can-sağlığı, Azərbaycanın gələcəyi, bütün türk dünyasının tərəqqisi naminə uğurlu fəaliyyət arzuladılar.*

## TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI İLƏ GÖRÜŞ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*27 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyevi mehribanlıqla salamlayan Dövlət Baxçalı Azərbaycana rəsmi səfərini, dövlətimizin başçısı ilə görüşlərini razılıq hissi ilə xatırlayaraq, respublikamızın rəhbəri ilə yeni görüşündən məmnun olduğunu bildirdi.*

*Görüşlərin, təmasların dost, qardaş ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı üçün zəruri olduğunu nəzərə çatdıran Dövlət Baxçalı dedi ki, Türkiyə Azərbaycan ilə əlaqələrin daha da sıxlaşdırılmasına daim xüsusi diqqət yetirir.*

*Səmimi və xoş sözlərə görə təşəkkürünü bildirən prezident Heydər Əliyev qardaş xalqlarımızın iradəsinə uyğun olaraq, Azərbaycan–Türkiyə münasibətlərinin daim inkişaf etməsindən, ölkələrimizin bir-birinə dəstəyindən razılıq hissi ilə danışdı.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən prezident Heydər Əliyev münaqişə nəticəsində torpaqlarımızın 20 faizinin işğal edildiyini, bir milyondan çox soydaşımızın doğma yurd-yuvasından zorla qovularaq, çadır şəhərciklərində çox ağır və dözülməz*

*şəraitdə yaşadıqlarını bir daha xatırlatdı, münaqişənin sülh yolu ilə həllinə Azərbaycanın tərəfdar olduğunu vurğuladı.*

*Münaqişənin aradan qaldırılması sahəsində Azərbaycan prezidentinin səylərini yüksək qiymətləndirən Dövlət Baxçalı bildirdi ki, qardaş Türkiyə Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcəkdir.*

*Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin inkişafı, regiondakı vəziyyət və tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində ətraflı fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ MƏSUD YILMAZ İLƏ GÖRÜŞ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*27 iyun 2002-ci il*

*Dövlətimizin başçısını səmimi-qəlbdən salamlayan Məsud Yılmaz Azərbaycan prezidenti Heydər Əliyev ilə hər bir görüşdən böyük şərəf duyduğunu söylədi.*

*Xalqlarımızın iradəsindən doğan və strateji tərəfdaşlıq xarakteri daşıyan Türkiyə–Azərbaycan əməkdaşlığının daha da möhkəmləndirilməsində, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri və Bakı–Tbilisi – Ərzurum qaz kəməri kimi regional layihələrin reallaşdırılmasında Azərbaycan prezidenti Heydər Əliyevin xüsusi xidmətləri olduğunu vurğuladı.*

*Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin gündən-günə inkişaf etməsindən razı qaldığını söyləyən prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, Türkiyəyə bu işgüzar səfəri dostluq, qardaşlıq, strateji tərəfdaşlıq münasibətlərinin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini verəcəkdir.*

*Azərbaycan prezidenti Türkiyədə keçirdiyi görüşləri, apardığı danışıqları yüksək dəyərləndirdi.*

*Görüşdə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi də diqqət mərkəzində oldu.*

*Söhbət zamanı regionda vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

**Görüşdən sonra Baş nazirin müavini Məsud Yılmazın jurnalistlərə verdiyi qısa müsahibə:**

**S u a l: Görüş zamanı hansı məsələlər müzakirə olundu?**

**M ə s u d Y ı l m a z:** Hörmətli cümhur başqanının ifadəsi ilə desək, biz bir millət, iki dövlətik. Bütün məsələlərimiz ortaqdır. Dağlıq Qarabağ məsələsi – eyni zamanda Türkiyənin məsələsidir. Hörmətli cümhur başqanı bu münaqişənin sülh yolu ilə həll olunması üçün önəmli danışıqlar aparır. Biz Dağlıq Qarabağ məsələsində bu günə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın yanındayıq, uzun zamandan bəri məhrumiyyət çəkən azərbaycanlı qaçqınlarımızın sülhə qovuşmaları üçün əlimizdən gələn hər cür köməyi göstərməyə hazırıq.

**S u a l: Türkiyədə ermənilərlə gizli danışıqlar aparan bir çox təşkilatlar var. Bunun səbəbi, məqsədi nədir? Ermənistan–Türkiyə sərhədində hər hansı ticarət əlaqəsinin qurulması mümkündürmü?**

**M ə s u d Y ı l m a z:** Ermənistan çox yaxşı bilir ki, münaqişə həll edilmədən Türkiyə ilə əlaqələr qurmaq mümkün deyildir. Demokratik təşkilatlar burada beynəlxalq tədbirlər keçirə bilərlər. Amma bizim dövlət siyasətimiz bəllidir.

Mən Türkiyə böyük elçiliyi üçün ayırdığı sahəyə görə hörmətli cümhur başqanına öz adımdan təşəkkürümü bildirdim. İnşallah, orada çox modern bir binanın inşasına başlayacağıq.

**S u a l: İqtisadi əlaqələr barədə müzakirələr apardınızmı və hansısa problemlər varmı?**

**M ə s u d Y ı l m a z:** Mən Bakı– Tbilisi–Ceyhan layihəsinin bugünkü nöqtəyə gəlməsi ilə əlaqədar məmnuniyyətimizi və təşəkkürümüzü ifadə etdim. İnşallah, təbii qaz layihəsinin həyata keçirilməsinə başlayacağıq. Azərbaycanla Türkiyə arasındakı iqtisadi əlaqələrin, xüsusilə enerji sahəsində əlaqələrin yaxın illərdə çox böyük uğur qazanmasını gözləyirik.

**S u a l: Sizin parlamentin sədri Azərbaycanda olanda belə bir fikir söylədi ki, türk iş adamlarının sərmayələrinin Azərbaycana cəlb olunması üçün Türkiyə hökuməti proqram hazırlamalıdır. Bu proqram hazırlanırmı və orada nələr nəzərdə tutulur?**

**M ə s u d Y ı l m a z:** Biz türk iş adamlarının Azərbaycana sərmayə qoyması üçün onları təşviq etməyə hazırıq. İndiyə qədər türk iş adamları Azərbaycanda bir çox layihələri həyata keçiriblər. Bunların içərisində uğurlu və uğursuz olanlar da var. Amma iki dövlətin işbirliyinin daha da uğurlu olmasına inanırıq.

# TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ İLƏ GÖRÜŞ VƏ ONA «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı*

*27 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev iyunun 27-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahına gəldi.*

*Baş Qərargah binasının qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü. Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlu dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla qarşıladı.*

*Azərbaycan prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi, türk əsgərini salamladı.*

*Respublikamızın rəhbəri Baş Qərargahın fəxri qonaqlar kitabına imza etdi.*

*Sonra Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlunun təkbətək görüşü oldu.*

*Azərbaycan prezidentini mehribanlıqla və səmimiyyətlə salamlayan cənab Hüseyn Qıvrıqoğlu prezident Heydər Əliyev ilə yenidən görüşməyindən məmnun olduğunu bildirdi.*

*Ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafından razılıq hissi ilə söhbət açan general Qıvrıqoğlu Azərbaycan–Türkiyə*

*əlaqələrinin genişlənməsində və dərinləşməsində dövlətimizin başçısının xüsusi xidmətləri olduğunu vurğuladı.*

*Səmimi sözlərə görə minnətdarlığını bildirən prezident Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında möhkəm dostluq və qardaşlıq təməli üzərində qurulmuş strateji tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verdiyini bildirdi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində görülən işlər, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa danışıqları, bölgədəki vəziyyət barədə fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı və Baş Qərargahın rəisi görüşdən sonra konfrans salonuna gəldilər. Burada ordu generalı Hüseyn Qıvrıqoğluna Azərbaycan Respublikasının yüksək mükafatının – «Şöhrət» ordeninin təqdim olunmasına həsr edilmiş mərasim keçirildi.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söylədi.*

**Heydər Əliyev:** Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının hörmətli rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlu!

Hörmətli generallar!

Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin hörmətli nümayəndələri!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün, bu dəqiqələrdə böyük bir həyəcan hissi keçirirəm. Bunun səbəbi məlumdur. Mən ilk dəfə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının binasındayam və Türkiyə Silahlı Qüvvələrinin ən yüksək generallarının, komandanlarının qarşısında nitq söyləyirəm.

Siz bilirsiniz ki, mənim də gəncliyim hərbi işdə keçibdir. Mən də əsgər olmuşam, müxtəlif pillələrdən keçmişəm, general olmuşam. Ona görə də hərb işi, bəlkə də cümhur başqanları vəzifəsində olan bəzi başqa adamlardan fərqli olaraq, mənə daha da yaxındır. Mən hərb işinin, orduda xidmətin nə olduğunu çox gözəl bilirəm. Bunu sadəcə, bir dövlət xadimi, siyasəti bilən adam kimi yox, öz həyatımda, öz gəncliyimdə keçirdiyim hissiyyatlarla bilirəm.

Bilirsiniz ki, mən Sovetlər Birliyində doğulmuş, böyümüş və həm hərb işində, həm də dövlət işində böyük vəzifələrə gəlmiş adamam. Mən 14 il Azərbaycan Cümhuriyyətinə rəhbərlik etmişəm, ondan sonra isə Moskvada, Kremldə dünyanın super dövlətlərindən olan Sovetlər Birliyi kimi dövlətin başında duran bir neçə kişidən biri olmuşam. Siyasi Büro üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olmuşam. Sizə dost kimi bildirməliyəm ki, rus imperiyasının tarixində, məhz sovet imperiyasının tarixində ilk dəfə türk, müsəlman ölkəsindən olan bir adam kimi, mən belə yüksək vəzifədə çalışmışam. Bu tarixdir. Bu da mənə nəsib oldu. Amma rus imperiyası da dağıldı, sovet imperiyası da dağılıbdır. Bundan sonra belə imperiyalar olmayacaq və yəqin belə bir hadisə də olmayacaqdır. Bu, tarixdə qalacaqdır.

Mən bunları özüm haqda məlumat vermək üçün demirəm. Mən sizdən bu barədə üzr istəyirəm. Ona görə deyirəm ki, hərbi iş mənim üçün nə qədər əziz, doğma olan bir işdir.

Sovetlər Birliyində yaşayan bizim bir çox insanların hafizəsində, beynində türk ordusu ən güclü bir ordu kimi qalmışdı. Təbiidir, vaxtilə biz Türkiyənin tarixini də yaxşı öyrəndik. Osmanlı imperatorluğunun tarixini də öyrəndik. Amma sonra, Sovetlər Birliyi zamanı Türkiyə Cümhuriyyəti var idi. Böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhu-

riyyəti var idi. 1920-ci illərdə Türkiyə ilə Sovetlər Birliyi arasında münasibətlər hətta dostluq münasibətləri idi. Hətta o vaxt Mustafa Kamal Atatürklə Sovetlər Birliyinin başında olan Lenin arasında əlaqələr var idi. İndi bunlar yoxdur.

Azərbaycanlı kimi, türk kökündən olan insanlar kimi, bizim həmişə Türkiyəyə xüsusi münasibətimiz və xüsusi marağımız olubdur. Ona görə də Türkiyəni daha çox öyrənmək, Türkiyəni daha çox bilmək və xüsusən türk ordusunu daha çox tanımaq istəyi olubdur. Mən isə bu sahədə böyük imkanlara malik idim. Yəni sizə dediyim kimi, həyatımın müəyyən dövrlərinə görə. Məndə o vaxt da belə düşüncələr var idi və bu gün də var ki, türk ordusu, Mustafa Kamal Atatürk tərəfindən yaradılmış və onun yolu ilə gedən, onun vəsiyyətlərinə əməl edən, bunları yerinə yetirən türk ordusu həmişə güclü, qüdrətli bir ordu olubdur. Türk əsgəri həmişə basılmaz olubdur. Bax, bütün bunlara görə də mən sizinlə bugünkü görüşümdə həm böyük sevinc hissi keçirirəm, həm də həyəcan keçirirəm.

Mənim kimi insanı təəccübləndirmək çətindir. Sadəcə, mənim yaşıma görə. Ancaq Türkiyədə hər dəfə ordunu çox nizam-intizamlı, qanun-qaydalı, Vətənə sədaqətli, millətinə, dövlətinə sədaqətli bir ordu kimi gördükcə, mənim qəlbim həmişə qürur keçirir. Bu hissiyyatlarla mən fikrimi bu gün sizinlə bölüşürəm. Mən çox məmnunam ki, belə imkan mənə verilmişdir və bu imkandan da istifadə edirəm. Əgər düzünü desək, bəlkə də bu görüşün təşəbbüskarı mən özüməm.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən bəri onun yaxın dostu, qardaşı və dayağı Türkiyədir. Bu əlaqələrin 10 illik tarixi sizə məlumdur. Yəni 10 ildir ki, Azərbaycan müstəqil dövlətdir. Azərbaycanda keçmiş sovet ordusundan bir şey qalmamışdır. Yəni müstəqil Azərbaycan sovet ordusu sistemində ordusunu qura bilməzdi. Baxmayaraq ki, ilk illərdə

Azərbaycan dövləti bu sistemdən istifadə etməyə məcbur idi. Ancaq bu sistemdən istifadə edərək bir, iki, üç, dörd, beş ilə yeni bir milli ordu, Azərbaycan Milli Ordusu yaratmaq fikri bizi düşündürmüşdür. Bunu da Türkiyə ilə, Türkiyə Cümhuriyyəti ilə bir yerdə etməyə başladıq. Türkiyə Cümhuriyyətinin bu sahədə Azərbaycana yardımının çox böyük əhəmiyyəti olmuşdur.

Bilirsiniz ki, mən 1993-cü ildə Azərbaycanda prezident seçildim. O vaxt Azərbaycandakı ağır vəziyyət – vətəndaş müharibəsi, sosial-iqtisadi böhran, hakimiyyət böhranı sizə məlumdur. Azərbaycan dağılırdı, parçalanırdı və xalq o vaxt, Naxçıvanda olduğum zaman məni Bakıya dəvət etdi. Sonra da Azərbaycanın prezidenti seçildim. Bir neçə il sonra Türkiyənin böyük elçiliyindən gəlib mənə dedilər ki, Türkiyə ilə Azərbaycan arasında anlaşma var ki, Türkiyə Azərbaycanda ordu qurmaq üçün yardım etsin, biz də bunu edirik. Türkiyə ordusundan olan 60–70 nəfər artıq 6 aydır ki, gəlib burada gözləyirlər ki, onlardan nə vaxt istifadə edəcəklər.

Bilirsiniz ki, 1992-ci ildə Əbülfəz Elçibəy və Xalq Cəbhəsi hakimiyyətə gələndə özlərini Türkiyənin ən böyük dostu kimi bəyan etmişdilər. Böyük türkçülər kimi bəyan etdilər. Ancaq Türkiyənin böyük elçisi bunu mənə söyləyəndə, təbiidir, mən təəccübləndim. Əgər Azərbaycan da bunu xahiş edibsə, Azərbaycan həqiqətən Türkiyə ilə dost, qardaşdırsa, Türkiyə hökuməti öz yardımını göstərib öz ordusundan zabitlər, əsgərlər ayırıb göndəribsə, niyə belə olmalıdır?

Mən ondan soruşdum ki, nə üçün belədir?

Dedi ki, sizdən əvvəl hakimiyyətdə olan Xalq Cəbhəsi hökuməti idi. Müdafiə naziri deyirdi yox, Türkiyənin yardımı lazım deyil, biz Rusiyadan yardım alacağıq, bizə Rusiya yardım edəcəkdir. Digəri deyirdi ki, yox, bizə Türkiyə lazımdır. O birisi deyirdi ki, yox, Türkiyə lazım deyil, biz İrandan yardım

alacağıq. Başqası deyirdi ki, yox, ayrı yerdən yardım alacağıq. Onlar bir araya, bir fikrə gələ bilmirdilər. Biz cümhur başqanına dedik. Cümhur başqanı da bunların arasında qalmışdı. Müdafiə naziri bura çəkirdi, Daxili İşlər naziri ora çəkirdi, Baş nazir ayrı tərəfə çəkirdi. Biz də gözləyirdik ki, bizdən nə vaxt istifadə edəcəklər.

Bunu çoxları bilir, amma mən bilməyənlərə xatırladıram, istəyirəm bilsinlər. O mənə dedi ki, biz onları geriyə qaytarırıq. Türkiyəyə göndəririk. Mən dərhal dedim, yox, mənə imkan verin, 10–15 gün möhlət verin, bu işləri araşdırım. Biz bu işi davam etdirməliyik və etdik. O vaxtdan indiyə qədər Azərbaycanda Milli Ordunun, Azərbaycan Ordusunun yaranmasında Türkiyə Silahlı Qüvvələri, onların müxtəlif idarələrinin, müxtəlif hissələrinin nümayəndələri fəaliyyət göstərirlər və ordunun həm təlim məsələlərində, həm də hərbi məktəblər yaradılması məsələsində, bütün başqa məsələlərdə biz bu yardımı alırıq.

Keçən ilin avqust ayında Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının hörmətli rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlu mənim dəvətimlə Azərbaycana rəsmi səfərə gəlmişdi. Amma bu ziyarət, bu səfər adi bir şey deyildi. Onunla bərabər, Azərbaycana «Türk ulduzları» da gəldi. Biz Türkiyənin yardımı ilə yaradılmış ali hərbi məktəbin açılışında iştirak etdik. Gördük ki, gözəl bir ali hərbi məktəb yaranıbdır. Artıq oranın məzunları var. Artıq orada zabitlər hazırlanır, bir çox mütəxəssislər hazırlanır.

Ona həm texniki yardım, həm maliyyə yardımı, həm təhsil yardımı, həm də başqa yardım göstərilmişdir. Bunları burada sadalamaq fikrində deyiləm. Ancaq bu yardımların nəticəsində çox yüksək səviyyəli, yəni nümunə olan yüksək ali hərbi məktəb yaranıbdır. Biz orada olduq, hər şeyə baxdıq. Sonra

orada böyük bir meydanda onlar öz fəaliyyətlərini nümayiş etdirdilər.

«Türk ulduzları» da bütün Azərbaycanı həyəcana gətirdi. Amma təkcə Azərbaycanı yox, çox ölkələrdə həyəcan yaratdı. Bəzilərində qorxu yaratdı ki, bu nədir, Türkiyənin təyyarələri gəlib Azərbaycanda oturacaqdır, Azərbaycana yardım edəcəkdir və sairə başqa şeylər edəcəkdir. Belə günlər yaşadıq. Biz bunu heç vaxt unutmuruq. Amma bu bir, iki, üç gün idi. Bizim Türkiyənin Silahlı Qüvvələri ilə əməkdaşlığımız, həmfikirliyimiz bununla məhdudlaşmır. Dediyim kimi, 1993-cü ildə mən Azərbaycanın cümhur başqanı seçiləndən bu günə qədər Türkiyə ilə bizim əməkdaşlığımız – hansı ki, indi strateji əməkdaşlıq xarakteri alıbdır – bütün sahələrdə, xüsusən bizim ordu quruculuğu sahəsində davam edir.

Bu gün Azərbaycanda güclü ordu var. Bizim generallardan soruşanda, ola bilər, onlar öz işlərini tərifləmək üçün bunu daha da yüksək qiymətləndirsinlər. Amma mən bunu Türkiyənin Azərbaycandakı hərbi attaşesindən soruşuram. Hörmətli Qıvrıqoğlu oraya çox yaxşı insanlar göndərir. Onlar da çox canlabaşla, sədaqətlə xidmət edirlər. Zəki paşa var idi. O, qəflətən həyatdan getdi. İndi onun yerinə digər general gəlibdir, çox gözəl xidmət edir. Mən onlarla təkbətək görüşürəm, soruşuram ki, ordumuz necədir, bizim Müdafiə Nazirliyində işləri necədir, hərbi hissələrdə işlər necədir. Mən bu məlumatları onlardan alıram. Onlardan aldığım məlumatlar və özümün məlumatlarım əsasında deyə bilərəm ki, – güman edirəm ki, siz də bunu təsdiq edərsiniz, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının hörmətli rəisi də təsdiq edər – bu gün artıq Azərbaycan ordusu 4-5 il bundan əvvəlki ordu deyildir. Bizim güclü ordumuz var və bu ordumuzu daha da gücləndirəcəyik.

Hər bir dövlətin güclü ordusu olmalıdır. Biz gənc, müstəqil dövlətik. Bizim ən böyük problemimiz odur ki, 1989-cu ildən Ermənistanla Azərbaycan arasında savaş başlayıbdır. Ermənilər iddia edirlər ki, Azərbaycanın qədim torpağı olan Dağlıq Qarabağ guya Ermənistan torpağıdır və onu Ermənistana birləşdirmək istəyirlər. Bəzi səbəblərdən hələ 1991-ci ildə onlar Dağlıq Qarabağı işğal etdilər. Bundan sonra Azərbaycanın daxilində sabitlik olmadığına görə və Azərbaycanın daxilindəki müxtəlif qüvvələr hərəsi özünə bir silahlı dəstə düzəldib hakimiyyət uğrunda mübarizə apardığı zaman ermənilər bu fürsətdən istifadə etdilər və Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlı zorla çıxarılıbdır, başqa bölgələrdə çadırlarda yaşayırlar.

Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycanın sərhədlərinin toxunulmazlığı pozulubdur. Beynəlxalq hüquq normaları pozulubdur. Beynəlxalq təşkilatlar – Birləşmiş Millətlər Təşkilatı qətnamələr qəbul edib ki, Ermənistan işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxsın. Amma onlar bunu yerinə yetirmirlər.

Biz danışıqlar aparırıq. Bilirsiniz ki, 1992-ci ildə ATƏT-in tərkibində Minsk qrupu yaranıbdır. Onun həmsədrləri Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa bizimlə bərabər bu məsələni sülh yolu ilə həll etmək, çözmək üçün çalışırlar. Bizə yardım etməyə çalışırlar. Amma onlar da hələ heç bir şey edə bilməyiblər. Bir sözlə, bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan çox vətəndaşımız çadırlarda qaçqındır. Ona görə də biz, təbiidir, işğal olunmuş torpaqları azad etməliyik, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik, təmin etməliyik. Yerindən-yurdundan didərgin düşmüş insanları öz torpağına, elinə-obasına qaytarmalıyıq. Doğrudur, ondan son-

ra da onların həyatı çətin olacaqdır. Çünki işğal olunmuş torpaqlarda hər şey dağıdılıbdır. Orada torpaqdan başqa heç bir şey qalmayıbdır. Yüz illərlə tikilən evlər, fabriklər, xəstəxanalar, məktəblər, kitabxanalar, mədəniyyət sarayları və sairə və sairə–hamısı ermənilər tərəfindən dağıdılıbdır. Yəni torpaqlar azad olunandan sonra da hələ neçə illər bu işlər görülməlidir.

Mən bu gün sizin qarşınızda da deyirəm. Biz sülh tərəfdarıyıq. Məsələni ancaq və ancaq sülh yolu ilə həll etmək istəyirik. Ancaq bu mümkün olmasa, təbiidir ki, bütün imkanlardan istifadə edib, torpaqlarımızı azad etməliyik. Ona görə də bizim ordumuz daha da güclü olmalıdır. Biz dövlət kimi, bunun üçün öz üzərimizə düşən vəzifəni həll edirik və bunun üçün də biz Türkiyə Cümhuriyyəti ilə, Türkiyənin silahlı qüvvələri ilə çox gözəl əməkdaşlıq edirik. Bizə bu əməkdaşlığın faydası böyükdür və bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir.

Türkiyənin güclü ordusunun olması hər bir azərbaycanlıda böyük qürur hissi yaradır. Mən söylədim, Türkiyənin ordusu Türkiyənin ən böyük nailiyyətidir. Bunun da əsasını böyük öndər Mustafa Kamal Atatürk qoymuşdur. Azərbaycanda biz Atatürkün bütün türk dünyası üçün nə qədər böyük şəxsiyyət olduğunu xalqımıza bildirmişik.

Mən çox məmnunam ki, iki il bundan öncə mənə burada Mustafa Kamal Atatürk adına Beynəlxalq Sülh Mükafatı verilmişdi. Mən bununla fəxr edirəm. Mənim medallarım, ordenlərim çoxdur. Amma Mustafa Kamal Atatürkün adına olan Beynəlxalq Sülh Mükafatı mənim üçün çox əzizdir və çox yüksəkdir.

Mən Bakıda böyük bir mərkəz – Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Atatürkün həyatı, onun yaratdığı Türkiyə Cümhuriyyətinin tarixi və xüsusən Türkiyə Cümhuriyyə-

tinin qəhrəman ordusunun tarixi böyük araşdırmaların mövzusudur. Bundan əsərlər yaradılmalıdır.

Çünki bunlar təkcə sizin üçün yox, bugünkü nəsillər üçün yox, gələcək nəsillər üçün də çox dəyərlidir, çox lazımlıdır.

Biz türk ordusu ilə fəxr edirik. Azərbaycanda türk ordusuna böyük sevgi, məhəbbət həmişə yaşayır. Şəxsən mən hesab edirəm ki, Mustafa Kamal Atatürkün türk xalqı qarşısında xidmətləri əvəzsizdir. Yəni o qədər böyükdür ki, ona qiymət vermək çətindir. Amma bunların içərisində onun iki böyük xidməti var. Birincisi, Türkiyə Cümhuriyyətinin yaranması, ikincisi, türk ordusunun yaranmasıdır. Türkiyə Cümhuriyyətinin ordusu keçmiş ordulardan, keçmiş dövrdəki ordudan fərqlidir. Orduda belə bir sistemin yaranması, əlbəttə, sizin ölkənizin sərvətidir. Eyni zamanda, sizin üçün fəxrdir və Azərbaycan üçün də fəxrdir.

Təbiidir, hər bir ordunun rəhbərliyindən çox şey asılıdır. Amma türk ordusunda elə bir sistem yaranıbdır ki, burada rəhbərlər dəyişdikcə ordu zəifləsin – belə bir şey yoxdur. Ordu irəliyə gedir. Amma silahlı qüvvələrin hər bir rəhbəri də öz dövründə böyük işlər görməlidir. Əziz dostum Hüseyn Qıvrıqoğlu mənə burada Baş Qərargah rəislərinin şəkillərini göstərdi və bildirdi ki, Fevzi Çakmak 20 il Baş Qərargah rəisi olmuşdur. Elədirmi?

**Hüseyn Qıvrıqoğlu:** Doğrudur.

**Heydər Əliyev:** Amma indi sizdə qanun var, hər kəs dörd il xidmətini edir. Sizin ordu üçün, mən hesab edirəm ki, bu da bir müasir sistemdir. Ancaq bu dörd ildə kim nə iş görür? Dörd il o qədər böyük dövr deyil, amma az da deyildir. Dörd ilin içərisində çox şey etmək olar.

Son dörd ilin içərisində Türkiyə Cümhuriyyəti ilə, onun silahlı qüvvələri ilə əməkdaşlığımızda, işbirliyimizdə Baş Qərar-

gah rəisi hörmətli Hüseyn Qıvrıqoğlu ilə daim yaxın əlaqəmiz olmuşdur. Bu əlaqələr nəticəsində görüşlərimiz də, danışıqlarımız, söhbətlərimiz də olubdur. Mən hər dəfə Türkiyəyə gələndə mütləq Baş Qərargah rəisi ilə görüşürəm. Onu öncə də, sonra da Azərbaycana dəvət etmişdim, gəlmişdi.

Dörd il müddətində görmüşəm ki, əziz dostum Hüseyn Qıvrıqoğlu Türkiyə ordusunun, Mustafa Kamal Atatürk ordusunun ən dəyərli yüksək generallarından biridir və Baş Qərargah rəisi vəzifəsini şərəflə yerinə yetirən bir insandır. Təkcə Türkiyə ordusunda gördüyü işlərdən yox, NATO sistemində və dünyanın başqa orduları ilə yaranmış işbirliyində, o cümlədən türk dünyasına mənsub olan dövlətlərin, ölkələrin silahlı qüvvələri ilə işbirliyində və başqa sahələrdə çox gözəl örnək olubdur. Mən bunu Azərbaycandan görürəm.

Ona görə də mən hesab edirəm ki, hörmətli Hüseyn Qıvrıqoğlu Türkiyə Silahlı Qüvvələrində şərəflə, namusla, sədaqətlə, vətənə bağlı hissiyyatlarla indiyə qədər xidmət etdiyi kimi və dörd il Baş Qərargah rəisi vəzifəsini şərəflə yerinə yetirdiyi kimi, ömrünün sonuna qədər də bu duyğularla Türkiyə Cümhuriyyətinin yaşaması, inkişaf etməsi üçün, Türkiyə Silahlı Qüvvələrinin daha da inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Hörmətli Hüseyn Qıvrıqoğlu bir il bundan öncə Azərbaycanda rəsmi səfərdə olduğu zaman mən cümhur başqanı olaraq onu Azərbaycanın yüksək ordeni – «Azərbaycan bayrağı» ordeni ilə təltif etdim. İndi isə Türkiyəyə səfər edərək və düşünərək bilirik ki, sizin qanunlara görə hörmətli Baş Qərargah rəisi bir müddətdən sonra öz vəzifəsindən ayrılacaqdır, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi hörmətli Hüseyn Qıvrıqoğlunu Azərbaycanın digər ordeni – «Şöhrət» ordeni ilə təltif etmişəm. Artıq burada bu barədə məlumatlar verildi.

Mən hesab edirəm ki, Azərbaycanın iki yüksək dövlət mükafatı – «Azərbaycan bayrağı» ordeni və «Şöhrət» ordeni ordu generalı Hüseyn Qıvrıqoğlunun döşündə parıldayaraq, Azərbaycan ilə Türkiyə arasında, Azərbaycan Silahlı Qüvvələri ilə Türkiyə Silahlı Qüvvələri arasında olan dostluq-qardaşlıq əlaqələrini daim nümayiş etdirəcək və bu əlaqələrimiz sarsılmaz olacaqdır, əbədi olacaqdır.

Mən hörmətli Hüseyn Qıvrıqoğlunu vəzifədən ayrılandan sonra istədiyi zaman ailəsi ilə bərabər Azərbaycana dəvət edirəm. Azərbaycan onun doğma evidir. Azərbaycanın, Azərbaycanın cümhur başqanının çox istədiyi şəxsi qonağı olacaqdır. Güman edirəm ki, hörmətli Hüseyn Qıvrıqoğlu da mənim bu arzularımı unutmayacaq və imkan dairəsində yerinə yetirəcəkdir. Mən isə hər zaman Türkiyəyə gələrkən heç vaxt dostlarımı unutmuram. Hamısı ilə görüşürəm. Mən Türkiyədə olmayanda da, belə əlaqələri davam etdirirəm, eləcə də bizim hörmətli Baş Qərargah rəisi ilə.

Bəlkə də Azərbaycan cümhur başqanı kimi, bu sözlərin bəzilərini burada deməyə o qədər də ixtiyarım çatmır. Çünki mən Azərbaycanın prezidentiyəm. Amma mən eyni zamanda Azərbaycanı və Türkiyəni bir-birindən ayırmıram, ona görə də bu sözləri deyirəm.

Əziz dostum, mən Sizə cansağlığı arzu edirəm. Sizin ailənizə səadət və xoşbəxtlik arzu edirəm. Ümidvaram ki, Mustafa Kamal Atatürkün əsgəri olaraq Siz Türkiyənin Silahlı Qüvvələrində daim xidmətdə olacaqsınız və bundan sonra da Türkiyə–Azərbaycan dostluq, qardaşlıq və birgə əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edəcəksiniz. Sağ olun. Sizin hamınıza təşəkkür edirəm.

* * *

*Sonra prezident Heydər Əliyev ordu generalı Hüseyn Qıvrıqoğluna «Şöhrət» ordenini təqdim etdi.*

*Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Qıvrıqoğlu mərasimdə çıxış etdi. O, dövlətimizin başçısına təşəkkürünü bildirdi, bu ordeni həyatında layiq görüldüyü ən yüksək mükafatlardan biri kimi dəyərləndirdi, ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf edəcəyini vurğuladı.*

## TÜRKİYƏ RESPUBLİKASININ 9-cu PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*27 iyun 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev özünün əziz dostu və qardaşını çox böyük hörmət və ehtiramla qarşıladı.*

*Əziz dostu və qardaşı, Azərbaycan prezidenti ilə hər bir görüşdən çox böyük sevinc duyduğunu söyləyən cənab Süleyman Dəmirəl respublikamızın rəhbərini Türkiyədə bir daha salamlamaqdan məmnun qaldığını bildirdi.*

*Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işləri böyük rəğbətlə izlədiyini vurğulayan cənab Süleyman Dəmirəl məhz prezident Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti sahəsində Azərbaycan–Türkiyə münasibətlərinin ildən-ilə daha da möhkəmlənməsindən çox məmnun qaldığını vurğuladı.*

*Görüşdə beynəlxalq aləmdə vəziyyət, Azərbaycan–Türkiyə əməkdaşlığının perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Bakı–Tbilisi –Ceyhan əsas ixrac boru kəməri, Bakı– Tbilisi– Ərzurum qaz kəməri layihələrinin həyata keçirilməsi sahəsində görülən*

*işlər və ölkələrimizi maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

**Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin jurnalistlərə verdiyi qısa müsahibə:**

**S u a l: Siz Dağlıq Qarabağ probleminin həlli yolunu necə görürsünüz?**

**C a v a b:** Dağlıq Qarabağ məsələsi Azərbaycana qarşı edilmiş çox böyük haqsızlıqdır. Bu, beynəlxalq hüquq, insanlıq baxımından ədalətsizlikdir. Bu məsələ sülh yolu ilə həll olunmalıdır və bu yol ilə də çözüləcək, ədalət bərpa olacaqdır. Bu sahədə məsləhətləşmələr davam edir.

**S u a l: Bu məsləhətləşmələrdən sonra Türkiyə hansı təsiri edə biləcək?**

**C a v a b:** Türkiyə Azərbaycanı heç vaxt savaşa təşviq etməz. Bunu hər kəs bilsin. Müharibənin faydası yoxdur. Türkiyə sülh səylərində hər zaman Azərbaycanla bərabərdir və bərabər olmağa da davam edəcəkdir.

**S u a l: Sizin fikrinizcə, Dağlıq Qarabağ problemini 4-5 il ərzində həll etmək olacaqmı?**

**C a v a b:** Siyasi hadisələrə vaxt vermək çətindir. Azərbaycan 10 ildən çoxdur ki, bu problemlə məşğuldur. Bunun 4-5 ili Azərbaycanda sabitliyin yaranması üçün gərək olubdur. Bu sabitlik hörmətli Heydər Əliyevin rəhbərliyi və siyasəti nəticəsində mümkün olmuşdur. Onun göstərdiyi yola inanmaq lazımdır. O sizə həqiqətən də doğru yol göstərir.

**S u a l: Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bakı–Tbilisi –Ceyhan boru xətti tam hazır olacaqdır və oraya Qazaxıstan nefti də qoşulacaqdır. Beləcə, həm

Azərbaycan, həm də Orta Asiya nefti bu boru xətti ilə axacaqdır. İndi 30 milyon ton nəzərdə tutulub, amma bu 100 milyon tona çatacaqdır.

**S u a l: Bir sıra qəzetlər yazırlar ki, Türkiyənin Azərbaycanda bir PKK qorxusu var. Belə bir qorxu varmı?**

**C a v a b:** Xeyr, heç zaman belə bir qorxu yoxdur. Bunlar əhəmiyyətsiz şeylərdir.

* * *

*Türkiyə Respublikasının Baş naziri Bülənd Ecevit Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Türkiyəyə səfəri zamanı səhhəti ilə əlaqədar onunla görüşə bilməməsindən təəssüfləndiyini bildirmişdir. Dövlətimizin başçısının səfərini yüksək qiymətləndirən cənab Bülənd Ecevit teleqram göndərmişdir. Teleqramda o, türk dünyasına göstərdiyi xidmətlərinə görə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə böyük hörmət və ehtiramını bildirmişdir. Bülənd Ecevit Azərbaycan prezidenti Heydər Əliyevə və nümayəndə heyətinin bütün üzvlərinə cansağlığı və uğurlar arzulamışdır.*

*Azərbaycan prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Baş naziri cənab Bülənd Ecevitlə telefonla danışmışdır. Respublikamızın rəhbəri Türkiyə hökuməti başçısının səhhəti ilə maraqlanmış, onun tezliklə sağalmasını arzulamışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*28 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev iyunun 28-də Ankaranın Esenboğa hava limanına gəldi.*

*Hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını hava limanının «Şərəf» salonunun qarşısında Turkiyə Cümhuriyyətinin 9-cu prezidenti Süleyman Dəmirəl, Ankara valisi Yəhya Gur, Türkiyə Böyük Millət Məclisinin deputatları və digər rəsmi şəxslər səmimiyyətlə, mehribanlıqla salamladılar. Prezident Heydər Əliyev onlarla səmimiyyətlə görüşərək, razılığını bildirdi.*

*Azərbaycan prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi, türk əsgərini salamladı.*

*Təyyarənin pilləkəni yanında Süleyman Dəmirəl, Yəhya Gur, millət vəkilləri və digər rəsmi şəxslər Azərbaycan prezidenti Heydər Əliyev ilə səmimiyyətlə sağollaşdılar.*

*Azərbaycan prezidentinin təyyarəsi Qars şəhərinə yola düşdü.*

* * *

*Türkiyənin 9-cu prezidenti, ölkəmizin və xalqımızın böyük dostu Süleyman Dəmirəl Esenboğa hava limanında Azərbaycan jurnalistlərinə qısa müsahibə verdi.*

*Cənab Dəmirəl Ermənistan–Azərbaycan münaqişəsindən, son illərdə Azərbaycanın bütün sahələrdə inkişafından, qazandığı böyük nailiyyətlərdən, ölkələrimiz arasında səmərəli iqtisadi əlaqələrdən danışdı.*

*Ermənistanın işğalçılıq siyasətini tənqid edən Süleyman Dəmirəl bildirdi ki, Türkiyə Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyəcək və bu, Türkiyənin dəyişməz siyasi xəttidir.*

*O, xüsusi vurğuladı ki, Azərbaycanda ictimai-siyasi sabitliyin yaranması, demokratik prinsiplərin bərqərar olması, iqtisadi sahədə tərəqqi bilavasitə prezident Heydər Əliyevin xidmətidir. Cənab Süleyman Dəmirəl dost və qardaş ölkələrimiz arasında münasibətlərin səviyyəsindən məmnun qaldığını söylədi.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev həmin gün Türkiyənin Qars şəhərinə gəldi. Hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident Heydər Əliyevi Qars valisi Nevzat Turhan, şəhər bələdiyyəsinin başqanı Naib Əlibəyoğlu və digər rəsmi şəxslər mehribanlıqla qaşıladılar. Hava limanına toplaşmış Qars sakinləri Azərbaycan prezidentinə sevgi və məhəbbətlərini hərarətli alqışlarla izhar etdilər.*

# QARS ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*28 iyun 2002-ci il*

*Təntənəli açılış mərasiminin iştirakçıları əvvəlcə Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş övladlarımızın əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.*

*Hər iki ölkənin dövlət himnləri səsləndi.*

*Qars valisi Nevzat Turhan və şəhər bələdiyyəsinin başçısı Naib Əlibəyoğlu mərasimdə çıxış edərək, Azərbaycan prezidenti Heydər Əliyevin bu səfərini şəhər sakinlərinin yaddaşından silinməyəcək tarixi hadisə kimi qiymətləndirdilər, Türkiyənin bu bölgəsinə səfər etdiyinə görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söylədi.*

**Heydər Əliyev:** Əziz dostlar!

Əziz bacılar, qardaşlar!

Əziz qarslılar!

Hörmətli xanımlar və cənablar!

Mən bir neçə gündür ki, Türkiyə Cümhuriyyətində ziyarətdəyəm. İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının onuncu ildönümünü qeyd etdik. Orada həmin ölkələrin başqanları, heyətləri ilə qarşıda duran vəzifələri müəyyən etdik. Ancaq sonra mən Türkiyə Cümhuriyyətinin prezi-

denti, əziz dostum Əhməd Necdət Sezərin dəvəti ilə Ankaraya işgüzar səfərə gəldim və orada – ola bilər sizə televiziyadan, yaxud radiodan məlumdur – bir çox işlər gördük. Türkiyənin hörmətli cümhur başqanı ilə çox səmərəli, çox əhəmiyyətli danışıqlar apardıq, digər dövlət və hökumət başçıları ilə danışıqlarımız oldu. Mən bu görüşlərimdən və Ankarada gördüyümüz işlərdən çox məmnun olduğumu bildirmək istəyirəm. Ancaq mən də və Türkiyə tərəfi də belə məsləhət bildik ki, bu ziyarət proqramında mən Qarsı da ziyarət edim. Çünki Qars Türkiyənin çox gözəl bir guşəsidir. Eyni zamanda, müasir dünyada yaranmış vəziyyətə görə Qars böyük strateji əhəmiyyət daşıyır.

Ancaq mənim Qarsa gəlmək istəyim, arzum yalnız bundan ibarət deyildir. Qars bizim üçün, azərbaycanlılar üçün tarixən çox məşhur və çox doğma, çox əziz bir diyar olubdur.Uzun illər sovet hakimiyyəti hökm sürdüyünə görə, Azərbaycan xalqı qardaş türk xalqı ilə tarixi köklərindən gələn əlaqələrini istədiyi kimi qurub inkişaf etdirə bilməmişdir.

Biz bir kökdən olan xalqlarıq, millətlərik, türk millətləriyik, türk xalqlarıyıq. Türk dünyasının tarixi o qədər qədim, o qədər zəngindir ki, əsrlər keçdikcə türk kökündən bir çox xalqlar yaranmışdır – Osmanlı türkləri, Orta Asiyada yaşayan özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, tatarlar, azərbaycanlılar və digəriləri. Bizim hamımızın bir kökümüz, bir dilimiz, bir dinimiz var. Çox qədim, müştərək adət-ənənələrimiz, mənəvi dəyərlərimiz var.

Bizim xalqlarımızın böyük şəxsiyyətləri, alimləri, yazarları bugünkü nəsil üçün gözəl irs qoyub gediblər. Onlar bizim xalqımızın çoxəsrlik tarixini yazıblar, yaradıblar.

Dədə Qorqud deyəndə, türk dünyasına mənsub olan hər bir xalq deyir ki, bu mənimdir. Türkiyədə ona Ata Qorqud

deyirlər, Azərbaycanda Dədə Qorqud deyirik. Bəli, bizim hamımız o kökdənik. Təsadüfi deyildir ki, bir iki-üç il bundan öncə böyük Dədə Qorqudun Azərbaycan dilində yazdığı dastanların 1300 illik tarixini bir yerdə, türkdilli ölkələrin cümhur başqanları, digər nümayəndələri ilə birlikdə Bakıda bayram etdik. Belə faktlar çoxdur. Bunları siz də bilirsiniz, bizim xalqlarımızın hamısı da yaxşı bilir.

Yenə də bildirmək istəyirəm ki, azərbaycanlılar üçün Qarsın xüsusi yeri var. Çünki birincisi, coğrafi nöqteyi-nəzərdən biz bir-birimizə yaxınıq. İkincisi də, keçmişdə bizim aramızda sərhəd olmayıb və biz daim bir-birimizlə əlaqədə olmuşuq. Ancaq eyni zamanda Qars da, türk xalqı da, Azərbaycan xalqı da son əsrlərdə çox böyük sınaqlardan keçiblər, çox böyük məhrumiyyətlərə məruz qalıblar. Öz torpaqlarını qoruyub saxlamaq üçün savaşa qalxıblar, döyüşüblər, vuruşublar, şəhidlər veriblər. Ancaq zaman-zaman torpaqlarının bəzilərini itirməsinə baxmayaraq, son olaraq yenə də özlərinin torpaqlarında, özlərinin doğma yerlərində yaşamaq haqqını qəhrəmanlıq, rəşadət və cəsarət nümunələri ilə qazanıblar.

Qarsın tarixi məlumdur. Əgər XIX əsri götürsək, Qars bir neçə dəfə əldən-ələ keçibdir. 1877-1878-ci illərdə Rusiya–Türkiyə savaşında Qarsı və bu bölgəni ruslar ələ keçiriblər. Rusiya burada hakim olubdur. Tarixdən bilirsiniz, türklərin başına hansı bəlalar gəlibdir. Burada olan türkləri yerlərindən didərgin salıblar, çıxarıblar, qırıblar, kəndləri yandırıblar. Bura erməniləri, yunanları, digər millətlərdən olan insanları köçürüblər.

Buranı türk xalqının əlindən almağa çalışıblar. Təəssüflər olsun ki, o vaxt Rusiya imperatorluğunun Türkiyəyə qarşı olan bu təcavüzkar münasibəti Qarsın bir neçə il onların

əlində qalmasına səbəb olubdur. ancaq türk xalqı bununla razılaşa bilməyibdir.

Məlumdur ki, 1918-ci ildə böyük öndər Mustafa Kamal Atatürkün əmri ilə Türkiyənin böyük sərkərdəsi Kazım Qarabəkir Paşa və onun başçılıq etdiyi qoşunlar rus ordusunun hissələrini buradan çıxarıb, Qarsı azad edib və hər il oktyabr ayının, səhv etmirəmsə, 30-u Qarsın qurtuluş günüdür. Elədirmi? O gündən Türkiyə Cümhuriyyəti böyük Atatürkün başçılığı ilə öz torpaqlarının sahibi olub və türklərin tarixi məkanı olan Qars bütün faciələrdən keçərək, yenə də onların məkanı olubdur.

Siz tarixi yaxşı bilirsiniz. Bu torpaq türk torpağıdır. Əgər tarixin hansısa anlarında hansısa güclü dövlətlər müəyyən səbəblərdən bu torpaqda hakim olubsa, bu haqsızlığa Allah da razı olmayıbdır. Amma əsas odur ki, türk əsgəri, türk xalqı heç vaxt öz torpağının başqalarının tapdağı altında qalmasına razı olmayıbdır.

Onu da qeyd etmək istəyirəm ki, Kazım Qarabəkir Paşa təkcə Qarsın xilaskarı deyildir. O, eyni zamanda həmin illər öz qoşunları ilə Naxçıvana gəldi. Ermənilər Naxçıvanda azərbaycanlıları qırırdılar və o vaxtkı türk ordusunun hissələri Kazım Qarabəkir Paşanın başçılığı ilə Naxçıvana gəldilər. Naxçıvanlılara, azərbaycanlılara, türklərə qardaş yardımını göstərdilər və orada erməniləri darmadağın etdilər. Bunu da heç kəs unutmur.

Türkiyə Naxçıvanda bir məscid tikibdir, onun adı Kazım Qarabəkir Paşa məscididir. Hörmətli vali mənə xatırladırdı ki, 1999-cu ildə üç-dörd gün idi ki, burada vali vəzifəsinə yenicə başlamışdı, onda Naxçıvana gələrək, bizim keçirdiyimiz həmin mərasimdə iştirak etmişdir. Xatirinizdədir, o vaxt biz Kazım Qarabəkir Paşanın qızını, İstanbul Universitetinin

professorunu dəvət etmişdik. O da orada bizimlə bərabər idi. Yəni xalq, Azərbaycan xalqı heç bir şeyi unutmur və unutmayacaqdır.

Burada siz Ermənistanla sərhəddəsiniz. Ermənilər daim iddia edirlər ki, bu torpaqların, bəlkə də, hamısı onlarınkıdır. Ağılsız adamlardır… Ancaq təəssüflər olsun ki, belə fikirlər olur, yaşayır. Ermənilər indi yenə də Türkiyəyə torpaq iddiası ilə qalxıblar. Guya türklər ermənilərə qarşı vaxtı ilə «soyqırımı» ediblər, erməniləri qırıblar. Tamamilə yalandır. Burada, Qarsın bu torpağının altında indi də qazıb tapa bilərsiniz, nə qədər günahsız türklər ermənilər tərəfindən öldürülübdür, yandırılıbdır. Tarix, faktlar göstərir ki, ermənilər südəmər uşaqları tüfənglərin süngüsünə keçirib öldürürdülər. Qadınları soyundurub qovurdular, sonra öldürürdülər. Bizim türk xalqımıza qarşı belə faciələr törədirdilər… İndi də burada torpaq iddiası edirlər. Onlar heç vaxt buna nail ola bilməzlər. Türkiyənin torpaqları Türkiyənindir.

Türkiyə güclü bir dövlətdir. Türkiyənin güclü ordusu, qərhəman ordusu var. Mən Türkiyənin dostu, qardaşı kimi bilirəm ki, əgər kim indi Türkiyə torpağına bir addım atarsa, onun cavabını elə verəcəklər ki, o da, onun ata-babası da bunu heç vaxt unutmayacaqdır.

Mən demirəm ki, millətlər bir-birinə daim düşmən olmalıdır. Yox. Ancaq belə faciələri də unutmaq olmaz. Yadımdadır, iki-üç il bundan öncə biz Azərbaycanda eşitmişdik ki, burada Qarsda bəziləri deyirlər ki, sərhədləri açın, ermənilərlə ticarət edək. Mənim dostum, Türkiyənin 9-cü cümhur başqanı Süleyman Dəmirəl buraya gəlmişdi, qayıtdıqdan sonra mənə telefon etdi. Bildirdi ki, orada bəzi adamlar mənə belə sözlər dedilər, mən isə dedim ki, üç-beş quruşdan ötrü biz millətimizin mənafeyini heç kəsə təslim edə bilmərik. Bu müdrik sözlər,

hesab edirəm ki, hər birimiz üçün, o cümlədən Qarsda yaşayan vətəndaşlar üçün də, bizim üçün də həmişə örnək olmalıdır. Biz bunu heç vaxt unutmamalıyıq.

Onu da bilirsiniz ki, ermənilər Azərbaycana qarşı torpaq iddiası ilə hələ 1988-ci ildə qalxdılar. Azərbaycanın qədim torpağı Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə onlar hərbi təcavüzə başladılar. Bu hələ sovet hökuməti dövründə idi. Amma təəssüflər olsun ki, o vaxt sovet hökumətinin Moskvada oturan başçıları ermənilərə daha çox dəstək verdilər və onların qarşısını almadılar. Azərbaycanda isə bəzi səbəblərdən ölkənin daxilində sabitlik olmadığına görə, ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət uğrunda çəkişmələrinə görə Azərbaycanın qəhrəman oğulları öz torpaqlarının müdafiəsi üçün tam səfərbər edilə bilmədi. Bunun nəticəsində ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər.

Dağlıq Qarabağ kiçik bir yerdir. Oranın ərazisi cəmi dörd min kvadrat kilometrdir. Orada keçmişdən ermənilər də, azərbaycanlılar da yaşayıblar. Amma son vaxtlarda orada ermənilər daha çox olub, azərbaycanlılar az. Əhalisinin sayı 150–160 min nəfər idi, yəni böyük bir yer deyildir. Amma ermənilər oranı Azərbaycandan qoparıb Ermənistanla birləşdirmək istədilər. Müharibə başlandı. Müharibədə bəzi səbəblərdən Azərbaycanın torpaqlarının nəinki Dağlıq Qarabağ bölgəsi, həm də onun ətrafında olan ən gözəl Qarabağ torpaqları ermənilər tərəfindən işğal olundu və indiyədək işğal altındadır. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı erməni silahlı qüvvələri tərəfindən zorla çıxarıldı. Onlar artıq on ilə yaxındır ki, çadırlarda yaşayırlar. Çünki Azərbaycanda onlar üçün yeni evlər tikmək, şərait yaratmaq mümkün deyildir. İkincisi də, onlar öz torpaqlarına, öz elinə, öz obasına dönməlidirlər. Biz belə ağır bir durumdayıq.

1994-cü ilə qədər müharibə davam edirdi. 1994-cü ildə biz, Ermənistanla Azərbaycan atəşkəs elan etdik. O vaxtdan müharibə yoxdur. Atəş yoxdur, döyüşlər yoxdur, şəhidlər yoxdur. Ancaq eyni zamanda, torpaqlarımız da işğal altındadır. Bir milyon azərbaycanlı indiyə qədər çadırlarda yaşayır.

Bu, beynəlxalq hüquq normalarına ziddir. Birləşmiş Millətlər Təşkilatının bir neçə qətnaməsi vardır ki, Ermənistan silahlı qüvvələri gərək Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxsın. ATƏT-in qərarları var. Başqa dövlətlərin bu barədə qərarları var. Ancaq ermənilər bütün bunlara məhəl qoymur, bunları yerinə yetirmirlər. Dünyada çox güclü olan erməni lobbisi – Amerika Birləşmiş Ştatlarında, Avropada, Fransada və digər ölkələrdə olan erməni lobbisi kiçik Ermənistanı müdafiə edir.

Biz o ildən, yəni 1994-cü ildən məsələni sülh yolu ilə həll etmək istəyirik. Danışıqlar aparırıq, beynəlxalq təşkilatlarda danışıqlar aparırıq. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa bu işə başçılıq edir. Biz bu məsələlərin çözülməsində Türkiyə Cümhuriyyəti ilə daim bir yerdəyik, məsləhətləşirik. İndi mən Ankarada olarkən yenə də çox böyük məsləhətləşmələr apardım. Çünki biz yenidən müharibə etmək istəmirik. Doğrudur, bizim xalqımızın içərisində müharibəni başlayıb, nəyin bahasına olursa-olsun, nə qədər şəhidlər verməli olsaq da, torpaqlarımızı azad etmək fikirləri də çoxdur. Ancaq cümhur başqanı kimi, mən düşünürəm ki, müharibə etmək indi düzgün yol deyildir. Biz məsələni sülh yolu ilə həll etməliyik. Onun üçün də Ermənistanı məcbur etməliyik ki, Azərbaycan torpaqlarından çəkilsin.

Ermənistan kiçik bir ərazidədir. İqtisadiyyatı çox ağır vəziyyətdədir. Ermənistanın əhalisi hər ay oranı tərk edib dünyanın bir çox ölkələrinə – Amerikaya, Avropaya, Rusiyaya gedir.

İndi Ermənistanda heç iki milyon adam yoxdur. Keçmişdə dörd milyon əhalisi vardı. İqtisadiyyatı çox zəifdir. Ona görə də mən hesab edirəm ki, Ermənistan bu iqtisadi çətinliklər içərisində boğularaq, mütləq məsələnin sülh yolu ilə həll olunmasına razılıq verəcəkdir. Biz Azərbaycan torpaqlarını döyüşsüz, savaşsız, müharibəsiz, sülh yolu ilə azad edəcəyik. Burada Türkiyə bizim arxamızdadır, bizimlə bərabərdir. Türkiyə Ermənistanın qarşısında məsələni belə qoyubdur: Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmayana qədər, Azərbaycan torpaqları azad edilməyənə qədər Türkiyə Ermənistanla sərhədlərini açmayacaq və onunla heç bir iqtisadi, siyasi əlaqəsi olmayacaqdır. Türkiyənin bu siyasəti Ermənistana böyük bir təzyiqdir. Çünki əgər Ermənistan doğru yola gəlsə, işğal edilmiş Azərbaycan torpaqlarından çıxsa, Türkiyə ilə Azərbaycan birlikdə məsləhətləşməklə, Türkiyənin Ermənistanla sərhədləri müəyyən mənada açılsa, onda, əlbəttə ki, Ermənistanın dünyaya çıxışı olacaq, iqtisadiyyatı inkişaf edəcəkdir. Ancaq indi Türkiyə Azərbaycanla bərabərdir. Türkiyənin cümhur başqanı bunu dünən də bəyan edibdir və Türkiyə dövlətinin digər başçıları da bildiriblər ki, ermənilər Azərbaycan torpaqlarını azad etməyincə, Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə ola bilməz, sərhədlər qapalı olaraq qalacaqdır.

Biz buna inanırıq. Çünki bu bizim üçün çox böyük dəstəkdir, çox böyük yardımdır. Güman edirəm ki, Türkiyə və Azərbaycan bu məsələni birlikdə həll edəcəkdir.

Mən Qarsa ilk dəfə on il bundan öncə, 1992-ci ilin fevral ayında gəlmişəm. Onda mən Naxçıvanda yaşayırdım. O vaxt Azərbaycanda durum çox ağır idi. Naxçıvan blokadada idi, indi də blokadadadır. Amma o vaxt orada yaşayış çox pis idi. O zaman mənim köhnə dostum Süleyman Dəmirəllə – mən onunla hələ 1968-ci ildən, ilk dəfə Türkiyənin Baş bakanı seçi-

lən zaman Bakıya gəldiyi vaxtdan tanış idim – telefon əlaqələrim var idi. O, Azərbaycana, Naxçıvana yardım edirdi. O məni dəvət etdi. Qarsın valisi məni Naxçıvanla sərhəddə qaşıladı, avtomobillə Qarsa gəldim. Buradan Süleyman Dəmirəlin təyyarəsi ilə Ankaraya getdim. Onda Qarsı gördüm. Geriyə dönəndə yenə də Qarsdan keçdim.

Sonra, 1993-cü ildə İğdırın ildönümü ilə əlaqədar orada mərasim var idi. Hörmətli Süleyman Dəmirəl oraya gəlmişdi. Mən də Naxçıvandan gəlmişdim. Orada bərabər olduq. Sonra birlikdə buraya gəldik. Xatirimdədir, burada böyük bir toplantı vardı. Baş bakan Süleyman Dəmirəl böyük nitq söylədi. Onda siz burada şəkər fabrikasının, sement zavodunun tikilməsi haqqında sözlər deyirdiniz. Dünən mən dostum Süleyman Dəmirəldən soruşdum ki, indi şəkər fabrikası varmı? Dedi ki, var. Sement zavodu varmı? Dedi var. Amma nə var, nə yox – onu mən bilmirəm. Gözlərim onu görür ki, bu illər ərzində Qars çox dəyişilib, çox inkişaf edibdir. Burada böyük, gözəl binalar, küçələr, gözəl yerlər görürəm. Qars inkişaf edir və etməlidir. Çünki Qars Türkiyənin, təkcə Türkiyənin yox, Azərbaycanın da bu nöqtədə ən önəmli bir şəhəridir, yeridir.

Bilirəm ki, 1918–1920-ci illərdə, Azərbaycanda sovet hakimiyyəti qurulan zaman azərbaycanlıların bir qismi sovet hökumətindən qorxub qaçaraq Türkiyəyə gəlmişdilər. Onların bir çoxu Qarsda yerləşmişdi. Borçalı mahalından, İrəvan tərəfdən, Qarabağdan, Gəncədən və başqa yerlərdən... Mən çox vaxt Qarsdan olan adamlarla görüşürəm. Mənə söyləyirlər ki, babaları Qarabağdandır, Gəncədəndir, İrəvandandır, Borçalıdandır. Bunları mən bilirəm. Bilirəm ki, burada Qarsda azəri köklü insanlar az deyil, çoxdur. Biz hamımız türkük. Amma mən nitqimin əvvəlində də dedim ki, zaman, tarix, yüz illər bizim bəzilərimizin adını dəyişdirib, bir cür qoyubdur. Biz

azərbaycanlıyıq, buradakılar türklərdir – Gürcüstanda Axıska türkləri var, onları da o vaxt sürgün etdilər. Orta Asiyada özbəklər, qazaxlar var. Mən belə başa düşürəm ki, indi burada da Azərbaycandan gəlmiş adamlar var. Ləhcəmiz də bir-birinə yaxındır. Mənə deyirlər ki, Qars ləhcəsi Azərbaycan ləhcəsinə daha yaxındır. Bilmirəm doğrudur, yoxsa yox? Hər halda, mən tam Azərbaycan ləhcəsində danışıram və güman edirəm ki, dediyim sözlərin hamısını siz anlayırsınız. Yəni bunun üçün o qədər də böyük çətinlik yoxdur. Çünki bizim hamımız birik, hamımız bir millətik. Mən demişəm: «Biz – Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətik». Bir məsələni də sizə deyim, hörmətli vali də danışdı. Bilirsiniz ki, biz 1994-cü ildən böyük layihələr üzərində işləyirik və Azərbaycan neftini dünya bazarına çıxarmağa çalışırıq. Bunun yolları çoxdur. Amma biz bunu Türkiyədən çıxarmaq haqqında, Bakı–Tbilisi –Ceyhan boru xəttinin çəkilməsi barədə qərar qəbul etdik. 1994-cü ildə bu qərarı qəbul edərkən buna inanmırdılar, bunu xəyal hesab edirdilər. Çünki bəzi dövlətlər bunu istəmirdi. Azərbaycan neftinin, Xəzər dənizindən çıxarılan neftin digər istiqamətlərdən getməsini istəyirdilər. Ancaq biz öz qərarımızda sona qədər durduq, bu layihəni hazırladıq. Bakı–Tbilisi –Ceyhan layihəsi hazırdır və biz inşaata başlayırıq. 2005-ci ildə inşaat qurtaracaq, Azərbaycan nefti Xəzər dənizindən 2000 kilometr uzunluğunda olan boru xətti ilə Aralıq dənizində Türkiyənin Ceyhan limanında tankerlərə doldurulacaqdır. Bu boru da buradan, sizin yanınızdan keçəcəkdir. Güman edirəm ki, bunun sizə də faydası çox olacaqdır.

Biz bir qaz kəməri də çəkirik. Azərbaycanda böyük qaz yataqları var. İlkin olaraq qərara aldıq ki, həmin qazı Bakıdan Ərzuruma gətirək. O işə də başlamışıq. O da 2004-cü ildə bitəcəkdir. Ərzuruma gedən boru xətti də buradan keçəcəkdir və

siz təbii qaz alacaqsınız. Bunların hamısı Türkiyə ilə Azərbaycanı elə tellərlə bir-birinə bağlayır ki, bundan sonra yüz il də, min il də bizi heç kəs heç vaxt ayıra bilməyəcəkdir.

Mən sizə təşəkkür edirəm ki, siz burada mənim adıma bir park və bulvar yaratmısınız. Çox sağ olun, mən bundan çox məmnunam. Əgər siz mənim şəxsiyyətimə, mənim fəaliyyətimə, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsində xidmətlərimə belə qiymət verirsinizsə, mən sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Sağ olun, hamınıza cansağlığı arzu edirəm.

Burada – Qarsda Azərbaycan konsulluğu yaranacaqdır. Cümhur başqanı Əhməd Necdət Sezərlə bu barədə danışdım və onun da razılığını aldım. Sağ olun.

* * *

*Heydər Əliyev parkında həmyerlimiz, heykəltəraş Əşrəf Əşrəfovun hazırladığı «Leyli və Məcnun» abidəsi də qoyulmuşdur. Dövlətimizin başçısı həmin abidənin açılışını bildirən örtüyü də götürdü.*

*Daha sonra Azərbaycan prezidenti və mərasim iştirakçıları parkın yanındakı prospektə – Heydər Əliyev bulvarına gəldilər. Prezident Heydər Əliyev prospektin açılışını bildirən lenti kəsdi.*

# QARS ŞƏHƏRİNDƏ QAFQAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ* NİTQ

*28 iyun 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev parkın və bulvarın açılış mərasimindən sonra Qars şəhərindəki Qafqaz Universitetinə gəldi. Universitetin rektoru, professor Necati Qaya, bu ali təhsi ocağının professor-müəllim heyəti, tələbələr Azərbaycan dövlətinin başçısını səmimiyyətlə, mehribanlıqla qarşıladılar.*

*Burada dövlətimizin başçısı Heydər Əliyevə Qafqaz Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsinə həsr olunmuş mərasim keçirildi.*

*Mərasimdə universitetin rektoru, professor Necati Qaya, Qars şəhərinin valisi Nevzat Turhan çıxış etdilər. Sonra prezident Heydər Əliyevə universitetin fəxri doktoru diplomu, mantiya təqdim olundu. Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab rektor!

Hörmətli professorlar, müəllimlər, tələbələr!

Hörmətli xanımlar və cənablar!

---

* Mərasimdə universitetin fəxri doktoru diplomunun təqdim olunması münasibətilə Türkiyə Böyük Millət Məclisinin sədri Ömər İzginin. Baş nazir Bülənd Ecevitin, Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin, ölkənin bir çox nazirlərinin, nüfuzlu ali təhsil ocaqları rektorlarının Azərbaycan prezidentinə ünvanladıqları təbrik teleqramları oxundu.

Məni Qafqaz Universitetinin fəxri doktoru adına layiq gördüyünüzə, senatın qərarı ilə bu adı verdiyinizə görə və nəhayət, bu dəqiqələrdə fəxri doktorluq diplomunu, bütün sənədlərini və bu əbanı, mantiyanı mənə təqdim etdiyinizə görə sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Burada hava isti olduğuna görə, izin versəniz, mən bunu çıxardaram ki, sonra sizinlə rahat danışa bilim.

Əziz dostlar, insan cəmiyyətində hər bir iş, hər bir sənət qiymətlidir. Ancaq tarix boyu belə olub, indi də belədir və gələcəkdə də belə olacaqdır ki, müəllimlik sənətindən, yəni insanları təhsilləndirmək, sizin sözünüzlə desək, eyniləşdirmək sənətindən uca sənət yoxdur. Bizim Azərbaycanda artıq on illərə belə bir adət var – insanlar insanlara müraciət edəndə, hörmət əlaməti olaraq, müəllim deyirlər. Çünki müəllim, həqiqətən də böyük hörmətə layiqdir.

Cürbəcür adlar var. Siz burada çox yaxşı bir kəlmə işlədirsiniz: «sayın».

Deyirsiniz sayın Heydər Əliyev, bununla da işinizi bitirirsiniz. Bizim Azərbaycanda hakimiyyətdə olmuş adamlar bir vaxt icad etdilər ki, onlar bəydirlər. Onlar bir-birilərinə bəy deyirlər. Türkiyədə bəy sözü işlənir. Bu, Türkiyənin qədim dövrlərindən gəlir. Amma bilməlisiniz ki, Azərbaycanda xüsusi titul olubdur. Yəni hər adama bəy deyilə bilməzdi. Gərək o, bəy nəslindən olaydı. Məsələn, Sovetlər İttifaqı qurulmamışdan əvvəl çox məşhur ailələrdən, zadəgan ailələrindən çıxanlara bəy deyirdilər. Onların babası, babasının babası, onun da babası bəy olmuşdur, bəy ailəsindən olmuşdur. Onun böyük mülkü olmuşdur, böyük işləri olmuşdur. Ona görə də o vaxt cəmiyyətdə bəy ən yüksək titul hesab edilirdi. Ancaq indi bu sözü ucuzlaşdırmaq olmaz.

Burada rektor mənim tərcümeyi-halımı söyləyəndə dedi. Mən 1987-ci ildə Moskvada Siyasi Bürodan və hökumət başçılığından uzaqlaşdırıldım. Bunun da səbəbi o idi ki, mən o vaxt orada Qorbaçovun və onun tərəfdarlarının qarşısında, Qarabağ məsələsinin ermənilərin xeyrinə həll olunmasının qarşısında böyük bir qaya kimi durmuşdum. Mənim Siyasi Büroda olmağım ermənilərdə böyük bir dəhşət yaratmışdı. Çünki rus imperatorluğunun tarixində və sovet imperiyasının tarixində Moskvada müsəlman, türk, azərbaycanlı heç vaxt Siyasi Büroda olmamışdı. Tale məni o yüksək vəzifəyə apardı və mən də orada öz xalqımın – Azərbaycan xalqının, təkcə Azərbaycan xalqının yox, müsəlmanların və türk dünyasının mənafeyini imkanım çatan qədər müdafiə etməyə çalışırdım.

Ermənilər heç vaxt qəbul edə bilmirdilər ki, Siyasi Büroda türk var. Amma sovet hakimiyyəti qurulanda orada erməni olmuşdur. Hətta o vaxt mən Siyasi Büroda olarkən, mənim əleyhimə işlər gedəndə Ermənistanın böyük bir şairi yazmışdır ki, nə qədər ki, Siyasi Büroda erməni xalqının düşməni olan türk – Heydər Əliyev oturub, biz Qarabağ məsələsini həll edə bilməyəcəyik.

Buna görə də mən vəzifədən kənarlaşdırıldım. Amma sözüm onda deyil. Bunları sizə söyləməkdə məqsədim budur ki, mən məcbur olub Bakıya gəldim, orada da yaşamaq mümkün olmadı, gəldim Naxçıvana. Amma Naxçıvanda nə gördüm? Qarmaqarışıqlıq, pozulmuş iqtisadiyyat. Sabitlik yox, qanun-qayda yox, sovet hakimiyyəti yıxılıb, amma onun yerinə kim və nə gəlir, məlum deyildi. Küçələrdən çıxmış adamlar, Xalq Cəbhəsinin təşkil etdiyi insanlar orada artıq hakim idilər. Amma çoxusu da savadsız adamlar idi, yəni hörmətsiz adamlar idi. Onlar bir-birilərinə bəy deyirdilər. Onlar bəy olanda, bəs əsl bəy kim olmalı idi? Amma təkcə bir-birilərinə demir-

dilər. Məsələn, küçədə gedir, biri orada alma satır, ona deyir ki, Əli bəy, bu almanın kiloqramı neçəyədir? Hər alma satan bəy olmaz axı! Elədirmi? Ümumiyyətlə, inanmıram ki, alma satan bəy olsun. Bəylər alma bağları yaradıblar. O bağları sonra dağıdıblar, bu bağlara xidmət edənlər də məhsulunu aparıb satıblar. Ona görə mən bu «bəy» sözünü qəbul etməmişəm və heç vaxt da qəbul etməyəcəyəm. Mən bəy olmamışam, bəy deyiləm və bəy də olmayacağam. Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksəyi müəllimdir. Ona görə Azərbaycanda biz bunu həmişə belə düşünmüşük. Mən də uzun illər, sovet dönəmində də Azərbaycanın başçısı olduğuma, indi 9 il də müstəqil Azərbaycanın prezidenti olduğuma görə, cəmiyyətimizin hansı təbəqəsinin nə qədər hörmətə malik olduğunu şəxsən belə düşünürəm. Bu gün müəllimlərin, tələbələrin iştirakı ilə sizdən aldığım bu fəxri ad da müəllimlərin mənə verdiyi mükafatdır.

Bilirsiniz, mən dövlətlərdən çox mükafatlar almışam. Həm sovet dövlətindən, həm digər dövlətlərdən mənim çox ordenlərim var. Əgər onların hamısını taxsam, döşümə yerləşməyəcək. Amma müəllimdən alınan mükafat, müəllimdən alınan qiymət hamısından üstündür.

Üzr istəyirəm, mən Naxçıvanda orta məktəbdə oxumağımı xatırlayıram. Çox yaxşı oxuyurdum – bu sözümə görə məni bağışlayın, özümü tərifləmirəm. Hər halda, bizim sinifdə oxuyanların içərisində hamıdan yaxşı oxuyurdum. O vaxt belə deyildi. İndi görürsən, uşağı məktəbə göndərirlər, onun atası axrasınca gedir, anası gedib baxır ki, uşağı necə oxuyur. Burada da belədir, elədirmi? Hər halda, bizdə belədir. Amma mənim nə atam, nə anam heç vaxt bilməmişdilər ki, məktəbdə hansı dərsi oxuyuram, hansı fəndən nə qiymət alıram.

Ancaq həmişə gecə-gündüz çalışmışam ki, yaxşı oxuyum. Özü də o vaxt Naxçıvanda elektrik işığı yox idi, bunu bilin. Neft lampası var idi. Yəqin ki, keçmişdə burada da olub, sizdə də həmişə elektrik işığı olmayıbdır.

Burada onu görənlər var, yoxsa yox? Biz ona neft lampası, çıraq deyirik. Amma bir var çilçıraq, o, dövlətlilərin çırağıdır. Bir də var ki, adi çıraq, içində bir az neft, başında da şüşə olur və şüşə də tez-tez sınırdı. Pulumuz yox idi ki, gedib ikinci şüşə alaq. Qəzet kağızı ilə şüşəni yamaqlayırdıq ki, ondan istifadə edə bilək. Mən belə oxumuşam. Ancaq mən müəllimlərimə minnətdar olmuşam, müəllimlərimi indiyə qədər xatırlayıram.

Bu günlərdə mən Naxçıvana getmişdim. Orada bir neçə gün keçirdim. Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını artıq dəyişibdir. Ancaq bir müəllimim yaşayır. Onun yüz yaşı var. Adı da Lətif Hüseynzadədir. O mənə Azərbaycan dili, ana dili dərsi deyirdi. Mən o vaxt bizim indi qəbul etdiyimiz latın əlifbası ilə Azərbaycan dilini, ana dilini öyrənirdim, Azərbaycan ədəbiyyatını öyrənirdim. Mən müəllimimi bu dəfə də gördüm, çox sevindim. O, tarixi də çox bilən adamdır. Xatırlayıram, hələ bir neçə il bundan öncə mən Naxçıvanda onunla görüşəndə mənə ilk dəfə dedi ki, – mən onsuz da bilirdim və bu gün meydanda da dedim – əgər 1918-ci ildə türk ordusu Naxçıvana gəlməsəydi, Kazım Qarabəkir Paşanın ordusu və özü Naxçıvana gəlməsəydi, ermənilər Naxçıvanda azərbaycanlıların çoxunu qıracaqdılar. Bu adam azərbaycanlılara qarşı soyqırımın şahididir, Kazım Qarabəkir Paşanı görmüş adamdır. Çox sevindim ki, müəllimim indi də sağlamdır. Yaxşı söhbət etdik, danışdıq. Mən dörd gün Naxçıvanda

oldum, ancaq müəllimimlə görüşüm qədər ləzzət verən, məni sevindirən heç bir şey olmadı. Güman edirəm, hər biriniz bunu deyə bilərsiniz, çünki hər biriniz məktəbdə oxumusunuz, müəlliminiz olubdur. Bu sizin üçün yeni bir şey deyildir. Ancaq mən öz həyatımdan danışıram.

Bir halda ki, siz məni fəxri doktor etmisiniz, bunları sizə deyərək, bir daha sizə – Qars Qafqaz Universitetinin müəllimlərinə, professorlarına, burada gənc nəslin təhsil alması və inkişaf etməsi üçün xidmət göstərən insanların hamısına hörmət və ehtiramımı bildirirəm.

Qafqaz Universitetinin yaranması çox böyük hadisədir. On il bundan öncə burada universitet yox idi. Mən ilk dəfə 1992-ci ilin fevral ayında Naxçıvandan Ankaraya gedərkən burada Qarsda olmuşam. Sonra, 1993-cü ildə əziz dostum Süleyman Dəmirəllə bir dəfə də Qarsda olmuşam. Qarsın çoxlu problemləri vardı. İşsizlər vardı, sənaye az idi. Qarsda bu gün gördüyüm görünüş yox idi. Universitet də yox idi. Türkiyənin 9-cu cümhur başqanı, əziz dostum Süleyman Dəmirəl çox müdrik bir insandır. Xalqını sevən, xalqına sədaqətli insandır. Türk xalqının qarşısında onun böyük xidmətləri var, güman edirəm ki, bunları saymaqla qurtarmaq olmaz. Amma onun xidmətlərinin içərisində biri də odur ki, məhz burada, Qarsda Qafqaz Universitetinin yaranması haqqında qərar çıxarılmasının təşəbbüskarı olubdur.

Universitet yaranıb və on ildə bu qədər inkişaf edibdir. Mən sizin universitet şəhərciyinə baxdım, on il içərisində bu qədər binalar tikmisiniz, özünüz üçün belə gözəl şərait yaratmısınız. Sizin universitet indi, bəlkə də, başqa ölkələrdə 50 il tarixi olan universitetlərdən də üstün səviyyədədir. Amma Qafqaz Universitetinin Qarsda yaranmasının həm də böyük siyasi əhəmiyyəti var. Mən bilirəm ki, Türkiyənin bu do-

ğu bölgəsindən – biz şərq deyirik, siz doğu deyirsiniz – insanlar daha çox Türkiyənin batı bölgəsinə gedirlər. Çünki orada yaşayış şəraiti yaxşıdır, pul qazanmaq buradan asandır, burada yaşayış çətindir. Təkcə burada deyil, ümumiyyətlə, bu bölgədə belədir. Vaxtilə belə olubdur ki, Türkiyə Cümhuriyyətinin doğu bölgəsi o qədər inkişaf etməyibdir. Ona görə də burada – Qarsda Qafqaz Universitetinin yaranması ilə bu bölgədə olan gənclərin daha İstanbula, İzmirə, yaxud başqa şəhərlərə gedib təhsil almasına ehtiyac qalmır. Onlar burada, yaşadıqları bölgədə universitet təhsili alır və bəlkə də, çoxu elə burada yaşayacaqdır.

Bilirsiniz ki, Qars xüsusi, tarixi bir şəhərdir. Mən bu gün parkın açılışında bu barədə çox danışdım, təkrar etmək istəmirəm. Məsələn, dünyada çox şəhərlər var ki, onların adlarını heç kəs tanımır. Amma Qarsı keçmiş Sovetlər Birliyi məkanında, demək olar ki, hamı tanıyır. Tək orada yox, bəlkə də bütün Şərq aləmində Qars tanınır. Nə üçün tanınır? Çünki Qars keçmiş müharibələrdə də, 1877–1878-ci illər Rusiya–Türkiyə müharibəsində, Birinci dünya müharibəsi qurtarandan sonrakı müharibədə də alovun-odun içində olubdur. Qars qaladır, yenilməz qaladır. Hamı Qarsı belə tanıyır.

Azərbaycanda Qars haqqında çox yüksək fikirlər var və bizim tarixçilərimiz, alimlərimiz Qars haqqında çox gözəl şeylər yazıblar. Bizim böyük yazıçılarımız, şairlərimiz, o cümlədən Azərbaycanın ən böyük şəxsiyyətlərindən biri Cəlil Məmmədquluzadə də vaxtilə bir müddət Qarsda yaşayıbdır. Qars 1877–1878-ci illər Rusiya–Türkiyə müharibəsindən sonra rusların əlinə keçəndə türkləri buradan çıxarıb erməniləri, yunanları buraya gətirib dolduraraq, əhalinin tərkibini dəyişdirməyə çalışırdılar. O vaxt rus imperatorluğu bu bölgədə rus dilini bilən adamlardan da istifadə etmək istəyirdi.

Bir tarixi anı da yadınıza salmaq istəyirəm ki, o vaxt çox böyük bir alim, Sankt-Peterburqda, Londonda təhsil almış bir insan, azərbaycanlı İsasultan Şahtaxtlı burada – doğrudur, rus imperatorluğunun idarəsində – çalışıbdır. Ancaq o – bu, tarix kitablarında var – burada öz qardaşlarına, öz millətinə, öz türk xalqına xidmət etməyə çalışıbmış. Yəni belə tarixi anlar çoxdur. Azərbaycan üçün Qars çox cəzbedici bir yer olmuşdur.

Böyük öndər Mustafa Kamal Atatürkün başçılığı ilə aparılan qurtuluş savaşının bir hissəsi olaraq Qars tamamilə azad edildikdən sonra Qars türk diyarı kimi bərpa olunmuş, türklər öz yerlərində yerləşmişlər. Düşünürəm və inanıram ki, bu torpaq, qədim əsrlərdən, min illərdən də çox türklərə məxsus olan bu yer bundan sonra daim türk torpağı olacaqdır.

Bunlara görə Qarsda Qafqaz Universitetinin açılmasının böyük siyasi əhəmiyyəti var.

On ildə siz çox iş görmüsünüz. Sizin gördüyünüz işləri mən yüksək qiymətləndirirəm. Azərbaycanın universitetləri ilə də əlaqələrimiz yaxşıdır. Naxçıvan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, Gəncə Dövlət Universiteti ilə əlaqələriniz – mən burada filmlərdən də gördüyüm – yaxşıdır. Amma bundan da yaxşı olmalıdır.

Biz daim bir-birimizlə əlaqədə olmalıyıq, bir-birimizlə təcrübə mübadiləsi aparmalıyıq, bir-birimizə yardım etməliyik. Burada sizin üçün yaxın yer Naxçıvan Muxtar Respublikasıdır. Mən demirəm ki, təkcə Naxçıvan Dövlət Universiteti ilə əlaqə saxlayın. Amma sizin Azərbaycana yaxın yolunuz Naxçıvandır.

Mən təkliflər eşitdim ki, Qarsda Azərbaycanın konsulluğu açılsın. Bunu mən Türkiyənin cümhur başqanı, hörmətli Əh-

məd Necdət Sezərlə müzakirə etdim, razılaşdıq və cüman edirəm ki, biz diplomatik yollarla bu məsələni həll edəcəyik və burada Azərbaycanın kosulluğu olacaqdır. Mən Bakıya gələn kimi, hava yolunun açılması məsələsini də araşdıracağam, baxacağam, nə mümkündürsə edəcəyik ki, hava yolu açılsın. Bu, bölgə üçün də lazımdır, Azərbaycan üçün də lazımdır. Bunu mütləq edəcəyik. Əgər gələcəkdə başqa məsələlər də olsa, onları da həll edəcəyik.

Bəzən bu məsələlərin həll olunması bürokratik – bu sizdə də var – «bürokrasi» deyirsiniz – adamların əlində ləngiyir. Ancaq bizim də borcumuzdur ki, bürokratik əngəlləri aradan qaldıraq və məsələləri həll edək. Mən sizə söz verirəm ki, həll edəcəyik.

Burada–Qarsda olarkən bir tarixi hadisəni də xatırlamaq istəyirəm. 1920-ci ildə Qarsın qurtuluş savaşı oldu. Ancaq anlaşmalar lazım idi ki, torpaqlar, sərhədlər müəyyənləşdirilsin. O vaxt, 1921-ci ilin mart ayında Moskvada Türkiyə ilə Rusiya arasında bu bölgə haqqında Moskva anlaşması imzalanıbdır. Onun çox böyük əhəmiyyəti vardı. Orada sərhədlər müəyyən edilib. Türkiyənin indiki sərhədlərini müəyyən etdi – Rusiya bu anlaşmanı Türkiyə ilə imzalayıb, bu torpaqlara əvvəllər onlar iddia etmişdilər, əllərinə keçirmişdilər – deməli, bu məsələ çözüldü. Amma bir başqa məsələ də, Naxçıvan haqqında məsələ də çözüldü. Çünki Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Azərbaycan xalqının ən qədim tarixi, memarlıq abidələri Naxçıvandadır.

Naxçıvana gedənlər orada Mömünə xatın məqbərəsini görüblər. 800 il bundan öncə Atabəylər hökmdarlarından Cavan Pəhləvan həmin məqbərəni tikdiribdir.

Onun yaradıcısı məşhur Azərbaycan memarı, bütün Şərq aləmində, müsəlman aləmində məşhur olan Əcəmi Əbubəkr

oğlu Naxçıvani idi. Amma təkcə bu deyil, orta əsrlərdə, ondan sonra da bir çox abidələr yaranıbdır. Naxçıvan bir vaxt Azərbaycan Atabəylər dövlətinin paytaxtı olubdur.

Ancaq ermənilər bu torpaqlara iddia etdikləri kimi, Naxçıvana da iddia ediblər. Ona görə də 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində olmasının təsdiq edilməsi böyük hadisədir. Bu müqavilədə Türkiyənin imzası var, Rusiyanın imzası var.

Amma ondan sonrakı bir hadisə də var. Bu məsələlərin tamamilə çözülməsi üçün 1921-ci ilin oktyabrında yeni bir müqavilə imzalanıbdır. Bu, Qarsda imzalanıbdır. Buna Qars anlaşması deyirlər. Bu anlaşmanı imzalayanlar Türkiyə, Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiyadır. Bu anlaşma ilə sərhədlər bir daha təsdiq olunubdur və yenə də Naxçıvan haqqında orada xüsusi müddəalar var: Naxçıvan Azərbaycanındır. Və Naxçıvanın statusunda heç bir dəyişiklik ola bilməz. Yəni, Naxçıvan özəl cümhuriyyətdir, o, başqa bir dövlətə verilə bilməz. Bu barədə Türkiyənin söz sahibliyi var. Ona görə də Türkiyə Naxçıvan üçün qarant rolu oynayıbdır. Çünki bilirsiniz ki, Naxçıvan vaxtilə, 1920-ci ildə sərhədlər bölünərkən Ermənistana verilmiş Azərbaycan torpağı vasitəsilə Azərbaycanın əsas ərazisindən ayrılıbdır. Bu indi bizə çox böyük problemlər yaradıbdır.

Mən buraya gələndə soruşdum ki, Qarsda anlaşma harada imzalanıbdır. O binanı mənə göstərdilər. Biz Türkiyə hökuməti ilə danışacağıq, orada bir lövhə asılmalıdır ki, 1921-ci ilin oktyabr ayında burada, Qarsda belə bir anlaşma imzalanıbdır. Bu, mütləq olmalıdır. Çünki Qars anlaşmasının bu bölgə üçün, Azərbaycan və Türkiyə üçün çox böyük əhəmiyyəti var.

Bunları deyərkən yenə də sözə qayıdıram ki, Qarsda Qafqaz Universitetinin yaranması həm də siyasi xarakter daşıyır.

Biz bu gün dostluq və qardaşlıqdan çox danışdıq. Nitqimi sona çatdıraraq onu demək istəyirəm ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı yaşayır və yaşayacaqdır. Mən beşinci gündür ki, Türkiyədəyəm. Xarici səfərlərə gedəndə mən bu qədər uzun müddət heç bir ölkədə olmuram. Amma Türkiyəyə gələndə ondan ayrılıb Azərbaycana qayıda bilmirəm.

Biz bu on ildə, Azərbaycanın müstəqilliyi dövründə Türkiyə–Azərbaycan dostluğunu yüksəklərə qaldırmışıq. Amma bu belə işdir ki, biz heç vaxt rahat olmamalıyıq, heç vaxt arxayın olmamalıyıq. Çünki bunu istəməyənlər var. İçəridə də – Azərbaycanda da, Türkiyədə də bəzi adamlar istəmir. Amma başqa dövlətlər də buna çox paxıllıqla, qısqanclıqla, bəzən də düşmənçiliklə baxırlar. Ona görə də bizim bu dostluğumuz, qardaşlığımız qorunmalıdır. Onun qorunması üçün də inkişaf etməlidir, daim inkişafda olmalıdır, dayanmamalıdır. Əmin olun ki, Azərbaycan xalqı bu hisslərlə yaşayır, Azərbaycan prezidenti Heydər Əliyev indiyə qədər bu yolla gedib və bundan sonra da gedəcəkdir.

Yaşasın Türkiyə Cümhuriyyəti, Atatürk Türkiyə Cümhuriyyəti!

Türkiyə–Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun!

# QARS VİLAYƏTİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*28 iyun 2002-ci il*

Hörmətli vali!

Hörmətli bələdiyyə başqanı!

Hörmətli dostlar, qardaşlar, bacılar, xanımlar və cənablar!

Mən təşəkkür edirəm ki, siz Qarsa ayağım dəyən dəqiqədən mənə və məni müşayiət edənlərə çox gözəl qonaqpərvərlik, hörmət göstərirsiniz. Hamısından əzizi odur ki, qardaşlıq münasibəti göstərirsiniz. Hər bir qonağa hörmət etmək olar və lazımdır. Bəzən bu, protokolun tələbidir. Amma dərin hissiyyatlarla, duyğularla, qardaşlıq hissiyyatları ilə göstərilən münasibət ən yüksək protokol münasibətindən çox-çox dəyərlidir. Mən məhz burada belə münasibəti sizdən hiss etdim. Bu, Azərbaycan xalqına olan dostluq, qardaşlıq münasibətidir. Bu mənə olan münasibətdir. Mən sizə təşəkkür edirəm.

Bizim bugünkü günümüz hələ davam edir. Ancaq Türkiyə–Azərbaycan dostluq və qardaşlıq əlaqələrinə yeni bir səhifə yazır. Biz indiyə qədər belə səhifələri çox yazmışıq, kitablar doldurmuşuq. Amma biz bir-birimizə o qədər yaxınıq, o qədər sıx əlaqələrimiz var ki, hələ bundan sonra da yeni səhifələr, vərəqlər, kitablar yazılacaqdır. Bugünkü görüş də bu gözəl kitabların gözəl bir səhifəsidir. Mən sizə bir daha təşəkkür edirəm.

Rica edirəm, qədəhlərinizi Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, türk xalqının şərəfinə, Türkiyə Cümhuriyyətinin cümhur başqanı əziz dostum, qardaşım Əhməd Necdət Sezərin şərəfinə qaldırasınız. Sağ olun.

# QARSDA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞ

*28 iyun 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev iyunun 28-də Qarsda səfərdə olarkən şəhər ictimaiyyətinin nümayəndələri və burada yaşayan azərbaycanlılarla görüş keçirdi. Salona toplaşanlar Azərbaycan prezidenti Heydər Əliyevi hərarətli alqışlarla, hədsiz sevinc və qürur duyğuları ilə qarşıladılar, dövlətimizin başçısı ilə görüşdən böyük şərəf duyduqlarını bildirdilər.*

*İş adamları, ziyalılar prezident Heydər Əliyevin Türkiyəyə işgüzar səfəri çərçivəsində Qars şəhərinə gəlməsini respublikamızın rəhbərinin onlara göstərdiyi diqqət və qayğının ifadəsi kimi dəyərləndirdilər.*

*Azərbaycan prezidenti Qarsda Heydər Əliyev parkının açılışı mərasimində və Qafqaz Universitetində keçirilən görüşdə bu qədim şəhər barədə söylədiyi fikirləri xatırlatdı, burada yaşayan soydaşlarımıza gələcək işlərində böyük uğurlar arzuladı.*

*Görüşdə çıxış edənlər Qarsda Azərbaycan konsulluğunun açılması, Bakı ilə Qars arasında nəqliyyat əlaqələrinin daha da yaxşılaşdırılması və bir sıra digər məsələlər barədə öz arzu və təkliflərini bildirdilər.*

*Dövlətimizin başçısı Heydər Əliyev görüşdə qaldırılan bu məsələlərin araşdırılaraq, müvafiq tədbirlər görüləcəyini vurğuladı, soydaşlarımıza dəyərli tövsiyələr verdi.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev elə həmin gün Qars şəhər valiliyinə gəldi. Burada dövlətimizin başçısı Heydər Əliyevi vali Nevzat Turhan və digər rəsmi şəxslər böyük hörmət, rəğbətlə qarşıladılar. Nevzat Turhan görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən böyük şərəf duyduğunu bildirdi.*

*Azərbaycan prezidenti Heydər Əliyev valiliyin rəsmi qonaqlar kitabına imza atdı.*

*Sonra respublikamızın rəhbəri Heydər Əliyevə xatirə hədiyyələri təqdim edildi. Dövlətimizin başçısı Heydər Əliyev də Qars valiliyinə Bakının mənzərəsini əks etdirən rəsm əsəri bağışladı.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev iyunun 28-də axşam Türkiyəyə işgüzar səfərini başa çatdıraraq hava limanına gəldi.*

*Qars valisi Nevzat Turhan, şəhərin bələdiyyə başqanı Naib Əlibəyoğlu və digər rəsmi şəxslər Azərbaycan prezidenti Heydər Əliyev ilə təyyarənin pilləkənləri yanında səmimiyyətlə sağollaşdılar.*

*Respublikamızın rəhbəri həmin gün gecə vətənə qayıtdı.*

# TÜRKİYƏDƏN İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*28 iyun 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Axşamınız xeyir olsun!

Mən beş gündür Türkiyədə idim. Mənə dedilər ki, orada apardığım işlər, keçirdiyim görüşlər, qatıldığım tədbirlər hamısı televiziya vasitəsilə burada verilibdir. Siz hər bir şeyi görmüsünüz, eşitmisiniz, bilirsiniz. Ona görə də bu barədə mətbuata xüsusi məlumat verməyə ehtiyac duymuram. Ancaq onu demək istəyirəm ki, mən bu səfərimdən çox razıyam.

Səfərin birinci hissəsi İstanbulda Qara dəniz hövzəsi ölkələrinin işbirliyinin onuncu ildönümünə həsr olunmuşdur. Hesab edirəm, bu çox yaxşı keçdi. Ümumiyyətlə, birinci, sammit Türkiyə dövləti tərəfindən yaxşı təşkil olunmuşdu və onu Türkiyənin prezidenti hörmətli Əhməd Necdət Sezər təşkil etmişdi və aparırdı. İkinci də, danışıqlar çox konstruktiv idi, çox əhəmiyyətli idi. Bu təşkilatın gələcəyi haqqında hamımız eyni fikirdə olduq ki, həqiqətən bu, yaxşı gələcəyə malik olan bir təşkilatdır.

Mən əvvəldən bilmirdim. Təəssüflər olsun ki, bizim müvafiq orqanlar mənə vaxtında məlumat vermirlər. Demək, orada, o gün saat 5-də «Üç dənizin əfsanəsi» konfransı da var idi. Mən onu bilmirdim. Amma mənə orada dedilər və xahiş etdilər ki, iştirak edim. Orada da iştirak etdim, onu da tele-

viziya ilə veriblər. Siz bunu bilirsiniz. İkitərəfli görüşlər keçirmişik. Onlar barəsində də məlumatınız var. Bir sözlə, səfərin İstanbul hissəsi çox yaxşıdır. Mən də bundan çox məmnunam.

Səfərimin Ankara hissəsi də sizə məlumdur. Orada səfirliyin açılması, «Azərbaycan evi»nin açılması, Bakı küçəsi var, onun açılması, ondan sonra bizim dostumuz İhsan Doğramacının heykəlinin açılması və onunla əlaqədar Bilkənd Universitetinin professor-müəllim heyəti ilə görüş, Türkiyənin prezidenti Əhməd Necdət Sezər ilə xüsusi görüşümüz, danışıqlarımız və axşam yeməyi olmuşdur. Türkiyənin başqa rəhbərləri ilə də, Baş nazirin müavini Dövlət Baxçalı ilə, Baş nazirin müavini Məsud Yılmazla da görüşüm olmuşdur.

İstanbulda Türkiyənin Xarici İşlər naziri hörmətli İsmayıl Cəm ilə xüsusi görüşümüz olmuşdu. Türkiyənin Baş naziri xəstə olduğuna görə o mənə dünən axşam teleqram göndərmişdi və öz hörmət, ehtiramını bildirirdi. Bu gün səhər mən Ankaradan çıxarkən onunla telefonla danışdım, ona şəfa dilədim. Güman edirəm ki, yaxın vaxtlarda da o, tam sağalacaq, işlərini aparacaqdır.

Ondan sonra Qarsa gəlmişik və bütün gün də Qarsda idik. Mən, ümumiyyətlə, Qarsa getmək istəyirdim. O bizim üçün çox vacib bir bölgədir. Bir-iki il bundan öncə Qars Qafqaz Universiteti mənə fəxri doktor adı vermişdi. Onlar da məni bir neçə dəfə dəvət etmişdilər. Onların dəvətini də yerinə yetirmək lazım idi. Ancaq bundan əlavə, orada Heydər Əliyev adına bulvar açıldı, küçə açıldı, Heydər Əliyev adına park açıldı. Orada da çox yaxşı görüşlər oldu. Demək olar ki, Qarsın əhalisinin böyük bir hissəsi oraya toplaşmışdı. Universitetdə çox yaxşı görüş keçdi. Nəhayət, Qarsın valiliyində

oldum, bələdiyyəsində oldum. Bunları qurtarandan sonra da buraya gəlmişik.

Ümumiyyətlə, mən bu səfərimdən çox razıyam. Çünki Türkiyə–Azərbaycan əlaqələri nə qədər yüksək səviyyədə olsa da – bu, həqiqətən yüksək səviyyədədir – onları həmişə daha da yüksəltmək lazımdır. Hər dəfə belə görüşlərdə biz, bir tərəfdən, əlaqələrimizi genişləndiririk, xalqlarımızı daha da bu istiqamətə yönəldirik, ikinci tərəfdən də, meydana çıxan bəzi məsələlərin həll olunması üçün tədbirlər görürük. Bu qədər. Əgər indi sizin vacib sualınız varsa, buyurun.

**S u a l: Cənab Prezident, Türkiyə bundan sonra Dağlıq Qarabağ münaqişəsinin həllində yeni bir təşəbbüs irəli sürə bilərmi?**

**C a v a b:** Dünən və ondan qabaq Türkiyənin prezidenti ilə, digər şəxsləri ilə danışıqlarımızın əsası bu məsələyə həsr olunubdur. Türkiyə bir təşəbbüs irəli sürmür. Artıq indi heç kəs təşəbbüs irəli sürmür. Amma Türkiyə bizimlə bərabərdir, bir yerdədir və məsələnin həll olunmasında bizə yardım etməyə çalışırlar. Mən də həmişə olduğu kimi, bu dəfə də onlarla çox böyük məsləhətləşmələr keçirdim.

**S u a l: Cənab Prezident, Siz Türkiyədə olarkən ATƏT-in Minsk qrupunun həmsədrləri ilə də görüşdünüz. Növbəti görüşlər planlaşdırılıbmı?**

**C a v a b:** Bəli, görüşdük. Onlar mənə məlumatlar verdilər. Mən də onlara məlumatlar verdim. İndi konkret elə bir vaxt müəyyən edilməyib, amma gələcəkdə görüşlər olacaqdır.

**S u a l: Cənab Prezident, Siz Türkiyə rəhbəri ilə görüşdə Qarabağ məsələsindən danışdınız. Sonra Hüseyn Qıvrıqoğlu ilə təkbətək görüşünüz olmuşdur. Bəziləri bunu Azərbaycanın Türkiyədən hərbi dəstək istəməsi kimi qiymətləndirirlər. Bu nə dərəcədə doğrudur?**

**C a v a b:** Elə şey yoxdur. Biz Türkiyə ilə, Türkiyənin Silahlı Qüvvələri ilə bir neçə ildir əməkdaşlıq edirik. Bilirsiniz ki, biz ali hərbi məktəb yaratdıq, bu məktəbin yaranması, hərbi akademiya yaratdıq, bunun yaranması, sonra digər bir məktəb yaratmışıq, onun yaranması – bu işlərdə Türkiyənin nümayəndələri bizə kömək edirlər, məsləhətlər verirlər. Bizim ayrı-ayrı hissələrimizdə əsgərlərimizi, zabitlərimizi öyrətmək üçün, onlara təcrübə vermək üçün, təcrübələndirmək üçün onlardan istifadə edirik. Ona görə də bizim bu əlaqələrimiz yeni bir şey deyildir. Bu görüşdə də yeni heç bir şey yox idi.

Bir il bundan əvvəl Hüseyn Qıvrıqoğlu «Türk ulduzları» ilə Azərbaycana gəlmişdi. Bütün dünyaya səs düşdü ki, guya bu hərbi təyyarələr Azərbaycana Ermənistanı basmaq üçün gəliblər. Yalan bir şeydir. Bilirsiniz ki, mən Hüseyn Qıvrıqoğlunu «Şöhrət» ordeni ilə təltif etmişdim, bu dəfə onu təqdim etdim. Orada Türkiyə Silahlı Qüvvələrinin ən yüksək general heyətinin iştirakı ilə təqdimetmə oldu. Çox yaxşı bir görüş oldu. Bu da yenə Türkiyə–Azərbaycan əlaqələrinin inkişafına həsr edilibdir.

**S u a l: Cənab Prezident, İstanbulda olarkən Ukrayna və Gürcüstan prezidentləri ilə GUAM-ın perspektivi məsələsinə toxundunuzmu?**

**C a v a b:** Biz bu məsələyə toxunmadıq. Çünki hər biri ilə ayrı-ayrı danışırdıq. Amma GUAM-ın perspektivi var. Siz niyə narahat olursunuz?!

**S u a l: Cənab Prezident, Ermənistan prezidenti bildirib ki, Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Ermənistanın güzəştlərinin az olmasına çalışacaq. Bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Hərə öz tərəfindən çalışacaqdır. Sağ olun.

**VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVES FRİASA**

Hörmətli cənab Prezident!

Venesuela Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında əlaqələr daim genişlənərək hərtərəfli və səmərəli əməkdaşlığa çevriləcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Venesuela xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

## KANADANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB JAN KRETYENƏ

Hörmətli cənab Baş nazir!

Kanadanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

**KANADANIN GENERAL-QUBERNATORU
ZATİ-ALİLƏRİ
XANIM ADRİYENN KLARKSONA**

Hörmətli xanım general-qubernator!

Kanadanın milli bayramı münasibətilə Sizi və bütün Kanada xalqını ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında əlaqələrin genişlənməsindən məmnunam. Ümidvaram ki, əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının dövlət bayramı – Müstəqillik günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin inkişafı Azərbaycan ilə Belarus arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da dərinləşməsinə, regionda sülhün və sabitliyin təmin olunmasına bundan sonra da kömək edəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, səadət və dövləti fəaliyyətinizdə uğurlar, Belarus xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Futbol üzrə dünya çempionatında Türkiyə milli yığma komandasının uğurla çıxış edərək bürünc medal qazanması münasibətilə Sizi və bütün qardaş türk xalqını ürəkdən təbrik edirəm.

Türkiyə yığma komandasının bu qələbəsindən duyduğunuz sevinc payını sizinlə bölüşərək böyük şərəf, fərəh və qürur hissi keçiririk.

Çempionatın bütün oyunlarını yüksək qələbə əzmi ilə keçirmiş Türkiyə futbolçularına ən səmimi təbriklərimizi yetirir, onlara yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiyanın cənubunda insan tələfatına və dağıntılara səbəb olmuş təbii fəlakət – daşqın haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

# TÜRKİYƏ MİLLİ YIĞMA KOMANDASININ FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATINDA ÜÇÜNCÜ YER TUTMASI MÜNASİBƏTİLƏ TƏBRİK

Bir neçə gün idi ki, Türkiyə futbol komandasının Braziliya komandası ilə dünya çempionatında oyununu bu ayın 26-da Ankarada biz böyük həyəcanla seyr edirdik, dinləyirdik. Bilirəm ki, Azərbaycanda hamı televiziya qarşısında idi və Türkiyədə də, demək olar ki, heç kəs işləmirdi, ancaq televiziya qarşısında oyunu seyr edirdi.

Biz bu oyunu böyük həvəslə, həyəcanla, ümidlə seyr edirdik. Mən isə oyundan öncə öz arzularımı bildirərək, belə bir proqnoz verdim ki, Türkiyə futbol komandası Braziliyanı udacaq, sonra finala çıxacaqdır və Almaniya komandası ilə oynayacaqdır. Ola bilər ki, Almaniya komandasını da udsun və dünya çempionu olsun. Bəziləri buna bir az inanmırdılar, ancaq məndə böyük inam var idi. Bu inama görə də mən bu sözləri demişdim və bu inamla da həmin matçı seyr edirdim. Ancaq matç bizi bir az məyus etdi. Çünki Braziliya 1:0 hesabı ilə uddu. Amma mən şəxsən məyus olmadım. Çünki türk futbolçuları çox gözəl, cəsarətlə oynayırdılar.

Çox gözəl futbol nümayiş etdirirdilər. Bir qol–mən hesab edirəm ki, Braziliya futbolçuları tərəfindən çox uzaq məsafədən vurulan bir qol oyunun bütün müqəddəratını həll etdi. Beləliklə, oyun Braziliyanın xeyrinə qurtardı.

Ancaq yenə də biz ümidlə yaşayırdıq. Bu barədə mən şəxsən hər gün düşünürdüm. Bu gün də futbol matçını artıq

Ankarada yox, Bakıda sona qədər seyr edirdim. Əvvəldən axıra qədər məndə böyük bir sevinc hissi vardı. Çünki Türkiyə futbolçuları çox yüksək futbol nümunəsi göstərdilər. Çox gözəl oynayırdılar.

Məlumdur ki, Koreya futbolçuları güclüdürlər, bu komanda çox güclüdür. Əgər nəzərə alsaq ki, oyun da Koreyada, onların meydanında gedirdi, onda düşünmək olar ki, Türkiyənin futbolçularına nə qədər iradə və ustalıq, məharət lazım idi ki, onlar bu oyunu udsunlar. Uddular… Oyunun ilk hissəsindən 3:1 hesabı ilə irəlidə idilər, biz çox sevinirdik. Mən heç düşünmürdüm ki, bu hesab dəyişilə bilər. Ancaq oyunun sonunda Koreya futbolçuları həddindən artıq canfəşanlıq etdilər, çox çalışdılar, hücuma keçdilər və bir qol da vurdular. Amma bu, məsələni həll etmədi. Türkiyənin futbol komandası Koreya kimi güclü futbol komandasını 3:2 hesabı ilə uddu.

Mən bu qələbə münasibətilə Türkiyə futbol komandasını səmimi-qəlbdən təbrik edirəm, onlara uğurlar arzulayıram. İlk dəfədir ki, dünya futbol çempionatında Türkiyə futbolçuları 3-cü yerə çıxıblar. Bunun özü böyük nailiyyətdir. Əlbəttə, biz istərdik ki, 1-ci yer, 2-ci yer olsun. Ancaq gərək biz reallıqdan da uzaqlaşmayaq. Çünki dünya çempionatında dəfələrlə yüksək nəticələr göstərən futbol komandaları yenə də bu dünya çempionatının iştirakçıları idilər. Mən hesab edirəm ki, belə bir vəziyyətdə bu çox böyük qələbədir.

Mən Türkiyə futbol komandasını ürəkdən təbrik edirəm. Qardaş Türkiyə xalqını, Türkiyə Cümhuriyyətini ürəkdən təbrik edirəm. Bu qələbə Türkiyə vətəndaşları kimi, Azərbaycan vətəndaşlarını eyni dərəcədə sevindirir. Çünki məlumdur ki, Seneqal komandası ilə oyunda bu matçı Azərbaycanda nə qədər böyük həyəcanla seyr edirdilər. Matç qurtarandan son-

ra şəhərdə, bütün küçələrdə və meydanlarda əllərində Türkiyə və Azərbaycan bayraqları olan insanlar bir-birilərini təbrik edirdilər, qucaqlayırdılar, öpürdülər və bunu bizim hamımızın qələbəsi hesab edirdilər. Güman edirəm ki, bu gün də belədir.

İndi Daxili İşlər naziri mənə məlumat verdi ki, şəhərdə artıq əllərində bayraqlar olan insanlar, gənclər çoxdur, bayram edirlər. Bu bayramdır. Türkiyə xalqının da, Azərbaycan xalqının da bayramıdır. Bu, təbii ki, bütün türk dünyasının böyük qələbəsidir. Biz bir-birimizdən ayrı deyilik. Təbiidir, meydanda oynayanlar bizim türk qardaşlarımızdır. Amma bu uğura, bu qələbəyə bizim hamımız birlikdə sevinirik, həm Türkiyə Cümhuriyyətinin, həm də Azərbaycan Respublikasının vətəndaşları sevinir.

Mən bir də səmimi-qəlbdən təbrik edirəm. Üçüncü yeri qazanmaq Türkiyə futbolçuları üçün çox böyük nailiyyətdir. Ümidvaram ki, bu cür yüksək futbol texnikasını mənimsəmiş futbolçular gələcəkdə daha da böyük nəticələr nümayiş etdirəcəklər. Bu bayramdır, təbrik edirəm və Türkiyə xalqına yeni-yeni uğurlar arzulayıram. Türkiyə futbolçularına yeni-yeni qələbələr arzulayıram. Sağ olun.

Bakı şəhəri, *29 iyun 2002-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Amerika xalqını ürəkdən təbrik edirəm.

Biz ABŞ ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş dostluq və əməkdaşlıq münasibətlərimizin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

Beynəlxalq terrorizmə qarşı mübarizədə dövlətinizin siyasətini, həyata keçirilən əməliyyatları tam dəstəkləyirik və bu işə öz töhfəmizi verməyə həmişə hazırıq.

Başçılıq etdiyiniz hökumətin və şəxsən Sizin ölkəmizə göstərdiyiniz diqqətə, xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ardıcıl səylərinizə görə Sizə təşəkkür edirəm.

Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, dost Amerika xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Səmimiyyətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 2002-ci il*

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA**

Hörmətli Məhəmmədəli Məhəmmədov!

Dağıstan Respublikası Dövlət Şurasının sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz uzun illər qardaş Dağıstana rəhbərlik edərək, öz xalqınızı inkişaf və tərəqqi yolu ilə inamla irəliyə aparırsınız.

İnanıram ki, xalqlarımız arasındakı çoxəsrlik dostluq və mehriban qonşuluq əlaqələri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasındakı hərtərəfli əməkdaşlıq bundan sonra da Qafqazda sülhə, sabitliyə və tərəqqiyə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 iyul 2002-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Almaniyanın cənubunda baş vermiş aviasiya qəzası nəticəsində Başqırdıstan Hava Yollarına məxsus TU-154 təyyarəsi sərnişinlərinin və heyətinin həlak olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyul 2002-ci il*

**BAŞQIRDISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MURTAZA RƏHİMOVA**

Hörmətli Murtaza Qubaydulloviç!

Başqırdıstan Hava Yollarına məxsus TU-154 sərnişin təyyarəsinin Almaniyanın cənubunda qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatının olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyul 2002-ci il*

## GUAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*2 iyul 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq, GUAM ölkələri xarici işlər nazirlərinin Bakıda keçirilmiş görüşünün uğurla başa çatması münasibətilə onları təbrik etdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın Xarici İşlər naziri Vilayət Quliyev görüşün yekunları barədə və görüşdə GUAM dövlətləri başçılarının iyulun 19-20-də keçiriləcək zirvə toplantısında məsələlərin müzakirəsi üçün zəmin hazırlandığı barədə ona məlumat vermişdir.*

*Bu təşkilatın üzvü olan ölkələrin 2001-ci ildə keçirilmiş ilk zirvə toplantısında Azərbaycan həmin birliyin ilk sədri seçilmişdir. Azərbaycanın Xarici İşlər naziri Vilayət Quliyev bu barədə məlumat verərək dedi ki, həmin zirvə toplantısında onda GUÖAM adlanan təşkilatın üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşünü Bakıda keçirmək haqqında qərar qəbul edilmişdir. İndiki görüş ərəfəsində milli əlaqələndiricilərin iclası keçirilmişdir. Görüşdə bir sıra məsələlərə baxılmış, rəsmi məlumat qəbul olunmuşdur. Özbəkistan tərəfinin GUÖAM strukturlarında fəaliyyətini müvəqqəti dayandırması haqqında bu ölkə-*

* Görüşdə Gürcüstanın və Ukraynanın xarici işlər nazirləri İrakli Menağarişvili və Anatoli Zlenko, Moldova XİN-in xüsusi tapşırıqları üzrə səfiri Andrey Stratan iştirak edirdilər.

*nin notası da hərtərəfli nəzərdən keçirilmiş və bununla əlaqədar müvafiq bəyanat qəbul edilmişdir. Müşahidəçi statusu haqqında dövlət başçılarının qəbul etdikləri qərar paraflanmış, yaxın vaxtlarda Kiyevdə açılacaq informasiya ofisinə dair müvəqqəti əsasnamə qəbul olunmuşdur. Görüş iştirakçıları GUAM-ın 2002-2003-cü illər üçün fəaliyyət proqramını da qəbul etmiş, zirvə toplantısının gündəliyini, nümayəndələri bu toplantıya dəvət olunacaq dövlətlərin və beynəlxalq təşkilatların siyahısını razılaşdırmış, Yaltada bir sıra sənədlərin, o cümlədən azad ticarət zonası haqqında sazişin, Sabitlik və təhlükəsizilk haqqında bəyannamənin, GUAM-ın Xarici İşlər Nazirləri Şurası haqqında əsasnamənin layihəsinin imzalanmasını dəstəklədiklərini bildirmişlər. Görüşdə gələcəkdə Parlament Assambleyasının və bir sıra digər strukturların yaradılması barədə arzular səslənmişdir.*

*Vilayət Quliyev bildirdi ki, görüşdə beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı məsələlərə xüsusi diqqət yetirilmişdir. Üzv ölkələrinin bu mübarizədə birgə fəaliyyəti, o cümlədən ötən ilin noyabr ayında ABŞ dövlət katibinin müavini Mark Qrossmanın iştirakı ilə DİN başçılarının görüşü vurğulanmışdır. Bakı görüşünün iştirakçıları təşkilatın bu istiqamətdə fəaliyyətini gücləndirmək niyyətində olduqlarını bildirmişlər.*

*Görüşdə çıxış edən Ukraynanın Xaciri İşlər naziri Anatoli Zlenko Ukrayna prezidenti Leonid Kuçmanın salamlarını və səmimi arzularını Azərbaycan prezidentinə yetirdi. O, İstanbulda keçirilmiş «Üç dənizin əfsanəsi» konfransında Azərbaycanın dövlət başçısının parlaq və məzmunlu çıxışını da yüksək qiymətləndirdi.*

*Ukrayna XİN-in başçısı Yaltada keçiriləcək zirvə toplantısından danışaraq dedi ki, Bakı görüşünün iştirakçıları zirvə toplantısında terrorizmə dair siyasi bəyanat qəbul etməyin zə-*

*ruriliyi barədə yekdil fikrə gəldilər. Bu bəyanat bütün ölkələr, o cümlədən ABŞ tərəfindən müsbət qarşılanacaqdır. Müəyyən qədər təkmilləşdirilmək tələb edən bu bəyanatın layihəsi artıq hazırlanmışdır. Anatoli Zlenko bildirdi ki, yaxın vaxtlarda Kiyevdə təşkilatın informasiya ofisi açılacaq və gələcəkdə onun fəaliyyətinin genişləndirilməsi üçün heç bir maneə yoxdur. Ukrayna nazirinin fikrincə, üzv ölkələr hazırda təşəkkül prosesinin davam etdirilməsinin, müqavilə-hüquqi əsasın yaradılmasının, təşkilatın fəaliyyətinin konkret məzmunla zənginləşdirilməsinin zəruriliyi mərhələsindədir. XİN-in başçıları sərhədlərin və nəqliyyat dəhlizlərinin təhlükəsizliyi, mühacirət, fövqəladə hallarda birgə fəaliyyət məsələləri ilə bağlı layihə hazırlamaq fikrindədirlər. ABŞ tərəfi bu layihəni maliyyələşdirmək arzusunu bildirmişdir.*

*Bakı görüşünün iştirakçıları BMT Baş Məclisinin qarşıdakı sessiyasının gedişində GUAM–ABŞ, GUAM-a maraq göstərən bir sıra Latın Amerikası ölkələri birləşdirən GUAM–RİO qrupu formatında danışıqlar aparmağın zəruriliyi fikrinə gəlmişlər.*

*Gürcüstanın Xarici İşlər naziri İrakli Menağarişvili birgə işə, İstanbulda keçirilmiş maraqlı görüşlərə görə öz ölkəsinin prezidentinin təşəkkürlərini Azərbaycan dövlətinin başçısına çatdırdı. Gürcüstan XİN-in başçısı bildirdi ki, onun ölkəsi GUAM-ın regional birlik kimi, gələcəkdə möhkəmlənməsində və əməkdaşlığın səmərəliliyinin artırılmasında maraqlı olduğunu bir daha təsdiq edir.*

*Moldova XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Andrey Stratan öz ölkəsinin prezidenti Vladimir Voroninin ən xoş arzularını Azərbaycan prezidentinə yetirdi. O bildirdi ki, müşahidəçi statusu haqqında qəbul olunmuş sənəd GUAM-ın fəaliyyətinin daha da gücləndirilməsində böyük rol oynayacaq və digər ölkələri də cəlb etməyə və maraqlandırmağa imkan verəcəkdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev vurğuladı ki, görüş iştirakçıları böyük iş görmüşlər, GUAM-ın təşkilatlanmasına təkan verəcək mühüm sənədlər qəbul etmişlər. Dövlətimizin başçısı nəzərə çatdırdı ki, bu təşkilat əsasən iqtisadiyyat və təhlükəsizlik sahəsində əməkdaşlıq etmək üçün regional qurum kimi yaradılmışdır. Aradan kifayət qədər vaxt keçmiş və xeyli iş görülmüşdür – təşkilat mövcuddur və daim fəaliyyətdədir, dövlət başçılarının zirvə görüşü, milli əlaqələndiricilərin, xarici işlər nazirlərinin görüşləri keçirilmişdir. Prezident Heydər Əliyev Yaltada zirvə görüşü keçirmək təşəbbüsünü irəli sürən Ukraynanın rolunu və fəaliyyətini, habelə bir sıra ölkələrin görüşdə müşahidəçi qismində iştirak etməsi üçün Ukrayna tərəfinin onlarla apardığı danışıqların əhəmiyyətini xüsusi vurğuladı. Respublikamızın rəhbərinin fikrincə, çox sayda ölkənin müşahidəçi kimi iştirak etməsi zirvə görüşünün əhəmiyyətini daha da artıracaq və təşkilat üzvlərinin sıralarını genişləndirməyə imkan verəcək, GUAM-ın həmin ölkələrlə əməkdaşlığını genişləndirmək üçün stimul olacaqdır.*

*Prezident Heydər Əliyev nəzərə çatdırdı ki, bütün ölkələr, o cümlədən Azərbaycan üçün də ən önəmli məsələ beynəlxalq terrorizmlə mübarizə məsələsidir. Amerikada faciəli 11 sentyabr hadisələri beynəlxalq terrorizmin təşəkkül tapmış sistemini, hətta ən böyük dövlətlərin belə, təsəvvürə gətirmədikləri təhlükənin miqyasını üzə çıxardı. Azərbaycan prezidenti vurğuladı ki, Əfqanıstandakı hərbi əməliyyatlar hələ mübarizə aparılmalı olan beynəlxalq terrorizmin niyyətlərinin kiçik bir hissəsidir. Beynəlxalq terrorizmlə mübarizə məsələsi qarşıdakı zirvə görüşünün diqqət mərkəzində olmalıdır.*

*Azərbaycan dövlətinin başçısı bildirdi ki, qəbul edilmək üçün nəzərdə tutulmuş sənəd indiki reallığı əks etdirməklə yanaşı, gələcəyə də yönəldilməlidir. Terrorizmlə, narkotiklərlə mübarizə*

*fəal birgə iş tələb edir. Prezident Heydər Əliyev dedi: Yaxın illər ərzində biz hələ deyə bilmərik ki, belə hallara son qoymuş, onun təhlükəsini azaltmışıq. Bu təhlükə hələ də qalmaqdadır, çünki son nəticədə sivil dünyaya qarşı yönəlmiş bu prosesdə bir çox ölkələr, ayrı-ayrı cinayətkar təşkilatlar iştirak edir. Cənubi Qafqaz ölkələri bu baxımdan çox müdafiəsizdir, onlar hər gün terrorizmin bu və ya digər dərəcədə təzahürü, yaxud ona hazırlıq faktları ilə üzləşir.*

*Azərbaycan dövlətinin başçısı Yalta zirvə toplantısının hazırlanmasında göstərdiyi qayğıya görə Ukrayna hökumətinə və prezident Leonid Kuçmaya öz minnətdarlığını bildirdi.*

# «AZƏRBAYCAN POLİSİ GÜNÜ»NƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ* ÇIXIŞ

*«Respublika» sarayı*

*2 iyul 2002-ci il*

Hörmətli Azərbaycan polisi!
Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycan polisinin, Daxili İşlər Nazirliyinin peşə bayramı, Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə çətin, ağır, eyni zamanda, çox şərəfli işinizdə uğurlar arzulayıram, hər birinizə cansağlığı və səadət diləyirəm.

Bu bayram sizin peşə bayramınızdır. Amma eyni zamanda, bu bizim Azərbaycan xalqının bayramıdır, vətəndaşlarımızın bayramıdır – hamımızın bayramıdır. Çünki polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir. Ona görə bu bizim hamımızın bayramıdır. Bu səbəbdən də mən bayram

---

*Mərasimdə Daxili İşlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Bakı Şəhər Baş Polis İdarəsinin, Daxili Qoşunların, respublikamızın şəhər və rayon polis orqanlarının, həmçinin nizami hissələrinin əməkdaşları, hərbçilər iştirak edirlər.

Mərasimi Azərbaycanın Daxili İşlər naziri general-polkovnik Ramil Usubov açaraq, daxili işlər orqanlarının fəaliyyəti və qarşıda duran vəzifələri barədə məruzə etdi.

günü sizinlə bir yerdə olmaq üçün buraya, «Respublika» sarayının bu möhtəşəm salonuna gəlmişəm.

Xatirimdədir, dörd il bundan öncə Azərbaycan polisinin 80 illik yubileyində mən sizinlə bir yerdə idim. Azərbaycanın böyük salonu, Opera və Balet Teatrında təntənəli mərasim keçirildi və mən orda geniş nitqlə çıxış etdim. O vaxtdan dörd il keçibdir. Böyük bir zaman deyil. Ancaq mən bu gün yenə də sizin bayramınıza gəldim. Ona görə yox ki, nazir Usubov məndən xahiş etmişdir. Ona görə ki, mən buraya gəlməyi özüm istəmişdim.

Sizə bir sirr də açmaq istəyirəm. Nazir Usubov bir neçə gün bundan öncə məni sizin peşə bayramınıza dəvət etdi və çox xahiş etdi ki, mən gəlib iştirak edim. Siz də bilirsiniz ki, son günlər, son həftələr mənim üçün çox gərgin keçibdir. Türkiyədə, demək olar, bir həftə oldum, ondan öncə Naxçıvanda oldum, başqa səfərlərim oldu. Bunlara baxmayaraq, mən razılıq verdim ki, gəlim. Ancaq dedim hara gəlim? Dedi ki, bizim Daxili İşlər Nazirliyinin binasına. Dedim orada nə var? Dedi ki, bizim orada yaxşı bir salonumuz, zalımız var. Mən siz orada kollegiya iclasları keçirəndə onu hərdənbir görürəm. Deyəsən iclasları orada keçirirsiniz, elədirmi?

**R a m i l U s u b o v:** Bəli, cənab Prezident!

**H e y d ə r Ə l i y e v:** Əyləş. Dedim orada şərait nə cürdür? Dedi, cənab Prezident, oranı çox yaxşı təmir etmişəm, çox gözəldir, özü də kondisioner də var, sərindir. Ona görə çox xahiş edirəm, ora gələsiniz. Mən başa düşdüm ki, bu işdə nazir Usubovla mənim baxışlarımda fərq var. Mənim üçün gəlib binaya baxmaq, yaxud yaxşı təmiri görmək o qədər də maraqlı deyil. Əlbəttə, imkan olan zaman bunu etmək olar. Ancaq buna xüsusi vaxt ayırmaq o qədər də əhəmiyyətli deyil.

Əgər mən polisin bayramına, 50 minlik kollektivin nümayəndələrinin toplaşdığı yerə gəlirəmsə, onlarla görüşəcəyəmsə, onda biz 200 nəfər tutan bir zalda hamı ilə təmasda ola bilmərik axı. Dedim bəs sən rayonlardan, başqa yerlərdən adam dəvət edirsən? Dedi ki, cənab Prezident, bilirsiniz – hamısına deyəcəyəm, göstəriş vermişik, bütün şəxsi heyət televiziyanın qarşısında oturacaqdır, bizim bu bayramımızı dinləyəcəkdir və sizin sözlərinizi eşidəcəkdir. Mən fikirləşdim, dedim, axı iş onda deyil ki, mənim sözlərimi – onsuz da mən harada çıxış edirəmsə, onu televiziya ilə verirlər və insanların onu dinləmək imkanı var – dinləyəsən. İş ondadır ki, belə bir bayrama, yenə də deyirəm, 50 min nəfərlik kollektivin heç olmasa, hər bir bölgədən, balaca, kiçik bölgədən bir-iki nəfər nümayəndəsi gəlsin, bayramda iştirak etsin və burada bayramı hiss etsin. Dedi onda işlər çətindir. Dedim çətin deyil. Respublika sarayında vəziyyəti öyrənim, əgər konsert yoxdursa, bayramı orada keçirin. Burada hər gün konsert olur, bəxtinizdən bu gün burada heç bir konsert yox imiş. Aparatımın müvafiq şəxslərinə göstəriş verdim ki, cəmi iki gün qalıb, siz iki gün ərzində sarayda bu işləri təşkil edə bilərsinizmi? Dedilər ki, niyə edə bilmərik. Biz polisdən zəif deyilik, polisdən güclüyük. Əgər polis bir şeyi iki günə edə bilirsə, biz bir günə edərik. Hazırladılar, indi görürsünüz, burada yaxşı əhval-ruhiyyə, həqiqi bayram əhval-ruhiyyəsi var. Ona görə də mən çox məmnunam və sizi bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Azərbaycan polisinin tarixi haqqında, onun keçdiyi şərəfli yol haqqında, onun rastlaşdığı faciələr, bəlalar haqqında biz keçən görüşümüzdə ətraflı danışdıq. Bugünkü bayramın, yəni ildönümünün əsas xüsusiyyəti ondan ibarətdir ki, bu gün Azərbaycan polisinin –1991-ci ildə dövlət müstəqilliyimizi

bərpa edəndən sonra çox ağır proseslər içərisində yaranmış Azərbaycan polisinin 10 illik yubileyini keçiririk. Biz Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünü keçən il qeyd etdik. Xatirinizdədir. İndi də biz bu bayramda müstəqilliyimizin əsaslarından biri olan Azərbaycan polisinin, Azərbaycanın daxili işlər orqanlarının dövlət müstəqilliyinin 10 illiyi dövründə keçdiyi yol, əldə etdiyi nailiyyətlər və bugünkü vəziyyəti haqqında söhbət aparırıq.

Deməliyəm ki, nazir Usubov da öz məruzəsini təxminən bu prinsip əsasında qurdu. Məruzədə, demək olar ki, müstəqillik illərində Daxili İşlər Nazirliyinin, polis orqanlarının gördüyü işlər və ötən 10 ilin mərhələləri haqqında doğru-düzgün məlumatlar verdi və o dövrü düzgün qiymətləndirdi. Ancaq biz heç vaxt unutmamalıyıq ki, bugünkü günümüz, buradakı xoş bayram əhval-ruhiyyəsi, təkcə burada deyil, bu gün Azərbaycandakı həyat, insanların sərbəst, rahat yaşaması və Azərbaycanın bir millət kimi, bir xalq, dövlət kimi dünyada günbəgün məşhurlaşması bizim əldə etdiyimiz dövlət müstəqilliyinin bəhrəsidir. Bizə bu imkanları dövlət müstəqilliyi vermişdir.

Sizin bir çoxunuz ölkəmiz dövlət müstəqilliyini əldə edənə qədər Azərbaycanda, Sovetlər İttifaqının daxili işlər orqanlarında işləyibsiniz, faydalı işlər görübsünüz, xalqımıza xidmət etmisiniz, böyük peşəyə sahib olubsunuz. Ancaq bugünkü günümüzün o dövrdən fərqi ondan ibarətdir ki, biz bu gün müstəqilik, biz bu gün azadıq. Biz heç bir mərkəzdən asılı deyilik. Heç bir dövlətdən asılı deyilik. Özümüz öz taleyimizin sahibiyik. Əgər polisin 84 illik yubileyini bir balaca dərindən təhlil etsəniz, görərsiniz ki, polis olub, xalqına xidmət edibdir. Amma polis milli olmayıbdır. İndi Azərbaycan polisi Azərbaycan övladlarının polisidir, milli polisdir. Bununla fəxr etmək lazımdır.

Bilirsiniz ki, keçmişdə mən də dövlət təhlükəsizlik orqanlarında uzun illər xidmət etmişəm. Deyə bilərəm ki, uğurlu xidmət etmişəm. Amma mən nəyə görə uğurlu xidmət edə bildim. Mənim işlədiyim səviyyədəki vəzifələrdə azərbaycanlı tək mən idimsə, 5-6-sı azərbaycanlı deyildi, başqa millətlərdən idi. Məndən yuxarıda olan vəzifədə azərbaycanlı yox idi. Ondan yuxarıda biri var idi. Amma onun yanında başqa millətdən olan 2-3 nəfər var idi. Ona görə də belə bir mühitdə, belə bir kollektivdə yaşamaq, işləmək həddindən artıq çətin idi. Mən Azərbaycana qəlbən xidmət edirdim. Çünki mən azərbaycanlıyam. Amma mənim ətrafımda olan adamların əksəriyyəti heç də deyə bilmərəm ki, Azərbaycana xidmət edirdi. Onlar deyirdilər ki, biz sovet hökumətinə xidmət edirik. Mən də etiraf edirdim ki, sovet hökumətinə xidmət edirəm, amma Azərbaycana xidmət edirdim.

O dövrdə bizim üçün, gənclər üçün – mən bu həyatı yaşamışam – olan problemlər, çətinliklər indi yoxdur. İndi hamı bir millətin, bir xalqın – Azərbaycan xalqının övladıdır və qəlbən azərbaycanlıdır. Hamısı da qəlbən öz doğma torpağına, Azərbaycan xalqına, Azərbaycan millətinə xidmət edir.

Hərbi xidmətdə olan hər bir şəxs hərbi nizamnaməyə tabedir, ona sədaqətlə and içir və o, andına görə də cavabdehdir. Bu, Azərbaycanda keçmişdə də olmuşdur. O vaxtlar azərbaycanlılar həmin bu Daxili İşlər Nazirliyinin orqanlarında xidmət edirdilər, nizamnaməyə tabe idilər, and içirdilər. Ancaq əgər onlar öz andını pozsaydılar, sadəcə, cəzalanacaqdılar, inzibati cəza alacaqdırlar. Amma indi hər bir azərbaycanlı, Daxili İşlər Nazirliyində, orduda xidmət edən, bizim silahlı qüvvələrdə xidmət edən hər bir azərbaycanlı övladı dövlətə, xalqına sədaqətli xidmət etmək üçün, Vətəninə sədaqətli xidmət etmək üçün and içir. Əgər o, andını pozursa, cəza alır.

Amma burada mənəvi bir cəza da var. Öz xalqına, öz millətinə, öz doğma Vətəninə sədaqət andı içmiş insanın öz andını pozması çox böyük cəza tələb edir. Ona görə də bu gün hər bir polis nəfəri, Daxili İşlər Nazirliyində xidmət edən hər bir şəxs bizim silahlı qüvvələrimizdə olduğu kimi, anlamalıdır, dərk etməlidir ki, əgər bu peşəyə yiyələnib xidmət etmək istəyirsə, buna onun imkanı varsa, bunun üçün qabiliyyəti varsa və müvafiq dövlət orqanları bu şəxsin bu peşədə xidmət etməsini qəbul edirlərsə, o, and içirsə, bu andına daim sadiq qalmalıdır.

İşdə səhvlər ola bilər. İşinizdə səhvlər var, çoxdur. Usubov bunun üstündən bir az keçdi. Bu var. Ancaq bir məsələdə səhv ola bilməz. Dövlətə sədaqət andına xəyanət etmək olmaz. Vətənə sədaqət andına xəyanət etmək olmaz. Xalqa sədaqət andına xəyanət etmək olmaz. Bu andı pozmaq hər kəs üçün yolverilməzdir. Sizin peşəniz bu cəhətdən elə bir peşədir ki, gərək onu şüurlu dərk edəsiniz. Bu peşəni, sadəcə, özünə iş tapmaq üçün yox, yaxud da qazanc əldə edib yaşamaq üçün qəbul etmək olmaz. Bu peşəni, polis peşəsini qəbul edən, Daxili İşlər Nazirliyinin əməkdaşı bilməlidir ki, o, sədaqətlə xidmət etməlidir.

Mən bu barədə bir az geniş danışıram, ona görə yox ki, bizim polis orqanlarında, Daxili İşlər Nazirliyində kimlərinsə öz peşəsinə sadiq olmamaları haqqında məlumatım var. Yox. Mən, sadəcə, bu məsələni ön plana çıxarıram. Bunu da ön plana çıxararaq, bir daha Azərbaycanın dövlət müstəqilliyinə bərabər səviyyəyə gətirirəm. Biz dövlət müstəqilliyimizə sadiq olduğumuz kimi, peşəmizə də sadiq olmalıyıq. Əgər peşəmizə sadiq olmasaq, onda dövlətimizə, dövlət müstəqilliyimizə sadiq ola bilmərik.

Son illər Daxili İşlər Nazirliyində, polis orqanlarında böyük islahatlar həyata keçirilir. Bu islahatlar Azərbaycanda

demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun bir hissəsidir. Biz müstəqilliyimizi əldə edən kimi bəyan etmişik ki, yolumuz müstəqil, demokratik dövlət qurmaqdır, hüquqi dövlət qurmaqdır, dünyəvi dövlət qurmaqdır. Biz bu yol ilə gedirik. Bu bizim Konstitusiyamızda təsbit olunubdur. Son illər qəbul etdiyimiz yüzlərlə, bəlkə də minlərlə qanunlarda, fərmanlarda təsbit olunubdur. Bu yol ilə gedirik. Bu halda gərək Azərbaycanın dövlət strukturlarının hamısı demokratik, hüquqi dövlət prinsiplərinə uyğun olsunlar. Biz bunlara görə də bütün sahələrdə islahatlar keçiririk. Siz bunları bilirsiniz. O cümlədən, Daxili İşlər Nazirliyində, prokurorluqda, məhkəmə orqanlarında, Milli Təhlükəsizlik Nazirliyi sistemində bu islahatları keçiririk.

Bu da sirr deyil ki, bu orqanlarda keçmiş SSRİ vaxtından mövcud olan qanunlardan yox, qaydalardan, əmrlərdən, yaxud yaranmış ənənələrdən indiyə qədər istifadə olunur. Bunların bir qismi elə bu günün tələblərinə uyğundur. Amma bir çox hissəsi yox. Ona görə də islahatlar keçirərək biz hüquq-mühafizə orqanlarını, polisi, Daxili İşlər Nazirliyini beynəlxalq standartlara qaldırmağa çalışırıq. Beynəlxalq standartlar demokratik dövlət, hüquqi dövlətdir. Biz polis haqqında çox gözəl qanun qəbul etdik. Yaxud, prokurorluq haqqında qanun qəbul etdik. Məhkəmə islahatları keçirdik. Amma bilirsiniz, bunların həyata keçirilməsi üçün nə qədər müzakirələr aparırdıq. Bizim əməkdaşlarımızın bir qismi mühafizəkar fikirlərlə yaşayır və deyirlər ki, yox, bu belə olsa, dünya dağılar.

Məsələn, biz prokurorluq haqqında qanunun qəbul olunmasını bir il gecikdirdik. Biz gecikdirmədik. Gecikdirdilər. Nə üçün? Çünki prokurorluğun bəzi səlahiyyətləri beynəlxalq hüquq normalarına ziddir, bu, SSRİ prokurorluğunun prinsipləridir. SSRİ prokurorluğu da hələ Leninin vaxtından təşkil

olunmuş prinsiplər əsasında gedir. Birincisi, prokurorluqda olan adamlar, onların başçıları bunlara öyrəniblər, ikincisi də həmin o müddəalar onlara çox böyük imkanlar yaradır. İmkanlar o mənada yox ki, onlar prokurorluq fəaliyyətlərini daha da yaxşı həyata keçirsinlər. O mənada ki, oradan şəxsi məqsədləri üçün daha da çox istifadə etsinlər.

Məsələn, indi prokurorluq orqanları vətəndaşların həbsinə sanksiya vermir. Amma iki-üç il bundan öncə bu məsələni qoyanda çoxları deyirdi, nə təhər ola bilər, nə ola bilər. Elə bizim Daxili İşlər Nazirliyində deyirdilər ki, biz bu cinayətkarı tutduq, onu məsuliyyətə cəlb etməliyik, prokurorla danışırıq, prokuror sanksiya verir. Amma gərək bu, məhkəməyə getsin, gərək məhkəmə yığışsın, bu işə baxsın, ondan sonra sanksiya versin. Bu, cinayətkarlıqla mübarizəmizi zəiflədəcəkdir. Elədir, cənab Usubov, belə fikir var idi?

**R a m i l U s u b o v:** Cənab Prezident, ümumiyyətlə, belə fikirlər var idi.

**H e y d ə r Ə l i y e v:** O cümlədən cənab Usubov tərəfindən də. Bilirsən, bəzən deyirlər getdim haradansa üstümə su tökdüm, təmizləndim, köhnə şey qalmadı.

**R a m i l U s u b o v:** Aydındır, cənab Prezident!

**H e y d ə r Ə l i y e v:** Əyləş. Amma elə başa düşməyin ki, əsas günahkar bu idi. Yox, əsas başqaları idi. Amma indi biz prokurorluq haqqında qanun qəbul etdik. Məhkəmələr bu işə baxır. Daxili İşlər Nazirliyində, polisdə bir problem yoxdur. Elədir?

**R a m i l U s u b o v:** Elədir, cənab Prezident, bütün qanunlar qəbul olunubdur.

**H e y d ə r Ə l i y e v:** Beynəlxalq hüquq normaları da təmin olunur. Bu islahatlar hələ gərək bütün hüquq-mühafizə orqanları əməkdaşlarının beyninə həkk olsun. Çünki yenilik

təbiidir ki, ancaq köhnə ilə mübarizədə inkişaf edə bilər. Əgər yeni mübarizə uğurla aparılsa, köhnə get-gedə məhv olur. Biz qanunu qəbul etmişik. Siz qanunları icra etməlisiniz. Ancaq bunu da bilirik ki, hələ bəziləri bu qanunları dərk edə bilmirlər. Hələ köhnə fikirlə yaşayırlar. Bəlkə də buna bir az zaman lazımdır. Ancaq bilməlisiniz ki, yol bu yoldur, islahatlar yoludur və biz islahatlar yolu ilə gedəcəyik. Polis haqqında indiki qanun çox yaxşı qanundur. Polisin vəziyyətini çox yaxşılaşdırıbdır.

Polis cinayətkarlıqla mübarizə aparır. Dövlətin hüquqlarını qoruyur. Amma eyni zamanda, polis hər bir vətəndaşın hüququnu qoruyur. Cinayətkar təkcə dövlətə qarşı cinayət etmir ki. Dövlətə qarşı cinayət edənlər, Allaha şükürlər olsun ki, tamamilə azalıbdır. Cinayət edən başqa bir vətəndaşın hüququnu pozur. Nəinki hüququnu pozur, ağır cinayətlər edir. Ona görə polisin vəzifəsi, borcu həm dövlətin mənafelərini qorumaq, dövlətin siyasətini həyata keçirmək, həm də bizim Konstitusiyada göstərildiyi kimi, vətəndaşların hüquqlarını qorumaqdır, vətəndaşın təhlükəsizliyini təmin etməkdir ki, vətəndaş rahat yaşaya bilsin.

Mən bu on il haqqında dedim. Gəlin bir balaca o illərə qayıdaq. Mən 1989-1990-cı illəri heç demirəm. 1991–1992–1993-cü illərdə – biz bu günlərdə Qurtuluş gününün 9-cu ildönümünü qeyd edirdik – Azərbaycan necə dəhşətli bir vəziyyətdə idi. Azərbaycan parçalanırdı, Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Ayrı-ayrı insanlar özlərinə silahlı dəstələr düzəltmişdilər, hakimiyyət uğrunda mübarizə aparırdılar. Bunlar hamısı Azərbaycanda daxili sabitliyi, ictimai-siyasi sabitliyi tamamilə pozmuşdu. Belə halda vətəndaş kimə arxalana bilərdi? Əgər polisin özündə müxtəlif cinayətkar dəstələr varsa, vətəndaş kimə arxalana bilər? Yaxud, cəzasız,

qanunsuz silahlı dəstələr avtomatla küçədə gəzirdilər, nə qədər reket var idi. Xatirinizə salın. Bunlar 1993-cü ildə olan hadisələrdir. Biz bunlarla mübarizəni kəskin apardıq. Amma bir ay, bir il yetərli olmadı. Nə üçün? Çünki o cinayətlər çox kök salmışdı. Təəssüf ki, onların kökü 1988-1989-cu illərdən başlanmışdır. O vaxt ermənilər Azərbaycanın qədim torpağı Dağlıq Qarabağa qarşı iddia ilə çıxış etdilər və buna hazırlaşmışdılar. Bu hələ sovet hakimiyyəti dövründə idi. Azərbaycanlılar bunun qarşısını ala bilmədilər. Ermənilər çox mütəşəkkil idilər, Azərbaycanda isə mütəşəkkillikdən söhbət gedə bilməzdi.

Bir neçə gün bundan öncə televiziyada Vaqif Mustafayevin bir filmini göstərdilər. Ola bilər, görmüsünüz. Orada deyəsən, Daxili İşlər Nazirliyinin hansısa nümayəndəsi çıxış edib deyirdi. O filmi görmüsən?

**Ramil Usubov:** Xeyr, mən baxmamışam. Amma o, cinayət-axtarış idarəsinin keçmiş rəisi Əzim Piriyevdir.

**Heydər Əliyev:** O deyirdi ki, Moskvadan buraya 1300, 1400, ya 1500 adam göndərmişdilər ki, burada Heydər Əliyevin tərəfdarlarının hamısını həbs etsinlər. Hətta deyir ki, biz Şüvəlanda həbsxananın bir hissəsini onlara verməli olduq. Nə üçün? Heydər Əliyev o vaxt işdən getmiş adam idi. Amma ermənilər Dağlıq Qarabağ uğrunda mübarizə aparırdılar. Hakimiyyət dəyişildi, bura yeni bir adam gətirdilər, başçı qoydular. Həmin filmdə onu da göstərirlər. Keçmiş Milli Təhlükəsizlik naziri də deyir ki, yeni birinici katib gələn kimi məni – orada ermənilər Dağlıq Qarabağı ələ keçirir, döyüşlər gedir – çağırıb dedi ki, mən buraya «Əliyevşina» ilə mübarizə aparmağa gəlmişəm. Bilirsiniz də, rus dilində «Əliyevşina» nə deməkdir – bununla mübarizə aparmağa gəlmişəm. Yaxşı, ermənilər gəlib torpaqlarımızı tutur. Qarabağı ələ keçirmək is-

təyir. Sən get, bununla məşğul ol. Əliyev isə Moskvada yaşayır, əgər lazım olsa, onu tutub asa da bilərsən.

Belə bir ağır şəraitdə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət pozuldu və bunun nəticəsində dəstələr yarandı. Onlar hakimiyyət uğrunda mübarizəyə başladılar. Azərbaycanda daxili ictimai-siyasi sabitlik pozuldu, ermənilər bundan istifadə edərək, Azərbaycan torpaqlarını işğal etməyə başladılar. Bizim üçün nə qədər vaxt lazım oldu ki, 1993-cü ildən – 1996 və ondan sonrakı dövrə qədər həmin bu dəstələrin kökünü kəsək, onları zərərsizləşdirək, insanlara rahatlıq verək. Bunları etdik. Bu işlərdə Azərbaycanın Daxili İşlər Nazirliyi əməkdaşlarının böyük xidmətləri olmuşdur.

Amma bizim işimiz təkcə bununla qurtarmırdı. Biz gərək Azərbaycanda pozulmuş ictimai-siyasi sabitliyi tam bərpa edəydik və onu bərpa etdik. İndi Azərbaycandakı daxili ictimai-siyasi sabitlik MDB ölkələrində nümunə kimi göstərilir. İndi buraya gələn adamlar gecə 2-3-ə qədər bulvarda, Bakının gəzməli yerlərində istirahət edirlər və təəccüblənirlər ki, onlara dəyən, toxunan yoxdur. Amma bu o Azərbaycandır ki, 1993, 1994, hətta 1995-ci illərdə insanlar qorxudan axşam saat 7-dən sonra küçəyə çıxa bilmirdilər.

Ölkəmizdəki möhkəm sabitlik bir tərəfdən, cinayətkarlıqla mübarizə, sizin öz vəzifələrinizi layiqincə yerinə yetirməyiniz, ikinci tərəfdən də, insanların, vətəndaşların hüquqlarının qorunması üçün dövlətimizin yaratdığı təminat nəticəsində mümkün olmuşdur. Əgər vətəndaş istədiyi vaxt evindən rahat çıxıb harasa gedirsə, axşam haradasa istirahət edə bilirsə, şəhərin hər hansı hissəsinə rahat gedə bilirsə, deməli, bəli, bizim polis, Daxili İşlər Nazirliyi sabitliyi, asayişi, eyni zamanda, insanların hüquqlarını təmin edirlər. Sizin vəzifəniz budur və bu vəzifəni layiqincə yerinə yetirmək lazımdır.

Uğurlarınız çoxdur. Mən bunu açıq deyirəm. Mən, ümumiyyətlə, tərif deməyə o qədər də meylli adam deyiləm. Həmişə çalışıram tənqid edəm. Çünki nə qədər tənqid etsən, iş o qədər yaxşı gedəcəkdir. Amma bu gün bayramdır. Ona görə də işinizin müsbət tərəflərini deyirəm. Amma nöqsanlarınız da çoxdur.

Mən insanların hüquqlarını qorumaq barədə dedim. İnsan öz şəxsi avtomobilində şəhərə gedir, onu bir döngədə saxladılar. DYP işçisi gəldi, bununla danışdı, nə bilim, sənədinə baxdı, sənədin içində nə var, bilmirəm, ona baxdı. O bundan canını qurtarıb getdi. Bir kilometrdən sonra onu yenə saxladılar. Həmin qayda. Sonra üçüncü dəfə saxladılar. Həmin qayda. Bu vətəndaş özünü necə hiss edəcəkdir, onun hüquqları pozulmurmu?! Pozulur. O, narazı olacaqdır. Kimdən? Təbiidir ki, onu əsassız saxlayan polis işçisindən. Ancaq təkcə ondan yox, eyni zamanda, hökumətdən, hakimiyyətdən narazı olacaqdır. Nə üçün, niyə?

Beş-altı il bundan əvvəl vətəndaş küçəyə çıxa bilmirdi. Onda anlayırdı ki, Azərbaycanda hakimiyyətsizlikdir, gərək hərə öz başını dolandırsın. Amma indi Azərbaycanda hakimiyyət var, dövlət var, qanun var, hər şey var, ictimai-siyasi sabitlik təmin olunubdur. Belə halda vətəndaş istəyir ki, özünü tamam sərbəst hiss etsin. Heç kəs ona qanunsuz müdaxilə etməsin. Onun yaşayışına, onun istirahətinə, onun yolda getməsinə qanunsuz müdaxilə etməsin. Amma təəssüf ki, bizdə bu hallar var, özü də az deyil.

Bir neçə il bundan qabaq müşavirə keçirəndə 1-2 rayonun icra hakimiyyəti başçısı mənə dedi ki, bizim rayondan buraya bazarda satmağa meyvə, başqa şeylər gətirirlər. Gələnə qədər onları beş yerdə saxlayırlar, hər yerdə də haqq istəyirlər. Ona görə də gətirib onu satanda heç pulunu da çıxara bilmirlər.

Mən onda Usubova dedim. Dedim DYP-nin tərkibini ixtisar et. Usubov mənim bu göstərişimi yerinə yetirdi. Amma sonra nə oldu? Ondan sonra xırda-xırda, aybaay, ilbəil DYP işçilərinin sayı artdı. Mənə deyirlər ki, əgər Azərbaycanda adambaşına düşən DYP işçisini hesablasan, onların sayı başqa respublikalardan çoxdur.

Burada nazir Usubov yaxşı rəqəmlər gətirdi ki, hər yüz min adama…

**R a m i l U s u b o v:** Cənab Prezident, hər yüz min nəfərə düşən cinayətə görə Azərbaycan MDB məkanında ən az cinayət edilən ölkədir. Yüz min nəfərə cəmi 195 cinayət düşür.

**H e y d ə r Ə l i y e v:** Onu bilirəm, sən də məruzəndə dedin. Ona görə də mən sizə təşəkkür edirəm. Amma DYP-nin sayına görə? Sən buna cavab verə bilməyəcəksən. Əyləşin. İstəmirəm indi cavab verəsən.

**R a m i l U s u b o v:** Cənab Prezident, aydındır, nəticə çıxararam.

**H e y d ə r Ə l i y e v:** Sən buna cavab vermək üçün gedib araşdıracaqsan, DYP-nin say tərkibini ciddi azaldacaqsan. Güman edirəm ki, indi insanlar ictimai-siyasi sabitlik şəraitində daha da yaxşı yaşayırlar. Yəni, özlərini yaxşı aparırlar. Əgər DYP işçilərinin bir hissəsi olmasa, onlar elə böyük avtocinayət etməyəcəklər. Amma, necə deyərlər, vətəndaşların həmin sənədləri o tində, bu tində çıxarıb, içinə bir şey qoymaqdan canları qurtaracaqdır.

Nöqsanlar təkcə DYP-də deyil. Sonra hamınız hesab edərsiniz ki, yaxşı işləyirsiniz, təkcə DYP pisdir, gəlin bu DYP-ni döyəcləyək. Mən DYP haqqında dedim. Çünki vətəndaşlar onlarla daha çox təmasda olurlar. Amma təkcə DYP yox, sahə müvəkkili var, polis nəfəri var, filan var. Mənim dediyim bu sözlər bütün bu tərkibə aiddir. Vətəndaşlarla təmasda olan

bütün tərkibə aiddir. Onlar, yəni sizin polis işçiləri gərək cinayətkarlarla kəskin mübarizə aparsınlar. Cinayətkarlıq yuvalarını axtarıb tapsınlar, onları zərərsizləşdirsinlər. Gərək ictimai asayişi təmin etsinlər, ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə yardım etsinlər. Amma eyni zamanda, gərək yüksək polis mədəniyyəti göstərsinlər.

Bilirsiniz, mən bu gün sizinlə açıq danışıram. Bu söhbətdir. Keçmişdən belə bir fikir var ki, polis işçisi, adətən, küt olur, kobud olur, mədəni olmur və sair. Bu həqiqətdir ki, belə bir əhval-ruhiyyə var. Mən bununla razı deyiləm. Bu, keçmişdə olubdur. Amma təkcə elə bu müstəqillik dövründə yox, ondan əvvəlki illərdə də bizim xalqımız getdikcə daha da çox SAvablanıb, daha da çox təhsil alıbdır. Təbiidir ki, çox bilik alandan sonra həmin bu adamların böyük bir hissəsi Daxili İşlər Nazirliyində işləyirlər. Deməк, onların mədəni səviyyəsi də artıbdır və bu gün də artır, sabah da artacaq. Amma sizin dərdiniz nədir? Polisin üstündə keçmişdən bir damğa var.

Siz gərək elə çalışasınız ki, o damğanı götürəsiniz. Gərək elə işləyəsiniz, özünüzü elə göstərəsiniz, vətəndaşlarla o qədər mülayim olasınız, amma cinayətkarlara qarşı o qədər barışmaz olasınız ki, insanlar sizi dövlətin bir nümayəndəsi kimi sevsinlər. Lazımdır ki, polisi sevsinlər. Başa düşürsünüz, mən istəyirəm ki, polisi sevsinlər.

Gənc kadrlar hazırlamaq lazımdır. Sən dedin ki, Polis Akademiyasında kadrlar hazırlanır. Bilmirəm. Siz ildə nə qədər adam qəbul edirsiniz?

**Ramil Usubov:** Cənab Prezident, 100–150 nəfər.

**Heydər Əliyev:** Siz Polis Akademiyasına 100 nəfər qəbul edirsiniz. 100 nəfər adam nədir ki?

**Ramil Usubov:** Cənab Prezident, eyni zamanda universitetdən götürürük.

**H e y d ə r Ə l i y e v:** Bilirsən, siz universitetdən götürürsünüz, götürün. Ancaq universitetdən gələn işçi hüquq elmini bilir, başqa şeyləri bilir, amma polis orqanının xüsusiyyətlərini bilmir. Nə üçün siz Polis Akademiyasını genişləndirmirsiniz? İmkanınız yoxdur?

**R a m i l U s u b o v:** Cənab Prezident, bir az problem var.

**H e y d ə r Ə l i y e v:** Maddi?

**R a m i l U s u b o v:** Bəli, bu barədə çətinliyimiz var.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, mən bu məsələni həll edərəm.

**R a m i l U s u b o v:** Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Mən Təhsil Nazirliyinin büdcəsindən bir az kəsərəm, sizə verərəm. Siz akademiyanı genişləndirin. Özünüz-özünüzə mütəxəssis hazırlayın. Başa düşürsünüz, mütəxəssis. Bir var ki, universitetin hüquq fakültəsindən gələn adam prokurorluqda da, məhkəmədə də, polisdə də, notariusda da, Ədliyyə Nazirliyində də işləyə bilər. Amma bunların içərisində polis orqanları, Daxili İşlər Nazirliyi silahlı qüvvədir. Başa düşürsən, bu, silahlı qüvvədir. Sən Polis Akademiyasında gənclərə tüfəng atmaq, avtomat atmaq, tapança atmaq, başqa şeylər öyrədirsən. Elədirmi?

**R a m i l U s u b o v:** Bəli, bəli.

**H e y d ə r Ə l i y e v:** Amma universitetin hüquq fakültəsində bu yoxdur. Düzdür, ya yox?

**R a m i l U s u b o v:** Elədir, cənab Prezident. Onun öz xüsusiyyəti var.

**H e y d ə r Ə l i y e v:** Bilirsən nə var, sən deyirsən vəsaitin yoxdur. Mən bu cibimdəki vəsaitdən götürüb, o biri cibimə qoyacağam.

**R a m i l U s u b o v:** Cənab Prezident, daxili imkanlar hesabına edərik.

**H e y d ə r Ə l i y e v:** Sən məni başa düşmədin.

**R a m i l U s u b o v:** Mən belə başa düşdüm ki, daxili imkanlar hesabına.

**H e y d ə r Ə l i y e v:** Daxili imkanlar nədir?

**R a m i l U s u b o v:** Yəni, fikirləş, özün həll et. Mən belə başa düşdüm.

**H e y d ə r Ə l i y e v:** Elə şey yoxdur. Daxili imkanlar yox. Mən söz verirəm. Polis Akademiyasına qəbulun sayını nə qədər qaldıra bilərsiniz?

**R a m i l U s u b o v:** 250–300-ə kimi qaldıra bilərəm.

**H e y d ə r Ə l i y e v:** 300.

**R a m i l U s u b o v:** Bəli, kifayət edir.

**H e y d ə r Ə l i y e v:** Müəllimin var, yaxşı dərs var?

**R a m i l U s u b o v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Bu il sən Polis Akademiyasına qəbulu 300 nəfər planlaşdır.

**R a m i l U s u b o v:** Baş üstə.

**H e y d ə r Ə l i y e v:** Demək, sizə 200 nəfər üçün maliyyə təminatı verməl lazımdır. Elədirmi?

**R a m i l U s u b o v:** Cənab Prezident, elədir. Amma gərək orada siniflərin sayı olsun, orada bina, yataqxana tikilsin.

**H e y d ə r Ə l i y e v:** Görürsən, mən buna kömək etmək istəyirəm, bu da qaçır.

**R a m i l U s u b o v:** Çox sağ olun. Olarmı vaxt verəsiniz, gələn il o hissəni, yəni yataqxana məsələsini hazırlayım. Ondan sonra edək.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, nə qədər?

**R a m i l U s u b o v:** Cənab Prezident, gələn il bu vaxt Sizə Polis Akademiyasında qəbulun sayını iki-üç dəfə artırmağa söz verirəm.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, daha mən nə edim. Əgər sənin…

**R a m i l U s u b o v:** Cənab Prezident, real olmalıdır. Mən Ali Baş Komandanın qarşısındayam.

**H e y d ə r Ə l i y e v:** Görürəm, imkanın yoxdur. Demək, əziz cənab nazir, sən bu barədə düşünməmisən. Sən çıxışında dedin ki, Heydər Əliyev 1970-ci illərdə Naxçıvanski məktəbini yaratdı, başqasını yaratdı. Yaxşı, bu nümunədən özün niyə istifadə etmirsən? Sən də yarat da. Mən yaratdım, sən niyə yaratmırsan?

**R a m i l U s u b o v:** Cənab Prezident, çalışıram.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, danışdıq, əyləş.

Demək, Usubov söz verir ki, gələn il, 2003-cü ilin may ayına qədər Polis Akademiyasının tərkibini genişləndirmək üçün lazımi işlər aparacaq və mən oraya 200 nəfər əlavə edəcəyəm ki, gələn il 100 nəfər yox, 300 nəfər qəbul olunsun. Oldumu?

**R a m i l U s u b o v:** Cənab Prezident, aydındır, icra olunacaqdır.

**H e y d ə r Ə l i y e v:** Mən yenə də deyirəm, hər peşənin özünün xüsusiyyəti var. Beləliklə, siz Polis Akademiyasının hörmətini də qaldıracaqsınız. O nə Polis Akademiyasıdır ki, cəmi 100 nəfər oxuyur. Bu nə akademiya oldu? Adını da akademiya qoymusunuz. 100 adam qəbul edirsiniz, 100 adam oxuyur?

**R a m i l U s u b o v:** Cənab Prezident, bağışlayın, mən əyani şöbəni deyirəm. Amma bizdə ikinci ali təhsil alanlar çoxdur. Yəni, 150 nəfər də onlardır.

**H e y d ə r Ə l i y e v:** A kişi, özünü müdafiə etmə. Mən deyirəm ki, yaxşı mütəxəssis, polis kadrları hazırlamaq lazımdır. Bunun üçün də xüsusi məktəbdə təhsil alınmalıdır. Anladın?

**R a m i l U s u b o v:** Cənab Prezident, elədir, o daha çox səmərə verir.

**H e y d ə r Ə l i y e v:** Yaxşı.

Ümumiyyətlə, gəncləri daha sürətlə irəliyə çəkmək lazımdır. Bizdə polis orqanlarının çox hörmətli veteranları var. Onlara həmişə böyük hörmət və ehtiram hissi olmalı, nazirlik tərəfindən qayğı göstərilməlidir. Eyni zamanda, gənc kadrları daha sürətlə hazırlamaq lazımdır. Çünki biz müstəqilliyin onilliyini keçdik. İndi 5 il də gərək bizim polis orqanlarının tərkibi tamamilə yeni fikirli insanlardan, müstəqillik əhval-ruhiyyəsi ilə yaşayan insanlardan ibarət olsun. Ona görə bunları da irəliyə aparmaq lazımdır.

Siz burada dediniz ki, mən son vaxtlar Azərbaycanın daxilində olan və xarici iş adamları, sahibkarlarla müşavirələr aparmışam. Dövlətimizin iqtisadi siyasəti bazar iqtisadiyyatıdır. Bunu bilmək lazımdır. Biz bazar iqtisadiyyatından geri dönməyəcəyik. Artıq bazar iqtisadiyyatı Azərbaycanda yer tutubdur. Məsələn, 1995-1996-cı illərdən torpaq islahatı keçirməyə başladıq. İndi kənd təsərrüfatının 98 faizi özəl sektora malikdir. Görürsünüz, bizdə nə qədər kənd təsərrüfatı məhsulları var. Bazarlar dolu, hər yer doludur. Bu haradandır? Bunları Azərbaycan kəndlisi ona verilən torpaqda yetişdirib gətirib satır. Eləcə də başqa sektorlarda özəlləşdirmə sürətlə gedir.

Məsələn, ticarətdəki özəlləşmə çox yaxşı sərmayə veribdir. İndi nə qədər gözəl mağazalar var, nə qədər çox mallar var. Gir, hansını istəyirsən al. Amma on il bundan qabaq bir dənə belə mağaza tapmaq mümkün idimi? Yox. O vaxt bir xarici paltar almaq üçün gərək gedib anbarlardan xahiş edəydin ki, altdan çıxarıb versin. Amma indi bizim gözəl-gözəl mağazalar, ictimai iaşə şəbəkələri yaranıbdır. Bunun hamısı

özəlləşdirmənin nəticəsidir. Özəlləşdirmə davam edəcək, bazar iqtisadiyyatı davam edəcəkdir. Ancaq lazımdır ki, hamımız bu özəl sektorun inkişafına, sahibkarlara imkan yaradaq.

Bəzən eşidirəm ki, prokurorluq, yaxud Daxili İşlər Nazirliyi gedib hansısa firmada yoxlama aparırlar. Nə yoxlama aparırsan, firma şəxsi firmadır. Nə alır, nə satır, o özü bilir. Orada yoxlamanı Vergilər Nazirliyi aparır. Əgər vergisini verirsə, nə alır, nə satır, nə edir, bu onun öz işidir. Əgər keçmişdəki kimi, burada yenə OBXSS yaransa, o da hər bir firmanın başının üstünü alacaqdır.

Sonra sahə müvəkkili də gəlib hər bir mağazaya deyəcək ki, sən mənə haqq verməlisən. Verməsən, nə bilim, filan şey düz deyil, gəlib bağlayacağam. Bunlara yol vermək olmaz. Kim belə hərəkətlər edirsə, bilin ki, bizim iqtisadiyyatımıza zərbə vurur. Bizim iqtisadiyyatımızın aparıcı qüvvəsi özəl sektordur, sahibkarlardır. Ona görə onlara imkan yaratmaq, kömək etmək lazımdır. Mən Usubova dəfələrlə demişəm, bu gün də deyirəm, heç bir müdaxiləyə yol verməməlisiniz.

Mən bu barədə xüsusi müşavirə keçirəcəyəm. Təkcə sizin nazirlikdə deyil, bir çox nazirliklərdə belə şeylər var. Bizim ciddi söhbətimiz olacaq, qərarlar qəbul edəcəyəm. Amma mən burada sizinlə görüşümdən istifadə edərək, bu məsələni çox vacib məsələ bilib, sizə çatdırıram və öz mövqeyimi bildirmək istəyirəm.

Mən əvvəldən dedim ki, sizin peşəniz çətin, ağır peşədir. Amma şərəfli peşədir. Kim özünü bu peşəyə həsr edirsə, o həmişə xalq, millət içində hörmətli adam olacaqdır. Sağlığında da, dünyasını dəyişəndən sonra da.

Burada nazir Usubov sadaladı ki, 1996-cı ildən Azərbaycan prezidentinin fərmanları ilə Daxili İşlər Nazirliyi işçilərinin,

polis işçilərinin maaşları, rütbə maaşları, ümumi maaşları bir neçə dəfə artırılıbdır. Az deyil, elədirmi?

**Ramil Usubov:** Cənab Prezident, elədir, az deyil.

**Heydər Əliyev:** Amma mən bu gün sizə elan edirəm ki, bu yaxın vaxtlarda sizin maaşınızı bir qədər də artıracağam.

Baş nazirə və Maliyyə nazirinə artıq bir aydan çoxdur ki, tapşırmışam. Onlar bu məsələ ilə məşğul olurlar. Bilirsiniz ki, büdcə çox ağırdır, çətindir. Ortada pul yoxdur. Amma mən bu göstərişi vermişəm, yaxın vaxtlarda mənə məruzə olunacaqdır. Fərman verəcəyəm və sizin maaşınızı bir az da artıracağam ki, bundan da yaxşı işləyəsiniz, bundan da yaxşı yaşayasınız. Amma gözünüz daha o yanda-bu yanda olmasın.

Mən sizinlə bugünkü görüşümdən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Sizi bir daha təbrik edirəm. Sizə inanıram, sizə arxalanıram. Daxili İşlər Nazirliyi Azərbaycan dövlətinin əsas sütunlarından biridir, dövlətçiliyi, müstəqil dövləti müdafiə etmək üçündür. Əgər Azərbaycanın coğrafi vəziyyətini nəzərə alsanız, biz Ermənistanla müharibə şəraitindəyik. Bir milyondan çox qaçqınımız var. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bunun özü bizim üçün böyük bir yaradır. Ancaq mən bu gün bir daha bildirirəm ki, biz işğal olunmuş torpaqları mütləq azad edəcəyik.

Ermənilər Dağlıq Qarabağa iddiaya başlayanda ön cərgədə polis idi. Döşünü irəli verən polis idi. Vuruşan polis idi. O vaxt ordu yox idi. Ordu hissələri də yox idi. Polis vardı. Artıq burada deyildi, minə yaxın polis işçisi torpaqlarımızın müdafiəsi uğrunda Qarabağda şəhid olubdur. 600-dən çoxu əlil olubdur. Onların xatirəsini biz həmişə qəlbimizdə saxlamalıyıq və onların xatirəsinə sadiq olaraq, biz hamımız bir yerdə bütün gücümüzü toplayıb, bütün imkanlarımızı toplayıb sülh

danışıqlarını sürətlə apararaq, məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq. Ancaq nə yol ilə olur-olsun torpaqlarımızı azad edəcəyik.

Azərbaycanın başqa problemləri də çoxdur. Ona görə mən bir də deyirəm. Daxili İşlər Nazirliyi, polis Azərbaycan dövlətçiliyinin keşiyində durub, bundan sonra da duracaqdır. Biz daxili ictimai-siyasi sabitliyi təmin etmişik və siz üzərinizə düşən vəzifələri bundan sonra da yerinə yetirməlisiniz.

Bir daha deyirəm, mən Azərbaycanın prezidenti kimi, Ali Baş Komandan kimi, sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram. Bu güc ilə də və bu qüvvə ilə də biz müstəqil Azərbaycanı günü-gündən inkişaf etdirəcəyik və gələcək nəsillərə daha da gözəl Azərbaycan bəxş edəcəyik. Sağ olun.

# PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında diplomatik əlaqələr yaradılmasının 10 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri kimi, dost və qardaş Pakistan ilə münasibətlərimizin bütün sahələrdə inkişafına böyük əhəmiyyət veririk.

Xalqlarımız arasında dərin tarixi kökləri olan dostluq münasibətləri, qarşılıqlı etimad hərtərəfli əməkdaşlığımız üçün münbit zəmin yaratmışdır.

Bu gün ölkələrimizin ikitərəfli qaydada, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı, qarşılıqlı dəstəyi böyük məmnunluq doğurur.

Əminəm ki, mövcud imkanlardan daha tam istifadə etmək üçün göstərdiyimiz qarşılıqlı səylər xalqlarımızın rifahına, ölkələrimizin tərəqqisinə yeni-yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 iyul 2002-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MİLLİ BAYRAMI – İSTİQLALİYYƏT GÜNÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*4 iyul 2002-ci il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Sizi Amerika Birləşmiş Ştatlarının milli bayramı – İstiqlaliyyət Bəyannaməsinin elan olunmasının 226-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm, Sizə və bütün Amerika xalqına ən xoş arzularımı çatdırıram.

Dünyada çox böyük tarixə malik ölkələr var. Yüz illərlə, min illərlə yaşamış və yaşayan ölkələr var. Onlarla müqayisədə Amerika Birləşmiş Ştatlarının yaşı o qədər də böyük deyildir. Ancaq Amerika Birləşmiş Ştatlarının xalqı dünyanın, xüsusilə Avropanın demokratik dəyərlərindən istifadə edərək, öz müstəqilliyini əldə edərkən çox dəyərli bir dövlət qurmuşdur. Elə bir dövlət ki, o, yaranandan indiyə qədər bir çox sahələrdə dünya xalqları üçün, dünya dövlətləri üçün nümunələr göstərir.

Tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Amerika Birləşmiş Ştatları bütün sahələrdə sürətlə inkişaf edibdir və dünyanın fövqəldövlətinə çevrilibdir. Bunun səbəblərini təhlil etməyə ehtiyac yoxdur. Bu, artıq hamıya məlumdur. Ancaq mən, sadəcə, onu demək istəyirəm ki, bütün səbəblərlə yanaşı,

Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət Bəyannaməsi elan edilərkən o elə müdrikcəsinə yazılıb ki, onun əsasında ölkə bütün potensiallarını istifadə edib, sürətlə inkişaf edə bilibdir.

Amerika Birləşmiş Ştatlarının tarixi ərzində demokratiyanın inkişafı, insan azadlığının təmin olunması, hüquq normalarına riayət edilməsi, insanların bərabərliyi və digər prinsiplər həmişə gözlənildiyinə görə və təmin olunduğuna görə, ölkə həm özü sürətlə inkişaf edib, həm də dünyanın bir çox dövlətlərinin bu istiqamətdə inkişaf etməsinə böyük təsir göstərmişdir.

Dünyada heç kəs şübhə etmir ki, Amerika Birləşmiş Ştatları böyük iqtisadi potensiala malik olan, bütün sahələrdə inkişaf etmiş, daim demokratik dəyərlərlə yaşayan böyük bir ölkədir. Amerika Birləşmiş Ştatları getdiyi yolu dünyanın bir çox qitələrində, bölgələrində bir çox xalqlar üçün nümunə göstərərək və o xalqlara yardım edərək, onları da tərəqqi yolu ilə, demokratiya yolu ilə inkşaf etməyə yönəldir.

Azərbaycan öz dövlət müstəqilliyinə nail olarkən dərhal Amerika Birləşmiş Ştatlarını özünə dost ölkə hesab etmişdir və Birləşmiş Ştatlarla əlaqələr yaradıb ondan faydalanmağı lazım bilmişdir. Bizim xalqımızı bu yolla getməyə sövq edən o fikir deyil ki, sadəcə, Amerika Birləşmiş Ştatları kimi böyük bir ölkə ilə bizim iqtisadi əlaqələrimiz olsun. İlk növbədə o fikirdir ki, Amerika Birləşmiş Ştatlarının əldə etdiyi ümumbəşəri dəyərlərdən xalqımız faydalansın və ölkəmiz bir müstəqil dövlət kimi, daim tərəqqi və demokratiya yolu ilə getsin.

Bizim bu dostluğumuz davam etmiş və ötən illərdə Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizin zəiflənməsinə, yaxud ona hansısa bir tərəfdən xələl gətirilməsinə heç vaxt yol verməmişik. Bu münasibətlərimiz Amerika Birləşmiş Ştatlarının müxtəlif şirkətləri ilə Azərbaycan arasında çox geniş və faydalı iqtisadi əlaqələrin yaranmasını təmin etmişdir.

Beş il bundan öncə, 1997-ci il iyul ayının sonu – avqust ayının əvvəlində mən Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə olarkən keçirdiyim görüşlərdə və nəhayət, Amerika Birləşmiş Ştatlarının prezidenti və digər şəxsləri ilə imzaladığımız sənədlərdə bizim bu arzularımız, niyyətlərimiz və bu münasibətlərimiz öz əksini tapmışdır.

Mən cənab səfirin çıxışındakı bir müddəaya bir balaca dəqiqlik gətirmək istəyirəm. 11 sentyabr hadisələri bizimlə Amerika Birləşmiş Ştatlarını yaxınlaşdırmayıb, yəni buna ehtiyac olmayıbdır. 11 sentyabr hadisələri, sadəcə, Azərbaycan xalqının, Azərbaycan dövlətinin Amerika Birləşmiş Ştatları ilə əvvəlki illərdə yaranmış dostluq, əməkdaşlıq əlaqələrinə sadiqliyini nümayiş etdirdi.

Bəli, 11 sentyabr hadisələri bütün dünyanı lərzəyə gətirdi, hamını həyəcanlandırdı. Çünki indiyə qədər dünyada bu qədər dəhşətli terror hadisəsi görünməmişdi. Amerika Birləşmiş Ştatları beynəlxalq terrorizmlə mübarizəyə qalxmağa məcbur oldu və qalxdı. Bu zaman Azərbaycan dərhal bəyan etdi ki, Azərbaycan dövləti, Azərbaycan xalqı Amerika Birləşmiş Ştatları ilə bir alyansdadır, bir koalisiyadadır və bunun üçün üzərinə düşən bütün tədbirləri görməyə hazırdır.

Məlumdur ki, Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı mübarizəsi və həyata keçirdiyi çox ciddi, cəsarətli əməliyyatlar təkcə Amerika xalqına qəsd etmiş terroristlərdən, terrorist qruplarından qisas almaq məqsədi daşımırdı. O, terrorizmin bütün bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu dünyaya bəyan etdi. Bu təhlükəni təkcə Amerika xalqı üçün yox, bütün Yer üzündə aradan götürmək üçün əməliyyatlara başladı. Biz bu mübarizəni ədalətli hesab edirik. Bir də qeyd edirəm, Amerika Birləşmiş Ştatları bu mübarizəni bəşəriyyətin, dünyanın bəzi regionlarında yayılmış terrorizmin, narkotiklərin

və bu kimi başqa şeylərin aradan götürülməsi və xalqların, millətlərin hamısının bu bəlalardan azad olunması üçün aparır.

Biz bunu tam ədalətli hesab edərək, ilk gündən Amerika Birləşmiş Ştatları ilə koalisiyadayıq və üzərimizə düşən vəzifələri yerinə yetirmişik və bundan sonra da yerinə yetirəcəyik. Beynəlxalq terrorizm çox təhlükəlidir. Ancaq eyni zamanda, Amerika Birləşmiş Ştatları öz müttəfiqləri ilə birlikdə dünyaya nümayiş etdirdi ki, Birləşmiş Ştatların hər bir belə təhlükənin qarşısını almağa qüdrəti var və ona qadirdir. Mən şübhə etmirəm ki, bu sahədəki tədbirlər insanları bu ağır faciələrdən xilas edəcək və dünyada demokratiya, ədalət yolu ilə gedən ölkələrin sayı getdikcə artacaq və dünyada daha heç bir müharibəyə yol verilməyəcək, insanlar rahat həyat sürəcəklər.

Bilirsiniz ki, Azərbaycan xalqı hələ 1988-ci ildə Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır. Münaqişə başlayıb, müharibə gedib, qanlar tökülüb, şəhidlər vermişik və müxtəlif səbəblərdən Azərbaycan torpaqlarının 20 faizi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı erməni qəsbkarları tərəfindən zorla öz yerindən-yurdundan çıxarılıb, didərgin düşübdür.

Bu hadisəyə də ədalətli qiymət verilməlidir. Qiymət də ondan ibarət olmalıdır ki, təcavüzkar separatizm və onun nəticəsində Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı edilən hərbi təcavüz, terrorizm, ümumiyyətlə, insan cəmiyyətinə zidd olan bütün tədbirlərin həyata keçirilməsi bu vəziyyəti yaradıbdır. Azərbaycan indi belə vəziyyətdə bundan çıxış yollarını axtarır.

Biz Amerika Birləşmiş Ştatlarına bu məsələnin ədalətli həll olunması ilə əlaqədar həmişə ümid bəsləmişik, bu gün də bəsləyirik. Hesab edirəm ki, dünyanın fövqəldövləti olan, dünyanın bir çox regionlarında münaqişələrin qarşısını alan Amerika Birləşmiş Ştatları bizim regionda da, Cənubi Qafqazda da

münaqişələrin, xüsusən Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasında da öz cəsarətli rolunu göstərəcəkdir.

Hörmətli xanımlar və cənablar!

Bu gün bayram günüdür. Ancaq təəssüflər olsun ki, biz bayram günü dünya xalqlarının, o cümlədən bizim xalqın yaraları haqqında daha çox danışırıq. Bu da bizdən asılı deyil, müasir dünyada yaranmış vəziyyətlə əlaqədardır. Ancaq dünya təkcə münaqişələrlə yaşamır. Dünya inkişaf edir, ölkələr, xalqlar demokratiya yolu ilə getməyə çalışırlar. Azərbaycanda bizim bu qədər böyük dərdimiz, yaramız olmasına baxmayaraq, böyük nailiyyətlərimiz də var. Onlar xalqımızı sevindirir, bu gün xalqımızın rahat yaşamasını təmin edir. Tam əminəm ki, Azərbaycan xalqı bu problemləri də həll edə biləcək, onun böyük iqtisadi potensialı və yaratdığımız hüquqi-demokratik dövlətimiz inkişaf edəcək, Amerika Birləşmiş Ştatlarının və Avropa ölkələrinin dəyərlərindən istifadə edərək, biz xalqımızı daha da yüksək səviyyəyə qaldıracağıq.

Bu gün bayram günü bir daha bəyan edirəm ki, Amerika Birləşmiş Ştatları bizim üçün dost ölkədir, bizim münasibətlərimiz strateji əməkdaşlıq xarakteri daşıyır və Azərbaycan müasir tələblərdən irəli gələn bütün vəzifələri həyata keçirəcəkdir.

Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, dost Amerika xalqına sülh, əmin-amanlıq, firavanlıq arzulayıram. Sizin hər birinizə cansağlığı və səadət arzu edirəm. Sağ olun.

* * *

*Rəsmi hissədən sonra respublikamızın rəhbəri bayram münasibətilə xüsusi olaraq hazırlanmış tortu kəsdi.*

*Azərbaycan prezidenti Heydər Əliyev ABŞ ilə Azərbaycan arasında diplomatik əlaqələrin onuncu ildönümünə həsr edilmiş «Amerika məktəblilərin gözü ilə» fotomüsabiqəsinin qalibləri ilə*

*görüşdü, onlara yaradıcılıq uğurları arzuladı. Rəsmi qəbulda iştirak edən xarici diplomatlar, iş adamları və başqa qonaqlar dövlətimizin başçısına yaxınlaşaraq səmimi görüşdülər, səmimi söhbət etdilər.*

*ABŞ-ın ölkəmizdəki səfirliyinin hərbi attaşeliyinin əməkdaşları prezident Heydər Əliyev ilə xatirə şəkli çəkdirdilər.*

**İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SƏDDAM HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

İraq Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim yaşayacaq və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İraq xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyul 2002-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOLSİUYA**

Hörmərtli cənab Prezident!

Albaniya Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişləenəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyul 2002-ci il*

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NATSAGİYN BAQABANDİYƏ**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranan dostluq münasibətləri qarşılıqlı surətdə faydalı əməkdaşlığımıza töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyul 2002-ci il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEONİD KUÇMAYA**

Hörmətli Leonid Daniloviç!

Donetsk vilayətindəki «Ukrayna» şaxtasında yanğın nəticəsində çoxsaylı insan tələfatı olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 iyul 2002-ci il*

**ƏFQANISTAN DÖVLƏTİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli Həmid Kərzai!

Əfqanıstan dövləti başçısının müavini Hacı Əbdül Qədirin terror aktı nəticəsində həlak olması xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Əfqanıstan xalqına dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 iyul 2002-ci il*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

Hörmətli cənab Prezident!

Əziz dostum!

Fransa Respublikasının milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və bütün Fransa xalqını ürəkdən təbrik edirəm.

Bu gün ikiqat əlamətdar gündür. Çünki bu bayram müxtəlif yönlü ekstremizm təzahürləri, ictimai biganəlik üzərində Sizin parlaq qələbəniz nəticəsində Fransanın müasir tarixində açılan yeni mərhələyə təsadüf edir.

Əminəm ki, Siz ətrafınızda birləşən bütün sağlam qüvvələr ilə birlikdə Fransanı bundan sonra da Avropa dəyərləri, demokratiya və humanizm yolu ilə irəliyə aparacaqsınız.

Azərbaycan ilə Fransa arasında bugünkü möhkəm dostluq və faydalı əməkdaşlıq münasibətləri qədim və zəngin əlaqələrimizin uğurlu davamıdır.

Ölkələrimiz arasında qarşılıqlı anlaşmanın, dəstəyin və etimadın gündən-günə yüksəlməsində müstəsna xidmətlərinizi böyük məmnunluqla qeyd etmək istərdim.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də davam etməsindən narahatlığınızı və dinc yolla nizamlama prosesindəki mütəmadi səylərinizi yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Səmimi dostluq hissləri ilə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 iyul 2002-ci il*

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ DÖVLƏT KATİBİ AKSEL GERLAXIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyul 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, sizi səmimiqəlbdən salamlayıram. Sizin səfəriniz üçün az vaxt ayırdıqları, eyni zamanda burada çox yaxşı görüş keçirdikləriniz və faydalı iş gördükləriniz haqqında mənə məlumat verilib.

**A k s e l  G e r l a x:** Cənab Prezident, səmimi qəbul üçün təşəkkürümüzü bildiririk. Bakıya səfərimiz qısamüddətli olsa da, bu vaxtımızı səmərəli keçirmişik.

Azərbaycana səfərimiz federal kansler Şröderin təklifi ilə olub və o Sizə onun salamlarını çatdırmağı xahiş etmişdir. O məndən bunu da xahiş etdi ki, biz Azərbaycana böyük nümayəndə heyəti ilə gələk, çünki mənim sərəncamımda 60-dan çox böyük müəssisə var. Bizim Azərbaycana səfərimiz təkcə özümüzün marağımızla bağlı deyil, bu həm də alman xalqının sizin ölkənizə olan marağı ilə əlaqədardır. Ümumiyyətlə götürdükdə, bu, Almaniya iqtisadiyyatının ölkənizə olan marağından irəli gəlir. Nümayəndə heyətimiz əsasən iri müəssisələrin təmsilçilərindən ibarətdir. Lakin burada kiçik və orta müəssisələrin təmsilçiləri də vardır ki, bu da Almaniyanın iqti-

sadi spektrini müəyyənləşdirir. Bugünkü görüşümüz çox maraqlı keçdi və onun nəticələrini biz birgə təhlil edəcəyik.

Bu gün səhər tezdən bizim yüksək səviyyəli tədbirimiz oldu. Hər iki tərəfdən eyni sayda və səviyyədə nümayəndələr iştirak edirdilər. Ölkənizdə keçirilən islahatlar və iqtisadi inkişaf barədə ətraflı məlumat verildi. Bir çox nazirlər söhbətdə iştirak etdilər. Bundan əlavə, biz bu gün iqtisadi siyasətlə bağlı görüşlər də keçirdik. Bank və maliyyə məsələləri, qeyri-neft sahəsi, eləcə də neftin nəqli ilə bağlı söhbətlərimiz oldu.

Cənab Prezident, Azərbaycana gəlməkdə əsas məqsədimiz təkcə Sizin gözəl ölkənizi görmək deyil, həm də iqtisadi əməkdaşlığımızı genişləndirməkdən, sadaladığım işləri görməkdən ibarət idi. Ona görə də mən təxminən 2-3 aydan sonra firma və müəssisələrin hər birindən soruşacağam ki, onların Bakıda apardıqları danışıqların nəticəsi nədən ibarət olmuşdur.

Almaniya ilə Azərbaycan arasında iqtisadi münasibətlər, müəssisələr arasındakı əlaqələr kifayət qədər yaxşıdır.

Lakin bu əlaqələri daha da yaxşılaşdırmağa ehtiyac var. Bu, ilk növbədə ticarətə və sərmayə qoyuluşuna aiddir. Almaniya hökumətinin Azərbaycana sərmayələr ayırması üçün biz əlimizdən gələni edəcəyik. Azərbaycan təbii sərvətlərinə, xüsusilə neft və qazına görə çox zəngin ölkədir. Biz onların Almaniyaya çatdırılması barədə də düşünməliyik. Almaniya texnika və sənaye baxımından ən inkişaf etmiş ölkələrdəndir. Bu nailiyyətlərimizi Azərbaycanda da tətbiq etmək niyyətindəyik.

Mən Azərbaycan prezidentinin neft sahəsində apardığı siyasəti həddən artıq dəstəkləyirəm. Mən özüm dünya ölkələri ilə iqtisadi əlaqələr sahəsində məsul şəxsəm. Bu işi hərtərəfli öyrənirəm. Qaz və neftin qiymətinin nisbətən aşağı düşdüyü məqamlarda da Sizin apardığınız siyasət xalqınızın rifah

halının yüksəldilməsinə yönəldilmişdir. Latın Amerikasında, Şərqdə, dünyanın digər yerlərində iri neft ölkələri vaxtilə neftin qiymətinin yüksək olmasından yararlanaraq, elə bir siyasət yeritmişlər ki, indi qiymətlərin aşağı düşdüyü məqamlarda müəyyən problemlərlə qarşılaşırlar.

Amma Sizin apardığınız bu müdrik siyasət neftin qiymətlərinin dəyişməsi ilə yaranan kataklizmlərdən yaxa qurtarmağa imkan yaradır.

**H e y d ə r Ə l i y e v:** Federal kansler Şröderin salamını çatdırdığınıza görə sizə təşəkkürümü bildirirəm, eyni zamanda mənim də salamımı, xoş arzularımı federal kanslerə yetirməyinizi xahiş edirəm.

Sizin buraya məhz federal kansler Şröderin göstərişi ilə səfər etməyiniz məni çox sevindirir və ruhlandırır. Çünki Azərbaycan Almaniya ilə bütün sahələrdə – iqtisadi, siyasi, digər sahələrdə əlaqələrə çox böyük əhəmiyyət verir. Biz bu əlaqələrin inkişaf etməsini istəyirik. Bir neçə il bundan öncə bizim əlaqələrimiz daha da çox idi, axır zamanlar bir az azalıbdır. Bu da məndə müəyyən qədər narahatçılıq hissi doğururdu. Mən bu barədə fikrimi cənab səfirə bildirmişdim. İndii – bilmirəm, ya mənim arzuma görədir, yaxud siz də hesab etmisiniz ki, əlaqələrimizi daha da yüksəklərə qaldırmaq lazımdır – iş adamları ilə Azərbaycana bu səfəri təşkil etmisiniz. Bu, əlaqələrimizin inkişaf etdirilməsində böyük addım hesab edilə bilər.

Azərbaycana səfərinizin məqsədi və burada gördüyünüz işlər haqqında verdiyiniz məlumatlar məni məmnun edir. İnanıram ki, siz burada bəyan etdiyiniz sözü yerinə yetirəcək, bir müddətdən sonra bütün müəssisələrdən tələb edəcəksiniz ki, Azərbaycanda apardıqları danışıqlarla əlaqədar nə işlər gördükləri barədə məlumat versinlər. Əgər həqiqətən belə olarsa, onda mən düşünəcəyəm ki, bəli, bizim iqtisadi əlaqələrimizin

inkişaf etməsində ciddi mərhələ başlayır. Biz bunu istəyirik və çox çalışırıq ki, bu olsun.

Almaniya böyük ölkədir. Ancaq Qafqaz da dünyanın xüsusi əhəmiyyətli bir bölgəsidir. Qafqaz regionunda da Almaniyanın əməkdaşlıq etməsi üçün bütün parametrlərinə görə ən böyük imkanlara malik olan ölkə Azərbaycandır. Ona görə də bu fürsəti əldən vermək lazım deyildir. Almaniya Azərbaycana həmişə diqqət yetiribdir.

XIX əsrin sonu – XX əsrin əvvəlində Azərbaycanda neft sənayesi inkişaf edərkən alman şirkətləri burada çox böyük işlər görüblər. Həmin dövrdə – yüz il bundan öncə «Siemens» şirkətinin burada çəkdiyi bəzi kommunikasiya xətlərini tapıb üzə çıxartdıq. Azərbaycanın çox uzaq dağ rayonunda – Gədəbəydə alman şirkətləri mis yataqlarını işlətməklə də məşğul olmuşlar.

Xatirimdədir, İkinci dünya müharibəsindən öncə institutda oxuyarkən alman millətindən olan yoldaşlarım vardı, mənimlə birlikdə oxuyurdular. Yəni demək istəyirəm ki, Azərbaycan Almaniya üçün dünyanın yeni bölgəsi, Afrika, yaxud da Şərqi Asiya deyil, Azərbaycan həm Avropadır, həm də Avropa ilə Asiyanı birləşdirən bir bölgədir. Bilirsiniz ki, buranın həm sərvətləri çoxdur, həm də əlverişli coğrafi-strateji vəziyyəti, kommunikasiyaları var. Şərq–Qərb, Şimal–Cənub dəhlizləri – bunların hamısı Azərbaycandan keçir. Sizi bir daha inandırmaq istəyirəm ki, bu səfəri etməklə düzgün addım atmısınız.

Mən bu gün bizim naziri də dinlədim. O da mənə geniş məlumatlar verdi. Bu məlumatlar bizim gələcək əməkdaşlığımız barədə nikbin əhval-ruhiyyə yaradır. Arzu edirəm ki, bunlar reallığa çevrilsinlər.

**A k s e l G e r l a x:** Cənab Prezident, Qafqazın necə mühüm region olduğunu, burada Azərbaycanın hansı önəmə malik olduğunu Almaniyada hər kəs, o cümlədən yüksək dairələr də görür və dərk edirlər. Biz bilirik ki, Azərbaycan, doğrudan da Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin qovuşuğunda körpü rolunu oynayır. Biz də gözəl bilirik ki, Azərbaycan Avropanın tərkib hissəsidir. Sözümün üstündə dururam ki, iki-üç aydan sonra hər bir müəssisədən hesabat soruşacağıq və konkret olaraq iqtisadi sahədə hansı işlər görülməsini bir daha Sizin nəzərinizə çatdırmaq imkanı əldə edəcəyik. Mən federal kanslerimə Azərbaycana səfər barədə ətraflı hesabat verəcəyəm və düşünürəm ki, hər ikinizin təşəbbüsünüzün bu işlərin irəliləməsinə müsbət təsiri olacaqdır.

## ŞƏRQİ AZƏRBAYCAN OSTANDARI MƏHƏMMƏDƏLİ SÜBHANULLAHİ BAŞDA OLMAQLA İRAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyul 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, Şərqi Azərbaycanın yeni təyin olunmuş ostandarının ölkəmizə səfərindən məmnun qaldığını söylədi. Azərbaycan prezidenti xatırlatdı ki, bu yaxınlarda İranda rəsmi səfərdə oldum, səfərim çox yaxşı keçdi. Yaxşı görüşlərimiz, söhhətlərimiz oldu. İranın prezidenti ağayi Xatəmi çox gözəl qonaqpərvərlik göstərdi. Dini rəhbərlə də görüşdüm. Bir çox məsələlər ətrafında danışdıq. Əsas odur ki, ilk dəfə ölkələrimiz arasında ümumi müqavilə imzaladıq. İndiyə qədər bu yox idi. İqdisadi sənədlər də imzaladıq. Bəzi məsələləri hələ həll edə bilmədik, güman edirəm ki, onları da həll edəcəyik. Hər halda, hesab edirəm ki, səfərim Azərbaycan üçün, bizim üçün çox əhəmiyyətli oldu. İndi mən hörmətli prezident Xatəminin Azərbaycana səfərini gözləyirəm. Güman edirəm ki, bu da olacaq, əlaqələrimiz daha da yaxşı inkişaf edəcəkdir.*

*Səmimi qəbul üçün təşəkkürünü bildirən cənab Məhəmmədəli Sübhanullahi ölkəmizdə onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etdi.*

*Mən burada özümü vətənimdə olduğu kimi hiss edirəm. Ona görə ki, bura Azərbaycandır və mən də azəriyəm. Biz də fəxr edirik ki, Azərbaycan inkişaf etmiş, müstəqil ölkədir.*

*Bakıya səfərinin təşkilinə görə Azərbaycanın iqtisadi inkişaf nazirinə və Tehrandakı səfirinə razılıq edən qonaq prezident Heydər Əliyevin İrana səfərinin nəticələrini yüksək qiymətləndirdi və ümidvar olduğunu söylədi ki, prezident Xatəminin də Azərbaycana səfəri baş tutacaq və hər iki ölkənin əməkdaşlığı üçün qapılar daha geniş açılacaqdır.*

*Cənab Sübhanullahi dedi ki, biz Azərbaycan prezidentinin Təbrizə səfərini səbirsizliklə gözləyirdik, qarşılamağa hazır idik. İnşallah, növbəti səfəriniz tezliklə baş tutacaq və Sizi Təbrizdə görə biləcəyik. Cənab Prezident, bilirsiniz ki, iki ölkənin ortaq xüsusiyyətləri çoxdur. Nizami, Füzuli, Şəhriyar həm sizin, həm də bizim şairlərimizdir. Azərbaycan müstəqillik əldə edərkən mən buraya gəlmişdim və universitetdə professor-müəllim heyəti ilə görüşüm olmuşdur. Görüş zamanı Təbrizin adı çəkiləndə onların çoxu qeyri-ixtiyari olaraq ağlayırdı. O vaxt keçirdiyim hissləri heç vaxt unutmaram.*

*Bu iki gündə faydalı görüşlərimiz oldu. Sumqayıtda sənaye müəssisələri, xüsusilə neft kimyası kompleksi ilə yaxından tanış olduq. Təbrizdə də böyük neft kimyası kompleksi var və biz bu sahədə geniş əməkdaşlıq edə bilərik. Nümayəndə heyətimizin üzvləri burada qənnadı fabrikini, digər müvafiq müəssisələri bərpa etməyə razıdırlar. Bir aydan sonra Təbrizdə açılacaq beynəlxalq sərgidə sənayenizin bu sahəsinə aid məhsullarını nümayiş etdirmək üçün təmənnasız olaraq pavilyon ayırmaq qərarına gəlmişik.*

*Nümayəndə heyətinin başçısı Bakıda keçirdikləri digər görüşlərdən də söhbət açdı, indiki səfərində Azərbaycan pay-*

*taxtının həqiqətən çox dəyişməsinin, gözəlləşməsinin şahidi olduğunu vurğuladı.*

*Qonaq daha sonra dedi ki, nümayəndə heyəti İqtisadi İnkişaf naziri Fərhad Əliyevlə də görüşmüşdür. Qərara almışıq ki, iqtisadiyyatın bir çox sahələrində əməkdaşılq edək, bütün bunlar barədə memorandum imzalayaq. Təbrizin mövcud potensialı sıx və qarşılıqlı surətdə faydalı əməkdaşlıq etməyə zəmin yaradır. İran Culfasındakı gömrük məntəqəsi fasiləsiz işləyir, Naxçıvandan gün ərzində üç min nəfər onun xidmətindən istifadə edir. Biz əvvəllər də Naxçıvana hər cür kömək göstərmişik və bundan sonra da əlimizdən gələni etməyə hazırıq. İndi İran Culfasında çox böyük terminal tikilir. Yaxşı olardı ki, əlaqədar şəxslər onun açılışında iştirak etsinlər. Nümayəndə heyətinin başçısı İmişlidən və Parsabaddan keçməklə İranla birbaşa dəmir yolu rabitəsi yaradılması, İran, Azərbaycan və Türkiyənin iştirakı ilə avtomobil ehtiyat hissələrinin birgə istehsalına dair müştərək müəssisəsinin yaradılması, Sovet İttifaqı dövründə İrandan Bakıya çəkilmiş qaz kəmərinin bərpası barədə təkliflərini də açıqladı.*

*Azərbaycan prezidenti Heydər Əliyev qonağın verdiyi məlumatı və irəli sürdüyü təklifləri müsbət qiymətləndirərək dedi ki, mən Tehranda səfərdə olanda da bildirmişəm ki, biz İran ilə bütün sahələrdə əlaqələrimizi sürətləndirməli və genişləndirməliyik. Təbiidir ki, burada iqtisadiyyat xüsusi yer tutur və bütün bu işlərin əsasını təşkil edir. Ona görə də güman edirəm ki, siz təkliflərinizi birlikdə müzakirə edəcəksiniz. Bu işlərlə bizim tərəfdən İqtisadi İnkişaf naziri məşğul olur. Eyni zamanda o, Azərbaycan–İran müştərək komissiyasının ölkəmiz tərəfindən sədridir, siz gəlməmişdən əvvəl mən ona tapşırıq vermişəm ki, bu işlərlə ciddi məşğul olsun.*

*Dəmir yolu çox əhəmiyyətli məsələdir. İran üçün də, təbiidir ki, Azərbaycan üçün də ən əsas məsələdir. Beş il bundan əvvəl*

*biz sizinlə Qəzvin–Astara dəmir yolunun çəkilməsi barədə söhbət aparırdıq, hər dəfə deyirdiniz ki, pulumuz yoxdur, çətindir və sair. Bu dəfə mən Tehranda olanda bildim ki, Qəzvin–Astara yolunun tikintisi üçün büdcədə pul ayrılıbdır və yol çəkilir. Amma Miyanə–Ərdəbil–Parsabad xətti daha yaxın yoldur. Əgər siz burada dəmir yolu çəksəniz, çox yaxşı olacaqdır. Onda dəmir yolu Parsabad və Ərdəbildən keçərək Miyanəyə gələcək və oradan Təbrizə, Tehrana, Bəndər Abbasa, Hindistana da gedəcəkdir.*

*Dövlətimizin başçısı vurğuladı ki, hər ölkədə problemlər çoxdur, amma hamısını həll etməyə vəsait, pul çatmır. Ona görə də həmişə belə fikirdə olmuşam ki, bu problemlərdən ən vaciblərini seçib vəsaiti bu sahəyə yönəltmək, sonra da digər işləri görmək lazımdır. Dünən mən televiziya ilə qulaq asırdım. Şimal–Cənub dəhlizi barədə Siz Hindistanla, Omanla, Rusiya ilə birlikdə müqavilə bağlamısınız. Biz də bəyanat vermişik ki, Azərbaycan bu işə qoşulur. Gərək ki, bu məsələ Sankt-Peterburqda həll olunmalı idi. Bilmirəm, həll olundu, yoxsa yox. Ancaq mən Tehranda da dedim, indi də deyirəm: Siz istəyirsiniz ki, Avropadan yükləri Baltik dənizindən gəmilərlə gətirəsiniz. Gəmilər Volqa çayından keçib Həştərxana, oradan Ənzəliyə gəlsin, burada yükləri boşaldıb dəmir yolu vaqonlarına yükləyəsiniz. Əlbəttə ki, bu, əlverişli yoldur. Amma digər sərfəli marşrut odur ki, Avropanın istənilən ölkəsindən yüklər Rusiyaya, ordan isə Azərbaycana gətirilir. Azərbaycandan isə ya Astaraya, ya da Parsabada gətirilir, oradan da birbaşa Hindistana, yaxud da Bəndər Abbasa göndərilir.*

*İndi hamı çalışır ki, iş görsün, amma bu, ucuz başa gəlsin. Mən İranda da demişəm: Şimal–Cənub layihəsinə, yəni Volqa–Xəzər marşrutu ilə bağlı layihəyə biz qoşuluruq. Amma bundan da yaxşısı dəmir yollarından istifadə edilməsidir. Mən bunu sizə*

*təklif edirəm. Siz bunun üzərində işləyin. Bilirsiniz ki, çox böyük gəmilər Volqadan keçə bilmirlər. Amma dəmir yolu ilə istəyirsənsə, 100 vaqonu bir-birinə qoş, yola sal. Bunlar öz yerində, amma Parsabaddan keçən dəmir yolunun tikilməsini mən çox yüksək qiymətləndirirəm. Biz hələ Şimal–Cənub dəhlizi layihəsi həll olunana qədər burada çox işləri görmüş olacağıq.*

*Təbriz bizim üçün əzizdir. Dediniz ki, burada universitetdə görüş keçirərkən Təbriz deyəndə hamının gözləri yaşardı. Niyə? Ona görə ki, Təbrizə məhəbbətləri var. Bu məhəbbət həmişə var. Bunu yaddan çıxarmaq olmaz. Burada adamlar var ki, övladının adını Təbriz qoyublar. Təbriz adı verilmiş nə qədər binalar var. Xatirimdədir, 1975-1976-cı illərdə mən Azərbaycanda işləyəndə Naxçıvanda hündür mehmanxana tikdik, adını «Təbriz» qoyduq. Onda yollar bağlı idi, amma Təbriz qəlbimizdə idi. Bu şəhərin adı hamının qəlbindədir, mənim də qəlbimdədir. İndi deyirsiniz ki, Təbrizə gəlim. Azərbaycanın Təbrizdə konsulluğunun açılmasında gəlib sizinlə birlikdə iştirak edərəm.*

*Görüşün sonunda prezident Heydər Əliyevə xatirə olaraq Səhənd dağının mənzərəsini əks etdirən tablo hədiyyə olundu.*

# TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ QURU QOŞUNLARININ KOMANDANI, ORDU GENERALI HİLMİ ÖZKÖKÜ VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyul 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram. Mənim dəvətimi qəbul edib Azərbaycana gəldiyinizə görə təşəkkür edirəm. Sizin Bakıda keçirdikləriniz görüşlərdən xəbərim var. Mən sizi dəvət edəndə istəyirdim daha çox istirahət edəsiniz, Azərbaycanı görəsiniz. Siz çox illər bundan öncə bir dəfə Azərbaycanda olmusunuz. Ona görə, heç olmasa indi Bakını görmək imkanınız olub və hələ bir-iki gün də olacaqdır.

Mən Türkiyəyə bu yaxınlardakı işgüzar səfərimi, İstanbulda, Ankarada və Qarsda keçirdiyim görüşləri və apardığım danışıqları, o cümlədən Türkiyə Silahlı Qüvvələri Baş Qərargahındakı görüşü məmnunluqla xatırlayıram. İndiyədək bu qədər gözəl görüş olmamışdı. Türkiyə Silahlı Qüvvələrinin ən yüksək generalları, zabitləri, yüksək vəzifə sahibləri ilə çox səmimi görüşüm oldu. Mən bundan çox məmnunam. Ümumiyyətlə, bir həftəni Türkiyədə keçirdim. Artıq bu mənim üçün adət olubdur. Bir neçə aydan sonra bir hadisə ilə əlaqədar Türkiyəyə gələcəyəm. Amma imkan olmasa, bir ildən

sonra mütləq gəlib bir həftəni Türkiyədə keçirəcəyəm. Artıq bu mənim proqramımdır. Sizin bu səfərinizi çox əhəmiyyətli hesab edirəm. Məqsədimiz həm ölkələrimiz, xalqlarımız arasında, həm də silahlı qüvvələr arasında əlaqələri inkişaf etdirməkdir.

**H i l m i Ö z k ö k:** Hörmətli Cümhur başqanım, bizi dəvət etdiyinizə və səmimi qəbula görə Sizə təşəkkür edirəm. Bu görüşün mənim üçün və bütün Türkiyə Silahlı Qüvvələri üçün böyük şərəf, qürur olduğunu bildirirəm. Hörmətli Cümhur başqanım, Sizin liderliyinizlə Azərbaycanın on il ərzində haradan-haraya gəldiyini çox yaxşı gördüm. İnsan bir şeyi hər gün görürsə, böyük dəyişiklikləri duymur, amma onillik fasilədən sonra Azərbaycanı gördüyüm zaman heyrət içində qaldım və qəlbim təqdir duyğuları ilə doldu. Hər şey o qədər gözəl olmuşdur ki, insanların üzündəki məmnuniyyət, əsgərlərin özlərinə güvənmələri, iş görmələri, silahlı qüvvələrin gücü – bütün bunlar hər sahədə çox böyük dəyişikliklər baş verdiyini aşkar göstərir. Bunların zati-alinizin böyük öndərliyi ilə əldə olunduğunu hər kəs bilir.

Cənab Prezident, Sizin çox gözəl ifadə etdiyiniz kimi, biz «bir millət, iki dövlətik». Böyük Atatürkün ifadə etdiyi kimi, «Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimiz»dir. Amma indi görürük ki, kədərlər azalmış, sevinclər çoxalmışdır. Allah Sizə uzun ömür versin. Azərbaycan çox qısa zamanda daha da inkişaf edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə müstəqil bir dövlət kimi, hər gün irəliyə getməkdədir. Azərbaycanın torpaqlarının 20 faizinin işğaldan azad edilməsi sahəsində bizim siyasətimizi və ürəyimizi bilirsiniz. Ən böyük arzumuz Sizin böyük öndərliyinizlə bu məsələnin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün

təmin olunması, iqtisadiyyatı güclü olan bir dövlət kimi irəliləməsidir.

**H e y d ə r Ə l i y e v:** Xoş sözlərə görə sizə təşəkkür edirəm. Ötən on il ərzində Azərbaycanın bütün sahələrdə böyük məsafə qət etdiyini, eyni zamanda ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan münaqişəsinin hələ həll edilmədiyini, xalqımızın müharibə şəraitində yaşadığını vurğuladı. Respublikamızın rəhbəri vaxtilə ölkəmizin daxilində müxtəlif silahlı qüvvələrin hakimiyyət uğrunda mübarizəsinin acı nəticələrindən bəhs edərək dedi:

Torpaqlarımızın Ermənistan tərəfindən işğal olunmasının əsas səbəblərindən biri odur ki, o vaxt xalqımızı, millətimizi – baxmayaraq ki, ordumuz yox idi, amma xalqımız güclü, qeyrətli xalqdır – birləşdirib torpaqlarımızın müdafiəsinə yönəltmək əvəzinə, Azərbaycanı parçalamağa başladılar. Ermənilər də bundan çox məharətlə istifadə etdilər. Onlar son zamanlar bunu açıq deyirlər ki, torpaqların işğal olunmasında günahkar daha çox Azərbaycanın özüdür. Onlar daxildə mübarizə apararaq buna imkan verdilər, ermənilər bəzi yerlərdə hətta heç bir müqavimət olmadan torpaqlarımızı işğal edə bildilər.

Bu problemi həll edə bilməsək də, böyük işlər görmüşük, iqtisadiyyatımız inkişaf edir, ölkədə sabitlik yaranıbdır. Azərbaycan iqtisadiyyatında əldə edilmiş uğurlardan danışan prezident Heydər Əliyev nəhəng regional layihələrin həyata keçirildiyini də bildirdi, Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərindən söhbət açaraq dedi ki, bunların həm iqtisadi, həm də siyasi əhəmiyyəti vardır. Biz böyük bir qurşaqla Türkiyə ilə Azərbaycanı birləşdiririk. Özü də elə birləşdiririk ki, onu heç vaxt qırmaq olmaz. Bizdə qaz ehtiyatı çoxdur, Türkiyəni də təmin edəcəyik, hətta Türkiyədən Avropaya da qaz verəcəyik.

# FRANSANIN MİLLİ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ MƏRASİMDƏ NİTQ

*«Hyatt park» mehmanxanası*

*14 iyul 2002-ci il*

*Fransanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı, Bastiliyanın alınması günü münasibətilə rəsmi qəbul təşkil etmişdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev qəbulda iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Azərbaycanın və Fransanın dövlət himnləri səsləndi.*

*Fransa Respublikasının ölkəmizdəki səfiri xanım Şantal Puare və Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev rəsmi qəbulda nitq söylədilər.*

**Heydər Əliyev:** Hörmətli xanım səfir!

Hörmətli xanımlar və cənablar!

Sizi Fransanın milli bayramı – Bastiliya günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə, Fransa xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

14 iyul Fransa inqilabı təkcə Fransanın həyatında yox, bütün bəşəriyyətin həyatında ən böyük tarixi hadisələrdən biridir. Dünyada ilk dəfə fransızlar insan haqları və insanların bərabər hüquqlara malik olması haqqında fikirləri irəli

sürdülər və onların həyata keçirilməsi üçün çox ciddi tədbirlər gördülər.

Sübut etməyə ehtiyac yoxdur ki, indi bütün dünyada mütərəqqi insanların, xalqların, ölkələrin tutduğu demokratiya yolu məhz Fransadan başlayıbdır və bunun əsasını fransızlar qoyublar. O vaxtdan ötən illər, əsrlər dünyanı dəyişdiribdir. Amma Fransa bu dəyişikliklərin həmişə önündə gedən bir ölkə olmuşdur.

Fransa bu gün ən inkişaf etmiş dövlətlərdən biri olaraq, dünyada və Avropada beynəlxalq əlaqələrdə, beynəlxalq məsələlərin həllində xüsusi rol oynayır. Onun bu sahədə fəaliyyətinin əsas istiqaməti sülh, əmin-amanlıq yaratmaq, demokratiyanı inkişaf etdirmək, insan haqlarını qorumaq, demokratik dəyərləri yaymaqdan ibarətdir. Bütün bunlar və Fransanın çox zəngin, qədim mədəniyyəti Azərbaycan xalqını həmişə cəlb etmişdir. Bizim xalqımız həmişə Fransa ilə, fransızlarla daha yaxın əlaqədə olmağa çalışmışdır. Azərbaycan xalqına belə fürsət dövlət müstəqilliyini əldə edəndən sonra yaranıbdır. Biz bu fürsətdən istifadə edərək, müstəqilliyimizin ilk dövründən indiyə qədər Fransa ilə əlaqələri özümüz üçün çox əhəmiyyətli hesab etmişik və edirik. Bu əlaqələrin inkişaf etməsi üçün öz tərəfimizdən lazım olan addımları həmişə atmışıq və bu gün də atırıq.

Fransa ilə bizim çox sıx dostluq və faydalı əməkdaşlıq əlaqələrimiz var. Bu əlaqələr, demək olar ki, bütün sahələri – həm siyasi, iqtisadi, həm də elmi-mədəni, humanitar və digər sahələri əhatə edir. Biz dostluğumuzu və əlaqələrimizi yüksək qiymətləndiririk. Bu əlaqələri qorumaq, saxlamaq, inkişaf etdirmək üçün səylər göstəririk.

Bu yaxınlarda Fransada mühüm hadisələr baş verdi. Ölkədə prezident seçkiləri keçirilirdi. Seçkilərin birinci mərhələ-

sində yaranmış vəziyyət həm Fransa xalqını, həm də bizi çox narahat etdi. Ancaq Fransa xalqı dərhal bu vəziyyətə öz münasibətini göstərdi və faşizmə qarşı ciddi mövqe tutduğunu bildirdi. Fransa da bunun yolverilməz olduğunu bəyan etdi və seçkinin ikinci mərhələsində Fransanın mütərəqqi qüvvələri və mənim, Azərbaycan xalqının çox əziz dostu, hörmətli Jak Şirak seçkidə böyük üstünlüklə qələbə qazandılar. Bu, təkcə Jak Şirakın qələbəsi deyildi. Bu, müasir dövrdə Fransanın ən mütərəqqi qüvvələrinin qələbəsi idi.

Son zamanlar bəşəriyyəti narahat edən məsələlərdən biri beynəlxalq terrorizmin özünü güclü göstərməsidir. Məhz belə bir vəziyyətdə beynəlxalq terrorizmə qarşı bütün qüvvələrin Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə birləşməsi nəticəsində vahid alyans, koalisiya meydana çıxdı. Fransa daim terrorizmlə mübarizə aparan bir ölkə kimi, təbiidir ki, burada rol oynadı və oynayır.

Sentyabrın 11-də Nyu-Yorkda, Vaşinqtonda baş vermiş dəhşətli terror hadisələri zamanı Azərbaycan dərhal öz münasibətini bildirdi və terrorizmlə mübarizədə alyansla bir yerdə olduğunu bəyan etdi və öz imkanlarını təqdim etdi. Biz o vaxtdan bu mübarizəyə qoşulmuşuq, üzərimizə düşən vəzifələri yerinə yetirmişik və yetiririk. Bundan sonra da biz beynəlxalq terrorizmlə mübarizədə daim bir alyansda olacağıq.

Azərbaycan xalqı terrorizmdən ən çox zərər görmüş və ən çox əziyyət çəkmiş xalqlardan biridir. Dağlıq Qarabağda təcavüzkar separatizmin meydana çıxması, onunla bərabər terrorizmin meydana çıxması və nəhayət, bunun böyük münaqişəyə, Ermənistan–Azərbaycan münaqişəsinə, müharibəsinə çevrilməsi – bunların hamısı dünyaya məlum olan faktlardır. Azərbaycanın indiyə qədər belə hadisələrdən nə dərəcədə zərər çəkdiyini yaxşı göstərir.

Son illərdə, onilliklərdə ayrı-ayrı ölkələrdə mövcud olan terrorçu qrupların hərəkətləri getdikcə güclənmiş və nəhayət, mütəşəkkil xatakter alaraq, beynəlxalq terrorizmə çevrilmişdir. Biz bunu öz ölkəmizdə son on ildə görmüşük. Həm Ermənistan qəsbkarlarının həyata keçirdikləri terror aktları, həm digər xarici xüsusi xidmət orqanları tərəfindən hazırlanmış və Azərbaycana göndərilmiş terrorçuların həyata keçirdikləri terror aktları – bunların hamısı Azərbaycan xalqına məlumdur. Biz onlarla mübarizə aparmışıq və aparırıq. Ancaq terrorizmin kökü kəsilməlidir.

Bəlkə də Azərbaycan üçün lokal hadisə olsa da, mən bunu demək istəyirəm. Bir neçə ay bundan öncə Azərbaycanın şimal–qərb zonasında, Zaqatala rayonunda terrorçular ölkəmizin hakimiyyət orqanlarının nümayəndələrinə qarşı terror aktları həyata keçirdilər. Onlara cavab verildi, bir hissəsi zərərsizləşdirildi, digər hissəsi həbs olundu. Ancaq onlar bundan nəticə çıxarmadılar, terror aktlarını davam etdirməyə başladılar. İki gün bundan öncə həmin terrorçu qrupu Zaqatala zonasında yenə də terror aktı həyata keçirməyə başladı. Ancaq bizim qəhrəman sərhədçilərimiz, hüquq-mühafizə orqanlarımızın əməkdaşları onların qarşısını aldılar. Doğrudur, bizim itkimiz də oldu. Qəhrəmancasına şəhid olan əsgərimiz də var. Ancaq bu terrorçular qrupuna rəhbərlik edən, başqa ölkələrdə gizlənərək Azərbaycana hücumlar edən ən böyük terrorçu bizim əsgərlərimiz, sərhədçilərimiz tərəfindən məhv olundu. Mən bunları deyərək bildirmək istəyirəm ki, Azərbaycan dövləti terrorizmin bütün formalarından, miqyasından asılı olmayaraq, terror aktlarına qarşı mübarizə aparacaq və ölkəmizdə sülhü, əmin-amanlığı qoruyacaqdır.

Təəssüflər olsun ki, Ermənistan bu hadisələrdən lazımi nəticə çıxarmır və öz siyasətini davam etdirir, Ermənistan–Azər-

baycan münaqişəsinin həll olunmasında qeyri-konstruktiv mövqe tutur. Aparılan danışıqlarda məsələnin həll olunması üçün lazımi addımlar atmır. Amma bunlara baxmayaraq, biz sülh danışıqlarını davam etdiririk və bundan sonra da davam etdirəcəyik. Minsk qrupunun həmsədrləri ilə birlikdə öz fəaliyyətimizi artıracağıq. Ermənistan prezidenti ilə Azərbaycan prezidentinin görüşü bir müddət bundan öncə gündəliyə gəlibdir. Güman edirəm ki, belə bir görüş də keçirilməli olacaqdır. Biz ardıcıl surətdə sülhsevər siyasət apararaq, eyni zamanda, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın öz torpaqlarına qayıtması üçün mübarizəmizi bundan sonra da davam etdirəcəyik.

Mən böyük məmnuniyyətlə qeyd edirəm ki, bu fəaliyyətimizdə, bizim bu sülhsevər siyasətimizdə, bu mübarizəmizdə Fransa və onun hörmətli prezidenti, mənim əziz dostum cənab Jak Şirak bizimlədir, Azərbaycan xalqı ilədir.

Prezident cənab Jak Şirakla mənim aramda yaranmış dostluq əlaqələrini çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bizim bu əlaqələrimiz Fransa–Azərbaycan əməkdaşlığının bundan sonra daha da inkişaf etməsi üçün çox əhəmiyyətli rol oynayır. Həm də Minsk qrupunun həmsədrlərindən biri kimi, Fransa və çox böyük maraq göstərən bir şəxs kimi, şəxsən prezident Jak Şirak bizim bu məsələlərin həll olunmasında ölkəmizə həmişə yardım edəcəkdir.

Hörmətli xanım səfir, Azərbaycanda səfirlik fəaliyyətiniz dövründə Fransa–Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün qoyduğunuz səyləri mən xüsusi qiymətləndirirəm. O cümlədən, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün öz hökumətinizin apardığı siyasətin

burada dürüst həyata keçirilməsi və öz tərəfinizdən göstərdiyiniz təşəbbüslərə görə təşəkkür edirəm.

Bu gün mən Fransa xalqına, Fransaya bəslədiyim böyük hisslərlə buraya, bu bayramı sizinlə birlikdə keçirməyə gəlmişəm.

Ola bilər, siz bilirsiniz ki, bu gecə Azərbaycanda bir qəza hadisəsi baş vermişdir. Gecə saat 12 radələrində bir bölgədə baş vermiş qəza ilə əlaqədar Azərbaycanın elektrik enerjisi ilə təchizatı tamamilə dayanmışdı. Yəqin siz də o dövrdə qaranlıqda qalmağınızı xatırlayırsınız. Bəlkə kimsə yuxuda olubdur, o bilmir. Ancaq kim yuxuda olmayıbsa, onlar yəqin ki, bilirlər. Siz o vaxt yuxuda idiniz?

**Ş a n t a l  P u a r e:** Cənab Prezident, xeyr, yatmırdım.

**H e y d ə r  Ə l i y e v:** Amma gördünüz ki, hər yer qaranlıqdır.

**Ş a n t a l  P u a r e:** Bizim elektrik enerjisi verən mühərrikimiz var.

**H e y d ə r  Ə l i y e v:** Səfirliklərin işi yaxşıdır. Onların generatorları var, dərhal işə salırlar. Ona görə də belə halları hiss etmirlər.

Amma mən sizə bir sirri də açmaq istəyirəm. Mənim yaşadığım imarətgahda da generator var. Onu işə saldılar, üç dəqiqədən sonra dayandı və mən qaranlıqda qaldım. Ondan sonra bütün fəaliyyətim qaranlıqda – təbiidir, kiçik işıq verən vasitələrlə keçdi. Mən səhərə qədər bu işlə məşğul olmuşam. Baş naziri təcili olaraq bizim enerji sisteminin baş dispetçer məntəqəsinə göndərdim, orda oturmuşdu, lazım olan başqa nazirləri və işçiləri də səfərbər etdim. Düzdür, 2-3 saatdan sonra bəzi yerlərdə elektrik enerjisinin verilməsi bərpa olundu. Amma hələ səhərə qədər vəziyyət normal deyildi. Ona görə, mən sizə deyə bilərəm ki, o qədər də yata bilməmişəm.

Bu bizim həyatımızda qeyri-adi bir hadisədir. Ona görə mən bu gün bu məsələ ilə əlaqədar xüsusi sərəncam imzalamışam, komissiya təşkil etmişəm. Komissiya bunların hamısını araşdırmalıdır. Ola bilər, sabah mən bir müşavirə də keçirəcəyəm. Biz bundan ciddi nəticə çıxarırıq ki, elə edək, bundan sonra enerji sistemində belə bir hadisə baş verməsin.

Mən bu gecə yatmamışam. Gündüz də buraya gələnə qədər iş yerində olmuşam. Buraya gələndə düşünürdüm, yəqin burada belə bir yaxşı əhval-ruhiyyə olacaqdır ki, mənim yorğunluğum keçəcəkdir. İndi deyə bilərəm ki, mən düzgün fikirləşmişəm. Yorğunluğum artıq keçir.

Amma bu gün mənim üçün bir baxımdan da əlamətdardır. 14 iyul 1969-cu ildə – Bastiliya günündə mən Azərbaycanın başçısı seçilmişəm. O vaxtdan 33 il keçibdir. Ancaq xatırlayıram ki, 1969-cu ilin həmin 14 iyul günündə Bakıda hava bugünkü kimi çox isti idi. Elə bir isti gündə mən Azərbaycan Respublikasının bütün məsuliyyətini öz üzərimə götürdüm. Əlbəttə, o vaxt mən düşünürdüm ki, bu mənim üçün çətin olacaqdır. Çətinliklər oldu. Amma mən onların hamısını arxada qoydum. İndi bizim problemlərimiz var. Amma prezident kimi, mənim üçün heç bir çətinlik yoxdur. Ona görə Bastiliya günü, 14 iyul həm Fransa inqilabı bayramıdır, həm də mənim həyatımda olan çox tarixi bir gündür.

Hörmətli xanım səfir!

Hörmətli xanımlar və cənablar, mən sizi bir daha təbrik edirəm. Mən çox məmnunam ki, bu gün, bu dəqiqələrdə buradayam – Fransanın səfirliyindəyəm. Fransada olan fransızlarla bərabər biz də burada 14 iyul Bastiliya gününü bayram edirik. Təbrik edirəm. Sizə cansağlığı, səadət arzulayıram.

* * *

*Mərasim başa çatdıqdan sonra Azərbaycan prezidenti rəsmi qəbulda iştirak edən Fransa Müqavimət Hərəkatının azərbaycanlı iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

*Prezident Heydər Əliyev qəbulda iştirak edən səfirlərlə, respublikamızın incəsənət xadimləri ilə görüşüb səmimi söhbət etdi.*

# AZƏRBAYCANIN ENERGETİKA SİSTEMİNDƏ BAŞ VERMİŞ QƏZA İLƏ ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ* ÇIXIŞ

*Prezident sarayı*

*15 iyul 2002-ci il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə fövqəladə xarakter daşıyır və ayın 13-də respublikamızda, Azərbaycanın elektrik enerjisi sistemində baş vermiş böyük qəza ilə əlaqədardır. Bu qəza baş verən kimi, biz lazımi tədbirlər gördük və qısa bir müddətdə qəzanın ləğv olunmasını təmin etdik. Amma Azərbaycanın bir çox bölgələri, o cümlədən Bakı şəhəri bir neçə saat elektrik təchizatından məhrum olmuşdur. Bu çox dəhşətli hadisədir. Mən bunu ancaq belə qiymətləndirə bilərəm. Mənim xatirimdə olan dövrdə Azərbaycanda, onun elektrik enerjisi sistemində belə hadisənin baş verməsi olmayıbdır.

Biz ayın 13-də gecə səhərə qədər bu işlə məşğul olmuşuq. Təəssüf ki, hamı yox, bəziləri istirahət etməkdə davam ediblər. Dünən bu işlə məşğul olmuşuq. Mən qəzanın başvermə səbəblərini araşdırmaq və onun nəticələrini aradan qaldırmaq üçün dünən sərəncam imzalayıb komissiya təyin etmişəm. Bu, elan olunubdur, bilirsiniz. Ancaq bu tədbirləri həyata keçir-

---

* Müşavirədə dövlət və hökumət rəhbərləri, nazirlər, komitə sədrləri, şirkət rəhbərləri, icra hakimiyyəti başçıları və energetika ilə məşğul olan təşkilatların rəhbərləri iştirak edirdilər.

məklə, ölkəmizi bu hadisənin zərərindən, demək olar, xilas etməklə yanaşı, mən bugünkü müşavirəni çağırmışam. Ona görə ki, birinci növbədə, bu qəzanın başvermə səbəblərini və əmələ gəlmiş vəziyyəti bir daha təhlil edək, həm də müəyyən edək ki, bundan sonra hansı tədbirlər görülməlidir, hansı ölçülər götürülməlidir.

## YEKUN NİTQİ

Güman edirəm ki, məsələ aydındır. Dünən mənim imzaladığım sərəncam, bizim həyata keçirdiyimiz tədbirlər yaranmış vəziyyətin nə qədər ağır olduğunu, eyni zamanda onun qısa müddətdə aradan götürüldüyünü nümayiş etdirmişdir. Ancaq bugünkü müzakirə, gördüyümüz kimi, çox zəruri və vacib imiş.

Mən artıq «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Pirverdiyev danışarkən onların işində olan nöqsanlar və şəxsən onun özünün işinə olan iradlar haqqında fikrimi bildirdim və xəbərdarlıq etdim. Ancaq bu xəbərdarlıq təkcə ona deyil, bu xəbərdarlıq sizin hamınıza aiddir. Çünki bu, bir təşkilatın işi deyildir. Bu, bütün Azərbaycan təsərrüfatının, iqtisadiyyatının işidir. Burada oturan şəxslərin – nazirlər, komitə sədrləri, Bakı şəhəri rayonlarının icra hakimiyyətlərinin başçıları və başqa vəzifəli şəxslər – hər birisi bu sahədə öz üzərlərinə düşən məsuliyyəti hiss etməlidir və bilməlidir.

Bizdə elektrik enerjisi ilə təminat həmişə çox normal, rahat olduğuna görə heç vaxt təsəvvür etmək mümkün deyildir ki, Bakı şəhəri bir dəqiqənin içərisində belə vəziyyətə düşə bilər. O gecə məni narahat edən çox şey oldu. Birincisi, təkcə Bakının yox, Azərbaycan əhalisinin əksəriyyəti qaranlıq içərisində idi. Məni bu narahat etdi.

İkincisi, belə bir vəziyyətdə hər bir şəhərdə, o cümlədən Bakı kimi böyük şəhərdə müxtəlif cinayət hadisələri baş verə bilər. Mənə danışırlar, küçələr avtomobillərlə dolu idi və o vaxtlar insanlar bağlardan geri qayıdırmışlar. Svetoforlar işləmirdi, yollarda avtomobillərin hərəkətində böyük gərginlik yaranmışdı. Əgər elektrik enerjisi yoxdursa, svetaforlar işləmirsə və bizim polis işçilərimiz də bu məsələ ilə dərhal məşğul olmağa başlamayıblarsa, onda təsəvvür edin, mən hansı hissləri keçirirdim. Mən çox narahat idim, həddən artıq narahat idim. Bir tərəfdən, ona görə ki, vətəndaşlarımız xüsusilə bu istirahət günü işıqsız qalıblar və onların istirahəti, yaxud da ki, işi pozulubdur. İkinci tərəfdən də, ona görə ki, belə hallar hər bir ölkədə, hər bir şəhərdə, hər bir məntəqədə müxtəlif cinayətkar qrupların hərəkət etməsi üçün əlverişli şərait yaradır.

Ona görə də mən həm elektrik enerjisi ilə məşğul olan şəxsləri arayırdım, onlarla əlaqəyə girirdim, həm də bizim hüquq-mühafizə orqanlarının başçıları ilə əlaqəyə girməyə çalışırdım. Çox təəssüflər olsun ki, onlarla da, bizim bu güc nazirlikləri ilə, hüquq - mühafizə orqanları ilə də mənim əlaqəyə girməyim üçün çox çətinliklər yarandı. Çünki onların bəziləri yerlərində deyildilər. Təbiidir, onlar gecə vaxtı iş yerində olmamalıdırlar. Amma harada olduqları bilinməlidir. Dərhal öz vəzifələrini yerinə yetirməlidirlər. Prezident onları axtaran kimi tapmalıdır. Mən yenə də deyirəm, fərdi olaraq hər bir adamla bu barədə danışmışam. Elə o gecə telefonla öz sözlərimi demişəm. Bunu artıq təkrar etmək istəmirəm. Ancaq o faktı bir daha kəskin surətdə ortaya qoyaraq, hər bir vəzifəli şəxsdən tələb edirəm ki, öz vəzifəsini layiqincə yerinə yetirsin. Vəzifə təkcə ondan ibarət deyildir ki, gəldin, 6-7 saat iş yerində oturdun, ondan sonra çıxıb getdin, dünyadan xəbərin yoxdur. Bizim hər birimiz gecə də, gündüz də öz vəzifəmiz, məsuliyyətimiz haq-

qında düşünməliyik. Öz məsuliyyətimizi düşünərək üzərimizə düşən vəzifələri yerinə yetirməliyik. Belə olan halda hər şey normal olacaqdır. Prezident hansı naziri axtarsa, beş dəqiqədən sonra onu tapacaqdır.

Əgər o, naziri bir saata tapa bilmirsə, başqasını saat yarıma tapa bilmirsə, bəzisini heç tapa bilmirsə, bu biabırçılıqdır. Belə vəziyyətə dözmək olmaz. Mən hamını bir daha xəbərdar edirəm və hesab edirəm ki, hər bir nazirlikdə, hər bir idarədə, hər bir dövlət orqanında gecəli-gündüzlü növbətçilik sistemi yaranmalıdır. Mütləq yaranmalıdır! Onlar bizim Prezident Aparatındakı mərkəzi növbətçilik sistemi ilə, Xüsusi Dövlət Mühafizə Xidməti ilə, Nazirlər Kabineti ilə daim əlaqədə olmalıdır.

Mən baxıram, indi bəzi hallarda ayrı-ayrı təşkilat haqqında elə mənim evimə köhnə telefon məlumat kitabçaları gətirirlər. Bu adam bir ildir işləmir, lakin adı bu kitabçadadır, telefonu da var. Amma yeni işləyən adamın adı və telefonu orada yoxdur. Mən bəzən kiminsə telefonunu oradan-buradan axtarıram. Bax, bu sistemi yaratmaq lazımdır. Artur Rasizadə də, Ramiz Mehdiyev də bütün nazirliklər üzrə bu sistemi yaratmalıdırlar. Bizim yerli icra hakimiyyəti orqanları üzrə də bu sistem yaradılmalıdır. Mən artıq bu məsələnin üzərində dayanmaq istəmirəm.

Mən komissiya təşkil etmişəm, 15 gün vaxt vermişəm. 15 gün müddətində bütün bu işləri qurtarmaq lazımdır. Komissiyanın işinə nəzarəti Baş nazirə tapşırıram. 15 gün müddətində mənə yazılı məlumat verilməlidir. Ancaq bizim indiki məqsədimiz təkcə vəziyyəti öyrənmək, səbəbi araşdırmaq, günahkarı tapmaq, nöqsanları aradan qaldırmaq deyildir. Bu hadisədən irəli gələn əsas vəzifə bizim elektrik enerjisi sistemində olan bütün nöqsanların qısa müddətdə aradan götürülməsidir. Bax, komissiya gərək işlədiyi müddətdə bu barədə çox güclü

tədbirlər görsün və mən Baş nazirdən də xahiş edirəm ki, bu işlərə ciddi nəzarət etsin.

Burada müzakirə zamanı Yaqub Eyyubov bir məsələ qaldırdı. Amma bu, yeni məsələ deyildir. Bizdə, Azərbaycanda, Bakıda – təkcə Bakıda deyil, başqa şəhərlərdə də, amma daha da çox Bakıda – ayrı-ayrı şəxsi evlərin, villaların, binaların tikilməsi üçün torpaq sahəsi ayrılır. Torpaq sahələri sistemsiz ayrılır. Rayonun icra başçısı torpağı kimə istəyirsə, ona da verir. Belə siqnallar var ki, bəzi hallarda bu, təmənnasız olmur. İndi Artur Rasizadə deyir ki, bir ev tikilibdir ki, neft quyusu onun həyətindədir. Sən onun ünvanını bilirsənmi?

**A r t u r R a s i z a d ə:** Bilirəm, Badamdardadır.

**H e y d ə r Ə l i y e v:** Badamdardadır? Yaxşı, bunu araşdırmaq lazımdır.

Burada bir sistem yaranmalıdır. Şəhərlər böyüyür, Azərbaycanda da bazar iqtisadiyyatıdar. Biz şəxsi mülklərin, evlərin tikilməsinə etiraz etmirik. Əksinə, mən, məsələn, inşaat biznesi haqqında bir-iki dəfə demişəm, çox müsbət haldır ki, yer götürürlər, 12, yaxud 20 mərtəbəli ev tikirlər. Həm əhali evlə təmin olunur, həm də şəhərdə yeni bir bina yaranır. Tikilən evlərin də əksəriyyəti zahiri görkəmi ilə bizim şəhərimizi daha da gözəlləşdirir.

Mən bunu yüksək qiymətləndirirəm. Ancaq hər bir halda bu yerlərin ayrılmasına çox ciddi münasibət göstərilməlidir. Bunlar kiminsə öz istəyi və arzusu ilə ola bilməz.

Bizdə bir çox təşkilatlar vardır: kanalizasiya təşkilatı, nə bilim, su kəmərləri təşkilatı var… Bizim şəhərimiz belədir ki, burada yerin altı ilə neft xətləri, başqa xətlər keçir. Bunların hamısı nəzərə alınmalıdır. Amma təəssüflər olsun ki, bəziləri Bakı İcra Hakimiyyəti ilə, yaxud da başqa icra hakimiyyəti orqanları ilə sövdələşiblər, istədikləri yerdə evi tikiblər. Mən

bir də bəyan edirəm ki, evlərin tikilməsini dəstəkləyirəm. Ancaq birincisi, bunlar şəhərin baş planı ilə uyğunlaşdırılmalıdır. İkincisi də, onlar gərək şəhərsalma prinsipini pozmasınlar. Hər bir böyük şəhərdə tikintinin prinsipləri var. Bu, sovet vaxtından Azərbaycanda, Bakıda olan şeydir – şəhərsalma sistemi, şəhərin baş planı… Şəhərin baş planı kənarda qalır, şəhərsalma prinsiplərinin tələbləri kənarda qalır. İnsanlar subyektiv prinsiplər əsasında – buna prinsip də demək olmaz – müəyyən sövdələşmə, təmənna nəticəsində belə şeylərə nail olurlar. Mən bunları qadağan edirəm.

İkincisi, ayrı-ayrı üç-dörd mərtəbəli evlər – buna bizdə villa deyirlər – tikirlər. Hər halda, bir ailə üçün. Bəzən elə olur ki, həmin o bir ailə üçün tikilən evin tutduğu yer iyirmi mərtəbəli iyirmi evin tutduğu yerə bərabər olur. Bunu düşünmək lazımdır. Bakıda torpaq tükənməz deyildir. Biz əgər Bakının torpağını belə dağıtsaq – mən bu sözü təsadüfən işlətmirəm, – onda 5–10 ildən sonra, 20–30 ildən sonra insanlar burada nə edəcəklər? Ona görə də bu işlər sistemləşdirilməlidir. Yoxsa, rayonun icra hakimiyyəti başçısı kefi istədi, gəlib yer ayırdı. O da gəlib orada ev tikdi. Sonra heç nə edə bilməzsən, bu onun şəxsi mülkiyyətidir. Biz şəxsi mülkiyyəti qorumalıyıq. Amma burada oturan icra hakimiyyəti başçılarının hamısının bunda günahı var. Bu başda oturan Sumqayıt, onun yanında oturan Binəqədi icra hakimiyyətlərinin başçıları – sizin üzünüzə deyirlər, günahlarınız çoxdur. Qaradağ rayonunda belə hallar o qədər yoxdur, çünki oranın müştərisi azdır, amma o da günahsız deyildir. Nizami, Əzizbəyov, Nəsimi, Nərimanov, Suraxanı, Səbail, Sabunçu rayonlarıdır, Hacıbala Abutalıbov, hansında yoxdur?

**Hacıbala Abutalıbov:** Hamısında var.

**Heydər Əliyev:** Səndə necə?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Hamısında vardırsa, deməli, məndə də var.

**H e y d ə r  Ə l i y e v:** Səndə də var. Elədirmi? Bunlara son qoyulmalıdır. Ona görə də heç kəs düşünməsin ki, Azərbaycan prezidenti fərdi tikinti prosesinə maneçilik törətmək, yaxud onun qarşısını almaq istəyir. Yox. Mən istəyirəm ki, bizim o yaxşı inşaatçılar, son vaxtlar tikdikləri kimi, çoxmərtəbəli evlər tiksinlər. İstəyirəm ki, o pullu adamlar – o pulları haradan toplayıblarsa, öz vicdanları bilər – özlərinə yaxşı ev tiksinlər.

Mən etiraz etmirəm. Ancaq dövlətin mənafeyinin pozulmaması şərtilə. Dövlətin mənafeyi torpaqdır. Torpaqdan qiymətli dünyada heç nə yoxdur. Hər şeyi almaq, düzəltmək, tikmək olar. Amma Azərbaycanda yenidən bir hektar torpaq sahəsi yaratmaq olmaz. Əgər olanları biz bu cür məsuliyyətsiz, özbaşına buraxsaq ki, kim nə istəyir onu etsin... Ona görə də mən birinci növbədə Bakının bütün rayonlarının icra hakimiyyəti başçılarının bu barədə fəaliyyətlərini pisləyirəm, onların işini qeyri-qənaətbəxş hesab edirəm. O cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin də. Hacıbala Abutalıbov gələndən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi, çox iş görüb və indi yəqin ki, bu barədə ona böyük ittiham irəli sürmək düzgün olmazdı. Amma təəssüflər olsun ki, ondan öncəki dövrdə Bakıda torpaqlar dağıdılıbdır. İndi də bəzən mənimlə danışanda görürəm ki, öz gücsüzlüyünü göstərir. Filan icra hakimiyyəti başçısı etdi... Deyirəm, niyə qoyursan? Deyir, qadağan edirəm, sözümə baxmır. Soruşuram niyə? Deyir ki, yuxarıdan kimsə onu dəstəkləyir.

Mən açıq söhbət edirəm. Kim dəstəkləyir? Kim yuxarıdan dəstəkləyir? Belə qanunsuz hərəkətləri Prezident Aparatından, Nazirlər Kabinetindən, Milli Məclisdən, haradan dəstəkləyirlər? Amma mən düşünmürəm ki, Abutalıbov bu barədə yalan məlumat verir.

Gəlin danışaq, əgər bizim üçün Azərbaycan və onun paytaxtı Bakı hər şeydər əzizdirsə, torpaq bizim müstəqil Azərbaycanın ən yüksək sərvətidirsə, bunu ayrı-ayrı adamların marağına təslim etmək olarmı? Bu barədə hər kəs düşünməlidir. Mən Hacıbala Abutalıbova tapşırıram, kimin kimi dəstəkləməsinə baxmayaraq, sən cavabdehsən və hər bir rayon icra hakimiyyəti başçısının bu barədə fəaliyyətinə cavabdehsən.

Ancaq mən bu tənqidi edərkən, eyni zamanda burada – ola bilər ki, tam olmasın – müəyyən qədər öz fikirlərimi bildirmək istəyirəm. Bizdə bu inşaat prosesi getməlidir. Ona görə gərək şəhərsalma və planlaşdırma idarəsi, Dövlət Tikinti və Arxitektura Komitəsi, şəhərsalma ilə məşğul olan layihə institutları bir yerdə toplaşıb müəyyən etməlidirlər – Bakının hansı hissəsində, hansı məhəlləsində bir böyük sahə ayırmaq olar ki, orada fərdi evlər tikilə bilər. Orada hərəyə nə qədər yer verilməlidir. Başa düşdünüzmü? Biri gəlib orada ev tikir, tələb olunduğundan beş qat çox torpaq götürür.

Fərhad Əliyev, bizdə özəlləşdirmə aparılarkən, bina özəlləşdirildikdə torpaq da özəlləşdirilir?

**F ə r h a d Ə l i y e v** *(İqtisadi İnkişaf naziri)*: Əgər üstü özəlləşdirilibsə, bəli. Müəssisə özəlləşdirilibsə, torpaq da həmin müəssisəni özəlləşdirən şəxs üçün özəlləşir.

**H e y d ə r Ə l i y e v:** Özəlləşir. Deməli, torpaq əldən getdi.

**F ə r h a d Ə l i y e v:** Torpaq o müəssisəyə verilir.

**H e y d ə r Ə l i y e v:** Müəssisə yox, mən fərdi adamlardan danışıram.

**F ə r h a d Ə l i y e v:** O da elədir.

**H e y d ə r Ə l i y e v:** Demək, ona görə burada müəyyən bir hədd qoymaq lazımdır.

Hər kəs bu çərçivə daxilində evini tikməlidir. Yoxsa biri ev tikir, üç hektar torpaq götürür, o birisi isə yox. Mən bir neçə

dəfə Ankara aeroportundan şəhərə vertolyotla getmişəm. Orada böyük ərazilər sektorlara bölünübdür. Evlərin hamısı bir-birinə bənzəyir, bir-birinin yanındadır, hərəsinin də kiçik bir həyəti. Böyük bir sahədə nə qədər evlər yerləşibdir. Amma təkcə Ankarada deyil, Qərb ölkələrinin şəhərlərində də belədir. Bizdəki kimi, kim nə qədər istəyirsə torpaq alsın – Qərb ölkələrində belə şeylərə yol verilmir. Bir qarış da artıq torpaq verməzlər. Amma indi elə bir dövran düşübdür ki, burada insanlar, bizim rəhbər vəzifəli şəxslər özlərinə mənfəət götürərək düşünmürlər ki, bu mənfəəti əldə etməklə Azərbaycanın milli mənafeyinə nə qədər zərbə vururlar. Belə hallara yol verirlər.

Ona görə də mən Baş nazirə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısına tapşırıram: adamları yığın, sistemi müəyyən edin. Hansı sistem üzrə nə cür ola bilər? Bir sistem – hündürmərtəbəli evlərin tikilməsi, digər sistem isə fərdi evlərin tikilməsi. Müəyyən edilsin ki, hər fərdi evin tikilməsinə nə qədər torpaq vermək olar və şəhərin hansı hissələrində bu tikintilər aparılmalıdır.

Artur Rasizadə bilir ki, Badamdarda həyətində neft quyusu olan ev var. Bir vaxt hay-küy saldılar ki, hamı Badamdarda ev tikir. Burada oturanların bəzilərinin orada evi var. Mən bunu bilirəm. Yaqub Eyyubov başının hərəkəti ilə bunu təsdiq edir.

**Y a q u b  E y y u b o v:** Məndə siyahı var.

**H e y d ə r  Ə l i y e v:** Səndə siyahı var.

**Y a q u b  E y y u b o v:** Kim harada və nə tikib, kimin evinin altından kəmər keçir, hamısı məlumdur.

**H e y d ə r  Ə l i y e v:** Məlumdur. Onda səni komissiya sədrinin müavini təyin edirəm.

Deməli, birincisi, bunun qarşısı alınır. İkincisi, bu cür nalayiq işlər görmüş adamlar haqqında bizə arayışlar yazılıb verilir. Üçüncüsü də, sistem yaradırıq.

Sözümün sonunda bir də deyirəm ki, Azərbaycanda inşaat biznesinin tərəfdarıyam. Bakıda yüksək mərtəbəli binaların tikilməsi – onları kimin inşa etməsinin mənim üçün fərqi yoxdur – bizim şəhərimiz üçün çox xeyirlidir, çünki insanları təmin edir və şəhəri gözəlləşdirir.

Eyni zamanda mən insanların özlərinə ayrı-ayrı mülk tikməsinin tərəfdarıyam və bunu da dəstəkləyirəm. Ancaq bunların hamısı bizim qanunlarımız çərçivəsində olmalıdır. Xahiş edirəm, bununla məşğul olun.

Bir halda ki, toplaşmışıq – biz tez-tez toplaşa bilmirik və buna ehtiyac da yoxdur – bir məsələyə də toxunmaq istəyirəm. Bizim Xəzər dənizinin çirklənməsi məni çox narahat edir. Bu, ümumi problemdir. Yəni təkcə bizim üçün yox, Xəzəryanı bütün ölkələr üçün problemdir. Biz bu barədə Aşqabadda Xəzəryanı dövlətlərin başçılarının görüşündə geniş müzakirə apardıq. Sankt-Peterburqda Rusiyanın prezidenti Vladimir Putinlə görüşərkən də biz bu məsələni müzakirə etdik. Bu, böyük məsələdir. Yəni bununla gərək bütün dövlətlər məşğul olsunlar. Çünki Xəzər dənizinin çirklənməsi hər tərəfdəndir.

Heç bir ölkə deyə bilməz ki, onun sahilindən Xəzər dənizinə çirkab suları buraxılmır, yaxud da ayrı-ayrı zavod və fabriklərin zəhərli suları axıdılmır. Bunu heç kəs deyə bilməz, o cümlədən biz də deyə bilmərik. Amma bizdə, Abşeronda çox ağır vəziyyət yaranıbdır. Mən ötən bazar günü Zuğulbaya getmişdim. Orada maraqlandım ki, dənizdə çimmək mümkündür, yoxsa mümkün deyil? General Vaqif Axundov mənə məlumat verdi ki, Zuğulbada – yeni dövlət bağları, bunu siz də yaxşı bilirsiniz – Səhiyyə Nazirliyinin keçmiş pansionatları var, indi orada qaçqınlar yerləşirlər – «Gənclik» düşərgəsindən o tərəfə qədər su çox çirklidir və mikrob var. Ona görə də istifadə etmək mümkün deyildir. Mən soruşdum, başqa yerlərdə ne-

cədir? Dedi ki, başqa yerlərdə də belədir. Soruşdum ki, bəs insanlar dənizə necə girirlər? Dedi ki, girirlər də, kiminsə xoşuna gəlir, risk edib girir.

Ekologiya və Təbii Sərvətlər naziri buradadır. Yəqin ki, məlumat verə bilər. Bu vəziyyət məni çox narahat edir. Sən mənə de, hansı kanalizasiya xətləri gəlib oraya tökülür?

**V a q i f  A x u n d o v** *(Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi)*: Cənab Prezident, orada Əzizbəyov rayonunun yaşayış binaları var, təqribən 15–20 min adam üçün nəzərdə tutulubdur. İndi isə 50 minə yaxın əhali yaşayır. Oradan on kilometr uzunluğunda kanalizasiya xətti keçir, dənizin səviyyəsi qalxdığına görə, bir hissəsi suyun altında qalmışdır. Ümumiyyətlə, orada uzun müddətdir ki, nasos stansiyası da işləmir. Çirkab suların hamısı birbaşa dənizə axır. Həm dövlət pansionatından – Səhiyyə Nazirliyinin pansionatından, həm də «Gənclik» düşərgəsi tərəfdən.

**H e y d ə r  Ə l i y e v:** Məni təkcə ora maraqlandırmır, o biri yerlər…

**V a q i f  A x u n d o v:** Ümumiyyətlə, bütün o yerlərdə – orada Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin pansionatları var – sahil sularından götürülən nümunələr həddindən artıq çirklidir. Orada çimmək mümkün deyildir. Səhiyyə Nazirliyi bunu bilir.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, əyləş. Sənin başqa sözün yoxdur?

**V a q i f  A x u n d o v:** Yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Ekologiya və Təbii Sərvətlər naziri nə deyə bilər?

**H ü s e y n q u l u  B a ğ ı r o v** *(Ekologiya və Təbii Sərvətlər naziri)*: Cənab Prezident, Sizin tapşırığınızla üç ay bundan əvvəl Abşeron yarımadasının su hövzələrinin, yəni göllərin, göl-

məçələrin və dəniz sahillərinin, qrunt sularının vəziyyətini öyrənmək üçün nazirliklərarası komissiya yaradıldı. Həmin komissiya 3-4 gün bundan əvvəl öz işini başa çatdırmışdır. Təxminən 700 səhifəlik hesabat hazırlayıbdır. Belə bir sənəd hazırdır, bu işin maliyyə xərcləri hesablanıbdır.

**H e y d ə r Ə l i y e v:** 700 səhifəlik sənədi siz oxuyub təhlil edin, amma bizə öz təkliflərinizi verin. Görək nə etmək lazımdır.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Cənab Prezident, orada təkliflər də var.

**H e y d ə r Ə l i y e v:** Bizə əsas təkliflər lazımdır. Görün nə etmək lazımdır. Çünki bu məsələ ilə çox geniş, qlobal nöqteyi-nəzərdən məşğul olmaq lazımdır. Artur, mən bunu sənə bir-iki dəfə tapşırmışam. Amma indi mən düşünürəm ki, o kanalizasiya xətləri ki, var – həmin sahəyə gəlir – o çimərlikdən çox adamlar istifadə edirlər – yəni həmkarlar təşkilatlarının keçmiş sanatoriyasından başlayaraq ta Buzovnadan aşağıya qədər, oralarda da çoxlu kanalizasiya xətləri var, o yerlərdə təcili tədbirlər görmək lazımdır. Amma Ekologiya və Təbii Sərvətlər naziri, sən təkliflərini ver. Hamısını etmək mümkün deyil, amma birinci növbədə nə etmək, hansı tədbirləri görmək lazımdırsa, bunlar edilməlidir. Yoxsa mənə o qədər tədbir görmək barədə təklif verərsən ki, bunun qiyməti 500 milyon dollar olar, bunu da həyata keçirmək mümkün olmayacaqdır. Sən gərək birinci, ikinci, üçüncü növbədə görülməli olan tədbirləri deməlisən ki, bunları ardıcıl surətdə həyata keçirmək mümkün olsun. Anladınmı?

Yaxşı, mənim sizə deyəcəyim sözlər bu qədər, sağ olun.

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Sizə qarşı həyata keçirilməsi nəzərdə tutulan məkrli suiqəsd cəhdindən böyük həyəcan və narahatlıqla xəbər tutdum.

Xoşbəxtlikdən, tərəqqi, demokratiya və humanizm uğrunda mübarizə aparan rəhbərinə sədaqət və məhəbbət nümayiş etdirən fransızlardan birinin sayıqlığı nəticəsində fanat terrorçu zərərsizləşdirilmişdir.

Əziz dostum, bildirmək istəyirəm ki, Sizə olan bu məhəbbəti mən və bütün azərbaycanlılar da bölüşürük. Biz ekstremizmin və terrorizmin bütün formalarda təzahürlərini qətiyyətlə pisləyirik.

Əminəm ki, prezident Şirak parlaq həyatı və fəaliyyəti ilə hələ uzun müddət xalqına xidmət edəcəkdir.

Dərin hörmət və səmimi dostluq hissləri ilə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 iyul 2002-ci il*

# UKRAYNANIN ƏDLİYYƏ NAZİRİ ALEKSANDR LAVRİNOVİÇ VƏ NAZİRLİYİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 iyul 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq dedi ki, bu, ölkələrimiz müstəqillik qazandıqdan sonra Ukrayna Ədliyyə Nazirliyi nümayəndə heyətinin respublikamıza ilk səfəridir. Prezident Heydər Əliyev vurğuladı ki, ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətləri mövcuddur və hər iki ölkənin ədliyyə nazirlikləri Azərbaycan və Ukrayna dövlət başçılarının siyasətlərini həyata keçirməlidirlər. Bu baxımdan dost ölkənin Ədliyyə Nazirliyi nümayəndə heyətinin ölkəmizə səfərinin böyük əhəmiyyəti var.*

*Ukraynada olduğu kimi, Azərbaycanda da tammiqyaslı hüquq islahatları həyata keçirilir. Azərbaycan prezidenti bu barədə danışaraq bildirdi ki, Ukrayna Ədliyyə Nazirliyi nümayəndə heyətinin səfəri ölkələrimizin münasibətlərində mühüm hadisədir.*

*Aleksandr Lavrinoviç Ukrayna prezidenti Leonid Kuçmanın salamını və ən xoş arzularını prezident Heydər Əliyevə çatdırdı. Ölkələrimiz arasındakı münasibətlərin bütün sahələrdə qarşılıqlı əlaqələri təmin etdiyini vurğulayan nazir Bakıda apardığı danışıqların yekunlarından söhbət açaraq bildirdi ki, Azərbaycanda hüquq sistemində islahatlar sahəsində görülən işlər Ukraynada hələlik yaxın perspektivdə nəzərdə tutulur. Bu həm penitensiar sistemə, həm də qeydiyyata aiddir.*

*Prezident Heydər Əliyev vurğuladı ki, köhnə sistemin – o cümlədən hüquq-mühafizə orqanlarının fəaliyyəti sahəsində – əks-sədası bəzi insanlarda belə fikir yaratmışdır ki, onlar dəyişməzdirlər. Bu, prokurorluq, məhkəmə orqanları haqqında qanunların qəbul edilməsi prosesində açıq-aşkar özünü göstərmişdir. Bəziləri həmin qanunların müddəaları əleyhinə çıxaraq, öz mühafizəkar mövqelərini əsaslandırmaq üçün digər ölkələri nümunə gətirirdilər.*

*İndi prokurorluq fəaliyyətindəki bu yeniliklər Azərbaycanda bunların tətbiq olunmasının əleyhdarlarının istinad etdikləri ölkələrdə – həm Ukraynada, həm də Rusiyada qəbul edilmişdir. Ölkədəki vəziyyəti gərginləşdirən qanunsuz silahlı birləşmələrin olmasına baxmayaraq, Azərbaycan bütün bu çətinlikləri dəf etmiş, vəziyyət sabitləşmiş və hüquq islahatları həyata keçirilmişdir. Dövlətimizin başçısı bildirdi ki, bu addım bəzilərinin iddia etdiyi kimi, yaranmış sabitliyi pozmamış, əksinə, möhkəmləndirmişdir.*

*Prezident Heydər Əliyev bu yaxınlarda İstanbulda Ukrayna prezidenti Leonid Kuçma ilə görüşündən söhbət açdı və ümidvar olduğunu bildirdi ki, onun fəal siyasəti və ölkənin böyük potensialı sayəsində Ukrayna uğurlar qazanacaqdır.*

# AZƏRBAYCAN DÖVLƏT NEFT FONDUNUN MÜŞAHİDƏ ŞURASININ BİRİNCİ İCLASINDA NİTQ

*Prezident sarayı*

*16 iyul 2002-ci il*

Hörmətli iclas iştirakçıları!

Mən bu gün Dövlət Neft Fondunun Müşahidə Şurasının birinci iclasını çağırmışam. Bildiyiniz kimi, 1999-cu ilin sonunda mənim Fərmanımla Azərbaycanda Dövlət Neft Fondu yaradılıbdır. Dövlət Neft Fondunun yaradılması Azərbaycan dövlətinin 1994-cü ildən həyata keçirdiyi neft strategiyası nəticəsində mümkün olmuşdur. Biz Azərbaycanda neft strategiyasını hazırlayıb həyata keçirməyə başlayarkən qarşımıza əsas bir böyük məqsəd və vəzifə qoymuşuq: Azərbaycanın zəngin təbii sərvətləri olan neft və qaz yataqlarının xarici şirkətlərlə, onların investisiyalarının cəlb olunması vasitəsiylə müştərək işlənilməsini təşkil etmək, bunun nəticəsində zəngin yataqlarımızdan neft və qaz hasilatını təmin etmək və təbiidir ki, bunların hamısını Azərbaycanın milli mənafelərinin təmin olunmasına yönəltmək. Yəni bütün bu strategiya yalnız və yalnız Azərbaycanın milli mənafeləri üçün həm işlənib hazırlanıb həm də həyata keçirilir.

Təbiidir, mənafe çox geniş anlayışdır. Burada çox məsələlər var. Ancaq bunların içərisində birinci yerdə Azərbaycanın iqtisadiyyatının inkişaf etdirilməsi, sosial problemlərin

həll olunması, Azərbaycan əhalisinin rifah halının yaxşılaşdırılması dayanır. Bizim bu strategiyamız birinci gündən bizə çox böyük ümidlər verdi. Məlumdur ki, biz neft strategiyasını mürəkkəb şəraitdə həyata keçirməyə başladıq və buna başlayan kimi, dərhal ölkəmizə qarşı təxribatlarla, terror aktları ilə, dövlət çevrilişi cəhdləri ilə rastlaşdıq. Amma bunlara baxmayaraq, biz öz iradəmizdən dönmədik, tutduğumuz yolla getdik. İndi artıq məlumdur ki, böyük nəticələr əldə edilib və daha böyük nəticələrin əldə olunması üçün imkanlar, şərait yaranıbdır.

«Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının işlənilməsi ilə əlaqədar 1994-cü ildə imzalanmış müqavilənin icrası birinci növbədə «Çıraq» yatağının işlənilməsindən başladı. Qısa bir müddətdə bu nəhəng layihə həyata keçirildi. «Çıraq» neft yatağında müasir tələblərə cavab verən, yüksək texnikaya, texnologiyaya malik olan platforma quruldu və biz 1997-ci ilin noyabr ayında orada ilkin neftin alınmasını və ixrac olunmasını qeyd etdik.

Bakı–Supsa neft kəmərinin tikilməsi zəruri idi. Çünki biz «Çıraq» yatağından hasil etdiyimiz nefti Bakı–Novorossiysk xətti ilə ixrac edirdik. Ancaq bu kəmər, birincisi, ixrac proqramının hamısının vaxtında həyata keçirilməsini təmin etmirdi, biz bir çox problemlərlə rastlaşdıq. İkincisi də, biz eyni zamanda alternativ neft kəmərlərinin yaranmasını məqsədəuyğun hesab etmişik və bu məqsədlə də Bakı–Supsa neft kəmərini tikdik və 1999-cu ilin aprel ayında o, işə salındı. Yəni artıq kəmər neftlə dolu idi və Supsada bu kəmərlə vurulan nefti biz özümüz müşahidə etdik və bu hadisəni də qeyd etdik.

Beləliklə, neft strategiyasının həyata keçirilməsinin ilk nəticələri göz qabağındadır. Bunlar ondan ibarətdir ki, biz müştərək iş apardığımız şirkətlərlə «Çıraq» neft yatağından neft

çıxarır, onu ixrac edirik və bu layihədən gəlir nefti əldə edirik. Məhz ona görə də bu gəlir neftindən, yəni neftin Azərbaycana çatan hissəsindən gələn gəlirin istifadə olunması məsələsi gündəliyə gəldi. Təkcə o vaxt yox, bu, əvvəldən də gündəlikdə idi, biz bu barədə düşünürdük. Fikrimiz var idi ki, gərək ayrıca Neft Fondu yaradaq və bu layihələrdən gələn gəlirləri Neft Fonduna toplayaq, toplanmış vəsaitdən ölkənin vacib məsələlərinin həll olunmasında istifadə edək. Amma birinci mərhələdə hələ gəlirləri toplayıb gələcək üçün zəmin yaradaq. Təbiidir ki, gəlirlər getdikcə artır və artacaqdır. Gəlirlər artandan sonra onların istifadəsi daha çox mümkün olacaqdır.

Neft Fondunun yaradılması Azərbaycanda müzakirə olundu. Beynəlxalq maliyyə mərkəzlərində müzakirə edildi. Biz bu sahədə dünya təcrübəsini ətraflı öyrəndik. Bütün bu işləri həyata keçirərək bir məqsəd güdürdük ki, Neft Fondunun yaradılması, onun forması, idarə edilməsi, istifadə mexanizmi elə müəyyən olunsun ki, oraya gələn gəlirlər və oradan xərclənən vəsait təkcə bu işlə məşğul olanlar üçün yox, bütün cəmiyyətimiz üçün və hətta dünyada maraqlananlar üçün açıq olsun, şəffaf olsun.

Biz bunu ön plana çəkirdik və çəkmişik. Birincisi, ona görə ki, keçmişdə – doğrudur, onda Neft Fondu olmayıbdır – neftdən gəlirlər gəlib, amma, təəssüflər olsun ki, bəzi hallarda dərhal dağıdılıbdır. İkincisi, respublikanın bəzən çox böyük ehtiyacları olur, əgər mən dediyim sistem yaranmasaydı, kimlərsə o ehtiyacları təmin etmək üçün bundan istifadə etməyə cəhd göstərə və buna nail ola bilərdilər. Bir də ki, Azərbaycanın təbii sərvətləri xalqa məxsusdur, xalqındır. Xalqdan başqa heç kəsin deyil və xalqın etimad etdiyi dövlət, iqtidar bu təbii sərvətlərin xalqa məxsusluğunu daim gözünün önündə saxlamalıdır və onlardan ancaq xalqın, yalnız xalqın tələ-

batını təmin etmək üçün istifadə edilməlidir. Bax, bu prinsiplər əsasında biz Neft Fondunun formalaşdırılması üçün çox məsləhətləşmələr apardıq. Hətta bəzən mübahisələr də olurdu, müxtəlif fikirlər də olurdu. Ancaq biz bütün beynəlxalq təcrübəni öyrənərək, Azərbaycanın xüsusiyyətlərini nəzərə alaraq, Azərbaycanın Dövlət Neft Fondunu yaratdıq və artıq o vaxtdan keçən iki il sübut edir ki, biz nə qədər doğru və düzgün bir qurum, sistem yaratmışıq.

Fondun yaranma prosesində müxtəlif ölkələrdə müəyyən qüvvələr guya bu dağılacaq, filan olacaq, hansı ölkədə dağıdıblar kimi şaiyələri ortaya ataraq, Azərbaycan dövlətinin suveren hüquqlarına toxunan bəzi təkliflər irəliyə sürürdülər. Yaxud da, Azərbaycanda müxalifət qüvvələri həmişə çalışırlar ki, bir şey tapsınlar. Onun ətrafında aylarla əhəmiyyətsiz, mənası olmayan danışıqlar aparsınlar. Çox vaxt da heç nə tapmayanda, tapmırlar da – nəsə uydururlar.

Ancaq burada, təbii ki, mövzu var – neft hasilatı, neftin satışından gələn gəlir. Bu gəlirdən istifadə olunması, həqiqətən çox ciddi məsələdir. Bu gün də ciddi məsələdir, gələcək üçün, gələcək nəsillər üçün də ciddi məsələdir. Belə bir çox etibarlı Neft Fondu sisteminin yaradılması indiki bizim hakimiyyət dövründə gələn gəlirlərin Azərbaycan xalqının mənafeyinə tam istifadə olunmasını təmin edir. Ancaq əgər gələcəkdə kimsə bunu, bu sistemi dəyişdirərsə, yaxud parçalayarsa, dağıdarsa, əlbəttə, dərhal Azərbaycan çox böyük itkilər verər və xalq özünə məxsus olan sərvətdən məhrum olar. Bu çox ciddi məsələdir. Bizim yaratdığımız Neft Fondu, hesab edirəm ki, çox etibarlıdır və bu etibarlılığı daim təmin etməliyik. Ona görə bu sistemin fəaliyyəti də gərək daim bu etibarlılığı təmin etsin.

Mən qeyd etdim ki, Fərmanımda əks olunmuş müddəalar bu işin tam aşkarlığını, şəffaflığını təmin edir. Neft Fondu da-

xil olan vəsait haqqında, yaxud onun hansısa bir hissəsi işlənərsə, onun haqqında mətbuatda vaxtaşırı məlumat verir və bundan sonra da verməlidir. Ancaq Neft Fondunun idarə olunmasında da bir çox proseslər də var. buna görə də biz o vaxt mənim Fərmanım ilə Neft Fondunun Müşahidə Şurasını yaratdıq. Müşahidə Şurasını həm icra orqanlarının, qanunvericilik orqanının nümayəndələrindən, həm də bizim ictimaiyyətin nümayəndələrindən yaratdıq. İcra orqanlarının və ictimaiyyətin nümayəndələri prezident tərəfindən təyin olunublar. Qanunvericilik orqanının nümayəndələri isə Milli Məclisin qərarı ilə təyin ediliblər.

Beləliklə, biz həm icra orqanlarının, həm də qanunvericilik orqanının bu işə cəlb olunmasını təmin etmişik. Yenə də deyirəm, şəffaflığın təmin olunması üçün mənim Fərmanımda, qəbul edilmiş əsasnamədə, başqa sənədlərdə çox ciddi müddəalar əks olunubdur. Bunlar Neft Fondunun vəsaitindən istifadədə hansısa pozuntulara yol verilməsinə imkan verməyəcəkdir.

Müşahidə Şurası daim fəaliyyət göstərməlidir. Rübdə bir dəfə onun iclası keçirilməlidir və gərək Müşahidə Şurası Dövlət Neft Fondunun hesabatını dinləsin. Təkcə Neft Fondunun yox, auditor xidmətinin hesabatını da dinləsin və öz münasibətini bildirsin. Bütün bu struktur, sistem, yenə də deyirəm, yalnız və yalnız Dövlət Neft Fondunun fəaliyyətinin doğru, düzgün, şəffaf olması üçündür.

Mənim fikirmcə, biz indiki mərhələdə hələ ki, Neft Fonduna daxil olan gəlirləri toplayıb müxtəlif banklarda – bunu Neft Fondunun rəhbərliyi yaxşı bilir ki, harada – saxlamalıyıq. Yalnız çox vacib hallarda bunlardan istifadə edə bilərik. Ancaq bir, iki, üç ildən sonra bizim gəlirlərimiz artacaq və çox sürətlə artacaqdır. O zaman bu məsələyə baxmaq olar ki, bu-

nun hansı hissəsini saxlamaq, hansı hissəsini bəzi sosial məsələlərin, xalqın sosial problemlərinin həllinə yönəltmək, yaxud bir hissəsini müxtəlif yollarla investisiya kimi istifadə etmək və bundan da gəlir götürmək olar. Yəni biz Neft Fondunun vəsaitini elə orada saxlamamalıyıq. Böyük bir vəsaitdir. Dünya maliyyə sistemində məlumdur ki, belə böyük vəsaitə malik olan ya dövlət, ya qurum, ya da bank o vəsaiti ancaq toplayıb saxlamır, ondan istifadə edir. Bu istifadədə də gəlir gətirir. Ona görə Neft Fondunun gələcək vəzifələrindən biri də odur ki, toplanan vəsaitdən ölkəmizə əlavə gəlir gətirmək üçün tədbirlər görsün.

## QEYDLƏR

**1. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 5,9,218,239,414.

**2. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 5,9,218,228,239,414.

**3. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 5,10,11,14,16,18,20,23,24,25,28, 29,30,70,205,207,211,218,222,228,229,230,239,256,273,275,289,290,303,389.

**4. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. –5, 11,14,16,70,205,211,218,222,230,256,273,289,389.

**5. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüş-

dürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 5,8,9,13,29,103,218,227.

**6. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 8,9,10,15,20,27,227.

7. ***bp***, «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 9,10,12,22.

**8. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 9,10,11,15,23,24,229.

**9. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 9,11,205–208,226,228,230,239,323, 339.

**10. Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı–Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 9,228.

**11. ATƏT-in İstanbul zirvə görüşü** – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll

olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 11.

**12. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 11, 24–25,97,140,157,194,202–231,328,330–332,387–389.

**13. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. –11,14,25,28–30,74,81,82,102, 110,139,140,206,209–210,214,260,283,300,333,338,340,364–369.

**14. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi, ABŞ-ın 42-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 11.

**15. Xəzəryanı ölkələr** – bura Rusiya, Azərbaycan, İran, Qazaxıstan, Türkmənistan daxildir.

**16. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)** –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 12,15.

**17. Azərbaycan Ticarət–Sənaye Palatası –** 1960-cı ildən fəaliyyət göstərir. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə ticarət, iqtisadi və el-

mi-texniki əlaqələrinin inkişafına kömək edir. 1980-ci ildə palata istehsalın və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi müvəffəqiyyətlərə görə «Qızıl Merkuri» beynəlxalq mükafatına layiq görülmüşdür. – 14.

**18. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t  B a ğ ı  o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 15.

**19. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Georgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 15.

**20. «Şell»** – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. – 16.

**21. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 16,17,18.

**22. «İtoçi» şirkəti –** Yaponiyanın «İtoçu» korporasiyası. 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları var. «İtoçu» 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. –16.

**23. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə

malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 16,70.

**24. «Botaş»** –Türkiyə dövlət xam neft və mavi qaz kəmərlərinin və ticarət dövlət kompaniyası. «Botaş» 1974-cü ildə Kirkuk – Ceyhan kəmərinin tikilməsi və istismarı üçün yaradılmışdı. 1987-ci ildən «Botaş», həmçinin mavi qazın ötürülməsində və satılmasında iştirak edir. «Botaş» Nabukko kəmərinin layihəsində də iştirak edir. – 16.

**25. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 17–19.

**26. Tur Heyerdal** (1914–2002) – Norveç etnoqrafi və arxeoloqu. Köhnə Dünya (Asiya, Avropa, Afrika) və Yeni Dünya (Amerika) arasında xalqların transogean miqrasiyasının mümkünlüyünü tədqiq etmişdir. 1969 və 1970-ci illərdə papirusdan hazırlanmış «Ra» və «Ra-2» qayıqlarında Afrikadan Amerikaya, 1977–78-ci illərdə qamışdan hazırlanmış «Tiqris» qayığında Əlkürna (İraq) – Cibuti marşrutu ilə ekspedisiyalar təşkil etmişdir. 2 dəfə Azərbaycanda olmuş, Qobustan qaya təsvirlərinə, qədim Şabran şəhərinin qalıqlarına baxmış, bu abidələr barədə qiymətli mülahizələr söyləmişdir. Bir neçə dəfə Azərbaycana səfər etmişdir. – 18,19.

27. **Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2397 km$^2$, əhalisi 173 min nəfərdir. – 19,121.

**28. Kiş** – Azərbaycan Respublikasının Şəki rayonunda kənd. Kiş çayının sahilində dağ ətəyindədir. Əhalisi 4445 nəfərdir. Kiş Azərbaycanın qədim yaşayış məntəqələrindəndir. Erkən orta əsrlərdə Qafqaz Albaniiyasında xristianlığın mərkəzlərindən olmuşdur. Kişdə IV əsrdə xristian məbədi tikilmişdi. Kişdə XIV–XVI əsrlərdə müdafiə qalası olmuşdur. – 19.

**29. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 20–21.

**30. «Eni»** – İtaliya neft və qaz kompaniyası. Mənzil-qərargahı Romadadır. 1953-cü ildə İtaliya dövləti tərəfindən yaradılmışdır. XX əsrin 90-cı illərində, XXI əsrin əvvəllərində bir hissəsi özəlləşdirilmişdir. «Eni» dünyanın 90 ölkəsində fəaliyyət göstərir. – 20,21.

**31. Uzaq Şərq** – Şərqi Asiyada ərazi. Buraya Rusiya, Çin, Koreya (KDXR və Koreya Respublikası) və Yaponiya ərazilərinin şərqi aiddir. Bəzən Filippini də Uzaq Şərqə aid edirlər. – 21,91.

**32. Böyük Britaniya,** B ö y ü k  B r i t a n i y a  v ə  Ş i m a l i  İ r l a n d i y a  B i r l ə ş m i ş  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 22–23,78,84,106–108.

**33. Brayan Uilson** (d.1948) – Birləşmiş Krallığın siyasətçisi. 1987–2005-ci illərdə Dövlət naziri, 2000–2003-cü illərdə Ticarət və Sənaye naziri olmuşdur. – 22–23.

**34. Toni Bleyr,** E n t o n i  Ç a r l z  L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentin deputatı, 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 23,78,108.

**35. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir:

Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 25,292.

**36. Büländ Ecevit** (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974, 1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi olmuşdur. – 25,291.

**37. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 26–27.

**38. «Samsunq Elektroniks»** – elektronika istehsalçı şirkəti. Yarımkeçiricilər, telekommunikasiya avadanlığı, yaddaş çipləri, açıq (duru) kristal displevlər, mobil telefon və monitorlar istehsal edir. Şirkətin dünyanın 56 ölkəsində 164 min nəfər işçisi var. Şirkət 1969-cu ildə Cənubi Koreyada yaradılmışdır. Şirkət ilk vaxtlar televizorlar, kalkulyatorlar, soyuducular, kondisionerlər və paltar- yuyan maşınlar istehsal edirdi. 2011-ci ildə Samsunq il ərzində 300 milyon telefon sataraq dünyanın bütün kompaniyalarını ötərək birinci yerə çıxmışdır. – 26–27.

**39. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 26,96,97,352,354.

**40. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 26,31–74,75–76,80–83, 97,110,139,206,208,209–210,238,260,280,283,296,300,329,335,385,407, 412.

**41. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 26,29,31–74,75–76,81,82,83, 206,329,335,407.

**42. İlham Əliyev**, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Xalqımızın ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən

böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 27,113,114,120,121,174.

**43. Stiven Mənn –** amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 28–30.

**44. Ağ ev** – Vaşinqtonda ABŞ prezidentinin iqamətgahı və dəftərxanası (1800-cü ildən).1792–1829-cu illərdə inşa edilmişdir. ABŞ hökumətinə çox zaman Ağ ev deyilir. – 28.

**45. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini

(incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 28, 29,74,81,333.

**46. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 km$^2$, əhalisi 13,0 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızın 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Türkiyə Konstantinopolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 29,202–231,245,320,321,323,338,339,412.

**47. Leninqrad** – bax: Sank-Peterburq.

**48. Sankt-Peterburq** (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petro-qrad, 1991-ci ilədək Leninqrad) –1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. – 31–74,75,82,83,312, 385,407.

**49. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 31–74,83,267,383.

**50. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qa-

rabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 31,33,43,48,52,67,74,75,82,102,111,112,129,140, 156,195,209,211,212,214,219,221,223,233,240,248,256,258,259,271,274,277, 283,289,290,299,302,307,322,351,375,392.

**51. Nardaran** – Azərbaycan Respublikasında, Abşeron yarımadasında şəhər tipli qəsəbə.

Nardaranda orta əsrlərdən qalmış memarlıq abidələrindən ən qədimi yerli feodal qəsridir (Nardaran qalası). Dördkünc planda tikilmişdir. Hər küncdə yarımdairəvi bürc var. Uzunluğu 26–28 m, hündürlüyü 5,5 m, eni 1,2 m. olan müdafiə divarları mazqallıdır. Bürcün kitabəsində onun 1301-ci ildə Mahmud ibn Səəd tərəfindən tikildiyi göstərilir. Nardaranda memarlıq formalarının dəqiqliyi ilə fərqlənən Xan hamamı (1388, memar Kəştasif Musa oğlu), karvansara (XX əsr), Ramazan məscidi (1681) və s. abidələr də mühafizə olunur. – 33.

**52. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 33.

**53. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB,

AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 34,47,102,107,286.

**54. Ayaz Mütəllibov,** A y a z  N i y a z  o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990–92-ci illərdə Azərbaycan KP MK-nın Birinci katibi, Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 34.

**55. İqor İvanov** (d.1945) – 1986–89-cu illərdə SSRİ Xarici İşlər Nazirliyinin ümumi katibliyində rəisin birinci müavini, 1989–91-ci illərdə rəis, 1991–93-cü illərdə Rusiya Federasiyasının İspaniyada səfiri, 1993–98-ci illərdə Rusiya Xarici İşlər nazirinin birinci müavini, 1998–2004-cü illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri olmuşdur. – 36,37.

**56. Mixail Şvidkoy** (d.1948) – Rusiya Federasiyasının dövlət xadimi. 2000-ci ildən Rusiya Mədəniyyət naziri və kinematoqrafiya mədəniyyəti üzrə Federal agentliyin, eyni zamanda Moskva Myuzikl Teatrının bədii rəhbəridir. Rusiya Dövlət mükafatı laureatıdır. – 36,37.

**57. Vilayət Quliyev,** V i l a y ə t  M u x t a r  o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstanda Fövqəladə və Səlahiyyətli səfiridir. – 37,215, 337–341.

**58. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 37.

**59. Puşkin,** A l e k s a n d r  S e r g e y e v i ç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası» olan (N.Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 40.

**60. Pyotr I,** B ö y ü k  P y o t r (1672–1725) – rus çarı. Rusiyanın ilk imperatoru (1721-ci ildən), dövlət xadimi, sərkərdə, diplomat. Fiziki cəhətdən möhkəm, ağıllı, iradəli, eyni zamanda çılğın, amansız (1718-ci ildə oğlu barədə ölüm hökmünə razılıq vermişdi) adam idi. Rusiyanın qabaqcıl Qərbi Avropa ölkələrindən geriliyini aradan qaldırmaq üçün mühüm islahatlar keçirmişdir. I Pyotr müvəffəqiyyətli xarici siyasət yeridirdi. Azov şərəfləri (1695–96) nəticəsində, Şimal müharibəsindəki (1700–21) qələbədən sonra Rusiya Avropanın böyük dövlətləri sırasına daxil oldu. 1703-cü ildə I Pyort Peterburqun əsasını qoydu. O, nizami rus ordusunun və hərbi dəniz donanmasının yaradıcısıdır. Sənayenin inkişafına, kanallar və yollar çəkilməsinə xüsusi diqqət yetirmişdir. O, mədəniyyət və maarif sahəsində də böyük dəyişikliklər etmişdi: onun dövründə Rusiya EA (1725) yaradılmışdı.

I Pyotr Rusiya tarixinə mütərəqqi dövlət və hərbi xadim kimi daxil olmuşdur. – 40,46.

**61. Adolf Hitler** (1889–1945) – Nasional-Sosialist Partiyasının füreri (rəhbəri), alman-faşist dövlətinin başçısı (1933-cü ildən reyxkansler). Almaniyada faşist rejiminin yaradıcısı. İkinci dünya müharibəsinin əsas təşkilatçısı olmuşdur. İşğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi surətdə məhv edilməsinin başçısıdır. Sovet ordusu Berlinə girəndə özünə qəsd etmişdir. Nürnberq prosesində hərbi cani elan edilmişdir. – 41.

**62. Piskaryov qəbiristanlığı** – 1941–44-cü illərdə Leninqrad cəbhəsində alman faşizminə qarşı vuruşmada həlak olanların (470 minə yaxın)

şərəfinə salınmış xatirə kompleksi. Qəbiristanlıqda «Ana Vətən» abidəsi ucaldılmişdir. – 41,48,49.

**63. Höte,** İ o h a n n  V o l f r a n q (1749–1832) – böyük alman şairi, mütəfəkkir və təbiətşünas. Almaniyada Maarifçilik dövrü ədəbiyyatının ən böyük nümayəndələrindən, yeni dövr alman ədəbiyyatının banilərindəndir. Höte yaradıcılığının şah əsəri olan «Faust» faciəsində Avropada Maarifçilik ideyalarının inkişafına yekun vurulmuşdur. – 42.

**64. İpək Yolu**, B ö y ü k  İ p ə k  Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 43,53,219.

**65. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 340 min nəfər. Əhalinin sayına görə sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 46,63,121,248.

**66. «Şanxay qrupu»,** «Ş a n x a y  b e ş l i y i» – siyasi və iqtisadi məsələlərin həlli üçün toplaşan 5 (Qazaxıstan, Qırğızıstan, Çin, Rusiya, Tacikistan) ölkə. – 47,67.

**67. Rusiya–NATO Şurası** – 2003-cü il fevralın 8-də Rusiyanın Müdafiə naziri və NATO-nun Baş katibi Con Robertson arasında avariya etmiş sualtı qayıqların xilas edilməsi haqqında imzalanan çərçivə sənədi əsasında 2004-cü ildən Rusiya NATO-nun nəinki təlimlərində iştirak edir, hətta sülhməramlı əməliyyatlarında da iştirak edirdi.

2008-ci ildən NATO-nun təklifi ilə Gürcüstan – Cənubi Osetiya konfliktinə görə NATO –Rusiya Şurasının fəaliyyəti dayandırıldı. – 47,73.

**68. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 47,109–112,139,141,195,209–210,212,222,256,260,277,283,322,394.

**69. Böyük Vətən müharibəsi,** bax: İkinci dünya müharibəsi.

**70. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62

milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 48,380.

**71. Andrey Pervozvannı** – 1698-ci ildə Rusiya imperatoru I Pyotr tərəfindən təsis edilən ilk rus müqəddəs Apostol ordeni. Təsis edildiyi zamandan 1100 adam bu mükafata layiq görülmüşdür. 1998-ci ildən bu orden Rusiya Federasiyasının ən yüksək mükafatıdır. – 50–54,68.

**72. SSRİ,** Sovet Sosialist Respublikaları İttifaqı– 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 56,57,59,60,61,80,92,93,124,144,182,252,343.

**73. Qorbaçov,** Mixail Sergeyeviç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti, xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 56–57,307.

**74. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən

muxtar respublikanın paytaxtı oldu. – 57,113–195,301,302,307,308,309,310, 313,384,386.

**75. Ural** – Rusiya Federasiyasında, Şərqi Avropa və Qərbi Sibir düzənlikləri arasında ərazi. Uralın əsas hissisə Ural dağ sistemindən ibarətdir (uzunluğu 2000 km-dən çox, eni 45-15 km, hündürlüyü 1895 metrədək).

Ural faydalı qazıntılarla zəngindir. Mis, dəmir, titan, nikel və xromit filizləri, daş kömür, neft, qaz və s. yataqları var. – 59.

**76. Moskva Dövlət Universiteti**, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 rəsədxana, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyat var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. Bakıda 2009-cu ildə filialı açılmışdır. – 59.

77. **Sankt-Peterburq Universiteti** – Rusiya Federasiyasında ən böyük universitetlərdən biri, elmi mərkəz. 1819-cu ildə Baş Pedaqoji İnstitutun əsasında yaradılmışdır. 1820-ci ildən fəaliyyət göstərir. Burada 21 min tələbə təhsil alır. – 59.

**78. Tszyan Tszemin** (d.1926) – Çinin partiya və dövlət xadimi. 1989-cu ildən Çin KP MK-nın Baş katibi, 1993–2005-ci illər Çin Xalq Respublikasının sədri olmuşdur. – 68.

**79. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 69,207,223–224,226,230,323,338,340,341,373,411–412.

**80. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 69,223–224,226,230,338,411,412.

**81. Vahid Ələkbərov**, V a h i d  Y u s i f  o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 70.

**82. Borçalı** – Gürcüstan Respublikasında azərbaycanlıların elliklə yaşadığı qədim tarixi mahal. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsə də, çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə İran şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işgal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. Çar Rusiyası və Sovet Rusiyası dövründə yeridilmiş məqsədyönlü siyasət nəticəsində azərbaycanlıların qədim Borçalı mahalı etnik-ərazi vahidi kimi, tarix səhnəsindən silindi və Azərbaycanın təsir dairəsindən çıxarıldı. – 71,302

**83. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 72,73,140, 201,382–386.

**84. Filippin,** F i l i p p i n  R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 71,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqan ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. –77.

**85. Qloriya Makapaqal Arroyo** (d.1947) – 2001-ci ildən indiyə qədər Filippin prezidenti. Ölkə tarixində ilk prezident qadın. Keçmiş prezident Diosalado Makapaqalın qızı. İqtisad elmləri doktoru. – 77.

**86. İslandiya,** İ s l a n d i y a  R e s p u b l i k a s ı – Atlantik okeanın şimalında, İslandiya adalarında dövlət. Sahəsi 103 min km$^2$, əhalisi 270

min nəfərdir. İnzibati ərazisi 23 rayonu (sisla) olan 8 mahala bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (altinq). Paytaxtı Peykyavikdir. – 79.

**87. Olavur Raqnar Qrimsson** (d.1943) – 1996-ci ildən indiyə qədər İslandiyanın prezidenti. Politologiya elmləri doktoru. – 79.

**88. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 82,141,257,286.

**89. E l i z a b e t II** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 84.

**90. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 85.

**91. Valter Şvimmer** (d.1942) – tanınmış Avstriya dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999–2004-cü illərdə isə Avropa Şurasının Baş katibi olmuşdur. – 85.

**92. Azərbaycan Dövlət İqtisad Universiteti** (ADİU) – ali təhsil müəssisəsi. 1930-cu ildə əsası qoyulmuş ADİU Cənubi Qafqaz ölkələrinin ən böyük təhsil ocaqlarından biridir. ADİU-da mindən çox müəllim, o cümlədən AMEA-nın və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvləri, Dövlət mükafatları laureatları, əməkdar elm xadimləri işləyir. Hazırda universitetdə fəaliyyət göstərən 12 fakültədə 55 ixtisas üzrə 14 mindən çox tələbə təhsil alır. – 86–87,88–104.

**93. Əli Abbasov,** Ə l i M ə m m ə d o ğ l u (d. 1953) – Texnika elmləri doktoru, professor. AMEA-nın həqiqi üzvü. 2000–2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru olmuşdur. 2000-ci ildən Milli Məclisin üzvü, 2001-ci ildən AŞPA-nın üzvü olmuşdur. 2004-cü ildən Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları naziridir. – 88,92.

**94. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 89,232,238.

**95. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix–filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 55 ixtisas üzrə 18 minə yaxın tələbə təhsil alır. – 89,91,312.

**96. Azərbaycan Dövlət Tibb Universiteti,** N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universiteti – Respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı Dövlət Universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 8000 tələbə təhsil alır. – 90.

**97. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 99,103, 107,129,413–418.

**98. Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elm ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 99,174.

**99. Süleyman Rəhimov,** Süleyman Hüseyn oğlu (1900–1983) –görkəmli Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. Sosialist Əməyi Qəhrəmanı. Onlarla roman və povestlərində Azərbaycan xalqının tam birəsrlik tarixi öz əksini tapmışdır. Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. – 100.

**100. Süleyman Rüstəm,** Süleyman Əliabbas oğlu Rüstəmzadə (1906–1989) – görkəmli Azərbaycan şairi, dramaturq, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın Xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Müharibə dövrü (1941–1945) yaradıcılığında Cə-

nubi Azərbaycanda xalqın mili-azadlıq uğrunda mübarizəsinə həsr olunmuş şeirləri xüsusi yer tutur. – 101.

**101. Rəsul Rza,** R ə s u l İ b r a h i m o ğ l u R z a y e v (1910–1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmannı adlarına layiq görülmüşdür. – 101.

**102. Mirzə İbrahimov,** M i r z ə Ə j d ə r o ğ l u (1911–1993) – Azərbaycan yazıçısı, dramaturq, ictimai və dövlət xadimi. Azərbaycanın Xalq yazıçısı. Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən olan M.İbrahimov bir sıra hekayə, povest və romanların müəllifidir. Azərbaycan Yazıçılar İttifaqının sədri, SSRİ Yazıçılar İttifaqının katibi, Azərbaycan Respublikası Ali Sovetinin sədri, SSRİ Ali Sovetinin deputatı, Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri olmuşdur. M.İbrahimov AMEA-nın akademiki, Azərbaycan və SSRİ mükafatları laureatı, Beynəlxalq Nehru mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüşdür. – 101.

**103. Qara Qarayev,** Q a r a Ə b u l f ə z o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. – 101.

**104. Niyazi,** T a ğ ı z a d ə – H a c ı b ə y o v N i y a z i Z ü l f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adlarına layiq görülmüşdür.. – 101.

**105. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkar-

larındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. –101.

**106. Rəşid Behbudov**, R ə ş i d  M ə c i d  o ğ l u (1915–1989) – böyük Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qastrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. –101.

**107. Mikayıl Hüseynov,** M i k a y ı l  Ə l ə s g ə r  o ğ l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü. M.Hüseynovun layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskva, Düşənbə və s. yerlərdə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı metropoliteninin «Hərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları Hüseynovun ən görkəmli əsərlərindəndir. M.Hüseynov Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 101.

**108. Topçubaşov Mustafa bəy** (1895–1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Tədqiqatı, əsasən qarında, başda, döş qəfəsində aparılan cərrahi problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analdeziya üsulunu ilk dəfə Topçubaşov kəşf etmişdir. – 101.

**109. Əfqanıstan,** Ə f q a n ı s t a n  İ s l a m  D ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabe olan mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 105,141,203,374.

**110. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzayi Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsinin nümayəndəsidir. – 105,374.

**111. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 109–112,139,209–210,260,283,300,375–376,390–397,410.

**112. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 109,110,111,112, 375–376,392,394,410.

**113. Ki-Uest** – ABŞ-ın cənub–şərqində, Florida ştatında şəhər. Əhalisi 29,3 min nəfərdir. Qış dəniz kurortudur. – 109,111,112.

**114. Mehri,** M e g r i– Ermənistan ərazisində azərbaycanlılar yaşayan ərazi. Tarixi mənbələrdə bu ərazi uzun müddət Azərbaycana məxsus idi. – 111,112,123.

**115. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 60 min nəfər. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 111,112.

**116. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz,

Şərur, Kəngərli) malikdir; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 112,113–195,247,248,297,312.

**117. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 114,115,137,148,152,153,155, 161,166–190.

**118**. **Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 117,118,180,280.

**119. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 $km^2$, əhalisi 146,9 min nəfərdir. – 121.

**120. Gəmiqaya təsvirləri** – Azərbaycanın Ordubad şəhərində Gəmiqaya dağlarında e.ə. III–I minilliklərə aid qayaüstü rəsmlər. 1968-ci ildə aşkar olunmuşdur. Axtarış nəticəsində insan və heyvan rəsmləri, rəqs səhnələri, yay və oxla keçi ovlanması səhnəsi, müxtəlif işarələr və s. aşkar edilmişdir. Gəmiqaya rəsmləri Azərbaycanın qədim təsviri sənətinin Naxçıvan mədəniyyətinə aiddir. – 122,174.

**121. Qobustan** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü təsvirlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit, dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 122.

**122. Səfərəli Babayev,** S ə f ə r ə l i  Y a q u b  o ğ l u (1923-2003) – coğrafiyaşünas. Coğrafiya elmləri doktoru, professor. Azərbaycan Respublikası Əməkdar elm xadimi. Əsas tədqiqatları Naxçıvan MR-in təbii şəraiti, landşaftı, təbiətinin mühafizəsi, toponomiyası və s.-nin öyrənilməsinə həsr

edilmişdir. Naxçıvan MSSR Ali Sovetinin, Naxçıvan MR Ali Məclisinin deputatı olmuşdur. – 122,126.

**123. Atabəylər dövləti** – Azərbaycanda Eldəgəzlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət ( 1136–1225). Azərbaycan atabəylər dövlətinin əsasını Azərbaycanın da bir vilayət kimi daxil olduğu İraq Səlcuq sultanlığının başçısı Şəmsəddin Eldəgəz qoymuşdur. Azərbaycan atabəyləri dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Aqqanı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır.

Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 123,313,314.

**124. Ziya Bünyadov,** Z i y a   M u s a   o ğ l u (1921–1997) – görkəmli Azərbaycan alimi, şərqşünas, ictimai xadim. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989–1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 123.

**125. Yusif ibn Küseyir türbəsi** – Azərbaycan memarlıq abidəsi. Naxçıvan şəhərindədir. Xalq arasında «Atababa türbəsi»də adlanır. Türbənin üzərindəki Kitabədə onun 1162-ci ildə memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikildiyi və orada dəfn olunmuş şəxsin adı (Yusif ibn Küseyir) göstərilmişdir. Abidənin gövdəsindəki flizdə (haşiyə) kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbə yeraltı hissədən və səkkizbucaqlı yerüstü gövdədən ibarətdir. Yeraltı hissə türbənin sərdabası, yerüstü hissə isə xatirə abidəsi olub, monimental xarakterlidir. Abidənin ikiqat örtüyünün daxili günbəzi çatma tağ, xarici günbəzi isə piramida şəklindədir. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii - memarlıq nümunəsidir. – 123,174.

**126. Qarabağlar türbəsi** – orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi. Naxçıvan Muxtar Respublikasının Qarabağlar kəndindədir. Türbədən başqa, burada qoşa minarə və onların arasında yerləşmiş

dini binanın qalıqları var. Qoşa minarənin XII əsrin sonu – XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştaq isə XIV əsrə aiddir. Baştağın üzərində Elxanı hökmdarı Hülaku xanın arvadı Quti xatunun (Qutuy xatun) adı yazıldığından onun Quti xatunun şərəfinə tikildiyi guman edilir. – 123,174.

**127. Əlincəqala,** Əlincə, Alancik, Alıncaqala – Naxçıvan MR-də qala. Əlincə çayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. Əlincənin adını tədqiqatçılar qədim türk dilində düzənlik mənasında işlədilən «alan» sözü ilə bağlayırlar. Əlincənin tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar qalanı təqribən 2 min il bundan əvvələ aid edir, digərləri isə Sasani padşahları zamanından (III–VII əsrlərdə) məlum olduğunu söyləyirlər. Əlincənin divarları Əlincə dağlarının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir.

Azərbaycan atabəyləri – Eldəgəzlərin hökmranlığı dövründə Əlincəqalanın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdi. – 123.

**128. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 123,146.

**129. Əvəz Ələkbərov** (d.1952) – iqtisadçı. Müxtəlif vaxtlarda – SSRİ Pensiya fondunun Azərbaycan şöbəsinin müdiri, Azərbaycan Respublikası Pensiya və Sosial Müdafiə Fondunun sədri işləmişdir. 1999–2006-cı illərdə Azərbaycan Respublikası Maliyyə naziri olmuşdur. – 125,187.

**130. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 130.

**131. Hüseyn İbrahimov** (1919–2008) yazıçı. Azərbaycan Respublikasının Xalq yazıçısı. Naxçıvan Yazıçılar Birliyinin sədri. Hüseyn İbahimov tarixi

və müasir mövzularda romanların müəllifidir. Naxçıvan MSSR Ali Sovetinin deputatı, Naxçıvan MSSR Ali Sovetinin sədri olmuşdur. Naxçıvan MR Ali Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 131.

**132. Naxçıvan Dövlət Universiteti,** Y u s i f  M ə m m ə d ə l i y e v  a d ı n a (NDU) – ali təhsil məktəbi. Naxçıvan MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq şöbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. –132, 173,247,248,312.

**133. İsa Həbibbəyli,** İ s a  Ə k b ə r  o ğ l u (d.1949) – ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü. Naxçıvan Dövlət Universitetinin rektorudur, Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 132.

**134. Mustafayev Kərəm,** K ə r ə m  N ə r i m a n  o ğ l u (d.1962) – hərbi xadim, general-leytenant. 1989–92-ci illərdə taqım, bölük komandiri, tabur komandirinin müavini və tabur komandiri olmuşdur. 1992-ci ildən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində tabur komanliri, motoatıcı briqadanın qərargah rəisi – komandir müavini, briqada komandiri, diviziya komandiri vəzifəsində xidmət etmişdir. 1998-ci ildən korpus komandiridir. – 133,138,156.

**135. Səfər Əbiyev,** S ə f ə r  A x u n d b a l a  o ğ l u (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 138,145.

**136. Cəmşid Naxçıvanski** (1895–1935) – hərbi xadim, briqada komandiri. Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, sücaətlə vuruşmuş, dördüncü dərəcəli «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdur. Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid xan inamla vuruşmuşdur. 1920-ci ilin martında

onun alayı Qarabağda daşnaklara qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) çevrilişindən sonra Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı kadr hazırlığında mühüm rol oynamışdır. 30-cu illərin axırlarında Cəmşid xan guya başçılıq etdiyi «casus təxribatçı dəstəsi» ilə mühacirətdə olan qardaşları (İran) ilə əlaqə saxlamaqda təqsirləndirilərək repressiya qurbanı olmuşdur. – 143–152.

**137. Suvorov Aleksandr** (1730–1800) – rus sərkərdəsi, rus hərb sənətinin banilərindən biri. Generalissimus . – 144.

**138. Naximov Pavel** (1802–1855) – rus donanma admiralı. – 144.

**139. Kəngərlilər** – qədim turk tayfası. Bəzi tədqiqatçılara görə kəngərlilər peçeneq tayfalarından olmuşlar. Səfəvilər dövründə ustaclı tayfasının tərkibində ölkənin siyasi həyatında fəal rol oynamışlar. XVII əsrdə Azərbaycan vilayətinə daxil olan Naxçıvan kəngərlilərin irsi torpağı idi. XVIII əsrin 2-ci yarısından etibarən Kəngərli hakimləri yüksək titullar daşımış və Azərbaycanın ən güclü xanlarından olmuşlar. Xanlıqlar dövründə kəngərlilərin bir qismi Qarabağa köçürülmüşdü. Kəngərlilər arasından bir sıra görkəmli ictimai-siyasi və hərbi xadimlər, elm və mədəniyyət xadimləri yetişmişdir. – 149.

**140. Bəhruz Kəngərli,** Bəhruz (Şamil) Şirəlibəy oğlu (1892–1922) – Azərbaycan rəssamı, boyakar və qrafik. Azərbaycan incəsənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması Kəngərlinin adı ilə bağlıdır. Onun portretləri canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə fərqlənir. Kəngərlinin yaradıcılığında mənzərə janrı mühüm yer tutur. Naxçıvanda ev muzeyi fəadiyyət göstərir. – 153–165,166.

**141. Şahbuz rayonu** – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək ərazisi əvvəl Naxçıvana, sonra Babək rayonuna verilmişdi. 1965-ci ildən yenidən müstəqil rayondur. Sahəsi 0,82 min km$^2$, əhalisi 21500 nəfərdir. –155,156.

**142. Azərbaycan Dövlət İncəsənət Muzeyi** – burada R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi nəzərdə tutulur. 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış və 1937-ci ildə açılmışdır. Muzeyin fondunda on minə qədər incəsənət əsəri qorunub saxlanılır. Ekspozisiyasında Azərbaycan, rus sənətkarlarının, Qərbi Avropa və Şərq ölkələrinin boyakarlıq, qrafika, heykəltəraşlıq və s. əsərləri nümayiş etdirilir. – 157.

**143. Əzim Əzimzadə,** Ə z i m  A s l a n  o ğ l u (1880–1943) – rəssam. Ə.Əzimzadə Azərbaycan təsviri sənətində tənqidi realizmin və realist qrafika sənətinin banisidir. Satirik qrafika, illüstrasiya, siyasi plakat, teatr-dekorasiya sahəsində fəaliyyət göstərmişdir. Əzimzadənin sənətkarlığı orijinal və çoxcəhətlidir. Onun təsvir üslubunda yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstünlük təşkil edir. – 158.

**144. «Molla Nəsrəddin»** – həftəlik, illüstrasiyalı ilk Azərbaycan jurnalı. Birinci nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə çapdan çıxmışdır. 1906–18-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922–31-ci illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə idi. 25 il ərzində 748 nömrəsi çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» xalq və demokratiya cəbhəsində duraraq azadlıq düşmənlərini – çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. Bütün təqib və təzyiqlərə baxmayaraq «Molla Nəsrəddin»in haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. «Molla Nəsrəddin»in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. – 158.

**145. Məmməd Cəfər Cəfərov** (1909–1992) – tənqidçi, ədəbiyyatşünas, nasir. Filologiya elmləri doktoru, professor. AMEA-nın akademiki. Azərbaycan Respublikasının Əməkdar elm xadimi. M.C.Cəfərov çağdaş Azərbaycan yazıçılarının yaradıcılığı haqqında ədəbi tənqidi məqalələrin, Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsinə həsr olunmuş əsərlərin, rus ədəbiyyatına, Azərbaycan – rus ədəbi əlaqələrinə dair təd-

qiqatların müəllifidir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 162.

**146. Cəlal Əliyev,** C ə l a l  Ə l i r z a  o ğ l u (d.1928) – bitki fizioloqu, elm təşkilatçısı, ictimai xadim. Azərbaycan Milli EA-nın akademiki, əməkdar elm xadimi, Rusiya Kənd Təsərrüfatı EA-nın həqiqi üzvü, Ukrayna və Belarus Aqrar EA-larının əcnəbi üzvü, Beynəlxalq Elmi İnkişaf Şurasının – Beynəlxalq EA Azərbaycan bölməsinin fəxri prezidentidir. Azərbaycan MEA-nın Botanika İnstitutunda məhsuldarlıq proseslərinin molekulyar- genetik əsasları şöbəsinin müdiri vəzifəsində çalışır. Azərbaycan MEA Rəyasət Heyətinin üzvüdür.

Azərbaycan Respublikası Milli Məclisinin (1995-ci ildən) deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 168.

**147. Culfa** – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal – şərqdə Ermənistan, cənubda İranla həmsərhəddir. Sahəsi 1,0 min km$^2$, əhalisi 37 min nəfərdir. – 173.

**148. Mömünə xatın türbəsi** – Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlıq incilərindən biri. 1186-cı ildə Naxcıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Mömünə xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında «Atabəy günbəzi» adı ilə qalmışdır. Abidənin baştağında küfi xətti ilə bu sözlər yazılmışdır. «Biz gedirik, ancaq qalır rizigar. Biz ölürük, əsər qalır yadigar». Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. – 174,313.

**149**. **Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri – XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Mömünə xatun türbəsini, böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 174,313.

**150. Vaqif Axundov,** V a q i f Ə l i b a l a o ğ l u (d.1950) – general-leytenant. 1993-cü ildən Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsinin rəisidir. – 175,398–409.

**151. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 193.

**152. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. –194,202–231,239,245,255,294.

**153. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 194,207, 337–341.

**154. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. – 196.

**155. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 196.

**156. Cibuti,** C i b u t i  R e s p u b l i k a s ı – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 22 min km$^2$, əhalisi 603,6 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibutidir. – 197.

**157. İsmail Ömər Cilli** (d.1947) – 1999-cu ildən Cibutu prezidenti. – 197.

**158. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 198.

**159. Mesiç Stipe** (d.1934) – hüquqşünas. 2000–08-ci illərdə Xorvatiya Respublikasının prezidenti. – 198.

**160. Sloveniya,** S l o v e n i y a  R e s p u b l i k a s ı – Mərkəzi Cənubi Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyandır. – 199.

**161. Milan Kuçan** (d.1941) – Sloveniya siyasətçisi və 1991–2002-ci illərdə Sloveniyanın birinci prezidenti. – 199.

**162. Mozambik,** M o z a m b i k  R e s p u b l i k a s ı – Cənub–Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 17,9 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Respublika Assambleyasıdır. Paytaxtı Maruti. – 200.

**163. Joakim Alberto Çissano** (d.1939) – 1986–2005-ci illərdə Mozambik Respublikasının prezidenti olmuşdur. – 200.

**164. Xatəmi,** S e y i d  M ə h ə m m ə d  X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 201,382,383.

**165. Ankara** – Türkiyənin paytaxtı. Kiçik Asiyanın ən qədim şəhərlərindəndir. VII əsrdə Frigiya padşahı Midas tərəfindən salınmışdır. XIV əsrin 1-ci yarısından Osmanlı imperiyasında paşalıq, sancaq və vilayət mərkəzi olmuşdur. 1923-cü ildən Türkiyə Respublikasının paytaxtıdır. – 202,231,235–293,300,310,321,331,387.

**166. Qars** – Cənub–Şərqi Türkiyədə şəhər. Qars ilinin inzibati mərkəzi. 70 minə yaxın əhalisi var. – 202,203,292–319,321,387.

**167. Məmməd Əliyev,** M ə m m ə d  N o v r u z  o ğ l u (d.1942) – fövqəladə və səlahiyyətli səfir, fizika-riyaziyyat elmləri doktoru. 1992–2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 204,244–254.

**168. Xeyrəddin Qoca,** Q o c a y e v  X e y r ə d d i n  S a y ə d d i n  o ğ l u (d.1950) – Azərbaycan jurnalisti. 1995–2000-ci illərdə Milli Məclisin deputatı, 1997–2002-ci illərdə isə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu olmuşdur. – 204.

**169. Şevardnadze** E d u a r d  A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 205–208,226,230.

**170. İsmayıl Cəm** (1940–2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997–2003-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. Türkiyə–Yunanıstan münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. – 211–215,321.

**171. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 216,226,229, 230,235–241,245,255–256,260,295,304,320,321,328.

**172**. **TRASEKA,** Transxəzər nəqliyyat dəhlizi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 219.

**173. Rumıniya –** Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 221–222,226,230,231.

**174. İon İliesku** (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. 1992–96-cı və 2000–04-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 221–222,226,230,231.

**175. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 225,289–291,298,301,302,310.

**176. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən

«Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 229,303.

**177. İhsan Doğramacı** (1915–2009) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidenti, 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 231,243,244–254,257–258, 321.

**178. Dövlət Baxçalı** (1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökumət yaratmışdır. Baş nazirin müavini olmuşdur. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 238,241,242,243,271–272,321.

**179. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 238,250,258,259,278,279,284,285,315,388.

**180. Bosfor** – Avropa ilə Kiçik Asiya arasında boğaz. Qara və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu təqribən 30 km, eni 750 m-dən 3,7 km-dək, dərinliyi ən dayaz yerdə 33 m-dir. Qara dənizdən yeganə çıxış yolu olan Bosforun mühüm iqtisadi və strateji əhəmiyyəti var. – 239.

**181. Hüseyn Qıvrıqoğlu** (d.1934) – Türkiyə hərbi xadimi, ordu generalı. Türkiyə Silahlı Qüvvələrinin Baş qərargah rəisi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 241,276–288,322,323.

**182. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 240,330,335,336,377–381.

**183. Ömər Eldarov,** Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 245,253,254.

**184. Füzuli,** Məhəmməd Süleyman oğlu (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 252,267,383.

**185. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 257,283, 300.

**186. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 260,283,300.

**187. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 267,296.

**188. Yunis İmrə** – türk dünyasının dahi sənətkarlarından biri. Oğuz ellərinin ilk böyük şairidir. Türk ədəbiyyatında ilk mütəsəvviflərdən biridir. Sufizm fəlsəfəsini sadə xalq dilində, əsasən heca vəznində yazdığı qoşmalarda, gəraylılarda, ilahilərdə, eləcə də əruz vəznində yaratdıtı qəzəl və məsnəvilərdə ifadə etmiş, özündən sonra yaranan Türkiyə, Azərbaycan və türkmən ədəbiyyatlarına güclü təsir göstərmişdir. Böyük xalq şairi və filosofu olan Yunis İmrənin həyatı əfsanələrlə doludur. O nə zaman yaşamış, harada yaşamış və nə zaman ölmüş – hələ də dəqiq məlum deyildir. Hətta məzarı belə, 9 yerdə göstərilir.

Son araşdırmalara görə, Yunis İmrə 1321-ci ildə yetmiş yaşında vəfat etmişdir. – 267.

**189. Rəşad Nuri Güntəkin** (1889–1956) – türk yazıçısı. Böyük Millət Məclisinin deputatı, Türkiyənin Fransada mədəniyyət işləri üzrə attaşesi, eyni zamanda Türkiyənin YUNESKO-da nümayəndəsi olmuşdur. «Xarabaların çiçəyi», «Çalıquşu», «Damğa», «Dodaqdan qəlbə», «Qovaq yelləri» və s. romanlarında Türkiyə həyatının geniş realist təsvirini vermişdir.

Əsərlərində sosial problemlər, ailə, şəxsiyyət və cəmiyyət münasibətləri mühüm yer tutur. – 267.

**190. Əbdül Haq Hamid Taphan** (1852–1937) – türk şairi, dramaturq. Türk ədəbiyyatında romantizmin banilərindəndir. Türkiyənin xarici ölkələrdəki səfirliklərində diplomatik vəzifələrdə çalışmışdır. Böyük Millət Məclisinin deputatı olmuşdur. Əbdülhəq Hamid türk ədəbiyyatında mənzum dramın yaradıcısıdır. – 268.

**191. Fuad Köprülüzadə,** K ö p r ü l ü M e h m e t F u a d (1890–1966) – türk filoloqu, publisist və tarixçi. Türkiyə Demokrat Partiyasının yaradıcılarından biri (1946). Türkiyənin Xarici İşlər naziri (1950–57) olmuşdur. Avropada türk ədəbiyyatşünaslığı məktəbinin yaranması Köprülünün adı ilə bağlıdır. İslam ensiklopediyasının nəşrində fəal iştirak etmiş, türk tarixi, ədəbiyyatı və mədəniyyətinə dair məqalələrin müəllifidir. Azərbaycan ədəbiyyatına, xüsusilə Füzuli yaradıcılığına həsr olunmuş əsərlər yazmışdır. – 268.

**192. Məsud Yılmaz (**d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri və Ana Vətən Partiyasının başqanı olmuşdur. – 273–275,321.

**193. Elçibəy,** Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-ci ilin iyunundan 93-cü ilin iyununa qədər Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 280.

**194. PKK** – burada əsasən Türkiyədə fəaliyyət göstərən senapatist, terrorçu Kürd Fəhlə Partiyası nəzərdə tutulur. – 291.

**195. 1877–1878-ci illərdə Rusiya–Türkiyə müharibəsi** zamanı Cənubi Ukrayna, Bessarabiya, Krım, Şimal–Qərbi Qafqaz, Qafqazın Qara dəniz sahili, Cənub–Qərbi Gürcüstan, Türkiyə Ermənistanının şimal hissəsi Rusiya tərəfindən işğal edildi. – 296,311.

**196**. **Kazım Qarabəkir Paşa** (1882–1948) – Türkiyənin görkəmli hərbi və dövlət xadimi. Ordu generalı. Atatürkün yaxın silahdaşlarından biri. Kazım

Qarabəkir Paşa Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Kazım Qarabəkir Paşanın da imzaladığı Qars müqaviləsində (1921) Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında muxtar ərazi kimi təşkil edilməsi dövlətlərarası səviyyədə razılaşdırıldı. – 297.

**197. «Kazım Qarabəkir Paşa» məscidi** – Naxçıvan şəhərində ibadətgah və memarlıq abidəsi. 1918–19-cu illərdə Naxçıvanın erməni təcavüzündən xilas edilməsində böyük şücaət və mərdlik göstərmiş, 1921-ci il Qars müqaviləsini imzalamış, M.K.Atatürkün silahdaşı, Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşanın şərəfinə Türkiyə Diyanət İşləri Vaqfi tərəfindən inşa edilmişdir. – 297.

**198. İrəvan,** Rəvan, Erivan, Yerevan – orta əsrlərdə və yeni dövrdə (1918-ci ilin mayın 29-dək İrəvan) Azərbaycan şəhəri. XVI əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır. İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşunlarının hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. İkinci Rusiya–İran müharibəsi (1826–28) dövründə Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya birləşdirildi. XIX əsrin 20–30-cu illərində İran və Türkiyədən köçürülmüş çoxlu erməni İrəvanda yerləşdirilmişdi. 1918-ci ilin mayında daşnaksutyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi iclasında İrəvan şəhərini «paytaxtı» olmayan Ermənistan Respublikasına güzəştə getdi. – 302.

**199. İsasultan Şahtaxtlı,** İsasultan Nəcəfqulu oğlu (1851–1894) – ziyalı, jurnalist, alim və ictimai xadim. 1875–87-ci illərdə Tiflisdə mətbuatda çalışmış, «Tiflisski vestnik» qəzeti səhifələrində aktual mövzulara dair bir sıra məqalələr dərc etdirilmişdir. İ.Şahtaxtlının almanaxda dərc olunmuş irihəcmli «Şərqin böhranı» məqaləsində Şərqin ictimai-siyasi və iqtisadi həyatına, xüsusilə Türkiyənin beynəlxalq münasibətlərinə dair maraqlı mülahizələr irəli sürülür. 1878-ci ildən ömrünün sonunadək Qars şəhərində inzibati işdə çalışmış, 1883-cü ildən «Kars» adlı həftəlik rus qəzetinin əməkdaşlarından olmuşdur. – 312.

**200. Venesuela Respublikası** – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km², əhalisi 22,3 milyon nəfərdir. Venesuela – federasiya 21 ştata bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar palatası və Senat). Paytaxtı Karakasdır. – 324.

**201. Hüqo Rafael Çaves Frias** (d.1954) – 1999-cu ildən Venesuela prezidenti. – 324.

**202. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9971 min km², əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 325,326.

**203. Jan Kretyen** (d.1934) – Kanada siyasətçisi, 1993–2003-cü illərdə Kanadanın Baş naziri olmuşdur. Kanada Liberal Partiyasının başçısı. – 325.

**204. Adriyenn Klarkson** (d.1939) – Kanada jurnalisti və siyasi xadimi. 1999–2005-ci illərdə Kanadanın general-qubernatoru olmuşdur. – 326.

**205. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km², əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 327.

**206. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 327.

**207. Dağıstan,** Dağıstan Respublikası – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km², əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 334.

**208. Məhəmmədəli Məhəmmədov** (d.1930) – Rusiya dövlət və siyasi xadimi. 1983–2006-cı illərdə Dağıstan Respublikasının müxtəlif məsul vəzifələrində çalışmış və 2006–2010-cu illərdə Dağıstan Dövlət Şurasının sədri olmuşdur. – 334.

**209**. **Başqırdıstan**, B a ş q ı r d ı s t a n  R e s p u b l i k a s ı – Ural dağlarının ətəklərində, Şərqi Avropanın Rusiya hissəsində respublika. Sahəsi 143,6 min $km^2$, əhalisi 4117 min nəfərdir. Paytaxtı Ufa şəhəridir. – 336.

**210. Anatoli Zlenko** (d.1938) – Ukrayna dövlət xadimi. İki dəfə – 1990–94 və 2000–2003-cü illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. – 338,339.

**211. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti. – 340.

**212. Ramil Usubov,** R a m i l  İ d r i s  o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 342–362.

**213. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 343.

**214. Pakistan,** P a k i s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min $km^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 363.

**215. Pərviz Müşərrəf** (d.1943) – 2001–07-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 363.

**216. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 370.

**217. Səddam Hüseyn** (1937–2006) – İraq dövlət, siyasi və hərbi xadimi. 1979–2003-cü illərdə İraq Respublikasının prezidenti, Ərəb Sosialist Dirçəliş Partiyasının Baş katibi və Silahlı Qüvvələrin Ali Baş Komandanı olmuşdur. 2003-cü ildə ABŞ İraqa qarşı genişmiqyaslı hərbi əməliyyata başladı və Səddam Hüseyn həbs edildi və 2006-cı ildə edam edildi. – 370.

**218. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 371.

**219. Alfred Molsiu (**d.1929) – Albaniya dövlət və siyasi xadimi. 2002-ci ildən Albaniyanın prezidentidir. – 371.

**220. Monqolustan,** M o n q o l u s t a n R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka, Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan Batordur. – 372.

**221. Natsagiyn Baqavandi** (d.1950) – 1997–2005-ci illərdə Monqolustan prezidenti. – 372.

**222. Bastiliyanın alınması** – Parisdə qala. 1370–82-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur. –375,390–397.

**223**. **«Siemens»** – alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektro-avadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 380.

**224. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 383,384,385,386.

**225. Zaqatala** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1348 $km^2$, əhalisi 109,3 min nəfərdir. – 393.

**226. Fransa Müqavimət Hərəkatı** – İkinci dünya müharibəsinin ilk günlərindən fransız vətənpərvərləri müqavimət hərəkatına qoşuldular. Müqavimət hərəkatında faşist həbs düşərgələrindən qaçmış hərbi əsirlər də iştirak edirdilər. Londonda Şarl de Qollun başçılıq etdiyi «Azad Fransa» (1942) təşkilatı yaradıldı. 1943-cü ildə isə Fransa Milli Azadlıq Komitəsi yaradıldı. Komitə Fransa ərazisini tam azad və respublika ərazisini bərpa etməyi qarşısına məqsəd qoymuşdu. Fransa milli komitəsinin rəhbəri Şarl de Qoll və A.Jiro idi. 1944-cü ildə FMAK Fransa Respublikasının müvəqqəti hökuməti adlandırıldı. – 397.

**227. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya

güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 398–409.

**228. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 398-409.

**229. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 398–409.

**230. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 398–409.

**231. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyid oğlu (d.1955) – iqtisadçı. 1993-cü ildən Qərb Universitetinin təsisçisi, prezidenti və rektorudur. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 398–409.

## Şəxsi adlar göstəricisi

**Abbasov Əli** – 88,92
**Abbasov Məmməd** – 169,170,181,182
**Abdinov Telman** – 153
**Abutalıbov Hacıbala** – 398–409
**Axundov Vaqif** – 175,398–409
**Akçar Sərpil** – 263–264
**Akçili Saim** – 225
**Akəngi Yəhya** – 265–266
**Anri** – 196
**Arroyo Qloriya** – 77
**Atatürk Müstafa Kamal** – 238,250,258,259,278,279,284,285,315, 388
**Ayrım Şamil** – 25
**Babayev Səfərəli** – 122,126
**Bağırov Hüseynqulu** – 398–409
**Baxçalı Dövlət** – 238,241–242,243,271–272,321
**Baqavandi Natsagiyn** – 372
**Behbudov Rəşid** – 101
**Berluskoni Silvio** – 20
**Bleyr Toni** – 23,78,108
**Bleyr Betti** – 16
**Bozər Yüksəl** – 242
**Buş Corc** – 28,29,74,81,333
**Bünyadov Ziya** – 123
**Cəfərov Məmməd Cəfər** – 162
**Cəm İsmayıl** – 211–215,321
**Cilli İsmayıl** – 197
**Çaxmaqoglu Sabahəddin** – 241,243
**Çakan Zəki** – 16,24–25
**Çakmak Fevzi** – 285
**Çeçelaşvili Valeri** – 215
**Çeyni Dik** – 25
**Çissano Joakim** – 200

**Çjanq Çanq Dak** – 26–27
**Dəmirəl Süleyman** – 225,289–291,292,298,301,302,310
**Dilaçar Akop** – 249
**Doğramacı Əli** – 244–254
**Doğramacı İhsan** – 231,243,244–254,257–258,321
**Ecevit Bülənd** – 25,291
**Elçibəy Əbülfəz** – 280
**Eldarov Ömər** – 245,253,254
**Elizabet II** – 84
**Eyyubov Yaqub** – 402
**Əbdül Qədir** – 374
**Əbilov İbrahim** – 235,238
**Əbiyev Səfər** – 138,145,152
**Ələkbərov Əvəz** – 125,187
**Ələkbərov Vahid** – 70
**Əlibəyoğlu Naib** – 293,294
**Əliyev Cəlal** – 168
**Əliyev Fərhad** – 21,185,384,398–409
**Əliyev Əlirza** – 190
**Əliyev Hüseynqulu** – 131
**Əliyev İlham** – 27,113,114,120,121,174
**Əliyev Məmməd** – 204,244–254
**Əliyev Rasim** – 148
**Əliyeva Nüşabə** – 131
**Əmirov Fikrət** – 101
**Əşrəfov Əşrəf** – 304
**Əzimzadə Əzim** – 158
**Frias Hüqo** – 324
**Füzuli Məhəmməd** – 252,267,383
**Gerlax Aksel** – 377–381
**Gəncəvi Nizami** – 31–74,83,267,383
**Gil Steyinar** – 19
**Göyyigit Nihad** – 225
**Güntəkin Rəşad Nuri** – 267
**Gur Yəhya** – 231,292
**Hamid Əbdül Haq** – 268
**Heyerdal Tur** – 18,19

**Həbibbəyli İsa** – 132
**Hitler Adolf** – 41
**Hote** – 42
**Hüseynxanqızı Mətanət** – 131
**Hüseynov Mikayıl** – 101
**Hüseynov Surət** – 63
**Hüseynzadə Lətif** – 161,309
**Xatəmi Məhəmməd** – 201,382,383
**Xeyrəddin Qoca** – 204
**İbrahimov Hüseyn** – 131
**İbrahimov Mirzə** – 101
**İliyesku İon** – 221–222,226,230,231
**İvanov İqor** – 36,37
**Kazım Qarabəkir Paşa** – 297
**Kəngərli Bəhruz** – 153–165,166
**Kərzai Həmid** – 105,374
**Klinton Bill** – 11
**Köçəryan Robert** – 33,74,192,193,195
**Körpülüzadə Fuad** – 268
**Klarkson Adriyenn** – 326
**Kretyen Jan** – 325
**Kuçan Milan** – 199
**Kuçma Leonid** – 69,223–224,226,230,338,373
**Qarayev Qara** – 101
**Qaya Nicati** – 305
**Qəniyev Sərvər** – 241
**Qıvrıqoğlu Hüseyn** – 241,276–288,322,323
**Qorbaçov Mixail** – 56–57,307
**Qribkov Nikolay** – 209–210
**Qrimsson Olavur** – 79
**Qrossman Mark** – 338
**Qulamov Tariyel** – 175,176
**Quliyev Vilayət** – 37,215,337–341
**Qökçək Məlik** – 242
**Lavrinoviç Aleksandr** – 411-412
**Lukaşenko Aleksandr** – 327
**Mehdiyev Əqil** – 131

**Mehdiyev Ramiz** – 398–409
**Menağarişvili İrakli** – 339
**Mesiç Stipe** – 198
**Məhəmmədov Məhəmmədəli** – 334
**Məmmədov Dövlət** – 190
**Mənn Stiven** – 28–30
**Molsiu Alfred** – 371
**Mustafayev Kərəm** – 133,138,156
**Mustafayev Vaqif** – 351
**Müşərrəf Pərviz** – 363
**Mütəllibov Ayaz** – 34
**Naxçıvanski Cəmşid** – 143–152
**Naxçıvani Əcəmi Əbubəkr** – 174–313
**Naximov Pavel** – 144
**Niyazi** – 101
**Oliver Maykl** – 106–108
**Özkök Hilmi** – 387–389
**Perina Rudolf** – 209–210
**Perne Üq** – 109–112,209–210
**Piriyev Əzim** – 351
**Pirverdiyev Etibar** – 398–409
**Polad Bülbüloğlu** – 37
**Puare Şantal** – 390–397
**Puşkin Aleksandr** – 40
**Putin Vladimir** – 26,29,31–74,75–76,81,82,83,206,329, 335,407
**Pyotr** – 40,46
**Rasizadə Artur** – 398–409
**Rəhimov İsmayıl** – 58
**Rəhimov Murtaza** – 336
**Rəhimov Süleyman** – 100
**Rəsul Rza** – 101
**Sarıtorpaq Vəli** – 261–262
**Sezər Əhməd Necdət** – 216,226,229,230,235–241,245,255–256, 260,295,304,320,321,328
**Səddam Hüseyn** – 370
**Suvorov Aleksandr** – 144

**Skelbred Brit** – 17–19
**Sübhanullahi Məhəmmədəli** – 382–386
**Süleyman Rüstəm** – 101
**Sürmen** – 109
**Stanislav Cozef** – 226
**Stratan Andrey** – 339
**Şahtaxtlı İsasultan** – 312
**Şevardnadze Eduard** – 205–208,226,230
**Şəhriyar Seyid Məhəmməd** – 383
**Şərifov Samir** – 107
**Şirak Jak** – 109,110,111,112,375–376,392,394,410
**Şröder Gerhard** – 379
**Şvimmer Valter** – 85
**Şvidkov Mixail** – 36,37
**Talıbov Vasif** – 114,115,137,148,152,153,155,161,166–190
**Ter-Petrosyan Levon** – 195
**Timofeyeviç Nikolay** – 81
**Tofiq Fikrət** – 268
**Topçubaşov Mustafa** – 101
**Tzsyan Tszemin** – 68
**Turhan Nevzat** – 293,294,305,319
**Uilson Brayan** – 23–23
**Usubov Ramil** – 342–362
**Ünal Rəcəb** – 245
**Üşənməz Şüayib** – 245
**Valduççi Mario** – 20–21
**Vardan Oskanyan** – 194
**Voronin Vladimir** – 340
**Vudvord Devid** – 15
**Yakunin Vladimir** – 50
**Yakovlev Vladimir** – 36,37,38,48,51,58,68
**Yılmaz Məsud** – 273–275,321
**Yunis İmrə** – 267
**Yusifzadə Xoşbəxt** – 15
**Zəki Paşa** – 282
**Zlenko Anatoli** – 338,339

## Coğrafi adlar göstəricisi

**Abşeron** – 407,408
**Afrika** – 380
**Albaniya** – 371
**Almaniya** – 240,330,335,336,377–381
**Amerika Birləşmiş Ştatları** –11,14,25,28–30,74,81,82,102,110,139,140, 206,209–210,214,260,283,300,333,338, 340,364–369
**Ankara** – 202,231,235–293,300,310,321,331,387
**Aralıq dənizi** – 225,226,229,239,245,303
**Asiya** – 11,53,218,220,380
**Astara** – 385
**Aşqabad** – 407
**Avropa** – 11,13,53,81,82,218,220,230,249,300,380, 381,385
**Babək rayonu** – 171,173
**Badamdar** – 402,406
**Bakı** – 5,6,7,8,12,14,18,19,20,23,24,28,42,55, 56,57,60,61,63,64,69,72,76,77,78,79,84, 85,87,105,108,118,120,121,124,126,127, 156,185,196,197,198,199,200,201,227, 228, 231,234,248,249,268,284,303,319, 321,324,325,326,327,328,329,331,333, 334,335,336,337,338,352,363,370,371, 372,373,374,376,377,378,383,384,387, 396,399,402,403,404,410,411
**Baltik dənizi** – 385
**Başqırdıstan** – 336
**Belarus** – 327
**Bəndər Abbas** – 385
**Biləsuvar** – 103
**Borçalı** – 71,302

**Bosfor (boğaz)** – 239
**Böyük Britaniya** – 22–23,78,84,106–108
**Braziliya** – 330
**Öuzovna** – 409
**Ceyhan** – 303
**Cənubi Qafqaz** – 73,207,213,215,341,367
**Cibuti** – 197
**Culfa** – 173
**Culfa (*İran*)** – 384
**Çin** – 53
**Dağıstan** – 334
**Dağlıq Qarabağ** – 31,33,43,48,52,67,74,75,82,102,111,112, 129,140,156,195,209,211,212,214,219,221, 223,233,240,248,256,258,259,271,274,277, 283,289,290,299,302,307,322,351,375,392
**Əfqanıstan** – 105,141,203,374
**Əliabad** – 129
**Ənzəli** – 385
**Ərdəbil** – 385
**Ərzurum** – 229,303
**Filippin** – 77
**Fransa** – 109–112,139,209–210,260,283,300,375–376,390–397,410
**Gəncə** – 46,63,121,248
**Göranboy** – 103
**Gülüstan** – 103
**Gürcüstan** – 9,11,205–208,226,228,230,239,323,339
**Həştərxan** – 385
**Hindistan** – 385
**Xəzər dənizi** – 5–6,7–16,29,30,32,38,43,48,53,67,70,73, 211, 218,223,225,226,227,228,229,230, 239, 245,256,303,383,407
**Xorvatiya** – 198
**İraq** – 370
**İran** – 72,73,140,201,382–386
**İrəvan** – 302
**İslandiya** – 79

**İstanbul** – 29,202–231,245,320,321,323,338,339,412
**İtaliya** – 20–21
**Kanada** – 325–326
**Keçili** – 173
Kərki – 129
**Ki-Uest** – 109,111,112
**Kiş** – 19
**Kiyev** – 59,69,338
**Koreya Respublikası** – 26–27,331
**Kürdçullu *(Nax.MR-də kənd*)**– 173
**Qafqaz** – 43,52,53,82,213,214,225,238,380,381
**Qara dəniz** – 9,218,225,226,228,229,239,245,320
**Qaraxanbəyli** – 173
**Qars** – 202,203,292–319,321,387
**Qazaxıstan** – 11,227,229,290
**Laçın** – 111,112
**Latın Amerikası** – 339,379
**Lənkəran** – 121
**London** – 106–108,312
**Los-Anceles** – 16
**Lüksemburq Hersoqluğu** – 196
**Maştağa** – 120
**Mehri** – 111,112,123
**Mərkəzi Asiya** – 225
**Miyanə** – 385
**Moldova** – 340
**Monqolustan** – 372
**Moskva** – 29,31,46,56,57,59,60,61,63,67,71,92,101, 108,150,182,278,307,351,352
**Mozambik** – 200
**Naxçıvan** – 57,113–195,301,302,307,308,309,310, 313,384,386
**Naxçıvan MR** – 112,113–195,247,248,297,312
**Nardaran** – 33
**Neva çayı** – 36,66
**Norveç** – 17–19
**Novorossiysk** – 228

**Nürgüt (*Nax.MR-də kənd*)** – 173
**Nyu-York** – 392
**Oman** – 385
**Ordubad** – 172,173
**Orta Asiya** – 291,295
**Özbəkistan** – 194,207
**Pakistan** – 363
**Pankisi** – 206
**Paris** – 107,110,111,112
**Parsabad** – 384,385,386
**Praqa** – 141
**Rumıniya** – 221–222,226,230,231
**Rusiya** – 26,31–74,75–76,80–83,97,110,139,206, 208,209–210,238,260,280,283,296,300, 329,335,385,407,412
**Sankt-Peterburq** – 31–74,75,82,83,312,385,407
**Sədərək** – 157
**Sumqayıt** – 383
**Sloveniya** – 199
**Supsa** – 9,228
**Şahbuz** – 155,156
**Şanxay** – 47,67
**Şəki** – 19,121
**Şəkərabad** – 173
**Şərqi Asiya** – 380
**Şərqi Azərbaycan** – 382–386
**Şərur rayonu** – 172,173,183
**Tbilisi** – 158
**Tehran** – 383,384,385
**Təbriz** – 383,384,385,386
**Türkiyə** – 11,24–25,97,140,157,194,202–231,328, 330–332, 387–389
**Ukrayna** – 69,207,223–224,226,230,323,338,340, 341,373,411–412
**Ural** – 59
**Uzaq Şərq** – 21,97
**Vaşinqton** – 392

**Venesuela** – 324
**Volqa çayı** – 385,386
**Yalta** – 338,341
**Yaponiya** – 53
**Yaycı** – 173
**Zaqatala** – 393
**Zəngəzur** – 123,146
**Zuğulba** – 407

# KİTABIN İÇİNDƏKİLƏR

«XƏZƏR NEFT-QAZ, NEFTAYIRMA VƏ NEFTKİMYASI–2002» IX BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*4 iyun 2002-ci il* .......... 5

«XƏZƏR NEFT-QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI – 2002» IX BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*4 iyun 2002-ci il* .......... *7*

NORVEÇ KRALLIĞININ NEFT SƏNAYESİ VƏ ENERGETİKA ÜZRƏ DÖVLƏT KATİBİ XANIM BRİT SKELBRED VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyun 2002-ci il* .......... *17*

İTALİYANIN ENERGETİKA, SƏNAYE VƏ İSTEHSAL NAZİRİNİN MÜAVİNİ MARİO VALDUÇÇİ İLƏ GÖRÜŞ

*4 iyun 2002-ci il* .......... *20*

BÖYÜK BRİTANİYANIN ENERGETİKA VƏ SƏNAYE NAZİRİ BRAYAN UİLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2002-ci il* .......... *22*

TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ QAYNAQLAR NAZİRİ ZƏKİ ÇAKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2002-ci il* .......... *24*

KOREYA RESPUBLİKASININ «SAMSUNQ ELEKTRONİKS» ŞİRKƏTİNİN MDB ÖLKƏLƏRİ VƏ BALTİKYANI ÖLKƏLƏR

ÜZRƏ NÜMAYƏNDƏLİYİNİN PREZİDENTİ ÇJANQ ÇANQ DAK BAŞDA OLMAQLA BU ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2002-ci il* ........................................ *26*

ABŞ PREZİDENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARININ İNKİŞAFI ÜZRƏ XÜSUSİ MÜŞAVİR SƏFİR STİVEN MƏNN BAŞDA OLMAQLA ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyun 2002-ci il* ........................................ *28*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ SANKT-PETERBURQA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*8 iyun 2002-ci il* ........................................ *31*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*8 iyun 2002-ci il* ........................................ *35*

DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*9 iyun 2002-ci il* ........................................ *37*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNLƏ TƏKBƏTƏK GÖRÜŞDƏ SÖHBƏT

*9 iyun 2002-ci il* ........................................ *45*

«SİVİLİZASİYALARIN DİALOQU» BEYNƏLXALQ ANDREY PERVOZVANNI MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*9 iyun 2002-ci il* ........................................ *50*

AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 iyun 2002-ci il* ........................................ *55*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ BU ÖLKƏDƏ İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*9 iyun 2002-ci il* ........................................................................ *66*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*10 iyun 2002-ci il* ........................................................................ *75*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPAQAL ARROYOYA

*10 iyun 2002-ci il* ........................................................................ *77*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ

*10 iyun 2002-ci il* ........................................................................ *78*

İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLAVUR RAQNAR QRİMSSONA

*10 iyun 2002-ci il* ........................................................................ *79*

RUSİYANIN MİLLİ BAYRAMI – RUSİYA FEDERASİYASININ DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA BƏYANNAMƏNİN QƏBUL EDİLMƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*12 iyun 2002-ci il* ........................................................................ *80*

BÖYÜK BRİTANİYANIN VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*12 iyun 2002-ci il* ........................................................................ *84*

AVROPA ŞURASININ BAŞ KATİBİ CƏNAB VALTER ŞVİMMERƏ

*12 iyun 2002-ci il* ........................................................................ *85*

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNƏ

*12 iyun 2002-ci il* ........................................................................................................ *86*

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN
70 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ
MƏRASİMDƏ NİTQ

*13 iyun 2002-ci il* ........................................................................................................ *88*

ƏFQANISTANIN KEÇİD HÖKUMƏTİNİN BAŞÇISI
ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*14 iyun 2002-ci il* ........................................................................................................ *105*

LONDON SİTİNİN LORD MERİ MAYKL OLİVER VƏ ONU
MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 iyun 2002-ci il* ........................................................................................................ *106*

ATƏT-in MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ,
FRANSA XARİCİ İŞLƏR NAZİRLİYİNİN KONTINENTAL
AVROPA DEPARTAMENTİNİN DİREKTORU ÜQ PERNENİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 iyun 2002-ci il* ........................................................................................................ *109*

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN
ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA
VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ QISA
MÜSAHİBƏ

*15 iyun 2002-ci il* ........................................................................................................ *113*

NAXÇIVAN OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ
AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*15 iyun 2002-ci il* ........................................................................................................ *115*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVAN
SƏFƏRİ

*17 iyun 2002-ci il* ........................................................................................................ *131*

NAXÇIVANDAKI «N» HƏRBİ HİSSƏSİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ NİTQ

*17 iyun 2002-ci il* ........................................................................ *133*

CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN NAXÇIVAN FİLIALINDA KURSANTLARLA GÖRÜŞDƏ NİTQ

*17 iyun 2002-ci il* ........................................................................ *143*

NAXÇIVANDA GÖRKƏMLİ RƏSSAM BƏHRUZ KƏNGƏRLİNİN MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*18 iyun 2002-ci il* ........................................................................ *153*

NAXÇIVAN MR ALİ MƏCLİSİNDƏ MUXTAR RESPUBLİKANIN DÖVLƏT HAKİMİYYƏT ORQANLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ

*18 iyun 2002-ci il* ........................................................................ *166*

YEKUN NİTQİ

*18 iyun 2002-ci il* ........................................................................ *179*

NAXÇIVANA SƏFƏRİNİ BAŞA ÇATDIRARAQ BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*19 iyun 2002-ci il* ........................................................................ *191*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*20 iyun 2002-ci il* ........................................................................ *196*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR CİLLİYƏ

*20 iyun 2002-ci il* ........................................................................ *197*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ

*20 iyun 2002-ci il* ........................................................................ *198*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTI ZATİ-ALİLƏRİ
CƏNAB MİLAN KUÇANA

*20 iyun 2002-ci il* ........................................................................................ *199*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB JOAKİM ALBERTU ÇİSSANOYA

*20 iyun 2002-ci il* ........................................................................................ *200*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

*22 iyun 2002-ci il* ........................................................................................ *201*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ
TƏŞKİLATININ ONİLLİYİ İLƏ ƏLAQƏDAR BU TƏŞKİLATIN
ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ
GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏNIN İSTANBUL
ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA
LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ QISA MÜSAHİBƏ

*24 iyun 2002-ci il* ........................................................................................ *202*

GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*24 iyun 2002-ci il* ........................................................................................ *205*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*24 iyun 2002-ci il* ........................................................................................ *209*

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CƏM İLƏ GÖRÜŞ

*24 iyun 2002-ci il* ........................................................................................ *211*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ
OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ
ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*25 iyun 2002-ci il* ........................................................................................ *216*

RUMİNİYA PREZİDENTİ İON İLİYESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*25 iyun 2002-ci il* ........................................................................................ 221

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*25 iyun 2002-ci il* ........................................................................................ 223

«ÜÇ DƏNİZİN ƏFSANƏSİ» KONFRANSININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*25 iyun 2002-ci il* ........................................................................................ 225

AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİNİN ŞƏXSİ HEYƏTİNƏ

*25 iyun 2002-ci il* ........................................................................................ 232

AZƏRBAYCAN RESPUBLİKASININ ANKARADAKI SƏFİRLİYİ ÜÇÜN TİKİLMİŞ BİNANIN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*26 iyun 2002-ci il* ........................................................................................ 235

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*26 iyun 2002-ci il* ........................................................................................ 242

BİLKƏND UNİVERSİTETİNDƏ İHSAN DOĞRAMACININ ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*26 iyun 2002-ci il* ........................................................................................ 244

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*26 iyun 2002-ci il* ........................................................................................ 255

TÜRKİYƏNİN NÜFUZLU İCTİMAİ TƏŞKİLATLARI VƏ VƏQFLƏRİ TƏRƏFİNDƏN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ YÜKSƏK MÜKAFATLARIN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*27 iyun 2002-ci il* ........................................................................................ 257

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI İLƏ GÖRÜŞ

*27 iyun 2002-ci il*........................................................................................................*271*

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ MƏSUD YILMAZ İLƏ GÖRÜŞ

*27 iyun 2002-ci il*........................................................................................................*273*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ İLƏ GÖRÜŞ VƏ ONA «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*27 iyun 2002-ci il*........................................................................................................*276*

TÜRKİYƏ RESPUBLİKASININ 9-cu PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞ ..........................................................................*289*

*27 iyun 2002-ci il*........................................................................................................*289*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*28 iyun 2002-ci il*........................................................................................................*292*

QARS ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*28 iyun 2002-ci il*........................................................................................................*294*

QARS ŞƏHƏRİNDƏ QAFQAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*28 iyun 2002-ci il*........................................................................................................*305*

QARS VİLAYƏTİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*28 iyun 2002-ci il* ......................................................................................................*316*

QARSDA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞ

*28 iyun 2002-ci il* ........................................ *318*

TÜRKİYƏDƏN İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*28 iyun 2002-ci il* ........................................ *320*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVES FRİASA

*29 iyun 2002-ci il* ........................................ *324*

KANADANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB JAN KRETYENƏ

*29 iyun 2002-ci il* ........................................ *325*

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM ADRİYENN KLARKSONA

*29 iyun 2002-ci il* ........................................ *326*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*29 iyun 2002-ci il* ........................................ *327*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*29 iyun 2002-ci il* ........................................ *328*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*29 iyun 2002-ci il* ........................................ *329*

TÜRKİYƏ MİLLİ YIĞMA KOMANDASININ FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATINDA ÜÇÜNCÜ YER TUTMASI MÜNASİBƏTİLƏ TƏBRİK

*29 iyun 2002-ci il* ........................................ *330*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*29 iyun 2002-ci il* ........................................ *333*

DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ
CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA

*1 iyul 2002-ci il* ........................................ *334*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*2 iyul 2002-ci il* ........................................ *335*

BAŞQIRDISTAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB MURTAZA RƏHİMOVA

*2 iyul 2002-ci il* ........................................ *336*

GUAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*2 iyul 2002-ci il* ........................................ *337*

«AZƏRBAYCAN POLİSİ GÜNÜ»NƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*2 iyul 2002-ci il* ........................................ *342*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*3 iyul 2002-ci il* ........................................ 363

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MİLLİ BAYRAMI –
İSTİQLALİYYƏT GÜNÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN
BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA
NİTQ

*4 iyul 2002-ci il* ........................................ *364*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SƏDDAM HÜSEYNƏ

*5 iyul 2002-ci il* ........................................ *370*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOLSİUYA

*5 iyul 2002-ci il*........................................................................................................ *371*

MONQOLUSTANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NATSAGİYN BAQABANDİYƏ

*5 iyul 2002-ci il*........................................................................................................ *372*

UKRAYNA PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA

*8 iyul 2002-ci il*........................................................................................................ *373*

ƏFQANISTAN DÖVLƏTİNİN BAŞÇISI
ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*8 iyul 2002-ci il* ....................................................................................................... *374*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

*8 iyul 2002-ci il*........................................................................................................ *375*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ DÖVLƏT KATİBİ
AKSEL GERLAXIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*9 iyul 2002-ci il* ....................................................................................................... *377*

ŞƏRQİ AZƏRBAYCAN OSTANDARI MƏHƏMMƏDƏLİ
SÜBHANULLAHİ BAŞDA OLMAQLA İRAN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyul 2002-ci il* ..................................................................................................... *382*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ QURU QOŞUNLARININ
KOMANDANI, ORDU GENERALI HİLMİ ÖZKÖKÜ VƏ
ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyul 2002-ci il*...................................................................................................... *387*

FRANSANIN MİLLİ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ
MƏRASİMDƏ NİTQ

*14 iyul 2002-ci il*...................................................................................................... *390*

AZƏRBAYCANIN ENERGETİKA SİSTEMİNDƏ BAŞ VERMİŞ QƏZA İLƏ ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*15 iyul 2002-ci il......................................................................................................... 398*

YEKUN NİTQİ

*15 iyul 2002-ci il......................................................................................................... 399*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

*15 iyul 2002-ci il ........................................................................................................ 410*

UKRAYNANIN ƏDLİYYƏ NAZİRİ ALEKSANDR LAVRİNOVİÇ VƏ NAZİRLİYİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 iyul 2002-ci il......................................................................................................... 411*

AZƏRBAYCAN DÖVLƏT NEFT FONDUNUN MÜŞAHİDƏ ŞURASININ BİRİNCİ İCLASINDA NİTQ

*16 iyul 2002-ci il......................................................................................................... 413*

*QEYDLƏR*...........................................................................................

*Şəxsi adlar göstəricisi*.............................................................................

*Coğrafi adlar göstəricisi*..........................................................................

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 32,0.
Uçot vərəqi 32,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ев 3.
«Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.